AZAD MİRZƏCANZADƏ

# İXTİSASA GİRİŞ

**Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti**

- 9815 -
Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Qanun - 2010

Az 2

**Tərcümə edəni:** texnika elmləri doktoru, prof. **Nəbi Yaqubov**

**Rəyçilər:** BDU-nun Pedaqogika və psixologiya kafedrası; BDU-nun dialektik materializm kafedrası; Azərb. SSR EA-nın akademiki, fəlsəfə elmləri doktoru, prof. **A.M.Aslanov**

**Tərcümənin rəyçisi:** fəlsəfə elmləri doktoru, prof. **İ.Ə.Rüstəmov**

**Elmi redaktoru:** Azərb. SSR EA-nın akademiki, fəlsəfə elmləri doktoru, prof. **F.K.Köçərli**

**Azad Mirzəcanzadə.**
İXTİSASA GİRİŞ. Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti. Bakı: Qanun, 2010, 432 səh.

Kitabda elmin müxtəlif sahələrinin inteqrasiyası problemlərinə, o cümlədən dəqiq və humanitar elmlərin qarşılıqlı əlaqəsi məsələlərinə toxunulur. öz yaradıcılıq imkanlarını – fiziki, emosional və intellektual qabiliyyətlərini səfərbər etməklə çətinlik çəkən tələbələrə və gələcək peşə sahiblərinə gərəkli məsləhətlər verilir.

Ali texniki məktəblərin tələbələri üçün nəzərdə tutulmuş dərs vəsaitindən geniş oxucu kütləsi də istifadə edə bilər.

Q $\frac{1203021300}{AB\ 022051}$

Az 2

© «Azərbaycan dilinə tərcümə, əlavələrlə», Bakı Universiteti nəşriyyatı, 1990
© Qanun – 2010

## ÖN SÖZ

Əziz oxucu!

Siz, ənənəvi elmi şərh üslubundan qeyri – adi tərzdə fərqlənən bir kitab açırsınız. Bu kitabda ədəbiyyat və incəsənət, fəlsəfə və psixologiya, sistem nəzəriyyəsi və modelləşdirmə, elmi tədqiqatların təşkili və təhsil məsələlərinin müxtəlif problemləri müzakirə olunur. Kitabı oxuduqca səthi nəticələr çıxarmağa tələsməyin. Sizin rəyiniz o vaxt nisbətən tam və dolğun olacaqdır ki, həqiqətən bu kitabı diqqətlə, sətir – sətir oxuyacaqsınız. Bu isə o qədər də böyük zəhmət tələb etmir.

Kitab mədəniyyətin, texnikanın və təbiətşünaslığın tarixinə, bəşəriyyətin bu günü və gələcəyinə dair işıqlı fikirlərə aid dolğun faktlarla, ciddi nəticələrlə bəzədilmiş aydın və bədii dillə yazılmışdır; müasir elmi məlumatlar ardıcıllıqla və yerində şərh olunur.

Kitabda verilən məlumatın zənginliyinə heyrət etməmək olmur. Onu qeyd etmək vacibdir ki, burada müxtəlif məlumatların fövqəladə zənginliyi vahid struktur bütövlüyünə tabedir.

Bu bütövlük, aşkar sürətdə təqdim olunmasa da,dəqiq bir nöqteyi – nəzərlə bağlı şəkildə müəllifin dərin elmi və metodoloji konsepsiyasını müəyyən edir. Müəllif oxucunu təhrik etmədən inandırır ki, insan fəaliyyətinin müxtəlif sahələrində (elmdə, incəsənətdə, mühəndislik peşəsində)dərin vəhdətli invariant əlamətlər mövcuddur.

Texnika və dəqiq elmlərin humanitarlaşdırılması zəruriyyəti kitabın leytmotivini təşkil edir (insan fəaliyyətinin əhatə etdiyi bütün bilik sahələrinin humanitarlaşdırılması olduqca zəruridir). Əslində müəllif klassik elmi idealı olan, varlığın "xalis obyektiv" tədqiqi (subyektdən təcrid olunmaqla) konsepsiyasını tənqid edir. Bu isə tamamilə əsaslandırılmış nöqteyi – nəzərdir. İnsan amili ("idrakın subyekti") yeni fizikada (nisbilik nəzəriyyəsi, kvant mexanikası) nəzərə alındığı kimi, texniki elmlər sahə-

sində də nəzərə alınmalıdır. Bu meyl, insanın təbiətlə dialektik əlaqəsində dünyanın maddi vəhdətinin müəyyən ifadəsi olmaqla, müasir elmin inkişafında yeni fəlsəfi mahiyyət kəsb edir. Elmin və əməli fəaliyyətin inkişafı insanı, onun həyat şəraitini və fəaliyyətini texnikanın, ekologiyanın və başqa elmlərin problemlərinə nüfuz etməyə sövq edir. Müəllifin bu ümumi idrakı düyümü təhsil və kadr hazırlığı problemlərilə bağlı olaraq, əməli surətdə daha əhəmiyyətli istiqamətə səmtlənir.

Elmlərin bir-birində inikası problemləri və eyni zamanda gələcək mühəndislərin şəxsiyyət kimi formalaşmasında elmi və bədii təfəkkürün qarşılıqlı təsiri kitabın ana xəttini təşkil edir. Burada da çox dərin bir düyarlıqla göstərilir ki, hər bir mütəxəssis üçün arzu olunan ümumi yüksək mədəniyyət yalnız sosial əhəmiyyət daşımır, bu həm də onun məqsədyönlü inkişafı prosesində ehtiyac duyduğu yaradıcılıq prosesi üçün zəruri atributdur.

Doğrudan da, hazırda, elmin inkişafı elə dərinləşir ki, bu, ixtisaslaşmanın və gerçəklik predmetlərinin təcrid olunmuş şəkildə tədqiqinin zəruriliyini meydana atır. Digər tərəfdən, elmin inkişafı universal dialektik təfəkkür metodlarının köməyilə, hadisələr arasında bütün üzvi əlaqələr dolğunluğu ilə nəzərə alınmaqla baş verir. Dar ixtisaslaşma prosesində, bütün digər ciddi çətinliklərlə yanaşı, qavranılmış hadisələr və faktlara qarşı tədqiqatçının təfəkkür tərzinin adaptasiyası meydana gəlir. Bu hadisənin təbiəti hələ kifayət qədər aydınlaşdırılmamışdır. Buna baxmayaraq, heç şübhə yoxdur ki, artıq "təfəkkür tərzinə" çevrilmiş birtərəfli yanaşma metodu, cubyekt ətalətinin qnoseoloji əsasını, yəni onun keyfiyyətcə müxtəlif məsələlərin həllinə həp hansı metodun və ya prinsipin doqmatik tətbiq olunması meylini yaradır. Əgər nəzərə alsaq ki, "şablon təfəkkür tərzi" nəinki təkcə işlənmiş nəzəriyyənin "müstəsnalığına" və orijinallığına təsir edir, əksinə, çox vaxt onu "problematik şəraitlərdə" müəyyən məsələlərin həllində tətbiq etmək olmur. Bu halda mühafizəkar meyllərin dəf olunmasının aktuallığı aydın olur.

Elmi-texniki fəaliyyət sahəsində psixoloji ətalətin təsirini kənar etmək qarşılıqlı olaraq biri digərini tamamlayan iki yolla mümkündür. Bunların hər ikisi aşağıdakı ilkin şərtdən alınır: psixoloji ətalət tərbiyənin nəticəsidir və burda fərdin təfəkkur tərzi, onun öyrənmə (ixtisasını) xüsusiyyətlərilə, obyektə idraki münasibəti arasında əlaqə mövcuddur. Birinci yol – şəxsiyyətin hərtərəfli inkişafı, onun elmi və mədəni səviyyəsini



hər vasitə ilə genişləndirməklə öz yaradıcılıq imkanlarını səfərbər etməsidir. Ikinci yol – tədqiqat qruplarına müxtəlif ixtisaslı adamların cəlb olunmasıdır.

Elmin tarixindən məlumdur ki, tədqiqat qruplarını təşkil edən fərdlərin müxtəlif "təfəkkür üsullarının" qarşılıqlı təsiri, təfəkkür proseslərini hərəkətə gətirən və onları keyfiyyətcə yeni tədqiqatlara istiqamətləndirən özünəməxsus dinamik qüvvədir. Dərk olunmalı obyektin hər hansı cəhətini, hər biri özünəməxsus əks etdirən "müxtəlif" fikirlər şəraitində, yeni biliklərin generasiyası yaranır.

Həmin mənada bu kitaba istənilən ixtisasa giriş kimi baxmaq olar. Hər bir peşə hazırlığı, "şablon təfəkkür" problemini həll etməyin başlıca vasitəsindən – şəxsiyyətin hərtərəfli inkişafından başlanmalıdır.

Elmi-texniki inqilabın (elə bütövlükdə təcrübənin də) geniş vüsət aldığı və qlobal problemlərin kəskinləşdiyi müasir şəraitdə texnikanın inkişafı, həm bu günün real şərtlərinə cavab verən, həm də gələcəyin mənafeyinə uyğun gələn orijinal və yaradıcı təfəkkür tələb edir.

Təqdirəlayiqdir ki, bu kitabın müəllifi çoxşaxəli, dərin monoqrafiyaları və elmi əsərləri ittifaqımızın və dünyanın geniş elmi ictimayyətinə çoxdan məlum olan görkəmli alim, Azərbaycan SSR Elmlər Akademiyasının akademiki Azad Xəlil oğlu Mirzəcanzadədir.

Hidrodinamika, neft və qaz laylarının fizikası, dağ süxurları mexanikası sahəsində onun fundamental elmi tədqiqatları nəinki ölkəmizdə, hətta bütün dünyada çoxdan məlumdur. O, məsaməli mühitdə ikifazalı qatışığın hərəkəti nəzəriyyəsini yaradanlardan biridir. Onun rəhbərliyi altında çoxfazalı və çox komponentli sistemlərin hidrodinamikasının olduqca mürəkkəb riyazi modelləşdirmə məsələləri, neftçıxarma prosesinin kompleks optimallaşdırılması problemləri yüksək səmərəliliklə həll edilir.

Akademik A.X.Mirzəcanzadə həm də gözəl pedaqoqdur. Onun yazdığı "Neft və qaz yataqlarının işlənməsi və istismarı", "Neft layının fizikası", "Neft-mədən işlərində rəqslər nəzəriyyəsi" və bir çox digər dərsliklər tələbələrin, neftçi mühəndislərin, geoloqların stolüstü kitablarıdır. Professor A.X.Mirzəcanzadənin rəhbərliyi altında 250-dən çox elmlər namizədi və doktorluq dissertasiyaları hazırlanmış və müdafiə edilmişdir.

Bu kitabın yazılması akademik A.X.Mirzəcanzadənin ümumi və yüksək mədəni səviyyəli peşəkar mütəxəssislər hazırlanmasına hərtərəfli qayğısının ifadəsidir.

Eyni zamanda bu, elmi və texniki yaradıcılığın incəliklərinə dərindən bələdliliyin, təbiətşünaslığın fəlsəfi problemlərilə ətraflı tanışlığın, fövqəladə istedadın, əsl ziyalılığın sübutudur.

Tədris vəsaiti, bizim fikrimizcə, nəinki təkcə xüsusi elm sahələrinin gələcək mütəxəssisləri üçün faydalıdır, bu, həm də geniş oxucu kütlələrinin elm, incəsənət, təbabət, musiqi, ədəbiyyat və onların qarşılıqlı əlaqəsi sahəsində dərin marağına səbəb olacaqdır.

**F.K.Köçərli**
*Azərbaycan SSR EA-nın*
*akademiki*



Damla dənizdə yaxşıdır,
Damlasız dəniz olmaz.
Damla sahilə düşsə,
qumlarda pünhan olar.
Ayrılmasa, qüvvəti
sonsuzdur, sonsuz.

***R.Rza***

# GİRİŞ

"İxtisasa giriş" kursu üzrə təqdim olunan bu tədris vəsaiti, ümumiyyətlə bu cür elmi tədris ədəbiyyatları tərtib etmək sahəsindəki ənənəvilikdən fərqli olaraq bir qədər qeyri-adi şəkildə yazılmışdır.

Gənc mütəxəssislərdə yaradıcılıq inkişafını ləngidən modelləri "dağıtmaq" sahəsində hazırda müəyyən təcrübə toplanmışdır. Pensilvaniya (ABŞ) universitetinin nəzdində istehsalat rəhbərlərini – mühəndisləri, əgər belə demək mümkünsə, humanitarlaşdıran institut yaradılmışdır. Onlara dünyagörüşlərini daha da genişləndirmək üçün sosiologiya, psixologiya, ədəbiyyat, tarix, tibb və biologiyanın müasir problemlərindən mühazirələr oxuyurlar. Məşğələlər qurtardıqdan sonra hər bir məzuna müəyyən bədii ədəbiyyat nümunələrindən birini yazılı təhlil etmək təklif olunur. İş əvvəlcə yavaş və çətin gedir. Texniki peşə sahiblərində bir növ süstlük, vərdiş etdikləri mühəndis kateqoriyalarından kənara çıxa bilmək meylləri müşahidə olunur, lakin sonu müvəffəqiyyətlə nəticələnir. Belə ki, onların inşaları ədəbi əsərlərin dərin təhlili, surətlərin aydınlığı, müqaisəli ifadə tərzi və istifadə edilmiş materialların genişliyi ilə fərqlənir.[1]

[1] Humanitar elmlər təkrarolunmaz, müstəqim ricət metodlarıdır. Onlar sadəcə olaraq qəbul və qeydetmə qaydalarını yox, eyni zamanda hadisələrin obrazını yaratmağı, onların quruluşuna və mahiyyətinə varmağı, şifahi yarlıq vurmağa tələsmədən bunların mənasını axtarmağı öyrədir.

İstehsalat rəhbərləri təlimdən sonra öz müəssisələrinə qayıtdıqda adətən daha böyük maraq və həvəslə işləyir, qarşıda duran məsələləri daha cəsarətlə həll edir və rastlaşdıqları hər bir problemə daha dərindən nüfuz etməyi bacarırlar.

Çox guman ki, təsnifatlar, modellər, anlayışlar, elmin inkişaf qanunları haqqında və s. bu kimi məlumatların əhəmiyyəti heç kəsdə şübhə yaratmır.

Eyni bir obyektiv prosesin və hadisənin müxtəlif təhlil metodları real sistemlərin və onlara uyğun real şəraitlərin bir-birindən tamamilə fərqlənən konsepsiyalarının yaranmasına gətirib çıxara bilər. Əyanilik üçün belə bir mühakiməyə müraciət edək. Arxitektor evə, onun elektrik, qızdırıcı və su təchizatı ilə birlikdə sistem kimi baxır. İstilik texnikası mühəndisi isə qızdırıcıya qapalı bir sistem, evə isə onu əhatə edən mühit kimi baxmaqda haqlıdır.

Sosiopsixoloq evə ailəni əhatə edən bir mühit, həmin ailəyə özünün tədqiqat obyekti kimi baxa bilər. Onun üçün qızdırıcı və elektrik sistemləri arasındakı əlaqə, ola bilsin ki, o qədər də əhəmiyyət kəsb etməsin, lakin bu əlaqə arxitektor üçün əhəmiyyətli ola bilər. Müxtəsər, öyrənilən sistemlər və onu əhatə edən mühit və onlar arasındakı sərhədi müəyyənləşdirərkən olduqca səliqəli və dəqiq olmaq lazımdır.

İki nəfər bənna haqqında dillərdə dolaşan ibrətamiz bir hekayət mövcuddur. Bənnaların biri "nə ilə məşğulsan?" sualına belə cavab verir: "Əl arabası ilə daş daşıyıram". O biri bənna isə həmin suala"Şartr məbədini (zəngin heykəltəraşlığa malik XII – XIII əsr qotik məbədi) tikirəm!" – cavabını vermişdir. Aydındır ki, ikinci bənnanın cavabı daha dolğun və daha məzmunludur, çünki o, öz əməyini son məqsədlə bağlayır.

Əmək, bütövlükdə əlbir xarakterdə olur. Əkinçilikdə Yeni Qvineya papuaslarının kollektiv əmək prosesini N.Mikluxo-Maklay belə təsvir edir: "Cərgəyə düzülmüş bir neçə kişi, ucları sivrilmiş ağacları yerə dərin sancaraq, bir təkanla çimbiz parçasını qaldırırlar. Bunların dalınca dizləri üstə sürünən qadınlar gəlir. Qadınlardan sonra əlləri ilə çimbiz parçalarını ovxalayan müxtəlif yaşlı uşaqlar



gəlir. Torpaq narınlaşdırıldıqdan sonra qadınlar balaca çubuqların köməyi ilə oyuqlar açır, toxumu və ya bitki köklərini həmin oyuqlara basdırırlar".

Hər hansı bir əsərin yaranması vahid və ardıcıl prosesdir.

Çox təəssüf ki, belə hallar da olur:

Dərk etmək istəyib real əşyanı,
Aydın bilik alıb öyrənmək üçün,
Alimlər əvvəlcə qovub gumanı,
Bölürlər əşyanı, fikirdə çin-çin.
Lakin, çox təəssüf: elə bu zaman
Üzvi əlaqələr, o hissələrçin
Dərhal itib-batır, çıxır aradan.*

*İ.V.Höte*

30-cu illərdə L. Bertalanfi sistem təhlili ideyasını irəli sürdü. Bu ideyanın da mənası obyektin xassələrini onun hissələrinin xassələrinə əsasən öyrənmək cəhdindən ibarət idi.

Tədqiqat obyektinə sistem kimi baxıla bilməsi üçün o, aşağıdakı tələbləri ödəməlidir.

1. Obyekt (tam) altsistemlərdən (hissələrdən) ibarət olmalıdır.

2. Altsistemlərin bir sistem halında birləşməsi məsələnin dürüst qoyuluşuna (tədqiqat məqsədinə) kömək etməlidir.

3. Sistemdəki altsistemlərin qarşılıqlı əlaqəsini təyin edən xassə mövcud olmalıdır.

4. Sistem böyük sistemin bir hissəsi (altsistemi) olmalıdır.

N.N.Moiseyevin dediyi kimi – "Sistemli təhlil – elektron hesablama texnikası və müasir məlumat ölçü sistemlərindən istifadə etməyə əsaslanan tədqiqat metodlarının məcmusudur".

Hər bir böyük sistem müvəqqəti gecikmələrlə, qeyri-müəyyənliklər, səs-küylə və s. xarakterizə olunur. Bununla belə altsistemlərdən təşkil olunmuş böyük sistem elə bir əsas xassəyə malikdir ki,

* işarələrilə qeyd olunmuş şer parçalarını dilimizə kitabın tərcüməçi çevirmişdir.

konkret qərarlar qəbul edərkən buraxılan səhvlər *sistemin normal* fəaliyyətinə təsir göstərmir.

*Dediklərimizi* əyani şərh etmək üçün min detaldan ibarət saat düzəldən iki saatsaz haqqında maraqlı bir əhvalata nəzər yetirək. Saatsazlardan biri saatı ardıcıllıqla yığır və hər hansı səbəbdən fasilə verirsə, o, bütün əməliyyatı *lap əvvəldən* başlayır. İkinci saatsaz saatın bütöv konstruksiyasını 10 hissəyə və hər hissəni isə yenə də 10 hissəyə bölüb yığır. Beləliklə, 10 kiçik hissədən bir böyük hissə, 10 böyük hissədən isə saat yığılıb başa çatır. Bu halda işdə fasilə ehtimalı 0,01-ə bərabər olarsa, onda birinci saatsaz saatın yığılmasına ikinci saatsaza nisbətən 20 000 dəfədən çox vaxt sərf edəcəkdir.

Böyük sistemlərin əsas keyfiyyətlərindən biri də onların emercentliyidir (emergence – ink. yeninin əmələ gəlməsi, yaranması), yəni sistemin elementlərinin məlum müşahidə olunan xassələrindən və onların birləşmə üsullarından alınmayan və yalnız böyük sistemin özünə xas olan tam mühafizlik xüsusiyyətidir. Odur ki, böyük sistemin emercentliyinə əsasən onun ancaq elementlərini və bunlar arasındakı əlaqələri öyrənməklə kifayətlənmək olmaz. Bu halda sistemin bütöv təhlili zəruridir.

Eşbinin "zəruri çoxnövlülük" prinsipinə əsasən, nəticədə müxtəliflik azdırsa, bunu daha da *azaltmaq, yalnız müxtəlifliyi uyğun* olaraq artırmağın hesabına mümkündür.

*Obrazlı desək,*müxtəlifliyi ancaq müxtəliflik məhv edə bilər.

Burada söhbət kafi müxtəliflikdən yox, zəruri müxtəliflikdən gedir. Əgər hər bir yeni gün əvvəlki günlərə oxşamırsa, onda adam böyük həyat tərzi müxtəlifliyi əldə edir. *Deyilənlərdən heç də o* çıxmır ki, istədikdə hər bir problemi dərhal həll etmək olar. Elmi problemləri həll etmək üçün zəruri şərtdən – müxtəliflikdən başqa bir çox özgə şərtlər də lazımdır: müəyyən bilik səviyyəsi, təfəkkürün dərinliyi və gücü. Bu müxtəliflik olmadan tədqiqat öz-özlüyündə nəticəsizdir. Problemin belə həlli boş fikirlər yığınından ibarət müxtəliflik yaradır.

Ümumi sistemli mülahizələr qabaqcadan söyləməyə imkan verir ki, şərtlər müxtəlifliyinin və düşüncə gücünün uyğunluğu tədqiqat işlərində çox faydalıdır. İnformasiyanın çox vaxt "yekrəngliyin pozulması" kimi qiymətləndirilməsi təsadüfi deyil.

Məlumat kompleksi bütövlük effektinin tətbiqinə əsaslanaraq kollektiv "müdriklik" rolunu yerinə yetirə bilir. Sistemin inkişafında bir çox görkəmli mütəxəssislər iştirak edə bilər. Sistem aşkarlıq alqoritmindən istifadə edərək, yeni və səmərəli olanları yerbəyer edər.

Beləliklə, maşınların həll edə biləcəyi çoxlu problemlər var.

Sübut etməyə ehtiyac yoxdur ki, hər bir adam müəyyən "sərvətlər sisteminə" malik olmalıdır və buna riayət olunması həmin adamın həyatını daha mənalı və daha məqsədyönlü edir. Bu da təbiidir ki, sistem hər bir şəxsin həll edəcəyi məsələnin xarakterindən və həmin adamın şəxsiyyətindən asılı olaraq müxtəlif ola bilər.

Üç yüz il əvvəl Tomas Braun yazırdı: "Çox heyrətamizdir ki, milyonlarla insanlar arasında eyni iki nəfərə rast gəlmək mümkün deyil".

> Bir deyil aləmə nəzərlərimiz,
> Hər bir şəxs haqlıdır, öz baxışında.
>
> **İ.V.Höte**

Son zamanlar K.Leonqard şəxsiyyətin tipoloji təsnifatını aşağıdakı kimi təklif etmişdir. Bu təsnifatda şəxsiyyətin əsas tipləri aşkar şəkildə bir-birindən ayrılır; yəni əsas elementlərin bir növ qammaları yaradılır. Sonra isə yarım əlamətlər, mümkün olan ahəngdarlıqlar və modulyasiyalar tədqiq olunur.

Bunlarla yanaşı çılğınlığın müxtəlifliyini tədqiq etmək, dünya bədii ədəbiyyatında ədəbi surətlərdə şəxsiyyəti öyrənmək də çox maraqlı hesab olunur. İ.S.Turgenevin, Ç.Dikkensin, H.Floberin və bir çox qüdrətli yazıçıların əsərlərində çox dərin psixoloji çarpışmaların mahiyyəti sənətkarlıqla açılır.

Tipoloji şəxsiyyət problemi baxılan şəraiti və şəxsiyyəti bir sistem kimi səciyyələndirən və sistem parametrlərinin sabit uyğunluğuna əsaslanan sistemin köməyi ilə həll oluna bilər. Lakin indiyə qədər belə növləşdirmə mövcud deyildir. *Buna görə şəxsiyyətin* bütün parametrlərini nəzərə almadan (ancaq çox təəssüf ki, bəzi tibb

alimləri bunun əksini qəbul etməyə meyl edirlər) təklif olunan "sistem tədqiqatı" heç də həmişə fayda vermir. Bu cür təkliflər yalnız bir fərd üçün faydalı olanı hamıya şamil edir; məsələn, kim ki, tövsiyə verir, ona.

Kimsə zarafatla demişdir ki, Qafqazda məclisin masabəyi adam haqqında yox, adamlıq haqqında danışır. "Ümumiyyətlə, adamlıq haqqında öyrənmək, xüsusi bir adamı öyrənməkdən olduqca asandır", – dedikdə Laroşfuko haqlıdır.

Yeni dövrün filosofları insanı mürəkkəb dilli (klavişli) musiqi alətinə oxşatmışlar. Yazışı V.Levi insan orqanizminin inkişafını ahəngli simfoniya ilə müqayisə edir: gen növü – partitura, sosial mühit – dirijor və auditoriya kimi qəbul olunur.

Onu da deyək ki, İ.A.Bunindən fərqli olaraq, A.P.Çexov heç vaxt insanı, ümumiyyətlə, bütün dövrlərə uyğun təsvir etməmişdir.

Sistemli təhlildə şəxsiyyət mürəkkəblik parametrlərinə görə təsvir olunmalıdır. Əhatə olunduğu ictimai və təbii mühitin müxtəlif təzahürlərinə reaksiyası həmişə, demək olar ki, eyni cür olan "sadə" şəxsiyyətlərə çox tez-tez rast gəlmək olur. Ətraf mühitə reaksiyası müxtəlif olan "mürəkkəb" şəxsiyyətlər də mövcuddur. İnsan böyüyüb inkişaf etdikcə, kifayət qədər məşq və inkişaf etmiş bədən quruluşuna (əzələ, ciyər, ürək) və əsəb sisteminə malik olmalıdır. Əsəb sisteminin məşqi ən əvvəl insanın ətraf mühitə reaksiyasının müxtəlifliyinin artması və onun mürəkkəblik səviyyəsinin yüksəlməsi deməkdir. Buna insanın həyat ritminin kifayət qədər mürəkkəb olduğu hallarda nail olmaq mümkündür. Qədimdə insanın maksimal inkişaf səviyyəsinə çatdığı vəziyyətə "akme" (çiçəklənmə, yüksək tərəqqi) dövrü deyirdilər. İnkişaf prosesi rejimə ciddi əməl olunmasını tələb edir, çünki bu, əsəb sisteminin qarşısında duran məsələləri sadələşdirir. Təbiidir ki, tədricən rejim daha da ciddiləşdirilməlidir, nəinki əksinə. Rejim dedikdə hər hansı əsas əlamətin təsirinin bərabər zaman intervalında təkrar olunması nəzərdə tutulur. Görünür bu, şübhəsizdir. Lakin buna baxmayaraq, ətraf mühitə reaksiyası çox müxtəlif olan adamlar adətən rejimə dözə və ya əməl edə bilmirlər. Bu heç də onların səhhətinə, sağlamlağına təsir etmir.



Məsələn, gerontoloqların bəzilərinin müşahidə və tədqiqatlarına əsasən uzunömürlülərin əksəriyyəti lap kiçik yaşlarından rejimə əməl etməyən adamlardır. Dediklərimiz bir daha Hötenin aşağıdakı fikrini təsdiq edir: "Təbiətin yaratdıqlarının hamısından ən heyrətamizi insan şəxsiyyətidir".

Adamların xüsusi və fərdi xassələrinin böyük müxtəlifliyinə baxmayaraq, psixoloqlar insan şəxsiyyətinin əksəriyyəti üçün ümumi olan bir neçə tipoloji xüsusiyyətləri təyin etməyə müvəffəq olmuşlar. Bunlar aşağıdakı əlamətləri ilə səciyyəvidir:

Birinci tip – təsəvvürlərdən daha çox qavrayışlara meyl edən ekstravert şəxsiyyətdir. Bu tipə mənsub olan adamlar ətrafdakıların və xarici stimulun təsirinə tez məruz qalırlar. Onlar çoxlu məlumat və təəssürat almaq mümkün olan yerlərdə olmağı sevirlər. Belə adamlara səthi düşüncə tərzi hakimdir ki, bu da onların sadəlövhlüyünü göstərir. Xarici qıcıqlandırıcılara qarşı reaksiyanın bilavasitə nəticəsi qeyri-iradilikdir (impulsivlik).

İkinci tip – ən çox öz şəxsi təsəvvürləri ilə yaşayan introvert şəxsiyyətlərdir. Belə adamlar düşüncələrə dalmağa meylli olub, hər cür fəaliyyətə az hazırdırlar.

Ekstravertlərdən adətən görkəmli idmançılar, kolleksiyaçılar, səyyahlar yetişir. İntrovertlərin çoxu musiqiyə, rəssamlığa və ədəbiyyata həvəs göstərir (Толстых А. В. Две версии. «Медицинская газета», 6. 08.83).

İnsan elə xəlq olunmuş varlıqdır ki, çox vaxt onun fiziki və mənəvi möhkəmliyinə təəccüb edirsən. Doğrudan da, çox nazik və zərif insan dərisi, bədənin bütün hissələrini qidalandıran nazik qan damarları, əzələlər nə qədər möhkəmliyə malikdirlər? Necə olur ki, onlar uzun illər öz möhkəmliyini saxlaya bilir?

Molyerin "Don Juan"ında Sqanarel insanının nə qədər məqsədəuyğun xəlq olunduğuna heyran qalır. Əl-qolunu yellətmək istəyir – yellədir, sağa getmək istəyir – sağa gedir və s. İnsana... "Bir qadın üçün olduğu kimi – bir millət üçün də əfvedilməz bir səhvdir ki, özünə təsadüfən rast gələn bir macərapərəst tərəfindən zorlanmasına yol verən bir dəqiqəlik diqqətsizlik göstərmiş olsun." (Marks K., Engels F.Seçilmiş əsərləri. 1ç., s. 411).

Müstəqillik insan üçün zəruri şərtlərdəndir, yəni Dalın izahlı lüğətində deyildiyi kimi "Qəti əqidəyə malik olan adam, səbatsız ola bilməz".

Təqdim olunan bu vəsaitdə, kifayət qədər informasiya olmadığı şəraitdə qəti həll qəbul edilməsiylə baxılan məsələdə başlıca amillərin üzə çıxarılması ilə, keyfiyyət və kəmiyyət təhlili əsasında yaradıcılıq qabilyyətinin psixodiaqnostikası ilə, incəsənət nümunələrinin və elmi əsərlərin qiymət meyarı ilə və s. bağlı məsələlər şərh və izah olunur.

Qeyd olunan problematik və bəzən də adi görünən məsələlər və onların şərhi, həlli və izahı hazır və mükəmməl informasiya sisteminə əsaslanmır. Lakin bunlardan istifadə etməklə bir çox mürəkkəb məsələləri həll və ya izah etmək olar.

"Hazır əqidəni nə lütfkar tanışlardan soruşmaq, nə də kitab köşkündən almaq olmaz. Əqidə hökmən hər kəsin öz beynində, şəxsi düçüncə və faliyyət prosesində yaranmalıdır" (Pisarev D.İ.).

Kitabın şərhi, necə deyərlər, "alabəzək" (mozaik) xarakter daşıyır və bu, mürəkkəb problemlərlə və sadə məsələlərlə, hazırda hamını məşğul edən "insan – ətraf mühit" problemlərinin üzvi surətdə qarşılıqlı əlaqəsinin ehtivasıdır.

Şərhdə müəllif, "kumulyasiya" (toplama) metodundan istifadə edir. Eyni bir məsələ müxtəlif paraqraflarda müxtəlif mövqedən şərh olunur.

Bu məsələlər əsas etibarı ilə aşağıdakılarla əlaqədardır:

1.Fərasətə, istedada, müdrikliyə, məntiqə malikolma qabiliyyətinin təyin edilməsi ilə;

2. Öyrətmə prosesinin və yaradıcılıq imkanlarının diaqnostikasının müzakirəsi ilə;

3. Qərar qəbuletmə ilə və s.

Müəllifin fikrincə, qəbul olunmuş şərh metodu "təkrar – biliyin anasıdır" kəlamına uyğun olaraq, şərh olunan məsələlərin mənimsənilməsinə kömək edə bilər.

Bir çox məsələlər heç də ən qısa şəkildə şərh olunmur; çünki təqdim olunan vəsaitdə hansı düşüncə tərzini bu və ya digər nəticəyə gətirə biləcəyini göstərməyə müəyyən dərəcədə cəhd olunur. Əlbəttə, bu cəhətdən çox da uzağa getmək arzu olunmur. Belə ki, məlum olan nə varsa, hamısını çap eləmək olmaz. Onu da qeyd etmək lazımdır ki, biz bütünlükdə insan təbiəti haqqında Meçnikovun məsələlərin hamısını, xüsusi olaraq "İnsan təbiəti haqqında etudlər" kitabında nəzərdən keçirilən kimi şərh etmək iddiasında deyilik.

V.Mayakovski "Şeiri necə yazmalı" məqaləsində yazır: "Poeziyada poetik işin başlanğıcı üçün ancaq bir neçə ümumi qayda var. Elə bu qaydaların özündə də xalis şərtilik var. Şahmatda olduğu kimi. İlk gedişlər demək olar ki, eynidir[1]. Lakin sonrakı gedişdən sonra siz dərhal eyni hücumun gedişini düşünməyə başlayırsınız. Hazırki şəraitdə edilən ən dahiyanə gediş sanrakı partiyada təkrar oluna bilməz. Rəqibi ancaq gedişin gözlənilməzliyi çaşdırır". Daha sonra: "Poeziyada təlim – müəyyən və ya məhdud poetik bir şeyin hazırlanması yox, hər cür poetik iş üsullarının, eyni poetik əsərlər yaratmaq üçün poeziya vərdişlərinin öyrənilməsi deməkdir".

Mayakovskidən gətirilən yuxarıdakı fikirləri bu vəsaitdə şərh olunan məsələlərə də şamil etmək olar.

Kitabda çox məşhur olan və geniş oxucu kütləsinə o qədər də tanış olmyan elm və mədəniyyət xadimlərinin familiyalarına tez-tez rast gəlinir.

Kitabın sonunda familiyaların qısa xülasəsi verilmişdir (təbii ki, onların hamısını əhatə etmək mümkün deyil). Burada əksəriyyətə məlum olan və az tanınmış familiyalara rast gəlinir. Siyahıdaki familiyalar adda-budda, bəzən də stoxastik olaraq tərtib olunmuşdur.

Müəllif ümidvardır ki, lazım gəldikdə oxucu lüğətlərə, məlumat kitablarına müraciət edəcəkdir. Xüsusən, "Советский энциклопедический словарь" («Советская енциклопедия» nəşriyyatı, M., 1985); Y.Vaynkop, İ.Qusin – "Краткий биографический словарь композиторов» ( "Музыка" nəşriyyatı, 1 buraxılış, L., 1967);

[1] Birinci gediş üçün ağların iyirmi imkanı var. Qaraların cavab gedişindən sonra mümkün mövqelərin təhlil tələb edən sayı dörd yüzə qədər artır. Ağların və qaraların ikinci gedişlərindən sonra təhlil olunması gedişlərin sayı 72 minə, üçüncüdən sonra isə 9 milyona çatır. "Şpiqel" jurnalı hesablamışdır ki, 10-cu gedişdən sonra mümkün mövqelərin sayı 1,69519. $10^{29}$-a bərabər olur.

Y.A.Xramov – "Fiziki" ("Наука» nəşriyyatı, M., 1983); A.N.Boqolyubov – "Математики и механики" ("Наукова думка" nəşriyyatı, Kiev 1983); Dlammarion 26, rue Racine Paris (6e). Dictionnaire usuel illustre, 1981.

Mən öz oxucularıma zəngin faktlar, maraqlı hadisələr, dərin fikir və zəka kəşfləri şərh etməyə hazıram; bu şərtlə ki, siz də bunları oxumaq üçün öz idrakınızı səfərbər edəsiniz. Mən heç kəsi nə cür və nə təhər olur-olsun inandırmağa və öz əqidəsini dəyişdirməyə çalışmıram. Elə zənn etmirəm ki, hamı mənim burda söylədiyim dünyagörüşlərinin və əqidələrin hamısı ilə razılaşacaqdır. Lakin nəzərdə tuturam ki, kitabın ümumi qayəsi kütləvi xarakter daşıyır. Müəllifin əsas məqsədi isə oxucularında dərin və narahat maraq oyatmaq, məlumatlarını zənginləşdirmək və onları düşünməyə dəvət etməkdir. Oxucunun düşüncə və dünyagörüşünə etibar etməmək və inanmamaq – bədbəxtlikdir. Bilmək lazımdır ki, ünvan sahibinə inanmırsansa, ona heç nə yazma və göndərmə. Beləliklə:

Lütfən, düşəlim yola...
Səfərin sonunda görəcəyik ki, biz
Əvvəlkindən artıqdır bildiklərimiz*
*H.X.Andersen.* "Qar kraliçası"



## § 1. İNSANA ZƏRURİ OLAN KEYFİYYƏTLƏRİN MİNİMUMU HAQQINDA

"Ən böyük zərurət – insanları sevməkdir".
***İndira Qandi***

İnsana çox şeymi lazımdır? Bu suala A.P.Çexov "Krıjovnik" hekayəsində öz qəhrəmanının dili ilə belə cavab verir:

"İnsana nə üç arşın torpaq, nə də malikanə lazımdır; ona bütöv yer kürəsi, bütün təbiət lazımdır ki, onun sonsuz genişliyində öz azad ruhunun xassə və xüsusiyyətlərini tam təzahür etdirə bilsin".

Atalar "Yaşamağına yaşa, sərvət də yığ" dedikdə sərvəti mal, mülk, əşya yığını kimi nəzərdə tutmamışlar. Burada sərvət – elm, bilik, dünyagörüşü kimi qəbul olunur.

Viktor Hüqo yazır ki, şairə elmdən, təcrübədən və intuisiyadan[1] gələn üç keyfiyyət lazımdır. Bu fikri başqa bir yozumla belə də ifadə etmək olar: bilikdən, duyğudan və təsəvvürdən ibarət açarla istənilən könülü aşmaq olar.

Dünyanın ən məşhur skripkaçılarından biri – Frits Kreysler demişdir: "Musiqi istedadı məndə anadangəlmədir. Musiqi təlimi ilə qeyri-iradi (instinktiv) olaraq, əlifbanı öyrənməzdən əvvəl tanış idim".

Luçano Pavarotti yazır: "Mənim özümə gəldikdə, onu deməliyəm ki, oxumağımın 50 faizi intellektin, 50 faizi isə intuisiyanın işidir" (Музыкальная жизнь, № 16, 1986).

Doğrudur, intuisiya və ya duyum, əslində instinktiv təfəkkür üçün özəl, dərk olunmamış təcrübədir. Ona görə də fikir və təsəvvür

[1] İntuisiya – latın sözü olub, duyma, sezmə, düşünmə deməkdir.

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

arasında dəqiq sərhəd qoymaq çətin ki, mümkün olsun. Görünür, mahiyyət ondadır ki, adam bir şeyə cavab tapanda, bu prosesi məntiqi olaraq dərk etmir.

Nahaq demirlər ki, "İnformasiya intuisiyanın anasıdır". İntuisiya çox vaxt adama ondakı məlumatları, həmin məlumatlardan birbaşa alınmayan nəticədən ayıran uçurumdan "tullanmağa" imkan verir.

Təbiidir ki, burada təfəkkür nəinki beynin özünün hələ o qədər də aydın olmayan hər hansı mexanizminə, eyni zamanda informasiyaya – insanın əməli prosesində yaranmış təcrübəyə əsaslanır. Heç şübhəsiz ki, burda insanın dünyada baş verən hadisələri müşahidə və dərketmə qabiliyyəti böyük rol oynayır. Nəticədə öz müşahidələrini müəyyən qaydada qruplaşdırmaq və nizama salmaq vərdişi yaranır. Bax elə bunu "sağlam düşüncə" adlandırırlar. Laplasın bir kəlamını xatırlamaq yerinə düşərdi: ehtimal – dəqiqləşdirilmiş sağlam düşüncədir. Riyaziyyat, sağlam düşüncədən heç də az etibarlı deyildir, – desək yerinə düşər. Belə ki, Q.Birkqofun dediyi kimi, riyyaziyat, ümumi sərhədi fiziki intuisya ilə əhatə olunmuş mühakimələri nizama salmaq üçün əhəmiyyətlidir.

Deyirlər ki, hər şeydə "sağlam düşüncə" axtarmağın özü elə yenidənqurmadır.

Məlum həqiqətdir ki, bilik inkişafa yol açır. Lakin bilik də təcrübə, staj kimi qısa müddətdə qiymətdən düşə bilər. Odur ki, biliyi zamanın tələbinə uyğun olaraq həmişə təzələmək və inkişaf etdirmək labüd bir zərurətdir. Həm də bu yeniləşmə və təzələnmə texnikanın inkişafını qabaqlaya bilən bir templə baş verməlidir. Çünki gənclikdə aldığımız bilik yalnız bazadır, bu baza isə daim zənginləşmək tələb edir. Hər bir mütəxəssis üçün fasiləsiz olaraq öyrənmək həyati ehtiyacdır. Bir sözlə, bilik də, texnika kimi müasirləşdirilməlidir və yeniliklərlə zənginləşməlidir.

Deyilənlər həyat təcrübəsinə də aiddir. Çünki həyat, təcrübəsi qablaşdırılaraq sonuncu stansiyaya yola salınan yük bağlısı deyildir. Həyat təcrübəsi keçmiş üçün yox, gələcək üçün toplanır. Bir sərkərdə demişdir ki, keçmiş – hədəfə tuşlanmış tapança kimi istənilən vaxt açıla bilər. Yüzilliklərin zirvəsindən başlanğıcı görməyi öyrənmək lazımdır. Teyyar de Şardenin dəqiq təbirincə desək "gələcəyi qəribə xəyallarla ahəngdar olaraq görüşə dəvət etmək əlahiddə bir bacarıqdır". Kozma Prutkov deyir: "Hal-hazır – keçmişin nəticəsidir, ona görə də öz diqqətini yorulmadan geriyə yönəlt. Bununla özünü bağışlanılmaz səhvlərdən qoruyarsan".

Həndəsi obrazları düzgün qavramaq və həndəsi anlayışlar yaratmaq üçün çoxlu təcrübi vərdişlər lazımdır.

Deyilənlər onunla təsdiq olunur ki, anadan kor doğulanlarda yetkin yaşlarında cərrahi əməliyyatla görmə hissi qabiliyyəti yaratdıqda, ilk anlarda kubu kürədən fərqləndirmək üçün əvvəlcə onu əllərilə yoxlayırlar.

Qədim Romada avqurlar – quş dili bilən kahinlər quşların uçuşuna əsasən müəyyən hadisələri əvvəlcədən xəbər verirdilər. Tarixin yaddaşında belə bir söz var: "Keçmişə əsaslanıb gələcəyi görmək".

Biz tamamilə hal-hazırın hakimiyik. Belə ki, evdən çıxarkən istədiyimiz istiqamətdə gedə, tramvaya minə bilərik və s.

Gələcək üzərində isə hökmranlığımız azdır. Bu halda biz bir neçə gediş qabağa baxmağa çalışan şahmatçıya bənzəyirik. Bütün gedişləri əvvəlcədən görmək, həm də onları həyata keçirmək qeyri-mümkündür. Çünki şərait bizdən güclü ola bilər, yəni şərait bizim arzumuzla hesablaşmaya bilər. Lakin bunun özündə, gedişlərdən hansını seçmək sərbəstliyi var.

Bütün bunlarla yanaşı keçmiş dəyişilməzdir, sabitdir.

Keçmişlərdən nə varsa, hamısı: işıqlısı və xeyirxahı da, acısı və şirini də həmişəlik özümüzlədir. Yaddaş insana xeyirxah əməllərinə görə mükafat, ya da islah olunmaz səhvləri üçün əzablı cəza kimi verilmişdir.

Hadisələrin qabaqcadan hiss olunması, duyulması və s. – antitsipatsiya adlanır. Bu sözü Höte Ekkermanla söhbətində işlətmişdir: "...antitsipatsiya yalnız şairin istedadına yaxın olan məziyyətlərə şamil edilə bilər".

Keçmişi əla təhlil edən və gələcəyi kifayət qədər səhih görə bilən bəzi adamlar hazırkı hadisələr və bugünkü çətinliklər qarşısında aciz və köməksiz qala bilərlər. Şübhəsiz ki, burada M. Qorkinin sözü yerinə düşür: "Keçmişin karetində heç hara gedə bilməzsən".

Müasir insan isə keçmişi diqqətlə təhlil etmək əsasında, hal-hazırda qəti qərar qəbul etməyi və gələcəyi irəlicədən düzgün görməyi bacarmalıdır. Sabaha və o birisi günə aydın baxmağı bacarmamaq xoşagəlməz hallara gətirib çıxara bilər.

"Dünən"lə "sabah"ın arası – "bu gün"
Sənə verilibdir, sənindir bütün.
Dünənki məğrurluq – sabaha salam
"Bu gün"də xoş gündür, deməli, tamam.*
*(A.M. Kuzin)*

Keçmişə vaxtaşırı dönüb baxdıqca hər dəfə onun dərslərindən ibrət alır, təcrübələri öz anlamımıza çevirib, müasirliyi saf-çürük edirik, keçmişin mənasına dərindən dalaraq gələcəyin mənasını duyuruq. (Certsen A.İ.).

İngilislərin əqidəsinə görə, keçmiş məlumat kitabı rolunu oynamalıdır ki, hal-hazırda səmtini seçə biləsən.

Deyirlər ki, tarix – müasirliyin anasıdır.

M.P.Musorqski 1872-ci ildə "Boris Qodunov" operasının tamaşasından sonra belə yazmışdır: "Keçmiş – hal-hazırda – budur mənim məqsədim".

"Keçmiş haqqında, özünü bu gündən keçmişə aparmaqla yox, keçmişi bu gündən görməklə yazmaq lazımdır" (B.Şklovskiy).

L.N.Tolstoy "Nikolay Palkin" məqaləsində yazır: "Biz niyə xatırlayaq" deyirik?... Niyə açıqlandıraq xalqı?... – Necə niyə xatırlayaq? Əgər məndə fəna və ya təhlükəli xəstəlik vardısa və mən müalicə olunub qurtarmışamsa, mən sağaldığımı həmişə sevinclə xatırlayacam. Mən ancaq və ancaq o vaxt xatırlamayacam ki, xəstəyəm, xəstəliyim davam edir və şiddətlənir, istəyirəm ki, özümü aldadıb ovunduram..."

Tarixin yaddaşı möhkəm olmalıdır ki, onun lap cüzi ədalətsizliyi belə, gələcəkdə təkrar olunmasın.

Bir zamanlar Fransa kralları Burbonlar haqqında deyirdilər ki, onlar heç nəyi yaddan çıxarmadılar və heç nə də öyrənmədilər.



Yaponların "...geçmiş və gələcək yoxdur, yalnız hal-hazır mövcuddur" məsəli və Şeyx Şamilin "Kim aqibət haqqında fikirləşirsə, ondan igid çıxmaz" mühakiməsi ilə heç də həmişə razılaşmaq olmaz. Lakin qeyd olunanlar bəzi hallarda yeganə düzgün qərar ola bilər.

Deyirlər ki, xoşbəxtlik irəliyə baxır və oradadır onun zənginlikləri. Bədbəxtlik isə hardan gəlmişdir ora – keçmişə boylanır. Belə də demək olar ki, xoşbəxtlik keçmişlə, bədbəxtlik isə gələcəklə müəyyən olunur.

Bunu da demək lazımdır ki, əzab və əziyyətin ağırlığı və müddəti ilə müqayisədə şadlığın sevinci və müddəti daha davamlıdır.

Keçmiş müasirliyə daxildir, gələcək isə yaddaşın köməyi ilə – zamana və ölümə üstün gələrək keçmişlə birləşmiş indiylə proqnozlaşdırılır.

Keçmişə müraciət – müasir mədəniyyətin ümümi qanunlarındandır.

M.Qorki yazırdı: "V.İ.Lenin hal-hazırda gələcəkdən baxa bilirdi və bunu bacarırdı... – Mənə belə gəlir ki, o, bunu ona ona görə edə bilirdi və bacarırdı ki, o öz böyük qəlbinin yarısı ilə gələcəyi yaşayırdı; onun dəmir təki sərt, lakin çevik məntiqi uzaq gələcəyi bütün təfərrüatı və reallığı ilə görürdü" (В.И.Ленин и М.Горкий, Письма, воспоминания, документы . Из-ние 3, 1969, с. 351).

Yaddaşsız adam – adətən naşükür, məsuliyyətsiz və vicdansız olur. Xalqın tarixi yaddaşı həmin xalqın yaşadığı əxlaqi-mənəvi mühiti formalaşdırır.

Yaddaşın əxlaqi tərbiyyəsi – ailə yaddaşının formalaşması ilə üzvi surətdə əlaqədardır. Əcdadların qəbrinə, ruhuna hörmət və ehtiram bir əzəli borcdur.

Sönməzdir sevgimiz ata qəbrinə,
Bir də babaların ocaq yerinə.
Ən çox bu iki hiss doğmadır bizə,
Onlarıdır can verən qəlblərimizə.
Ey müqəddəs ocaq, – ey dərin məna
Sənsiz bir ölüdür bu böyük dünya.*
*(A.S. Puşkin)*

Bəzi məzarlara diqqət və qayğı göstərilməsinə baxmayaraq Bakının köhnə qəbiristanlıqlarında nizamsızlıq hökm sürür. Burada çox az müddətdə yöndəmsizləşmiş yol "labirinti" əmələ gəlmişdir. Bunu "qeyri-adi arxitektura" (Korbuzyenin təbirincə) adlandırmaq olar.

Akademik D.S.Lixaçovun fikri diqqətəşayandır.

"Qəbirüstü abidələr dünyadan köçənlərin xatirələrini əbədiləşdirmək kimi müqəddəs bir hörməti təcəssüm etdirir. Qəbiristanlığa gələnlər unudulmuş adları oxuyarkən müəyyən dərəcədə "həyat müdrikliyi" dərsi alırlar. Bir çox qəbiristanliqlar özünəməxsusluqları ilə şairanədir. Buna görə də tənha məzarların və qəbiristanlıqların rolu "mənəvi sakinlik tərbiyəsində çox böyükdür".

Bilin ki, əcdadına hörmətsizlik vəhşiliyin və mənəvi puçluğun ilkin əlamətidir (Puşkin A.S.). "Yad olunan və xatırlanan mərhumlar, sanki ölməmişlər" (Meterlinq. "Синяя птица»").

Cavanlıqda adama elə gəlir ki, onun keşmişi yoxdur, ancaq indisi və gələcəyi var. Onu, ömrün qayığı zaman axınının dalğaları üzərində gəzdirir, fəqət məlum deyildir ki, bu üzgüçünü elə birinci döngədə nələr gözləyir, o isə heç yana baxmadan arxayın-arxayın üzür, hey üzür...

Şair S.Orlov gəncliyi belə təsvir edir:

Gənclik tükənməyən nemətdir, solmaz,
Onu öz yolundan saxlamaq olmaz.
O, Korçaginlərin qəlbində qaynar.
Bütün könüllərdə o tutmuş qərar*

Gənclik şəxsiyyətin fiziki, sosial inkişafı üşün zənginlikdir. XIX yüzillikdə və XX yüzilliyin əvvələrində gəncliyə güzəşt yox idi, çünki həyatla ayaqlaşmaq üçün qocamanlar gəncliklə yanaşı addımlamağa çalışırdılar.

Bir şərq zərb – məsəlində deyilir: "Gənclik atda çapır, qorxmur heç nədən, qocalıq piyadadır, çəkinir büdrəməkdən".

"Gənc" anlayışı incəsənətdə, ədəbiyyatda atılan ilk addımlara uyğun gələn şərti bir başlanğıc, kateqoriya kimi də qəbul olunur.



Məsələn, M.Y.Lermontov "Zəmanəmizin qəhrəmanı"nı 25 yaşında, N.V. Qoqol "Müfəttiş"i 27 yaşında, M.A.Şoloxov "Sakit Don"u və "Oyanmış torpağ"ı 35 yaşında yazmışdır. İlk Azərbaycan operası "Leyli və Məcnun"u Ü.Hacibəyov 24 yaşında, Q.Qarayev və C.Hacıbəyov "Vətən" operasını 27 yaşlarında yazmışlar. R.Ştraus 24 yaşında yazdığı "Don Juan" simfonik operası ilə özünə əbədi ölməzlik qazandı. Görkəmli riyaziyyatcı alim Urıson suda boğulanda onun cəmi 26 yaşı vardı. Bu yaxınlarda 29 yaşlı alman riyaziyyatçısı M. Faltinq Mördellin 60 il ərzində sirr olaraq qalan bir fərziyyəsini sübut etmişdir. Deyilənlərin sayını istənilən qədər artırmaq olar.

Elə hallar da məlumdur ki, bəzi şəxslərdə yaradıcılıq istedadı yetkin yaş dövründə başlanır. Məsələn, İ.A.Krılov bir təmsilçi kimi 40 yaşlarından yazmağa başlamışdır. Pol Qogen təsviri sənətlə məşğul olmağa 38 yaşından meyl göstərmişdir. Əlbəttə, bu qeyd etdiklərimizi ümumiləşdirmək olmaz.

V.Pikulun "Favorit" (1 cild) salnamə-romanındakı mülahizəsi maraqlıdır: "XVIII əsrdə ümumi işci qüvvəsinin qıtlığı gəncləri lap erkən yaşlarında həyatın qoynuna atılmağa məcbur etdi. Odur ki, adamlar çox tez kamilləşir və erkən gəncliyin təhriki, rəhbərliyin bizləməsi olmadan, öz ağlının və iradəsinin əmri ilə gördükləri işin məsuliyyətindən vahiməyə düşmürdülər. İyirmi yaşlı diplomatlar ağıl və fərasətləri ilə öz süzerenlərenin[1] haqqını müdafiə edir, otuz yaşlı mahir sərkərdələr ordunu dəmir dəbilqələrin və üzəngilərin gurultu və uğultusunun müşayiəti ilə ölümə göndərirdilər. Qalib gəlsən şərəf və şan, məğlub olsan, haydı, tarixin ölüm kürsüsünə!".

Rəsul Həmzətovun sözlərinə diqqət yetirin: "Pis yazan gənc yazıçılar özlərindən çox bədgüman və xudbindirlər. Həddən artıq sırtıqdırlar və utanıb-qızarmaqdan uzaqdırlar. Onların çap olunmuş kitabları tələsik və səliqəsiz olur. O qədər "boşboğazlıq" edirlər ki, adamı yorub ağzını açmağa qoymurlar. Təəssüf ki, "qapılar gənc istedadların üzünə açıqdır" – deyə onlara üz verirlər. Ədəbiyyat

[1] Süzeren – feodalizm dövründə öz vassallarının hökmdarı olan böyük feodal.

uşaq baxçası deyil. Qoy özləri açar seçib, qapıları da özləri açsın. Yoxsa ki, onları uşaq arabasında nəşriyyatlara dığırlayıb, hələ bir xeyi-dua məqaləsi də yazırıq".

Elə gənclərə (nəinki gənclərə) rast gəlirik ki, onlar aşağıdakı zərb-məsəlin I hissəsinə əməl etməyi vacib bilirlər: "Geyimə görə qarşılayıb, ağıla görə yola salarlar". Bu haqda V.İ.Lenin konkret olaraq demişdir: "forması düzgün, məzmunu gülünc".

Belə adamlar haqqında Q.M.Krjijanovskinin "Mütəfəkkir və inqilabçı" (M., Siyasi ədəbiyyat nəşriyyatı, 1985) kitabından bir parçaya fikir verin: "Yakobinçilərdən biri olan Roebspyer çalışdırdı ki, onun kostyumu ancaq onun özünə xas olan bir dəblə kütlələrin nəzər-diqqətini cəlb etsin.

Karl Marks ilk dəfə yanına gələn Lui Blanı dəhlizdə güzgü qarşısında tumarlandığı halda görür. Bu hadisə o saat Lui Blanı Karl Marksın nəzərindən salır.

Bu və buna bənzər xüsusiyyətlərin heç biri Vladimir İliçdə yox idi. Onun kostyumu çox sadə, adi və hər cür cəlbedicilikdən uzaq idi".

Deyilənlər heç də gözəl geyinməyin vacibliyini inkar etmək məqsədi güdmür, əksinə, A.P.Çexovun – "İnsanda hər şey gözəl olmamalıdır: sifəti də, geyimi də, qəlbi də, fikirləri də" müddəası ilə əhəngdar səslənir.

Bizcə, insan üç əsas keyfiyyətə malik olmalıdır:

1.Sadəliyə;
2.Düzlüyə (düz danışmaq);
3.Əxlaqi saflığa.

Ümumiyyətlə, min illər boyu ömrün aşağıdakı yaş normaları mövcuddur:

1.Uşaqlıq dövrü – 14 – 15 yaşına qədər;
2.Yetkinlik çağı – 15 – 30 yaşadək;
3.Ahıllıq (yaşlı) dövrü – 30 – 45 yaşadək;
4.Yaşı keçmiş dövr – 45 – 60 yaşadək;
5.Piranilik dövrü – 60 – 75 yaşadək;
6.Nuranilik (qocalıq) dövrü – 75 – 90 yaşadək;
7.Uzunömürlülük dövrü – 90 yaşdan sonrakı illər.



Birinci və ikinci yaş dövrlərinin başlıca xüsusiyyəti: birincinin təqlidçiliyə, ikincinin isə bir şey yaratmağa can atmaq meylidir.

Ahıllıq dövründə insan müəyyən həyat təcrübəsi qazanır, əldə etdiyi müvəffəqiyyətləri möhkəmlətməyə çalışır və onda yetişən nəsil qarşısında məsuliyyət hissi yaranır.

1963-cü ildə gerontoloqların Leninqradda keçirilmiş simpoziumunda ömrün yaş mərhələlərinin aşağıdakı təsnifatı təklif olunmuşdur: orta yaş – 54 – 59 il; ahıllıq – 60 – 74 il; qocalıq – 75 – 89 il; uzunömürlük – 90 və sanrakı illər.

Keçmişlərdə ahılların həyat təcrübəsi ilə cavanların cəsarətinin vəhdəti mübarizlik əzminin yaranmasına, məhrumiyyətlərə dözməyə, irəliyə doğru hərəkətə kömək etmişdir. Yaşıkeçmiş dövrdə insan adət-ənənələrin qoruyucusu, məsləhətçi və hakim kimi çıxış etmişdir, yəni o, cəmiyyətin sabitləşdiricisi olmuşdur. Bu nüfuzlu qrupun xüsusi çəkisi o birilərə nisbətən az idi.

"Qocalığa sərhəd qoyulmamış və belə bir səd yoxdur və nə qədər ki, qocalar ölümə əhəmiyyət vermədən həyat yükünü çiyinlərində şərəflə daşıyırlar, bu, onların yaşamağına bəraət qazandırır. Buna görə qocalıq hətta gənclikdən güclü və mərdanədir" (Siseron).

Andre Morua Dizraelinin tərcümeyi-halında yazır: "Qocalıq – siyasi xadim üçün ümumiyyətlə layaqət sayılır. İngiltərədə isə xüsusilə... İngilislər mübarizələrdə can qoymuş, kamilləşmiş ixtiyar dövlət xadimlərini köhnə dərini və qocaman ağacları sevdikləri kimi sevirlər".

Qədim yunan filosofu Diogenə deyəndə ki, "Sən artıq qocalmısan, istirahət elə" – "Necə yəni? Əgər mən yarışda qaçıramsa və finişə yaxınamsa, demək, mən qüvvəmi səfərbər etmək əvəzinə dayanıb durmalıyam?" – cavabını vermişdir. Qocalıq ömrün sonu yox, ömrün çələngidir.

Bu sözlər bir latın kəlamı ilə səsləşir: Finis coronat opus (finis koronat opus) – "İşin sonu onun çələngidir", daha dəqiqi – işin sonu onu bəzəyir.

Adolf Pixlerin şeirlərindən birində belə bir yer var:

Ağ saçlı ixtiyar olsa da belə,
Kim ki öz müqəddəs əməllərilə.
Həmişə yürüşdə, yüksəlişdədir,
Aydın məramlarla əli işdədir,
Nə yorulmaq bilir, nə də ki, dinclik
Elə odur cavan, onundur gənclik.
Kim ki, həyatdan üzüb əlini,
Ətalət, sükunət bükür belini,
Diriykən ölüdür, evi məzardır,
Belə qoca gənclər, təəssüf ki, vardır*.

"Gənc qocalıq" oksyumoronu[1] İ.A.Buninə məxsusdur, yəni cavan görünən, artıq gənc olmayan adama xas olan gənclik xüsusiyyətləri.

Müxtəlif yaşlı rəhbər işçilər, işgüzarlıqla həyat təcrübəsinin, təşəbbüskarlıqla ehtiyatkarlığın, risklə müdrikliyin vəhdətinə əsaslanmalıdırlar.

Fəaliyyətə bu cür yanaşma rəhbərlikdə ənənələrin yaşadılıb təkmilləşməsinə meydan açır və texniki tərəqqini təmin edir.

Belə bir əhvalatı misal gətirmək yerinə düşərdi. Bir dəfə Roma imperatoru iki nəfər öz nümayəndəsini patriarxın yanına göndərib soruşur ki, kasıblayan xəzinəni doldurmaq üçün neyləsin? Patriarx elçiləri öz bostanına aparıb, saralmış tərəvəzləri çıxarıb onların yerinə yenilərini basdırır. Onları geri yola salarkən xahiş edir ki, gördüklərini imperatora danışsınlar. İmperator hər şeyi başa düşür və köhnə çinovnikləri yeniləri ilə əvəz edir.

"Ən başlıcası, bizim kadrlar korpusunda təcrübəli və cavan kadrları bacarıqla seçib yerləşdirmək lazımdır. Bu, ətalətə, durğunluğa, avanturizmə, volyuntarizmə qarşı etibarlı təminat yaradır" (M.S.Qorbaçov. Əzmlə irəliyə hərəkət. Leninqrad partiya təşkilatı fəallarının yığıncağında çıxışı. 17 may 1985. M., Politizdat, 1985).

[1] Oksyumoron – oxumoron – ağıllı-avam – mənasına görə əkslik təşkil edən sözlərin vəhdəti, bir-birini inkar edən başlanğıc (canlı meyit).



Yaşlı nəslin həddən artıq qəyyumluğu, gənclərlə birgə yox, onların əvəzinə yaşayıb hər şeyə dözmək cəhdləri çox vaxt hər ikisinin nəinki qanını qaraldır, həmçinin həyatını pozmağa gətirib çıxarır. Belə hallarda aşağıdakı el məsəli yada düşür: "El elə sığar, ev evə sığmaz".

Psixoloqlar təsdiq etmişlər ki, uşaqlarda səhv etmək qorxusu onların səhvetmə şansını artırır. Belə hallarda uşaqların müstəqilliyi, sərbəstliyi tərəddüdlərə məruz qalır və onlar böyüdükcə mübarizlikləri, çətinliklərə sinə gərmək məharətləri zəifləyir və bəzən də bunlar heç olmur.

Böyük yaşlı uşaqlar üçün valideynlər "arxa oturacaqda əyləşən sürücü" rolunu oynayırlar. Bəs, valideyinlərin həyat təcrübəsi onların uşaqlarına hansı yolla təlqin olunmalıdır?

Deyirlər ki, rejissor aktjorun daxilində ölməlidir, yəni onun bütün hərəkətlərində təcəssüm olunmalıdır. Belə bir ifadə müəllim və şagird münasibəti üçün də mövcuddur: müəllim şagirdində yaşamalıdır. Çox guman ki, bütün bunlar müdrik və təmkinli məsləhətçilər – "ailə rejissorları" olan valideynlərə də aiddir. Belə bir məzəli aforizm məşhurdur: ailə təcrübəsi – keçmiş müvəffəqiyyətsizlikləri xatırlamaq və kiçik müvəffəqiyyətsizliklərdən müdrik nəticə çıxarmaq bacarığıdır.

Ümumiyyətlə, qarşılıqlı ailə münasibətləri, ələlxüsus "atalar və uşaqlar"ın münasibətləri çox mürəkkəb problemdir.

Bu problemin nəzəriyyəsinə və tarixinə dərindən varmadan ata və uşaqlar üçün aşağıdakı amillərin zəruriliyini qeyd etmək vacibdir.

Atalar üçün vacibdir:

1. Diqqətlə dinləməyə və onların düşündüklərini anlamağa hazır olmaq;
2. Düşünmək və heyrətlənmək qabiliyyətinə malik olmaq;
3. Təskin etmək və ağıllı məsləhət vermək bacarığı

Uşaqlar üçün vacibdir:

1. Məsləhət almaq və məsləhətə əməl etmək istəyi;
2. Dinləmək bacarığı;

3. Öz böyüklərinə necə yaxşı münasibət göstərirsə, başqalarına da həmin münasibətdə olmaq qabiliyyəti.

Böyüyən gənc nəslə həyat təcrübəsini təqdim etmək, onları kiçik uğursuzluqlar əsasında öyrətmək, şübhəsiz ki, böyük uğursuzluqlardan yayındırar.

Yaşlı nəslin əsas vəzifələrindən biri də budur.

Ötən əsrdə yaşlı nəsil qrupu, daha doğrusu müdriklər qrupu ümumi əhalinin 1 – 2 faizini təşkil edirdi. Ancaq onlar hələ də faydalı əmək fəaliyyətində iştirak edirdilər. Bu qrupa əhalinin lap cüzi hissəsi aid idi.

Hazırda tibbi-bioloji, demoqrafik və başqa səbəblər üzündən sosial yaş qruplarında əhəmiyyətli dərəcədə dəyişikliklər baş vermişdir. İ.V.Bestujev – Ladanın fikrincə müasir dövrdə uşaqlıq və yetkinlik yaş dövrlərinin "gənclər" kateqoriyasına şamil edilməsinin əsas səbəbi cəmiyyətin sürətlə "qocalmasıdır". Çoxuşaqlı patriarxal ailənin adətən biruşaqlı ailə ilə əvəz olunması (bu da ailədə uşağın sonsuz dərəcədə əzizlənməsinə gətirib çıxarır) və əmək məhsuldarlığının yüksəlməsi nəticəsində uşaq əməyinə olan ehtiyac sosial baxımdan lüzumsuzdur.

Ölkəmizdə uşaqların inkişafı üzərində aparılan çoxillik müşahidələr, indiki adamlarla əsrimizin əvvələrində yaşamışlar arasında yaş fərqlərinin aşağıdakı nisbətdə dəyişdiyini qeyd etməyə imkan verir.

1. İndiki 8 yaşlılar keçmişdəki 9 yaşlılara;

2. İndiki 15 yaşlı yeniyetmələr keçmişdəki 17 yaşlı gənclərə uyğun gəlir.

Şərti olaraq, 30-35, hətta bəzən 40 yaşa qədər olan adamları "gənc" adlandırıb, onlarla adətən püxtələşməmiş və ya kifayət qədər püxtələşməmiş adamlar kimi rəftar edirlər.

Fransada çoxuşaqlı ailələrin kəskin şəkildə azalması, əhalinin sayının nəzərə çarpacaq dərəcədə azalmasına gətirib çıxarmışdır (depopulyasiya). Onda Fransada belə bir zərb-məsəl geniş yayılmışdı: "10 dovşandansa bir şirin olsun".



İ.S.Turgenev məktublarının birində aşağıdakı fransız atalar sözünü misal gətirir:

**Jamaiş trenta şix petitş lapinş**
**Blaneş ne feront un chevae blanş –**

– "Heç vaxt otuz altı ada dovşanı bir ağ atı əvəz etməz".

Ümümiyyətlə, ailənin yeganə uşağı öz eqosentrizmi, ətrafındakı hadisələrə biganəliyi və başqa keyfiyyətləriylə xarakterizə olunur.

Şanxaylı həkim Qo Dinin müşahidəsinə görə ailənin yeganə uşağına həddən artıq diqqət, hətta uşaq yüksək intellektə malik olsa belə, onu eqosentrik (eqoist) edir. ("İzvestiya", 9 noyabr 1986). A.M.Qorkiyə görə, eqoistlik əclaflığın doğma atasıdır.

Hələ keçən əsrdə tanınmış həkim Qufelend yazırdı ki, həddindən artıq qayğı və diqqətlə əhatə olunmuş "yeganə" uşaqlar çox az hallarda ömrün ixtiyar çağlarına qədər yaşayırlar: əksinə, tərbiyədə sadəlik və ciddilik – uzunömürlülüyün və möhkəm psixoloji sağlamlığın rəhnidir.

Adam yeniliyi dərhal qəbul eləməsə də, özündə onu duymaq və rədd etməmək keyfiyyəti tərbiyə etməlidir. Belə hallarda yeniliyə hər cür "yarlıq" vurmaq özü xoşagələn hal deyildir. Təbiidir ki, bəzən istedadın məhsulu olmayan gərəksiz elm və incəsənət əsəri hər cür yol verilən və yol verilə bilməyən hay-küylə "yeni" əsər kimi qələmə verilir. Bu isə heç cür düzgün deyil.

B.Fontenelin sözlərini elmə və texnikaya da aid etmək olar: "Heç nə, tərəqqini qədim dövrə ifrat pərəstiş qədər ləngidə bilməz".

Hər hansı yeni bir problemi həll etdikdə əvvəlcədən hazırlanmış resept yoxdur. Burada cəsarət, yenilikçilik, şəraitə uyğun ağıllı tədqiqatlar və s. lazımdır.

L.N.Tolstoy yazır: "Əgər müğənni və skripka çalan qondarma notdan qorxursa, o heç vaxt dinləyicidə şairanə təlatüm oyada bilməz. Eləcə də yazıçı və ya natiq deyilməmiş sözdən, söylənməmiş fikirdən qorxacaqsa, heç bir yeni fikir və hiss aşılaya bilməz".

Mübahisəli həqiqətdən qorxan kəs, əsl həqiqəti tapa bilməz. Böyük Rene Dekarta görə həqiqət şübhədən doğur. Azərbaycan xalqının mütəfəkkir oğlu, fəlsəfi-romantik şeirimizin banisi Hüseyn Cavidin fəlsəfəsi Dekartın: "Hər şeyə şübhəylə yanaş! – Budur həqiqətin meyarı" – fəlsəfi kredosu ilə neçə də səsləşir:

Şübhə artarsa, həp yəgin artar,
Mərifət nuri şübhədən parlar,

və ya

Babam heyrət, anamdır şübhə...

ya da ki,

Səhvinizdən ta ki, doğsun şübhələr,
Həp seçilsin haqqü batil, xeyrü şər.

Elə adamlara, ələlxüsus qocalara rast gəlirik ki, köks ötürərək, keçən günlərin, ötən çağların həsrətini çəkərək – "Of, gözəl vaxtlar, şirin dəmlər" deyirlər (O tempora! O mores! – О темпора! О морес! – O zamanlar! O adətlər!).

Müasir dövrdən və gənclikdən şikayət yeni deyildir; bu, demək olar ki, insan cəmiyyətinin ilk günlərindən mövcuddur.

"İndiki gənclik dəbdəbəyə uyub iyrənc hərəkətlər edir, şəxsiyyətlərə nifrət bəsləyir və böyüklərə hörmət etmir. Uşaqlar valideynləri ilə mübahisə edirlər, acgözdürər və müəllimlərini dolayırlar" – sözlərini Sokrata aid edirlər.

Qədim Misir papiruslarından birində belə bir yazı var: "Dünya yaman dəyişib, hər yetən kitab yazmaq istəyir, uşaqlar valideynlərinə qulaq asmırlar". Görünür ki, gələcəkdə də, keçmiş, gözəl günlər" – deyərək bu günkü dövrümüz həsrətlə, ürək göynədən bir təəssüflə anılacaqdır.

İndinin özündə də elə adamlar var ki, "Nə üçün bir az əvvəl anadan olmamışıq", "dünyaya tez gəlməmişik", "gərək bir özgə dövrdə yaşayaydıq" və s. kimi əsassız iddialar edirlər. Lixtenberqin dediyini xatırlamaq yerinə düşərdi:

"Məhz bu dövrdə, bu dünyada yaşadığımızı dərk edərkən bizi xoş bir hiss çulğayırsa, bundan artıq xoşbəxtlik olarmı?".



Şair Aleksandr Kuşner yaxşı demişdir: "...dövrü seçmirlər. Onda yaşayıb, ölürlər". Yaşadığımız dövrə münasibəti ləyaqətlə yaşamaqla bildirmək lazımdır.

Gənclərə etibar etdikdə, onlardan hər şeyi düppədüz icra etməyi tələb etmək lazım deyil. Buraxılan səhvlər istedadlı adamlara çox şeyi düzgün dərk etməyi öyrədir. Əlbəttə, qeyd etdiyimiz fikri cəfəngiyyata çevirərək demək olmaz ki, adam həmişə səhv edə bilər.

Məlumdur ki, ayrı-ayrı şəxslər, müəyyən dövrdə cəmiyyətin müəyyən hissəsi kimi incəsənət əsərlərini dərhal qavraya bilməmişlər. Misallar çəkək.

Məşhur tənqidci V.V.Stasov incəsənətdə "intəhasız xeyirxahlıq" prinsipinin tərəfdarı olub, Musorqskinin, Rimski-Korsakovun, Borodinin və s. yenilikci fikirlərini də bura aid etməsinə baxmayaraq, onları impressionistlər,[1] "incəsənətin cəlladları və düşmənləri" adlandırmış, guya onlar "sənət-sənət üçündür" şüarı ilə yaradırlar, – deyərək, onları formalizmdə günahlandırmışdır. Onun fikrincə Rodenin yaratdıqları "iyrənc yöndəmsizlik və ədəbazlıqdır", Manenin "Olimpiya"sını isə murdar və əhəmiyyətsiz bir şey adlandırmışdır. Zaman keşdi və və bu şəkillər bütün dünyada məşhur və ölməz sənət əsərləri kimi tanındılar. Deməli, V.V.Stasova boş və məzmunsuz görünən tablolarda insanlara doğma olan məzmun da, onları mənən təmin edən hisslər də, mükəmməl sənətkarlıq da varmış və bütün bunlar həmin əsərlərin ölməzliyini təmin etmişdir.

Rembrandtın müasiri, onun rəsm əsərləri haqqında mənfi fikir söyləyib "zəif düyümlü və ya heç bir düyüm oyatmırlar" deməsinə baxmayaraq, həmin əsərlər olduqca baha qiymətə alındı və tənqidçilərə həddən artıq böyük sənət dəyəri ilə yüksək təsir bağışladı. A.A.Sidorov, sanki "səliqəsiz" görünən bu əsərlərə baxaraq göstərir ki, bəzi sadə eskizlər elə bil ki, melodiya, başqa lövhələrdə "Rembrandtın qrafika dili" isə bütöv bir simfonik orkestrdir.

[1] İmpressionizm – (frans. – təəssürat deməkdir) – incəsənət və ədəbiyyatda fərdiyyətci və idealist istiqamət.

L.Bethovenin 9-cu simfoniyasının forması və ruhu tamamilə yeni idi. Lakin Qaydn və Motcart ənənəsi ilə tərbiyələnmiş musiqiçilər üçün bu simfoniya yapışıqsız görünürdü. Buna görə də məşhur bəstəkar K.M.Veber 1806-cı ildə yazırdı: "Hans Lüdviq Bethoven xeyli müvəffəqiyyətlə variasiyalar yaza bilər... lakin simfoniya yazmaq üçün ona dərindən düşünmək lazımdır, yoxsa kobud akkordlar yığını simfoniya təşkil edə bilməz". Simfonik musiqinin "zirvəsini" təşkil edən bir əsər haqqında deyilənə bir fikir verin!

Zoltan Koday çox düzgün deyir: "Bethoveni kütlələrin qarşısına çıxarmaq kifayət deyil. Ən zəruri məsələ kütlələrə Bethoveni başa düşməyi öyrətməkdir". Şubert, sanki, bu münasibətlə deyirdi: "Bethoven yaradıcılığını başa düşüb sevənə qədər Dunay çayından çox sular axacaqdır".

Bethoven musiqisi haqqında R. Rollan yazırdı ki, bu sənət abidəsi onun üçün mücərrəd müdriklik mücəssəməsi deyildir: "Onun ecazkar qədəhindən mənim damarlarıma təmiz və təzə qan süzülür. Bu qan bədənimdə dövran edərək, onun bütün əzalarından süzülüb mənim canıma və düşüncəmə hopur".

C.Verdinin adına ölməzlik gətirən "Traviata" operasının ilk tamaşası 6 mart 1853-cü ildə Venesiyada müvəffəqiyyətsizliyə uğradı. Bir ildən sonra isə çox böyük və haylı-küylü müvəffəqiyyət qazanaraq dünyanın bütün teatrllarında tamaşaya qoyuldu. Operanın ilk uğursuzluğunu necə və nə ilə izah etmək olar? Sən demə, burjua əxlaqı havadarları hiddətlənmişlər ki, nə üçün bəstəkar operanın qəhrəmanı obrazında romantik qadın surəti əvəzinə, cəmiyyət tərəfindən rədd edilmiş yüngül əxlaqlı bir qadını səhnəyə çıxarmışdır. Buna görə də operanı qəbul etməmişlər. Operanın müvəffəqiyyətsizliyində ilk dəfə opera səhnəsinə aktiyorların müasir geyimdə çıxmaları da müəyyən rol oynamışdır. Tale belə bir oyunu Darqomıjskinin 1856-cı ildə tamaşaya qoymuş "Rusalka" (Su pərisi) operasının da başına gətirmişdir. Yenidən işlənib tamaşaya qoyulduqdan sonra opera böyük şöhrət qazandı, çünki bu zaman teatra yeni demokratik əhval-ruhiyəli dinləyicilər – zadəgan nəslindən olmayan (raznoçin) gənclər gəlmişdilər.



"Quntram" operası R. Ştrausa çox böyük ümidsizliklər gətirmişdir. Əvvala, əsərin səhnə təcəssümünün mümkün olmadığını bahanə edən artistlər əsəri qəbul etmədilər və əsər səhnəyə xeyli sonra çıxdı.

Jan Filipp Ramonun həddən artıq səsli-küylü orkestri onun müasirlərinin xoşuna gəlmirdi. Buna baxmayaraq Ramo çox böyük bəstəkar və alim idi. Onun haqqında Jan Jak Russo yazırdı: "O, böyük Lyullinin ölümündən sonra bizim xırda musiqiçilərimizin uzun müddət bir yerdə ayaq döydükləri dayaz musiqi yığıncaqlarının sərhədlərini aşaraq lap uzaqlara getdi. Gələcək musiqiçilər ondan öz məharətlərini istədikləri kimi inkişaf etdirmək imkanı əldə edirlər. Bu da həmçinin asan iş deyildi. Onun qismətinə tikan, varislərinə isə gül toplamaq nəsib oldu".

Bəzən hətta eklektik[1] əsərlərdə də müəyyən orjinal, ürəyəyatan nümunələr tapmaq mümkündür.

K.Sen-Sansın "Samson və Dəlilə" operasının eklektik xüsusiyyətinə baxmayaraq, o, geniş tamaşaçı kütləsinin rəğbətini qazanmışdır.

Kütləvi konsertlərdə həmin operadakı rəqslərdən istifadə olunur.

Sənətçünas A.A.Sidorovun tövsiyəsi diqqətəlayiqdir: "Sənətkarı öyrənmək lazımdır ki, onu anlaya biləsən".

Filosof Spinoza deyirdi: "Mən heç vaxt ondan başlamamışam ki, gülüm, kədərlənim və ya məzələnim, ondan başlamışam ki, başa düşüm".

"Faust"dan yada salaq: "Sən kimi başa düşürsənsə, elə onun özüsən".

"Başa düşmə – anlama" prosesi özü də, yuxarıda qeyd etdiyimiz kimi şərti xarakter daşıyır, yəni bu proses həqiqətlə, həqiqət axtarışı ilə həmahəngdir.

"Həqiqət cəfəngiyyat kimi doğulur, xurafat kimi də ölür" (Hegel).

Engelsin aşağıdakı fikrini xatırlamaq yerinə düşər: "Elm adamlarında ideal olmalıdır, çünki idealın olmaması qabaqcadan

[1] Ekletik – bir-birinə zidd əsərlər, nəzəriyyələr, fikirlər və bu dünyagörüşə malik alimlər, əsərlər.

hasil olan yanlış qənaətə əsaslanır və bu da gərçəkliyi necə var, o cür də görməyə mane olur.

Deməli, ideala qovuşmaq üçün mübarizə aparmaq lazımdır, onu hazır qəbul etmək prinsipsizlik və məqsədsizlikdir.

Mübarizlik isə sağlam düşüncənin məramıdır və insan yaşayışının qayəsidir, insan beyninin fəaliyyətidir, özü də məqsədyönlü fəaliyyətidir.

İnsan beyni isə ən çətin qala-istehkamdır. Onu fəth etmədən insan heç bir ideala qovuşa bilməz".

Belə bir ibrətamiz əhvalat mövcuddur: "Ötənlərdə bir cavan dilənçi qadın ev-ev gəzərək nəzir-niyaz yığırdı. O qədər də qoca olmyan varlı, lakin dul bir kişinin yazığı gəlir və ona öz evində sığınacaq verir. Nəhayət dilənçi qadın kişinin xoşuna gəlir və qarşılıqlı razılıq əsasında evlənirlər.

Həyatları pis keşmirdi. Ancaq, qəribəydi; cavan arvad hər dəfə əri ilə birlikdə əziz və ləziz xörəklərlə dolu süfrə arxasında əyləşəndə heç nə yeyə bilmir və hər dəfə ac qalırdı. Bir müddətdən sonra arvadın beyninə belə bir fikir gəlir... Əri işə gedəndən sonra çörəyi parça-parça edib evin hər yerinə səpələyir və əl açaraq öz əvvəlki dilənçi adətinə uyğun olaraq yalvara-yalvra evin içində gəzməyə başlayır: "Bu kasıb yetimə bir parça çörək verin, allah dadınıza çatsın, köməyinizə yetsin". Evi gəzə-gəzə çörək qırıntılarını yeyib, qarnını doydururdu." (Мустай Карим. Розговор о своем круге. "Советская Башкирия», 16.09.1987).

Deməli, hansı sahə olursa-olsun yenidənqurmanı və aşkarlığı ilk növbədə qafaya, düşüncə tərzinə təsirdən başlamaq lazımdır. Belə ki, yalnız tələb etməkdən yox, həm də tələbi yerinə yetirənin mənəvi və psixoloji hazırlığını nəzərə almaqdan, bu hazırlıq yoxsa, onu yaratmaqdan başlamaq lazımdır.

Hər hansı fəaliyyət sahəsində çalışan mütəxəssislərə edilən tələblər barədə də nöqteyi-nəzərlər müxtəlifdir.

Akademik E.İ.Çazovun texnikayla tibbi müqayisə edərkən söylədiyi mülahizə ilə razılaşmaq şətindir: "Təbabət – elə bir elm və elə bir peşədir ki, burada başqa sahələrdən fərqli olaraq xüsusi



təlimatlar vasitəsi ilə kor-koranə işləmək olmaz. Texnika da sadədir, belə ki, orda texnoloji sxem və qayda işlənib hazırlanır və mühəndis də elmi metodlardan dəqiq istifadə edərək, sxemə ciddi riayət etməklə əla nəticələr alır. Təbabətdə bu mümkün deyil". ("Медицинская газета", 16.03.84).

"Kor-koranə – ancaq təlimat üzrə işləmək" təkcə təbabətdə yox, bütün sahələrdə mümkün deyil.

Burda Ç.Bebbecin sözləri tamamilə yerinə düşər: "Adamı düşünməyə məcbur etmək – onu çoxlu təlimatlarla təchiz etməkdən daha xeyirlidir".

Həkimlərə edilən tələblərdə bir çox əsas mülahizələr var ki, həkimlər həmin mülahizələrə uyğun fəaliyyət göstərməlidirlər. Bütün bu mülahizələrin demək olar ki, hamısında bir əsas tələb var ki, bu da həkimlərdə insani keyfiyyətin zəruriliyidir. Belə ki, məşhur fransız klinisisti A.Trussodan soruşanda ki, "Həkimdə hansı əsas keyfiyyət olmalıdır?" O, cavab vermişdir: "Daha çox sağlam düşüncə, bir az da nəzakət və cəsarət". – "Bəs bilik?" – "Bilik? Bəli, hərdən o da lazım olur".

İ.A.Kassirski belə hesab edirdi ki, Viktor Hüqonun qeyd etdiyi aşağıdakı insani keyfiyyətlər həkimlər üçün də vacibdir.

Bilik, əlbəttə, qüvvətdir, iqtidardır, lakin ən böyük iqtidar – bilikdən konkret şəraitdə istifadə etməkdir. Bilik – enerjidir, yaradıcılıq – enerji bolluğudur. Yaxşı həkimi aysberqə oxşatmaq olar. Onun su altında qalan hissəsi (təmiz ürək və səmimiyyət), görünən hissəsindən (bilik, savad) böyük və ağır olmalıdır.

Orta əsrlərin məşhur həkimi – "Salernsk sağlamlıq məcəlləsi"nin[1] müəllifi Arnoldo de Vilanov yazır: "Qoy sənin həkimin bunlar – şən xasiyyət, rahatlıq və yeməkdə sadəlik olsun".

Şərqin böyük mütəfəkkiri Əbdürrəhman Cami (1414-1491) yazırdı: "Bədənin sağlamlığını qorumaq üçün üç şərtə əməl etmək lazımdır:

[1] Yeddi əsr ərzində bu məcəllə Avropa xalqlarının dilində 300 dəfədən artıq nəşr olunmuşdur. 1969 və 1970-ci illərdə "Медицина» nəşriyyatı tərəfindən rus dilində də nəşr olunmuşdur.

Xəstəlik törədən səbəbləri sən,
Çalış ki, özündən kənar edəsən,
Dərmandan uzaq ol, acmamış yemə,
Doymamış əlini götür süfrədən".

Can – həkimə, ölkə isə rəhbərə etibar edilir.

Konfutsidən bir hikmət:

"Tse Kun müəllimindən soruşdu: "Ölkəni idarəetmə məharəti nədən ibarətdir?"

Müəllim cavab verdi: "Kifayət qədər ərzaq ehtiyatından, ordunun lazımı sayından və xalqın inamından".

Tse Kun dedi: "Əgər bu üç şeyə birlikdə imkan yoxdursa, onda bunlardan hansı biri olmadan daha asan keçinmək olar?" "Ordusuz" – deyə müəllim cavab verdi.

"Əgər başqa çıxış yolu yoxdursa, qalan iki şeydən hansı olmasa ölkəni idarə etmək olar?" sualına müəllim cavab verdi:

"Ərzaq olmasa; çünki, əsrlər boyu bütün insanlar ölür, lakin xalq inamsız yaşaya bilməz".

Beləliklə, inam və etibar xəstənin həkimlə, müəllimin şagirdlə, rəhbərin öz təbəələri ilə ünsiyyətində həlledici amildir.

İnsan həmişə xeyirxah ünsiyyətə meyllidir (Düpreyə görə "rəğbət duyğusuna", Adlerə görə "ünsiyyət hissinə", Obuxovskiyə görə "həyəcanlı görüşlərə", Fromma görə "insani əlaqələrə" və s.).

İnsanlarda olduğu kimi, heyvanat aləmində də xeyirxahlıq özünü "nəvazişlə", "sığallamaqla" büruzə verir.

İnsanın daxili dünyasının – nəvaziş, istək, arzu, həyəcan, çılğınlıq və s. məziyyətləri onun şəxsiyyətinin formalaşmasında əsas rol oynayır.

Hər bir fərdi ömrün öz müddətində bir amalı olmalıdır – həyatın (ömrün) məqsədi, yəni yaşamaqda bir məqsəd olmalıdır.

İnsanın bütün istəklərini yerinə yetir, lakin həyat məqsədini əlindən al, onda görəcəksiniz ki, bədbəxt və gərəksiz bir varlıqdır. Deməli, insan ləyaqətinin və insan səadətinin ana xəttini onun istəyinin ödənilməsi deyil, həyatda məqsədi müəyyən edir (Uşinski K.D.).



Lakin şöhrət dalınca qaçıb, ona qovuşmağı həyatının məqsədi hesab edənlər də var. Şöhrətpərəst adamların xarakteristkasını K. Marks bir məktubda belə verir: "Şöhrətpərəst adam elə adamdır ki, o, bir dəqiqəlik müvəffəqiyyət və ya bir günlük şöhrət əldən gedər deyə hədsiz narahat olur. Belə adam adətən, adamları kompromislərdən saxlayan ən sadə mənəvi traktları itirir".

Onu da qeyd edək ki, şöhrətpərəstliklə məğrurluğun zahirən bir az oxşarlığı da var. Bunların fərqini bilmək və görmək lazımdır: "Məğrurluq bütün əzəmətli dəyərilə özünün hazır əqidəsidir; şöhrətpərəstlik isə bu əqidəni, subyektin sonradan gizlicə özü mənimsəmək şərti ilə başqasında yaratmaq istəyir. Başqa sözlə, məğrurluq daxildən gələndir... şöhrətpərəstlik isə məğrurluğu kənardan ələ keçirməyə çalışır. Ona görə də şöhrətpərəstlik adamı boşboğaz, məğrurluq isə sakit və səbirli edir" (Şopenhauer A.Aforizmı jitejskoj mudrosti. SPB, 1914).

Cənubi slavyanlar deyirlər: – "məğrurluq – mərdliyin bacısıdır".

Bu mənada M. Poltoraninin "Xidmət mövqeyi" ("Правда», 9.12.1984) məqaləsində aşağıdakı parşa maraqlıdır: «Məlumdur ki, vəzifə başına, ya xalqa xidmət etmək istəyənlər, ya da vəzifə düşgünü, şöhrətpərəstlər çəkilir.

Adətən, şan-şöhrət düşgünü və hövsələsiz şöhrətpərəstlər – lovğa, gözdən pərdə asan, çirkin əməlli adamlardır. Belə şəxslər üçün vəzifə hər şeydir və onların dövrəsindəki adamlar layiq olmadıqları vəzifələri tutaraq özlərinin yaltaqlıqları, prinsipsizliyi ilə süründürməçiliyin, bürokratizmin, sağlam olmyan iş mühitinin yaranmasına kömək edirlər.

"Əlçatmaz" vəzifəyə yüksələn "sakit" şöhrətpərəst adamlar da var. Onlar hər şeydən qorxan, cılız, hürkək, tabeliklərində olanlardan ancaq öz prinsipləri ilə yaşamağı tələb edən adamlardır. Bu isə ümumi işi alt-üst edir". Belə "şəxsiyyətlərin" şəxsiyyətsizliyini F.M.Dostoyevski çox dəqiq ifadə edir: "Mundirini soyunan tək onun bütün əzəməti elə bil əriyib yox oldu. O, mundirdə dəhşətli

idi, allah kimiydi. Birdən o, pencəkdə tamamilə nökərə oxşadı və heç nə oldu. Qəribədir, mundir belə adamlar üçün nələr yaradır".

"Apardığı vəzifədən asılı olmayaraq adamların qarşısında üç düşmən dayanır: birinci düşmən-kommunist lovğalığı; ikinci-savadsızlıq; üçüncü-rüşvətxorluq" (Lenin), görməmişdirlər. Nil hökmdarı özünü hamıdan uca tutur və çox lovğa adam kimi aparırdı. Arxeoloqlar firon təkəbbürünün səbəbini təyin etdilər. Sən demə, onun boynunda anadangəlmə bitişik fəqərə cümüyü varmış.

Az da olsa, mənsəbpərəstlərə də rast gəlirik.

Beləlari üçün, müqəddəs heç bir şey yoxdur. Bu cür adamlar deyirlər: "Nə edirsən et, ancaq vəzifəmə toxunma".

Deyirlər ki, Nyutonun pişiyi qapını tez-tez cırmaqlayır və onun işləməyinə mane olurmuş. Pişiyi qovanda otaqdan tez çıxsın deyə o, qapının aşağısından deşik açır. Pişik balalayır və Nyuton pişik balası üçün də qapıdan bir deşik açır.

Bu nə deməkdir? Nə olsun?

Köhnə bir ingilis atalar sözünü xatırlamaq lazımdır: çatışmazlıqlar çox vaxt bizim ləyaqətimizin analitik davamıdır.

Bax elə bu səbəbdəndir ki, yaxşı alim heç də həmişə yaxşı inzibatçı ola bilmir. Belə adamın çox zaman heç ağlına gəlmir ki, onun etimadından sui-istifadə edən aravuranlar, araqızışdırıcılar həmişə fəaliyyətdədirlər. O, yalnız ağlının səsinə qulaq asdığı üçün, ləyaqətsiz tələbəsini ideallaşdıra və dostu onun kimi hərəkət etmədikdə, fikirlər düz gəlmədikdə ondan ayrıla bilər.

Deməli, hər bir adam həyat və məslək kredosuna[1] malik olmalıdır.

Bu haqda K. Marksın poetik avtoportretinə nəzər salaq:

Köksümdə od tutub yanarkən ürək,
Mümkünmü sakitcə yaşaya bilmək,
Bacarmıram ömrü yaşayam rahat,
Naz-balınc içində keçirəm həyat.

[1] Credo (lat. inam.) – hər hansı əqidəyə inam simvolu.



Sürünə-sürünə baş girləyərək
Yaşamayaq; gəlin biz sinə gərək
Bu yollardakı məşəqqətlərə
Mənfur ətalətin boyunduruğu
Altında gəlməsin, əsrin günləri.
Cürətə, qeyrətə, əzəldən bəri
Hakimdir insanın eşqi, hünəri[1].*

Sonuncu mühazirələrinin birində professor B.A.Petrov tələbələrinə öz peşə və həyat kredosunu belə izah etmişdir:

1. Həkimin hökmən sabit məqsədyönümü olmalıdır. Vacib odur ki, arzun ola və indala ona can atasan; cərrah, terapevt, anatom olmaq – bu, artıq, işin yarısıdır.

2. Daim təkmilləşmək. Həmişə irəliyə can atmaq. Əldə olunan müvəffəqiyyətlərə arxayınlaşmamaq. Və ömrü başa vuranda deyəsən: nahaq yaşamadım.

3. Sizi sevinc, ümidsizlik, nifrət və təşəkkür gözləyir. Mənəvi müvazinətinizi və təmkinliyinizi saxlayın.

4. Təkcə bilik yox, bacarıq da əldə edin. Yadda saxlayın ki, bacarıqlı adam alimdən gərəkli ola bilər. Lakin savadsız adamın fəaliyyəti kortəbiiliyə gətirib çıxarır.

5. Həqiqəti sevin və onu müdafiə edin. Həqiqət həyatda da, təbabətdə də, cərrahiyyədə də var. Çalışın həmişə həqiqəti deyin.

6. Qəlbən həmişə cavan qalın.

7. İctimai mənafeyi həmişə şəxsi mənafedən yüksək tutun.

Volter öz kredosunu belə ifadə edir: "Əzəmətli bir nəslə yaltaqlanaraq müstəbid hökmdarı tərifləyən tarixçi – qorxaq; xeyirxah və ədalətli padşahı ləkələməyə çalışan tarixçi – qəddar, öz uydurmalarını tarixi həqiqət kimi verməyə çalışan romançı – mənfurdur." Şübhəsiz ki, L.N.Tolstoy üçüncü tip tarixçilərə aid deyildir.

Keçən əsrin ortalarında Moskva quberniya prokuroru vəzifəsini D.A.Rovinski aparırdı. Bir dəfə o, müstəntiqlər qarşısında çıxış edərkən demişdir: "Ola bilsin bir bir neçə ildən sonra xidməti

[1] Маркс К., Енгельс Ф. Соч., т.40, с. 372, 373.

vəzifəmiz bizi yenə də bir yerə yığsın; allah eləsin ki, onda siz hamıya və hər bir kəsə deyə biləsiniz:

> Siz şəxslərə yox, ümumi işə qulluq etdiniz.
> Siz çalışdınız ki, düzgün işləyib, fayda verəsiniz.
> Siz birinci növbədə İnsan, sonra isə
> məmur idiniz, cənablar..."

İlk sovet qadın diplomatı A.M.Kollontay isə öz kredosunu bu cür şərh etmişdir: "Nifrət etdiyim keyfiyyətlər:
İnsan ləyaqətini təhqir etmək və alçaltmaq;
ədalətsizlik və qəddarlıq;
təkəbbürlülük;
riyakarlıq və ikiüzlülük;
namərdlik;
sırtıqlıq;
Sevdiyim insani keyfiyyətlər:
xeyirxahlıq; özü üçün yox, başqaları üçün çalışmaq;
mərdanəlik;
səbirli olmaq;
intizamlı olmaq;
hər şeylə maraqlanmaq və diqqətlilik;
həyata, insana, təbiətə və heyvanlara məhəbbət;
işdə və həyata qayda və planlılıq;
müntəzəm surətdə oxumaq və öyrənmək".

Rəhbər işçinin kredosunu A.V.Lunaçarski belə ifadə edir: "Gördün ki, gücsüzsən, vəzifə başında qalma. Buna görə də mən istefa verdim".

Dostoyevski gözəl deyir: "İstiqamət. Mənim istiqamətim – heç bir rütbəyə tabe olmyan məsləkimdir".

V.Vısotskinin müsahibəsindən ("Советская культура", 14 iyun 1987) bir neçə sətrə diqqət yetirin:
Sual: Sizcə dostluq nədir?
Cavab: Dözümlülük və müdriklik, zəhlətökən olmamaq, deyə biləcəyin adamla ünsiyyətdir.



Sual: Dostunuz üçün xarakterik keyfiyyətlər?
Cavab: Dözümlülük və müdriklik, zəhlə tökən olmamaq.
Sual: İnsan xarakterində sevimli keyfiyyətlər?
Cavab: Özünü bütövlükdə öz məqsədinə həsr etmək, mübarizlik (əlbəttə, xeyirxahlıq uğrunda).
Sual: İnsanda ən pis keyfiyyətlər.
Cavab: Səfehlik, cahillik, rəzillik.
Sual: Sevdiyiniz aforizm, kəlam.
Cavab: Araşdırarıq.

Təəssüf ki, az da olsa elə həkimlərə rast gəlirik ki, Molyerin Sqanarelisi kimi deyirlər: "Mən belə hesab edirəm ki, həkimlik sənəti bütün peşələrdən ən əlverişlisidir; çünki sən öz işini yaxşımı yerinə yetirdin, ya pis, fərqi yoxdur – eyni əmək haqqı alacaqsan. Uğursuzluq heç vaxt bizim belimizə yüklənmir və üzərində işlədiyimiz materiyanı bizə necə sərfəlidirsə, eləcə də biçib kəsirik. Əgər başmaqçı başmaq tikəndə bir tikə artıq dəri məsrəf edirsə, itkinin əvəzini ödəyir. Bizdə isə adam ölür-ölsün, həkimin nə vecinə".

Gərək ki, L.N.Tolstoyun bu sözləri xatirinizdədir:

"Könülləri şad edən və yüksəldən əməllərlə yaşayın, onu əzən və alçaldanlarla yox".

Adam nəinki öz hüquqlarını yaxşı bilməli, həm də özünün vəzifəsini və nə üçün yaşamasını da ağılla dərk edib, bilməlidir.

Fransızlarda diqqətəlayiq bir atalar sözü var: "Bir şey ki, hüquqi normalarla əldə oluna biləndir, onu allahdan təvəqqe etmək lazım deyil".

Qanunu bilməmək adamı məsuliyyətdən azad etmir – bu, hüquqi aksiomadır və hüquqşunaslar deyən kimi, qəbul olunmuş həqiqətdir. Bu o deməkdir ki, hər bir vətəndaşın qanun normalarını bilmək imkanları, məlum həqiqət olub, aşkarlıq dövründə möhkəmləndirilmiş normadır. Əks halda cəza tədbirləri qeyri-hüquqi olardı. Adamlar bəzən sadəcə olaraq hüquq elminin imkanlarını, yəni öz hüquqlarını bilmirlər. Hüququ almaya bənzətmək olar, onu bütöv ya özün yeyə, ya da bir hissəsini başqasına verə bilərsən, amma almanı bütöv yeyib eyni zamanda baçqasına vermək mümkün deyil.

"Verdiyin sənindir, özünə saxladığın itirilmişdir" (Ş.Rustaveli). Bu aforizmə bənzər digər bir kəlam: "Başqasına verdiyimiz, bizi özümüzə saxladığımızdan daha ziyadə zənginləşdirir" (Şarl Quno).

Direktor (ing. – director) – istiqamətverici deməkdir. Təbiidir ki, direktor öz funksiyasının bir hissəsini müavinlərinə, bölmə rəhbərlərinə verməlidir. Səlahiyyətin bir hissəsinin tabelikdə olanlara verilməsi, təbii ki, yuxarıdakı rəhbərin imkanlarını məhdudlaşdırır. Odur ki, bəzən buna o qədər də həvəslə razı olmurlar. Rəhbərin sərbəstliyinin məhdudlaşdırılması, səlahiyyətlərin, necə deyərlər, azalmasının "zəncirvari reaksiyasına" gətirib çıxarır.

Psixoloqlar müəyyən etmişlər ki, özünün bütün fəaliyyətini rəhbərliklə məsləhətləşmək vərdişi işçilərdə süstlük və yalançılığın əmələ gəlməsinə səbəb olur.

Ümumiyyətlə, yalanlar, "icrasız vədlər" və bunlara bənzər bürokratik ünsürlər məsuliyyətdən yayınmaqla, guya işin gedişinin həqiqətə oxşar şəkildə davam etdiyi haqda saxta məlumatlar verilməsi üçün imkan yaradır.

Elə gözlənilməz şəraitlərə rast gəlirik ki, istər-istəməz A.P.Çexovun personajlarından birinin karikaturası göz önündə canlanır.

Çexovun hekayələrindən birinin qəhrəmanı - əyalət çinovniki, lazım oldu, olmadı, harada gəldi qışqırırdı: "biz dövlət nizamnaməsinə uyğunmu yaşayırıq?" Hətta, öz doğma qızının toyunda cavanlara xeyir-dua verir və döyükə-döyükə ətrafa baxaraq deyirdi: "Bu... nizamnamə üzrədirmi?".

XIX əsrin sonunda yaşamış məşhur polyak həkimi və humanisti V. Beqanski yazırdı: "Kim ki, öz peşəsinə ancaq çörək mənbəyi kimi baxır, o, çörək tapacaq. Lakin o, ömrünün mənəvi boşluğunu həmin çörəklə doldura bilməyəcəkdir. Mənəvi ömrü, bir məsamə, bir boşluq qalmadan doldurmaq özü yüksək məharət, mənalı bir incəsənətdir. Bax elə bu, insan ömrünün səadəti deyilmi?"

Başlıcası odur ki, unutmayasan: "Mənalı yaşanmış hər bir ömür – "uzun ömürdür" (Lenardo da Vinçi).

Hamının yaşamaq haqqı var, lakin Bulqakovun qəhrəmanlarından Şarikovun "bölüşdürmə" prinsipinə əsasən yox, hər kəs nəinki ancaq "çırpışdırmalı", eyni zamanda "qaytarmalı, verməli" prin-



sipinə uyğun olaraq yaşamalıdır, cəmiyyətdə həmişə sosial ədalət prinsipi hakim rol oynamalıdır.

Sosial ədaləti – avara ilə işgüzarın, axmaqla ağıllının sosial bərabərliyi kimi başa düşmək olmaz. Əksinə, cəmiyyətdə ağlın, istedadın, sağlamlıqla cismani inkişafın, təbii və mənəvi qidaya qarşı iştahaların, inam və vərdişlərin, fiziki və ictimai mövqelərin və ən nəhayət, şəxsi səadətlərin sosial qeri-bərabərliklərinin hökmən nəzərə alınması və mütləq qiymətləndirilməsi kimi başa düşülməlidir.

İnsan yaşadığı ömür müddətində şəraitə uyğun olaraq özündə müsbət keyfiyyətlər işləyib hazırlamalıdır. Bəzən bunlar fitri xarakter daşıyır. Məsələn:

Müharibədə – qətiyyət,
Məqlubiyyətdə – mətanət,
Qələbədə – alicənablılıq,
Əmin-amanlıqda – xeyirxahlıq.

* * *

Görün bu aləmə əməllərinlə,
Süzül gönüllərə bir duyğu kimi.
Xalqına həyan ol, sən onu dinlə,
Nifrətin sərt olsun, sevgin səmimi.
Güc sənin xarici görkəmin deyil,
Qanında kükrəyən heysiyyətdir bu.
Vüqarı şərəf say, namusu şan bil,
İnsanlıq deyilən qüdsiyyətdir bu.
Gələn nəsillərə mayak ol, mayak,
Nə lazım görünmək, işıldaquş tək.
Alovlan, şölələn, hayqır və gurla,
Əzəli şöhrətdir Vətənçün ölmək.
Dəmir işlədikcə par-par parıldar
Palçıq ocaq üstə bişir, daşlaşır.
Kimin ki, qəlbində vətən eşqi var,
Vətən torpağında vətəndaşlaşır.*

**(9 dekabr 1943)**

Böyük tatar şairi Musa Cəlilin bu gözəl şeiri ilə bu paraqrafı tamamlayırıq.

## §2. DAHA ÇOX YARADICI SƏRBƏSTLİK VƏ TƏŞƏBBÜSKARLIQ

Quş uçmaq; İnsan isə xoşbəxtlik üçün yaradılıb.
*V. Korolenko*

Uşaqlar dünyaya göz açdıqları birinci gündən onlarda sərbəstliyin, yaradıcılıq ünsürlərinin, ətraf mühitə marağın və s. İnkişafına dərin diqqət yetirilməsi uşaq tərbiyəsinin ən ümdə amillərindən biridir.

Axtarışlara olan həvəsin inkişafına kifayət qədər mürəkkəb çətinliklərin dəf olunması kömək edir.

Mendeleyev "təsərrüfatda yaradıcılıq qabiliyyətinin" tərbiyə olunmasını zəruri hesab edirdi. Çünki "hər bir məhsuldar iqtisadiyyatın əsası" bundadır. Baxmayaraq ki, laboratoriya təcrübələrinin nəticələrini birbaşa adamlara köçürmək olmaz, yeni doğulmuş heyvanlarla aparılmış təcrübələrin bir neçə maraqlı nəticələrinə baxaq. Nəticə üç qrupa bölünür:

1. Hər şeylə təmin olunanlar;
2. Prinsip etibarilə icra oluna bilməyən işləri yerinə yetirməyə məcbur edilənlər;
3. Bioloji tələbatlarını ödəmək üşün ən mürəkkəb məsələləri həll edənlər.

Bu körpə heyvanların hamısı böyüyəndən sonra, onlara yaman xassəli şişlər peyvənd etdilər.

Birinci və ikinci qrupa aid olanların hamısı məhv oldular, üçüncü qrupa aid olanlarsa yaşamaq uğrunda mübarizə apararaq, amansız xəstəliyə təslim olmaq istəmirdilər. Onların əksəriyyətində peyvənd olunmuş yaman xasəli şişlər yox olub getdi.

Deməli, Şekspir haqlıdır: "Yemək və yatmaqdan başqa peşəsi olmayan adama heyvandan başqa nə ad vermək olar?" ("Hamlet").

Leninqradlı psixoloq professor B.Q.Ananyevdən soruşmuşlar ki: "Müharibə Sizə nə verdi?" O, cavabında deyir: "Mənə aydın oldu ki, insanda nə qədər dözüm varmış. Mən insanda əvvəllər guman



etmədiyimiz gizli imkanlar gördüm. Başa düçdüm ki, insanın imkan problemindən yüksək problem yoxdur. Mən dərk etdim ki, insan hər şeyə qadirdib".

U.Fillips yazır: "Çətinliklər insanda həmin çətinlikləri dəf etmək bacarığı yaradır". Hamımız bilirik ki, həyat hər birimizin qarşısında müntəzəm olaraq bu və ya digər əngəllər yaradır. İnsan isə öz fiziki, intellektual və emosional ehtiyatlarını səfərbər edərək bu əngəllərə qalib gəlməyə çalışır. Bununla bərabər, həmin ehtiyatlar insanlarda tükənməz və bir-birinə oxşar deyildir. Hətta bir adamda bu ehtiyatlar ümumi yaş mərhələlərindən asılıdır.

Elə buradaca L.Bethovenin bir fikrini yada salaq: «İnsanın ən ali keyfiyyəti onun dönməzliyi və sərt əngəllərə qalib gəlməsidir».

S.Sveyq Mariya Styuartı xarakterizə edərək yazırdı: "Kim bu qadının belini bükməyə çalışır, əksinə ona kömək edir ki, o öz qamətini daha şax tutsun. Taleyin hər hansı amansız zərbəsi, dərindən fikir verdikdə, qəfil tapılan xəzinə və çox qiymətli hədiyyə təki onun xeyrinədir». Əlbəttə, iztirabın da xeyirli olması haqqında Dostoyevskinin fikri ilə razılaşmaq çətindir; ancaq insan möhnətinin heç olmaması da qorxuludur. Bəlkə də həmişə bəxti gətirən adama birdən bədbəxtlik üz verdikdə, o, qəfil iztiraba düçar olur və bununla da hədsiz əzab çəkir. Kim ki, müvəffəqiyyətsizliyə dözür, nəticədə həmin adam bu arzu olunmaz hissə alışır və dözür, neçə deyirlər:«Dəm dəm gətirər, qəm də qəm eylər».

Köhnədən belə bir fəlsəfi həqiqət məlumdur: «Məğlubiyyət – ruhən zəiflik, qəlbən mətinlik yaradır».

Çində belə bir atalar sözü var: «Hər müvəffəqiyyətsizlik – müvəffəqiyyətə bir addımdır».

A.Düma yazır: «Müsibətlərimiz taleyimizin sapına düzülmüş təsbeh daşlarıdır və Allah onları rahatça oturub sayır».

Şedrin tərəfindən söylənmiş aşağıdakı fikir də maraqlıdır: «Firavan həyat sürmüş və heç bir əzab, əziyyət görməmiş adamlar başqalarının qəlbində sevinc qığılcımları yaradıb, könüllərdə yan-

ğınlar oyatmaq ehtiyacı duymaqdan çox uzaqdırlar. Beləəri yalnız fitnə-fəsad törətməkdə mahirdirlər:».

Çox təəssüf ki, bizim hər birimizin fərdi imkanlarımızdan və bacarığımızdan heç də həmişə istifadə edilmir. Kollektivlərdə adamların əmək fəaliyyətinin optimal təşkili problemlərinə də çox az fikir verilir.

Müasir adam ətraf mühitin vəziyyətini və şəraitini nəzərə almadan özü üçün süni surətdə sutkalıq ritm yaratmışdır. Yəni bizim hər birimizin öz şəxsi yaşayış tərzimiz özümüzdən asılı olmayan bir çox xarici amillərdən asılıdır. Məsələn, ticarətin təşkili, tibbi xidmətin xüsusiyyətləri, nəqliyyatın vəziyyəti, telefon xidməti və s.

Elə burdaca telefon xidməti haqqında bir neçə söz demək yerinə düşərdi.

F.Paturinin muşahidəsinə görə AFR-də telefon rabitə qovşağı stansiyaları səhərlər saat 9.30-la 11.30 arasında həddən artıq yükləndiklərindən, abonentlərlə üçüncü cəhddən sonra birləşmək xoşbəxtlikdir. Günün başqa vaxtlarında isə stansiyalar öz güclərinin ¼-ni sərf edirlər.

Qeyd etmək lazımdır ki, telefon stansiyalarının həddindən artıq yüklənməsinin əsas səbəblərindən biri telefondan səmərəli istifadə etmək bacarığımızın zəifliyidir.

Telefondan səmərəli istifadə etmək bacarıqımızı yoxlamaq uçün aşağıdakı iki suala cavab vermək lazımdır:

1. Öz tanışınıza şəxsi işiniz üçün – işə, xidməti işinizdən ötru isə – evə zəng vurursunuzmu?

2. Şəxsi söhbətinizi telefon söhbəti ilə əvəz etməyi mümkün hesab edirsinizmi? Məsələn, aspirantın elmi rəhbəri ilə üzərində işlədiyi dissertasiya haqqında söhbəti, həkimlə məsləhət və s.

Əgır bu suallara iki dəfə müsbut cavab verirsinizsə, hesab edin ki, siz telefonlardan istifadə etməyi bacarmırsınız.

Həyatımızın ahənginə bizdən bilavasitə asılı olmayaraq təsir edən xarici amillərdən biri də şəhər nəqliyyatıdır.

Məlumdur ki, saat 16. 30-la 18. 30 arasında şəhər nəqliyyatında maşınların sayı kəskin şəkildə çoxalır və hərəkətin intensivliyi artır. Bu da havada, işlənmiş qazın konsentrasiyasının səviyyəsini çoxaldır və bu səviyyə təhlükəli həddə yaxınlaşır.

Deməli, cəmiyyətin həyat ritmi, o cümlədən də ayrı-ayrı cəmiyyət üzvlərinin həyat ritmi həlli mürəkkəb və çətin olan və yuxarıda qeyd etdiyimiz (və digər başqa) problemlərin həlli ilə üzvi surətdə bağlıdır.

Olduqca maraqlıdır ki, təbiətdə həyat ritminin çox qəribə və ibrətamiz mənzərələrinə rast gəlirik. Belə ki, bitkilər əksərən özlərinin həyat ritmlərinə olduqca dəqiq əməl edirlər və bu da onların normal inkişafına, enerji qənaətinə və s. kömək edir. Məsələn, işıldayan dəniz yosunları ancaq gecələr özlərindən soyuq işıltı verən lyuminsasiyaedici (zəif işıltı verən) maddə ifraz edirlər. Onların zəif işıltıları gündüzlər heç bir effekt verməyi üçün yosunlar «işıqlarını söndürürlər», yəni işıldadıcı maddə ifrazı gündüzlər dayanır. Çox faydalı olardı ki, bəziləri dəniz yosunlarından öyrənsinlər. Dövlət idarələrində gündüzlər işıqların söndürülmədiyi hallara çox rast gəlirik. Bu çür halların ehtimalı mənzillərdə olduqca azdır. İbrətamiz bir faktı da qeyd edək ki, həşəratlarla bitkilər arasında, necə deyərlər, müəyyən razılaşma mövcuddur. Bitkilər həşəratları qəbul edən momentdə şirəni (nektarı) və tozçuğu səmərəli surətdə hasil edir. Çünki həşəratların və bitkilərin orqanizmlərində olduqca sinxron işləyən və hava şəraitindən asılı olmayan bioloji saatlar var. Yenə də şüursuz canlılardan öyrənməyə dəyər.

Müxtəlif ritmlər mövcuddur (sutkalıq, mövsümi və s. ritmlər). Fiziki, emosional və intellektual məhsuldarlığı təyin edən 23, 28 və 33 günlərdən ibarət ritmlər var. Bu günləri hesablamaq o qədər də çətin deyil. Bunun üçün adamın hal-hazıra qədər yaşadığı günlərin sayı əsas götürülür. Hesablama anadan olan gündən aparılır. Bir çərşənbədən digərinə keçidi əks etdirən gün – kritik (və ya böhran) gün adlanır.

Məsələn, bir şəxs 1956-çı il dekabrın 25-də anadan olmuşsa və biz hesabı 1979-cu il dekabrın 20-də aparırıqsa, yaşanmış günlərin sayı 23X305-6 = 8389 olur. Bu rəqəmin üzərinə 1950-cı

ildən 1979-cu ilədək 29 günlü fevral aylarının sayını (5) əlavə edək. Beləliklə, 8394 alınır. Sonra bu rəqəmi uyğun olaraq 23-ə, 28-ə və 33-ə bölüb qalıqlar tapılır. Bu qalıqlar uyqun olaraq 22, 22 və 12-dir. Birinci qalıq periodun yarısından çoxdur və bu da hər hansı fiziki imkanın enməsinə, ikinci qalıq da yarısından çoxdur və bu, emosional imkanın enməsinə müvafiq gəlir. Üçüncü birinçidə yerləşir (16,5-dən azdır) və bu, intellektual səviyyənin yüksəlməsinə müvafiq gəlir.

Həftədə tsikllərdən biri sıfıra (0) bərabərdir. Belə günlərdə adam özünün fiziki, intellektual və emosional ehtiyat mənbələrindən istifadə etdikdə çox diqqətli olmalıdır.

Bir çox alimlər hesab edirlər ki, orqanizmin bioritmləri bizim planetimizin təbii elektromaqnit sahəsi ilə sinxronizasiya olunur. Həm də əngəllərin səviyyəsi artdıqca sinxronizasiya pisləşip.

Bəziləri qəbul edir ki, ritmlər moda kimi bir şeydir və heç bir elmi əsası yoxdur.

Bioritm əleyhdarlarının əsas dəlillərindən biri aşağıdakı sadə hesablamadır. Saat əqrəbi hərəkətinin 30 gün ərzində xətası 0,3 gün olarsa (və 30 günü bir dövr – tsikl qəbul etsək) 50 yaşlı adam üçün tsikllərin sayı 600-ə bərabərdir. Onda bu müddət ərzində xəta 180 günə, yəni 6 aya bərabər olur. Bu xətanı, heç olmasa, bir neçə günə endirmək üçün 0,01 faiz dəqiqlik lazımdır. Bunu kvars saatları vasitəsilə əldə etmək olar.

Etibarlı dəlillər göstərir ki, ritmləri elmi əsaslarla öyrənməklə Yaponiyada (sürücülərin işlərini planlaşdırdıqda) və Sovet İttifaqında, o cümlədən Bakı buxtasında qəzaların sayını azaltmaq mümkün olmuşdur.

Sürücülərin günahı üzündən baş verən qəzaların üç hesablama ritminə uyğun gəldiyini ilk dəfə tədqiq etmiş müəlliflərdən biri – Le Rua bir ildən sonra elan etdi ki, onların istifadə etdikləri statistika metodu düzgün deyilmiş və təkrar yoxlamalar «üç ritm» ehtimalını təsdiq etməmişdir.

Çinli astronom Can Tszyuysyan Çinin yollarında baş vermiş avtomobil qəzalarının və bədbəxt hadisələrin statistik təhlilinə əsasən, yol-nəqliyyat hadisələrinin 60 faizinin ayın dolğun ay



(məhtab) və yeni ay dövrləri, eyni zamanda ayın ilk və son fazaları (belə günlər təqvimdə 147 gündür) ilə izah edir. («Sovetskaya Rossiya», 11.02.1987).

Tibetdə tapılmış tibb kitabələrində göstərilir ki, ilin hansı çağında xəstələnmə ehtimal olunur və ya bədənin sağlamlığı üçün əlverişli şərait yaranır. Bu təlimə müasir dövrdə – bioritmolokiya deyilir.

Bu kitabələrdə hər tsikli 12 ildən ibarət olan sistem diqqəti daha çox cəlb edir. Qeyd olunur ki, insan oğlu hər 12 ildən bir təbiətin zərərli və qəzəbli təsiri önündə südəmər körpə acizliyinə məruz qalır. Həmin tsikllərlə rastlaşan müddətdə, ələlxüsus insan ömrünün çiçəkləndiyi 37 və 49 yaş dövrlərində «özünü gözləmək» – bioritmologiya əsasında profilaktiki tədbirlər görmək tövsiyə olunur.

Bəzi tədqiqatçılar bioritmlogiyada «Ömrün düyünləri» adlı termin də işlədirlər. Bununla onlar musiqiçilərdə, şairlərdə, yazıçılarda, rəssamlarda və alimlərdə üç-dörd illik tsikllə yaradıçılıq aktivliyinin artıb-azalma növbəliyini nəzərdə tuturlar.

Bioritmologiyaya əsasən şəxsi yaradıcılıqda ən əlverişli «Ömür düyünü» fərdi dövriliyə malikdir. Məsələn, «səhər tipləri» adlananlar ən yüksək işgüzarlığa səhərlər, «axşam tipləri» isə axşamlar malik olurlar.

İşgüzarlığın ən qızğın məqamını (məs, quşlardan torağay üçün – saat 9-la 10 və 16 ilə 17 arasında, bayquş (bəyquş) üçün isə saat 11-lə 12 və saat 18-lə 20 arasındadır) bildikdə ümumi iş rejimini orqanizmin xüsusiyyətinə uyğun olaraq planlaşdırmaq olar.

Bu halla L.Qlıbin («İzvestiya», 31.12.84) razılaşmır. O, statistik metodlar əsasında minlərlə xəstəlik tarixini, ölüm vaxtını, təvəllüd tarixini və s. təhlil edərək insanın daxilinin gündəlik bioritmini tərtib etmişdir:

1. İnsan üçün sutkada beş fizioloji çoşğunluq müddəti var (saat 5-dən 6-ya, saat 11-dən 12-yə, saat 16-dan 17-yə, saat 20-dən 21-ə və saat 24-dən gecə saat 1-ə qədər);

2. Beş süstlük müddəti qəbul olunur (saat 2-dən 3-ə, saat 9-

dan 10-a, saat 14-dən 15-ə, saat 18-dən 19-a, saat 22-dən 23-ə qədər).

D. d'Ortos tərəfindən 1792-ci ildə kəşf olunmuş orqanizmin sutkalıq sirkad ritmi[1] insanın 50 fizioloji funksiyalarını idarə edir. Sutkalıq bioloji saat xüsusən bədənin temperaturunun, tənəffüsün, qara ciyərin aktivliyinin, böyrəyin işinin, qanın tərkibinin və s. dəyişmə ritmini xarakterizə edir. Belə ki, adətən qan təzyiqi səhər saat 9-da aşağı, saat 18-də isə çox yüksək olur. Ürək döyüntüsü tezliyinin maksimum qiyməti saat 18-də, minimum qiyməti isə saat 4-də müşahidə olunur. Bədənin hərarəti saat 9-dan başlayaraq artır və ən yüksək temperatur saat 12 radələrinə təsadüf edir. Saat 18-dən başlayaraq hərarət düşür və səhər saat 3-4-də temperatur mininuma enir. İş gününü səhərlər lap tezdən başlamaq lazımdır. Çünki səhər saat 5 fizioloji coşğunluğun ən əlverişli çağıdır.

Adamın ən yaxşı işgüzarlığı saat 13-ə qədərdir. Saat 21 və 22 radələrində yatmağa başlansa, saat 4-də, ya 5-də oyanmaq çətin deyil.

İnsanın yemək rejimi gün ərzində belədir: saat 4-də və ya 5-də, 10-da, 15-də və 19-da. Yuxudan oyandıqda mədənin aktivliyi artır və təxminən günorta maksimuma çatır, sonra tədricən azalaraq minimuma enir və gecə saatlarında az qala tamamilə yox olur. Ona görə də ancaq günorta saatlarında çox yemək məsləhət görülür. Belə ki, günorta yeməyi gündəlik normanın 40-50 faizini təşkil etməlidir.

Ritmlər haqqında söhbətə bir də qayıdaq. Ritmlər X və U adlanan iki növə bölünür. U ritmi sakitlik və aktivlik tsiklləri üçün xarakterikdir. Bədən temperaturunun dəyişməsi ilə əlaqədar gümrahlıq və yuxunun gəlməsi X ritmə uyğun gəlir və U ritmdən fərqli olaraq dəyişməyə çox yavaş uyğunlaşır.

Reaktiv təyyarələrdə uçuş, növbəli işlər sirkad ritmlərlə bağlıdır.

[1] Sirkad ritmi *(latınca circa–yaxın, dies–den)*–sutkaya yaxın.



Bioritmləri nəzərə alaraq Harvard Universitetinin fizioloqları aşağıdakı prinsip əsasında qurulmuş cədvəl işləmişlər; işi saat əqrəbinin hərəkəti istiqamətində qabağa çəkəndə, adam, vaxta, bu əməliyyatın tərsinə elədiyindən daha tez uyğunlaşır. Üç həftəlik tsikldən sonra bir neçə günlük istirahət verdikdə əsəb sisteminin vəziyyəti tamamilə bərpa olunur. Bu sistem «Solt-Leyk-Mineral» (ABŞ) şirkətinin mədənlərinin birində müvəffəqiyyətlə sınaqdan keçirilmişdir. Nəticədə xəstəliyə görə işə çıxmamaq halları və qəzaların sayı azalmış, əmək məhsuldarlığı artmışdır («Medisinskaya qazeta», 8.01.1988).

İ.M.Seçenov adına 1 Moskva Tibb İnstitutunun əməkdaşları müəyyən etmişlər ki, tələbələrin 25 faizi səhər tipinə, 35 faizi axşam tipinə aiddirlər, 40 faizində isə müəyyən periodlu yüksək işgörmə qabiliyyəti yoxdur.

İşgörmə qabiliyyəti həftənin günlərinə görə dəyişir. Ən yüksək işgüzarlıq həftənin çərşənbə axşamı, cümə axşamı günlərində müşahidə olunur. Ritmlər problemi tez-tez müzakirə olunur. Ritmlərin 23,28 və 33 sutkalarda periodikliyini göstərməkdə məqsəd mübahisə açmaq yox, əksinə diqqəti bu əhəmiyyətli və maraqlı porblemə yönəltməkdən ibarətdir. Rejimə təsir edərək, onu dəyişdirib, ehtimal ki, insanın ümumiyyətlə davranışına təsir etmək olar.

Xronobiologiya ilə neft-qaz sənayesinin əlaqəsini göstərən bir misala diqqət yetirək. Sibir və Şimal rayonlarının təbii sərvətlərinin istifadə olunması növbəli briqadaların köməyilə edilirdi. Məsələn, qazmaçılar iş yerlərinə iki-üç ay müddətinə uçurdular və sonra öz evlərinə qayıdırdılar. İş yerlərində boş vaxtlarını keçirmək üçün fəhlə və digər işçilərin heç bir əyləncə və istirahət yerləri olmadığından gündəlik qayda belə tərtib edilmişdi: səkkiz saat işləmək – səkkiz saat yatmaq – səkkiz saat işləmək. Bu cür vaxt bölgüsünə əməkçilər çətinliklə alışırdılar. Xronobioloqlar müəyyən etdilər ki, qısaldılmış sutka rejimi adamlara tətbiq olunmamalıdır.

Aparılan tədqiqatlar nəticəsində müəyyən oldu ki, növbə briqadaları üçün bir ay müddətində sutkanı tən yarıya bölmək lazımdır: on iki saat işləməli, on iki saat yatmalı.

Əgər növbətçi briqada iş növbəsinə birinci həftə gündüz, o biri həftə gecə gəlirsə, bu halda təktif edilmiş rejimi bir ay yox, 16 gündən ibarət götürmək təklif olunurdu.

Məlumdur ki, çox vaxt baş tutmayan kəbinlərin, get-gedə artan boşanmaların səbəbini, necə deyərlər, dövriliklə (tsikliliklə) bağlayırlar. Dövriliyin əsasında iki moment durur: gərginlik – zəiflik, süstlük (insan orqanizmində gümrahlığın və süstlüyün ritmlə bir-birini əvəz etməsi).

Əsrarlı zaman axını əzəldən əbədə üz tutub gedir. Bu bir istiqamətli, yəni geri dönməyən axının müəyyən məqamlarında mənəvi entropiya[1] mümkündür. «Antiideallar müəllifləri» sinələrinə döyüb deyəndə ki, dünyada «nə Şiller, nə şöhrət, nə eşq», «nə müqəddəs olan, nə müqəddəslik» qalmadı, etik qeyri-müəyyənlik çoxalır, həm də bu, bəzən pis musiqinin ritmlərinə oxşar şəkildə inkişaf edir.

Edqar Po çox gözəl hekayələrinin birində maraqlı bir əhvalat yazır: «Müdhiş və azman bir varlıq qəfildən adamın gözü önünə gələrək, dünyanın üzünü örtür. Bu əcaib mənzərə gözün optik aldanması, qəribə qavrayış tərzidir. Kifayətdir ki, adam başını azca yana çevirsin, dərhal fantastik azman kiçilib qara nöqtəyə dönür. «Antiideallar müəllifi» də bircə anlığa dünyanın üzünu örtən, günəşə pərdə çəkən, müdrikliyi və xeyirxahlığı heçliyə çevirə bilən fəlakət ola bilər. Bəzən bircə an lazımdır ki, bu mənfur fəlakət bəşəriyyətin taleyini dəhşətli səmtə yönəltsin, məşəqqətlərə, amansız bədbəxtliklərə bais olsun. Məlumdur ki, inkişaf yollarında maneələr, əngəllər, sədlər nə qədər çox yüksək və mürəkkəb olarsa, insan qüvvəsinin aktivliyi, potensial imkanları da o qədər yüksələr və mətinləşər. Təsadüfi deyil ki,

[1] Entropiya *(yunan – dönəm, çevrilmə deməkdir)*–cismin və sistemin vəziyyətini xarakterizə edən fiziki kəmiyyətlərdən biri; hadisə və proseslərdə enerjinin yayılması və s.



bəxti gətirən və taleyi həmişə üzünə gülənlərin əksəriyyəti, yaradıcılığın zirvəsinə yüksələ bilməmişlər və onların potensial baçarıqları, imkanları istifadə olunmamış qalmışdır.

Bu heç də o demək deyildir ki, insan mətinləşsin deyə onun ömür yolunda süni maneələr yaratmaq lazımdır. Xeyr, adam gərək həyatda rast gəldiyi çətinlikləri dəf etməyi baçarsın, öz daxili imkanlarını səfərbər edə bilsin, mübariz olsun, məsləki uğrunda canından keçməyə hazır olsun. «Yaşamaq və azadlıq o kəslərə layiqdir ki, o hər gün onların uğrunda mübarizə aparır» (Höte).

Azadlığa münasibəti Henrix Heyne bədii şəkildə belə ifadə edir: almanların azadlığa münasibəti nənəsinə, fransızlarınkı isə məşuqəsinə münasibəti kimidir. İngilislər belə hesab edirlər ki, azadlığa münasibət öz kəbinli arvadına münasibət kimi bir şeydir. Amma böyük türk şairi Tofiq Fikrətin (1867 – 1915) bu ulu misralarındakı ölməzliyə, şəxsiyyətinin əzəmətinə fikir verin:

Kimsədən feyz ummaram, mən qol-qanad borc almaram,
Öz havam, öz göylərimdə uçmağa mən qadirəm.
Yaltaq olub boynuma köləlik zənciri salmaram,
Fikri hürr, ilhamı hürr, vicdanı hürr bir şairəm.

Düzgün olmayan belə bir nöqteyi-nəzər də mövcuddur: bərabərlik artdıqca azadlıq məhdudlaşır.

Şəxsi azadlıq ictimai azadlıqdan ayrı mövcud olmadığı kimi, azadlıqdan kənarda da həqiqi gözəllik yoxdur.

M.Prişvinin aşağıdakı müdrik sözləri kollektivin hər bir üzvü üçün mütləq sayılmalıdır: «Ən yüksək mənəviyyat – özünü kollektivin xeyrinə fəda etməkdir. Ən yüksək mənəviyyatsızlıq – kollektivin öz xeyrinə şəxsiyyəti məhv etməsidir».

L.N.Tolstoy mənəviyyatı üç yerə bölür:

1. Şəxsiyyətin "mən"i xeyrinə xidmət edən mənəviyyat.
Bu, çırlığın mənəviyyatıdır.
2. "Mən" olan mühitin ziddinə xidmət edən mənəviyyat.
Bu vəhşiliyin mənəviyyatıdır.
3. Bütün insanlığın xeyrinə xidmət edən mənəviyyat.

Bu, ümümbəşəri mənəviyyatdır.

Biz üçüncü növ mənəviyyatla – ümümbəşəri mənəviyyatla yaşamalıyıq.

"Ləyaqətlə düşünmək – mənəviyyatın əsası budur» (Paskal).

Marksist-leninçi təlimə görə kommunizm – hər bir kəsin azad inkişafının, hamının azad inkişafının əsasını təşkil etdiyi cəmiyyətdir. Gənclərə «mənəvi gigiyenalarını» (Gertsen A.İ.) inkişaf etdirmək mütləq lazımdır.

Özgə səadətinə zor edənlərə, onu talayanlara, insanlıqla və təbiətlə düşməncəsinə üz-üzə duranlara həyatda yer yoxdur.

Təəssüf ki, elə adamlara rast gəlirik ki, onlar üçün hələ «ortada yeyib, qıraqda gəzmək» prinsipi hökm sürür.

Hər bir şəxs özündə mübarizlik əhvali-ruhiyyəsi, dönməzlik, əqidə saflığı tərbiyə etməlidir. Lakin həmişə nəzərdə saxlamaq lazımdır ki, rast gələnə biləcək gözlənilməz maneələr adamı kədərli aqibətə düçar edə bilər.

Düşmən mərhəmətinə möhtac olanlara nə öyüd, nə də nəsihət təsir etməz. Klassik zərb-məsəl: «Qaliblər muhakimə olunmurlar», eyni zamanda məğlublar üçün həmişə mənən əzab və əziyyət simvoludur.

Böyük Napoleon öyrədirdi: «Düşmənə qələbə çalmağın ən əla üsulu – düşməni özünə dost etməkdir».

O.Balzak «İtirilmiş xülyalar» əsərində yazır: «Təbiətdə olduğu kimi, həyat iki başlanğıcın mübarizəsindən yaranır! – deyə Fülcane həyəcanla qışqırdı. – Birinin digəri üzərində qələbəsi ölümdür.» Və Balzak, «Ən böyük fəlakət ortababın istedadla mübarizəsidir» – deyəndə necə də haqlıdır.

«Məğlublara müsibət!» (lat. vae victis – ve viktis). Bu qəzəb ifadəsini, Tit Liviyin yazdığına görə qalların sərkərdəsi Bryun romalılar üzərində qələbə çaldıqdan sonra demişdir:

Yeri gəlmişkən deyək ki, «Qaliblərə hər şey, qalanlarına heç nə» prinsipi majoritar (əksəriyyətə əsaslanan) seçki sistemlərinin təməlini təşkil edir.



Ömrünün qoca çağlarında belə, F.Engels mübarizədə olmuşdur. Bunsuz çox sevdiyi həyat onun üçün bütün mənasını itirərdi. O yazırdı: «Mübarizə aparmaq qabiliyyətimi itirəcəyim an çatanda, özümə ölüm diləyirəm». Bütün bu deyilənlərin məntiqi yekunu F.Engelsin sözləri ilə daha mənalı səslənir: – Kim özgələrlə vuruşur, qazancı ritorikadır. Kim ki, öz-özü ilə vuruşur, nəticəsi poeziyadır.

Elələrinə də rast gəlirik ki, Henri Palmerston kimi «güclu düşmənlə mübarizədən fərariliklə uzaqlaşıb, zəifləri özlərinə düşmən seçirlər» (Karl Marks).

Məlumdur ki, L.N.Tolstoy belə hesab edirdi ki, hətta zülmkarlara qarşı güc işlətmək özü zülmkarlıqdır.

Odu odla söndürmək mümkün olmadığı kimi, qanı da qanla yumaq olmaz. Bu sözlər Böyük Nizaminin fəlsəfi dünyası ilə necə də həmahəngdir:

Əldə iti qılınc varınsa əgər,
Bu, qan axıtmağa dəlildir, məgər?.

Zəngin Azərbaycan folklorundan bir müdrik kəlam: Biri od olanda, o biri su olmalıdır.

Çox təəssüf ki, bəziləri Tatsit kimi belə hesab edir ki, adam ədalətsizlik etdiyi şəxsə qarşı axıra qədər ədalətsiz olmalıdır. Lakin:

İşıq zülməti,
səhhət mərəzi,
bolluq ehtiyacı
Məhəbbət nifrəti boğar

***Rəsul Rza.***

İnsan nifrətində də, məhəbbətində də nəzakətli olmalıdır. Ancaq nəzakətli rəftar adamı mübarizədən yayındırmaq demək deyil, əksinə, bu, müvəffəqiyyət üçün əlavə ümid yaradır.

Nəzakətli rəftara misal, ən çətin şəraitdə Fransa kralı XIV Lüdoviklə şair Bualo arasında baş vermiş mübahisəni göstərmək olar. XIV Lüdovik 54 il Fransanın kralı olmuş və bu dövrü

Volter «XIV Lüdovik əsri» adlandırmışdır. Bu dövr Fransanın hərbi qüdrətinin və təsərrüfat inkişafının görünməmiş dərəcədə çiçəkləndiyi dövr idi. «Dövlət – Mənəm» – bu məşhur kəlamın XIV Lüdovik tərəfindən deyildiyi də bəllidir.

Bu cür qüdrətli dövlət rəhbəri və xadimi Bualoya müraciət edərək, ondan öz şerləri haqqında rəyini soruşur. Bualo cavab verir: «Mən Sizə qibtə edirəm, Əlahəzrət. Siz kefiniz istəyəndə pis şer də yaza bilərsiniz».

Bir qadının albomuna Lermontov belə bir epiqram yazmışdır: «Qədim dünyada qadın gözəlliyi üç lətafətbirliyi kimi qəbul olunurdu. Sizinlə üçü yaranıb, dördü yox». V.Solouxin qeyd edir ki, gərək belə yazılaydı: «Sizin yaranmanızla bu lətafət dörd oldu».

Nəzakətli rəftara yad olan bəziləri böyük mütəxəssislərə, alimlərə etibar etməməkdə özlərini haqlı sayır və onlardan öyrənmək istəmirlər.

Məsələn, bir oxucu Simferopoldan "İzvestiya" qəzetinin redaksiyasına yazır («İzvestiya», 29.01.1984.): «Hörmətli alim, tibb elmləri üzrə akademik M.Kuzin «İzvestiya» qəzetinin (№ 295 – 296, 1983) səhifəsində zəhləmizi tökür. Nə mikrobbazlıqdır, o hansı mikrobdur? Cərrahiyə əməliyyatından qabaq əlinizi yuyub əlcəyinizi geyin, vəssalam». Aqıldan yüngüllüyün bariz nümunəsi!

Təəssüflər olsun ki, belələrinə rast gəlirik: «Bilirsinizmi makedoniyalı İskəndərin müəllimi böyük Ərəstun ötəri gördüyü *adamın portretini sözlə çox dəqiq təsvir edərmiş*. Belə əlahiddə müşahidəçilik qabiliyyətinə bir çox pedaqoq şəxsiyyətlər, o cümlədən Pestalotsi, Leoqaft da malik imişlər.

Bilmirdiniz? Bilin ki, tibb yataqxanalarında ən yaxşı tərbiyəçi qadın adı uğrunda keçirilən baxış-müsabiqədə bu cür suallar heç kəsi utandırmadı. («Medisinskaya qazeta», 22.02.85 «A vot oni znayut» məqaləsindən).

Tələb etmək, müvəffəq olmaq, qəzəblənmək – özünü ingilislər kimi aparmamağın ifadəsidir.

Bəzən deyirlər ki, «adam deyil ki, od parçasıdır». Ancaq belə hallarda vəziyyəti – «ocaq yanmasa, alov çıxmaz» (Heraklit) səviyyəsinə gətirib çıxarmaq düzgün deyil.



Poetik dildə bəzən yöndəmsiz ifadələri, əsas məzmununu saxlamaqla evfemistik (evfemizm – yun – ədəbli danışıq deməkdir) əvəzləmədən istifadə edərək yumşaq tərzə gətirirlər. Məsələn, A.S.Puşkinin epiqramından oxuyruq:

Ədəbsiz hərəkətdir küçə söyüşü;
Nə lazım deyəsən, bu kaftar kişi –
Çeşməkli keçidir, böhtançı, mızı,
Əclaf və alçaqdır – arsız, qırmızı...
Şəxsiyyəti bu cür təqdim etməyin,
Bax, belə ərz edin, dərin getməyin:
Bu cənab Parnasski – köhnəpərəstdir,
Uzun danışandır, şirin nitqi var,
Baxışı mənalıdır, özü lütfikar...
(Nə çox seçmə sözlər, sadala bir-bir.)
Şən qaradinməzdir, əla tənbəldir...*

Epiqramın ikinci hissəsi – evfemizmdir[1].

Onomastikada[2] evfemistik adlar var, belə ki, öz adını daha nəcib adla dəyişmə mərasimi mövcuddur. Məsələn, familiyanın dəyişdirlilməsi: Bardakov – Burdukov, Smertin – Smirnov və s.

Həminqueyə görə süni çətinliklər bəzən yaradıcılığa kömək edə bilər: "Ayaq üstə durub narahat vəziyyətdə yazmaq, rahat kresloda tənbəlliklə yayxanaraq əlyazmasını düzəltmək" və s. Başqa misal. Maler deyir: "Musiqiçilərə mənim idarəmlə çatmaq çətindir (onlar özləri şikayətlənirlər), ona görə ki, mən hətta iki dəfə dalbadal eyni tempi götürmürəm. Mənim üçün bir əsəri hər dəfə tapdanmış eyni üsulla ifa etmək həddən artıq cansıxıcıdır. Ona görə də mənim tələbkarlığım musiqiçilərə və oxuyanlara yaxşı təsir bağışlayır. Onlar boşalıb tənbəlləşə bilmirlər. Və həmişə hazır olmalıdırlar".

[1] Bibliyada (tövratda) evfemizdən belə istifadə olunur: "O, öldü" əvəzinə "O, artıq yoxdur", "O, əbədi dinclikdədir), "O, öz əcdadlarının yanındadır" və ya "Öz əcdadları ilə bir yerdədir" işlədilir. Qəbiristanlınıq "Ədədi ömür evi" adlanır.

[2] Onomastika – yunanca ad qoyma adəti deməkdir.

Vyana operasının bədii rəhbəri L.Maazel qeyd edir ki, bir partituraya hər dəfə eyni cür dirijorluq etmirəm.

A.Morua deyir ki, Labryuyerin məharəti ondan ibarətdir ki, o, adamı həmişə gərginlikdə saxlayır. O, heç vaxt yazmaz: "Kamil ağıla brilyantdan, mirvaridən az təsadüf olunur", ancaq yazar: "Ağılın kamilliyindən sonra dünyada ən nadir şey – brilyant və mirvaridir".

Xatırlayaq ki, "dəqiq elmlərin estetikasının" vaxtında yarandığını alqışlayan Brext, gözəlliyi "çətinliklərə sinə gərmək" kimi qəbul edirdi.

Çətinliyi yumorla, gülə-gülə qarşılamağı bacarmaq lazımdır. V.Ovçinnikov deyirdi ki, ingilislərin gücü elə bundadır.

Hələ Gertsen yazırdı ki, fəaliyyətsizlik – ağzı bağlı qabda saxlanan zəhərdir. Çox ehtimal ki, elə bizim mühitimizə – biganəlik zəhəri, dardüşüncəlik, səksəkəlik, acgözlük və fərdi nihilizm burdan gəlir.

Yumor və hazırcavablıq indi sadaladığımız və mənəvi dünyamızın bu qəliz mərəzlərinin dərmanıdırlar. Onu da deyək ki, yumor və hazırcavablıq bir-birinin əksinə yönəlmiş proseslərdir. Yumorda mənfi emosiyadan (həycandan) müsbət emosiya vəziyyətinə keçid baş verir, hazırcavablıqda isə keçid əksinə baş vermir.

İngilis yumoruna misal olaraq, Tomas Morun Londan Tayeri[1]-nin qabağında eşafota (ölüm kürsüsü) söykənərək cəllada dediyi sözlərə fikir verin: "Siz mənə kömək edin yuxarı (ölüm kürsüsünə – A.M.) qalxım, aşağı özüm birtəhər düşərəm".

Başqa bir misal, Fransua Biyonun qətlindən bir az əvvəl dar ağacının yanında dediyi şeir:

> Mən-şair Fransua qəmli, mükəddər,
> Budur dayanmışam ölümün önündə.
> Heç bilmirəm dalım, gələr nə qədər?
> Yəgin ki, boyunum biləcək səhər.*

---

[1] Tayer (ink. – qüllə deməkdir) – Londonda qəsr-qalaça, hazırda muzeydir.



Şolom Aleyxem yazır ki, yahudi yumoru ən çətin anlarda belə gülüş ədaları tapması ilə səciyyələnir.

İnsanın acizliyini göstərən, lakin onu təhqir etməyən, güldürən, fəqət utandırmayan Çexov yumorunun bitib tükənməyən məna çalarları ən yumşaq və ən sevincli gülüş mənbəyidir. L.N.Tolstoy deyirdi ki, Çexov yumorunda nə isə insanları birləşdirən sirli bir xüsusiyyət var və yəqin bu ona görədir ki, tək-tənha gülmək insani keyfiyyət deyil.

Xüsusi məharətlə pərdələnmiş, daha doğrusu "hiyləgər" yumor da mövcuddur: yəni düşündüyündən yox, tamam başqa bir şeydən danışılır (Siseron).

Sokratın yumoru təbii və sadədir, daha doğrusu "qeyri-sünidir". Onun yumorunda "özündən ağıllısını axtarmaq cəhdi", "ağlın qüdrətinə inam" hakimdir.

Bəzi lətifələr, şayiələr yumor adı altında yayılmaqla, əslində "müəyyən məqsəd güdən şayiələrin təbliğ olunması" məqsədi daşıyır. Bir amerikalı tədqiqatçı bunu belə izah edir: "Bu cür metodlar şayiələrdən məqsədyönlü istifadə edərək, bir qrup adamların ağıl və hisslərinə müəyyən məqsədlərlə – hərbi, iqtisadi və siyasi sahədə təsir etməkdən ibarətdir".

Yeri gəlmişkən, şayiələrin yayılmasında mümkün modellərdən birinə – Monten tərəfindən verilmiş modelə diqqət edin: "Əvvəlcə bir şəxsin yanlış fikri hamının yanlış fikrinə çevrilir, sonra ümumiyyətinki şəxsi yanlış fikirlərə çevrilir. Və hərə bir şey əlavə etməklə bu üst-üstə qalanmış yanlışlar böyüyür, çoxalır, artır...".

Roma natiqlik məktəbi xadimlərinin arasında xüsusi yeri olan Krass – mənalı və parlaq zarafatın, dəqiq hazırcavablığın ustası sayılırdı. Kuriyanın müdafiəsində Stsevolaya qarşı döyüşdə o, düşmənə qarşı acı hərzə-hədyanlar yağdırmayıb, əksinə, rəqibin ləyaqətinə hörmət etməklə, öz ləyaqətini də qoruyub saxlamışdır.

Ürəkdən güldürən, düşündürən yumor bütün xalqların tarixi boyunca yaşamaq tərzinə, duyum xüsusiyyətlərinə bir həyan olmuş və həmin xalqın mədəniyyətindən xəbər verən əlamətlərdən biridir.

Güldürən və gülən. Bunların vəhdətindən doğan hər şeyi unutma məqamları...

"İliçin gülüşündə hədsiz dərəcədə uşaq fədakarlığı vardı, gülüşün fədakarlığı isə onun yenilməzliydir. Bu, göstərir ki, onun varlığında, şüurunda öz qüdrətini duyma vərdişi mövcud idi" (Lunaçarski A.V.). "Onun gülüşü cazibədar idi – insan avamlığının yöndəmsizliyini və ağılın akrobatik bicliklərini görə bildiyindən "sadə qəlbli" adamların uşaq sadəlövhlüyündən həzz almağı bacarırdı" (Qorki A.M.).

Fransızların atalar sözlərindən biri belədir: "Gülənlərin sən tərəfdə olması vacibdir". Gülənlərlə birlikdə olan – mübahisənin qalibidir. "Gülüşdə nə isə bir inqilabilik var" (Gertsen A.İ.).

Qədim rus kitablarından birində yazılırdı: ("Heç nə, zarafat qədər ehtiyat, məharət və iti ağıl tələb etmir. Odur ki, zarafata başlamazdan qabaq zarafat edəcəyin adamın nə dərəcədə səbirli və ağlı başında olduğunu bilmək lazımdır".

Azərbaycanda belə bir məsəl var: "Zarafat məhəbbətin qayçısıdır".

Qabrovoda dillərdə dolaşan bir zarafat var: "Dünyanı ölümdən qurtaran gülüşdür".

"Kim ki, zarafatı rədd edir, o öz gücünə inanmır. Belə adam qıdıqdan qorxan Herkulesdir" (Pol Valeri).

Bəzən ən sarsıdıcı tənqid üzdə təbəssümlə ifadə edilir. H.Heynenin dediyi kimi: "Keçmişdə cəngavərlər kəmərlərində qılınc gəzdirirdilər. Biz isə indi daha güclü silah – dodaqlarımızda gülüş gəzdiririk". N.V.Qoqol yazır: "Hətta heç nədən qorxmayan da gülüşdən qorxur".

Azərbaycanlıların atalar sözündə deyilir: "Sözün düzü zarafatda deyilir".

Bəzi zərb-məsəllərdə müəyyən hikmətli öyüdlərlə yanaşı, qeyri-məntiqi düşüncə tərzi, məzmunla formanın uyğunsuzluğu və s. tənqid edilir, hətta nadanlığa qarşı sarkazmlar da ifadə olunur. Məsələn: "O, Nuh sözünü yazanda yeddi səhv buraxır", "Nə ver, nə də hür", "Sual Valın hökmranlığı qədər davam edəcək", yəni bir gün" və s.

Lakin orta əsr ingilis şairi H.Çoserin sözlərini də yadda saxlamaq lazımdır: "Plaşın altında xəncər gizlədib gülən adamdan özünü gözlə".



Dövrünün Hippokratı adlanan XVII əsrin məşhur həkimlərindən biri T.Sidenqam demişdir: "Şəhərə onun əhalisinin sağlamlığından ötrü dərman yüklənmiş onlarla qatırın gəlməsindənsə bir təlxəyin gəlməsi daha xeyirlidir".

Psixogigiyena qaydasını şair S.Smirnov "Ən uzaq arxa" şeirində çox yaxşı ifadə edir:

Heç nə sevindirə bilməsə səni,
Yaşasın özüyün gülmək imkanın.*

Braziliyalı həkim David Akşteyn Rio-de-Janeyro Karnavalını psixiatrik nöqteyi-nəzərdən hərtərəfli öyrənərək Sidenqamın gəldiyi nəticəyə gəlmişdir: sən demə, əsəb yorğunluğu və nevrozun müalicəsi üçün bu karnaval ən təsirli vasitədir və bu mualicə üsulunu o, terpsixoretrosoterapiya adlandırılmışdır.

Məşhur Amerika yazıçısı Norman Kazinc düçar olduğu ağır xəstəliyi gülüşterapiyanın köməyi ilə müalicə etmişdir. Belə ki, o, bacara bildiyi bütün vasitələrlə öz əhval-rühiyyəsini həmişə nikbin saxlamış və bu da nəticə etibarilə onun sağlamlığı üçün tamamilə kifayət etmişdir.

A.S.Puşkin özünün dram əsəri "Mosart və Salyeri"-də Salyerinin dili ilə "qara fikirləri" başdan qovmaq üçün komedyanın ən güclü vasitə olduğunu belə qeyd edir:

...Bomarşe
Dönə-dönə deyirdi. "Qardaş, Salyeri.
Başına yığılanda qara fikirlər,
Ya şampan şərabıyla doldur fujeri,
Ya da
"Fiqaronun toyu"nu götür vərəqlə"*

Elə zarafatçılara rast gəlirik ki, səhərdən axşama qədər yeri gəldi, gəlmədi onunla zarafat edirlər. Bax bu, ictimai bəladır. "Gərək qədərində hazırcavab olasan ki, həddən artıq hazırcavab olmayasan" (A. Morua).

Çox vaxt bir-birimizdən mümkün olmayan şeyləri tələb edirik: "Yaxşı işçidir, ancaq həddən artıq xırdaçıdır, zəkalıdır, ancaq özündən çox razıdır, div gücünə malikdir, ancaq yorucudur, onun bu qabiliyyətləri ilə yanaşı xoş xasiyyəti olsaydı, nə yaxşı olardı".

Bütün bunlarla bərabər yaxşı mütəxəssisin və "sərt xasiyyətli" rəhbər işçinin kobudluğuna və qanmazlığına bəraət qazandırmaq olmaz. Kobudluq və qanmazlıq bəzi azsavadlıların düşündüyü kimi "sərbəstlik" və "güclülük" əlaməti deyil, əksinə zəiflik, qorxaqlıq əlamətidir.

Bununla əlaqədar olaraq K.Marksın H.Palmerstona verdiyi xasiyyətnamə yada düşür: "İndiyə qədər onu düşmənim bilib müəyyən müvəffəqiyyətə ümid etmək olurdu, ancaq indi onu bir dost kimi qəbul edirəm – deməli, qanuni məğlubiyyətlərim yaqindir".

Seneka yazır: "Adam nə qədər alçaq, nə qədər çox nifrətə layiqdirsə, bir o qədər sırtıq və boşboğazdır".

Xeyirxah və ləyaqətli adamlar alçaqların qəlbində nifrət və kin yaradırlar (paxıllığın ilk mərhələsi). Höte deyir: "Düşmənlərindən gileylənmə, əgər dostun olsaydılar, sənin şəxsiyyətin onlar üçün daimi və gizli məzəmmət obyekti olardı".

Bəzi adamlarda alicənablılıq – xudbinliklə, rəhmdillik – qəddarlıqla, ağıl-hiylə ilə əvəz olunmuşdur. (Laroşfuko).

SSRİ EA-nın xüsusi sessiyası 1965-ci ildə təsdiq etmişdir ki, 100 hadisədən, miokard infarktına səbəb: 20 kəskin əsəb sarsıntısı, 35 xroniki əsəb sarsıntısı, 30 işdə gərgin əmək sərfi olmuşdur (85 faiz).

Bu halda adam özünü kobudluq, alçaqlıq, kiminsə rəzil rəftarı qarşısında gücsüz hiss etdikdə əlbəttə ürək öldürücü təsirə məruz qalır. Hər cür qarşısıalınmaz ədalətsizliyin "ağırlığını" yalnız sol döşün altında çırpınan təbiətin möcüzəsi – ürək çəkir.

Kobudluq insanda anadangəlmə xasiyyət deyil, o istər-istəməz insana necə deyərlər "peyvənd edilir" və adətən uşaq yaşlarından etibarən tez-tez təkrar olunaraq kök salır. Nəticədə kobudluq xarakterin əsas əlamətinə çevrilir.



Tərbiyəsiz, kobud adamlar haqqında K.Marks yazır: "Kobud, tərbiyəsiz adam, kimliyinə baxmayaraq yanından keçəni küçə söyüşü və yer üzərində olar-olmaz hərzə-hədyanlarla təhqir etməyə hazırdır, yalnız ona görə ki, həmin adam təsadüfən onun ayağındakı döyənəyi basmışdır. O, öz döyənəyini insan rəftarını qiymətləndirməyin ölçüsünə çevirir". (Marks K., Engels F. Soç., t. I, s. 132).

Təəssüf ki, çox vaxt kobud adamın da "haqlı" olduğu, "qalib" gəldiyi halların şahidi oluruq. Kobudluğa qarşı ancaq kobudluq davam gətirə bilər.

Kobud adamların H.Bidstrupun bir rəsminə baxmaları pis olmazdı. Rəis tabeçiliyində olan bir nəfərlə kobud davranır, o da öz arvadı ilə qaba rəftar edir, arvadı oğluna bir dənə şillə ilişdirir, oğlu itinə təpik vurur və it də işdən qayıdan rəisi dişləyir.

Hamı ilə ehtiyatlı, təmkinli münasibət, bütün antipodlara qarşı münasibətdən tamamilə fərqlənməlidir. Burda L.N.Tolstoyun sözləri yada düşür: "Əgər zalım adamlar birləşib iyrənc hərəkətlər edirlərsə, onda namuslu adamların da birləşərək onlara qarşı eyni hərəkətləri etmələri vacibdir".

Burada tanış həkimin maraqlı bir kəlamını xatırlamaq yerinə düşərdi: bir nəfər ruhi xəstə min nəfər ağıllı adamı tez inandıra bilər. Nəinki min nəfər ağıllı adam bir nəfər ruhi xəstəni.

V.Belinskidən gəlişigözəl bir sitat daha mənalıdır: "Açığını deyim ki, bu povestəki əhvalat mənə, həyatda alçaqların müvəffəqiyyətlərinin səbəbini öyrətdi: sən demə, onlar namuslu adamlarla alçaqlarla etdikləri kimi, namuslu adamlar isə həmin alçaqlarla özlərindən hətta yüz dəfə namuslu olan adamlar kimi rəftar edirlər. Mübarizə qeyri-bərabərdir – müvəffəqiyyətin alçaqların tərəfində olacağı təəccüblüdürmü?"

Bütün fənalıqların, qeyri-insani hərəkətlərin yolunu insanlığın səyi ilə kəsmək vacibdir və mümkündür.

İbrətamizliyi ilə bərabər, tərbiyəvi əhəmiyyətini saxlamış xırdaca bir əhvalatın tarixin yaddaşına həkk olunub yaşamasına fikir verin.

İngilis kralı I Yakova, vaxtilə dayəsi olmuş qadın müraciət edir ki, onun oğlunu centlmen[1] etsin. I Yakov cavab verir: "Bunu mən bacarmaram, lakin onu qraf edə bilərəm. Centlmensə, o, özü-özünə etməlidir" (§ 10-a bax).

"Biz çox şeyə cürət etmirik, ona görə yox ki, bu, çətindir, çətini odur ki, biz cürət etmirik" (Seneka Kiçik).

Qüdrətin sirridir İnsan varlığı,
Kim bunu dərk edib, sonuna varmiş?...
Cəsurlarmı tapır bəxtiyarlığı?
Xeyir...
Vaxtla ayaqlaşan nail olarmış.*

*İ.V.Höte*

## § 3. İNSANA QİYMƏT VERMƏYİN MÜMKÜNLÜYÜ VƏ ÇOXMEYARLIQ MƏSƏLƏLƏRİ

Gəl burax, hərzə-hədyanları
Bu müqəddəs fərziyyələri.
Baş aparma, at gümanları
Düz danış, düz dolan, düz yeri...*

*H.Heyne*

Çox tez-tez eşidirik ki, adam haqqında ən əsası ilk təəssüratdır. Həqiqətən, əgər ilk görüşdə bir adam xoşunuza gəlirsə, siz ona gülümsəyirsiniz və o da öz növbəsində sizə təbəssümlə cavab verir. Deməli, əks əlaqə əsasında təbəssüm qarşılıqlı hüsn-rəğbətə gətirib çıxarır.

[1] Orta əsrlərdə öz qılıncları ilə qəzəbli və zülmkar hökmdarlara qarşı döyüşən mərd cəngavərləri centlmen adlandırırdılar. Hazırda centlmen – verdiyi sözün üstündə duran, vəd etdiyindən daha çox xeyirxahlıq edən, şövqsüz və bir az da şöhrətli olan adamlara deyirlər. Centlmen – özü haqqında yaxşı, başqası haqqında isə pis danışmaqdan boyun qaçıran adamlara deyirlər.



Alimlər təsdiq etmişlər ki, bir adam haqqında lazımi təəssüratın formalaşması üçün birinci dörd dəqiqə həlledici rol oynayır.

Amerikan psixoloqu C.Ceyms yazır: "Biz ona görə ağlayırıq ki, qəmliyik, eyni zamanda ona görə qəmliyik ki, ağlayırıq".

Bu onunla izah olunur ki, beyin, hər hansı fəaliyyətin nəticəsi kimi ona nail olmağın üsulunu da qeydə alır.

Homer deyir: "Nə cür söz desən, o cür də cavab eşidərsən". Rəğbət və nifrət (simpatiya və antipatiya) meylləri xüsusi instinktiv ünsiyyət səviyyəsinin mövcud olmasının nəticəsidir. Mehriban və mənalı baxış, səs və onun "ahəngli cingiltisi" bu səviyyənin ən başlıca meyarlarındandır.

Vaxt qıtlığı şəraitində, bir adam haqqında məlumat almaq üçün zahiri görünüşün ilk təəssüratına əsaslanırlar (başqasına münasibətin təxminən 85 faizi xarici görünüşdən alınan təəssürata əsaslanır).

İnsanı xarici görkəminin fiziki quruluşuna görə üç növə bölürlər. Fiziki quruluşun bu üç növündən ən cazibəliləri "mezamorflar" (uca boylu, inkişaf etmiş əzələli), qeyri-cazibəliləri isə "endomorflar" (qısa boylular, şişmanlar) hesab olunurlar. Arada yerləşənlər, "ektomorlardır" (arıqlar, sümükləri görünənlər). Maraqlıdır ki, adamlar, başqasının ictimai şəraitindəki ləyaqəti haqqında onun zahiri görkəminə görə hökm vermirlər, əksinə, zahiri görkəm, onun sosial vəziyyətini təyin edir.

Bir Çin zərb-məsəlində deyilir: "Ancaq rəsmi çəkəndə, onun necə bitdiyini dərk elə.

Bir şəxsi dərk etməkdə və onu qiymətləndirməkdə zehni inkişaf səviyyəsinin böyük əhəmiyyətini unutmaq olmaz. (§ 11-ə bax). Zehni və əqli inkişaf səviyyəsi yüksək olmayan adamlar hamını hamılıqca "yaxşı və ya pis" prinsipinə əsasən qiymətləndirirlər. Belələrində tanış olmayan şəraitə və adamlara uyğunlaşma prosesi, zehni və əqli inkişaf səviyyəsi yüksək olanlara nisbətən çox çətin gedir. Zehni və əqli inkişaf səviyyəsi yüksək olanlar başqalarını daha adekvat (eyni ilə) qəbul edirlər və dərhal qarşıdakının əhval-ruhiyyəsinin bütün çalarlarını dərindən duyur və onun xarakterindəki müxtəlifliyi aydınlığı ilə görürlər.

Burda A.P.Çexovun çox dəyərli bir fikri yada düşür: "Ancaq birinci təəssürata və ya bir-iki zahiri əlamətlərimizə görə bir-birimiz haqqında mülahizə söyləməyimiz üçün hər birimizin daxilində sonsuz sayda, necə deyərlər, "ehtiyat" hissəciklərimiz var".

Çoxlu miqdarda təcrübi tədqiqatlara əsasən məlum olmuşdur ki, yaşlarının bütün mərhələlərində kişilər öz imkanlarını, ictimai vəziyyətlərini və s. şişirdib böyütməyə çox meyillidirlər.

Öz-özünə qiymət verməkdə qadınlar, adətən daha təvazökar və realistdirlər. Bundan başqa, qadınlar özgənin dərdini və vəziyyətini daha incəliklə və daha həssaslıqla duyurlar.

D.S.Lixaçov yazır: "Ancaq ağıllı qadın başa düşür: nə etmək lazımdır ki, təbiətin ona verdiyi səlahiyyəti həmişə və minnətdarlıqla kişidən qəbul edərəkən, kişini, onun üstünlüyünə güzəştə getməyə mümkün qədər az məcbur etsin. Lakin bu, olduqca çətindir. Ona görə də təbiət özü çalışıb ki, kişidən fərqli olaraq, qadın, davranışında (mən istisnaları nəzərə almıram) yüksək rəftar və böyük, təbii nəzakət hissinə malik olsun".

Psixoloqların bir çox tədqiqatları göstərir ki, adamda rəğbət hissi yarananda oxşarlığa, özünə bənzərliyə (homofiliya) meyl, fərq və əlavələr (heterofiliya) meyli üzərində üstünlük təşkil edir.

Təbiidir ki, adama qiymət verəndə deterministcəsinə, məsələn, Şlezingerin mənlik = uğur:tələb düsturu ilə yanaşmaq olmaz. Çünki uğurun kəmiyyətcə qiymətləndirilməsi mümkün deyil. Bu, tələb üçün də belədir. Eyni zamanda bu düsturun aşağıdakı çatışmazlıqları var: adamın uğuru az ola bilər, tələbi isə bundan bir neçə tərtib az olarsa, onda aydındır ki, həmin düstura əsasən mənlik kifayət qədər böyük qiymət alar.

Bu düstürdan alınır ki, adam nə qədər özünə çox hörmət edirsə, kiçik məqsədlərə nail olmaq da o qədər böyük uğur gətirir. Bu da həmin düsturun çatışmazlığıdır.

Bütün bu deyilənlərə baxmayaraq, A.Lapkinanın və M.Yaroşevskinin qeyd etdiyi kimi, həmin düsturda həqiqətin nişanəsi var. Doğrudan da, müvəffəqiyyətsizlik, adətən, özünəhörmətə zərər vurur, müvəffəqiyyətlər isə onu artırır.



Diplomatiyanın qızıl qaydasını yada salamaq yaxşı olar – əslində olduğundan böyük görünməyə çalışma.

İncəsənət əsərinin estetik xarakteristikasını miqdarca təyin etmək üçün amerikan riyaziyyatçısı Q.A.Birkqof düstur vermişdir:

$$Ö = \frac{H}{M}$$

Burada Ö-ölçü; N-nizamlama ölçüsü; M-əsəri təşkil edən elementlərin mürəkkəblik ölçüsü. Bu düsturun da Şlezinger düsturu tək çatışmazlıqları var.

Bundan başqa N və M-in təyinində geniş ixtiyarilik var.

A.Şopenhayer, adamın təminatlığını onun tələbinin öz vəziyyətinə nisbəti kimi təyin etməyə təklif edir.

Dikkensin qəhrəmanlarından biri belə deyir: "Əgər adam bir ildə on iki funt qazanıb, on doqquz funt və altı pens xərcləyirsə, o, xoşbəxtdir; Əgər iyirmi bir funt xərcləyirsə, onun bədbəxt olmaq təhlükəsi var".

Deyilənlər xalq arasında belə ifadə olunur: "Ayağını yorğanına görə uzat".

Müxtəlif məsələlərdə bəzi mübahisəli keyfiyyət qanunlarına baxaq və çoxmeyarlı məsələlərin bir meyara gətirilməsi imkanlarını müzakirə edək.

Coşğunluq, sevinc – həmişə sayıq, diqqətli və ehtiyatlı olmağı tələb edir. *Məlumdur ki, istehzalı söhbət nə qədər* asanlıqla dərk olunursa, ağla sığırsa, bir o qədər dərinliklə də edilən söhbətin əslinə bütün təzadları ilə inanmalı olursan. Əlbəttə, gözlərini yumaraq əylənmək – istirahətdir. Belə deyilmi? Nə etməli? Həyatda hər şeyin haqqı ödənilməlidir.

Ciffen-Slutski paradoksu keyfiyyəti öyrənmək üçün maraqlıdır. Belə ki, ucuz gündəlik tələbat malını bahalaşdırdıqda ona ehtiyac azalmır, bəlkə də artır. Qiymətin artırılması alıcılıq qabiliyyətinin azalmasına gətirib çıxarır. Bu, məlumdur. Ancaq çoxişlənən ərzağın və ya başqa malların, məsələn, qəndin, çayın, çörəyin bahalaşması onlara olan tələbatı azaltmır (alıcının məvacibinə uyğun).

Qiymət artanda mala tələbat dəyişmir, yalnız ortaya həmin malın nə ilə əvəz edilməsi söhbəti çıxır.

Əgər, tutaq ki, çörəyin qiyməti artdı, onda ailə büdcəsinin sabit saxlanılması şəraitində bahalı ərzağın alınması məhdudlaşır.

E.Engelin qisaca şərh etdiyi bir qanuna əsasən müəyyən edilir ki, ailənin gəlirinin artması ilə yanaşı onun istehlak büdcəsində ərzaq xərclərinin xüsusi çəkisi azalır. Sonralar Streytof müəyyən etdi ki, gəlirin artmasına uyğun olaraq, geyim, mənzil, yanacaq və başqa ən ümdə tələbat xərclərinin xüsusi çəkisi azalır.

Göstərilən qanunlar istehlak büdcəsinin tərkibinə əsasən bu və ya digər şəxsin rifahı və ictimai mənsubiyyəti haqqında fikir söyləməyə imkan verir.

Bədii enerjinin əsas saxlanma qanunu maraq doğuran problemdir: dünənki "olmaz" bu gün nəinki "olar", hətta "zəruriyyətdir" (N.Uşakovun mülahizəsidir).

A.Morua, Valeri teoremini yığcam şəkildə belə ifadə edir: "Hər gün göz və könül oxşayaraq bərq vuran incəlik və lətafətin də həddi var".

Klarkın dediyində də bir həqiqət var: "Yaşa dolduqca insanın yaradıcılıq qabiliyyəti azalır, erudiyası isə artır".

Doğrudan da, İran şairi Sədi yarım əsr səyahət etmiş, məlumat toplamış, müxtəlif hadisələrlə rastlaşmış, təzadlı xarakterlər görmüş və hər cür adamlarla oturub-durmuş, ömrünün qalan yarım əsrini isə yazıb-yaratmağa sərf etmişdir. A.Dantenin "İlahi komediya"sında deyilir: "Ömrün yarısına çatarkən..." və bunu Fransua Moriak belə aydınlaşdırır: "Nadir hallarda, daxili dünyamızın hüdudları özümüzə gənclik çağlarında müəyyənləşir; adətən ömrün yarısında, daxili "mən" özünün qanuni səlahiyyətinə yiyələnir və nəhayət, bizə yaradıcısı, daha doğrusu qurucusu olduğumuz bu aləmi görüb dərk etmək səadəti nəsib olur".

Bunları deməklə, Labryuyerin aşağıdakı fikrinin doğruluğu bir daha "təsdiq" edilir: "İnsanların, özü də düşünən insanların mövcud olduqları yeddi min il ərzində təzə söz deməyə gecikirik, çünki hər şey deyilmişdir".



Günəşin altında heç nə yeni deyil – lat. Nil novi sib sole (nil novi sub soli).

Yeri gəlmişkən bir əhvalat yadıma düşdü: Ensiklopedik lüğəti vərəqləyərkən ağlıma belə fikir gəldi: görəsən bu lüğəti tərtib edənlər hansı prinsipi əsas götürmüşdür? Bax, məsələn, nə üçün Azərbaycan vokal sənəti banilərinin (Hüseynağa Hacıbababəyovun, Həqiqət Rzayevanın,Hüseynqulu Sarabskinin) və görkəmli Azərbaycan aktyorlarının (Kazım Ziyanın, Mustafa Mərdanovun, Rza Əfqanlının) adları bu lüğətə salınmamışdır?

Mən istədim bunu fəxri adlarla əlaqələndirim – mümkün olmadı. Xidmətləri ilə əlaqələndirmək istədim – o da mümkün olmadı.

Yeganə səbəb "Sovetskaya muzıka" (№ 2, 1985) jurnalında oxuduğum Zeyfasın "Zabıtıy otes simfonii" (Sinfoniyanın unudulmuş atası) məqaləsində rast gəldiyim bir məqam ola bilərdi. Məqalə belə başlayır: "Covanni Battista Sammartini XVIII əsrin bir çox görkəmli bəstəkarlarının talelərinə şərik olur. Sağlığında onu "musiqinin Allahı" adlandırmışlar. "Ölümündən sonra o, tamamilə unuduldu və yalnız bizim əsrin əvvəllərində yenidən kəşf olundu".

Sovet ensiklopedik lüğətinə bir də müraciət etdim, lakin orada da Sammartini familiyasına rast gəlmədim. Ancaq Ensiklopedik cib lüğət-məlumat ("Muzıka" nəşriyyatı, 1964) kitabında yazılır: "Simfonik musiqinin təşəkkül tapmasında Covanni Battista Sammartininin (1701 – 1775) müstəsna xidmətləri olmuşdur... O, Qlyukun müəllimi idi".

Vaxt amilini – yüz illik və bir neçə on illiyi – nəzərə almaqla, mənim tapdığım səbəb kifayət qədər qənaətbəxş olmadı.

F.List Labryuyerin dediklərinə etiraz etməyərək qeyd edirdi: "... müəyyən dərəcədə razılaşmaq olar ki, artıq hər şey deyilibdir, lakin bundan heç də o çıxmır ki, bütün deyilənlər həm də eşidilmiş və anlaşılmışdır".

İndiki dövrdə hər kim öz düşündüklərini şərh etdikdə, hətta bunlar təbii düşüncələr olub, başqaları tərəfindən nə vaxtsa deyil-

mişsə, o hökmən hər hansı məlum mənbəyə istinad etməlidir. Əks təqdirdə onu ədəbi oğurluqda (plagiat) günahlandırardı.

Hal-hazırda biz Sədinin, Dantenin və ya Moriakın mülahizələrinə fikir versək, onda yəgin ki, bunlardan birini "plagiator" adlandırmaq olar. Vəsaitdə "qoruyucu klapan" rolunu oynayan sitatlar bolluğu, deyilən mənada həlledici şərtlərdəndir.

Münaqişəli şəraitlərdə çoxmeyarlı məsələlərin həllini birmeyarlı məsələlərin həllinə gətirmək, çox zaman düzgün nəticələr vermir. Çünki bu halda həllə girişənin subyektivliyi öz bəhrəsini nəzərə çarpdırır. Belə ki, əgər məşqçi basketbolçuları seçərkən ucaboylusunu axtarırsa, digər tərəfdən də məlumdur ki, bəzən beləları çox da dinamik, yəni çevik olmurlar.

Böyük Fizulu demişkən:

Hər uzun boylu şücaət edə bilməz dəva,
Hər ağac kimi boy ata sərvi-xuraman olmaz.

Çoxmeyarlıq şəraitində vəziyyətin qiymətləndrilməsinə nəzər salaq. Fərz üdək ki, adamları intellektinə, tənbəlliyinə və qeyri-səmimiliyinə görə qiymətləndirmək lazımdır. Aydındır ki, adamın intellekti yüksək olarsa – yaxşı, tənbəlliyi və qeyri-səmimiliyi çox olarsa, o pis adam sayılır. Deyək ki, yuxarıda göstərilən xarakterləri beşballı sistemlə qiymətləndirmək qəbul olunmuşdur. Bunun uçün belə bir kriteriya təklif edilir:

$$K=\frac{I}{T+Q}$$

burda : İ – intellekt

T – tənbəllik

Q – qeyri səmimilikdir.

Bu düsturun çatışmayan cəhəti ondadır ki, T=O, Q=O olsa, insanın intellekti lap az olanda belə onun "keyfiyyəti" (K) sonsuzluğa yaxınlaşır.

Göstərilən nöqsanı aradan qaldırmaq üçün yuxarıdakı kəsrin məxrəcinə bir sabit V ədədi əlavə edək:



$$K=\frac{I}{T+Q+V}$$

Fərz edin ki, iki nəfəri qiymətləndirmək lazımdır:

1. İ=5, T=2, Q=1;
2. İ=4, T=1, Q=0.

Əgər V=1 götürsək, onda birinci şəxs üçün $K=1\frac{3}{2}$, ikinci şəxs üçün K=4 alarıq, deməli, ikinci şəxs birincidən yüksək olur. Əgər V=10 görürsək birinci şəxs üçün K=0,42, ikinci şəxs üçün K=0,4 alırıq və nəticədə cavabımız tərsinə olur, belə ki, birinci şəxs ikincidən yüksək olur: 0,42; 0,4.

Məsələnin təfərrüatına varmadan deyə bilərik ki, burda əsas məsələ V əmsalının seçilməsindəki subyektivlikdədir.

Çoxkriteriyalı problemlərin həllində hər gün bir kriteriyanı ayrıca qiymətləndrilməyin çətinliklərini nəzərə alsaq, birbaşa üsullarla yanaşı, ikinci dərəcəli üsullardan da istifadə etməyin mühüm əhəmiyyəti var. Bütün bu cür qiymətləndirmələrin hamısı diaqnostik prinsip əsasında aparılmalıdır. Bunların hamısı bir yerdə, üstəgəl bəzi şeylər – diaqnoz və ittiham etmə üçün əsas sayılır. Bu bioloqun fəlsəfəsi, müstəntiq və mühəndisin "ideologiya"sı, müalicənin isə əsasıdır.

Ancaq unutmaq olmaz: "Yüz adadovşanından – at, yüz gümandan sübüt olmaz" (Dostoyevski F.M.Cinayət və cəza, "Nauka" nəşriyyatı, 1970).

Sonrakı paraqraflarda aşağıdakı amillərin miokard infarktı diaqnostikasına təsiri göstəriləcəkdir:

1. İnsanın sosial əxlaqı və xarakterinin xüsusiyyətləri;

2. Papillyar xətlərin – ovucda, barmaq buğumlarında, ayaq pəncəsində müşahidə olunan xəttı şəbəkələrinin müxtəlifliyi;

3. Adamın saçında kalsiyumun azalması və s.

Başqa bir misal – akselerasiyanı (lat. – sürətləndirilmə) göstərmək olar. Belə ki, hadisəni dərk etməyə, ancaq bir yerdə götürülmüş fərziyyələr imkan verir.

Müxtəlif ölkələrdə, hətta bir ölkənin müxtəlif rayonlarında gənc nəslin boy və çəki artımı eyni qaydada getmir.

Müxtəlif ölkə alimlərinin işləyib hazırladıqları bir orta rəqəmə nəzər salaq: axırıncı 100 – 120 ildə 14 – 16 yaşlı yeniyetmələrin boyu 15 – 20 sm uca olmuşdur və hətta həmin yaşlı yeniyetmələrdə ərgənlik çağı üç il qabaq başlayır. Həmin dövrdə yaşlı adamların boyu 7 – 10 sm uca olmuşdur.

Akselerasiya Dağıstanın dağ rayonlarına, Hindistana – Şimali Amerika aborigenlərinə (lat. – başlanğıcdan deməkdir; müəyyən ölkənin və ərazinin yerli əhalisi) aid olmamışdır. Fərziyyələrdən biri – həyat şəraitini yaxşılaşdırmaqdır (Ərzaq bolluğunu və onun keyfiyyətini yaxşılaşdırmaq, geyim problemini həll etmək, tibbi xidməti yüksəltmək). Akselerasiyanı bu fərziyyə ilə tam izah etmək mümkün deyil. Belə ki, Amerikanı ilk dəfə kəşf edənlərin avropalı əcdadlarından fərgli olaraq məişətləri, qidaları pis təşkil olunmuşdur, həyəcanlarının isə həddi-hüdudu yox idi. Lakin onlar çox sürətlə boy atırdılar.

Yaponyada hazırda uşaqların qidalarında zülallı maddələrin və yağların az olmasına baxmayaraq, akselerasiya prosesi heç də ləng getmir.

Başqa bir fərziyyə – xalqların bir-birlərinin daxilində qaynayıb-qarışmasıdır.

Dağıstanın dağ rayonlarına və Şimali Amerikanın aborigenlərinə akselerasiyanın yaxın düşməməsinin səbəbini P.Tokareva və V.Filippova onunla izah edirlər ki, bu ölkələrdə nigah əlagələri nisbətən məhdud dairəni əhatə edir. Yəni bu regionlarda nigahın milli xüsusiyyətləri – başqa xalqların nümayəndələri ilə ailə-nigah münasibətlərini məhdudlaşdırır.

Və nəhayət, üçüncü akselerasiya fərziyyəsi Günəşin aktivliyi ilə əlaqədardır (heliobiologiya).

Belə hesab edirlər ki, aktiv Günəş ilində doğulan uşaqların çəkiləri az olur və bu da doğuşu asanlaşdırır. Aktiv günəş ilində doğulanların yetkinlik (ərgənlik) dövrü 15 – 16 yaşa təsadüf edir. Bu dövr, başqa illərdə doğulanlar üçün 10 – 11 yaşa uyğun gəlir. Yetmişinci illərdə aktiv günəş dövrü – akselerasiya azalmağa meyl getmişdir. Çox ehtimal ki, əsəb stresi, ətraf mühitin çirklənilməsi, xroniki hala çevrilmiş səksəkəli yuxulamaq, təbii qida məhsullarından məhdud istifadə və s. bu kimi şəhər əhalisinin yaşayış tərzinə uyğun gələn səbəblər, adamı "stres-reaksiya" vəziyyətinə (münaqişələrin dərinləşməsi və onun get-gede ağırlaşması) gətirir ki, bu da boy artımının ləng inkişafına səbəb olur.



İnsanın və ali məməli heyvanların, necə deyərlər, "Əvəz ödəmə" xassələrinə əsaslanaraq, akselerasiyanı radofonun yüksəlməsilə izah edən fərziyyə də mövcuddur. Qeyd etdiyimiz xassənin mənası fizioloji prosesin səviyyə və sürətinin, mühitin dəyişilməsinə uyğunlaşmasından ibarətdir. Radiofon, məməli heyvanların böyüməsinə və inkişafına məhvedici təsir göstərir. Odur ki, akselerasiyanı məhvedici təsirə qarşı cavab reaksiyası kimi də qəbul etmək olar.

XX əsrin 30-cu illərinin əvvəllərindən başlayaraq televiziya stansiyalarının sürətlə artması nəticəsində Yer üzündə elektromaqnit sahəsinin səviyyəsi kəskin sürətdə artmağa başladı. Bu, maqnit nəzəriyyəsinə uyğun olaraq akselerasiya "partlayışına" gətirib çıxardı.

Sübut olunmuşdur ki, ixtiyari diapozonlu radiodalğaları orqanizimdə ancaq istilik effekti yaradır. Onu da, deyək ki, keçən əsrdə televiziya və radio verilişlərinin, atom sınaqlarının və s. olmamasına baxmayaraq, akselerasiya mövcud idi. Guman etmək olar, ancaq yoxlamaq olmaz ki, hazırda Yer səthinə düşən kosmik şüaların səviyyəsi xeyli artmışdır. Ola bilər ki, bu, müasir insanın gen qrupunun dəyişilməsinin əsas səbəblərindən biridir.

Antropologiyanın tarixi göstərir ki, bizim planetdə adamların sürətli boy artımı artıq olub keçmişdir. Neandertalların boyu təxminən 160 sm, onlardan sonra gələn kromanonsların boyu isə 180 sm-ə yaxın olmuşdur.

İnsanın boy inkişafını tənzim etmək mümkündürmü?

Mürəkkəb fizioloji və biokimyəvi proses olan boy artımını bir çox stimullaşdırıcı hormonlar tənzim edir. Somatotropin hormonunun çatışmamazlığı – qısa boylu olmağın əsas səbəbidir.

Sağlam və gənc adamlarda fiziki məşqlər mübadilə prosesini stimulaşdırır ki, bu da boy artımını sürətləndirir. Müxtəlif dinamik yüklərlə məşqlər, tullanma məşqləri, üzgüçülük və s. müəyyən müddət ərzində insan orqanizmində somatotropinin miqdarını üç dəfədən də çox artıra bilər. Buna ən parlaq misal "Əhmətov fenomeni" ola bilər. O, necə deyərlər, uzun müddətli və gərgin məşqlər nəticəsində 23 sm "uzanmışdır". Əhmətovun tələbələrinin boyları təxminən 190 sm-ə bərabərdir ("Sos. industriya", 25.10.1984).

Professor M. Jukovski qeyd edir ki, dərman maddəsi kimi somatotropindən isrifadə etdikdə il ərzində 5 – 12 sm boy artımına kömək edir. Təmiz kimyəvi somatotropinin tətbiqi isə daha yüksək nəticə almağa imkan verər.

İnsanın öz imkanlarını tənzim və onlardan daha əlverişli istifadə etməsinə mövcud psixoloji təcrübələr – Rorşah, Rozensveyq və başqalarının müxtəlif testləri, xüsusən yuxu ensefoloqramı (rentgen cihazı ilə beynin tədqiqi), yuxunun və yuxugörmənin araşdırılması ilə əlaqədar müxtəlif fizioloji tədqiqatlar kömək edir.

A.B.Miqdal belə hesab edir ki, elmi yaradıcılıq axtarışları ilə əlaqədar əsas psixoloji meyllər – özünütəsdiq, hər şeyə maraq, özünü ifadə kimi amillərdir. Qeyd edək ki, yaradıcılıq peşədən öz yeniliyi ilə fərqlənir.

Biz yeri gəldikcə şəxsiyyətin formalaşmasına ətraf mühitin, təlim metodlarının, müəllimin və s. təsirindən və bununla əlaqədar məsələlərdən müfəssəl bəhs edəcəyik.

Epikürün bir kəlamını xatırlayaq: insanın xəstəliyini müalicə etməyən təbabət lazımsız olduğu kimi, insan qəlbinə hakim olub, onu təzələməyən, əxlaqi tərbiyəyə təsir etməyən fəlsəfə də lazımsızdır.



## § 4. TƏRBİYƏ VƏ XARAKTER HAQQINDA

"Heyvani hisslər üçün yaranmadın sən.
Doğuldun ki, dünyalar kəşf eyləyəsən".*

*Dante*

Böyük düha sahiblərini öz müasirlərindən fərqləndirən amillərin ən əsaslarından talant və tərbiyə haqqında söhbət açmaq istəyirəm.

A.Fransın bir kəlamanı yada salaq: "İki yırtıcı incəsənəti həmişə təqib edir: peşakar olmayan talant və talantsız peşəkar". Bu sözlər də onundur: "Talant pul kimidir; ya var, ya da yoxdur".

Şopenhayer deyir ki, talantlı o adamdır ki, qoyulan məsələni hamıdan yaxşı həll edir; dahi o adamdır ki, qoyduğu məsələ heç kimin ağlına gəlmir.

Fransızların yaxşı bir atalar sözü var: "guand on est mort, cest pour Long temps, vuand on es bete, cest pour touiours – yəni adam ölübsə, dirilməyinə guman var, axmaqdırsa, ağıllanmağına heç bir ümid yoxdur.

Tommazo Kampanellaya görə, talantlı adam elmsiz keçinə bilər, lakin alim talantsız keçinə bilməz. Rəhbər işçinin talantı özünü, tabeçiliydə olanların ən yaxşı qabiliyyətlərini üzə çıxarmaq, bacarığında və bu qabiliyyətlərdən xeyirxahlıqla istifadə etmək məharətində göstərir.

Bəziləri belə hesab edirlər ki, yaradıcılıq işi – talantların qismətidir. Bəs kimdir talantlı? Məsələn, M.Qorki deyirdi ki, öz peşəsini ürəkdən sevən adam bu və ya digər dərəcədə talantlıdır.

Deyirlər ki, talantın təkcə keyfiyyət tərəfi yox, həm də kəmiyyət tərəfi vardır.

A.P.Çexov belə hesab edir ki, yazıçı sadəcə olaraq talant deyil, o həm də xarakterdir. K.Paustovskiyə görə yazıçı məşğələ deyil, psixoloji vəziyyətdir.

İnsanın talantı onun fəaliyyəti ilə üzə çıxır. "Pələng dərisi geymiş pəhləvan" əsərində Ş.Rustaveli bu vəziyyəti belə şərh edir: "Fəaliyyət göstərməyəcəksənsə, ağıl dəryası olmağın nə mənası".

Talant və zəka arasındakı fərq barədə M. Qorki S.Sergeyev – Senskiyə yazdığı bir məktubunda belə göstərir: "Mənə elə gəlir ki, Sizin, L.N.Tolstoy "qəflətən qocalmışdır" fikriniz düz deyil, məncə o, özünün qüdrətli istedadının müqabilində son dərəcə aciz görünən qoca dərrakəsiylə, bir qədər küt və ağır dərrakəylə doğulub. Tolstoy özünün bu iki keyfiyyəti arasındakı faciənə uyğunsuzluğu hələ lap gəncliyində duymuş, elə buna görə də bütün ömrü boyu bu dərrakəylə mübarizə aparmışdır".

V.Q.Belinskinin bir kəlamını xatırlayaq: talant – ağıla, təhsilə zəngin məlumatlara, hadisələrə və şeylərə orijinal və düzgün baxışlara əsaslanmırsa, o tezliklə fərasətsizliyə çevrilir.

Belə deyirlər ki, istedad və tərəfkeşlik, subyektivlik bir-birindən ayrılmazdır. Ehtimal ki, M.Qorkinin bəzi subyektiv mülahizələri, həmçinin A.Fransın – R.Rollanı, Tolstoyun – Şekspiri qəbul etməməsi yuxarıda deyilənlərə əsaslanır.

V.L.Ginzburqun dedikləri də maraqlıdır: "Fizikada, riyaziyyatda və elmin başqa sahələrində istedad özünü erkən çağlarda büruzə verir. Adam lap cavanlığında məlumları çox tez qavramaq qabiliyyətinə malik olur və böyük elmi nailiyyətlər əldə edə bilər. Əksinə, ictimai və həyati vərdişlər yavaş-yavaş toplanır. Adam bir dəfə baha başa gələn, üstündə özünü, necə deyərlər, "yandırdığı" işə yenidən girişmək istəmir. Buna görə də ömrün uzadılması, orta yaş dövrünün artırılması həyatın ahənginə təsir edərək bilavasitə və bilavasitə mənəviyyatın möhkəmlənməsinə də kömək etməlidir, bu özünü ələlxüsus elm aləmində daha kəskin göstərir.

İstedad haqqında B.Pasternak daha yığcam deyir:

İstedad – daim yeni olan
Yeganə yenilikdir.

Məlumdur ki, bəzi istedadlı adamlar lüzumsuz məsələlərin həllində müvəffəqiyyət qazana bilmirlər. Məsələn, Ç.Darvinin Edinburq unuversitetindən xaric edilməsi, A.Eynşteynin Sürix politexnikumuna, C.Verdinin Milan Konservatoriyasına qəbul imtahanları verə bilməmələri dediklərimizə misal ola bilər.



Bunlar bir daha göstərir ki, belə şəxslərə fərdi yanaşmaq və xeyirxah münasibət göstərmək lazımdır. Bu cür hallarla qarşılaşdıqda şairin bir kəlamını yada salmaq yerinə düşər: "İstedadlara hökmən kömək lazımdır, istedadsızlar özlərinə yol tapacaqlar".

Fəal yaradıcı şəxsiyyət əsl mənada o vaxt formalaşa bilər ki, istedadın əlamətləri bəri başdan bu istedadın inkişafına kömək edən obyektiv gerçəkliklə "möhkəmləndirilmiş" olsun.

K.Marks qeyd edirdi ki, Rafaelin istedadına malik olan hər kəs, əslində Rafael ola bilməz: "Hər hansı başqa sənətkar kimi, Rafael özünə qədər incəsənətdə əldə edilmiş texniki müvəffəqiyyətə, öz ölkəsində cəmiyyətin təşkili və əmək bölgüsünə və nəhayət, onun vətəni ilə işgüzar münasibətdə olan bütün ölkələrdə əmək bölgüsünə əsaslanırdı. Rafaelə bənzər digər şəxs öz istedadını inkişaf etdirməyə müyəssər ola bilərmi? Bu tamamilə həyatın və dövrün tələbindən asılıdır" (Marks K., Engels F. Soç., t. 3, s. 392).

Hərdən eşidirik ki, elm və incəsənət sahəsində görkəmli şəxsiyyətlərin istedadlarının və fəal yaradıcılıq imkanlarının yaranmasına müəyyən əsəb pozğunluğu səbəb olmuşdur. Bu barədə görkəmli rus riyaziyyatçısı Sofya Vasilyevna Kovalevskayanın olduqca maraqlı məlumatına inanmamaq qeyri-mümkündür. O, yazır ki, F.M.Dostoyevski bizim ailənin yaxın dostu olmuşdur: "Biz bacımla bilirdik ki, Fyodor Mixayloviç epilepsiya xəstəliyinə düçardır, ancaq bu xəstəlik bizim təsəvvürümüzdə elə dəhşətli bir zəhmə malik idi ki, lap cüzi eyhamla da olsa qərara gəlib bu məsələyə toxunmağa cəsarət edə bilmirdik... Necə oldusa, Dostoyevski özü bu xəstəliyin tarixini bizə danışdı. O dedi ki, bu xəstəlik onda sürgündə olarkən baş vermişdir. Təklik onu bərk sıxırmış və aylarla bir nəfər də olsun canlı görmürmüş ki, oturub əməlli-başlı söhbət etsinlər. Bir dəfə, qəfildən köhnə bir dostu (Dostoyevski onun adını demişdir, yadımdan çıxıb) onun yanına gəlir. Görüşün sevincindən hər şeyi unudurlar, vaxtın necə keçdiyini belə hiss etmədən evin kandarında oturub, söhbətin ləzzətindən bihuş olanadək danışırlar.

Onların ikisi üçün də hər şeydən doğma və əziz olan ədəbiyyatdan, incəsənətdən, fəlsəfədən xeyli söhbət açdıqdan sonra,

nəhayət dini mövzuya gəlib çıxırlar. Yoldaşı ateist, Dostoyevski isə dindar idi və hər ikisi də öz inamlarından olduqca qəti idilər.

- Allah var, var!!! – deyə Dostoyevski həyacanla, özündən aslı olmayaraq qışqırır. Elə həmin dəqiqə qonşu kilsənin zənglərinin səhər ibadətinə səsləyən cingiltisi səhərin alatoranlığında əks-səda verdi.

Fyodor Mixayloviç dedi:

– Hiss etdim ki, göylə yer birləşdi və məni uddu. Mən gerçəkcə Allahı dərk etdim və onunla qovuşdum. Bəli, Allah var! – deyə qışqırdım və sonra, heç nə yadımda deyil.

O, söhbətinə davam etdi:

– Siz hamınız, ağıllı adamlalrsınız, ancaq epileptiklərin tutmaları başlamazdan bir saniyə əvvəl hiss etdikləri xoşbəxtliyin ülviyyətini bilmirsiniz. Məhəmməd peyğəmbər öz "Quran"ında inandırır ki, cənnəti görmüş və orada olmuşdur. Bütün ağıllı axmaqlar əmindilər ki, o, sadəcə olaraq yalançıdır və aldadır. Yoox!! O, yalan demir! O, məndə olduğu kimi epilepsiyası tutanda elə bil, həqiqətən cənnətdə olurmuş. Bilmirəm, o xoşbəxt anlar bir saniyəmi, bir saatımı, bir ilmi çəkir, ancaq, inanın, həyatın mənə verə biləcəyi bütün səadəti o ləzzətə qurban verərəm.

Dostoyevski bu axırıncı sözləri özünəməxsus ehtirasla və çoşğun pıçıltı ilə dedi: "(Kovalevskaya S.V.Vospominaniya, povesti, izd-vo "Nauka", M., 1974, s. 75-76)"

Ancaq bir çox görkəmli şəxsiyyətlərin həyat tarixçələrini vərəglədikdə yuxarıda dediklərimizin tərsinə də, yəni bəzi xəstəliklərin istedadın inkişafını və yaradıcılıq fəallığını ləngitdiyi hallara da rast gəlirik.

Kifayət qədər inandırıcı olmayan müqayisəyə – A.Moruanın mülahizəsinə diqqət yetirək: "İngiltərədə demək olar ki, görkəmli dövlət xadimlərinin hamısı evli olmuşlar. Ledi Pil, ledi Bikonsfild, missis Qladston gözəl ailə qadınları idilər. Fransada Gizo, Tyer, Puankare, bir sözlə, bütün ən "hörmətli" dövlət xadimləri ailəli olmuşlar. Doğrudur, Hambetta və Brian nigah kəsdirməmişlər, yəni ailələri yox idi. Ancaq haradan biləsən ki, Hambetta və Brian ailə



qurmuş olsaydılar, dövlət işlərində daha əhəmiyyətli rol oynaya bilərdilərmi?".

Nədənsə belə bir ümumiləşdirmə ailəli dövlət xadimlərinin fəaliyyəti barədə aparılmamışdır.

Qədimdən bəri ağızdan-ağıza gəzən belə bir ifadə hələ də yaşayır: ruh bədəndən ayrı, eləcə də bədən ruhdan ayrı yaşaya bilməz. Adamlar çox vaxt bir-birlərini ona görə başa düşmürlər ki, bəziləri ruhən, bəziləri isə cismən yaşayır. Dediklərimiz B. Paskalın fəlsəfi görüşü ilə tam bir uyarlıq təşkil edir. O deyir: Ürəyin öz qanunları var, ağıl onları bilmir.

İndi də terbiyə haqqında. Tərbiyə insan cəmiyyətinin həmişəyaşar poblemlərindəndir və həmişə hər dövr üşün təkamül prosesi keçirən psixoloji bir sistemdir.

Bütövlükdə tərbiyyə prosesinin aşağıdakı altsistemləri mövcuddur:

1. Texnoloji (maddi və mənəvi şərait, fəaliyyətin bütün növləri, tədris planı və sistemli rəhbərlik);

2. Sosial-psixoloji (təbiətə, mədəniyyətə, insanlara, öz-özünə münasibətlərin bütün növləri);

3. Mədəni-şəxsi (şəxsiyyətin mənəvi və intellektual-estetik imkanları; özünütəkmilləşdirməyə və ali hisslər aləminə qarşı iradə).

V.A.Suxomlinski tərbiyədə vicdan, abır-həya və namus kimi əxlaqi kateqoriyaları yüksək amillər hesab edir.

A.P.Çexov qardaşı Nikolaya bir məktubunda tərbiyəli adamın kim olduğunu belə izah edir: "Tərbiyəli adamlar aşağıdakı keyfiyyətlərə malik olmalıdırlar:

1. Onlar insan şəxsiyyətinə hörmət edirlər, həmişə iltifatlı, yumşaqxasiyyətli, nəzakətlidirlər, güzəştə getməyi bacarırlar.

2. Onlar başqasının mülkiyyətinə hörmət bəslədiklərindən, gözləri tox olduqlarından borclarını ləyagətlə qaytarırlar.

3. Onlar əhəmiyyətsiz şeydən ötrü belə, aldatmırlar, onlardan soruşmurlarsa, özlərini gözə soxub sırtıqlıq eləmirlər.

4. Başqalarının rəğbətini qazanmaq naminə özlərini alçaltmırlar. Onlar boş-boşuna ora-bura vurnuxmurlar.

5. İstedadları varsa, ona hörmət edirlər. Bunun üçün hər şeylərindən keçirlər. Onlar vasvasıdırlar.

6. Onlar özlərində estetik hisslər tərbiyə edirlər. Onlara, xüsusən sənətkar olanlara – təzəlik, lətiflik və insaniyyət lazımdır".

Bu keyfiyyətləri özündə təkmilləşdirmək və belə xarakterə malik olmaq üçün "...fasiləsiz olaraq gecə və gündüz işləmək, daim oxumaq, dərindən öyrənmək, iradəli olmaq lazımdır...Bu işdə hər saat qiymətlidir".

Uşaqları tərbiyə etdikdə yadda saxlamaq lazımdır ki, "corab geyə bilməməkdən başladı, yaşamağı bacarmamaqla qurtardı" (Qonçarov İ.A.).

Məlumdur ki, "tərəddüdlü tərbiyə" metodu daim qəti qadağan və yüksək ciddiyyət arasında təlqin olunan tərbiyə bir qayda olaraq kədərli nəticələrə gətirib çıxarır.

A.Ostrovskinin bir pyesində Arkaşka, varlı qohumlarıgildəki güzəranından danişır; orada onu gündə bir neçə dəfə yedizdirib içizdirirlər, yumşaq yerdə yatızdırırlar, bir sözlə, əməlli-başlı adam kimi ona hörmət edirlər. Və hər şey insana layiq qayda ilə davam etdiyi halda, onun ağlına gəlirdi ki, "Necədir, gəlsənə əkiləm".

Ailədə uşaqın həyat təminatı üçün hər şey – yemək, geymək var, lakin valideyn qayğısı yoxdursa bu – "hospital tərbiyə" üsuludur.

Qədim Spartada əfsanəvi Likurq belə hesab edirdi ki, valideyn öz övladının tərbiyəsi ilə özü məşğul olmamalıdır. Bunun başqasına həvalə etmək lazımdır. Adamın tərcümeyi-halı hələ uşaq baxçasında ikən yaranır. Özündə ancaq uşaqlıqdan əmək vərdişi tərbiyə edən adam, tələsik, sistemsiz iş görməkdən yaxa qurtarıb, gördüyü işdən zövq ala bilər.

Belə bir aforizm mövcuddur: "Öz uşaqlığın haqqında mənə danış, sonrakı həyatını mən sənə danışım".

Akademik P.S.Aleksandrov yazır ki, hər hansı səbəbdən insanın ev tərbiyəsi görmədən böyüməsi təhlükəlidir. A.L.Çijevski deyir ki, mənim ev təhsili almamış nənəm bir neçə xarici dil bilirdi, fortepianoda gözəl çalırdı...

Göyçə mahalının Zod kəndində XIX əsrin axırları, XX əsrin əvvəllərində yaşamış, böyük el sənətkarı Aşıq Ələsgərin müasiri



Mirzə Bəylər və qardaşlarının mükəmməl ailə təhsili nəticəsində yeddi dildə danışdıqlarını, həm də bu dilləri tamamilə bildiklərini indi də o yerlərdə iftixarla danışırlar.

Tyuilri sarayında Napoleon ilə söhbətlərinin birindən sonra pilləkənlə enərgən Taleyran ucadan demişdir: "Bədbəxtliyə baxın, belə nəhəng şəxsiyyət nə gədər pis tərbiyyə alıb. "Jul Kambon qeyd edir ki, görünür imperator, Taleyranı elə təhqir edibmiş ki, onu nə könül almaqla, nə də nəvazişlə heç cür unutdurmaq olmaz.

"Ya ancaq dəynəklə, ya da ancaq nəvazışlə tərbiyə, insan şəxsiyyətini tar-mar və təhrif edir" (Pisarev D.İ.).

Başqa bir misal, Napoleon elə hesab edirdi ki, onu əhatə edən mötəbər adamlara mehtərdən də pis rəftar göstərməklə öz nüfuzunu artırır.

Bir dəfə Dövlət Şurasında Napoleon Benyo ilə cahil və avam adam kimi rəftar etdi. İstədiyi təsirə nail olduqdan sonra, Napoleon ona yaxınlaşıb dedi: "Hə necədir, heyvərənin biri, nəhayət başınızı tapdınızmı?". Uca boylu Benyo belini büküb başını lap aşağı əydi və balaca boylu imperator əlini qaldırıb, onun qulağından yapışdı, "bu hərəkət mərhəmətə gəlmiş hökmdarın lütfkarlığının adi ifadəsi idi" – deyə Benyo yazmışdır.

Bir müsahibə zamanı Z.Papernonun – "Sizin sevdiyiniz lətifə?" – sualına L.Utyosov – "İkinci Nikolay haqqında kiçicik bir hekayə" – deyə danışmağa başlayır: "Müharibələrin birində II Nikolay cəbhənin ön xəttinə gəlir və bir düşmən mərmisi düz onun ayaqlarının yanına düşür. Bunu görən əgsərlərdən biri mərmini əli ilə götürüb, kolluğa atır.

Çar, əsgərin familiyasını və evli olub-olmamasını soruşur. Cavab alır ki, əsgər subaydır. Çar əmr edir ki, Knyaz Qalitski onun hüzuruna gəlsin və knyaz gəldikdə o, deyir:

– Knyaz, polkovnik Nikiforou Sizin qızınızın əlini sıxmaq istəyir.

Knyaz əzilib-büzülür.

– Başa düşürəm, knyaz, general Nikiforov Sizin qızınızın əlini sıxmaq istəyir.

– Əlahəzrət, generallarımız çoxdur....

Car:

– Başa düşmürəm, knyaz, mənim yaxın dostum *Sizin* qızınızın əlini sıxmaq istəyir.

Elə bu vaxt Nikiforov çara deyir:

– Kolya, əzizim, qoy rədd olsun onu. Yəni, biz onsuz qadın tapa bilmərik?"

Hötenin qeyd etdiyi kimi, məsafə pafosu adamlar arasındakı münasibətlərin ən yaxşı vasitəsidir. O, illüziyanın saxlanmasına kömək edir.

Öz mülahizəsində Y.Semyonov yəgin ki, haqlıdır.

"...İnsani münasibətlərdə distansiyaya ancaq o zaman yol verilir ki, bu münasibətlər birtərəfli qaydada zorla qəbul etdirilməyib və əfsanəvi bir şəxsiyyət kimi baxdığın adama qarşı hörmətdən yaranır.".

Qeyd edilənlər, özü-özünü tərbiyə və zövqün inkişafı nöqteyinəzərincə adamın üzərinə müəyyən məsuliyyət qoyur.

Kubalılar belə hesab edirlər ki, səhər yatağından pis əhvali-ruhiyyə ilə duran adam pis tərbiyə olunmuş adamdır.

Əbu Nəsrə görə insanlar dünyaya gələndə bərabər olurlar. Lakin ətraf mühitin, tərbiyənin təsirilə bəziləri mərdiməzarlıq, bəziləri isə xeyirxahlıq yolu ilə gedirlər.

İngilislərin Çörçilldən gətirdikləri və sevə-sevə təkrar etdikləri – "Əgər ağac təklikdə qurumayıb göyərərsə, o möhkəm böyüyəcəkdir" – mülahizəsi ilə çətin ki, razılaşmaq mümkün olsun.

K.Leonqardın müşahidəsinə əsasən böyük şəhərlərdə əhalinin 50 faizi özünəməxsus qəribə psixi xarakterə malik olur. Belə ki, əlverişli olmayan şəraitdə bu xarakterin mənfi istiqamətdə inkişafı, yəni qeyri-sağlam rəftarı artır, əlverişli şəraitdə isə onların fəaliyyətinin ictimai-xeyirli nəticəsi orta səviyyədən yüksək olur.

Dövlət başçısı və müəllim elə keyfiyyətlər tərbiyə edə bilərlər ki, bunlar xoşbəxtliyə nail olmaq üçün zəruri amillər olsun.

"Yaşlı adamları tərbiyə etmirlər. Onlara ya işin düşə bilər, ya da heç bir işin olmaz". L.İ.Mandelştamın bu fikrinə şərik olmaq olmaz. Bununla əlaqədar şərgin müdrik bir atalar sözünə fikir verin: "Əgər sənin planın bir illikdirsə - darı səp, on illikdirsə - ağac ək; əgər planların əsrlərə hesablanıbsa – insan tərbiyə et".



XVIII əsr mütəfəkkirlərindən N.İ.Novikov demişdir: "Dövlətlərin tərəqqisi, xalqların rifahı mənəvi xeyirxahlıqdan, mənəvi xeyirxahlıq isə tərbiyədən asılıdır".

Platonun fikrincə, ölkə ciddi və ahəngdar, sadə və munis, cəngavər və müdrik musiqidən uzaqlaşdıqda mənəviyyatlar darmadağın olur.

XIX əsrin məşhur demokrat-həkimi F.P.Qaaz deyirdi: "Xeyirxahlıq etməyə tələsin".

Elə buradaca İ.S.Turgenevin olduqca ibarətəmiz bir mənsur şeirini xatırlamamaq olmaz:

"Bir dəfə ali məxluq öz mavi sarayında böyük ziyafət vermək fikrinə düşdü.

O, bütün ləyaqətləri qonaq çağırdı. Yalnız yaxşıları, ləyaqətliləri... kişiləri dəvət etmədi... yalnız qadınları çağırdı.

Xeyli ləyagət yığıldı – böyük və kiçik ləyaqətlər. Kiçiklər böyüklərdən xoşnud və nəcib görünürdülər. Hamı məclisdən məmnun idi, yaxın qohumlar və dostlar kimi hamı bir-birilə mehribancasına söhbət edirdi.

Lakin ali məxluq iki gözəl qadın gördü, onlar deyəsən bir-birini tanımırdılar.

Ali məxluq bu qadınlardan birinin qolundan tutub o birinin yanına gətirdi.

"Xeyirxahlıq" – deyə o, birinci qadını göstərdi.

"Minnətdarlıq" – deyə ikinci qadının qolundan tutdu.

Hər iki ləyagət son dərəcə heyrət etdi: çünki dünya durandan bəri (o isə çoxdan durur) onlar birinci dəfə idi ki, görüşürdülər".

Doğrudan da "xeyirxahlıq"la "minnətdarlıq" olduqca nadir hallarda bir-birilə yanaşı durur. Dünya nura qərq olardı, onlar həmişə yanaşı dursaydılar.

Müdriklərdən biri demişdir: "Həqiqətən xeyirxah olmaq üçün, həddən artıq xeyirxahlıqdan bir az artıq xeyirxah olmaq lazımdır".

Müəyyən peşə sahələri var ki, həddən artıq xeyirxahlıq tələb edir. Əmək obyekti insan olan adam mütləq peşəkar xeyirxah olmalıdır (müəllim, həkim, tərbiyəçi, şəfqət bacısı və s.).

Siseronun mülahizəsi – gənc adamda qocalığın, qocada isə gəncliyin müəyyən əlamətini görmək xoşdur – bir ümumiləşmə kimi qiymətlidir.

Cek London "Nağılın sonu" hekayəsində belə bir əhvalat nəql edir. Gözəlliyə pərəstiş edən rəssam çox gözəl bir qadını qəlbən sevirdi. Öz peşəsi üçün müəyyən obyekt axtarmaq məqsədilə uzun müddətli səfərlərə çıxmağa alışmış rəssam bir gün yenə yoxa çıxır. Qadın intizar çəkməkdən saralıb solmağa başlayır. On ildən sonra rəssam sevdiyi qadının yanına qayıdır. Lakin, artıq o, kor idi. İnanırdı ki, qadın əvvəlki gözəlliyini itirməmişdir və yenə də ona pərəstiş edirdi. Qadın təsadüfən korluğun əlacını – sehrli eliksir tapır. Ancaq, şübhələr içində əzab çəkən qadın qorxurdu ki, rəssamın gözlərinə şəfa versə, o, onu sevməyəcək, çünki qadının əvvəlki gözəlliyi qalmamışdı. Lakin sevgi və xeyirxahlıq qələbə çalır: qadın sevgilisinin gözünü sehirli eliksirlə isladır və rəssamın gözləri dünya işığına açılır. Başqa bir möcüzə də baş verir: qadının gözəlliyi də bərpa olunur və o xeyirxah qadının simasında yenə gözəlliyin göz qamaşdırıcı cilvəsi bərq burur. Rəssam qadını bağrına basır..."

Məlumdur ki, şəraitə uyğun olaraq, özünü necə aparmağı bacaran adama mərifətli adam deyirlər. Mərifətin incəlikləri şəraitdən asılı olaraq dəyişir. Belə ki, rəsmi, qurutəhər və bir az da cəlbedici mərifət - ədəbdir. Böyüklərə və qadınlara qarşı göstərilən ehtiramlı mərifət – nəzakətdir.

Sovet-Amerika birgə tədqiqatları göstərmişdir ki, uzunömürlülüyün əsas səbəblərindən biri, böyük yaşlılara hörmətlə əlaqədar olan gerontofil mühitidir.

Deyirlər ki, Himalay dağlarının yamaclarında yaşayan və dünyanın ən uzunömürlü qəbiləsi kimi tanınan hunzakutlar vaxtaşırı dağlardan enərək, yığıb-yığışdırdıqları nə varsa vadidə yaşayanlara verib, əliboş və lüt-üryan geri qayıdır. Buna baxmayaraq, yüz il və daha çox ömür sürürlər.



Qədim romalılar təsdiq edirlər ki, uzunömürlülüyün yolu əzab və əziyyətlərlə doludur. A.V.Suvorov şüurlu olaraq, fiziki əzab və əziyyətlərə qatlaşır, öz bədənini və iradəsini möhkəmlədirdi.

Mərifətli olmaq, xeyirxah və gülərüz olmağa çalışmaq – lütfkarlığın əsas şərtlərindəndir. Yumşaqlıq və incəlik mərifətlə birləşdikdə kənardan baxanların nəzərində nəzakətlilikdir.

Qeyd olunan mərifət kateqoriyalarının əsasını insanlara hörmət və qayğı təşkil edir.

Qədim el məsəllərindən birində deyilir: "Mərifət – gənclərin imtiyazıdır".

Hörmətini saxlamadığımız adamlara qarşı mərifətli davranmaq olarmı? Nəinki olar, hətta hökmən mərifətli olmaq lazımdır, çünki mərifətli olmaq ancaq başqasına hörmət etmək deyil, bu, həm də adamın öz ləyaqətinə hörmət hissidir.

XX əsr Azərbaycan klassiklərindən, dünya romantik şeirinin müqtədir simalarından olan Məhəmməd Hadi (1879 – 1920) elmin, mərifətin işıqlı gələcək uğrunda mübarizədə böyük rolunu necə də dolğun və ciddi ifadə etmişdir:

> Elmin, hünərin, mərifətin varsa, buyur gəl,
> Yoxsa, bu həyat aləminə olma bir əngəl.
> Bundan belə dünya böyük ürfalı ər istər,
> Sən də yaşamaq istər isən, bilgini göstər.

Həddən artıq mərifətli rəftarları ilə bəzi adamlar özlərinin insanlığa yad əməllərini pərdələməyə çalışırlar. Lakin əlahiddə əzilib-büzülməməklə və yaltaqlığa gətirib çıxarmamaq şərti ilə, kömək və minnətdarlıq rəmzi kimi təqdim olunmuş hədiyyə, məsləhət və ürəkaçan söz, təbrik və məktub, xeyirxah məramlı təşrif üçün təşəkkür etmək hər bir mədəni adamın borcudur.

Adamların, aralarındakı münasibətdən asılı olmayaraq bir-birinə salam verməleri ünsiyyətin əsas əlamətlərindən biridir. Etiketə müvafiq olaraq, salamı birinci daxil olan adam verir və əgər buna qədər onların arasında müəyyən inciklik vardırsa, bu salamlaşma mərasimi hər iki tərəfdə gönül xoşluğu yaradacaqdır.

İş yoldaşları və tanışları ilə mərifətli rəftar edib, ailədə yerli-yersiz dedi-qodu yaradan adam tərbiyəsiz adamdır.

Karin Prior həftəlik "Za rubejom" qəzetində (26.04.1985) dərc olunmuş məqaləsində B.F.Skinnerin, heyvanların edə biləcəkləri bu və ya başqa hərəkətləri şirnikləşdirmə və xoşhaletmə üsuluna əsaslanaraq insanlarla ünsiyyətdə də xeyirxahlığın bir şərti kimi həyata keçirilməsi haqqında maraqlı mülahizəsindən bəhs edilir.

Həmin məqalədən bir məqama fikir verək: "Refleksin möhkəmlənməsi üçün iki üsul – pozitiv və neqativ üsullar mövcuddur. Birinci – təlim obyektinin müsbət emosiyasına əsaslanır (bu, şirin təamlarla, sığal və təriflə yaranır), ikinci – mənfi emosyaya əsaslanır (ya yerli-yersiz məzəmət, ya da kin, ədavət nəticəsində). İkinci üsul hərəkətin bir daha təkrar olunmasına imkan vermir.

"Pozitiv möhkəmləndirmə" ilə həmişə rəftarın sabitliyini saxlamaq olar. Məsələn, istəyirsiniz ki, tanışınız sizə müntəzəm olaraq zəng vursun. Əgər o, sizə heç zəng etmirsə, nə etmək olar, nəyi isə dəyişdirmək artıq mümkün deyil. İndiyə qədər münasibətdə mövcud olmayanı (rəftarın müəyyən cəhətini) necə möhkəmlətmək olar? Lakin, əgər o, sizə hərdən zəng edirsə və siz səmimi münasibət göstərib, onu səsini eşitdikdə sevincinizi büruzə verirsinizsə, onun sizə tez-tez zəng vuracağına ümid çoxalır. Əksinə, əgər onu gec-gec zəng etməyi üstündə məzəmmət edib ovqatını təlx etsəniz, çətin ki bir də o, sizin nömrənizi yığsın ("neqativ möhkəmlətmə" prinsipi). "Pozitiv möhkəmlətmə" prinsipini adam tez-tez özünə də tətbiq etməlidir".

Kollektivdə adamın rəhbərliklə formal münasibətini kafi hesab etmək olmaz, gərək o başa düşülsün, hətta yeri gələndə mükafata layiq görülsün.

Bu adəti: töhməti təklikdə, mükafatı kollektivdə verməyi gərək heç kəs unutmasın.

Xidməti etiketin məcburi tələbini həmişə yadda saxlamaq lazımdır – "ünsiyyətdə nəzakət və ədəb özünə və başqasına hörmətin əsasıdır".



Xidməti etiket – həm kənardan həqiqətən ədəbli görünməyə və həm də işgüzar və dəqiq olmağa riayət etmək deməkdir. Yəni, iclasa gecikmək, kollektiv işin sənə aid hissəsini səliqəsiz etmək, hətta kiçicik tapşırığı belə unutmaq olmaz.

Kollektiv qiymət işgüzar keyfiyyətlərə əsaslanaraq verilməlidir; yoxsa ki, bu "münasibdir", o biri "gülməlidir, ya acıdildir" və s. yaramaz.

Validiyenin, müəllimin, müdirin, rəhbərin tapşırığını, hər hansı tələbini, sərəncamını yerinə yetirmək üçün təkcə subordinasiya (tabeçilik) prinsipi kifayət deyil. Belə hallarda tapşırığın, sərəncamın və s. yerinə yetirilməsi üçün rəhbərin özünün hətta lap çətin vaxtlarda öndə, başda getməsi əsas şərtlərdəndir. Nahaq deyilməmişdir ki: "Hər şeyi öz üzərində sınamaq lazımdır".

Elə vasvası müdirlər var ki, həmişə fikirləşirlər: "Yəgin ki, işçilərin nazı ilə çox oynayıram? Odur ki, hamısı mənimlə mübahisəyə girişir, öz nöqteyi-nəzərlərini sübut edirlər". Bu halda yadda saxlamaq lazımdır ki: "Biz başqasını qiymətləndirməyi nə qədər bacarırıqsa, o qədər də hörmətə layiqik".

Öz yaxınlarını və doğmalarını elmi-tədqiqat institutlarına işə düzəldən, mərkəzi şəhərlərdə saxlayan idarə rəhbərlərinin, rektorların gənc mütəxəssislərə Qərbi Sibirə, Uzaq Şimala işləməyə getmək üçün verdikləri məsləhətlərin nə əhəmiyyəti və təsiri ola bilər? Yadda saxlamaq lazımdır ki, bu cür məqamların yeganə bir ölçüsü var: "Özünə rəva bilmədiyini, özgəyə təklif etmə".

Kadrların seçilməsi və bu işə münasibətin etalonu V.İ.Lenundir. "Əgər biz desək ki, böyük istedada və iradəyə malik adamları Vladimir İliç həmişə öz ətrafına yığmağa çalışırdı, bu, az olar. O, bu cür adamlara müsbət mənada "pərəstiş" edir, müvəfəqiyyərləri ilə sevinir, onun iti nəzərlərindən yayına bilməyən bir çox "zəif cəhətləri" bəzən onlara bağışlayır, güzəştə gedirdi. O olan yerdə bir nəfər bu və ya başqa yoldaşın "mənəvi keyfiyyətləri" haqqında danışanda, bu istiqamətdə davam edəcək hər cür meşşan söhbətləri kəskin şəkildə kəsərək: - Yaxşısı budur, Siz mənə deyin görüm,

onun siyasi dəsti-xətti necədir?" – deyə soruşardı (Krjijanovskiy K.M.Mıslitel i Revolyusiya, M., Politizdat, 1985).

Məlumdur ki, formal nəzarət hesabına əmək intizamını yüksəltməklə, istənilən məqsədə nail olmaq olmaz. Çox vaxt adam bütün günü işdə olur və işdən evə vaxtında gedir, ancaq həmin adam bütün iş gününü hər cür "yığıncaqlarda", "müzakirələrdə" və s. keçirə bilər. Lakin məqsədə nail olmaqdan, işə vicdanlı münasibətdən, əzmkarlıqdan və düzlükdən söz düşəndə o adamın adı birincilər sırasında çəkilir.

Sosioloqlar qeyd edirlər ki, işdə sağlam əhvali-ruhiyyə, əmək haqqı səviyyəsinin yüksəkliyindən daha əhəmiyyətlidir.

Sosioloqlar və psixoloqlar müəyyən etmişlər ki, fəhlələrə səmimi münasibət və əlverişli şərait əmək məhsuldarlığını 300 faiz artırır. Sadəcə olaraq təqdiretmə işin yaxşılaşmasına 90 faiz təsir etdiyi halda, məzəmmət edib, fəhləni danlamaq isə məhsuldarlığı cəmi 12 faiz artırır. Kimsə yaxşı deyib: adamı, əgər layiqdirsə, gündə yeddi-səkkiz dəfədən az olmayaraq tərifləmək lazımdır.

Bəzi hallarda, mədəni münasibət və nəzakətli ünsiyyət həddən artıq olduqda, *məsələn, gərgin əmək rejimində* işləyən adam üçün zəhlətökənliyə çevrilir. Məişət xidməti, səhiyyə, arayış bürosu və s. sahələrdə çalışan işçiləri yuxarıda dediyimiz kateqoriyalı işçilər siyahısına əlavə etmək olar. Xidmət sahəsində çalışan bu cür işçilər telefona qısa, aydın, dəqiq və nəzakətlə cavab verməlidirlər.

B.Volinin verdiyi təklif müəyyən dərəcədə "telefona kömək" edir. Belə ki, şəhərlərarası telefon stansiyasının telefonçusu ilə dialoq təxminən bu cür davam edir:

"07"-ni yığırsınız:

– Saat 22-də, Moskvanı xahiş edirəm.

– Danışacağınız adamın telefon nömrəsi.

– 1104859.

– Familiyanız və telefon nömrəniz?

– Əliyev. 925235. Çox sağ olun.

– Buyurun.

Vaxtdan da daha səmərəli və qayğı ilə istifadə etmək lazımdır. Yaddan çıxarmayın ki, "Yel kimi keçməsin vaxt üstümüzdən":



Vaxt, ya lap çox olsun, ya da ki, lap az,
Vaxt, ancaq vaxtında lazımdır bizə.
Hədər keçən vaxta, vaxt demək olmaz,
Heç yaramayıbsa bir işimizə.*

**(S.Y.Marşak)**

Müdriklərdən kimsə demişdir: "Düzgün dərk etmədiyimiz üçün bəzən deyirik – vaxt keçir; əslində vaxt durur, keçən bizik".

XII əsrdə Həmədanda yaşamış şairimiz Eynəlhüzzat yazır: "Ağ günü qaraldan və qara saçı ağardan vaxtdır. Dünyada ən qiymətli amil də vaxtdır".

Stanislavski deyirdi ki, "bu gün" yoxdur, ancaq "dünən"dən "sabah"a hərəkət mövcuddur.

Qədim Şərq rəvayətlərindən birində deyilir ki, tərkidünya bir zahid mağaraya çəkilib tənhalıq içində ömür sürürmüş. Bəni-insandan uzaq yaşamasına baxmayaraq, adamayovuşmayan bu abdal rahatlıq nədir, bilməzmiş. Onun qulaqlarına "vaxr çarxı"nın fırlanmasından yaranan fasiləsiz səs gələrmiş. "Bu əbədi və qorxulu sükut aləmində o, heç nə görmür və başqa səs eşitmirdi. Yalnız dalğalı dənizdə küləyin yaratdığı vıyıltıya bənzər, qulaqbatırıcı səslər eşidir və ona elə gəlirdi ki, heybətli çarx elə hey fırlanır, fırlanır, onun uğultusu ulduzlara qədər, hətta ondan da yüksəklərdə ucalır" (V.Q.Vakenroder, Fantaziya ob iskusstve. M,., 1977).

K.Marksa görə, vaxt, "bəşəriyyətin inkişaf fazasıdır".
Min əsrlər yaranır vaxt yığınından
Hər il, hər ay, hər gün zəfərlə gəlsin.
Əlimizdə ikən zamandan bir an,
Qoy bizə işləsin, bizimçün gülsün.*

**S.Y.Marşak.**

"Psixoqogika"[1] nəzəriyyəsinin müəllifi Seneka "Lutsiliyə əxlaqi məktublar"ında yazır: "Lutsili, nəyimiz varsa onun heç biri bizim deyil, yalnız bircə vaxt bizimdir. Yalnız vaxt, axan və şığıyıb

[1] Psixoqogika – öz-özünü ələ alma haqqında sənətdir.

keçən bu vaxt, bizi təbiətə sahib etdi. Necə yazırsan, elə də elə, bircə saatı da boş buraxma, haydı mənim Lutsilim.

Bu günü əlində tutsan – sabahkı günlərdən az asılı olacaqsan. Yox, təxirə salsan, bütün həyat bir göz qırpımında ötüb keçəcək".

İnsanın zamanı ram edib, özünə tabe etməsi üçün, gərək onun ömrü, yaradıcılığının mənəvi ləzzəti ilə üzvi vəhdətdə olsun.

İnsanın şüarı – "Carpe diem (karpe diem), latınca. "Günləri tut", hər andan istifadə et deməkdir.

İnsan həyatda boş keçən günlərinin, daha doğrusu vaxtının, necə deyərlər, yerini doldurmağı mütləq öyrənməlidir. Bunun üçün yaxın, orta və uzaq perspektivlər nəzərdə tutulmalıdır. Yaxın perspektiv - hər günlük, orta – öz qüvvəsinin, qabiliyyətinin tətbiq sahəsi, uzaq – həyatın məqsədi və mənası.[1]

V.Tolstıxın vaxt "oğrularının" siyahısına və onlarla mübarizə aparmaq məsləhətlərinə diqqət yetirək:

### "Səbəblər"

Günü planlaşdırmağa vaxtı çatışmır.
Fikirləşmədən tez fəaliyyətə başlamaq vərdişi.
Hamıya hər vaxt lazım olmaq, hər şeyə qarışmaq ehtiyacı.
Hamıya, hər zaman öz köməyini əsirgəməmək vərdişi.
"Yox" deməyi bacarmamaq.
Daim məşğul olmaq ehtiyacı.
Vaxtı pis hiss etmə qabiliyyəti.
Kiçik problemləri şişirdib "faciə" səviyyəsinə qaldırmaq meyli.
İşdə istiqamətin olmaması, həddən artıq məşğul olmaq.
Sizin vaxtınıza ətrafdakılar tərəfindən hörmətsizlik.

[1] Alman iqtisadçısı Karl Byuher "Rabota i ritm" kitabında çox maraqlı bir mühakimə yürüdür: "Adamayovuşmaz şəxs cəmiyyətdə heç də mədəni adamdan az miqdarda iş görmür, ancaq o bu işi düzgün surətdə icra etmir.. o, vaxtın qədrini bilmir, onun üçün hansı işi nə vaxt qurtarıb, başqasını nə vaxt başlamağın heç bir fərgi yoxdur. Onun öz fəaliyyətini saatlara bölüb, yerinə yetirmək, tənzim eləmək heç ağlına belə gəlmir".



Söhbətin mövzusuna tələb olunan qədər həqiqi vaxt ayırmağı bacrmaq.
Həmişə mane olan telfon zəngləri.

### "Həllin mümkünlüyü"

Yadınızda saxlayın: Kim ki, bilir – **nə etməlidir,** o, bircə dəfə; kim ki, həm də bilir – **nə üçün etməlidir,** o, həmişə udur.

Kim ki, bütün işlərinin hamısında müvəffəq olmaq istəyir, o heç nəyə müvəffiq olmur.

Əgər Siz hamıya həmişə "bəli" deyirsinizsə, onda ətrafınızdakılar elə biləcəklər ki, Siz buna borclusunuz və Sizin vaxtınızdan sui-istifadə edəcəklər.

İnadkarlıq göstərin. Heç nəyə "yox" deməyən "yaxşı oğlandır" rolunu oynamağa can atmayın. Belə adamlar, münasibdirlər, ancaq o qədər də hörmətə laiyiq olmurlar.

Çox eləyib pis etməkdənsə, az edin, yaxşı edin.

Yadda saxlayın: hər bi iş, əvvəlcə göründüyündən daha çox vaxt tələb edir.

Az əhəmiyyətli problemləri yaxın qoymayın.

Cüzi və əhəmiyyətsiz işlərə girişməyin.

Özünüzün iş qaydanızı (hansı saatlarda Sizi işdən ayırmaq olmaz) tərtib edib, onu ətrafınızdakılarla tanış edin.

Öz-özünüzü izləyin: danışacağınızın məzmununu boşboğazlıqdan ayırmağa çalışın.

Diqqətinizi cəmləşdirib işlədikdə telefonu şəbəkədən ayırın ("Medisinskaya qazeta", 25. 04. 86).

Paradoksal görünən, lakin psixoloji cəhətdən düzgün məzmuna malik bir kəlama fikir verin: "Olması zəruridir, lakin onsuz dolana bilərəm, amma olmasa dolana bilmərəm". Danışıq etiketi elə, bu dediyimizə misaldır; adam onsuz çətin dolana bilsin. Nitq, münasibətləri əks etdirərək, eyni zamanda onları yaradır, həm də bu münasibətlərə hərarətli və yumşaq ton verir, ya da əksinə - sərt və quru ciddiyyətlə yaradır.

1918-ci ilin ortalarında hazırlanmış "FK əməkdaşlarına yaddaş" çekistlərdən tələb edirdi: "Həmişə nəzakətli, ədəbli, təvazökar, diribaş olmalı. Hər bir işçi yadda saxlamalıdır ki, o Sovet inqilabı qaydalarının keşiyində durur və bunlar pozulmazdır; əgər bunu özü pozsa, onda o, yararsız adamdır və Komissiyanın tərkibindən mütləq xaric edilməlidir.

Təmiz və namuslu olmalıdır.

Mətanətli, sarsılmaz olmalı, dərhal düzgün mövge seçməyi və həmişə müdrik ölçü götürməyi bacarmalıdır".

Servantesin sözlərini yada salaq: "Mərifət qədər müftə olan şey yoxdur. Onda gəlin qarşılıqlı surətdə xeyirxah, nəzakətli və təhəddüdlü olaq".

Adamın tərbiyəsi, başqasının mənafeini nəzərə alaraq onunla yekdil fəaliyyəti həmin adamın daxilən, mənən ziyalı olduğundan xəbər verir.

Daxili mədəniyyətin əsasını adamın çox çətin əldə edə biləcəyi inkişaf etmiş şəxsi ləyagət hissi təşkil edir.

İnsanın həqiqi var-dövləti onun şəxsi ləyaqətidir (lat. Omnia mea mecum porto – omnia mea mekum porto – öz yükün hamısı özündə).

Özündə şəxsi ləyagət hissi tərbiyə etmək – çatışmazlıqlara qarşı mübarizənin ən birinci qaydasıdır. Tamahkarlıq – inkişaf edə bilməmiş əliaçıqlıqdır, kobudluq – tərbiyə edilməmiş nəzakətdir, qorxaqlıq – doğulmamış cəsarətdir.

Atamın var idi bir az torpağı,
Nə varı var idi, nə də dövləti.
Bir məqsədi vardı: - oğul-uşağı
Gözləsin həmişə arı, qeyrəti.
Deyirdi namuslu həyat gözəldir,
Cubində yoxsa da bir qəpik pulun.
Namus ləkələnsə, ölüm əzəldir.
Cır-cındır geysən də, düz olsun yolun.*

(R.Börns)

Şəxsi ləyagət hissini qətiyyən lovğalıqla dəyişik salmaq olmaz. S.Alyoşinin qeyd etdiyi kimi ("Sovetskaya kultura" 1.12.84), mənəviyyatın pillələrini addım-addım qalxaraq onun zirvəsinə yüksəlmək, yalnız insani ləyagətin qoruyub möhkəmlənməsilə mümkündür.



Əgər ləyagət – şəxsiyyətin öz-özü ilə ixtilafa girməyə çalışmasıdırsa, vicdan – şəxsiyyətin həyat həqiqəti ilə ixtilafa girməməyə çalışmasıdır.

Ləyagət və vicdan – birgə işləyən əbədi maşındır. Daxili mədəniyyətə malik olmadan əxlaq normaları qaydası, "xoşa gəlimli ədalar", süni şəkildə "ağır oturub, batman gəlmək" və s. bu kimi sonradan öyrənilən üzdəniraq ziyalılıq, fitrətən ziyalı olmayan "ziyalılar" üçün xarakterikdir.

"Ziyalı ona görə ziyalı adlanır ki, o, bütün cəmiyyətlərdə sinfi və siyasi qrupların inkişafını hamıdan şüurlu, hamıdan qəti və hamıdan dəqiq əks etdirir və ifadə edir" (Lenin V.İ.).

V.M.Şukşin yazırdı: "Ziyalı adam – bu şox məsuliyyətli sözdür. Bu elə dərin mənalı və ciddidir ki, bu sözün məsuliyyəti haqqında tez-tez fikirləşməyə dəyər. Ondan başlayaq ki, ziyalı adam nadir hadisədir. Bu – narahat vicdandır, ağıldır, bu, dünyada güclünün "qüdrəti bahasına" həməhəng olaraq "dəm tutmaq" tələb olunanda susmaqdır, lənətə gəlmiş "həqiqət nadir?" sualına cavab axtaranda öz-özünlə apardığın daxili mübarizədir, vüqardır... və xalqın taleyinə yanıb kül olmaqdır, zəruriyyətdir, əzab və əziyyətdir. Əgər bütün bunlar bir adamda varsa, o – ziyalıdır. Ancaq bu hələ hamısı deyil: ziyalı bilir ki, ziyalı olmaq – məqsəd deyil".

Yadda saxlamaq lazımdır ki, özgənin səsini yamsılayan, öz səsini itirə bilər.

Akademik D.S.Lixaçov ziyalılığı anlama, dərk etmə, dünyaya və bəşəriyyətə səbirli münasibət, qabiliyyət kimi qiymətləndirir.

Daniil Qranin demişdir ki, ziyalı nə mənşədir, nə mövqe, bu, ciddi-cəhddir.

Yoldaşın hər bir nailiyyətinə sevinməyi bacarmaq lazımdır. Bu, bəzi adamlara başqalarının uğursuzluğuna şərik olmaqdan daha çətin müyəssər olur. Yalnız qəmə şərikliyi, sevincə şərikliyi adamlara diqqət və qayğının ifadəsi adlandırmaq olar.

"Lyubov Yarovaya" dramında SSRİ xalq artisti V.İ.Korşunovun oynadığı Koşkin rolunu təhlil edən S.Ovçinnikova yazır: "Koşkin özgənin ağrısını özünün şəxsi ağrısı hesab edir. Bu da ziyalılıq əlamətidir. İnqilabın mənafeyi tələb etdikdə o, güllələyə bilər, ancaq təhqir etməyi bacarmır. İnqilabı varlığı etibarı ilə ziyalı olan adamlar etmişdir. Bu, *həqiqətən tarixi dərk etmək üçün xüsusən əhəmiyyətlidir.*

Koşkin biləndə ki, dostu Qroznov soyğunçudur, ona inqilabi qanuna əsasən güllələnmə hökmü verir. Bu saniyələrdə onun oyunu bütöv bir tamaşaya dəyər. O, çiyinlərini qabağa əyərək donqarlaşır, çalışır ki, göz yaşlarını boğsun, bacarmır. Bəli, aktiyor öz oyun ənənəsinə sadiqdir. O, əvvəlki kimi yenə də var qüvvəsi ilə oynayır. Hələ bu, daxili ehtirasın yaratdığı səhnələr. Korşunov, – həqiqətən – bütün varlığını rola vermişdir".

F.İ.Şalyapin haqqında xatirələrində A.M.Qorki ziyalını belə səciyyələndirir: "...bu adam, həyatının bütün anlarında sinəsini irəli verərək qabağa çıxıb, *hətta canından keçmək lazım gəlsə belə* həqiqəti müdafiə etməyə həmişə hazırdır" ("Sovetskiy Soyuz", №7, 1987).

Elələrinə rast gəlirik ki, onlar üçün əsas məqsəd mədəni sərvət əldə etmək deyil, yalnız ali sərvətlərə mənsub olduqlarını və zahiri *mədəniyyətlərini nümayiş etdirməkdir.*

Belə adamların nadir nəşrlərə "icazə"ləri olduğu üçün Nizamini, Füzulini, Dümanı, Tolstoyu, Dostoyevskini və s. əldə edirlər, lakin onlar bu kitabların məzmunundan, necə deyərlər, yeddi ağac məsafədə dayanırlar.

Senekanın yazdığı kimi, *mənəvi kimliyi nə borc almaq olar, nə də satın.*

Özünütərbiyənin ən yaxşı üsulu öz hərəkətlərini təhlil etməkdir; öz rəftarının, davranışının, etdiyin hərəkətlərin və xasiyyətinin ictimai əhəmiyyətini düşünərək araşdırmaqdır. Öz hərəkətlərini təhlil etmək şəxsiyyətin öz-özünü dərk etməsində əsas mərhələlərdən biri olub, şəxsiyyətin çatışmayan və üstün çəhətlərinə qarşı özünün münasibətini müəyyən edir.



"Kamil adam hər şeyi özündə, cılızlar isə başqasında axtarır" (Konfutsi).

Sokrat deyib: "Özünü dərk et" (Nosce te ipsum*). Öz hərəkətlərini, rəftarını təhlil etmək, özündəki zəif və güclü cəhətləri üzə çıxarmağa, bütün iradəni toplayıb özündə bəyənmədiyin xüsusiyyətlərə qarşı mübarizəyə yönəltməyə imkan verir.

Xristianların müqəddəs kitabı Bibliyada (İncil və Tövrat) deyilir ki, ayağına ilişən daşa hirslənmə, çətinliyə qalib gəlmək hamıya lazımdır: – ol, lakin oxşama.

Bu məsələdə müstəqim, fikirləşmədən birbaşa işə girişmək, hərdən lazımi nəticə vermir. Özün-özünə üstün gəlməyi, hətta bəzən özün-özünə kələk gəlməyi də bacarmalısan.

"Özün-özünü necə dərk edə bilərsən? Yalnız fəaliyyət yolu ilə, özünü seyr etməklə yox. Öhdənə düşən vəzifəni yerinə yetir, onda nəyə qadir olduğunu bilərsən" (Höte).

XVI yüzillikdə Azərbaycan xalqının dövlət və mədəniyyət xadimlərindən ən qüdrətlisi, xalqımızın ictimai-siyasi həyatında, ədəbiyyatında, XVI yüzillikdən üzü bəri Şərq tarixində ən müqtədir və müstəsna şəxsiyyət olan və cəmi 38 il yaşamış Şah İsmayıl Xətai (23 iyun 1486 – 17 iyun 1524) şeirlərindən birində yazır:

Aqil, gəl bəri, gəl bəri,
Gir könülə nəzər eylə.
Göz görür, qulaq asır
Söylər dilə, nəzər eylə
. . . . . . . . . . . . . . . . . .
Verən mövla alır canı
Əvvəl öz-özünü tanı,
Sonra, elə nəzər eylə.

Bu da məlumdur ki, ümumiyyətlə, əvvəlcə "özünü tanı" fəlsəfi konsepsiyası həyat və insan anlamı fəlsəfəsinin ən möhtəşəm qollarından biri olub, əsrarlı Azərbaycan fəlsəfəsindən qədimdən bu günə qədər bənzəri olmayan dərinliklə böyük fikir adamlarımızın hamısının yaradıcılığına ahəngli təzadlarla təqdim olunmuşdur.

N.V.Qoqolun sözləri bu gün üçün də aktualdır: "Adamı başqa bir adamla məhdud etməyin, çünki ola bilər ki, gələn dəfə məhdud edən adamın özünü də məhdud etmək lazım gəlsin və beləliklə, məhdud etmələrin axırı görünməsin... Adama etibar və alicənablıq göstərmək lazımdır, nədən ki, bunsuz, ümumiyyətlə alicənablıq ola bilməz".

Akademik P.L.Kapitsa deyirdi ki, insana təsiretmə üsullarından alim üçün ən əsası – mənəvi təsirdir. Bunlardan ən güclüsü isə - öz işinə inamdır.

Uşınskinin bir parlaq fikri də maraqlıdır: "Hüquqsuz məxluq xoşxasiyyət, ya da acıqlı ola bilər, ancaq mənəvi dünyası ola bilməz. Odur ki, adamlara mümkün qədər onları mənəviyyatca yüksəldən hüquqlar vermək lazımdır".

Müəyyən ictimai qrupun həyat tərzi, bötöv bir xalqın tərzini ifadə edir və bu da özünü milli əlamətin döyüşkənlik, inadkarlıq, rəsmiyyətçilik və əməksevərlik kimi səciyyəvi cəhətlərində göstərir.

Məşhur İslandiya millətçiliyi üzündən yerli mədəniyyət, İslandiyaya aid olmayan hər nə varsa "sıxıb çıxarıb". İslandiyalılar ancaq öz müsiqilərini dinləyir, dilin saflığını qoruyurlar və qəzetlər ölkənin daxili xəbərlərini geniş şərh etdikləri halda, xarici xəbərlərə çox az yer verirlər.

Dostoyevski qeyd edirdi ki, rusa şəxsi xoşbəxtlik azlıq edir, ona ümumbəşər xoşbəxtlik lazımdır.

Hindlilərin fikrincə sonsuzluq çayın o tayından, bütpərəst slavyan üçün – meşədən başlanır.

İ.Qandi yazırdı ki, "gələcək inkişafın zamandan asılılığını unutmaq olmaz; yəni Qərb beş, on, bəzən iyirmi il qabağı fikirləşir. Hindistan isə ənənəvi olaraq, Hindistan problemini təhlil etdikdə, zamanı bir əbədiyyət kimi qəbul edir".

Qeyd olunan əlamətlərin heç də hamısı millətə xas olan cəhətlər deyil. Məsələn, O. Bismark 1859-cu ildə Peterburqda olduğu günləri xatırlayaraq yazırdı: "İlk bahar günlərinin birində Pavel sarayı ilə Neva çayı arasında saray cəmiyyətinə məxsus Yay bağında gəzməyə çıxmış İmperatorun nəzərlərini xırda gölməçələr arasında dayanmış qarovulçu cəlb edir. İmperatorun – "Nə üçün burda dayanmısınız?" – sualına əsgər – "belə əmr olunub" – cavabını verir. İmperator yavərinə tapşırır ki, bunu qarovulxandan öyrənsin, lakin orada da həmin cavabı verirlər. Özü də deyirlər ki, o yerdə qış, yaz həmişə qarovulçu durur...

...Sən demə bir neçə il əvvəl burdan keçən imperator Yekaterina həmin yerdə çox erkən açmış novruzgülü görür və əmr edir ki, novruzgülünü qorusunlar, heç kəs dərməsin. Əmr yerinə yetirilir və o yerdə qarovulçu qoyulur. Neçə illərdir ki, orada qarovulçular bir-birini əvəz edir".

Bu qəribə əhvalat burda qurtarsaydı, bəzilərində istehza, bəzilərində isə gülüş doğurardı. Lakin bu söhbətdən O. Bismarkın məqsədi tamamilə başqadır, belə ki: "Bu və buna bənzər hadisələrin bizdə gülüş və istehza doğurması ilə bərabər, burda çox bəsit təsirin, dəyanətin və sadiqliyin üzvi vəhdəti özünü göstərir, bax elə Rusiyanın primitiv gücü də Avropanın qalan hissəsinin əksinə olaraq, bundadır".

Nə üçün gətirdiyimiz misal icraçılıq, tabeçilik və s. kimi keyfiyyətlərə yox, "primitiv gücə dəlalət edir?".

Qəribədir, öz fəaliyyətinin əksinə olaraq Bismark öyrədirdi: hər bir təlim öz tabeçiliyində olanların düşüncəsindən başlayaraq daha yuxarı rəhbərliyə doğru hərəkət edir. Bismark deyirdi: siyasət adamı lap rahatca üç halda – seçkiqabağı ərəfədə, müharibə vaxtı və ovdan sonra yalan danışa bilər.

Nəzakətsiz ümumiləşməyə başqa bir misal:

Monteskyö və başqa müəlliflərin fikirlərinə uyğun olaraq Russo da təsdiq edir ki, bir ölkənin coğrafi amillərinin müxtəlifliyi deyəndə həmin ölkə xalqlarının məşğuliyyəti, adəti və s. hökmən nəzərə alınmalıdır. Ancaq məlum deyil, nə üçün I Pyotru tənqid edərək deyir ki, o, öz xalqını "mədəniyyətə" olduqca tez" qovuşdurdu, bir halda ki, həmin xalq, mülki cəmiyyət nizamnaməsi üçün hələ yetişməmişdi.

I Pyotr haqqında V.Q.Belinski yazmışdır: "Dahi müstəbid Böyük Pyotr bizə lazım idi, çünki, bəşəri prinsiplər naminə o,

bizimlə sərt və amansızcasına rəftar etməliydi. Biz terrora keçməyə məcbur idik. Bizim adam olmağımızdan ötrü, hər şeydən əvvəl Pyotrun dəyənəyi hökmən lazım idi. Sözün əsl mənasında adam olmağımız üçün indi terrora keçmək lazımdır. Bizim qardaşımızı, slavyanı şüura dəvət eləmək çox da asan deyil. Məlum işdir – şallaq şaqqıldamasa mujik xaçpərəst ola bilməz, yox cənablar, nə qədər başa salsanız da qadasın aldığım gilyotin[1] yaxşı şeydir".

Deyilənlərlə razılaşmayıb, Roje Portalın rəyinə fikir verək: "Böyük Pyotrla əlaqədar olaraq xarici təsir, Qərbdən geri qalmanın ləğvi, keçmişdən üz döndərmə problemlərini araya gətirəndə bir əsas məsələni unudurlar ki, Pyotr hakimiyyəti ələ alanda Rusiya iqtisadi cəhətdən müstəmləkə olma təhlükəsi altında idi; hökümət və rus tacirləri isə bu təhlükədən özlərini qorumalı idilər. Buna görə də Pyotrun bütün fəaliyyəti, zahirən qərb dəbini yamsılamasına və xarici texnikləri cəlb etməsinə baxmayaraq, bu təhlükəyə cavab verməkdən ibarət idi...". "Vətənpərvər" sözü Böyük Pyotrun dövründə yaranmışdır.

"İzvestiya" qəzetinin xüsusi müxbiri ilə müsahibəsində Salvador Dali demişdir ki, Birinci Pyotru sözün ən geniş mənasında Rusiyanın böyük rəssamı hesab edir, çünki Birinci Pyotr öz təsəvvüründə gözəl bir şəhər canlandırmış və onu bütün əzəmətilə təbiətin nəhəng və bəyaz kətanına köçürmüşdür ("İzvestiya", 5. 01. 1986).

Vətənpərvərlik və millətçilik bir-birindən tamamilə fərqlidirlər. Vətənpərvərlik – öz ölkəsinə məhəbbət, millətçilik isə öz ölkəsi və xalqından başqa yerdə qalanların hamısına nifrətdir.

Yeri gəlmişkən, qeyd edək ki, beynəlmiləlçilik yalnız vəzifə deyil, o hər şeydən əvvəl prosesdir.

Fransız diplomatı Jul Kambon almanları ikili adamlar kimi səciyyələndirir və Bismarkı misal gətirir: Bismark Reyxstaqa seçkilərdə ümumi səsvermə qaydasına tərəfdar çıxmışdı və elə o vaxt Prussiyada ən məhdud seçki hüququ prinsiplərini müdafiəyə qalxmış,

[1] Gilyotin – 1792-ci ildə Böyük Fransa İnqilabı dövründə həkim J. Giletop tərəfindən təklif olunmuş başkəsən maşın.



Fransada isə hər şəxsin həyatını öz prinsipləri ilə uyğunlaşdırmasını vicdan məsələsi kimi təqdir etmişdir. Jul Kambonun fikrincə, bu, fransızların və almanların bir-birini başa düşməmələrinin heç də əhəmiyyətsiz olmayan səbəblərindən biridir. V.Ardamatskinin "Pervaya komandirovka" (İlk məzuniyyət) (Voenizdat, M.,1986) romanındakı bərabər, rusları belə səciyyələndirir: "Onların üzlərinə və gözlərinə diqqət edəndə.... elə bil ki, mübahisə edirlər. Başqalarının, hətta sifətlərindən qəzəb yağanda onların gözlərindən mehribanlıq tökülür. Bir sözlə, əsl slavyandırlar".

Yenə də Bismarkda olduğu kimi, əsaslanmamış ümumiləşmələrə aid misallar. V.Ovçinnikov deyəndə ki, vahid bir xalq üçün, əlbəttə, nə isə bir ortaq məxrəc əldə etmək mümkün deyil – haqlıdır. Belə ki, ispanlara yalnız "məğrurluq", isveçrəlilərə "soyuqqanlılıq" yarlığı yapışdırmaq düzgün deyil.

Fransada öz həyatını qadına görə məhv etmiş adama hüsnrəğbət və xüsusi ehtiram bəsləyirlər və çəkdiyi zəhmətə dəyər – deyə təqdir edirlər. İngiltərədə isə hamı onu, hətta özü də, axırıncı axmağın biri hesab edir.

Buna görə də Şekspirin vətənində "Antoni və Kleopatra" faciəsi o birilərə nisbətən o qədər də məşhur deyil. Ona görə ki, ingilis tamaşaçıları həmişə belə dərk etmişlər ki, qadından ötrü İmperiyadan əl çəkmək – yüngüllükdür.

## §5. TƏSNİFAT HAQQINDA

"Təsnifat – idrakın yüksək növüdür"
***Marks Plank***

F.Engelsin məlum bir mülahizəsi var: "Biz ayaqqabı şotkasını məməli heyvanlar sinfinə aid etsək, bununla onda süd vəziləri əmələ gəlməyəcəkdir". Bu, onu göstərir ki, təsnifat səhvləri şeylərin təbiətinə təsir etmədən həm nəzəriyyənin inkişafını, həm də dərketmə prosesinin özünü ləngidir.

Bəzi təsnifatlarla tanış olaq. Ostvald, alimləri – romantiklər və klassiklər kimi iki qrupa ayırır. Fikirləşən və yazan adamaları da iki qrupa təsnifatlaşdırırlar. Bəziləri yazı və danışıq prosesində, mübahisədə öz fikirlərini və bu fikirlərin ifadə tərzini dərindən düşünürlər, dəqiqləşdirirlər və sonra qısa və dürüst şəkildə xülasə edirlər. Digərləri isə hər şeyi yerli-yerində fikirləşib, sonra yazıyla, ya da danışıqla tamamilə dolğun və bitkin tərzdə ifadə edirlər.

H.Selye alimləri üç qrupa ayırır: "icraçılar", mütəfəkkirlər və nəhayət, elmə maraqları qeyri-elmi əlamətlərlə səciyyəvi olanlar. Bu cür təsnifat idrakı inkişafın vahidlik, xüsusilik və ümumilik kateqoriyalarında ümumiləşmiş üç mərhələsinə uyğun gəlir.

A.Uaythed qeyd edir ki, təxəyyüldən istifadə etməyib, yalnız eldə edilmiş biliyə əsaslananlar – quru alimlərdir. Yalnız təxəyyülə əsaslanıb, biliyi olmayanlar isə axmaqlardır.

Bizim dövrümüzdə alimlərin aşağıdakı təsnifatı diqqətəlayiqdir.

1. İdeya generatorları;
2. İdeya moderatorları (yeni elmi məlumatları tənqid edənlər);
3. İdeya animatorları ("generatorun" ilham verəni, məsləhətçisi);
4. Yeni ideya işləyib hazırlayanlar;
5. Elmin təşkilatçıları;
6. Pedaqoq-mühazirəçilər.

Təcrübə göstərir ki, əgər "generatorların" sayı kollektiv üzvlərinin ümumi sayından 2 – 3 faiz artıqdırsa, onda yeni ideyaların həddən artıq bolluğu və bunun da nəticəsində qarşılıqlı kin-ədavət yaranır (hesab edirlər ki, "ideya generatorları", adətən, yolagetməyəndirlər, qılıqsızdırlar).

Təbiidir ki, göstərilən təsnifat tam deyil, buna baxmayaraq o, alimin gənc yaşlarında formalaşmasına ictimai cəhətdən təsir edə bilər.

İkinci qrup ümumiyyətlə, az olmalıdır.

Müxtəlif paraqraflarda tənqid məsələləri müzakirə olunacaqdır, ancaq buna baxmayaraq, istərdik ki, Mahatma Qandinin bir



mülahizəsinə fikir verilsin: "Bütün ömrüm boyu mən öz tənqidçi dostlarımdan çox xeyir görmüşəm, nəinki pərəstişkarlarımdan, ələlxsüus tənqid nəzakət və dostluq ruhunda olanda".

Şuman yazır: "Tənqid, silahı ağılsızların, özündən razıların əlindən vurub salır; öyrənməyə can atanları mühafizə edir və öyrədir; mərdlərə sevinclə, mehribanlıqla səxavət göstərir; qüvvətlilərə baş əyir və qılıncını qınına qoyur".

Bəzi tənqidçilərdən ehtiyat etmək lazımdır; beləleri haqqında R.Byorns bir epiqramında deyir:

Bizim tənqidçimiz bizdən xəlvəti
Elə hara gəldi, edir qiybəti.
Necə ki,
Hərəmə bələddir hərəmağası
Ancaq, bilmir orda olan ləzzəti*.

Bu sayaq tənqidçilərə Dizraelinin: "Yaxşı kitab oxumaq istəyən, onu yazmalıdır" və K.Batyuşkovun "Necə yazırsan elə yaşa, necə yaşayırsan elə yaz" kəlamlarını xatırlatmaq pis olmaz.

"Hər hansı tənqid – düşüncə deyil, ancaq hər bir düşüncə tənqiddir" (F.İskəndər).

Gərək ki, Simenon demişdir, adamda ən ciddi çatışmazlıq – öz-özünə güzəştə getməkdir. Tənqiddə öz-özünə güzəşt eləmək olmaz.

Kino aləmində kinorejissorları iki kateqoriyaya ayırırlar: "səbatlılar" – heç bir düzəlişə (hətta öz rejissor yoldaşlarının da) razı olmayanlar; "strateqlər" (mahirlər) – ağlabatan bir şey eşidəndə hər cür ciddi dəyişikliyə razı olanlar.

V.J.Meyerhold rejissorları, aktiyorlarla işləmə üsuluna görə iki qrupa bölür: birinci qrupdakılar həm aktyorları, həm da tamaşıçıları yaradıcılıqdan uzaqlaşdırır, ikinci qrupdakılar isə əksinə - tamaşaçının sadəcə olaraq seyrci yox, fəal olmağa məcbur edir. Bu bölgünün əsasını teatrın dörd əsas ünsürü təşkil edir (müəllif, rejissor, aktyor və tamaşaçı).

Birinci qrupda – "teatr – üçbucaq"da tamaşaçı həm müəllifin yaradıcılığını, həm də aktyor vasitəsiylə rejissorun yaradıcılığını qavrayır; ikinci – "teatr – düz xətt" qrupunda müəllifin məqsədini tamamilə duyub rejissorun fəaliyyətindən bəhrələnən aktyor tamaşaçısı qarşısında sərbəst çıxış edir. "Üçbucaq" teatra necə deyərlər, fərdiyyəti olmayan virtuoz lazımdırsa, "xətt" tetra sərbəst yaradıcılıqda həlledici amil sayılan fərdi qabiliyyət əsas rol oynayır.

Meyerholdun qeyd etdiyi kimi, teatrda "üçbucaq" qrupu məşhur teatrlardakı böyük aktiyorların təqliçilərini hazırlayır və bu da əsl istedadların üzə çıxmasına mane olan əsas səbəblərdən biridir.

Bəzi italyan xalq komediyalarında yalnız ssenarı tərtib olunur, aktiyorlar arasında dialoq (danışıq) onların özləri tərəfindən improvizasiya olunur.

Yeri gəlmişkən, belə ifadəli müqayisə vermək olar: pyes – üzüm, tamaşa – ondan alınan şərabdır.

A.İ.Beletski demişdir ki, "yazıçı – aşbaz; tənqidçi – dequstator; ədəbiyyatşünas – xörəyin kimyəvi tərkibini, onun orqanizmdə reaksiyasını tədqiq edəndir".

Bir kəlamda belə deyilir: "Xalis riyzaiyyat mümkün olanı necə lazımdır elə həll edir, tətbiqi riyaziyyat isə lazım olanı necə mümkündür elə həll edir".

Buna bənzər bir misal var: ingilis, ürəyindən keçəni istədiyi kimi, fransız isə, bacardığı kimi ifadə edir.

V.Pikul Yekaterinadan belə bir ifadə gətirir: "...Fransızlar siyasətdə nəyi bacarırlar, təkcə onu edirlər, ancaq Rusiya nəyi etmək istəyirsə, onu da edəcəkdir".

İncəsənət sahəsində söhbətimizi davam etdirərək, başqa bir təsnifata diqqət verək.

Valter Bruno dirijorların təsnifatını aşağıdakı qaydada aparır: partitura başında, başı partiturada olan dirijorlar; və qeyd edək ki, partituradan ayrılmaqla, drijor daha böyük yaradıcılıq sərbəstliyi əldə edir. Bir çox məşhur dirijorlar Valterin prinsipi ilə həmrəy olmadılar. Eyni qaydanı dirijorların jestlərinə (əl – qol hərəkətlərinə) də aid etmək olar.



Maazel qeyd edir ki, bir qrup dirijor – xoreoqraflar var ki, bunlar hər şeydən əvvəl təəssürüat yaratmağa çalışaraq, orkestri demək olar ki, özbaşına buraxırlar və nəticədə təsvirəgəlməz səs-küy yaranır.

Bu dediklərimizi təsdiq etmək üçün Yunanistanda İqor Markeviçə danışılmış bir lətifəyə fikir verin:

Epidavrın qədim amfiteatrında bir gənc dirijor məşq edirmiş. Ətrafda qoyun otaran üç nəfər çoban sürünü itlərin ixtiyarına qoyub musiqi dinləmək üçün dağdan enib amfiteatra gəlirlər. Bir neçə dəqiqədən sonra çobanlardan biri drijora baxıb heyranlıqla deyir: "Bir nəfəri ki, bu cür oynadırlar, deməli ələ musiqiçidirlər".

Georq Sebastyan dirijorları – istiqanlılar və soyuqqanlılar kimi iki qrupa bölür.

Birincilər həm orkestri, həm də dinləyicini ələ ala bilirlər. İkincilər – səliqəlidir, öz ustalıqları ilə seçilirlər, lakin orkestr canlı görünmür və dinləyicilər soyuqdurlar.

Türk bəstəkarı professor Bülent Tarcan yazır: "Görkəmli dirijorlar dirijorluq etdikdə bir-birindən milli mənsubiyyətləri ilə fərqlənirlər. Belə ki, Furtvenqler, Valter tipik alman dirijorlarıdır. Sabata və Toskanini öz yaradıcılıqlarında latın ruhu və xarakterini açıqca saxlayırlar. Slavyan ruhunun sirlərini açmaq Mravinskiyə xas olan yaradıcılıq keyfiyyətidir. Lakin avropalı olmayan Niyazidə dediklərimiz nəzərə çarpmır. O, nə alman ənənəsinin, nə də fransız ekspressionizminin əsiri deyil o, əsl Azərbaycanlıdır. O, qərb bəstəkarlarının əsərlərini elə şərh edir ki, bunu onların özləri bacarmaz. Həm də bütün insanlığın mənəvi ehtiyacına yaxın olan ümumbəşəri məqamları Niyazi ön plana çəkir və bu, indi də onun inkaredilməz üstünlüyüdür".

Qədim hind alimlərinin, elmin müxtəlif sahələrinə (şastrlar) aid əsərlərində musiqi dinləyiciləri üç yerə bölünür:

1. Sattvika puruşa – musiqini eyni dərəcədə üçlüklə: ağıl; həyacan və fiziki hisslə qavrayır;

2. Racas puruşa – həyacanlıdır və musiqini əyləncə kimi hiss edir;

3. Tamasa puruşa - ən pis dinləyicidir. O, götür-qoy edir, təhlil edir, statistik faktlar yığır, xalis empirik mülahizə yürüdür, ifaçının yemək və geymək vərdişlərini, onun ictimai statusunu, şəxsi və xidməti işlərini öyrənir. Bu cür yanaşmanı o, incəsənəti öyrənmək hesab edir.

Q. Berlioz qəmginliyi (splin – ink. spleen – xiffət, kədərli əhvali-ruhiyyə və s.) iki müxtəlifliyə ayırır: biri – coşğun, cəsur, nifrət edən, istehzalı, qəzəbli; digəri – qaradinməz və tündməcaz, fəaliyyətsiz, ağzına su alıb duran, təkliyə və yuxuya həvəs göstərən, dünya dağılsa belə hər şeyə etinazsız olan və s.

Bu təsnifatın özünün sayı qədər olmayan parametrlər üzərində qurulmasına baxmayaraq, xeyli alim, dirijor, dinləyici göstərdiyimiz halların orta vəziyyətində yerləşir.

Bir parametr əsasında təyinolunmanın qeyri-qənayətbəxşliyinə aid başqa bir misal göstərək.

Kimsə: axmaq – öz şəxsi səhvləri əsasında, ağıllı isə – özgələrin səhvləri əsasında öyrənən adamdır, – demişdir.

XVIII əsrdə yaşamış tanınmış fransız cərrahı J.L.Pti haqlıdır: “Səhvlər o zaman yalnız səhvdir ki, onları elan etməyə sənin kişiliyin çatır, amma lovğalıq xatirinə səhvləri ört-basdır edirsənsə onlar cinayətə çevrilir”.

Qeyd edilənlər inandırıcı surətdə göstərir ki, “axmağ”a verilən tərif əsassızdır.

Cərrah T.Bilrotun – “Ancaq ruhən zəiflər, öyüncəklər, boşboğazlar və həyat düşgünləri buraxdıqları səhvləri açıq etiraf etməkdən qorxurlar” və V.Veresayevin “Cərrahlıq incəsənətdir və özlüyündə bu, ən çox yaradıcılıq və ən azı şablonlarla barışmaq tələb edir. Harda çablon var, orda səhv yoxdur, harda yaradıcılıq var, orada hər addım səhv eləmək mümkündür. Sənətkar belə səhvləri və yanılmaları uzunmüddətli iş prosesində buraxır” sözləri N.İ.Piroqovun mülahizəsilə həmahəng səslənir: “...hər bir vicdanlı adam, ələlxüsus müəllim, öz səhvlərini elan etmək üçün bir növ daxili bir ehtiyac hiss etməlidir ki, bu səhvləri buraxmaq üçün başqaları – daha xeyirxah olanlar xəbərdar olsunlar”.



Biz tez-tez və daha çox səhvlərimizdən öyrənirik, nəinki müvəffəqiyyətlərimizdən.

Hippokrat deyirdi: Yaxşı həkim nadir hallarda səhv edir, ancaq öz səhvlərini etiraf edən əla həkimdir.

İ.Davıdovskinin həkimlər haqqındakı mülahizələrini tamamilə mühəndislərə də aid etmək olar: “Maraqlıdır ki, ixtisasartırma kurslarında davam edən həkimlərin buraxdıqları səhvlərin sayı nəinki azalır, əksinə, xeyli çoxalır. Bunun səbəbi ondadır ki, həmin həkimlərin yaradıcılıq həvəsinin və cürətli fəaliyyətlərinin həddi-hüdudu yoxdur... Öz fəaliyyətlərini təbabətə dərin həvəslə bağlayan həkimlər, nədənsə ən az səhvə yol verirlər”.

Hegel, onun ardınca Bernard Şoy qeyd etmişlər ki, xalqlar və dövlətlər tarixdən heç vaxt heç nə öyrənməmişlər.

Onlara etiraz edərək Klyuçevski yazır: “Tarix, ondan öyrənmək istəməyənləri belə öyrədir və onları cahilliklərinə və etinasızlıqlarına görə qətiyyətlə tənbeh və tənqid edir”. Hətta büruzə verilməmiş, gizli səhvlər belə adamı utanaraq əzab çəkməyə məcbur edir. Belə hərəkətlərin təkrarı bəzən vicdanın səsini susdura bilir. Hələ romalı Apuley yazırdı ki, utancaqlıq və namus paltar kimidi; nə qədər geyilib köhnəlirsə, o qədər də nəzərdən düşür və ona laqeyd olursan.

V.İ.Dalın fikrincə namus – insanın təbiətən daxili mənəvi ləyaqəti, mərdliyi, düzlüyü, alicənablığı və təmiz vicdanıdır; namuslu insan – doğruçu həqiqətpərəst, vicdanını unutmayan, sözündə etibarlı və möhkəm əqidəli adamdır, ona hər şeyi etibar etmək olar.

Təəssüf ki, hələ də elə adamlara rast gəlirik ki, utanmadan deyirlər: “söz verdim” və “verdiyim sözü geri götürdüm”. A.M.Kuzin mənalı demişdir:

> İndi bu təpənin şahqıyasından,
> Görünür keçdiyin əzablı yollar.
> Əgər ora qalxmaq olsaydı asan,
> Çətin ki, orada tutardın qərar.*

Mərdliyi və qətiliyi cəsurluqla eyniləşdirmək olmaz. Cəsurluqda risk elementi mövcuddur. Mərdlik – çətinliklərdən qorxmamaq,

məsuliyyətdən yaxa qaçırmamaq və s. müsbət keyfiyyətləri özündə birləşdirən xasiyyətdir.

Risk – ancaq toplanmış bilik və əldə edilmiş təcrübələrin hüdudları daxilində mümkündür.

N.N.Petrovun dediyi kimi, öyrənmək, bilik toplamaq və təcrübə əldə etmək lazımdır, ancaq bunları bacarıqdan üstün olan cəsurluq hesabına etmək olmaz.

Ancaq belə məqamlarda N.Borun tövsiyələrini yada salmaq lazımdır; mütəxəssisə aşkar səhvlərini bilmək lazım olduğu kimi, bunlardan yaxa qurtarmağı da bacarmaq lazımdır.

Yıxıldın da, büdrədin də fəqət getdin öz yolunla ahəstə,
Ancaq, çalış başqasını suçlu tutma, söz gətirmə söz üstə.
Özün günah işlədərkən, şərə salsan bir fərdi,
İnsanların qəzəbinə tuş gələrsən, bu, ölümdən betərdir.

**(M. Akmulla)**

Bu cür vəziyyətlərdə yadda saxlamaq lazımdır ki, peşəkarlığın işgəncə zənciri (veriq – işgəncə zənciri – mövhumatçıların özlərinə əzab vermək üçün bədənlərinə keçirtdikləri zəncir, məsələn, Allahı yadından çıxarmamaq üçün böyük fransız alimi B. Paskal da belə edərmiş), ələlxüsus incəsənətdə, yaradıcı şəxsin təbiətinə qarşı, necə deyərlər, bir təcavüz gizlədir.

Dəblərin təsirinə uyaraq, dediklərimizi K.Göydel teoremini tətbiq etməklə izah edə bilərik. Bu teoremi qisaca belə ifadə etmək olar: hər bir və hər cür formalizmə uyğunlaşmış sistemdə bu formalizmə uyğun olmayan qalıq mövcuddur.

Məlumdur ki, istənilən anlayış bizim həqiqət haqqındakı təsəvvürlərimizi olduğu kimi yox, təqribi əks etdirir.

F.İ.Tyutçevin bir aforizmini yada salmaq yerinə düşür – "Aşkar olan fikir – yalandır":

Səndə nələr yatır, bir parça ürək.
Yad dunya bilərmi səni sənin tək.
Anlamaz nə sirdir səni yaşadan?
Aşkar olan fikir – yalandır, yalan.*



Məlumdur ki, hər xalqın özünün başqa xalqlardan fərqli əlamətləri var və bu əlamətləri bilmək, stereotipdən uzaqlaşıb, daha real anlayışa gəlib çıxmağa imkan verir.

Beləliklə, xalqlar iki – ekspessiv[1]qrupa bölünürlər.

Öz hiss və həyəcanlarına tabe olan və bunları açıq-aşkar ifadə etməkdən çəkinməyən xalqlar ekspressiv qrupa aiddirlər. Belə xalqlar tamamilə hisslərin ixtiyarına verilirlər (sevgi və nifrəti, sevinc və kədəri və s.).

Repressiv[2] xalqlar isə öz-özünə nəzarət etməyi üstün tutaraq, hisslərin sərbəstcəsinə büruzə verilməsini bayağılıq hesab edirlər.

Təbiblər kimi, mühəndislər də "ondan sonra" prinsipini "onun nəticəsidə" prinsipi ilə əvəz edirlər. Bu prinsip təsnifat üçün zəruri olan həlledici parametrlərin seçilməsində çox vacibdir.

Burada küləyin, ağacların yırğalanmasından yarandığını güman edən balaca sərçə haqqında uşaq nağılı, yaxud bir mıxın ucundan krallığın necə dağıldığına dair ingilis mahnısı yada düşür (mıx çıxdığından – nal düşmüş, nal düşdüyündən – at axsamış, atın axsamasından komandir öldürülmüş, komandirin öldürülməsindən – ordu basılmış və krallıq məhv olmuşdur).

Düşmən daxil oldu birdən şəhərə,
Qırdı, eləmədi rəhm əsirlərə.
Dəmirçıxanada ən nal var, nə mıx,
Düşmən qalib çıxdı, bax, buna görə.

Bəziləri özləri üçün nə isə etməklə ruhi rahatlıq yaradırlar, ancaq "edilən nə" şəraitin səbəbi yox, nəticəsi olur. Deyirlər ki, həyat cüzi şeylərin məcmusudur. Belə də demək olar ki, həyat bizim hərəkət və əməllərimizin yığımından ibarətdir.

N.Uaythed yazırdı ki, incəsənətdə mühakimə əsasdır; belə ki, məsələyə düzgün yanaşmaq, əsas ideyanı tamamilə duymaq, ondan əl çəkməmək və bütün ikincidərəcəli amilləri əsas ideyanın

[1] Ekspressiya – (lat. mənalılıq)
[2] Repressiya – (lat. susdurma, yatırma)

ətrafında cəmləşdirmək lazımdır. R.L.Berqə istinad edərək, fərqləndirici ilk və yeganə səbəbi elə arqumentə əsasən quraq ki, buna nəzərən yerdə qalanların hamışı funksiya olsun, daha doğrusu bundan alınsın.[1]

İtin pişikdən fərqi nədir? İki – uyarlıq və varlıq prinsiplərinə əsasən paleontoloq Jorj Küve bu suala belə cavab verir:

"Pişik öz ovunu pusquda durmaqla, it isə təqib etməklə əldə edir".

Burda qidanı (ovu) əldə etmə texnologiyası arqument, yerdə qalanlar isə funksiyadır.

Qidanın növü və onu əldə etmək – ona nail olmaq üçün məqsəd və üsul – heyvanat aləmi növünün bütün həyat tərzində, onun formasında, xasiyyətində, öz növündən olanlarla və başqa növlərlə qarşılıqlı münasibətdə müəyyən iz buraxır.

Pişik, cınqırını çəkmədən pusquda durur. Tam sakitlik – müvəffəqiyyətin əsasıdır. Ov, pusquda duranı nə görməli, nə də hiss etməlidir. Əsas strateji məsələ – ovun üzərinə qəfil atılmaqdır. Pişiyin iti gözü qaranlıqda belə öz ovunu seçir.

Pişik çox təmizkardır, o əsas etibarı ilə ov etdiyi yerə, evə bağlıdır. İt isə öz sahibinə. İtin tox olması üçün səssiz-səmirsiz dayanması əzəldən lazım olmayan üsüldur. Məlumdur ki, it hürər, karvan keçər. Pişiklərin kürsəyi zamanı "təşkil etdikləri müsamirə-konserti" nəzərə almasaq, onlar səs-küydən uzaq məxluqdurlar. Pişik adətən həmişə öz-özü ilədir, itsə mehrini sahibinə salır.

Maraqlıdır, ingilislər elə hesab edirlər ki, it birinci görüşdə adamın xarakterini səhvsiz təyin etmək qabiliyyətinə malikdir. Deyilənlər bir daha təsdiq edir ki, "Hər hansı bir əlamətə görə çox müxtəlif şeylər haqqında mühakimə yürütmək mənasızdır" (Monten).

Bunu səbəb-nəticə prinsipincə təhlil etsək, demək olar ki, eyni bir hərəkət müxtəlif səbəblərin nəticəsi ola bilər. Belə ki, Taleyranın

[1] Spinozanın mülahizəsini yada salaq: "Allah-bilmirəm, ancaq bilməmək arqument deyil".



1807-ci ildə imperator Aleksandrla gizli sazişə girib, Napoleonu satdığı, ona xain çıxdığı güman edilir. Ancaq Taleyrana bəraət qazandıranlar da tapıldı (Byorne kimiləri). Onlar belə hesab edirdilər ki, Taleyran həmişə bütün "xəstə dövrlərin" yastığı yanında olmuş, həmişə onların nəbzlərinin döyüntüsünü hiss etmiş və "ürəklərinin" dayandığını hamıdan qabaq duymuşdur. Bu zaman başqaları hələ bir müddət meyitə qulluğu davam etdirdikləri halda o, necə deyərlər, dərhal rəhmətlikdən uzaqlaşıb varisə doğru tələsmişdir.

Qeyd etdiklərimiz Gindeburqun barışmaz düşmənlərinin mülahizələri ilə uyğun gəlir: "Nerondansa, bir heç yaxşıdır" (ingiliscə söz oyunu: "Better a Zero than a Nero).

Bəzən hər hansı hərəkətə dini don geydirib, onu dinlə əlaqələndirirlər. Məsələn, orta əsr islam dünyasında olduğu kimi: "...İslam dünyasında çox az dövlət başçısı tapmaq olar ki, ədalətli və dindarlığı əsas tutaraq təmkinlə, mömincəsinə rəhbərlik etmiş olsun". Ya da birisini hakimiyyətə çəkəndə Klemanso prinsipinə əsaslanmaq lazımdır: "Ən avamını seçin". Belə adamlar daha müstəbid hökmdar seçmək üçün bir növ keçid rolunu oynayır. Dediklərimizin hazırda öz əhəmiyyətini itirdiyinə dair Yaxın və Orta Şərqin bir sıra ölkəsini misal göstərmək olar, daha doğrusu zaman keçdikcə bəzi yerlərdə vəziyyət kökündən dəyişməyə başlayır.

Prezident Xo Şi Minlə əlaqədar olan və qəbul olunmuş fikrin əsaslandırılmasında yeganə düzgün dəlilin necə həlledici rol oynadığını göstərən bir hadisəyə nəzər salaq:

Vyetnamda konstitutsiya qəbul etmək üçün hökmən ümumi seçkilər keçirmək lazım idi. Müxtəlif qaragüruhcu dəstələr ümumi seçki kanmaniyasını pozmaq üçün cürbəcür fırıldaqlara əl atdılar. Prezident Xo Şi Min qaragüruhçulara Milli Məclisdə 70 mandat güzəştə getdi, həm də onların həmin mandatları öz aralarında bölməyə və ya da satmağa ixtiyarları olmasına icazə verdi.

Xalq bu "deputatlara" pis münasibət bəsləyirdi, ancaq dəlil – "düyü əkəndə peyindən istifadə olunur. Demokratikləşmədə bəzən eləmək istəmədiyimizi də eləmək lazım gəlir" – xalqı sakitləşdirdi.

## § 6. "KİÇİK"də MÖCÜZƏ

Müşahidədən fərqli olaraq, hesablamadan dəqiqlik tələb etmək faydasızdır, ancaq hesablamadan az dəqiqlik də tələb etmək olmaz.
*A.Puankare*

Vaxtilə qədim yunan filosofu Anaksaqor demişdir: "Kiçikdə sonzus kiçik mövcud deyil, ancaq həmişə lap kiçik var. Belə ki, o şey ki, var, nə qədər bölsən də bölünməklə tükənib qurtarmaz". "Kiçiyin" təhlili və onun nəzər-diqqəti cəlb etməsi az da olsa elm və incəsənətin əsaslandığı güclü vasitələrdən biridir. İngilis yazıçısı Q.K.Çestertonun hekayələrindən birinin qəhrəmanı ruhani Braun hüquq normalarından cüzi də olsa kənara çıxmaları nəzərə almaqla cinayətin üstünü açmışdır.

Bununla əlaqədar olaraq qeyd etmək lazımdır ki, cüzi əyintiləri heç də həmişə mümkün olan vasitələrlə aşkar etmək olmur. Belə ki, süni yolla hazırlanmış Ekvador suyuna bənzər su, ürək-damar sistemi xəstəliklərinin müalicəsində istənilən təsiri verməmişdir. Başqa bir misal. Məşhur kimyaçı Y.Libixə müalicə üçün Pyatiqorsk kurortuna getməyi məsləhət görürlər. O isə evində tərkibi kurortdakı suyun tərkibi ilə eyni olan suni su hazırlayır. Lakin bu su onun səhhətinə heç bir təsir göstərmir. Əlacsız qalan Libix həkimin təkidi ilə Pyatiqorska gedir və orada müalicə müsbət nəticə verir. Sən demə, ordakı suda radioaktivlik xassəsi varmış və bu, o vaxtlar heç kəsə məlum deyilmiş.

Ozon havanın cüzi tərkib hissələrindən biridir. Yerin nəhəng atmosfer təbəqəsində ozon qatının qalınlığı təqbirən üç millimetrdir. Nazikliyinə baxmayaraq ozon təbəqəsinin böyük əhəmiyyəti var, həmin təbəqə Yer üzündəki canlı aləmə öldürücü təsir edən Günəşin ultrabənövşəyi şüalarını udur. Ozon təbəqəsinin "yırtılması" atmosferin, əlxüsus da çirklənmiş atmosferin temperaturunu kəskin surətdə artırır.



Ana südü zülalın tərkibində amin turşularının miqdarına görə ideal hesab olunur. İnək südündə də amin turşusu kifayət miqdardadır. Bu miqdar bitki zülalında lap aşağıdır. Deməli, mal-qaranın yemində bitki zülalını işlətməklə, biz düzmü hərəkət edirik? Qətiyyən yox. Hesablamalar göstərir ki, heyvandarlıqda yem şəklində sərf olunan 8,5 kq karbohidrogen və 5 kq yağ, nəticədə ət halında 1 kq. zülal və 1 kq. inək yağı verir. Karbohidrogenlər isə demək olar ki, itib gedir. Zülal itkisi 90 faiz təşkil edir. Nəticədə "yem – heyvan – insan" sistemində ortadakı həlqə - heyvan aradan çıxır.

İngiltərədə birbaşa yonca zülalından (inəyin iştirakı olmadan) süd almışlar. ABŞ-da soya zülalından toyuq əti, donuz əti soyutması və başqa ət xörəkləri hazırlanır. Bu və buna bənzər əməliyyatlar bizim ölkədə də aparılır. ("Sos. industrirya", 11.IX.1979).

Şübhəsizdir ki, süni zülal təbii zülaldan tərkib etibarı ilə kəskin sürətdə fərqlidir.

Məlumdur ki, delfinlər əzələ güclərinin verə biləcəyi imkandan 7 – 10 dəfə artıq sürətlə üzə bilirlər. Tədqiqatlar göstərmişdir ki, bunun səbəbi delfinlərin dərilərindən cüzi miqdarda buraxdıqları xüsusi maddə - polimerdir. Buna Tomson effekti deyilir. Əgər suya bu yüksək molekullu polimerdən cüzi miqdarda – 10 üstü mənfi 8 nisbətində (bir kubmetr suya bir qramdan da az) əlavə etsək ("kiçiyin"möcüzəsi) hidravlik müqavimət iki-üç dəfə azalar. Əsl paradoks da bundandır ki, polimer qatdıqda özlülük artır, müqavimət isə azalır. Məlum olmuşdur ki, polimer əlavə etdikdə suda necə deyərlər, dartılıb-uzanma xassəsi yaranır ki, bu da hidravlik müqaviməti azadır.

Elmdə belə bir aforizm mövcuddur: "Vergüldən sonra gələn hər rəqəmdə bir kəşf gizlənir".

"Kiçiyin" yuxarıda qeyd etdiyimiz əlamətləri baxımından Berqmanın psixoloji filmləri də maraqlıdır; J.L.Hodarın təbirincə "...bu əslində 1/24 saniyəlik film, müxtəlif dəyişikliklərə məruz qalaraq saat yarım davam edən böyük bir aləmdir. Bu aləmin hadisələri bir göz qırpımında cərəyan edir".

A.Arbuzovun "Səyahət illəri" pyesində Vedernikov arvadı Lüsidən ayrılır. A.Efros qeyd edir ki, həmin əsər əsasında Berqmanın "Şəxsi həyatda səhnələr" ssenarisində bu gözlənilməzlik daha güclü və qabarıq verilir. Çünki, ssenari, ər və arvad arasında tədriclə yaranmış münasibətlərin konkret dramatizmini bütün təfərrüatı ilə dərk etməyə imkan verən sonsuz sayda cüzi intim təfsilatlar üzərində qurulmuçdur. Belə açıq-aşkar təfsilatlara bizim dramaturgiyamızda, çox təəssüf ki, az rast gəlirik. Çünki, bu incə təfərrüatlar, pyesdə daha standart şəkildə verilir.

A.Efrosla mübahisəyə girişmədən qeyd edək ki, Y.Postnov, "Oyanmış torpağın" ikinci hissəsini səhnələşdirdikdə rejissor B.İ.Ravenskinin "kiçik" və "xırda" hadisələri ataraq, lazım olanları simvollaşdırıb, çox qabarıq şəkildə verməsini təqdir etməkdə haqlıdır.

Kinorejissor M.Romm umumilləşdirərək demişdir ki, rejissor öz yaradıcılığında hökmən, necə deyərlər, eyni zamanda iki cihazdan – mikroskopdan və teleskopdan istifadə etməlidir. Ona görə ki, birinci ilə insanın həyatında meydana gələn ən cüzi detalları, ən incə mətləbləri çox müfəssəl, son dərəcə dəqiq görə bilsin; ikinci ilə kainatın bütün mənzərələrini əks etdirsin.

Məişətin çal-çamırından təmizlənmiş musiqidəki hisslər və hadisələr öz ideallığı ilə həqiqətdə olduğundan daha real təsir bağışlayır.

"Literaturnaya qazeta"nın 19 dekabr 1984-cü il tarixli nömrəsində gedən bir dialoqa fikir verək: "Fransanin məşhur fəlsəfə tənqidçisi Jan-Pyer Rişar "Mikrooxuma" adlı nəhəng bir kitab çap etdirmişdir. Kitabın maraqlı cəhəti ondadır ki, müəllif, mətnin bir fraqmentinə əsasən – məsələn, Floberin və ya Bodlerin əsərinin bir səhifəsi əsasında – sənətkarın bütün yaradıcılıq xüsusiyyətlərini, şəxsiyyətinin bütün cəhətlərini mikrosəviyyədə şərh etməyin mümkünlüyünü açıb göstərir. Təkrar edirəm, Rişarın kitabı maraqlıdır, ağıllıdır və incə mətləblidir. Mən Rişarla onun "mikrooxuma" metodu haqqında çox danışdım və soruşdum: düzünü deyə bilərsənmi – nə üçün bu işlə məşqul olursan? O, cavab verdi ki, "deyə bilmərəm". Qeyd etdi ki, burda hər şey çox sadədir. Şeir ya yaxşı ola bilər, ya da pis. Vəssalam.

Mənə belə gəlir ki, bu "vəssalam" sözünün izahı həqiqi ədəbi tənqid probleminin özü deməkdir" (Rober Andre).

Daha sonra: "Bu növ fəlsəfi tənqid ancaq bəzi ədəbiyyat fədailəri üçün maraqlıdır, lakin böyük oxucu ictimaiyyətini o qədər də düşündürmür" (Yevgeni Cidorov).

Mənə belə gəlir ki, "mikrooxuma" yaradıcılıqla məşğul olanlara həm moddelləşdirmə təsəvvürlərinin formalaşmasında, həm də mikrosəviyyəli tədqiqat proseslərinin araşdrılmasında böyük kömək göstərə bilər.

Z. Freyd demişdir: "Böyüklük özünü lap kiçiklikdə göstərir".

"Kiçik" görünən bəzi şeylər adamın, özü də istedadlı adamın rəftarına çox tez-tez təsir göstərir və bu təsir həmin adamın xasiyyəti haqqında düzgün olmayan təsəvvür yarada bilər.

Baxın, V.E.Meyerhold, F.İ.Şalyapin haqqında nə yazır: "Şalyapinin məşqlərdə və tamaşalarda özündən çıxmağı, dava-dalaş, hay-küyü; dirijorla və tərəf müqabilləri ilə savaşları çox asanca izah olunub, aydınlaşırdı: belə ki, o, musiqiyə o qədər həssas idi ki, lap cüzi sünilik, qeyri-təbiilik onun eşitmə hissiyyatını zədələyir, necə ki, kərpici şüşəyə sürtdükdə sizin qulaqlarınız xoşa gəlməyən qıcıqlanmaya məruz qalır. Dəcəl oğlan uşağı kərpic parçasını şüşənin üzəri ilə sürüşdürdükdə çalış görüm necə sakit oturursan? Şalyapin orkestrdə hər şeyi bütün təfərrüatı ilə eşidirdi və ən kiçik yanlışlıq ona əzab və əziyyət verirdi. Bu təsiredici həssaslıq, lirik şairlərin tez sınıb-küsmələri kimi, həm psixi, həm də psixofiziki xarakterdir. Odur ki, belələrini mütləq özünə qəsd etməkdən qorumaq lazımdır; fəhləyə – zərərli mühitdə işlədiyinə görə süd verib, onu zəhərləyici elementlərdən qoruduğumuz kimi.

Mayakovskinin ölümü – istehsalatın ən həyati sahəsində – poeziyada əməyin mühafizəsi qaydasının pozulması deməkdir".

Çox təəssüf ki, İ.İlinskinin qeyd etdiyi kimi ("Sovetskaya Rossiya", 10.01.86), aşağıdakı hallar da olur: "Bəzən elə olur ki, sənətkarın ictimai vəziyyəti onun talantı ilə yox, xəlvəti oyunları ilə müəyyən olunur (mən deyə bilərəm ki, yalnız sənətkarın yox"). Bundan sonra mükafatlar, rütbələr dalbadal gəlməyə başlayır və bütün bunları əldə etdikdən sonra, utanıb-qızarmadan əsl talantların yolunda haqsız əngəllər yaradırlar. Məqsəd olduqca aydındır: rəqibi yoldan təmizləyərək, aradan götürmək. Çünki, onun varlığı avtoriteti hörmətdən salır, lazım olmayan dedi-qodular, pıç-pıçlar yaradır... Bu cür hadisələr demoqogika kimi saxta işgüzarlıq, ədalətsizlik yaradır və incəsənətin inkişafına mane olaraq onu yaradıçılıq sevincindən məhrum edir".

"Kiçik" ədədi nəzərə almamaq, nəzər-diqqətdən atmaq həmişə olmaz. Məlumdur ki, bədəndə iltihab və bədxassəli mənbələrin temperaturu ətrafın temperaturundan yüksək, xoşxassəli şişlərinki isə əksinə – aşağı olur.

Bəli, bədənin simmetrik hissələrinin temperaturunun $0,1^0$ – ilə $0,01^0$ arasında dəyişməsi xəstəliyin diaqnozunu dəqiqləşdirməyə kömək edir.

Hazırda onkologiyada xəstələri müayinə etdikdə istilik metodundan süd və qalxanabənzər vəzlərin şişini və onların differensial diaqnostikasında, dərinin melanoblastomunda, sümüyün sarkomunda və s. istifadə olunur. Bu metod travmotoloji klinikalarda da müvəffəqiyyətlə tətbiq olunur.

Adamda kiçikdən lap çoxu əldə etmə və çox geniş yığcamlaşdırmaq qabiliyyətinin inkişafına musiqi çox kömək edir.



## § 7. PROSESİN KARİKATURASI

Duyan ürəklərin munis həmdəmi,
Şux nəğmələrdəki məna aləmi,
Varlığa heçlikdən kükrəyib gəlmir.
Allahın özü də yarada bilmir,
Əsası olmayan birco zərrəni,
Əşyaya verilən qiymət-mizanı
Sənətkar qəlbinin qanıdır, qanı.*
*H.Heyne*

Modeller – proseslərin idealizə edilməsidir. SSRİ xalq artisti T.İ.Sinyavskaya "Nedelya"nın müxbirinin sualına belə cavab vermişdir: " "İdeal qadın məncə Yaponiyadakı Fudzi dağı kimidir: bu tərəfdən bir cür gözəl görünür, başqa tərəfdən başqa cür gözəl görünür. Nahaq yere ona Fudzi-san, yəni qadın gözəli demirlər ki...? Hissolunmaz incəlikdir. Və hər şey də bundadır" ("Nedelya", 16 – 22 aprel 1984).

Makiavelli yazırdı: "Ehtiyatlı olmaqdansa, hövsələsiz olmaq yaxşıdır, çünki tale qadına bənzəyir. Əgər sən ona hakim olmaq istəyirsənsə, onu fəth etmək lazımdır... Buna görə də o həmişə gənclərin yol yoldaşıdır; onlar məğrur, zirək və son dərəcə yüksək cəsarətə malik olduqları üçün təslim olmağa məcbur edirlər".

N.Q.Çernışevski müfəssəl analogiya üsuluna müraciət edir: "Hərbi yürüşlərdə, qarşısı alınmaz hadisələrdən biri, ordu, baş qərargahla birlikdə irəlilədikcə yorulub, qorxub yollarda qalanların problemidir. Bu fərarilər yığını döyüşlərdə iştirak etmirlər, onlar – "artıq yükdürlər". Bu hadisəyə bənzər vəziyyət ağlın inkişafına uyğun olaraq idrakın təkamülü prosesində də baş verir.

Deyilənlərə bənzər mühakimə prossesinə Şekspir də müraciət etmişdir: "Venesiyada hamıdan daha çox Qrasiana boş şeylər haqqında həddən artıq çərənləyir, onun mühakiməsi – saman tayası altında gizlənmiş iki buğda dənəsidir. Onları tapmaqdan ötrü gərək bir gün sərasər saman tayasını eşələyəsən, əgər tapsan görəcəksən ki, axtarmağa dəyməzmiş".

Fizika alimi Y.Frenkel qeyd etmişdir ki, model – hadisənin karikaturasıdır, yəni, bir növ oxşarıdır. Bəs karikatura nədir? Bu kiçik, lakin çox zərif, dəqiq və səciyyəvi əlamətlərlə insanın, müəyyən bir fiziki prosesin, hadisənin şəkli və ifadəsidir.

Modeli izah edərkən fransızların ispan meyxanası haqqında uydurduqları bir məsəl yada düşür: ispan meyxanasında yalnız özünlə gətirdiyini yeyə bilərsən.

Çox güman ki, çoxları ibtidai insanlardan yadigar qalan qaya rəsmlərini görüb, heyrətlənibdir. Burda qeyri-ixtiyari bir sual meydana çıxır: bunlar ibtidai insanların incəsənətə sevgisindən yaranmış, yoxsa bu, bədii sənətlə məşğul olmaq zəruriyyəti imiş? Əlbəttə, yalnız yaşamaq uğrunda mübarizə aparmış qədim insanların fəaliyyətində təmtəraqlı, "sənət sənət üçündür" devizi hakim ola bilməz. Şübhəsiz ki, qayaüstü rəsmlər əmək fəaliyyətini əks etdirən maddi mədəniyyət abidələridir.

Vəhşi heyvanların kütləvi ovunda qədim insanların qarşılıqlı birgə fəaliyyəti bir zərurət idi. Bütün yaradıcılıq enerjisi, bütün iradə ov mərasimində ancaq ovun müvəffəqiyyətlə nəticələnməsinə istiqamətləndirilirdi. Çünki ov, demək olar ki, yaşamaq üçün yeganə vasitələrdən ən əsası idi. Lakin unutmamalı ki, uğurlu ov üçün ovun xarici əlamətlərini, çevikliyini, daha təhlükəli və zəif vəziyyətlərini yaxşı bolmək lazımdır. Ovçuda bütün bu keyfiyyətlər illər boyunca yaranırdı və bu təcrübəni nəsildən-nəsilə ötürmək lazım idi.

Bax, elə buradaca qayalar üzərində təsir olunmuş və bir növ model xarakteri daşıyan real ov səhnələri ovçuların köməyinə gəlir.

Hazırda bütün fəaliyyət sahələrində modellərə və modelləşdirməyə ümumxalq marağı olduqca geniş vüsət almışdır. Elə bir elm, bilik sahəsi tapmaq olmaz ki, orda modelləşdrilmədən istifadə olunmasın. Bununla əlaqədar olaraq nəinki təkcə filosoflar, həm də müxtəlif elm sahələrində çalışan alimlər modelləşdrilmə metodlarının müxtəlif səviyyəli tətbiqlərilə məşğuldurlar.

Modelləşdirmə metodu əməli sahədə ötən əsrin 50 – 60-cı illərində tətbiq olunmağa başlamışdır. Bu sahədə ən başlıca tədqiqatlar hələ İ.Nyuton, J.Bertran və C.K.Maksvell tərəfindən aparılmışdır. Bundan bir qədər sonra V.Tomson (Kelvin) özünün "Baltimor mühazirələri"ndə yazırdı ki, hər hansı hadisəni dərk etmək – onun modelini qurmaq – metodoloji yenilik deyil, bu, çoxəsrlik elmi yaradıcılığın sintezidir.

"Model" sözü ilə bir-birindən fərqlənən iki anlayış mənası daşıyan "modulus" sözündən götürülüb. Bu söz, bir əşyanın, hadisənin başqa bir hadisəyə və ya əşya ilə oxşarlığını, yaxınlığını, uyarlığını, timsalını göstərmək üçün işlədilir. Çox ehtimal ki, "model" sözü özündə daha geniş məna ehtiva etdiyi üçün bütün bilik sahələrində onu əsas termin kimi qəbul etmişlər.

"Model" sözü ilə bir-birindən fərqlənən iki anlayış bağlıdır. "Model" deyəndə, bir tərəfdən əqli, ya da təcrübi yolla qəbul olunmuş və tədqiq edilən obyektin hadisənin bu və ya doğər tərəfini dəqiq, əyani formada əks etdirən bir timsal başa düşülür. Digər tərəfdən, "model" termini bu və ya başqa hadisəni yaxşı öyrənilmiş və tam genişliyi ilə bizə tanış olan başqa bir hadisənin köməyi ilə öyrənmək istədikdə tətbiq olunur. Bir çox hallar göstərmək olar ki, burda model abstraksiya, fərziyyə anlayışları ilə eyniləşir, modelləşdirmə termini idrakın, qnoseoloji təcəssumun sinonimi kimi işlənir.

Ümumiyyətlə, "model" dedikdə, təsəvvür olunan elə struktur, quruluş nəzərdə tutulyr ki, o bizə tədqiq olunan obyekti yeni, indiyə qədər məlum olmayan cəhətdən görməyə inkan versin.

Obyektin və hadisənin tədqiqində qarşıya qoyulan məqsəddən asılı olaraq modellər: məzmumuna, növünə, qurulma üsuluna və modellə orijinalın qarşılıqlı əlaqəsinə görə bir-birindən fərqlənirlər.

Külli miqdarda həm texniki ədəbiyyatlarda, həm də fəlsəfi planda yazılmış elmi əsərlərdə maddi nemətlərin istehsalı sahəsində və ya elmi eksperimentlərdə tətbiq olunan bir çox, necə deyərlər, texniki modellərdən müxtəlif misallar gətirilir.

Ədəbiyyat və incəsənət sahələrində tətbiq olunan modellər də böyük maraq kəsb edir.

İncəsənətin növləri müxtəlifdir və bunlar bir-biri ilə sıx surətdə bağlıdırlar. İncəsənətin təsnifatı cəhdləri indiyə qədər qaneedici nəticə verməmişdir (bax: §5). İncəsənətin modelləri müxtəlif olduğu

kimi, onların təsnifatı da mürəkkəbdir. Texniki modellərə misal olaraq, incəsənət sahəsində bir neçə məlum təsnifata diqqət yetirək.

Modelin qurulma üsuluna və modelləşdirmədə istifadə olunan vəsaitlərə görə modellər iki böyük sinfə bölünürlər: maddi və ideal modellər. Maddi modellər müəyyən şəxslər tərəfindən yaradılır və obyektiv olaraq mövcuddurlar. İdeal modellər isə maddi modelləri qurmağa hazırlıq üçün insanların fikrində qurulur.

Hər hansı monumental abidənin, binanın, arxitektura ansamblının qurulması və ya tikilməsi əvvəlcə heykəltəraşın və arxitektorun uzunmüddətli gərgin axtarışları ilə başlayır. Əvvəlcə, gələcək əsərin kağızda yalnız şəkli, ayrı-ayrı cizgiləri yaranır; sonra isə əsərin bütöv və mükəmməl şəkli təsvir olunur. Bunları birlikdə ideal modellərə, daha doğrusu, ideal modellərin altsiniflərinə, obyektlə oxşarlıq təşkil edən və əyanilik xarakteri daşıyan ikonik modellərə aid edirlər. Nəyahət, sonrakı mərhələ - maketin qurulması (maddi model) başlayır. Bu etap məcburidir, maket şəkillə müqayisədə böyük üstünlüklərə (məs., əsərin üçölçülüyü və s.) malikdir. Şəkil elementləri ancaq bir müstəvi üzərində yerləşir, maket isə hər tərəfdən görünüşə malikdir, tamaşaçı öz yerini dəyişdirdikcə daha yeni əlamətlər görür və gələcək əsərin bütün təfərrüatını təsəvvüründə canlandırır.

Bu mərhələdə, göründüyü kimi, modelləşdirmə prossesi qurtarır. K.Marksın təbirincə, "ən pis memar da ən yaxşı bal arısından lap əvvəldən bununla *fərqlənir* ki, memar hələ mumdan şan qayırmazdan əvvəl bunu öz beynində qayırıb hazırlamış olur" (Marks K., Kapital, I c., s. 184).

Teatr tamaşasının səhnə quruluşu prosesi də maraqlıdır. Burda da modelləşdirməsiz keçmək olmaz. SSRİ xalq artisti N.P.Akimov deyir: "Mürəkkəb teatr maşınını hərəkətə gətirmək üçün... tamaşya başlamazdan əvvəl onun ideya və mənası müfəssəl şəkildə işlənib hazırlanmalıdır". Bu həmin tamaşanın modelidir. Beləliklə, əvvəlcə bədii ideal model yaranır, sonra isə bu model səhnə təcəssümündə özünü göstərir. Burda hələ bir mərhələ - dekorasiya hazırlığı da meydana çıxır. Bu dəfə, teatrda maketləçdirmə adlanan maddi modelləşdirlmə özünü bürüzə verir. "Səhnənin bütün nisbətini üç ölçüdə dəqiq təsvir edən maketin önündə rahat dayanan rəssam, tamaşaşıya görünən və görünməyən hissələrin fəzada vəziyyətini öz "qaralamasında" hökmən görməlidir və qaralamanı maketə qeyd etməlidir" (Akimov N.P.).

Kino sənətində də belədir: "Biz mütləq əminik ki, hər hansı filmi " şəkillərdə təsvir etməzdən", kinoaparatla "əks etdirməzdən", çəkilişə başlamazdan qabaq onu görmək vacibdir. Film, çəkilməzdən və tamaşaçılara göstərilməzdən qabaq, onu görmək, gələcək filmi – sintetik kino incəsənəti əsərini ekranda, bütün mürəkkəb surətlər və vəziyyətlər sistemi halında təsəvvür etmək deməkdir" (Q.Myasnikov). S.Ejzenşteynin özünün gələcək filimləri üçün çəkdiyi qrafik şəkillər yuxarıda dediklərimizə misal ola bilər. Demək olar ki, çəkiləcək filmin bütün səhnələri rəsmlər şəklində əvvəlcədən modelləşdirilirdi. S. Eyneşteynin modelləri olduqca dəqiq və ifadəli, yəni necə deyərlər, "donuq" görünmələrinə baxmayaraq, onlara tamaşa etdikdə film qəhrəmanlarının dinamik surətləri gözlərimiz önündə canlanır. "Aleksandr Nevski", "İvan Qroznı" filimlərinə çəkilmiş şəkillərə nəzər salsanız, görərsiniz ki, əsərin qəhrəmanları özlərini necə aparacaqlar, onlar zahirən necə görünəcəklər, xarakterlər necədir və s.

İkonik modellərdən başqa, necə deyərlər, işarə modellərini də qeyd etmək lazımdır. Burda bədiiliyin xarakteri dəyişir. Bu növ modellərdə obyektlə model arasında qarşılıqlı münasibət müəyyən işarələr vasitəsi ilə ifadə olunur, həm də işarə modeli elementləri ilə ona uyğun obyekt elementləri arasında bənzərlik tamamilə aradan götürülür. Bu modellərin əlverişliyi haqqında haqlı sual meydana çıxa bilər. Doğrudan da, göründüyü kimi, bu modellərdən istifadə etməklə nə əldə etmək olar? Bəli, həqiqətən ikonik modellərlə müqayisədə işarə modelləri əyanilikdən çox uzaqdırlar. Lakin, burda da hissi - əyanilik formasında obyektə xas olan məlum münasibətləri təsəvvürə gətirmək olar.

Bu modellərin hətta üstünlükləri də mövcuddur; belə ki, obyektə xas olan və hissi duyğularla dərk oluna bilməyən əlamətləri,

müəyyən qaydalardan istifadə edərək, işarə sistemli münasibətlər şəklində ifadə etmək olar. Müəyyən təcrübəyə malik mütəxəssisi, hər hansı incəsənət obyektini əks etdirən işarələrə əsaslanaraq, daha çox məlumat əldə edir. İşarə modelləri incəsənəti bir növ riyaziləşdirərək, onu həyacan və şairanəlikdən məhrum etmir. Paustovski qeyd edir ki, "hər hansı bilik sahəsi özündə dərin şeiriyyət ehtiva edir". İşarə modellərinə ən yaxşı misal notları göstərmək olar. Axı, müəyyən qayda ilə yazılmış notlar müsiqi əsərləridir. Bunlar uyğun musiqi obyektinin modelləri deyillərmi? Bu halda işarəli modellər ikonik modellərdən daha bədii və obrazlıdır. Onu da qeyd edək ki, not şəkili metodlar olmadan musiqi əsərlərinin yaranması və yaşanması mümkün olmazdı. Musiqidə işarə modelləri, ehtimal ki, əvvəlcədən bəstəkarın hafizəsində yaranmış əsərin, yalnız səs modelinin yazı formasıdır.

Böyük Q.Ə.Qaraevə aid olan bir analogiyaya nəzər salaq:

1. İşlənib hazırlanmış ideya;
2. İşçi çertyojlar (notlar);
3. Maşın, dəzgah və s.

Not – modelin hazırlanmasına qədər artıq hazır olan keçid fazasıdır (çertyoj, proqram).

Q.Ə.Qaraevin qeyd etdiyi kimi, dodekafoniyada (yun. dodeka – on iki+phone – səs) seriya, şübhəsiz, gələcək əsərin sadələşdirilmiş modelidir, ona görə də seriyanın strukturu üzərində bəstəkar, adətən çox gərgin işləyir.

Partiturası yazılmış simfoniyanın ifasını təsəvvürə gətirmək çox çətindir.

Simfonik orkestrin idarə olunması – çətin və incə bir işdir. Hər bir dirijor olduqca fərdi keyfiyyətlərə malikdir və odur ki, eyni bir əsər müxtəlif dirijorlar tərəfindən müxtəlif cür səsləndirilir. Dirijoru bədii söz ustaları ilə müqayisə etmək olar. Dirijorun partiturası ifa olunan əsərin modelidir və bu model hələ bir az da dirijorun özünün fikrində dəyişikliklərə məruz qalır.

Dirijorun bədii surətdə tərifini A.Badhen belə ifadə edir: "Dirijor – onlarca insan gücünə malik mühərrikdir. Bu ona görə



mümkündür ki, dirijor – özü-özü üçün enerji hasil edən qurğudur. Öz enerjisini sərf edərək, bu prosesin özündən yeni enerji hasil edir və bu, ara vermədən davam edir ("Sovetskaya muzıka", №2, 1985). Bütün bunlar modelin əhəmiyyətini azaltmır. Təbiidir ki, notsuz musiqinin yaşaması qeyri-mümkündür. İşarə modelləri yalnız musiqidə tətbiq olunur və "işarə" dedikdə heç də həmişə notların təmsil etdikləri mənalar başa düşülməməlidir. Axı, bizə tanış olmayan dillə ifa olunan tamaşalara gedərək həmin tamaşalardan böyük zövq alır və ləzzət duyuruq. Əlbəttə, bu o zaman ola bilər ki, ifa olunan əsər əvvəlcədən bizə tanışdır, yəni qabaqcadan bizim fikrimizdə model yaranmışdır. Teatrda bizi aktyorun oyun manerası, sevimli qəhrəmanların rollarının ifa xarakteri maraqlandırır.

Çox tez-tez qarışıq (əyani-işarə) modellər də tətbiq olunur. Bu cür hallara Kafkanın əsərlərində rast gəlirik.

Mövcud dünyamızın bütöv və real modelini yaratmaq bir də ona görə çox çətin məsələdir ki, incəsənət əsərlərində gərçəklik sadəcə olaraq foto çihazları ilə çəkilmir, müəllifin dünyagörüşü süzgəcindən keçərək müəyyən dərəcədə təhrif olunur, dəyişikliyə məruz qalır

Müxtəli sənət növlərinin hər biri diqqəti, gərçək olan varlığın müəyyən bir sahəsinə cəlb edərək, dünyanın ümumi modelini yox, xüsusi modellərini əks etdirirlər. Bu xüsusi modelləri fəza və zaman, təsviri və bədii, mənzərə və səs və s. növlərə ayırmaq olar. Lakin bu cür bölgünün özü də şərti xarakter daşıyır. Rəssamlıq fəza nisbətlərinin qarşılıqlı münasibətini verirsə, bu heç də o demək deyildir ki, şəkil keçmişlə indinin, səbəblə nəticənin əlaqəsini verə bilmir. Əgər hər hansı rəsm əsəri ancaq, necə deyərlər, "donmuş anları" verə bilirsə, onda sənətin idraki qabiliyyəti tamamilə məhdud edilmiş olur. Rəsm əsərinə diqqətlə baxanda, onun müəllifinin kimliyindən asılı olmayaraq, keçmişi, indini və gələcəyi həmin əsər vasitəsiylə hiss edir və duyuruq. Teatr sənəti daha maraqlıdır. Burada modelləri, göstərilən əlamətlərinə görə fərqləndirmək çətindir: teatrı sintetik modellərə aid etmək olar. Musiqi və balet, şeir və nəsr, rəssamlıq və heykəltəraşlıq bir-biri ilə teatrda birləşir və bu vəhdətin ən gözəl təcəssümünü burda tapırlar.

İncəsənət öz modellərində real aləmi əks etdirməyə meyl göstərir. Burada modellər müxtəlif olsalar da, yeganə bir məqsədə xidmət edirlər; gözəlliyi dərk etməyi, fikirləşməyi öyrədir və bizi əhatə edən bu gözəl dünyanı öyrənməyə çağırır.

Volterin tarixi əsərlərinin modeli də maraqlıdır. Onun fikrincə: "Tarixi əsərdə də faciədə olduğu kimi düyün və razvyazka olmalıdır... Bir sözlə, mən hiss və həyacanları üzə çıxarmaq istəyirəmdə".

Modellər bəzən lazımi faktlara əsasən qurulur. Ümumiyyətlə, faktlara əsaslanmayan elm yoxdur. Nəzəriyyəsiz, nəzərdən kənar faktlar özlüyündə hələ elmilik kəsb eləmir.

M.Qorki yazmışdır: "Fakt hələ tam həqiqət deyil, o, xammaldır. Və bu xammalı əridib, əsl həqiqəti əldə etmək gərəkdir... Faktlardan məna məna əldə etməyi bacarmaq lazımdır".

Müəyyən bir prosesi izah edəndə, az və ya çox miqdarda faktların vasitəsiylə izahın mümkünlüyü məsələsi müəyyən əhəmiyyətə malikdir. Əvvəlcə belə təəssürat yaranır ki, faktların bolluğu hadisənin tam və daha dərindən izah olunması üçün əsas şərtdir. Buna baxmayaraq, belə hallarda sanki Heyzenberqin qeyri-müəyyənlik prinsipi özünü göstərir. Sanki, böhran halı yaranır; belə ki, prosesin dərinliyinə nüfuz etdikcə həmin proses daha çətin izah olunur; həll olunmamış problemlərin sayı çoxalır, çünki hər bir həll olunan problem, yenisinin meydana gəlməsinə səbəb olur.

Həddən artıq səhihləşdirmə bəzən birbaşa əks nəticələrə gətirib çıxara bilər.

K.S.Stanislavskinin bir fikrinə diqqət yetirək: "... Ən sadə fəaliyyəti belə, məsələn, lap elə su içmə prosesini – yüzlərlə "istəmək" əməliyyatına bölmək olar. Məsələn, birinci - əlimi uzatmaq istəyirəm, ikinci – qrafini götürmək istəyirəm, üçüncü – o biri əlimi uzatmaq istəyirəm, dördüncü – stəkanı götürmək istəyirəm, beşinci – qrafini əyib su tökmək istəyirəm, altıncı – suyu tökmək istəyirəm və s.

Əgər həyatda bu istək momentlərinin hər biri üzərində düşünsən, şübhəsiz ki, stəkanı sındıraraq suyu döşəməyə tökərsən. Ən maraqlı istək, çilik-çilik olmuş stəkan hissəciklərini yığışdırıb.



birləşdirərək onu bərpa etməkdir; bu isə necə deyərlər, "ölü" istəkdir, qeyri-təbiidir, nahaqdan beyini gərəksiz arzularla dolduran və səhnədə canlı ömrü iflic edən istəkdir".

"Yeni problemləri bol olan hər bir elm sahəsi yaşamağa qabildir. Yeni problemlərin çatişmazlığı sərbəst inkişafın dayandığını və ya öldüyünü göstərir" (D.Hilbert).

XIV yüzillikdə ingilis filosofu U.Okkam tərəfindən "Okkam ülgücü" adlanan qənaətçillik prinsipi və ya israfçılığa qarşı mübarizə fərziyyəsi yaradılmışdır. Bu prinsipin mahiyyəti – dünyanın əsaslandığı minimumu dərk edib artıq nə varsa hamısını amansizcasına yox etməkdən ibarətdir. Cansız təbiətdə təbii "Okkam ülgüçü" rolunu ekstremal prinsiplər oynayır (kiçik təsir prinsipi).

SSRİ xalq artisti N.D.Mordvinovun bir mülahizəsinə fikir verin: "Onsuz keçinə biləcəyimiz şeyi atmağı bacarmaq – məharətdir, incəsənətdir".

Klassik elmləri qiymətləndirdikdə estetik meyara əsaslanırlar, ələlxüsus zəriflik meyarına.

Puankare zərif teorem və antik arxitektura abidələri arasında dəqiq oxşarlığı qeyd edərək göstərir ki, az sayda sütunların ağır orderi (arxitektura kompozisiyasını) yüngül əşya kimi saxlaması arxitektor fikrinin kamilliyinə dəlalət edir.

Bununla əlaqədar olaraq A.P.Çexovun zərifliyə verdiyi tərif maraqlıdır: "Adam, hər hansı bir əməliyyatı çox az hərəkətlə edirsə, bu zəriflikdir".

Bir mühəndis demişdir: "Uzunluğu iki düymdən (5,08 sm) artıq olan tənlik demək olar ki, düzgün deyil".

P.L.Kapitsanın bir mülahizəsinə diqqət yetirək: "Elmdə aşağıdakıları həmişə müşahidə edirik: kəşf edilmiş qanunauyğunluq nə qədər sanballıdırsa, onu bir o qədər qısaca və dürüst ifadə etmək olar. Məsələn, mexanikanın əsas qanununu ifadə etmək üçün Nyutona dörd hərf kifayət etmişdir. Fotoeffektin Kvant qanunauyğunluğunu ifadə etmək üçün Eynşteyn üç hərfdən istifadə etmişdir".

A.İ.Kitayqorodskinin ifadə etdiyi "nəzəriyyənin qiyməti" anlayışı da maraqlıdır: "Nəzəriyyənin qiyməti" – N, bu düsturla

təyin olunur $N=\frac{k}{m}-1$, burda k – nəzəriyyənin qabaqcadan deyə biləcəyi asılı olmayan kəmiyyətdir, m – gətirmə parametrlərinin sayıdır.

R.Akof və M.Sasiyeni yazırdı: "... adətən, hər hansı hadisənin dərk olunma dərəcəsi, onu ifadə edən düsturdakı dəyişənlərin sayı ilə tərs mütənasibdir".

Yenə də Voltera müraciət edək: "Cansıxıcı olmaq məharəti - hər şeyi deyir".

Onun poetik yaradıcılığını A.Puşkinin ona həsr etdiyi şeir parlaq şəkildə təsdiq edir:

O, Febin[1] ruhunda tərbiyələndi,
Uşaqkən tanındı bir şair kimi.
Şeirindən qəlblərə nəşə ələndi,
Onu oxuyanlar unutdu qəmi.*

Burda Q.S.Skovorodanın bir kəlamını xatırlamaq yerinə düşərdi: "Sənə şükürlər olsun, ey böyük allah; bütün lazım olanları asan (sadə), çətin olanları isə (mürəkkəb) lazımsız yaratdın".

Rejissor-monumentalist B.İ.Ravenskix müsahibəsində deyir: "... Mən məhdudiyyət istəyirəm, ona görə də – boşboğazlıqla zəngin tamaşalar heç vaxt fəlsəfi ola bilməzlər. Həddən artıq gurultulu, səs-küylü, baş qarışdırıcı teatrlar artıq bizləri yorublar; təəssüratın çoxluğu – ümumiyyətlə, təəssüratın yoxluğu deməkdir. Diqqətlilik, məhdudiyyət, düşüncə yığcamlığı lazımdır".

Beləliklə, hər bir işdə mübarizənin elə sərhədini işləyib hazırlamaq lazımdır ki, ora qədər gedə biləsən. Belə ki, müstəntiq bir adam haqqında o qədər məlumat toplamalıdır ki, artıq heç nə olmasın.

Dediklərimiz məşhur fransız moralisti Labryuyerin mülahizəsinə uğun gəlir: "Müəyyən məhdudiyyətlər bəzi adamların müdrikliklər yolu ilə irəliləməsinə kömək edir".

[1] Feb – qədim yunan əsatirində günəş allahı Apollonun ikinci adıdır.



Metodun gözəlliyi alınan nəticənin əhəmiyyətinə uyğun gəlməlidir, müdrik bir həqiqətdə deyilir ki, pişiklər siçanları ağ əlcəklər geyərək ovlamalıdırlar.

Məlum sistemlərin əksəriyyəti – Pareto prinsipinə uyğun olaraq fəaliyyət göstərir, yəni sistemin xarakteristikasına əsasən, faktorlar çoxluğundan yalnız bir neçəsi ən əhəmiyyətli hesab olunur. Həqiqətən, əksər sistemlərdə 20 faiz faktor, sistemin xassəsinin 80 faizini təyin edir, yerdə qalan 80 faiz faktorsa onun yalnız 20 faizini təyin edir.

Professor Ayzenk apardığı tədqiqatlar əsasında bu nəticəyə gəlmişdir ki, əqli inkişafın 80 faizi genetik inkişafın, 20 faizi isə ətraf mühitin təsirinin nəticəsidir.

E.Şvarsın tədqiqatına əsasən, mütəxəssislər hesab edirlər ki, işgüzar qadınlar vaxtlarının 80 faizini az əhəmiyyətli işlərə sərf edirlər (EKO № 6, 1979). Daha sonra, sərf olunan zəhmətin 20 faizinə alınan nəticənin 80 faizi uyğun gəlir. Belə ki, 10 tapşırıqdan ikisinin yerinə yetirilməsi 80 faiz nəticə verir.

Məsələ həmin iki tapşırığın seçilməsindədir.

Birincilik aşağıdakı üç qrup üzrə təsnifatlaşdırılır:

1. Yerinə yetirilməsi dərhal tələb olunan ən çox əhəmiyyətə malik olanlar.

2. Vaxt olanda yerinə yetirilməsi lazım olan az əhəmiyyətə malik olanlar.

3. Hələlik heç kəsin soruşmadığı momentə qədər görülməyən işlər.

İngiltərə üzrə statistik məlumata əsasən əhalinin 1 faizinə bütün ümumi gəlirin 25 faizi, 5 faizinə – 50 faizi və yerdə qalanına isə 80 faizi düşür. Yenə də həmin 80 faiz. Yox, bu da əvvəlki 80 faizlər kimi təsadüfidir, yəni Pareto prinsipinin nəticəsi deyil.

Deyilənləri göstərməkdə məqsədimiz bəzilərinin bu rəqəmlərin düz gəlməsində hətta qanunauyğunluq axtarmalarını və yeri gələndə bunları sanballı jurnallarda dərc edilmələrini qeyd etməkdir (§24-də göstərilir ki, statistik təhlil təsnifat aparmağa imkan verir).

Ədalətlərin simvolikasına böyük əhəmiyyət verən bəzi adamlara da rast gəlirik. Məsələn, Şərq ölkələrində lap qədimdən on-

ikiillik heyvan tsiklləri mövcuddur. Bu tskllər aşağıdakılara əsaslanır:

1. Ayın Yer ətrafında aylıq fırlanması.
2. Yerin və Yupiterin Günəş ətrafında illik fırlanması.

Yupiter 12 il, daha doğrusu 11,862 il ərzində Günəş ətrafında bir tam dövr edir. Yupiterin bir tam dövrü, hər biri bir ilə uyğun gələn 12 bərabər hissələrə bölünmüş və hissələrə konkret heyvan adları verilmişdir:

1. Siçan (siçovul).
2. İnək (öküz, kəl).
3. Pələng.
4. Dovşan.
5. Əjdaha.
6. İlan.
7. At.
8. Qoyun.
9. Meymun.
10. Toyuq (xoruz).
11. İt.
12. Donuz (qaban).

Təvvəlüd ilinin bunların hansına uyğun gəldiyini bilmək üçün, həmin ildən üç rəqəmi çıxılır, qalıq isə 12-yə bölünür. Bu bölgünün qalığı – 12-illik tsiklin sıra nömrəsinə uyğun gələn heyvan adına uyğun gəlir. Qalıqsız bölgü 12-ci, yəni axırıncı nömrəni göstərir.

Tsiklin əsası kimi Saturnun iki tam dövr etməsinə sərf olunan vaxt götürülür. O dövrün hesablamalarına əsasən bu vaxt 60 ilə bərabərdir. Bu müddətdə Yupiter təxminən beş tam dövr edir.

5 rəqəmi təbiətin beş elementinin simvolu kimi qəbul olunmuşdur. Bu simvollar rəng əlamətləri ilə ifadə olunur.

1. Ağac (göy və ya yaşıl).
2. Alov (qırmızı).
3. Metal (sarı).
4. Torpaq (qara).
5. Su (ağ).



Məsələn, 1984-cü il. $\frac{1984-3}{12}$ =165 və qalıq 1-ə bərabərdir, deməli bu siçan ilinə uyğun gəlir. Əvvəlki 60 illik tsikl 1924-cü ildən başlayır və 1983-cü ildə qurtarır. Beləliklə, 1984-cü il – 60 illik tsiklin birinci ilidir, yəni göy sıçana uyğun gəlir.

Təqvimlərin necə tərtib olunduğunu dərk etdikdə gələn ilin hansı heyvan və ya rəng bölgüsünə uyğun gəldiyinə fikir verməyin heç bir əhəmiyyəti yoxdur.

Məsələn, 1985-ci ili "öküz ili" adlandırmışlar. Yaponiyada falabaxanlar təsdiq edirlər ki, "öküz ilində" doğulanlar bir az "ağır taxta"dırlar və tez özündən çıxandırlar, doğrucudurlar, elmə həvəskar olurlar və sədaqətli olmaları ilə fərqlənirlər, yaxşı ər və arvad hesab olunurlar.

Onu da qeyd edək ki, bir çox əşya və hadisələr 3 və 7 rəqəmləri üzrə qruplaşdırılır.

Məsələn, aşağıdakılardan ibarət əşyalar:

1. Bir vahiddən: tezliyi "0"-a bərabərdir;
2. İki vahiddən: tezliyi vahidə bərabərdir (Siam ekizləri);
3. Üç vahiddən: tezliyi 15/3-ə bərabər olan böyük "B"-lər (Bax, Bethoven, Brams), triadlar – üç böyük Ş-lə (Henrix Şyuts, Qerman Şeyn, Samuel Şeydt), qumarda üçlük (üçlük, yeddilik, tuz). Yazıçı Saşa Gitri demişdir ki, qadın heç nədən üç şey edə bilir: şlyapa, salat, dava-dalaş.

Hüqoya görə şairə üç keyfiyyət vacibdir (bax: § 1). Konfusti hesab edir ki, adam biliyə üç yolla qovuşa bilər: fikirləşib-düşünmə yolu – ən faydalı, təqlidçilik yolu – ən asan, təcrübi yol – acı və ağır yoldur.

A.N.Tolstoy hər bir ədəbi əsərdə üç əsas elementi vacib sayır:

a) məzmun – ən başlıcası; b) müəllifin seçdiyi mövzuya məhəbbəti; c) ustalıq.

Q.A.Tovstonoqova görə realist şərtilik "Üç nəhəngin" – dramaturqun, artistin və tamaşaçının üzərində dayanır.

Orta əsrlərdə filosoflar insan həyatında üç şeyi ən başlıca, qiymətli amil sayırdılar: bədən, ruh, zaman.

Rəng üç əlaməti ilə səciyyələnir – spektral tərkib, parlaqlıq, dolğunluq. Səs də üç əlaməti ilə səciyyələnir. Bizim yaşadığımız dünyanı insan üç ölçülü qəbul edir.

4. Dörd vahid: tezliyi 7-yə bərabərdir.

5. Beş vahid: tezliyi 6-ya bərabərdir.

6. Yeddi vahidi: tezliyi 16-ya bərabərdir (həftənin yeddi günü, qövsi-qüzehin yeddi rəngi və s.).

Dağlılar deyirlər: "İnsanın əsl qiymətini bilmək üçün ondan yeddi şey barədə soruşmaq lazımdır: bədbəxtlik, sevinc, qadın, qılınc, gümüş, içki və bir də onun özü".

Çində belə bir ifadə mövcuddur: "Evdar qadın üçün 7 əşya ən zəruridir: odun, düyü, yağ, duz, soya, sirkə və çay".

7 rəqəmi Dostoyevskinin "Cinayət və cəza" əsərində də simvolik mahiyyət daşıyır (roman yeddi hissədən – altı bölmə və epiloqdan ibarətdir. Birinci iki bölmənin hər biri 7 fəsilə bölünür, Raskolnikov üçün məşum vaxt axşam saat 7-dir).

Hesab edirlər ki, izahlı lüğətdə ixtiyari sözün əsas mənası yeddi sözdən artıq deyil və bu, onunla izah olunur ki, qövsi-qüzehin yeddi rəngi var və ümumiyyətlə, folklorda, ədəbiyyatda yeddi rəqəminə xüsusi əhəmiyyət verilir.

Teoloqlar 7 rəqəmini "Həqiqətən müqəddəs rəqəm" adlandırırlar, çünki bu rəqəm, ilahi kamillik simvolu olan 3 rəqəmindən (mifologiyada allah, bu üçlükdən ibarətdir: ata – allah, oğul – allah, müqəddəs ruh – allah) və dünyanın inam və qaydasını təşkil edən 4 rəqəmindən (ilin 4 fəsli, 4 istiqamət, embrional inkişafda 4 hüceyrəli mərhələ, insan ömrünün 4 mərhələsi və s.).

"Yeddi dəfə ölç, bir dəfə biç" zərb-məsəli tamamilə hesablama sxemi seçilməsinə aiddir: hesablama metodunu tez-tələsik həyata keçirməklə ümumiyyətlə məqsədə çatmaq olmaz və ya olar, amma bu çox baha başa gələr.

7. Onluq vahid: tezliyi 1-ə bərabərdir (Onnövçülük).

Mülahizələrimizi davam etdirək.

Səbəblər (çılğın həvəs, coşğun arzu) və onların nəticələrinə dair Yerkes – Dodson qanunu var. Bu qanuna əsasən alınır ki, səbəbin çoxluğu, nəticənin çoxluğu ilə düz mütənasibdir. Lakin müəyyən həddən sonra tərsinə alınır.

İnsanın həyatında da belədir. Həddindən artıq ciddi-cəhd göstərmək lüzumsuzdur.

Tabeliyində olanların aqressiv rəftarına qəzəbləndiyinə baxmayaraq, Bismark, birələri öldürmək üçün dəynəkdən istifadə etməyi lüzumsuz sayırdı.

Taleyran öz katiblərinə deyərdi: "Cənablar, başlıca şərt – həddən artıq can yandırmamaqdır".

Tyer belə deyirdi: "Hər şeyin ciddi qəbul edin, faciənə yox".

Bismark, Taleyran, Tyer hesab edirdilər ki, onların casusları hər şeydə ölşü hissini gözləməlidirlər. Bu qayda ümumiyyətlə, bütün insanlara aiddir.

L.S.Vıqotskinin qeyd etdiyi kimi, İ.A.Krılovun təmsillərində insanı canfəşanlıq etməyə sövq edən və bir-birini təkzib edən faktorlar həmişə seçilir.

"Demyanın balıq şorbası" təmsilində "Demyanın qonaqpərvərliyi" və "Fokanın əzabları" bir-birini təkzib edən faktorlardır. Ev sahibinin həddindən artıq qonaqpərvərliyi nəticəsində növbəti boşqabdan sonra qonaq qaçır.

Səbəblərin əsası – insanın bütün psixoloji aktlarının: ağıl, emosiya iradənin əsasını təşkil edən ehtiyacdır.

Epikür insanın ehtiyacını üç sinfə bölür:

1. Təbii və zəruri ehtitaclar (geyim və qida);

2. Təbii, lakin zəruri olmayan ehtiyaclar;

3. Qeyri-təbii və qeyri-zəruri (cah-calal, var-dövlət, şan-şöhrət və s. və i. a.)

Ehtiyac (E) əşyanın, enerjinin və məlumatın təşkilində zəruriyyətlə (Z) reallıq (R) arasında ziddiyyətdir, daha doğrusu E=f (z) – R, burda f – funksional asılılığın işarəsidir.

Yuxarıdakı düstur ehtiyacın tərkibcə açılmasına imkan verir. Məsələn, 1 – zəruri olandır, yəni kəmiyyət xassəsinə malik, maddi, energetik və məlumatlı komponentlər çoxluğudur. Tamamilə başa

düşülmək üçün çox və ya az əhəmiyyətli obyektlərin seçilməsi vacibdir (qida, məlumat, münasibət və s.).

2 – verilən dərəcədə real – onun mühitdən mənimsəyə bildikləri. Reallıq zəruriliyi qismən ödəyə bilər, ancaq kəmiyyət və keyfiyyət nisbətində ona bərabər olar.

Qeyd olunanlara əsasən, aşağıdakı ən əsas ehtiyaclar daha vacib sayılır:

1.Əşya ehtiyacı;

2. Bilik ehtiyacı, çünki biliksiz heç bir fəaliyyət mümkün deyil;

3. Fəaliyyətə istiqamət verən və onu səhihləşdirən, həyatın tələbinə uyğun düzgün səmtlənmə ehtiyacı;

4. Fəaliyyət üçün zəruri sərt sayılan, müəyyən adamla ünsiyyətdə olmaq ehtiyacı;

5. Sosial-mədəni sərvəti özündə saxlayan və bu toplanmış sərvəti gələcək nəsillərə ötürən incəsənətə ehtiyac;

Bəşəri ehtiyaclarda ən çox üstünliyə malik və həmişə diqqət mərkəzində olanlar aşağıdakılardır (sxemə bax);

1. Fizioloji ehtiyaclar – qidaya, suya, havaya və yuxuya olan vacib həyati tələbatlar;

2. Təhlükəsizliyə və müdafiəyə ehtiyac;

3. Sosial ehtiyaclar – ünsiyyət, qayğı və diqqətə əzəli ehtiyaclar;

4. Hörmətə ehtiyac – şəxsi ləyaqət hissi (özünə hörmət) və ətrafdakılar tərəfindən hörmət (özünü təsdiq);

5. İnsanın özünü ifadə etmə ehtiyacı: hər bir adam öz qabiliyyətini və müxtəlif fəaliyyət sahələrində özünü təsdiqi büruzə vermək üçün müxtəlif forma və metodlar tapmalıdır.

Özünü ifadə
Hörmətə ehtiyac
Sosial ehtiyaclar
Təhlükəsizliyə və müdafiəyə ehtiyac
Fizioloji ehtiyac.



Leman qanununa diqqət yetirək. Bu qanuna görə insanın işgüzarlığı - əməli fəaliyyəti 20 yaşından 35 yaşadək yüksəlir, sonra isə azalır (70 yaşa yaxın).

Xüsusi ədəbiyyatlarda göstərilir ki, 50 yaş dövrlərində yaddaş zəifləməyə başlayır. Vaxt keçdikcə ötən illərin xatirələri tez-tez yada düşür, yeni hadisələrin çoxu isə unudulur, yaddan çıxır.

Yəgin ki, bu doğrudur: "Ağıllılar qocalanda da öz gənclik ruhunu saxlayırlar". Bu deyilənlər Azərbaycanda dillərdə dolaşan bir zərb-məsəllə necə də həmahəngdir: "Ağıl yaşda deyil, başdadır".

X.V.Qufelend qeyd edir ki, "heç bir tənbəlin qocalıb öldüyünü görən olmayıb". Həyat fəaliyyəti və zəhmətsevərlik bir də onunla müəyyən edilir ki, insanlara verdiyin qədər də həyat sənə əvəzini qaytaracaqdır, nə qədər yaradıcılıq enerjisi sərf etsən, bir o qədər enerjin artar. İfadəli desək, insan fəaliyyəti mərkəzəqaçma və mərkəzdənqaçma qüvvəsinin təsirinə bənzəyir (alır və verir).

Yaşayıb yaradaraq çox uzun ömür sürənlərə istənilən qədər misal gətirmək olar.

Amerika psixoloqları belə hesab edirlər ki, yaşdan asılı olaraq yaddaşın zəifləməsi təkamül prosesində inkişaf edən və görkəmi saxlamaq üçün zəruri olan müdafiə əlamətidir, belə ki, yaddan çıxmamış məlumat adamda əlavə yorğunluq yaradır.

Deyirlər ki, yada salmaq və yadda saxlamaq qabiliyyəti ən çox 25 yaşa təsadüf edir.

Don Kixotu Hamletlə müqayisə etdikdə İ.S.Turgenev, birincini "altruizmin mərkəzdənqaçma qüvvəsi", ikincini isə "eqoizmin mərkəzəqaçma qüvvəsi" adlandırmışdır.

L.N.Tolstoydan – "Necə yaşayırsınız?" – deyə soruşduqda: "Allaha şükür, narahat!" – cavabını verərdi.

Məşhur fransız müğənnisi Moris Şevalye səksən yaşı tamam olanda "Necə yaşayırsınız?" sualına belə cavab vermişdir: "Əla, ələlxüsus da düşünəndə; başqa cür necə ola bilər?".

Bu sözlərdən heç də qocalığa məftunluq duyulmur, əksinə, onunla razılaşıb yaşamağa, həmrəy olmağa təbii qanunauyğunluq təlqin edilir.

## QOCALIQ HAQQINDA

Gənclik alovuyla yanan, ey qoca,
Ey hələ gənc ikən qocalmış cavan,
Ürəyim göynəyir sizə baxdıqca;
Sizi oyatmamış gərdişi-dövran..
Nə qədər ki, gəncsən sev, sevil, oyna;
Qocaldın... vecinə gəlməsin dünya...
Aqil qocalara hörmət, ehtiram
Müqəddəs adətdir, gənclərçün müdam.
Nə fərqi, ya gənc ol, ya da ixtiyar
Ağır oturub ol daim xoşrəftar.
Xeyirxah əməllərə eyləsən adət,
Elin sevgisiylə taparsan şöhrət.*

**(Freydank)**

ABŞ alimləri maraqlı təcrübə aparmışlar. Onlar siçovulları əvvəlcə qapalı mühitdə saxlayıb, bir xeyli böyüyəndən, yəni "ahıllaşandan" sonra gözlənilməz hadisələrlə zəngin şəraitli "mənzilə" köçürmüşlər. Bir neçə aydan sonra siçovulların beyinlərinin məlumat toplayan hissəsi böyüməyə başlamışdır. Burdan belə nəticəyə gəlmək olar ki, beyin işlə nə qədər çox yüklənsə, bir o qədər də gec qocalar. Bu və buna bənzər fikirlərlə müəyyən hədd gözləməklə razılaşmaq lazımdır.

Külli miqdarda tədqiqatlarla təsdiq olunmuşdur ki, əsəbiliyin qarşısını almaq və ya yüngülləşdirmək üçün "sosial yardım" lazımdır (ailənin, dostların olması, insanlar arasında xoş rəftar, ünsiyyət və s.).

Antuan-Sent-Ekzüperi hesab edirdi ki, "ən ülvi cah-calal – insanlar arasındakı səmimi ünsiyyətdir".

Fransızlar deyirlər: Come il faut (kom il fo – lazımınca) - ədəb tələblərinə uyğundur. Bir latın ifadəsində deyilir: Omne nimium nocet (omne nimium noset) – artıq olan hər şey ziyandır.

Pola Nirenskaya doğrudan da haqlıdır: "Səhnəni o vaxt tərk etmək lazımdır ki, tamaşaçılar – rəqqasə nə üçün getdi – desinlər, çünki, əks halda onlar – o, nə üçün hələ də rəqs edir – deyəcəklər".

Q.A.Potyomkinin bir ifadəsi bu dediklərimizlə səsləşir: "Yaxşısı budur, qoy adamlar desinlər ki, "Niyə Potyomkinə abidə qoyulmayıb?", nəinki ağızlarını büzüb, tüpürərək – "hansı xidmətlərinə görə Potyomkinə abidə qoyublar?" – deyələr.



Titta Ruffo otuz üç il ilhamla oxudu və əlli yeddi yaşında – yaradıcılığının çiçəkləndiyi və şöhrətin zirvəsinə qalxdığı anda səhnəni tərk etdi.

Mən həmişə görkəmli müğənnilərimiz Şövkət Məmmədovanı, Fatma Muxtarovanı və Həqiqət Rzayevanı səmimi hörmət və ehtiramla xatırlayıram. Onlar da böyük səhnəni yaradıcılıqlarının çiçəkləndiyi vaxtda tərk etdilər. Tamaşaçıların xatirində onların yüksək ustalığı qalmışdır.

Təəssüflər olsun ki, hələ də elə artistlər var ki, adamın onlara yazığı gəlir. Çünki onları, keçmiş şövq və məharətləri zəminində dinləyərkən, adam nəsə bir narahatlıq hissi keçirir, tamaşanı əzgin bir vəziyyətdə tərk edir.

Səsi batmış və "yüngül" oxu tərzi axtaran elə müğənnilər də var ki, səhnədən uzaqlaşmamaq xatirinə tamaşaçıları, necə deyərlər, əsnəməyə məcbur edirlər.

Dediklərimiz başqa sənət sahiblərinə da aiddir (müəllimlərə, rəhbər işçilərə və s.).

Adətən belə bir qaydanı tez-tez müşahidə edirik: idmançı idmanı tərk edəndə məşqçiliklə, məşqçilikdən uzaqlaşanda isə kitab yazmaqla məşğul olur.

RSFSR xalq artisti M.Kenbelin aşağıdakı fikri ilə razılaşmamaq mümkün deyil: "... rejissorluğa heç də həmişə savadlı və mənəviyyatca zəngin aktiyorlar can atmırlar. Xeyr, bəzi aktiyorları bu işə sürükləyən onların rəhbərlik etmək, hakim olmaq iddialarıdır. Mən onları buna vadar edən iki səbəbi əsas tuturam: labud şöhrətpərəstlik və öz doğma aktiyorluq peşəsinə məhəbbət şövqünün itməsi" ("Teatralnaya jizn", № 13, 1984).

Mən bu səbəblərə üçüncüsünü də əlavə etmək istərdim – iqtisadi faktor. Belə ki, aktyor hər şeyi unudaraq müəyyən zaman müddətində öz rolundan ayrıla bilmir və ailə qayğılarından uzaqlaşır.

Rejissorluqla məşğul olaraq, "sənaye metodlarından" istifadə etməklə *müxtəlif janrlarda işləmək* olar: teatrdan kütləvi mədəni tədbirlərin təşkilinədək, televiziyada kinematoqrafadək və s. Hal-hazırda *rejissorluğa* nəinki təkcə aktyorların, hətta başqa ixtisas sahiblərinin – həkimlərin, mühəndislərin də meyl etmələri müşahidə olunur.

Belə adamlar, adətən hesab edirlər ki, həkim olmaq, mühəndislik eləmək pinəçilik kimi bir şeydir. Doğrudan da, onlarla bəzən razılaşmaq olar, çünki, həqiqətən sənətini sevməyən, onun yolunda əzab-əziyyətə qatlaşmayan adam bütün fəaliyyət sahələrində, o cümlədən rejissorluqda da nəticə etibarı ilə pinəçiyə çevrilir.

Əgər yeni keyfiyyətlər hər hansı hadisənin təsvirini mürəkkəbləşdirir, məsələnin həllini çətinləşdirir və gözlənilən nəticəni vermirsə, daha doğrusu hadisənin görünməyən tərəfini "hiss etməyə" imkan yaratmırsa, deməli həmin yanaşma üsulları əlverişli deyil.

Bəs, səbəblərin, dəlillərin dərk olunma həddini necə təyin etməli? Bunu təcrübi yolla əldə edirlər. Elə burdaca bir qədim fransız zərb-məsəli yada düşür: "Nə olaydı, gənclik biləydi, qocalıqsa bacara biləydi". Həkimlərin bu kəlamı tez-tez təkrar etmələri təsadüfi deyil.

Qeyd etdiyimiz kimi, Klark qanununa əsasən insan yaşa dolduqca məlumatı və biliyin çoxalır, yaradıcılıq qabiliyyəti isə azalır. Dəlillərin düzgünlük həddi təcrübədə yaranır. Bu işdə müəyyən alqortimlər yoxdur. Müəyyən prosesi təsvir edərkən onu ideallaşdırırıq, bu zaman təbiidir ki, nə isə itiririk, *lakin düzgün olardı ki*, bu itkilər obrazın özünü itirməyə gətirib çıxarmamasın. Əslində itkisiz də mümkün deyil. Hazırda *müxtəlif hadisə və proseslər* modelləşdirmək dəbdədir. Dil, mədəniyyət və ümumiyyətlə, insan rəftarının müəyyən məziyyətləri modelləşdirilir. Bununla bərabər, hadisəni dərk etmək müəyyən nəzəriyyəyə əsaslanmalıdır; nəzəriyyə isə onu təsdiq *və təkzib edən təcrübələr qoymağa imkan ver*məlidir.



## § 8. İNSANIN HƏYAT VƏ FƏALİYYƏTİNDƏ QƏRAR QƏBUL ETMƏ PROBLEMİ HAQQINDA

Əsas şərt – çoxlu problemdən ən sadələrini seçməkdir ki, onların həlli konsepsiyasının ümumiləşdirilməsinə imkan versin.

**D.Gilbert.**

"Sosialistiçeskaya industriya" qəzetinin muxbiri V.Yevkinin (21 iyun, 1987): "Nəyi özünüzə əsas peşə hesab edirsiniz?" sualına Andriano Çelentano belə cavab vermişdir: "Mən özümü hər şeydən əvvəl oynamağı sevən bir insan hesab edirəm. Nə vaxt ki, bunu eləmək istəyirəm, onda özümü heç nə ilə məhdud edib saxlaya bilmirəm və ağlıma gələn hər şeyi (səhnədə, ekranda, musiqidə və s.) edirəm". Sonra o, əlavə edərək demişdir: "İllər keçdikcə biz yaşa doluruq və artıq bizim hərəkətlərimiz bir elə sərbəst olmur, çünki hərdənbir istədiyimiz kimi də hərəkət edirik... Lakin, əgər özümüzdə qüvvə tapıb hərdən şərin, tamahın, qazancın təhrikilə edilən "düzgün" hərəkətlərimizdən imtina etsək, onda təzədən əzəli təmizliyi və saflığı əldə edərik". Sadələşdirərək belə demək olar ki, hər hansı cavab daha çox sürprizə malikdirsə, demək o daha məlumatladır.

Məsələn, əgər sizə restoranda xidmətçi bişmiş yumurta təqdim edərkən onun təzə olduğunu deyirsə, bu cavab, təbii ki, məlumatlı cavab deyildir. Əlbəttə, əgər xidmətçi sizə yumurta təqdim edərkən, onun laxlamış olduğunu deyirsə, bu cavab məlumatlıdır (bəllidir ki, adam təzə yumurta yeyir). Bu mənada ifadənin ən çox məlumata malik olduğunu göstərmək məqsədilə R. Byornsun şeirindən bir parçaya diqqət yetirək:

Onun baxışları aldadan deyil,
O mavi gözlərdə görünmür yalan,
Lakin, o nəzərlər açıq deyir: bil,
Sahibi əclafdır yaranışından.*

Gəlin görək bədii informasiya (məlumat) nə deyir.

Bunun üçün N.V.Qoqolun "Ölü canlar" əsərinin birinci fəsli-

nin lap başlanğıcına müraciət edək: "Əyalət şəhər mehmanxanasının qapısından olduqca qəşəng, ressorlu minik arabası daxil oldu. Bu çür arabalarda subaylar, istefada olan podpolkovniklər, ştabs kapitanları, yüzlərlə təhkimli kəndlisi olan mülkədarlar, bir sözlə, "ortabab cənab" adlananlar gəzirlər. Arabada o qədər də çirkin olmayan, bir az qəşəng, nə çox gonbul, nə də lap arıq, nə o qədər qoca, nə də çox cavan bir cənab əyləşmişdi. Onun gəlişi şəhərdə o qədər də hay-küyə səbəb olmadı".

"İfrat" qiymətləndirmə, xarakterin açıq-aşkar "aradan çıxmasını", qeyri-müəyyənliyini göstərir.

Akademik A.N.Kolmoqorov hər hansı xəbərdə verilən məlumatın miqdarını, kobud desək, minimal miqdarda "hə" – "yox" cavabları kimi qəbul etməyi təklif edir. Bu cavablar xəbəri təmin etmək üçün lazımdır.

Belə ki, əgər adam 1 və 1000 rəqəmləri arasında yerləşən hər hansı bir ədəd seçmişsə və bu ədədi alternativ səviyyədə ("hə", "yox") sual və cavab yolu ilə təyin etmək lazımdırsa, onda sualların orta sayı 10-dan az olacaqdır.

1335-ci ildə qədim Yəhudistanda Bar-Koxbanın[1] komandalığı ilə romalıların hökmranlığına qarşı üsyan baş verdi.

Romalıların kilsəsinə göndərilən kəşfiyyatçını əsir alırlar və ağır işgəncələrdən sonra onun dilini kökündən qoparırlar. Əsirlikdən qaçan dilsiz kəşfiyyatçıya Bar-Koxba suallar verməyə başlayır. Bu suallara kəşfiyyatçı başını endirib-qaldırmaq və yırğalamaqa ("hə" – "yox") cavab verir.

Belə alternativ (iki şeydən, qərardan biri) səviyyədə müəyyən qayda üzrə hazırlanmış suallara aldığı cavablar Bar-Koxbaya əsirdən bütün informasiyanı almağa imkan vermişdir.

Bütün bunlar "Bar-Koxba" oyununun əsasını təşkil edir.

Dümanın "Qraf Monte-Kristo" romanındakı ifliç olmuş qoca Nuartyenin hərəkərlərinə diqqət yetirək (o, nə danışa, nə də tərpənə bilirdi).

Qocanın qohumları onunla, cavabı "hə" və "yox" olan suallar vasitəsilə ünsiyyətdə olurlar. Birinci cavabda, yəni"hə" deyəndə o, gözlərini yumur, ikinci halda isə gözlərini açıb-yumur.

Məlumdur ki, yalnız inkaretmə - qərar qəbul edəndə qeyri-informativ və qeyri-effektivdir. Belə ki, əgər siz bir adama konkret müsbət alternativ təklif edə bilmirsinizsə onu öz fikrindən yayındırmaq faydasızdır. Onun təsəvvürünü inkar etməklə siz onu heçliyə - qeyri-müəyyənliyə atmış olursunuz. Ordan o, istər-istəməz geri, özünün konkret təsəvvürünə qayıtmağa məcburdur.

Əgər hər hansı adam aydın təsəvvürə malik deyilsə, o, kənardan təlqin olunan yad təsəvvürü dərhal qəbul edir.

Deyilənlərə sübut üçün T.Mannın "Mario və sehirbaz" novellasına diqqət yetirək: "Mən biləni, bu cənab hər şeyi inkar etmək mövqeyində dayandığı üçün məğlubiyyətə uğradı. Görünür qəlbi yalnız inkar etməklə yaşaya bilmir, bir şey eləmək istəmir – bununla həyatı mənalı etmək olmaz; nəyisə istəməmək və ümumiyyətlə, heç nəyi istəməmək, onda deməli, hər halda səndən tələb olunanı eləmək – azadlıq ideyasını sıxışdırmamaq üçün bəlkə də biri o birinə həddindən artıq yaxındır.

Aristotel qeyd edirdi ki, incəsənət heyrətləndirməlidir, yəni informativ olmalıdır.

Yəqin ki, A.K.Tolstoy haqlıdır: "Bizdə bütün işlər artıqlığın səfeh formasından ibarətdir...".

---

[1] Kilsə yazıçılarının əsərlərində rast gəldiyimiz bu adam yahudilərin romalılara qarşı apardıqları müharibələrin (II əsrin əvvəli) qəhrəmanıdır.

Yahudulər onu Ben (və ya Bar) Koziba və ya Kozba adlandırırlar. Bar-Koziba (yalanın oğlu). 135-ci ildə romalılar tərəfindən qətiyyətlə yatırılan müvəffəqiyyətsiz üsyandan sonra üsyan başçısına verilən təhqiramiz ləqəbdir.

Bu üsyanın başlıca səbəbi Romanın Yahudistandakı baş hakimi Tinniy Rufun yahudulərin dini ənənələrini təhqir etməsi olmuşdur. Bar Kozibanın rəhbərliyi altında (onun ordusu 200000 nəfərdən ibarət yaxşı təlim keçmiş döyüşçülərdən ibarət idi) üsyançılar bir neçə görkəmli qələbələr qazanıb, 50-yə yaxın qala-istehkam və 895-dən çox Fələstin şəhəri və kəndlərini ələ keçirmişdir. Rufun köməyinə göndərilmiş Suriyalı sərkərdə Publiy Martsella da məğlubiyyətə uğradı. Bundan sonra Fələstinə o dövrün ən qüdrətli sərkərlərindən biri olan Yuliy Severa göndərildi. Romalılar yəhudulərə qarşı döyüş əməliyyatını dörd legionda aparırdılar. Kassiyin yazdığına görə, aclıqdan və epidemiyadan qırılanları nəzərə almadan təkcə hərb meydanında yahudilərdən 580000 nəfər tələf olmuşdur.

İnformasiyanın həddən artıqlığı həm məlumatın işlənib hazırlanmasını, həm də onun təhlil və sintezini çətinləşdirir və "ağac arxasında meşəni görməyə", yəni qərar qəbul etməyə imkan vermir.

Hər bir dəftərxana sənədi informasiyadır. Ehtimal ki, kargüzarlıq kağızı, idarəetmə mərhələsinin hər pilləsində - yuxarı və ya aşağı – həmin kağızda əks olunan informasiyanın səviyyəsinə uyğun olaraq, qərar qəbul etmək üçün əsas sənəd sayılmalıdır.

A.Levikov belə hesab edir ki, yazışmanın həcmi bütün rütbələrdə rəhbər şəxslərin sərbəstlik dərəcəsindən, yəni onların həll etmə istəyi və imkanlarından asılıdır.

Qərar qəbul etmədə informasiya çatışmazlığını emosiya ilə təmin etmək lazım gəlir (emosiya fransız dilində "Həyəcanlanma" deməkdir).

V.İ.Lenin yazırdı: "Emosiyasız insanın həqiqət axtarışı yoxdur və ola da bilməz".

Emosiyanın danışıq tonu vasitəsiylə tərbiyə olunması ümumiyyətlə tərbiyənin əsas sahəsini təşkil edir. Bunu bir fransız zərb-məsəli çox dəqiq təyin edir: "Musiqini ton yaradır". Bu zərb-məsəl təkcə musiqiyə deyil, danışıq tərzinə də aiddir, belə ki, söz, deyiliş tonundan asılı olaraq öz mənasını nəzərə çarpacaq dərəcədə dəyişir.

Bununla əlaqədar olaraq Darvinin bir fikri xeyli maraqlıdır: "Pis rəftardan və ya qeyri-sağlam münasibətdən şikayətlənən adam demək olar ki, həmişə çox hündürdən, daha doğrusu yüksək tonla danışır. İti uzun müddət zəncirdə saxladıqda, zingiltili səslər çıxarır və bu da öz qəmliliyi ilə bizi heyrətləndirir".

M.A.Çexov doğru deyir ki, adamın sözü məna və səs çalarına malikdir və bu, həmin adamı tanımağa imkan yaradır.

Aşağıdakı aforizmi də deyilənlərə aid etmək olar:

"Şi duo dicunt idem, non est idem" (əgər iki adam eyni şeyi deyirsə, yəni eyni sözlər danışırsa, hər halda bu eyni şey deyil).

"Ay daşı" və "Ağ geyimli qadın" romanlarının müəllifi Uilki Kollinz yazır: "Sözlərimiz bizim xeyrimizə olmayanda – nəhəngdirlər, xeyrimizə olanda isə - cırtdandırlar".



Adamın psixoloji vəziyyətinə onun səsinə görə nəzarət etmək olar. Heç olmasa iki sait səsdən ibarət bir sözə görə, maşın adamın psixoloji vəziyyətinə diaqnoz qoya bilir.

İnsan nitqinin əsas tonu – 50-dən 250 hers arasında dəyişir. Stres məqamlarındakı gərginliklərdə danışığın tonu olduqca yüksək tezliklərdə xarakterizə olunur.

Qədim dövr şairlərində fikrin və sözün ahəngi eyni zamanda yaranırdı.

Təəssüf ki, hal-hazırda, Q.Sviridovun bəstəkar V.Qavrilin haqqında zarafatla dediyi kimi, şairlərin bu halı – rudimentdir (rudiment – lat. illərin axarında itən hadisələrin qalığı deməkdir).

L.İ.Mandelştam demişdir: "Sözdə yumşaqlıq, hərəkətdə qətiyyət".

Sözün məna çalarlarının böyük əhəmiyyətini göstərən bir misal kimi Sparta hökmdarı I Leonidin y. e. əvvəl 480-cı ildə Yunanistana hücum etmiş fars hökmdarı I Kserksə verdiyi cavabı gətirmək olar. Kserks bütün yunanardan tələb etdi ki, onlar özlərini əvvəlcə məğlub hesab etsinlər və tamamilə itaət əlaməti olaraq silahlarını onun ayaqları altına atsınlar. Bu zaman Leonid Kserksə dedi: "Gəl və götür".

Şuazel deyir ki, əsl diplomatik incəlik, adətən qəti, lakin lütfkar formada deyilən həqiəqətdədəir.

Mübahisədəki ton dinləyiciyə təsirin effektini təyin edir və bu ton mübahisənin məqsədindən və iştirakşılarının fikir ayrılıqlarından asılıdır. Rəqiblərin şəxsi xüsusiyyətlərinin də bu məsələyə aidiyyəti nəzərə çarpacaq dərəcədədir. Elə adamlara rast gəlmək olur ki, onların fikirləri eyni olsa da, mübahisəni fərqli aparırlar. Bu da özünəməxsus fərdiyyətçilikdən asılıdır. Belə ki, D.İ.Pisarev mübahisədə olduqca acıdil idi və kəskin sözlərdən istifadə etməkdən çəkinməzdi ("yaramaz", "axmaq", "idiot" və s.).

N.Q.Çernışevskinin mübahisəli çıxışlarının tonu həmişə ədəb və nəzakət çərçivəsi daxilində olarmış.

Dil ünsiyyətində əsas aparıcı vasitə intonasiyadır. Nitqin mənasını təşkil edən, gücləndirən, hətta onu alt-üst edən intonasiya, intuitiv qəbul olunaraq, özündə müəyyən informasiya daşıyır.

Təcrübi yolla müəyyən olunmuşdur ki, müəyyən intonasiya ilə deyilmiş kəlməni 100 nəfərdən 58-i şübhə əlaməti kimi, 42 nəfəri isə kinayə kimi başa düşmüşdür. Həmin kəlmə köks ötürülərək ifadə olunduqda isə onu kədər əlaməti kimi başa düşmüşlər.

Həm hərfi, həm də məcazi mənada demək olar ki, musiqiyə tonu insanın bütün emosional imkanı verir.

İngilislərdə - korlarda toxunma, təmas hissi kimi – eyhama və üstüörtülü danışığa qarşı sayıqlıq son dərəcə inkişaf etmişdir.

Aşağıda səs tonunun insan və heyvanatın səhhətinə təsirinin hələ tamamilə öyrənilməmiş bəzi cəhətlərinə diqqət yetirəcəyik.

Təsərrüfat işlərində dəvədən istifadə edən xalqlar arasında belə bir əqidə mövcuddur ki, bu heyvanla musiqisiz yola getmək mümkün deyil.

Çarvadarların (dəvə karvanı başçılarının) mahnıları şərq xalqlarının ən qədim folklor nümunələridir. Ərəb maldarları hökmən musiqiçi olmalıdır. Bir ərəb zərb-məsələsində deyilir ki, "heyvanlar musiqinin təsirindən də kökəlirlər".

Qammelndə məşhur siçovul ovçusu sehirli fleytanın xoş avazı ilə gəmiriçiləri tovlayıb gölə gətirmiş, elə oradaca hamısını məhv etmişdir. Buna bənzər bir hadisə Kanadanın parklarından birində də baş vermişdir. Belə ki, Jozeli Skobeya adlı bir qız parkda fleytada məşq etdiyi zaman bir neçə sünbülqıran gəmiriçi onu dövrəyə almışdı. Deyilənlər gəmiriçilərin müəyyən musiqi sədasına həssas olduqlarını göstərir.

Bununla əlaqədar SSRİ EA-nın A.N.Severtsev adına Heyvanların Morfoloji və Ekoloji Təkamül Elmi-Tədqiqat İnstitutunun histoloji təkamül laboratoriyasında aparılmış təcrübə böyük marağa səbəb olmuşdur. Məlum olmuşdur ki, musiqi canlıların orqanizmlərində həqiqətən sabit dəyişkənliklər yaranmasına kömək edir.

Təcrübələr iki eyni qrupdan ibarət cavan erkək və dişi ağ siçovullar üzərində 3,5 ay ərzində aparılmışdır. Birinci qrupa gündə iki dəfə yemək prosesində iki saat asta tərzdə yüngül musiqi dinləmək imkanı verilmişdir, ikinci qrup isə tam *sakitlik şəraitində* saxlanılmışdır.



Nəticədə məlum olmuşdur ki, birinci qrupdakı siçovulun balaları südəmər müddətdə, yəni bir ay ərzində musiqinin təsirindən öz çəkilərini ikinci qripdakı siçovul balalarının çəkisi ilə müqayisədə 4,4 faiz artırmışlar.

Yaşlı siçovullara isə musiqi heç bir təsir göstərməmişdir.

K.Paustovskinin "Qoca aşpaz" hekayəsində, musiqinin sehrkar təsiri təsdiq edilərək göstərilir ki, V.A.Mosart, musiqinin təsiri ilə can verən bir şəxsə gəncliyinin şirin çağlarını yenidən yaşamağa kömək etmişdir.

ABŞ, İsveç və Yapon mütəxəssisləri belə nəticəyə gəlmişlər ki, bəzi gənclərdə "ROK" üslubunda yüksək tonlu musiqinin təsirindən eşitmə qabiliyyəti həmişəlik pozula bilər. Səs-küy eşitməyə pis təsir göstərir və eyni zamanda qan təzyiqinin qalxmasına, xora yaranmasına və s. səbəb olur.

V.N.Mesyatsev və A.L.Hotsinder elektroentsefaloqrafik və psixoloji metodikaların koməyi ilə, müxtəlif üslublu musiqiyə qarşı psixovegetativ reaksiyaları tədqiq edərək bu nəticəyə gəlmişlər ki, sınağa cəlb olunanların əksəriyyətində ultramüasir musiqi təkrar seanslarda ikrah hissi yaratmış, baş ağrısına səbəb olmuş və nəticədə həmin növ musiqiyə həvəs sönmüşdür.

Ədəbiyyatda qeyd olunur ki, diskotekalarda ifa olunan, yüksək sürətli qulaqbatırıcı ritmik musiqi adamlarda beyin tərpənməsinə, boyunun fəqərə sütununun zədələnməsinə və s. səbəb olur.

Bu növ və buna bənzər xəstəliklərin yaranmasında televizor da bir növ günahkardır. Uzun müddət televizora lap yaxından baxan bəzi adamlarda bəzən epidensiya tutmaları baş verir. Bütün bu deyilənlər televizor ekranındakı kadrların ritm tezliyi ilə üst-üstə düşən beynin bioelektrik potensialının xarakteristikası, beynin elektrik aktivliyi xüsusiyyəti ilə müəyyən olunur.

Hələ Evripid deyirdi ki, şirin melodiyanın təsirindən xəstə özünü yenidən gümrah hiss edir. Belə deyirlər ki, Bethovenin "Ay sonatası" nevrosteniyadan əziyyət çəkənlərə, Qlazunovun "İspan' rəqsi" isə depresiyaya düçar olanlara xeyli kömək edir.

Sübut olunmuşdur ki, embrion, musiqiyə fəal reaksiya verir. Cəld və hay-küylü rok adamı qıcıqlandırır, narahatlıq yaradır, asta

və aramla çalınan klassik musiqi isə əksinə - rahatlıq və əsəb dincliyi təlqin edir. İngilis təbibi M. Klements müəyyən etmişdir ki, Mosartın və Vuvaldinin əsərləri dinləyicilərə əsəb dincliyi və ruhən gümrahlıq təsiri gösrərir. Buna görə də gələcək analara müntəzəm olaraq xoş ahəngli, melodik musiqi əsərləri dinləmək məsləhət görülür. Çünki, bu cür musiqi əsərləri körpələrdə incə musiqi zövqünün formalaşmasına kömək edir. Çikaqoda Göydələn mehmanxanasının otaqlarında mütləq sakitlik və səliqə-səhmanın hökm sürməsinə baxmayaraq qonaqlar əsəbi narahatlıq keçirir və yata bilmirdilər. Mehmanxana sahibi maqnitafon lentinə dəniz dalğalarının səsini, uzaqdan gələn maşın siqnalını, küləyin təsirindən yaranan meşə uğultusunu və s. yazaraq, radio vasitəsiylə otaqlara verirdi. Bu cür "musiqi" təsirindən qonaqlarda xoş əhval-ruhiyyə yarandı və onlar rahatca yatdılar.

Reyter agentliyinin verdiyi xəbərə görə, yemək vaxtı gurultulu musiqi dinləmək mədənin həzm prosesini pozur və onun xroniki xəstələnməsinə səbəb olur. Bolqar alimləri təsdiq edirlər ki, restoranda "gurultulu" orkestr normal ünsiyyətə mane olur və mədənin həzmetmə qabiliyyətini pozur.

Mayami unuversitetində aparılmış tədqiqatlar göstərir ki, adətən adamların məruz qaldıqları səs-küyün meymunlara 9 ay müddətində təsiri, onlarda hipertoniyanın inkişafına səbəb olmuşdur. Gurultulu səs-küyün təsiri eyni zamanda nitqin inkişafını ləngidir və tədqiqat instinktivnini sıxır. Normal həddə yaxın səs-küyün (90 desibel) təsirindən fəhlələrin eşitmə qabiliyyəti 20 – 25 faiz zəifliyir.

ABŞ həkimlərinin məlumatına görə rok-ansambl iştirakçılarının əksəriyyətində 5 – 7 ildən sonra eşitmə qabiliyyəti kəskin sürətdə pisləşir və onların əsəb sistemlərində xəstəlik meyilləri müşahidə olunur. Rok konsertlərində səs-küyün səviyyəsi 120 – 170 desibelə qədər yüksəlir.

İnsan orqanizmində baş verən bəzi proseslər üçün, ələlxüsus fermentativ reaksiyalar üçün, musiqi əsərlərinə uyğun səciyyəvi tezliklər mövcuddur.



Professor S.İ.Şnol musiqidə səs ardıcıllığının xarakter tezliyinə uyğun olaraq fermentlərin orqanizmdə dövretmə tezliyini tərtib etmişdir (Ximiya i jizn, № 11, 1987).

Orqanizmdə universal enerji ehtiyatı yığan və qlukozanın mənimsənilməsinə kömək edən fermentlər – fosforilazalar və qlükomutazalar 676, 1600 və 280 hers intervalında dövrlər sayına malikdirlər. Müqayisə üçün: mi, ikinci oktava – 659 hers, sol ikinci oktava – 1567 hers, do-diez brinci oktava – 277 hers.

Çox güman ki, orqanizmdə musiqinin tənzimedici təsiri onun akustika sahəsi, orqanizmin özünün akustik xarakteristikası ilə üst-üstə düşür.

Avstraliyada ölümlə nəticələnən yol-nəqliyyat hadisələrinin təhlili göstərir ki, rəqs axşamları iştirakşıları günahkarların yüksək faizini təşkil eidr (orta səviyyədən 3,5 dəfə çox). Həkim-ekspertlər sübut etmişlər ki, qulaqbatırıcı musiqinin oyatdığı güclü əsəbi həyacan, diskotekadan şıxandan sonra sükan arxasında əyləşənlərin diqqətini və hər cür gözlənilməzliklərə qarşı reaksiyasını olduqca zəiflədir. Musiqinin aqressiv təsiri heç də yaxşı nəticələrə gətirib çıxarmır.

Bəzi müəssisələrdə və çox qələbəlik olan magistral yollarda səs-küyün səviyyəsi 100 desibeli aşır.

Səs-küy həddinin çoxalması, məsələn, 265 desibelə qədər yüksəlməsi görəsən necə nəticələrə gətirib çıxara bilər?

Danimarka zoofizioloqu Bertel Moyel öz həmkarı ilə yəqin etmişlər ki, kaşalotlar bir neçə kilometr məsafədən 265 desibelə qədər tezlikdə səslər çıxararaq öz ovlarını iflic edirlər.

Viskonsin (ABŞ) unuversitetində aparılmış tədqiqatlar göstərir ki, məişətdəki səs-küy orqanizmdə həyacanı artırır və ümumi əsəb gərginliyini çoxaldır.

Qalın meşələrin sakitliyi, dağlardakı ilahi sükut. Əsl musiqi dincliyi deyilmi?

Rüzigarın qulaqlarda yaratdığı şirin səslər bir çox bəstəkarlar və şairlər üçün ilham mənbəyi olmuşdur.

Küləklərin təsiri ilə iynəyarpaqlı ağacların ehtizazından yaranan musiqini dinləməkdən coşan könüllərin yaratdığı nəğmələr bitib-tükənməyən estetik zövq mənbəyidir.

Musiqidə "İlin fəsilləri"ni A.Vivaldi, F.İ.Qatun (oratoriya), C.Verdi ("Siçiliya gecələri"ndəki balet əlavəsi), A.K.Qlazunov (balet), P.İ.Çaykovski və başqaları vəsf etmişlər.

Şopen 5 №-li prelüd yazmışdır ("Yağış damlası").

L.Bethoven Pastoral (çoban həyatını tərənnüm edən) simfoniyasında bahar günlərinin şaqraqlığını və ildırım çaxacağının tədrici inkişafını çox dərin musiqi dili ilə ifadə edir.

Səslərin cəld tərzdə növbələşməsi güclənən yağışı tərənnüm edir. Simfoniya zəifləyən göy gurultusunun uzaqlaşması və səmada heyranedici qövsi-qüzehin əmələ gəlməsi ilə bitir.

Morunanın "çıxardığı tənliyə" əsasən: insanın yaşı ilə onun səs diapazonun cəmi sabit kəmiyyətdir.

Dinləsinlər deyə, uşaqlar qışqırır, qocaları isə qışqıra bilmədiklərindən, elə-belə də dinləyirlər.

Bu dediyimizi təsdiq üçün D.S.Lixaçovun bir ifadəsinə diqqət yetirək: "Həqiqətən sağlam əqidəli, güclü və təmkinli adam, lazım oldu, olmadı ucadan danışmaz, söyüş söyməz və jarqon sözlər işlətməz. Çünki, o, əmindir ki, onun sözünün qiyməti var".

Helvetsi təsdiq edir ki, hətta az miqdarda faktlardan yeni nəticə çıxarmaq olar.

Rəssamlar da belədir: onlar yaradıcılıq təxəyyülünə malik olduqlarından azda çoxu görüb, az miqdarda bilikdən bədii surət üçün lazım olan hər nə varsa əldə edirlər.

P.V.Simonovun "emosiya nəzəriyyəsi" aşağıdakı düstura əsaslanır: $E=T(M_3 - M_ə)$, burada E – emosiya, T – tələbat, $M_3$ – zəruri məlumat, Mə – əldə olan məlumat. Əgər zəruri məlumat əldə olana bərabərdirsə, yəni $M_3 = M_ə$-dirsə, onda $E=0$; deməli, insan həyatda tam məlumatlı sistemə çevrilə bilməz. Bəs, məlumat çatışmazlığını necə doldurmaq olar? Yemək çatmırsa, onu başqa yeməli ərzaqlarla əvəz etmək olar. Bilik çatışmazlığını yalnız biliklə doldurmaq olar, qoy lap "xüsusi növ" bilik olsun.

Deyilənlər Edqar Ponun "Oğurlanmış məktub"undan götürülmüş aşağıdakı parçada daha əyani görünür: "Mənim tanıdığım səkkiz yaşlı bir oğlan, özünün məharətlə oynadığı "təkməçüt" oyunu ilə



hamını heyran qoyurdu. Bu, şox sadə oyundur. Oyunçu ovcunda bir neçə xırdaca gürəciklər gizlədir, başqa birisi bu gürəçiklərin tək və ya cüt olduğunu tapmalıdır. Əgər düz tapsa qalib gəlir və bir kürəcik alır, düz tapmasa uduzur və bir kürəcik verir. Haqqında danışdığım oğlan həmişə udurdu. Çübhəsiz ki, onun qabiliyyəti dəqiq müşahidəçiliyə və rəqibliyinin hansı fərasətə qabil olmalarını duymaq məharətinə əsaslanırdı. Belə ki, onunla oynayan sadəlövhün biri ovcundakı kürəcikləri bərk-bərk sıxıb deyir: – "təkməcüt", yəni tap görüm kürəciklərin sayı təkdir, ya cüt? Mahir oğlan "tək" cavabını verir və uduzur, lakin o biri dəfə udur və özü də görün nücə udur: sadəlövh birinci dəfə "cüt" götürüb, onun bicliyi burdan başlayır, indi "tək" götürəcək, odur ki, mən də "tək" deməliyəm. Doğrudan da bizim oğlan "tək" deyir və udur. O, bir qədər ağıllı rəqiblə başqa cür rəqabətə girişir və mülahizə edir ki, mən birinci dəfə "tək" dedim, o bunu yadında saxlayıb və elə hesab edəcək ki, gələn dəfə "cüt" deyəcəyəm; deməli, o, ikinci dəfə "tək" götürməlidir. Lakin o, fikirləşəcək ki, bu çox sadə kələk oldu və "cüt" götürmək lazımdır. Demək, yaxşısı budur ki, mən "cüt" deyim. Beləliklə, "cüt" deyir və udur.

Bəs, yoldaşlarının mahir sehrbaz sandıqları məktəbli oğlanın oyununun mahiyyəti nədədir?

"Bu, sadəcə olaraq oyunçu fəhminin, rəqib fəhmi ilə uyğarlığından ibarətdir" – dedikdə, Düpen: "məhz belədir", - dedi. Mən oğlandan soruşdum ki,müvəfəqiyyətin əsas amili olan rəqiblə, necə deyərlər "eyniləşməyə" necə nail olursan, o belə cavab verdi: "Mən bilmək istəyəndə ki, rəqibim nə dərəcədə ağıllı və ya avamdır, xeyixah və ya kinlidir və onun başında hansı fikirlər dolaşır, çalışıram ki, sir-sifətimə onunku kimi ifadə verim: bu vaxt həmin vəziyyətə uyğun olaraq məni hansı hisslərin və duyğuların çulğadığını hiss edirəm".

Edqar Ponun söylədiklərini təsdiq üçün Y.V.Tarlenin Avstriya ordusunun baş komandanı Melasın xasiyyətini necə təhlil etdiyinə diqqət yetirək; Melas Napoleonla hərb meydanında iki dəfə qarşı-qarşıya gəlmiş və hər ikisində də məğlub olmuşdur.

Y.V.Tarle yazır ki, Melasın bu məğlubiyyətlərinin *səbəblərindən* biri onun düşüncə tərzidir. Belə ki, çox da uzaqgörən olmayan Melasın faciəsi bundan ibarət idi: hər növbəti döyüşə hazırlaşanda o, belə hesab edirdi ki, özü kimi bir Melasla müharibə edir. Napoleon isə hətta Melasla görüşəcəyi anlarda belə özünü elə aparırdı ki, sanki Napoleonun özü ilə döyüşəcəkdi.

Məşhur Sovet psixoterapevti A.Dobroviç belə hesab edir ki, münaqişəli *məsələnin konstruktiv həlli* üçün onun tam uyarlıqla dərk olunması əsas tələblərdən biridir. Qavrayışda, dərk etmədə tipik səhvlərdən biri öz şəxsi alicənablığı və qüsursuzluğu haqqında yüksək fikirdə olmaqda, daha doğrusu öz eybinə kor olub, başqasının gözündə saman çöpü axtarmaqdadır.

Münaqişədə yanlış dərketmənin həddən artıqlığı adamı özünün, necə deyərlər, öz şirəsində qaynamasına gətirib çıxara bilər.

Belə deyirlər ki, ingilislər axırıncıdan başqa bütün döyüşləri uduzurlar, axırıncını isə mütləq udmalıdırlar. Almanlar isə əksinə, axırıncıdan başqa bütün döyüşləri udub, axırıncı ilə birlikdə ümumiyyətlə müharibəni uduzurlar.

İnformasiya çatışmazlığı şəraitində qərar qəbul edəndə bilmək lazımdır ki, "hara getməlisən". Ancaq, bu kafi deyildir. Belə ki, sürücüyə gedəcəyi sonuncu məntəqəni bilmək və saz avtomobilə malik olmaq hələ kifayət deyil, çünki, ona bütün yolu qət etmək və yolda baş verəcək mümkün çətinliklərə qalib gəlmək üçün əlavə bilik, vərdiş və məharət də lazımdır.

Bəzən bir problemi həll etmək üçün öz üsulu, öz dünyagörüşü olan adamı lovğa adam adlandırırlar.

İnsanın emosiyası – anadangəlmə, məntiqi isə sonradan qazanılandır. Əgər bu iki ipostaslar[1] *birləşsə müvəffəqiyyətlə* nəticələnən iş prosesi yaranır. "Opera – müəyyən bir dövrdə, müəyyən bir cəmiyyətin emosiyasının abidəsidir".

Suxomlinskinin fikrincə emosional cahillik müftəxorluğa, oğurluğa, rüşvətxorluğa gətirib çıxarır.

[1] İpostas – (yun – mahiyyət deməkdir).



Elələri var ki, fikrin və hissin qarşılıqlı əlaqəsini iki bir-birinin əksi olan asılılıq kimi təsəvvür edirlər: funiklyorun iki vaqonu kimi – biri qalxanda, o birisi enir. Onlar burdan belə düzgün olmayan nəticə çıxarırlar ki, incəsənət fikrin, hissin məhsuludur və bu iki element bir-biri ilə rəqabət aparmır, əksinə birgə və ahəngdar fəaliyyət göstərirlər.[1]

Laroşfukonun qeyd etdiyi kimi, müəyyən bir rəyə gələ bilməyənlərin vəziyyəti qabaq cərgələr tutulduğundan arxa cərgələrdə isə oturmaq istəməyənlərin vəziyyətinə bənzəyir...

Bu yaxınlarda belə bir qənaətə gəlmişlər ki, Lobaçevski həndəsəsinin köməyi ilə nəinki ulduzlar dünyasını, hətta, insanın qavrama, dərketmə aləmini də öyrənəmk olar. Emosiya, elmi yaradıcılığın keçinə bilmədiyi bədii təfəkkürün inkişafı ilə əlaqədar inkişaf edir. Bədii *təffəkür poeziya və incəsənətlə* tərbiyə olunur. Mədəni təfəkkürün əsasını, obrazlı görmək və fikirləşmək bacarığı təşkil edir.

Hər hansı yaradıcılıqla məşqul olanlar, ümumiyyətlə qadınlar və gənc alimlər təsviri sənəti daha emosional qavrayırlar.

İnformasiya və emosiya qadınlarda, əsasən təmasla əlaqədardır.

Alimlər təsdiq edirlər ki, qadınların sevgi hissləri qulaqlarındadır və bəlkə də ona görədir ki, qadınlar qulaqlarına deyilən xoş və ılıq sözlərdən daha çox xoşhal olurlar.

Məlumdur ki, göz, məlumatı mərkəzi sinir sisteminə saniyədə milyon bit sürətlə ötürür və qəbul edir (aldığımız bütün informasiyanın 95 faizindən çoxu gözün payına düşür), qulaqla isə informasiyanı saniyədə on minlərlə bit tərtibində alırıq.

Buna görə də keçmişdə Dağıstan əhalisi düşməni pusquda durub öldürməyi namərdlik hesab edirdilər, çünki, onlarda indi də belə zərb-məsəl mövcuddur: "Düşmənin gözünə düz baxmaq lazımdır".

İ.Gertsenin "Doktor Krupov" povestində deyilir: "Ele şey var ki, həkim ona qulaq kəsilir, ağzını isə yumur". Romalılar təbabəti

[1] Marks, fiziki və intellektual qüvvələrin birliyinə tərki-dünyalıq və müxtəlif formada qeyri-humanizmi dəf edən mənəvi inkişafın yüksək forması kimi baxır.

susmaq məharəti adlandırırdılar. Deyilənlər həkimin peşə sirrinə aiddir.

Təmas gözlə qulağın arasındadır.

Hobss deyirdi ki, "ağıl qulaqdan keçib gəlir". Bununla əlaqədar K.Marks yazır: "Buna görə də o, (U.Molsuort – qeyd bizimdir – M.A.) ağıla yox, qulaqlarına müraciət edirdi. O, Hamletin aktyorlara qadağan etdiyini edirdi.[1] O, zalımın zülmkarlığını ötüb keçdi, Rasselin özündən böyük Rassel oldu" (Parlamentskiye debatı o voyne. Soç., izd. 2, II, s. 184 – 185).

Ünsiyyətdə iki tərəf iştirak edir, ən çox görmə və eşitmə orqanları fəaliyyət göstərir. Gəlin ünsiyyəti ötürmə ""qabiliyyəti" anlayışı ilə tanış olaq. Yuxarıda qeyd etdik ki, insanın görmə orqanlarının ötürmə qabiliyyəti çox böyükdür və $10^6$ bit/san-yə çatır, eşitmə kanalının ötürmə qabiliyyəti isə $10^4$ bit/san-yə çatır. Lakin, bu heç də o demək deyildir ki, görmə üsulu ilə məlumatın ötürülməsi, eşitmə üsulu ilə ötürmədən 100 dəfə yaxşıdır. Məlumatın ötürülməsi üsulu fizioloji, psixoloji və başqa faktları nəzərə almaqla seçilməlidir.

Təyyarələrdə qəza siqnallarının verilməsi üçün ən yaxşı üsul kimi, bir təcrübənin nəticəsini misal göstərmək olar. Qırmızı elektrik lampasının yanması və ya səlis qadın səsi vasitəsi ilə mühərrikdə baş verən yanğın haqqında qəza siqnalı uyğun olaraq 18 və 0,45 saniyədən sonra ekipaj tərəfindən qəbul olunur.

Qeyd olunanlar onu göstərir ki, görmə kanalı necə deyərlər "dolub", eşitmə kanalı ilə nisbətən azaddır. Çünki, təyyarənin daxili rabitə sistemində danışıq məhdudur.

Eşitmə kanalında qadın səsinə uyğun tezlik zolağı tamamilə azadadır, çünki hərbi təyyarələrdə qadın yoxdur.

Təqiqatlar göstərir ki, insan fasiləsiz olaraq diqqətlə yalnız iyirmi bir dəqiqə dinləyə bilər.

Qərar qəbul etməyə səhhəti-vücudun sağlamlığı və çılğınlıq müəyyən təsir göstərir.

---

[1] K. Marks Hamletin monoloqunu nəzərdə tutur. O, bu monoloqda aktiyorlardan oyun zamanı ölçü hissini gözləməyi tələb edirdi.



Bəzən çılğınlığın son dərəcəsini dəliqanlılıq, başın dumanlığı və s. kimi də qələmə verirlər. Əslində, bu belə deyil. Çılğınlıq təmiz və duyan gönüllərin saf, məkriz və riyasız, təmənnasız, qərəzsiz sevgisinin real təzahürüdür.

Çılğın sevgi, çılğın məhəbbət gözəl şairimiz Mikayıl Muşfiqin (1908 – 1939) dağ bulaqları kimi çağlayan, yaz selləri təki kükrəyən poeziyasının mayasıdır:

Ah, mən gündən-günə bu gözəlləşən
İşıqlı dünyadan necə əl çəkim?
Bu yerdə çarpışan, göylə əlləşən
Dostdan, aşınadan necə əl çəkim?

***

Bir yanda tərlanlar, dumanlı dağlar,
Bir yanda kəkliklər, ayna bulaqlar,
Bir yanda bülbüllər, çiçəkli bağlar,
Mən bu tamaşadan necə əl çəkim.

Çılğınlığın yaxşısı və ya pisi varmı? Psixoloqlar göstərirlər ki, onu "yaxşı" və "pis" deyə iki qrupa bölmək düzgün deyil.

Görkəmli şəxsiyyətlər çılğınlığın müxtəlif növlərinə aiddirlər. Məsələn, Suvorov və Gertsen – sanqvinik (diribaş, qanıqaynar),. Birinci Pyotr və akademik Pavlov – xolerik (tündməcaz, tez özündən çıxan), Krılov və Kutuzov – fleqmatik (soyuqqanlı, laqeyd), Qoqol və Çaykovski – melanxolik (bədbin, məyus) idilər.

Aleksandr Dümanın "Üç müşketyor"unun qəhrəmanları dörd növ temperamentə malikdirlər. Portos – sanqvinik, D'Artanyan – xolerik, Aramis – melanxolik, Atos – fleqmatikdir.

Psixoloqlar məsləhət görürlər ki, çılğınlığın bütün məziyyətlərini hər kəs özündə cəmləşdirsə yaxşıdır. Belə ki, adi günlərdə - sanqvinik, məsuliyyətli işlərdə – melanxolik, qəbul edilmiş qərarın icrasında – fleqmatik, bizim mənafeyimizə toxunan məsələlərin həllində xolerik olmaq faydalıdır.

XII əsrdə yaşamış böyük Azərbaycan təbibi Ömər Osman oğlunun ölməz məsləhətlərini hökmən yadda saxlamaq lazımdır:

"Əgər sən istəyirsən ki, ürəyin güzgü təki təmiz olsun, onda ordan on ünsürü rədd elə: acgözlüyü, ikiüzlüyü, paxıllığı, qeybəti, qəzəbi, lovğalığı, qanunsuzluğu, riyakarlığı, düşmənçiliyi və yalanı".

Hollandiya rəssamı, böyük V.Van-Qoq yazırdı: "İnsanları sevməkdən nəcib heç nə yoxdur".

Rus heykəltaraşı Antokolski deyirdi: "Emosiyasız bədii əsər yoxdur". Emosiya – insanın bütün imkanlarının səfərbərliyidir. Necə deyərlər, emosiya cəhətdən küt olan adamlar adətən arzudan, istəkdən məhrum olurlar. Arzudan, niyyətdən məhrum olmaq fəlakətdir. Ziyanlı emosiya yaranmasın deyə emosional şəraitlə emosiya arasında idrakın və məntiqin fəaliyyəti lazımdır. (Anoxinə görə). Daha doğrusu, emosiyanı idarə etmək üçün, ən əvvəl onun yaranma mexanizminə diqqət vermək lazımdır. Məsələn, bilmək maraqlıdır ki, nə üçün dünyaya yeni gəlmiş körpənin çəkisi Bethoven musiqisinin təsirindən nəzərə çarpacaq dərəcədə artır? Və yaxud, nə üçün ətrafa qarşı münasibəti aqressiv olan vəhşilər təbii fəlakət anlarında qonşularına qarşı tamamilə mülayim olurlar?

İnsanın məruz qaldığı bütün emosional vəziyyətlərə əsəb hüceyrələri fəaliyyətinin xarakteri təsir edir. Əsəb hüceyrələrinin fəallığı, ətraf mühitin müxtəlif siqnalları və hüceyrələrin daxilində baş verən bioloji proseslərlə müəyyən olunur.

Müəyyən həyati təcrübə qazandıqdan sonra əsəb hüceyrələri məlumatları caxlayıb hifz eləmək və proqnoz vermək qabiliyyəti əldə edirlər.

Dediklərizə bir maraqlı misal göstərək: məlumdur ki, oktyabrda qarın yağıb-yağmasından asılı olmayaraq dovşanlar boz rəngli "kürk"lərindən 3 – 6 dəfə isti olan ağ "kürk"geyirlər. Dovşanlar belə etməsələr, yəgin ki, qışın soyuğuna dözə bilməzlər. Təbiətin canlı aləmə bəxş etdiyi möcüzələrdən biri olan bu təbii adət qarsız payızda dovşanların başına bəlalar açır. Belə şəraitdə onlar ovçular tərəfindən daha asanlıqla gülləbarana məruz qalırlar.

Zülali birləşmələr (bəzi oliqopeptidlər) emosiyanı molekulyar səviyyədə idarəetmə xüsusiyyətinə malikdirlər. Belə ki, ac heyvanlara müəyyən zülali mаddə verdikdə onlarda aclıq hissi yox olur.



Həddən artıq emosional gərginlik, hətta adam haqlı olanda belə müvəffəqiyyətdən çox ziyan gətirə bilər.

Görün cərrah, professor F.Q.Uqlov nə yazır: "1950-ci ilin yanvarında Leninqradın bütün həkimləri Yustin Yulianoviç Canalidzenin qəflətən vəfatından dərin kədərlənib qəmə qərq oldular...

Axırıncı dəfə Amerika Birləşmiş Ştatlarına səfərdə olmuşdur... Və elmi müşavirələrin birində... Yustin Yulianoviç acı təəssüflə qeyd etdi ki, bizdə təbabət sahəsində bir çox problemlərin işlənilməsində müəyyən geriliklər mövcuddur; bu arada cavan tibbi xidmət podpolkovniki S. yerindən durub ucadan onu "Qərbin qarşısında diz çökməkdə" təqsirləndirdi.

Bu lovğa adam, ortabab həkim, sovet cərrahiyyəsində məşhur professorun elədiklərinin mində birini belə eləməmiş həmin podpolkovnik patetik formada Yustin Yulianoviçi öyrətməyə başladı ki, "bizim görkəmli nailiyyətlərimizə lazımı hörmət və ehtiramla yanaşmaq lazımdır", "məsuliyyətsiz çıxışlarla layiq olduğumuz rütbəni ləkələmək olmaz" və s. və i. a. bu ruhda tənbehlər yağdırmağa başladı.

Qeyd etmək lazımdır ki, hərbi-dəniz donanmasının baş cərrahı olan Canalidze çiyinlərində tibbi xidmət general-leytenantı poqonlarını daşıyırdı. Təbiətən "coşğun" olan Canalidze podpolkovnikin hərzə-hədyanlarına çox kəskin cavab verərək, onu formalist, nadan, araqızışdıran adlandırdı və axırda bir təhqiramiz ifadə də işlətdi... O isə zabit rütbəsinin təhqir edildiyi üçün dərhal onu məhkəməyə verdi. Özünü çox sevən, hər şeyə yuxarıdan aşağı baxan Yustin Yulinoviç məhkəmənin hədə-qorxusuna dözə bilməyib, elə oradaca stenokardiyaya tutuldu. Məhkəmə iclası başqa günə keçirildi, lakin ləğv olunmadı. Və Yustin Yulianoviç bir daha ayağa durmadı".

A.S.Popov adına Elektrotexnika İnstitutunun qırx altı yaşlı direktorunu Daxili İşlər Nazirliyinə çağırdılar. Nazir direktordan tələbələrin vəziyyətini izləmək üçün xüsusi agentlər – casuslar verməyi tələb etmişdi. Direktor evinə qayıdan kimi dərhal vəfat etmişdir. ("Sos. industriya" 16. III. 1984).

Detektiv povestlərindən birində qərar qəbul etmək üçün aşağıdakı 5 tələb təklif olunur:

1. Heç vaxt elə hesab etməyin ki, qarşınızdakı adam sizdən avamdır.

2. Aldatdığınız təlimata kor-koranə riayət etməyin, onu müqəddəs tutun.

3. Həmişə və hər yerdə gözlənilməz hadisələrə hazır olmalı.

4. Elə güman etməyin ki, cəsurluq ağlı, cəsarət zirəkliyi əvəz edə bilər.

5. Hər şeyi görməyi və yadda saxlamağı bacarmalı.

Qərar qəbul etdikdə mütəhərrik və əlverişli üsul, problemin müvəffəqiyyətlə həll olunması şansını artırır. (Malum cosilium est, goud mutari non potest – lat. dəyişdirilməsi mümkün olmayan qərar pisdir.).

Sürücülərə yaxşı məlumdur ki, yol nə qədər çətin və sürət böyükdürsə, diqqəti də bir o qədər artırıb, daha uzaqı görmək lazımdır. Bu qərar qəbuletmə vaxtını minimum dərəcədə qısaldır. Belə hallarda reaksiyanın cəldliyi və ağıllılıq, maşının saz əyləcindən daha böyük rol oynayır.

İngilislər deyirlər ki, mühəndis – kifayət qədər məlumat olmadıqda on hadisədən yeddisinin düz həllini tapan adamdır. Fransızlara görə isə, mühəndis – çox fəndgir ixtiraçıdır.

Əgər güman etsək ki, "rəqib" adam deyil, onda qərar, strateji əməliyyatlarda olduğu kimi qəbul olunur, belə ki, vəziyyətə ümumilikdə baxılır və münaqişədə iştirak edən hər iki tərəfin nəzərdə tutulan strategiyası nəzərə alınır. Misal üçün belə bir oyuna nəzər salaq. İki nəfər eyni vaxtda stolun üstünə hərəsi eyni dəyərli dəmir pul qoyur: əgər pulların hər ikisi eyni üzlü olarsa (hər ikisinin qiymət və ya gerb tərəfi) – oynayanlardan biri, pulların üzü müxtəlif olarsa (birinin qiymət tərəfi, o birinin gerb tərəfi) – onda ikinci oyunçu udur.

Oyun kifayət qədər davam etsə, nə cür strategiya seçmək lazımdır? Əgər müəyyən bir qayda seçsək, onda bir neçə turdan sonra rəqib ayıq düşəcək və sənin oyun qaydanı biləcək.

Belə hallarda "Oyun nəzəriyyəsi" hər bir gediş üçün lazım olan məsləhəti verə bilmir. Və "təsadüfilik nəzəriyyəsi" fəaliyyətə başlayır, yəni gedişlər təsadüfən seçilir.



L.N.Tolstoyun "Hərb və sülh" romanında bədii bir parçaya – Pyer Bezuxovun öz-özü ilə mükalıməsinə diqqət yetirin:

– "Hərbi xidmətə daxil olub, oraya getmək və ya gözləmək? – Pyer bu suala yüz dəfə özü-özünə verdi. O, stolun üstündəki bir dəst oyun kartını əlinə götürüb, pasyans[1] eləməyə başladı – Əgər bu pasyans düz olsa – deyib, kart dəstini qarışdıraraq, gözlərini tavana zillədi, – əgər düz olsa... onda deməli... nə olar?

... Baxmayaraq ki, pasyans düz gəldi, Pyer orduya getmədi, eyni həyacanla, tərəddüdlü qorxular icində, boşalmış Moskvada qaldı".

L.S.Vıqotskinin dediyi kimi, bu misal göstərir ki, "Buridan eşşəyinin yerinə olsaydı, adam püşk ataraq şəraitə uyğunlaçardı". ("Buridan eşşəyi" – eyni məsafədə yerləşən bərabərhəcmli ot cəngələri arasında dayanaraq acından ölür. Çünki, heç cürə qərara gələ bilmir ki, hansı çəngə otu yemək lazımdır).

Maraqlıdır ki, iki şokoloddan birini götürməyə icazə verilmiş uşaq, az müddətdə çaşqın vəziyyətə düşür, ancaq təzə şokolodlardan biri onun nəzərini cəlb edir və dərhal qərar qəbul edir. Çıxış yolu seçərkən davranış və mübarızənin motivləri sadə bir hərəkətdən – dəmir pulu almaqdan başlayır.

Uilyam Cems səhərlər yataqdan durma ilə əlaqədar bir misal gətirir: adam oyanan kimi bir tərəfdən qalxmaq, o biri tərəfdən isə hələ bir az da uzanmaq istəyir. Nəticədə bir-birini əvəz edən – "durum" ya "durmayım" fikirlərinin mübarizəsi başlayır və ən nəhayət, rəqiblərdən biri digərini sıxışdırır, iki variantdan biri seçilir. Həmin seçmə belə ifadə olunur: "Bir də gördüm ki, ayağa durmuşam".

Münaqişəli şəraitin klassik modelini – bir-birinə zidd iki tərəfin mübarizəsini təhlil edən İ.Qrekova yazır:

"Bir qayda olaraq münaqişəli vəziyyətdə ağıllı hərəkət ondan ibarətdir ki, hiyləgərliklə tapılmış nisbətlərdə strategiyaları qarışdırmaq yox, onların rəqibə məlum hədlərinə çıxmaq lazımdır.

Bununla əlaqədar M. Botvinnikin şahmat oyununda qərar qəbul etməyə dair söylədiyi bir fikir daha maraqlıdır. Şahmatçının nə-

[1] Pasyans – kart kağızlarının müəyyən üsulla yığılması.

zərdə tutduğu debüt sistemi müasir nöqteyi-nəzərə görə səhv görünməlidir. Bu halda rəqib seçilmiş sistemi çox da dərindən təhlil etməyəcək və nəticə onun imkanlarının məhdudluğuna gətirib çıxaracaqdır.

Şahmat oyununda məqsəd – rəqibin şahını mat etmək, dama oyununda isə rəqibin daşını vurub taxtanın üstündən götürməkdən ibarətdir. Qo fişka oyununda da rəqib daşını "əsirliyə" alıb taxtının üstündən götürürlər, lakin bu oyundakı "əsir almaq" məqsəd deyil, vasitədir, çünki bu oyunda məqsəd müəyyən sahəni "zəbt" etmək, tutmaqdır.

Debütdə partnyorlardan biri öz tələbini irəli sürür və rəqib bu tələbi oyunun həmin mərhələsindəcə rədd edir.

Mittelşpildə (oyunun ortasında) oyun olduqca qızışır və ölüm-dirim müharibəsi gedir. Yeganə bir gediş və ya yeganə bir fişka (oyun daşı) mövgeyin həyatiliyini həll edir.

Oyunun sonluğu üçün təhlükəsizliyi tam təmin etmək və müdafiəni təşkil etmək strategiyası səciyyəvidir. Taxta üzərində daha çox sahə ələ keçirən oyunçu qalib gəlir.

Məşhur bir yaponiyalı qo ustası yazır: "Madam ki, qo oyunu iki oyunçu arasında qələbə uğrunda mübarizədir, onda eqoistcəsinə fikirləşmə öz-özünü məğlubetməyə gətirib çıxaracaqdır. Unutmamalıyıq ki, bizim rəgibimiz də bizim kimi vəziyyətdən ən əlverişli çıxış yolu axtarır. Əgər hər iki oyunçu axıra qədər müvəffəqiyyətli oyun nümayış etdirirsə, onda taxtanın üstü qara və ağ daşlarla harmonik surətdə örtülü olacaqdır.

Qələbəyə can atmaq çox vaxt daha əlverişli gediş etməyə mane olur; bu da müvəffəqiyyətsizliyə səbəb ola bilər... mülayimlik müvəffəqiyyətin rəhnidir. Oyunu qələbəylə başa çatdırmaq üçün, eqoistcəsinə qələbə çalmaq arzusunu unutmaq lazımdır, çünki, öz imkanlarını nəzərə almayaraq, nəyin bahasına olursa-olsun qələbə çalmaq istəyi, nəticə etibarı ilə təəssüf doğuran məğlubiyyətə gətirib çıxarır".

Hər bir oyunçuya məsləhət görülür:

– səhv edilən gedişi geri qaytarmaq niyyətində olmamalı;

– oyun zamanı şən olmalı və əsəbiləşməməli – çox fikirləşmək rəqibi yorur;



– ümidsiz vəziyyət yarananda, əsl idmançıya layiq mərdliklə təslim olmalı, çünki rəqibə qarşı qalın qafalılıq edərək müqavimət göstərmək nəzakətsizlikdir;

– oyun başlananada və qurtaranda rəqibə ehtiram göstərib, onun əlini sıxmaq dostanə münasibət əlamətidir.

Qərar qəbul edəndə rəqabət apara bilməyən alternativi ləğv etmək, daha doğrusu alternativin ardıcıllıqla sıxılması prinsipi ilə hərəkət etmək lazımdır.

Göstərilən prinsipi hərdən Roden prinsipi adlandırırlar. "Mütəfəkkir" abidəsi üzərində necə işləmisiniz?" – sualına o, belə cavab vermişdir: "Çox sadə, mərməri götürüb artıq olan nə vardısa hamısını yonub atdım".

Stanislavskinin ifadəsini bir qədər dəyişdirərək demək olar ki, əgər hər hansı qərarı qəbul edə bilmirsiznizsə, yaxın dostunuzun yanına gedin və gileylənin. Söz-söhbət başlayacaq və bundan sonra dərhal mübahisə yaranacaq, bax elə bu mübahisədən həqiqət doğulacaq. "Əgər həqiqət mübahisədən doğulur" ifadəsi doğrudursa, onda bunu da əlavə etmək lazımdır ki, həqiqət əsaslı məsələlərdə eyni mövgedə duran dostlar arasındakı mübahisədən doğulur. Əsas məsələdə həmrəylik, rəy müxtəlifliyini, hətta müəyyən və konkret predmetlərə qarşı kəskin fikir ayrılığını istisna etmir.

F.İskəndərin dediyi kimi, iki inkar – (yalançı və eyni zamanda avam insanlar) – ağıllı zirəklik yaradır. Bu onunla izah olunur ki, belə yalançı adamlar dediklərini daima danmağa öyrəniblər və bu da onların əqli qüvvəsinin qeyri-adi mütəhərrikliyini göstərir (öz zəif əqli qüvvəsinə yaxşı rəhbərlik edir).

Bir çox hallarda qərar, etibarsızlıq sınaq və xəta metoduna əsasən qəbul edilir (məsələn, təbabətdə olduğu kimi).

Fərdi terapiyada həkim öz qərarını çox dəqiq və uzunmüddətli sınaqlar, təcrübələr yolu ilə qəbul etməlidir, bu isə əslində o qədər də yerinə yetirilə bilən iş deyil.

Uruqvaylı biokimya alimi Alexandro Zaffaroni lazımi miqdarda dərmanı bədənin lazım olan nöqtəsinə çatdırmaq kimi bir problemin həllində yeni terapevtik sistem yaradaraq, təbabətdə böyük dönüş yaratmışdır. Zaffaroninin öz-özünə proqramlaşan fəal

sistemi xəstəyə, onun orqanizminin həzm edə biləcəyi miqdarda dərmanı avtomatik olaraq ötürə bilir.

Misal üçün, şəkərli diabet xəstəliyinə düçar olanlarda orqanizmdə insulin çatışmazlığı həmin sistemin köməyi ilə dəri vasitəsi ilə təmin edilir.

Son zamanlar bizim ölkəmizdə də müalicə dərmanlarını orqanizmin ancaq xəstələnmiş zonalarına çatdırmaq sahəsində ciddi tədqiqatlar aparılır.

Probometriya problemi belə həll olunmuşdur.

V.Bryusov təəssüflənirdi ki, şairlər minbir sınaq və xətalardan keçən yolla getməyə məcburdurlar.

Hazırda min bir sınaq və xətalardan keçib getməyə demək olar ki, heç kəs məcbur deyil. Amma digər bir problem – fərdi inkişafa mane olan yeni "çəkib aparmaq", "yaradıcılıq qəyyumluğu" meydana gəlmişdir.

Qərar qəbul edəndə məşhur fizik Uilerin ciddi bir məsləhətini nəzərə almaq lazımdır: "Cavabını bilmədiyin hesablamanı heç vaxt aparma. Hər bir hesablamadan qabaq təqribi hesablama apar, sadə fiziki mühakimələrə və təsəvvürlərə müraciət et (simmetriya, invariantlıq, saxlanma qanunları). Müfəssəl nəticə çıxarana qədər, hər bir müəmmanın mümkün cavabını fikirləş. Cəsarətli ol, çünki, sənin qəbul etdiyin fərziyyəni səndən başqa heç kəs bimir. Odur ki, işə tez və fəhmlə giriş. Uğurlu niyyət həmin fəhmi möhkəmləndirir. Səhv fərziyyəyə faydalı qulaqburması verir".

"Fərziyyələr ziyanlı deyillər, bütün yalan fərziyyələrin özləri dağılırlar" (Tyurqo).

Kiplinqin aşağıdakı şeiri maraqlıdır.

Altı nökərim var cəsur, cəngavər,
Pənahım onlardır çətində, darda.
Deyim adlarını, bilməyə dəyər –
Necə, Niyə, Kim, Nə, Haçan və Harada.

Hötenin müdrik sözləri bizim günlərdə də öz əhəmiyyətini itirməmişdir: "Ən uca və parlaq bir elm kimi riyaziyyata pərəstiş edirəm. Hələlik onu aidiyyəti olan sahələrdə tətbiq edirlər, ancaq ondan sui-istifadə hallarına heç cür dözə bilmirlər... sanki dünyada ancaq riyazi sübuta ehtiyacı olanlar mövcuddur. Cəfəngiyyata bax. Kimsə, bir nəfər, qızın onu sevdiyinə şübhələnib, yalnız ona görə ki, yazıq qız öz məhəbbətini riyazi yolla isbat edə bilməyib. Ola bilsin ki, cehizi riyazi hesabla qiymətləndirmək mümkündür, lakin məhəbbəti yox...".

EHM-nın köməyinə böyük ehtiyacımız var. Bu haqda Y.İ.Frenkel belə deyir: "Tədqiqatçının apardığı riyazi hesablamalar olduqca mürəkkəbdir. Nəhəng riyazi ifadələrlə məşğul olanların inadkarlığına və dözümünə yalnız təəccüblənmək olar... Mən bu cür "qəhrəmanlığa" girişməzdim, daha sadə yol axtarardım. Elmi təkcə güclə yox, həm də tənbəlliklə irəli aparmaq olar. Elə üsul fikirləşib tapmaq lazımdır ki, nəticəyə daha asan yolla gətirib çıxarsın. Sadə yolla, barmaq hesabı ilə sadə asimptotik nəticə almaq lazımdır ki, asanlıqla, dərhal təsəvvür yaradıb, onun necə alındığını görəsən.

Bir səhifəyə yerləşməyən mürəkkəb düstura baxıb, fiziki nəticəni hiss eləmək qeyri-mümkündür. Bu, məncə çatışmazlıqdır, amma çətinliklərdən qorxmamaq – comərdlikdir. Siz bütün bu manelərə qalib gəlmisiniz".[1]

Çepmenə görə turbelent qaz selində təyyarəni üçölçülü axın hesabını məlum fərqlər metodunun köməyi ilə aparmaq üçün tez təsirli $10^{12} - 10^{13}$ (1 flops – saniyədə 1 hesabi əməliyyat) və çox yüksək əməliyyat yaddaşına ($10^{8}$ söz) malik olan EHM-lər lazımdır. Bu qəbildən olan məsələlərin həlli hələlik açıqdır, yəni həll olunmamışdır.

İnsanın vəziyyəti (əhvali-ruhiyyəsi) stres,[2] emosiya və dav-

---

[1] Deyirlər ki, Landau zarafatla demişdir: "İstənilən məsələni Fok – xüsusi törəməli, mən – adi differensial, Frenkel isə - cəbri tənliklərə gətirir".

[2] H. Selye stresi hər hansı fövqəladə təsirə qarşı qeyri-spesifik müdafiə reaksiyası adlandırır. Distres – uğursuzluq, qorxu, kədər və sarsıntı, yorğunluq nəticəsində yaranan əsəb gərginliyidir. Uzunmüddətli distres vəziyyəti ürək infarktı, beyin insultu, keçəllik, psixi pozğunluq, diş tökülməsi və s. ilə nəticələnə bilər. Eustres – xoş xəbər, yaradıcılıq müvəffəqiyyəti, xoşa gələn fiziki iş və s. nəticəsində yaranan müsbət gərginlik vəziyyətidir. Eustres əmək fəaliyyətini artırır və bədənin xəstəliklərə qarşı mübarizəsini gücləndirir.

ranış tərzi ilə müəyyən olunur. Məlumdur ki, hər hansı stres orqanizmdə üç reaksiya yaradır. Hans Selye bunları həyacan, uyğunlaşma və əldən düşmə adlandırılır. Uyğunlaşma müddətində xəstəliklərə qarşı müqavimət artır, başqa reaksiyalarda isə əksinə.

Yaxınlarda Amsterdamda keçirilmiş tibb simpoziumunun iştirakçıları təsdiq etmişlər ki, xərçəng xəstəliyi ilə adamın stres vəziyyəti arasında asılılıq mövcuddur. Tədqiqatların nəticəsi göstərmişdir ki, zahirən sakit, öz emosiyasına qalib gəlməyi bacaran və münaqişəli şəraitdən qaçan adamlar, tez özündən çıxan və emosional adamlara nisbətən xərçəng xəstəliyinə daha çox düçar olurlar. Deməli, xərçəng xəstəliyi – belə demək mümkünsə – ürək-damar xəstəliyinin antipodudur.

Podaqra xəstəliyinə tutulanlara təsəlli üçün Amerika alimləri qeyd edirlər ki, onlarda yamanxassəli şişlər müşahidə olunmamışdır ("Kavkazskaya zdravnisa", 18. 01. 1984).

Xroniki stres dişlərin tökülməsinə səbəb olur ("Ximiya i jizn" № 5, 1984).

Psixiatr Robert Ader müəyyən dəlilə əsaslanaraq yazır ki, xərçəng xəstəliyinin müalicəsində psixoterapiya xeyli müvəffəqiyyətə malikdir.

Arvadlarının döşü xərçəng xəstəliyinə tutulmuş 30 kişinin immun sisteminin vəziyyəti üzərində Martin Staynın rəhbərliyi altında tibbi müşahidələr aparılmışdır. Təbii ki, ömür-gün yoldaşının – arvadının ölümü böyük psixi gərginliyə gətirir və həyat yoldaşının ölümündən sonrakı birinci iki ayda müdafiə mexanizmi dərhal zəifləyir. Bu müddətdə kişilər yoluxucu xəstəliklərə daha asanlıqla tutula bilirlər. Təqribən dörd aydan sonra kişilərin immun reaksiyaları bərpa olunur.

Nevropatoloqlar qeyd edirlər ki, qorxu – ürəyin, hirs və qəzəb – qara ciyərin, məyusluq və ruh düşgünlüyü mədənin düşmənidir.

Kəskin baş ağrısına emosiyanın təsirini hələ Əflatun da qeyd etmişdir.

Amerika tədqiqatçıları M.Frideman və R.Rozemman adamların xasiyyətindəki xüsusiyyətlərin və ictimai davranışlarının



stenokardiya və miokard infarktı xəstəliklərinə təsirini tədqiq etmişlər.

Tədqiq olunanlar iki qrupa bölünmüşlər. Birinci qrupa şöhrətpərəst, daim tələsən, çoxlu işi sürətlə başa vurmağa çalışanlar, ikinci qrupa əks xarakterli adamalr daxil idi.

Birinci qrupdakılar – həddən artıq təkəbbürlü, ikinci qrupdakılar isə xeyirxah və qayğısızdırlar.

Birinci qrupda stenokordiya və miokard infarktı ilə xəstələnmə halları ikinci qrupdakılara nisbətən altı dəfə yüksək olmuşdur.

Ürək-damar infarktı ilə xəstələnən adamlar özünəməxsus iki xasiyyətlik əldə etmişlər. Belə ki, bir tərəfdən şöhrətpərəstlikdən uzaqlaşıb, özünə hörmət xarakteri əldə etmiş, o biri tərəfdən isə pessimizmə qapılmışlar. Zahiri mübarizə və daxilən təmin olunmamaq hissi – puç olmuş ümidlər stresi bu cür adamların psixikası üçün xarakterikdir.

Xarkov institutlarından birində stres vəziyyətinin modeli işlənib hazırlanmışdır. Məsələn, "gözləmə" stresində nəbzin döyüntüsü sürətlənir, arterial təzyiq qalxır və s. Stresi ən çox qan-damar sistemi əks etdirir.

Heyvanlar üzərində aparılan müşahidələr əsasında işlənilmiş bioloji modellər emosional stresin inkşaf mexanizmini öyrənməyə kömək edə bilər.

Müharibə illərində adamlar çox az xəstələnirdilər; hərb düşərgələrindən salamat çıxanlar deyirdilər ki, orda onlar öz xəstəliklərini unutmuş, lakin həmin düşərgələrdən çıxandan sonra xəstəliklər üzə çıxmışdır.

Leninqradlıların "mühasirə hipertoniyası" xəstəliyinin dəqiq tədqiq olunub öyrənilməsi göstərir ki, bu xəstəlik mühasirə dövründə yox, ondan sonra özünü göstərmişdir.

V.S. Rotenberq və V.V.Arşavski hesab edirdilər ki, stres əks təsiri (reaksiyanı) və orqanizmin zərərli təsirə qarşı möhkəmliyini (o cümlədən xəstəliklərə qarşı) emosiyanın xarakteri yox, orqanizmin fəal mübarizlik qabiliyyətinin olub-olmaması müəyyən edir. İnsan

nə qədər ki, mübarizə aparır (həqiqət uğrunda, mənsəbə qovuşmaq üçün, ümumiyyətlə, istədiyi məqsədə nail olmaq üçün – dissertasiya müdafiə etmək, arzuladığı vəzifəni tutmaq, mükafat almaq və s.), sağ-salamat olur və heç xəstələnmir. Elə ki, mübarizə sona çatdı, nəticədən asılı olmayaraq (yaxşı və ya pis) adam xəstələnir. Müvəffəqiyyətin ən yüksək mərhəlsində yaranan depressiya yaradıcılıqla məşğul olanları birdən-birə intihara də gətirib çıxara bilər. "Martin İden" sindromu. Yaradıcılıqla məşğul olan şəxs xoşa gəlib-gəlməməsindən asılı olmayaraq, ürəyi istəyən başqa yüksək səmərəli fəaliyyət prosesinə qoşulsa, "uğur azarı" xəstəliyinə düçar olmaz.

V.S.Rotenberq müşketyorların sarsılmaz psixi sağlamlığını belə izah edir: "hər nə oldu – dərhal qılınclar qından çıxır, bizdə isə "emosiya qılıncı" demək olar ki, həmişə qındadır".

Bu deyilən onu göstərir ki, "fizioloji ordu" hücum əmrini gözləmədən öz "ərazisində talana" başlayır və bu da dəyişikliklərə, hətta bəzən daxili orqanların fəaliyyətinin pozulmasına gətirib çıxarır" ("Sov. Rossiya". 19.01.1985).

Bir fransız zərb-məsəlində deyilir ki, pislik bizim yamanlığımızdan yox, yaxşılıqdan sui-istifadə etməyimizdən yaranır. İngilislərsə deyir: "Yaxşı – heç vaxt dəyişməyəndir".

Bir gənc həkim T.Sidenqamdan soruşur ki, yaxşı təbib olmaq üçün nələri oxumaq lazımdır? O, demişdir: "Don Kixotu oxu, mənim dostum". Bu cür cavabın o dövr üçün ola bilsin ki, əhəmiyyəti vardı. Çünki Sidenqamın dövründə təbabət, Servantesin qəhrəmanı kimi, varlığı aydın olamayan bir bəlaya qarşı, çox zaman səmərəsiz vasitələrlə mübarizə aparırdı.

Belə bir nöqteyi-nəzər mövcuddur ki, ictimai həyatda stressə qarşı mübarizə sistemi uzunömürlülüyün əsas səbəblərindən biridir. Məsələn, möhkəm qohumluq və soy-nəsil əlaqələri bir çox dramatik şəraitlərdə (ölümlə, xəstəliklərlə və s. əlaqədar hallarda) çox güclü və müsbət təsir göstərir.

1970-ci ildə SSRİ əhalisini siyahıyaalmada yaşı 100-dən çox olan 15052 qadın və 4252 kişi qeydə alınmışdır.



Qafqazda 9,5 milyon əhaliyə 5 min nəfər 100 yaşlı adam düşür. ABŞ-da 210 milyon əhalinin yalnız 13 min nəfəri 100 yaşlı qocalardır.

Demoqraflar uzunömürlülüyü 60 yaşdan yuxarı əhalinin 90 yaşlı və ondan yuxarı yaşı olanların sayı ilə ölçürlər.

Bu sahədə birinci yeri balkarlar tutur – 9,32 faiz. Həmin rəqəm abxazlar, azərbaycanlılar, inquşlar, qaraçaylılar, çeçenlər və başqalarında da yüksəkdir. Evenklərdə, yakutlarda və evenlərdə bu rəqəm 5 faizdən bir az artıqdır.

SSRİ-də uzunömürlülük rekordu Şirəli Müslümova aiddir (1805 – 1975). Mahmud Eyvazov – 151 (150 illiyində M.Eyvazovun şərəfinə poçt markası buraxılmışdır), Məcid Ağayev – 143, Zübedə Şeydayeva və Həmid Quliyev hərəsi 121 il ömür sürmüşlər.

İnsan neçə il ömür sürə bilər? Statistiklərdə belə fikir hökm sürür ki, lap ahıl çağlarında yaş tərki-dünyalıq fikrinin sürətinə təsir göstərmir və uzunömürlülər də radioaktiv elementlərin parçalanması qanunu üzrə ölürlər. Onda, qoy lap az olsun, ehtimal var ki, 100 yaşa qədər orta hesabla anadan olan 100 min körpədən bir nəfəri, istənilən qədər uzun ömrü isə – məsələn, min il – 10 milyarddan bir nəfəri sürə bilər. Bu deyilənlərə əsasən fransız demoqrafı A.Sovi yazır: "İnsan ömrü üçün son həddi təyin etmək xam xəyaldır".

Bioloqlar başqa nöqteyi-nəzərdədirlər. Onlara görə ömrün 10 – 15 ilinə qədər insan ölümü azalır (xoşbəxt yaşlardır), bu yaşdan sonra isə ölüm ehtimalı artır və bütün səbəbi – sosial və bioloji amillərlə əlaqədardır.

Sosial amil yaşdan asılı deyil və onun təsirini əməli olaraq sıfıra gətirmək olar. Bioloji amil isə yaşdan asılı olaraq sürətlə artır. Belə ehtimal olunur ki, insan ömrünün uzunluğu 95 ilə yaxındır.

Tək-tənha yaşayan və özünü bəxtsiz hesab edən adamlara nisbətən xoşbəxt ailə sahibləri və həqiqi dostları olanlar nadir hallarda infarkta, insulta və başqa dəhşətli xəstəliklərə məruz qalırlar.

Oqayo Universitetində adadovşanlarına yağlı yeməklər verib müəyyən müddətdən sonra müayinə etdikdə onların erkən ateroskleroz xəstəliyinə tutulduqları məlum olur. Laborantın həmişə tumarlayıb oxşadığı bir qrup dovşanlarda isə həmin xəstəlik müşahidə olunmamışdır. ("Za rubejom" № 7,1987).

Mənfi emosiyalar səbəb olmadığı hallarda belə, pisixoloji əmin-amalıqdan danışmaq qeyri-mümkündür. Bir qayda olaraq mövcud olan dəyişməz monotonluq şəraiti özü də stres yaradır.

Kanada alimi R.Burkenin tədqiqatının nəticəsi çox maraqlıdır; o, müəyyən etmişdir ki, rəhbər işçilər stres vəziyyətlərinin bir qismindən tabeçiliyində olanların səhhətinə və əhvali-ryhiyyəsinə xələl gətirmədən səmərəli istifadə edə bilərlər.

Stresin mənbəyi aşağıdakılardır:

1. İşin nəticəsinə kifayət qədər məsul və cavabdeh olmamaq;

2. Həll edilməli məsələnin lazımi qədər dəqiq və səlis izah edilməməsi;

3. İş ilə həddən artıq yüklənmək;

4. İş yerində işçinin perspektivinin qeyri-müəyyən olması və rəhbərliyin onun barəsində nə fikirdə olduğunu bilməsi;

5. Tapşırılan işi yerinə yetirmək üçün mütəxəssis naşı olanda.

Stresin təsir gücünü qiymətləndirmək üçün nisbi cədvəlləşdirmə metodu tətbiq olunur. Qiymətləndirmə cədvəli tərtib edəndə həyat yoldaşının ölümü bütün mümkün olan stres amillərindən ən güclüsü hesab olunur və stres gücü 100 vahidə bərabər götürülür.

Başqa streslərin gücü bu maksimal qiymətin müəyyən faizi kimi qiymətləndirilir. Aşağıda bu və ya digər amillər nəticəsində baş verən streslərin qiymətləndirilmə cədvəli verilir:

**İnsanın həyatında baş verən dəyişikliklər**

**I Ailə.**

| | |
|---|---|
| 1. Ərin (və ya arvadın) ölümü | 100 |
| 2. Boşanma | 73 |
| 3. Ər və arvadın ağır küsüşməsi | 65 |
| 4. Yaxın qohumun ölümü | 63 |



| | |
|---|---|
| 5. Evlənmə* | 50 |
| 6. Ağır küskünlükdən sonra barışma* | 45 |
| 7. Ailə üzvləri arasındakı münasibətlərdə ciddi dəyişiklik | 44 |
| 8. Hamiləlik* | 40 |
| 9. İlk körpənin doğulması | 39 |
| 10. Arvada münasibətdə ciddi dəyişiklik | 35 |
| 11. Oğlun və ya qızın ata evini tərk etməsi | 29 |
| 12. Ərin və ya arvadın qohumları ilə mənfi münasibətdən yaranan çətinliklər | 29 |
| 13. Arvad işə qəbul olunur və ya işdən tamamilə çıxır | 26 |
| 14. Ümumi dostlarla münasibətdə ciddi dəyişikliklər | 15 |

**II İnsan.**

| | |
|---|---|
| 1. Həbs olunma | 63 |
| 2. Ciddi yaralanma və ya xəstələnmə | 53 |
| 3. Yaxın dostun ölümü | 37 |
| 4. Görkəmli şəxsin müvəffəqiyyətləri* | 28 |
| 5. Təhsilin başlanması və başa çatması | 27 |
| 6. Həyat şəraitində ciddi dəyişikliklər | 25 |
| 7. Şəxsi vərdişlərə yenidən baxma (bəzilərini islah üçün) | 24 |
| 8. Başqa məktəbə keçmək | 20 |
| 9. Yaşayış yerini dəyişmək | 20 |
| 10. Əyləncələrin xarakterində ciddi dəyişikliklər | 19 |
| 11. Dini ayinlərə münasibətdə və onların icrasında dəyişikliklər | 19 |
| 12. Düzgün gündəlik rejimin ciddi sürətdə pozulması | 19 |
| 13. Yemək rejimində ciddi dəyişikliklər | 15 |
| 14. Məzuniyyət* | 13 |
| 15. Yeni il bayramları* | 12 |
| 16. Cuzi qanun pozuntuları | 11 |

**III İş**

| | |
|---|---|
| 1. İşdən çıxarılmaq | 47 |
| 2. Təqaüdə çıxmaq | 45 |
| 3. İş yerində vəziyyətin ciddi dəyişməsi | 39 |
| 4. Fəaliyyət növünün dəyişməsi | 36 |
| 5. Qulluq pilləsinin artması* | 29 |
| 6. Rəhbərliklə münasibətdəki çətinliklər | 23 |
| 7. İş şəraitində ciddi dəyişikliklər | 20 |

**IV Maliyyə məsələləri**

| | |
|---|---|
| 1. Maliyyə vəziyyətinin ciddi dəyişməsi | 38 |
| 2. 10000 dollar dəyərində malın (və ya əşyanın) girov qoyulması | 31 |
| 3. Girovu geri almaq hüququndan məhrum olmaq | 30 |
| 4. 10000 dollar dəyərindən az əşyanın və ya istiqrazın girov qoyulması | 17 |

(Həyat şəraitindəki "müsbət" dəyişikliklərin yaratdığı streslər ulduzlarla qeyd olunmuşdur).

Həkim-psixiatr Riçard Rahe təqribən eyni yaşa və inkişaf səviyyəsinə malik 3000 nəfər hərbi dənizçini müayinə etmişdir. Asılı olaraq dəyişən kəmiyyət – hər bir dənizçinin həkimə fərdi müraciətlərinin sayı götürülmüşdür.

Hər səviyyə üçün dörd orta stres qiyməti belə təyin olunmuşdur:

| | |
|---|---|
| 1. Çox zəif stres | 1,4 vahid; |
| 2. Zəif stres | 1,6 vahid; |
| 3. Güclü stres | 1,7 vahid; |
| 4. Çox güclü stres | 2,1 vahid. |

İmmunitet, əvvəllər orqanizmin hər hansı yoluxucu xəstəliyə tutulmamaq qabiliyyəti kimi təyin olunurdu. İmmunitetin müasir tərifi belədir: orqanizmin həyat təmin edici sistemi. Bu sistemdə ziyankar hüceyrələr yaranır və immun qabiliyyətli hüceyrələr, immunoqlobinlər bunlara qarşı mübarizə aparır.

Maksimal fiziki və psixoemosional gərginlik vaxtı bir-iki saat ərzində orqanizimdə müəyyən miqdarda immunoqlobin itir və yüksək immunoloji risk dövrü başlanır. Bu proses stres yaradan səbəbin təsiri kəsiləndən üç-dörd həftə sonra da davam edir. İmmun çatışmazlığını müalicə üsulları SSRİ-də kəşf olunmuşdur.

İnsanın xasiyyəti haqqında təsəvvür əldə etmək üçün Levinsonun aşağıdakı testindən istifadə etmək olar. (EKO,№ 7,1981). Heç olmasa üç suala müsbət cavab verilərsə xasiyyətimizin bəzi cəhətlərinin ətrafdakılar tərəfindən o qədər də asan qəbul edilmədiyi barədə düşünmək lazım.

Əgər altı müsbət cavab verilərsə, bu o deməkdir ki, sizin həmkarlarınızla münasibətiniz, arzu etdiyinizdən daha gərgindir.

Çoxlu sayda müsbət cavab olduqda öz xasiyyətiniz haqda ciddi düşünməlisiniz.

Xasiyyətiniz necədir?

1. Tənqid edərkən səhv edənin "başına ağıl qoymağa" cəhd edirsiniz, yoxsa elə, "qamçılamağa" çalışırsınız ki, özünə gələ bilməsin?
2. Sizin təşkilatda baş verən nə varsa hamısına tam nəzarət etməyə ehtiyac duyursunuzmu?
3. Bütün tədbirlər üçün sizdən icazə alınmasını tələb edirsinizmi?
4. İclaslardakı çıxışlarınız çoxmu uzun çəkir?
5. Rəqibin dəlillərini rədd eləmək üçün ona tələsik hücum etməyə vərdiş etmisinizmi?
6. Mübahisəyə ehtiyac duyursunuzmu? İstənilən müzakirədə mübahisəyə tezmi girişirsiniz?
7. Ətrafınızdakılar öz fikirlərini sizinlə müzakirə etməkdən çəkinirlərmi?
8. Əgər müzakirə edirlərsə, onda söhbəti lap əvvəldən müdafiə və ya hücum yolu ilə davam etdirməyə çalışırlarmı?
9. Yüksək mövqeyin və hakimiyyətin zahiri əlamətləri sizin üçün çox əhəmiyyətlidirmi?
10. Sizə verilmiş vəzifə səlahiyyətini və ya hökmranlığı, başqasına da təqdim etməyə həvəslə mi razı olursunuz?

11. Uğursuzluqda nəyin bahasına olursa-olsun məsuliyyətdən yaxa qurtarmağa çalışırsınızmı?

12. Öz fəaliyyətiniz haqqında danışanda "mən" əvəzliyindən tez-tezmi istifadə edirsiniz?

13. Tabeçılıyinizdə olanlar sizin qətiyyətinizlə və peşənizə aludəçiliyinizlə, ya da sizin köməyinizlə onların özlərinin də qətiyyətli olacaqları və ixtisaslarını daim artıracaqları ilə fəxr edirlərmi?

14. Adamların sizin haqqınızda çox soyuq və ehtiyatla danışmasını təəssüf və ümidsizliklə hiss edirsinizmi? Halbuki istərdiniz ki, onlar sizi sevsin.

15. Belə hesab edirsinizmi ki, həmkarlarınızın və rütbəli yoldaşlarınızın hamısından daha artıq səriştəli və biliklisiniz? Öz hərəkətlərinizlə buna işarə edirsinizmi?

Psixoloqlar qeyd edirlər ki, qadın xasiyyətinin bəzi cəhətlərini onların stulda necə oturmaları ilə izah etmək olar ("Nedelya", №32,1984).

**Aşağıda bir neçə test göstərilir**

1. **Ciddi görkəmdə əyləşən qadınlar** – həmişə özlərinə əmindirlər, yumoru sevirlər, həmişə şəndirlər və asanlıqla əlaqə yaradırlar (məclisin ürəyi).

2. **Ayaqlarını bir-birinin üstündən aşırıb irəli uzadan və əllərini dizlərinin üstünə qoyub oturan qadınlar** – özlərindən razı, yalnız özlərini sevən olmaları, hər şeylə maraqlanmaları ilə fərqlənirlər ("eqoist").

3. **Dizlərini bir-birinə sıxaraq topuqlarını çarpazlayıb oturan qadınlar** – kamliliyə can atırlar, başladıqları hər bir işi başa çatdırırlar, hərtərəfli fikirləşirlər, gözlənilməz hadisələrdən xoşlanmırlar ("evdar qadın").

4. **Ayaqlarının birini o birindən azca irəli uzadıb oturan qadınlar** – güzəştə getmirlər, qılıqsızdırlar, adətən məntiqlə danışırlar, az hallarda öz səhvlərini boyunlarına alırlar (uzuncu).

5. **Stulun lap kənarında dizlərini sıxıb oturan qadınlar** – fəaldırlar, gülərüzdürlər, hövsələsizdirlər ("qərarsızlar").



Qadının yaxşı evdar olmasını qiymətləndirmək üçün Bolqaristanda test sualları tərtib olunmuşdur ("Nedelya", № 5,1985).

1. Tutaq ki, evdə zəruri əşyaların çoxu yoxdur və siz ancaq bir əşya ala bilərsiniz. Nəyə üstünlük verərdiniz?

Soyuducu (30 xal), televizor (5), paltaryuyan maşın (20), palto (10);

2. Qarderobunuzu tez-tezmi nizama salırsınız? (hə – 20 xal, yox – 10);

3. Mənzilinizi hər həftə eyni gündəmi yır-yığış edirsiniz? (hə - 20 xal, yox – 6);

4. Qonaqlar gələnə qədər mətbəxdəki işlərinizi yerinə yetirə bilirsinizmi? (hə – 8, yox – 20);

5. Olurmu ki, qonaqlara yanmış piroq təqdim edəsiniz? (hə – 10 xal, yox – 15).

6. Qonaqlara özünüz xidmət etməkdən ləzzət alırsınızmı? (hə – 15, yox – 6);

7. Mağazaya gedərkən alaçağınız ərzağın əvvəlcədən siyahısını tutursunuzmu? (hə – 20 xal, yox – 3);

8. Özünüzün "seçmə" yeməyiniz varmı? (hə – 15 xal,yox – 8);

9. Kulinariya kitablarından istifadə edirsinizmi? (hə – 12 xal, yox – 8);

10. Ev işlərində əriniz sizə kömək edirmi? (hə - 12 xal, yox – 6);

11. Mətbəxtdə cihaz və əşyalar həmişə rəflərə yığılmış haldadırmı? (hə – 25 xal, yox – 6);

12. Hesab edirsinizmi ki, soyuducu ev təsərrüfatında ən zəruri əşyadır? (hə – 24 xal, yox – 16);

Əgər xalların cəmi:

1. 155-ə qədərdirsə, onda evdar qadın öz vaxtını düzgün bölmür, yəni o, kifayət qədər yaxşı təsərrüfatçı deyil; 2) 155-dən 195-ə qədər olduqda evdar qadın zəhmətsevərdir və evdə hər bir əşya öz yerindədir; 3) 195-dən çoxdursa, evdar qadın lap yaxşıdır, yəni o, həmişə nə isə cləyir, yuyur, təmizləyir, yır-yığış edir və s. O, bilməlidir ki, ev işlərindən başqa teatr, kino, dostlar və s. də var.

"Sizdə artistliyə meyl varmı?" testi də mövcuddur.

1. "Ton" və "nüans" sözlərinin fərqi varmı?

2. Fərqinə varmadan darısqal və səliqəsiz mənzildə yaşaya bilərsinizmi?
3. Rəsm çəkməyi xoşlayırsınızmı?
4. Siz, şəxsi zövgünüzə, yoxsa modaya əsasən geyinirsiniz?
5. Aşağıdakı adlar Sizə bir şey deyirmi?: Mane, Van Deyk, Xose de Ribera, Falkone?
6. Yazınız çoxmu pisdir?
7. Çalışırsınızmı ki, geyiminiz bir rəngli olsun?
8. Muzeylərə getməyi xoşlayırsınızmı?
9. Qürub çağına baxarkən, xoşhal olursunuzmu?
10. Həndəsi fiqurlar çəkməyi sevirsinizmi?
11. Bədii salonlara tez-tezmi gedirsiniz?
12. Küçələrdə uzun müddət dolaşmağa meliniz çoxdurmu?
13. Təkliyi sevirsinizmi?
14. Kimsə şeir oxumağa başlayanda, bu Sizə mənasız görünmürmü?
15. Musiqini yalnız əylənmək xatirinəmi sevirsiniz?
16. Gözəl mənzərəni uzun müddət yadda saxlaya bilirsinizmi?
17. Dəniz daşları Sizə çoxmu gözəl görünür?
18. Yeni görüşləri və tanışlıqları sevirsinizmi?
19. Ucadan şeir oxumaq xoşunuza gəlirmi?
20. Otağınızdakı divar mənzərələrini silmək arzunuz olubmu?
21. Saçınızın formasını tez-tezmi dəyişirsiniz?
22. Mənzilinizdə mebelin yerini dəyişirsinizmi?
23. Mahnı bəstələmək üçün özünüzü sınamısınızmı?
24. Şeir yazırsınızmı?

**Cavablar:**

İndi Siz özünüz üçün hər cavaba bir xal hesabı ilə xalların sayını hesablaya bilərsiniz: "hə" cavabı bu suallar üçün: 1, 3, 4, 5, 7, 8, 9, 11, 12, 13, 16, 17, 19, 20, 21, 22, 23, 24; "yox" cavabı isə 2, 6, 10, 14, 15, 18 suallarına.

Əgər 16 xaldan artıq yığmısınızsa, onda tamamilə bir şey aydındır: heç şübhəsiz ki, Sizdə artistlərə məxsus olan gözəllik duyumu hissi var.



Tutaq ki, 8 – 16 xal yığmısınız. Nə eybi, Siz xəyalpərvərsiniz, ancaq gözəlliyə də biganə deyilsiniz; deməli, Siz rasionalistsiniz.

Qısaca desək, Siz həmişə ləzzətlə faydanın həmahəngliyini, birgəliyini duyursunuz.

4 xaldan az. Belə adamı yəgin ki, günəşin çıxması və batması ayaq saxlada bilməz.

**Fikirləşin.**

("Sobesednik" № 41, oktyabr,1986).

Qeyd etdiyimiz xasiyyəti qiymətləndirmə üsulları bilavasitə ölçülə bilən deyil və təbii ki, şərti xarakter daşıyır.

Psixanalitik tədqiqatlar aşağıdakı müddəanı təsdiq edir: İnsanın tələbləri rədd olunduqda o, əsəb xəstəliyinə düçar olur.

Əsas problemlərdən biri də – azadlıq refleksinin həyata keçirilməsidir. İnsanın azadlığı ətraf mühitin azadlığı ilə – maneələri dəf etmək səyi ilə müəyyən olunur.

Hegelin verdiyi tərif ibrətamizdir: "Azadlıq – dərk olunmuş zərurətdir". Marksist fəlsəfəsinə görə azadlığı məhdudlaşdırarkən müəyyən dərəcədə onun özünü qurban vermək lazım gəlir.

Bir vaxtlar Con Lokk qeyd etmişdi ki, insanın fəaliyyəti ilə arzuları nə dərəcədə uyğun gəlirsə, o qədər azaddır. Heç bir maneyə rast gəlmədən öz fərdi arzularının yerinə yetirilməsinə can atan adamı azad adlandırmaq olmaz. Belə halda adamı yanlış fikirlər, varlanmağa hərislik arzuları çulgaya bilər, odur ki, bu cür adam azad ola bilməz.

Cilovlana bilməyən hər cür arzunun məhdudlaşdırılması – azadlıqdır. "Məhdudiyyətin zəruriliyini dərk edən adam azaddır" (Prişvin M.).

Z.Freyd yazır: "... bəzən adamlar, həyatlarında çoxdankı və dərin kök salmış hər hansı arzusu yerinə yetən anda xəstələnirlər. Buna – "müvəffəqiyyət anında fəlakət" deyilir. Misal olaraq Şekspirin ledi Maqbetinin adı çəkilir.

Məqsədə nail olmaq həvəsi həyata bir sabitlik və səadət gətirir. "Yaşamaq üçün işləmək lazımdır, işləmək üçün yaşamaq yox" şüarı

olduqca inandırıcı səslənir. Ancaq bu fəlsəfə bəzən bədbəxtliyə də gətirə bilər.

Bəziləri özlərini mənəviyyatca müflisləşdirərək, aşağıdakı sadə həyat sxemini üstün tuturlar: maksimum – maddi və mənəvi rahatlıq, minimum - ətrafdakıların taleyi haqqında məsuliyyət.

F.Uqlov qeyd edir ki, içkiyə həvəskar adamın xasiyyəti dəyişir; o, eqosentrik və kobud olur, şit hərəkətlər edir, yumor hissini itirir; iradəsi zəifləyir, hafizəsi kütləşir, diqqəti və yaradıcılıq qabiliyyəti pozulur. Mənəviyyatında da böyük dəyişikliklər baş verir. Utanma, vicdan, qorxu hissləri kəskin dərəcədə itməyə başlayır.

Faust və Mefistofel münasibətlərinin yedəyində getmək yolverilməzdir:

"Sən, bu saatda bir il ərzində əlləşib tapa biləcəyindən daha çox şeyə nail ola bilərsən".

"Mənim evim – mənim qalamdır" – ingilis zərb – məsəli ilə razılaşmaq olmaz. Mühafizə qalasında insanlardan təcrid olunmaqda mənəvi rahatlıq və sülh əldə edə bilməzsən.

İngilislər belə də deyirlər: "Abadlıq adamın öz evindən başlayır".

Bəziləri fikirləşirlər ki, onlar arxadırlar, lakin fikirləşmirlər ki, onlar özləri arxalanırlar. Hər halda: "Xoşbəxt olmayan yaradıcılıq məqbuldur. Yaradıcılıqsız xoşbəxtlik yoxdur" (Lunaçarskı A.V.).

Əlbəttə, yaradıcılıqla bağlı xoşbəxtlik – idealdır (Doktor Faust haqqında yazanda Höte hesab edirdi ki, insanın xoşbəxtliyi xalqın rifahına xidmət edən yaradıcı əməkdədir).

Paraqrafın sonunda qeyd edək ki, adam "Homo sapiens"[1] olduğu kimi, "Homo Ludens"[2] və "Homo faber"[3] də olmalıdır.

Şübhəsiz ki, bunu dedikdə İsveçrə yazıçısı Maks Frişin "Homo faber" romanının qəhrəmanı nəzərdə tutulmur. Həmin qəhrəman nümunəvi işçi olmasına baxmayaraq heç bir insani keyfiyyətə malik deyildir.

[1] Homo sapiens – ağıllı adam.
[2] Homo Ludens – oynayan adam.
[3] Homo faber – işləyən adam.



## § 9. İRADƏ HAQQINDA

Qızıl – ocaqda,
Xalqın iradə və mərdliyi –
çətinliklərdə sınanır.
**(Vyetnam zərb – məsəli)**

Q.İ.Kortaşevski N.L.Lobaçevskiyə məktublarından birində yazmışdır: "Güclü iradə sahibi – parlaq amalına nail olmaq üçün yüksək əzmkarlıqla bütün manelərə qalib gəlmək məharətinə malik olan şəxsdir. Bu iradə keyfiyyətləri dərin, gizli şəkildə və ya az da olsa, demək olar ki, hamıda var, bunu inkişaf etdirmək lazımdır... Özünə inanmalısan, amma lovğalanmaq olmaz". Bernard Şou yazırdı: "İradə olmayan yerdə yol da yoxdur". Deyirlər ki, "İradəli adam istəyir, iradəsiz isə ancaq istəmək istəyir. Adam qorxanda tale onu çəkib aparmır, can atanda isə aparıb çatdırır".

Höte Hamleti belə səciyyələndirir: vicdani borcu başa düşüb iradə zəifliyi göstərmək – faciədir.

"Bir sözlə, peçorinlər savadsız, lakin iradəli, Rudinlər iradəsiz, lakin savadlı, Bazarovlar isə bilikli və iradəlidirlər: burda fikir və iş birləşib, vahid bir bütövlük təşkil edir (Pisarev D.İ.).

Kimsə demişdir: "Bir şeyi eləmək çətin deyil, çətin – özünü həmin şeyi eləmək üçün lazım olan vəziyyətə gətirməkdir".

Cerom K.Ceromun "Üç nəfər bir qayıqda" kitabında Cey belə mühakimə yürüdür: "Əlbəttə, fədakar adamlar çayyuxarı üzməyi üstün tuturlar. Hər dəfə axın istiqamətində üzmək elə bir iş deyil. Nə vaxt ki, əzələlərini qərib çayla döyüşə girirsən və onun əksinə istiqamət götürürsən, onda çox böyük məmnunluq hiss edirsən". Cey bu mübarizəni aparmağa hazır idi, bu şərtlə ki, avar çəkən başqaları olsun.

Elə həmin povestdə Pocer dayı işin bütün ağırlığını öz üzərinə götürür, icrasını isə başqalarına həvalə edir.

Ağlının ziyası yüz illərin arxasından bu günü və sonsuz gələcəyi nura qərq edən, böyük Nizami necə gözəl deyib:

Elə ki, böyüdün, belədir qayda,
Atanın adından sənə nə fayda?
Sən aslanlar kimi keç cəbhələrdən,
Yalnız hünərinin balası ol sən.
Öz adına layiq işlər gör ki, sən
Axırda utanma xəcalətindən.
Bir elmi öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palancı olsa da insan,
Yaxşıdır yarımçıq papaqşılıqdan.
Məndən söyləməkdir, səndən eşitmək,
Heç bir kəs əliboş gəzməsin gərək.

"İradə impulsu" anlayışına sənin bir anda cəmləşmiş həyat təcrübən və qəbul olunacaq qərarın bütün məsuliyyəti daxildir.

"İradə azadlığı, əslində, işi bilməklə qərar qəbul etmək deməkdir" (F.Engels).

Yaradıcı adamlar üçün iradə azadlığı, fikir azadlığı həmişə əzəli bir ehtiyac olmuşdur.

Gözəl şairimiz M.Muşfiqin qanadlı poeziyası, coşğun ilhamı, mətin iradəsi, dönməz əqidəli şeirləri dediklərimizə bənzərsiz bir misaldır:

Gözəldir bir uca əməl bəsləyib,
Bu əməl uğrunda qan-tərə batmaq.
Gözəldir günəşi, ayı səsləyib,
Onları da bizim dəstəyə qatmaq.
Dövranla əl-ələ vermək yaxşıdır,
Hər bağdan bir çiçək dərmək yaxşıdır.

Məlumdur ki, xasiyyəti üç amil formalaşdırır: irsiyyət, ictimai mühit və öz-özünü tərbiyə. Deyirlər ki, xasiyyət – tamamilə formalaşmış iradədir.

Azərbaycan xalqının görkəmli mütəfəkkir alimi Nəsrəddin Tusinin (1201 – 1274) yaradıcılığında xasiyyət, fəzilət, istedad, qabiliyyət və s. etik konsepsiyalar da mühim yer tutur. Bu deyilənlərin hansını və başqa əxlaqi kateqoriyaları Tusi, əxlaqi sərvət hesab edərək, heç birinin fitri olmadığını qeyd edirdi. O, deyirdi: "Əgər xasiyyət fitri olsaydı onda ağıllı adamlar öz uşaqlarının tərbiyəsi və cavanların əxlaqının saflaşdırılması, möhkəmləndirilməsi və adət şəklinə salınmasını məsləhət görməz, özləri də bununla məşğul olmazdılar".

Kibernetiklər iradəni həyati mübarizəni əks etdirən bir oyun anlayışı kimi təyin edirlər. Qədim romalılar deyirdilər: "Audases fortuna adyuvat" (audaces fortuna adyuvat – cəsurlara tale kömək edir).

İradi fəaliyyət ardıcıl olaraq məqsədi dərk etməkdən, ona nail olmağa can atmaqdan, imkanları və səbəbləri duymaqdan, onları möhkəmlədən və rədd edən amillərdən toplanır. Səbəblərin mübarizəsindən sonra həll seçilir. Səbəblərin tutuşdurulmasında ziddiyyətli hisslər keçirmək səciyyəvidir: "lazımdır – istəmirəm, istəyirəm – ancaq olmaz".

Patopsixologiyada psixi vəziyyət, iradəsizlik, fəaliyyətə həvəs düşkünlüyü iradənin patologiyasıdır və buna abuliya deyirlər (yun. abulia – qətiyyətsizlik). Zəifiradəllik – məqsədəuyğunluğun tərsidir, yəni zamanda tərbiyəsizliyin nəticəsi və yüksək niyyətlərin yoxluğudur. Zəif iradəlilər üçün özlərinin maraq dairələrini genişləndirmək faydalıdır. Çünki bu zaman aydın məqsəd və ona nail olmağa can atmaq həvəsi yaranır. J.J.Russo demişdir ki, uşağı pis tərbiyyə etməyin ən zərərli üsulu heç bir şeyi ondan əsirgəməməkdir.

Bir dəfə kimsə cah-calallı, təm-təraqlı yaşayış tərzini təriflədi, Antisfen dərhal qəzəbləndi: "Qoy bizim düşmənlərimizin uşaqları cah-calallı yaşasın".

"Həkimin gündəlik ibadəti" əsərində Maymonid yazır: "... İlahi, bütün hərəkətlərimdə və mühakimələrimdə məni qane et, yalnız təkcə bilikdə yox, çünki istəyirəm "bilik acı" olum, ondan doymayım... Mənə biliklərimi genişləndirmək üçün elə qüvvə, iradə və qabiliyyət ver ki, ağlım səhvlərimi tapsın və onları dərk etsin"..

Amerika şairi H.Lonqfello "Hayavat mahnısı" poemasında əsərin baş qəhrəmanı haqqında yazır:

Qayıqçı küräksiz dənizə çıxdı,*
Qanadlı fikriydi avarçı ona.
Bu tənha qayıqda sükan da yoxdu,
Mərd iradəsiydi əvəz sükana.
Küləyi də ötər, bu sürətlə o,
Hara desən gedər cəsarətlə o.

Şübhəsiz ki, bu poetik sətirləri, elmi fəaliyyət mənbəyi – biliyə can atmaq, əsas təkanverici qüvvəsi isə aydın və ciddi məqsəd olan bütün yaradıcı şəxslərə aid etmək olar. Yəgin ki, yaradıcı adamları, daxili "mən"inin bütün imkanlarını sərf etdiyi əsərlərindən ayrı təsəvvür etmək olmaz.

Yaradıcı şəxsin xarakteri adətən onun əsərlərində də özünü göstərir. S.S.Prokofyev öz müasirlərinə təmkinli, hətta bəzən "qapalı" adam kimi görünürdü. Lakin, onun "Odlu mələk" operasının musiqisi deyilənləri nəinki təsdiq etmir, həm də tamamilə əksini göstərir. Böyük maraq, emosionallıq və temperament bu operaya xas olan əsas keyfiyyətlərdir.

İnsanın iradəsinin onun ömür yollarında necə böyük xarüqələrin, qələbələrin əsas mənbəyi olduğu haqda çox misallar və ibrətamiz hekayələr sözləmək olar.

Ümumiyyətlə, insanın yaşamaq haqqı iradə, dözüm, mübarizə, vəziyyətdən baş çıxarma və s. şərtlərin kontekstində özünü doğruldur.

Plutarx yazmışdır: "Aslan dərisindən tikilmiş kürkə, bəzən tülkü dərisindən də yamaq vururlar".

Yaxud Qaysın Quliyevin yazdığı kimi: "Səbir, mənim dostum, silah olmayanda böyük silahdır".

Azərbaycan şeir kəhkəşanının ən parlaq və sönməyən ulduzu böyük Sabirin dediyi kimi:



Hansı bir müşküldü kim, səbr ilə asan olmasın?

Heç şübhə yoxdur ki, fürsət gözləmək, səbr etmək tez müvəffəq olmaq istəyənlərə də lazımdır. Çünki, bəzən qara yellər elə kükrəyir ki, ... onda məcbursan manevr edərək limana yan alıb gözləyəsən...

İ.A.Kassirskinin həkimlərə bir məsləhətini mühəndislərə də aid etmək istəyirəm: "Gənc həkim həyatda iki əsas imtahan verməli olur: birinci – müvəffəqiyyət qazananda, ikinci – müvəffəqiyyətsizliyə uğrayanda. Birincidə öz-özünü aldatma, ikincidə isə tamamilə ruhdan düşmə qorxusu var (mənəviyyatın kapitulyasiyası)". Bu sınaqlar özündə mərdaniliyin şərti həkim şəxsiyyətinin meyarıdır.

## § 10. DEFİNİSİYA
## (SÖZƏ, ANLAYIŞA VƏ S. TƏRİF VERİLMƏSİ)

"Hökmdar meymunu aslan adlandırmağı əmr edə bilər, ancaq o, meymunu aslan edə bilməz".

***Papa Qriqori V.***

Bununla bərabər, bununla belə...
Geyinsə zər-ziba, bürünsə tülə,
Bəzəsə döşünü ordenlər, lentlər...
Mənası varmıdır bunların məgər?
O ki, yaranışdan dümdüz dirəkdir.
Bu bəzək, bu görkəm nəyə gərəkdir?.
Kral general edər kimi istəsə,
Lakin edə bilməz heç vaxt, heç kəsi
Nə əmrlə, nə hökmlə "namuslu kişi".
Neyləmək? Belədir, dünyanın işi.*

***R. Byörns***

Sözün daha dəqiq mənaya malik olmasının zəruriliyini hələ Aristotel qeyd etmişdir: "çoxmənalılığa malik olmaq – heç bir mənaya malik olmamaq deməkdir. əgər sözün (müəyyən) mənası yox-

dursa, onda bir-birimizlə, həqiqətdə isə öz-özümüzlə mübahisə etməyə bütün imkanlar itir".

Məlumdur ki, dəqiq terminologiya (claritas definitons) elmin səviyyəsini xarakterizə edir və şübhəsiz qarşılıqlı anlaşma üçün də zəruridir.

XVIII əsrin ikinci yarısında kimyanın inkişafı dayandı. Bunun əsas səbəblərindən biri elmi işlərdəki tərif və anlayışların dolaşıqlığı idi.

Terminlərinin dəqiqliyi, aydınlığı və uyğunluğu ilə kimya Lavuazyeyə borcludur.

Aydındır ki, əvvəllər başqa tədqiqatçılar tərəfindən qeyd olunmamış, prinsipcə yeni bir şey aşkar etməzdən əvvəl anlayışlar aparatı yaratmaq lazımdır.

Fizika nəzəriyyəsi, istinad etdiyi anlayışların təyin olunmasında əsas rol oynayır. Bununla əlaqədar dediklərimizi aydınlaşdırmaq üçün bir məzəli əhvalatı xatırlayaq. Astronom ekskursiyaçılara Veneranın fazalarını göstərərək Kepler qanunlarını izah edirdi. Iştirakçılardan biri dedi: "Siz çox yaxşı izah etdiniz, mən hamısını başa düşdüm, ancaq hardan bilirsiniz ki, o planetin adı Veneradır".

Hardan bilək ki, o planetin adı həqiqətən Veneradır? Ancaq onu bir adla adlandırmaq mütləq lazımdır. Uzunluq nə deməkdir? hardan bilək? Ancaq uzunluğu ölçmək və bilmək lazımdır. Burda bir şeyə diqqət yetirmək vacibdir: belə ki, Veneranı istədiyiniz kimi, odlandıra bilərsiniz. İstədiyiniz kimi, lakin hər cür adla yox. Məsələn C.Verdinin "Traviata" operası xoşunuza gəlir deyə, qızınıza və nəvənizə bu adı vermək yaramaz, çünki Traviata tərcümədə düşkün qadın mənasını verir.

Uzunluğun təyin edilməsi də ixtiyari surətdə olmamalıdır, çünki bu da məlum tələblərə uyğun gəlməlidir.

Qıza bəzən Yaroslavna adı qoyurlar. Bilirsiniz ki, bu ad "İqor polki haqqında dastan"dan götürülmüşdür. Lakin həmin dastanda Yaroslavna knyaz İqorun arvadı Yevfrosinyanın öz adı deyil, atasının adıdır.

Azərbaycanda familiyalarla adlanan şəxs adlarına da rast gəlirik, məsələn Telman, Şmidt, Taleyran və s.



"RSFSR xalqlarında şəxs adları" göstərici ("Russkıy yazık" nəşriyyatı, 1979), A. V. Suslova ilə A.V.Superonskayanın "Rus adları haqqında" və L.Uspenskinin "Sözlər haqqında söz. Sən və sənin adın" (Leninqrad, 1962) kitabları vardır. Azərbaycan dilində də azərbaycanlı adlarına dair kitablar çap olunubdur.

N.A.Baskakov "Türk mənşəli rus familiyaları" ("Nauka" nəşriyyatı, M.,1979) adlı olduqca maraqlı bir monoqrafiya nəşr etdirmişdir.

Bu monoqrafiyada slavyan və turk dillərinin qarşılıqlı təsiri ətraflı tədqiq olunur və göstərilir ki, "...ruslarda həddən çox türk mənşəyi familiyalar mövcuddur". ...(məsələn, Bulqakov, Talızin, Uşakov, Korsakov, Meşşerski, Şeremetyev, Suvorov, Saltıkov, Qolenişşev – Kutuzov, Davıdov, Baxmetov, Narışkin, Arakçeyev, Şişkin, Qoçubey, Kozlov, Şamşev, Aksakov, Turgenev, Qorçakov, Oqaryov, Buxarin, Çaqin, Kutepov, Tyutçev, Çebotaryov, Tuxaçevski, Tanayev, Timiryazev, Kurdümov, Şimanovski, Çaadayev, Baskakov, Piroqov və s.).

Braziliyada bəzən heyrətli adam adlarına rast gəlmək olur. Məsələn, Atlantik okeanı...

Ekvadorun Manta qəsəbəsində bir çox ailələr öz uşaqlarının adlarını coğrafiya xəritələrindən götürürlər (yəni şay, dağ, şəhər və s. adlar).

Maraqlı bir əhvalat tezliklə hər tərəfə yayılmışdır: oğlan uşağına Postskriptum (latınca, yazılandan sonra – yazılıb qurtarmış və ya *imzalanmış* məktuba əlavə) adı qoymuşlar. Yerli hakimiyyət orqanları isə bu uşağa bu mənasız adın qoyulmasına icazə verməmişdir.

İngiltərə kralıçası, Uinston Çörçillə hersoq rütbəsi təklif edəndə o, bunu qəbul etmir, çünki, qaydaya görə, onda gərək familiyasını Marlboro hersoqluğunun adına uyğun olaraq dəyişdirəydi. Çörçillin bu cür hərəkəti öz əsil-zatına hörmətin bariz nümunəsidir.

İnsanın adında həyatda etdiyi bütün əməllər – yaxşı da, pis də, hətta hansı cinsə mənsubiyyəti də ifadə olunur. A.Lipkin və M.Yaroşevskinin bir məqaləsində ("Znaniye – sila", № 12,1984) qeyd olunur ki, kişilərdən və qadınlardan ibarət 600 nəfərin öz

adlarına münasibətləri haqqında sorğu aparılmışdır. Soruşulanların yarıdan çoxu öz adlarından razı olmamışlar. Narazı olanlara başqa adlarla müraciət, onlarda heyrət və inciklik hissi oyatmışdır.

1460 qadın arasında aparılmış sorğu zamanı məlum olmuşdur ki, onların 80 faizi yetkinlik çağında oğlan doğulmaq istəmişlər. Buna baxmayaraq, onlara kişi kimi müraciət etdikdə 40 – 55 yaşlı qadınlar incimiş, 20 – 35 yaşlılar təəccüblənmiş, 7 – 13 yaşında olan qızlar isə həyəcanlanmışlar.

Bir də görürsən ki, bir məfhum və ya ad, söz oyunu sayaq başqa məfhumla və ya adla dəyişdirilir. Buna bənzər bir izahat hələ XVII əsrdə Molyerin "Yalançı xəstə" əsərində verilmişdir. Əsərin bir yerində qeyd olunur ki, tiryəkin yatırdıcı təsiri onun yuxugətirmə (soporifik, Sopor – lat. – yuxu) xassəsi ilə əlaqədardır. "İzahat"da nəyi izah eləmək təkrar olunur.

Məfhumu bəsit şəkildə dəyişdirmək olmaz. Belə ki, əvvəlcədən məlum olan yalan nöqteyi-nəzərdən və ya böhtan rəy hesab oluna bilməz.

Bəzən incəsənət məharətlə dolaşıq salınır; düzdür, incəsənətdə məharət sənət əsərinin qayəsini təşkil edir. Unutmaq olmaz ki, mahir olmayan incəsənət və onun əksi də mövcuddur.

Təsviri sənətdə məharət, sənətkarın işlətdiyi materialın, incəsənət isə sənətkarın özünün imkanı ilə müəyyən olunur.

Qədim Yunanıstanda mübahisə aparmaq üçün həmsöhbətlər gərək qəti qənaətə gələydilər ki, bir-birlərini düzgün başa düşmüşlər. Bu qaydaya əməl etməməklə biz Q.Floberin bir məşhur kəlamını təsdiq edirik: mübahisə eləmək, başa düşməkdən çox asandır.

Belə bir tərif mövcuddur: pessimist (bədbin) – hərtərəfli məlumata malik optimistdir (nikbin). Başqa cür də tərif məlumdur: pessimist adam hər bir məsələdə çətinlik, optimist isə hər bir çətinlikdə məsələ görür. Burdan görünür ki, birinci tərif pessimistin xoşuna gəlir, ikinci tərif isə onda ikrah hissi doğurur. Volter təsdiq edir ki, optimizm elə bir iddiadır ki, onun təsiri altında adam deyir ki, hər şey yaxşıdır, əladır, əslində isə hər şey pisdir.

Qeyd edək ki, teatr – yunan dilində "tamaşa" deməkdir, ancaq



müasır tamaşaçılar, səhnədə cərəyan edən hadisələrin sadəcə seyrcisi deyil, həmin hadisələrin iştirakçısı, aktiyorlarınsa ilhamvericisidirlər. Teatr, səhnə - tamaşaçı emosiyasının seysmoqrafıdır. Bütün bunlardan əlavə teatr bizdə empatiya (başqasının emosional vəziyyətini başa düşmək) hissini inkişaf etdirir və Aristotelin qeyd etdiyi kimi, katarsisə (yun. Katarsis – təmizlənmə) kömək edir.

Tamaşada əsl səhnə hərəkəti zəruridir. Stanislavski bu haqda yazır: "... halbuki, xarici təsir kimi səhnədə hərəkət əyləndirir, fikri məşğul edir və ya əsəbləri oyadır, daxilən tərpədir, könlümüzü ələ alır və ona hakim olur".

Xatırlayaq ki, "pessimizm" (lat. – pessimus – lap pis) sözü ilk dəfə 1819-cu ildə A.Şopenhauer tərəfindən işlədilmişdir və belə başa düşülürdü ki, dünyada "xeyir"lə daha çox təmasda olmaq istəyənlərin nəzərində "şər"in miqdarı daha çoxdur. Bu cür təriflə razılaşsaq, onda pessimistlərə görə "xeyir" nə isə xülyardır, zahiri bir əlamətdir.

İnsan xarakterinin başqa bir cəhəti olan şöhrətpərəstlik haqqında da bir neçə kəlmə demək olar.

Şöhrətə can atmaq, ona qovuşmaq bütün insanların əzəli arzularındandır. Ancaq əsl şöhrət böyük ağıl və zəka sahiblərinin, genişürəklilərin qazandıqları xalq məhəbbətidir. Həyatda necə olur-olsun, nəyin bahasına başa gəlir-gəlsin deyə hər dövrün özündə yetişən mənsəbpərəstlərin qalxdığı "zirvə", şöhrət zirvəsi deyil. Böyük Nizami bu haqda belə deyir:

İlantək dikbaşlı gəzmə, ay insan.
Aşacaq dünyanın seli başından.
Yeddi başın olsa əjdahalartək,
Onun yeddisi də bir gün düşəcək.
Çox da yüksəkliyə ucalma ki, sən
Torpağa düşəndə inciməyəsən...

**"Leyli və Məcnun"dan**

Fransız yazıçısı Lui Sebastyan Marsye qeyd edir ki, iki növ şöhrətpərəstlik var – həmişə görünən saat əqrəbinin şöhrətpərəstliyi,

bir də bu əqrədi hərəkətə gətirən balaca çarxın şöhrətpərəstliyi.

Erudusiya anlayışına Türqonun verdiyi tərifə və onun zəkadan[1] fərqinə diqqət yetirək.

"Afinada Aristotel "fəlsəfəyə təhlil məşəlini birinci gətirdi", İskəndəriyyədə isə ticarətin və sənətkarlığın inkişafı sayəsində, əvvəllər yunanlara az tanış olan erudisiya, çox parlaq şəkildə çiçəklənməyə başladı. Bu elm sahəsi əşyalardan çox, kitablarla məşğul olur; yaratmaq və kəşf etməkdən çox toplamağa, kəşf olunmuşları müqayisə və ya mühakimə etməyə səy göstərir; irəli getmir, geriyə baxır, keçdiyi yola nəzər salmaq üçün biliklərin müqayisəsi və bu biliklərin bütün dolğunluğu ilə təqdim olunması üçün ardıcıl yerləşdirilməsini təmin etməklə məşğul olur".

Bəzi adamlar, F. Engelsin yazdığı kimi, "Öz sakit və maraqsız həyatlarında" da özlərini yaxşı hiss edə bilərlər (Marks K., Engels F. Soç. t. 2, s.245).

Qeyd etdiklərimiz, "yaxşı yaşamaq" anlayışını dəqiq təyin etmək üçün lazımdır. Bu anlayışı bütövlükdə yüksək məvacib almaqla, böyük gəlirlə və istədiyin qədər pul xərcləməklə əlaqələndirmək düzgün olmazdı. Əlbəttə, maddi cəhət mühüm amildir, amma bu, insan həyatının məzmununu təşkil eləmir. Tərbiyənin bütün imkanlarından istifadə edərək mənəvi sərvətləri zənginləşdirmək lazımdır.

Müxtəlif adların, məfhumların mənası zaman keçdikcə dəyişə bilər. Məsələn, XIII yüzilliyin axırlarında fırzansız qəsbkarlarına qarşı döyüşə çağıran şüardakı beş sözün baş hərflərindən kasıbların mənafeyini müdafiə edən gizli təşkilatın adı – MAFİYA yaranmışdır.

Bu gün "mafiya" cinayətkar təşkilat sistemlərinə deyilir.

Başqa bir misal. Vörtep (ilk mənası – mağara) qədim Ukraynada, Belarusiyada səyyar xalq kukla teatrıdır. Vaxtilə ifşaedici komediyalar, satiralar ruhanilərin ikiüzlülüyünü və əxlaqsızlığını açıb

[1] Zəka, dühа – (lat. – genus) nəsil deməkdir və nəslin, ümumi olanın daşıyıcısı mənasında işlənir.



göstərən tamaşalar vermişdir. Buna görə də əyanların və ruhanilərin təqibinə məruz qalmışdır. Axırda iş o yerə çatmışdır ki, bu xalq sözü əxlaqsızlıq yuvası kimi pis məna kəsb etmişdir.

"Emiqrant" sözü ilə ilk əvvəl fransız inqilabından sonra ölkədən qovulmuş aristokratiyanı adlandırmışlar. Deməli, bu söz öz xalqı tərəfindən qovulan xalqın nümayəndələrinə aid edilmişdir.

"Pank" sözü XVI yüzillikdə İngiltərədə meydana gəlmişdir. İsim kimi "küçə qızı" mənasını, sifət kimi isə "gərəksiz, boş, pis" mənalarını verir. Belə bir mənası da var – "çürüntü".

"Yeni pank" hazırda "təmiz irq" və "güclü şəxsiyyət" ideyaları altında çıxış edir. Bəzi müasir qərb rokqrupları özlərinə belə adlar seçmişlər: "Qəhvəyi zərbə briqadaları", "Üçüncü reyx", "Breslau" və s.

Budur, bəzi gənclər qəribə görünmək, seçilmək üçün özlərindən saçqoyma forması "icad" edirlər - "a-lya-pank". Moskvanın Qorki küçəsində cod yundan toxunmuş və çiyinlərinə qədər doğranılmış paltar geyib, saçlarını iki rəngə boyamış, burunlarında sancaq, boyunlarında ülküc gəzdirən "pank-qızlar"a rast gəlmək olur.

Bunlar adətən işsiz, avara gənclərdir ("Sovetskaya Rossiya", 15.08.1986).

Yaxın vaxtlara qədər fransız dilində "füsünkar", "cazibəli" mənasını verən "nüfuz" (prestij, sözünün etimologiyasına[1] diqqət yetirək. Bu söz öz mənşəyini "xülya", "aldadıcı hiss" mənasını verən latın dilindəki "prestiqium" ifadəsindən götürür (sirkdə "gözbağlayıcı"). Beləliklə, "aldadıcı hiss" cazibə, "cazibə" isə "nüfuz" sözü şəklinə düşmüşdür.

Maraqlıdır ki, XI yüzillikdən üzü bəri rus dilində işlədilən "vraç" sözü, filoloqların dediklərinə görə mənşəyini "vrat" sözündən götürür ki, bu da qədimdə "lqat" (aldatmaq) yox, sadəcə olaraq "danışmaq" (qovorit) mənasını verirdi. Başqa sözlə desək, həkim "baş qatmağı", "dilə tutmağı", "ovsunlamağı" bacaran, xəstələrə sözün gücü ilə təsir edə bilən adamlara deyirdilər. Qədim Yuna-

[1] Etimologiya – dilşünaslıqda, müxtəlif dillərdə sözlərin mənşəyini öyrənən sahə.

nıstanda "təhsilsiz" ifadəsi "xorda oxuya bilməyən adam" anlamına uyğun gələn "axoretus" sözündən almışdır. Zaman, bu sözün də məzmununu dəyişmişdir, ancaq onun mənşəyini unutmaq olmaz.

Belə bir fikir mövcuddur ki, yalnız əyləndirici musiqiyə aludə olan adam, başqa sahələrdə özünü ciddi şəkildə göstərə bilməz.

Görün, XVI yüzillikdə İtaliyada yaşamış Cozeffo Sarlino nə yazır: "Kim ki, gəncliyində daha lazımlı şeyləri öyrənməyi atıb... müxtəlif və lüzumsuz oyunlar öyrədən məktəblərə, rəqs və mahnılara davam edir, ud və lira çalaraq ədəbsiz mahnılar oxuyur, bax beləlləri ərköyündürlər, arvadsifətdirlər və heç bir mənəvi bünövrəyə söykənmirlər. Ona görə də bu cür ifa olunan musiqi, gəncləri ədəbsiz edir. Bəziləri isə – əksinə, bu cür musiqi təlimindən nəinki arvadsifət və ərköyün, hətta zəhlətökən, lovğa və iyrənc, inadkar və qeyri-insani olurlar. Elə ki, görürlər müəyyən bilik əldə ediblər, dərhal özlərini başqalarından üstün tutub öyünməyə başlayır, lovğalanır, həm də başqalarından daha bilikli və müdrik görünmək üçün, hamını biabır edirlər. Baxmayaraq ki, onlar nadan və avamdır, dünyada tayı-bərabəri olmayan adamlar kimi özlərini çox yekəxana və məğrur aparırlar...

Belələrinə yaxşı olardı ki, valideyinləri mümkün qədər tez, hər hansı bir sənət öyrətsinlər, onda ola bilsin ki, onlar aldanmazlar, daha ədəbli olarlar".

Bir neçə elmi rütbələrin və idarələrin xidmət personallarının adalarının izahını verək.

Professor (lat. – professor – müəllim – profiteor sözündən – söyləmək, mühazirə oxumaq), dosent (lat. – docens hərfi mənası öyrədən), aspirant (lat. – aspirans – cəhd edən, can atan), laborant (lat. Laborans – işləyən, çalışan), lektor (lat. lector – qiraətci), auditoriya (lat – auditorium (lat – dinləmə zalı və dinləyicilər dəstəsi), – student – studens – ciddi-cəhdlə çalışan).

Ədəbiyyatlarda qeyd edilir ki, siyasətçilər ən çətin vəziyyətlərdə belə çürbəcür kələk və fənd işlədib çıxış yolu tapmaqla, "heç nəyi" "bir şeyə" və "bir şeyi" "heç nəyə" çevirmək üçün mövcuddurlar.



Jül Kambonun qeyd etdiyi kimi, siyasətdə də tətbiqi mexanikada olduğu kimi, bütün qüvvələrin təsirini hesablayanda müqavimət qüvvəsinin də təsirini nəzərə almaq lazımdır. Bir sıra deyilməmiş mülahizələr var ki, (mənlik hissi, ənənəvi xürafat və s.) onlar danışıqların nəticəsinə təsir edir. Bismark 1873-cü ildə Prussiya landtaqında demişdir: "Əgər siz bazardan at almaq istəyirsinizsə, hansı qiyməti verməyə razı olduğunuzu əvvəlcədən car çəkib deməyəcəksiniz, əksinə əgər atınızı başdan eləyib satmaq istəyirsinizsə, heç vaxt onu ən aşağı qiymətlə neçəyə salmağa razı olduğunuzu bildirməyəcəksiniz". Diplomatiyada bu sadə müdrikliyə riayət olunmalıdır.

Ümumiyyətlə, diplomatiyanın klassik tərifi belədir: diplomatiya – bilik və məharətlə öz ölkəsini təmsil etmək və danışıqlar aparmaq bacarığıdır.

İngilis diplomatiyasında ağırlıq həmişə məharətin üstünə düşür.

1728-ci ildə Volterin "İngiltərə haqqında məktublar"ında yazdıqları müasir həqiqətlərə uyğun gəlmir: "İngilislər yer üzündə yeganə millətdir ki, kralın hakimiyyətini onun özünə müqavimət göstərərək nizama sala bildi. Nəticədə elə müdrik hökümət təşkil olundu ki, burada monarx xeyirxahlıq eləməyə qadir, ziyankarlıq eləməyə isə gücsüz idi".

Yəgin ki, aşağıdakı zərb-məsəl mənasını itirmişdir: Çinin məhəbbəti nifrətindən təhlükəlidir və çinlilər "aşkar itaətdə və gizli müqavimətdə" ustadırlar.

F.M.Dostoyevskinin bir mülahizəsini gətirək: "...Avropalıya başqa bir Avropa xalqının dilini öyrətmək həmişə asandır... nəinki rus dilini... deməli, həqiqətən bədii olan hər şey, mənim fikrimcə, Avropa üçün tanınmazdır".

Konkret və mücərrəd təfəkkür haqqında bir əhvalatı yada salaq: konkret təfəkkürə malik adama sual verilir: üç vurulsun beş nəyə bərabərdir? Belə hallarda adətən bu cür olur – 3 nədir və 5 nədir? Əgər, izahat versən ki, hər birinin qiyməti üş manata olan 5 kitab alınmışdır, onda 5 kitab neçəyədir sualına dərhal – 15 manat cavabı veriləcəkdir.

Rəqəmləri əşyalaşdırdıqda bu tip adamlar daha böyük rəqəmləri fikirlərində vurub, toplayırlar və s.

Hazırda yer üzündə elə qəbilələr var ki, onların dilində "3 kitab" və "3 manat" ifadələrindəki konkret rəqəm müxtəlif şəkildə səslənir. Bu cür qəbilələrin adamaları konkret hesablamadan ədəd anlayışını mücərrədləşdirə bilmirlər. Təbiidir ki, həmin qəbilələr dəqiq elmlərin nəinki yaradılmasında, heç əsas anlayışlarında da müvəffəqiyyət qazana bilməzlər.

Ancaq istisnasız qayda yoxdur. Belə ki, yapon dilində kitab – xon, manat – ruburu, alma – rinqo adlanır. Buna əsasən: üç kitab – sansanu no xon, üç manat – san ruburu, üç alma – mittsu no rinqu kimi ifadə olunur. Yaponiya, 60-cı illərin sonundan başlayaraq, əhalinin mütləq sayından elmi kadrların miqdarının artım sürətinə görə kapitalizm dünyasında, ABŞ-dan sonra ikinci yerə çıxdı və elmi işçilərinin sayı İngiltərə, Fransa, AFR-in elmi işçilərinin bir yerdə sayından çox oldu.

Beynəlxalq münasibətlərdə Paskalın bəşəri ədalət haqqında mühakiməsi bu gün necə də pessimist səslənir: "Ədalət həmişə mübahisə mövzusudur. Gücü, zoru tez bilmək olur; bu, şübhəsizdir. Bəs niyə ədalətlini güclü, güclünü isə ədalətli etmək mümkün olmasın". Unutmaq lazım deyil ki: "Güc – vəhşilərin qanunudur" (Siseron).

Eyni zamanda Platonun Sirakuz hakimi Dionisiy Kiçiyə verdiyi məsləhətlər indi də öz əhəmiyyətini itirməmişdir:

1. Özün öz üzərində hökmran ol;
2. Yaxşılığa can atanda səninlə həmrəy olan dostlar tap;
3. Ağıllı və dərrakəli adam ol.

Dionisiy Kiçik filosofun məsləhətlərinin əksinə hökmranlıq etməyə başladı və axırda onu yıxdılar.

Başqa bir misal.

Şopenhauerin qumar oyunu haqqında mülahizələri də maraqlıdır. "Məişət müdrikliyi aforizmləri" kitabında deyilir: "Çoxları nefdə (qumar oynunda)... kübar və işgüzar həyata hazırlıq əlamətləri görür. Çünki, bu oyun, mümkün qədər çox şans əldə etmək məqsədi



ilə yaranmış və oyun şəraitindən ağılla istifadə etməyi öyrədir. Bu məqsədi nəzərdə tutaraq, adam özündə "dözüm" hissi inkişaf etdirir və bu pis oyunda şən görkəmdə qalmağı öyrənir. Digər tərəfdən, qumar oyunu əxlaqi pozğunluq təsiri aşılayır. Oyunun mənası ondan ibarətdir ki, necə olursa-olsun biri o birisini soysun, nəyi var əlindən alsın. Oyunçular, necə deyərlər udmaq xatirinə qanunun yol verdiyi bütün vasitələrdən istifadə edirlər".

Uşaqlarda təfəkkürü inkişaf etdirmək üçün İsrailin təhsil və mədəniyyət nazirliyi məktəblərdə gənc qumarbazlar klubları təşkil etməyi və bu oyun üzrə çempionatlar keçirməyi təklif edir ("Za rubejom", № 48.1987-ci il).

Dərin əsaslandırılmış bir çox adətlər, düzgün tətbiq edilmədikləri üçün özlərinə qarşı mənfi münasibət yaradırlar. Məsələn, dağlıq yerlərdə yaşayan əhalinin məişətində belə bir mənzərə müşahidə olunur: dağ yollarında silahlı kişi qabaqda, çoxlu yük götürmüş arvad isə arxada gedir. Bu ona görədir ki, dağ yollarında tez-tez təhlükə baş verdiyindən gərək kişinin əli boş olsun ki, baş verəcək təhlükəni sovuşdurmaq mümkün olsun.

Adamlar pilləkənlərdən düşdükdə, təbiidir ki, kişilər qabaqda düşməlidir. Əgər bu qaydanı "düzəngah" şəraitinə "köçürsən", məsələn, küçə gəzintisi şəraitinə - onda bu xoşa gəlməyən ümumiləşdirmə olar və təbii ki, mənfi təsir bağışlayar.

Müəyyən şəraitdə ibtidai insanlar arasında mövcud olmuş "bərabər bölgü" prinsipinə riayət etmək lazımdır. Belə ki, bəzi qonaqlıqlarda, necə deyərlər, "ən yaxşı tikəni" şefə, yerdə qalanları isə başqa qonaqlara yedizdirmək adətini necə başa düşmək olar? Eyni zamanda ibtidai insanlar bu prinsipin həyata keçirilməsində bəzən həddən artıq səy göstərirdilər.

Ç. Darvin Odlu Torpaqda yaşayan bir qəbilənin həyat tərzini təsvir edərək yazır ki, Odlu Torpağın sakinlərinə bir dəfə rəsm çəkilmiş bir parça kətan bağışlayırlar. Onlar, bu kətanı tam bərabər hissələrə bölüb öz aralarında paylaşdırırlar.

K. Marks, İohann Filipp Bekkerə məktubunda (1862) yazır: "Qədim alimlərdən biri – gərək ki, Esxil yazır: Böyük ciddi-cəhdlə

özün üçün dünya nemətləri əldə etmək lazımdır ki, ehtiyacı olan dostlarına kömək edə biləsən. Görün bu sözlərdə necə yüksək insani müdriklik var"[1].

Yazıldığı şərait nəzərə alınmadıqda Marksın dedikləri sadəcə olaraq "dünya nemətləri", yəni sərvət toplamaq aludəçiliyinə çevrilə bilər.

"Sərvət ona malik olmaq deyil, ondan məqsədəuyğun şəkildə istifadə etməkdədir" (M.Servantes).

İnsanın, sözün əsl mənasında insana məxsus itkilərinin müqayisəli ifadəsini İ.V.Höte aşağıdakı şəkildə verir:

Pul itirmisənsə – az itirmisən,
Vicdan itirmisənsə – çox itirmisən,
Qeyrəti itirmisənsə – hər şeyi itirmisən.

Dənizçilər arasında belə bir kəlam əzəldən bəri söylənməkdədir: axırıncı itirəcəyin şey – ümiddir. Deyirlər ki, insan ümidini itirdikdən sonra ölür.

Siseronun fikrincə: obscoenum est dicere, facere non (danışmaq biabırçılıqdır, eləmək biabırçılıq deyil), Tolstoyun "məşhur doktor"u təsdiq edir ki, utancaqlıq – vəhşiliyin qalığıdır. Təbii ki, universal olmasa da, bunu şəxsi həyatda, təbabətdə və s. tətbiq etmək olar.

A.Qolitsının qeyd etdiyi kimi, adın düzgün seçilməsi incəsənət əsərlərinin qavranılmasında böyük əhəmiyyətə malikdir. Məlumdur ki, Rodenin "Tunc əsr"i üçün əvvəlcə "Yaralı əsgər" adı nəzərdə tutulmuşdu, lakin sonralar dostunun məsləhəti ilə Roden əsgərin sol əlindəki mizraqı götürüb, əsərə insanın oyanma ideyasını əks etdirən "Tunc əsr" adı verdi. Bu ideyaya, heykəl bilavasitə uyğun gəlir ki, bu da əsərə təkrarsızlıq və dərinlik ruhu aşılayır.

Təəssüf ki, bəzən rəssam, bəstəkar, heykəltaraş və ya yazıçı əsərin adına diqqət yetirməyərək, bir fikri iki dildə ifadə edir.

Bethovenin 8-ci sonatası – "Ay sonatası"nın adı dinləyicilərin

[1] K. Marks., F. Engels. Əsərləri, cild 30, s. 470.



hissinə müəyyən istiqamət verir. N.Rerix, M.Cyurlyonis əsərlərinin bütün dərinliyi ilə dərk olunması üçün sözdən bacarıqla istifadə etmişlər.

Yeni ideya və prinsiplər özlərindən qabaqkıların davamı olduğuna görə ancaq həmin bilik sistemlərinin anlayış və koteqoriyaları ilə ifadə oluna bilərlər, çünki, ona uyğun yeni anlayış və əməliyyatlar hələ işlənib hazırlanmamışdır. Mövcud və hələ formalaşmamış elmi dil isə onların uyğun ifadəsini verə bilməz. Bax, elə buna görə də elmi fərziyyə, yeni prinsipin daha dolğun və dəqiq təsvirini vermək üçün təbii dilə, bədii ədəbiyyat dilinin müxtəlif çalarlarına müraciət edir. Sonralar fərziyyə empirik məlumatlarla, elmi metodlarla zənginləşdikcə, o məlumat artıqlığından, estetik yozumlardan təmizlənir və elmi nəzəriyyə forması olan elmi konsepsiya səviyyəsinə keçir.

Köhnəni, yəni indiyə qədər məlum olanları tamamilə bilmək yenini dərk etməyin əsasıdır. Dediyimizi aydınlaşdırmaq üçün P.S.Erenfestin bir mülahizəsinə diqqət yetirək: "Həm Eynşteyn, həm də Bor klassik fizikanı olduqca dərindən bilirlər: klassik fizika, necə deyərlər, tamamilə onların varlığına hopmuşdur. Onlar klassik fizikanı bilir, sevir və duyurlar, bunu adi fizik edə bilməz. Onlar yenini yalnız yeni olduğuna görə qəbil etməyə o qədər də hazır deyillər. Klassik fizika binasının hər bir kərpicinə, klassik izahlara elə ehtiyatla yanaşırlar ki, bu mənada onları yalnız mühafizəkar adlandırmaq olar.

Ancaq onlar üçün yeni şeylər zərurətdir, ona görə ki, köhnəni dərindən bilirlər və yeninin köhnə, klassik üsulla izahatının qeyri-mümkünlüyünü açıq-aşkar görürlər. Qədim yunanlarda yenilik axtarışı problemi aşağıdakı paradoks şəklində ifadə olunmuşdur: Bizə məlum olmayanı necə axtarmalı; əgər axtarılan məlumdursa, onda bəs nəyi axtarmalı?

Təbiidir ki, müasir əsəri klassik əsər kimi, klassik əsəri isə müasir əsər kimi təqdim etmək lazımdır.

Yeninin kəşfinə və dərk olunmasına aid belə əhvalat var. Bir fizika alimi söhbət əsnasında başqa bir fizika aliminə kvant

mexanikasının əsas tənliklərini – Şredinger tənlikələrini, hələ Şredingerdən qabaq kəşf etdiyini, lakin nəticəni çox da vacib, mühüm saymağına görə dərc etdirmədiyini söyləyir . O biri fizika alimi cavab verir: – Şredinger tənliklərini kəşf edə bilmək eyib deyil, lakin kəşf edib başa düşməmək həqiqətən eyibdir.

Məlumdur ki, atalar və oğullar bir-birlərini pis başa düşürlər, nəinki babalar və nənələr. Əgər nəsillərin dəyişməsi tarixən münaqişəlidirsə, onda nəsillərin, necə deyərlər, bir-birinin başı üstündən adlayaraq qarşılıqlı anlaşmaya nail olması nəinki ailədə, həm də mədəniyyətdə, elmdə göz qabağındadır.

Kozma Prutkov demişdir: "Çox şeyin bizə aydın olmaması düşüncəmizin zəifliyindən deyil, ona görədir ki, həmin şeylər bizim dərketmə dairəmizdən deyil".

Hripenkerlin aşağıdakı mülahizəsi də dediklərimizə uyğun gəlir: "Məgər, Baxın əsərlərinin guya başa düşülməməsində günahkar yalnız həmin əsərlərdir? Bəlkə elə günah qabaqcadan yalnız qənaətə malik və zövqsüz auditoriyanın özündədir?" Ağlımıza və həyati vərdişlərimizə uyğun gəlməyənlər heç də qeyri-mümkün olanlar deyil, bunlar ancaq bizim ağlımızın kəsə biləcəyi şəkildə görünməyənlərdir. Bu deyilənlər ona görə baş verir ki, bu cür şeylərə təsadüf eməmişik. Gələcəyin kəşfləri bugünkü yaşayışımızın hər addımında böyüyür – başımızda bizimlə yanbayandırlar; onları görmək məharətinə malik olmaq hamıya müyəssər olan səadət deyil.

Burjuaziya siyasətində – Wish – full – thinking (ink. – Wunschgedanken (alman.) – həqiqəti olduğu kimi yox, istədiyi kimi görməyə can atmaq – cərəyanı müvcuddur.

Müəyyən şərt və şərait üçün bəzi anlayışları dəqiqləşdirmək, ardıcıl olaraq seçmə əməliyyatı tələb edir. Təsdiq üçün L.N.Tolstoyun Puşkin haqqında fikrinə diqqət verək. O, yazır: "Mən "Kapitan qızı"nı oxudum – əfsuslar olsun, – etiraf edirəm ki, Puşkinin nəsri köhnəlib. Öz üsulu ilə yox, ifadə tərzi ilə. Puşkinin povestləri nə isə çılpaqdır. "O, Çexova deyirdi: "Şekspirdən zəhləm gedir, ancaq sizin pyeslər daha pisdir".



L.N.Tolstoy Puşkində, Şekspirdə və Çexovda öz yaradıcılığının müəyyən məziyyərlərini, – özünün qarşısına qoyduğu məsələlərə uyğun gəlməyən nə vardısa – məhz onu qəbul edə bilmirdi.

Hər bir sənətkarın yaradıcılığında realizm fərdidir.

Daim qarşılaşdığımız daha ümumi cəhətlərin təyin olunmasına əsaslanan realizm anlayışının ümumiləşdirilməsi, elə mücərrəd təzahürlərə gətirə bilər ki, onları, hətta ibtidai incəsənət əsərlərində də tapmaq olar. V.V.Nalimovun rəyincə, elmin gələcəyi təsadüfi hallarda onun keçmişinə əsasən proqnoz edilir və elmi uzaqgörənliyin borcu yeniliyi yeni fikirlərə əsasən xəbər verməkdən ibarətdir.

Anlayışların təşəkkülünə riyaziyyat böyük təkan verir.

Yeni faktlara müxtəlif münasibətlər mövcuddur. Bəzən nəzəriyyəni təsdiq edən faktlarla daha çox maraqlanırlar. Elmi yanaşma, mövcud nəzəriyyə ilə ziddiyyət təşkil edən faktlara olan maraqla səciyyəvidir. Kim ki, bunu hiss etmir və Klod Bernarın təbirincə desək, kim ki, öz ideyalarına həddən artıq inanır, deməli, o, kəşfə hazır deyildir.

Müasir həyatı təhlil etmək çox mürəkkəbdir. Keçmişsə uzaqdan görünür; elə bil təpədə durub dərin dərəyə baxırsan.

## § 11. İNTELLEKTİ QİYMƏTLƏNDİRMƏK OLARMI?

"Fəhmi rəhbər tutur,
ancaq ona etibar etmə".
***A.B.Miqdal***

İntellekt sözü latın dilindəki "intellectus" (dərketmə, dərrakə, anlama) sözündən götürülüb, təbiəti, cəmiyyəti və özünü dərketməyə və dəyişməyə istiqamətlənmiş, insan beyninin bütöv fəaliyyətinin (təfəkkür, fantaziya, emosiya, iradə və s.) funksional məcmusunu ifadə edir.

İntellekti kəmiyyətcə qiymətləndirmək olarmı? İntellektin sayı (J) və bir şəxsin öyrədilməsi üçün oyunların miqdarı (n) arasındakı əlaqə aşağıdakı sadə düsturla ifadə olunur:

$$J = \sqrt[n]{2} - 1$$

bu düsdurda N=1 və J=1 (100 faiz) olduqda, bir şəxs iki və üç əl oyunla (J) öyrədildikdə, uyğun olaraq 0, 41 (41 faiz) və 0, 26 (26 faiz) alınır.

Hesab edilir ki, təlim 1, 2, 3 oyun ərzində baş verir. Bu düsturun şərti olduğu aşağıdakı misaldan aydın görünür. "İvanovun uşaqlığı" filmi fəlsəfi mövzuya – hərb və insan probleminə həsr olunmşdur. Film yaşlılar, necə deyərlər, kinoya əyləncə kimi baxmayanlar üçündür. Filmi birinci dəfədən başa düşmək bir də ona görə çətindir ki, ekranda hərdən-bir şeirlər səslənir. Şeirin oxunuşu əvvəlcə sadəcə olaraq kinonu başa düşməyə mane olur. Lakin iki və ya üç dəfə baxdıqdan sonra bu kinonu qiymətləndirmək olur. Nə olsun, əgər hər hansı bir elmi əsərə dönə-dönə müraciət etdikdən sonra başa düşürüksə, niyə bədii incəsənət əsərləri üçün belə olmasın? Musiqini bütün incəlikləri ilə qavramaq üçün onu təkrar-təkrar diqqətlə dinləmək lazımdır.

Bəstəkar R.Vaqner operada eyni bir musiqi parçasını bir neçə dəfə artistin müəyyən hərəkəti ilə uyğunlaşdırmışdır. Həmin musiqi, həmin hərəkətə uyarlıqla təkrar ifa olunduqdan sonra tamaşaçılar onu ardıcıl və ahəngdar bir musiqi mövzusu kimi qəbul etdilər.

Məşhur atalar sözündə deyilir: "Təkrar – biliyin anasıdır. Akademik A.N.Nesmeyanov bunu başqa tərzdə belə ifadə etmişdir: "Təkrar biliyin ögey anasıdır". Lakin başqa məna daşıyan təkrarlar da var. Məsələn, A.S.Puşkinin aşağıdakı şeirinə diqqət yetirək:

Mən sizi sevərdim, yəqin məhəbbət,
Alovlu sinəmdə hələ sönməmiş.
Qoy Sizə verməsin heç vaxt əziyyət
Eşqimin bu yoldan üzü dönməmiş...
Mən Sizi sevərdim, ümidsiz, dalğın,
Gah qorxaqlıq sıxdı, gah riqqət məni.
Mən Sizi sevərdim, həsrətli, çılğın.
Bax belə görəydim sizi sevəni.*



Bu şeirdə "mən Sizi sevərdim" ifadəsi üç dəfə təkrarlanmasına baxmayaraq, heç bir fikir təkrarı yoxdur. Birinci səslənmə keçmişə aid olub, aşiqin etirafını bildirir, ikinci səslənmə aşiqin ümidsiz, səssiz-səmirsiz hissləriIə, yeni duyğularıyla başlayır, üçüncü halda aşiqin sevdiyi qıza təmiz incə arzuları ifadə olunur.

Təkrara, L.N.Tolstoyun "Anna Karenina" romanında Annanın ölüm qabağı əzablı düşüncələrini də misal gətirmək olar: "Bəli, məni çox narahat edir, ağıl elə ona görə verilir ki, canını qurtarasan, deməli, canı qurtarmaq lazımdır. Nəyə görə şamı söndürməyim, bir halda ki, baxılası hec nə yoxdur, bir halda ki, baxılası nə varsa iyrəncdir? Bəs necə? Niyə o konduktor tirin üstü ilə qaçırdı, niyə onlar gülürdülər? Hər şey yalandır, hər şey aldadıcıdır, hər şey böhtandır...".

Eyni bir söz (can qurtarmaq, baxmaq, niyə, hər şey) eyni zamanda həyəcan, hüzn, sıxıntı yaranmış vəziyyətdən çıxmaq üçün çılğıncasına yol axtarmaq kimi hisslər təlqin edir.

Həmi bilir ki, hər hansı bir sözü, tələffüz tonunu dəyişmədən dönə-dönə təkrar etdikdə, o söz öz mənasını itirir, bəzən də gülüş doğurur. Bəzi hallarda, təkrar yerinə düşəndə daha mənalı olur.

Belə ki, knjaz Meşşerski V.P. ziyafətdə özünü hazırcavab və zirək göstərmək məqsədi ilə sual verdi: "Cənablar, fahişə qadınla cənab Doroşeviçin fərqi nədir?" (Doroşeviç Peterburqda çıxan "Rus sözü" qəzetinin redaktoru idi).

Elə özü də cavab verdi: "Doroşeviç pulu sözə, fahişə isə gecəsinə görə alır".

Bir az keçəndən sonra V.M.Doroşeviç sualı təkrar etdi: "Fahişə qadınla cənab Meşşerskinin fərqi nədədir?" İştirakçılar qeyri-adi cavabqaytarma üsulundan təəccüblənərək, heyrətlə çiyinlərini çəkdilər. Bir az ara verdikdən sonra, Doroşeviç dilləndi: "Cənablar, bilmirsiniz? Mən də bilmirəm".

Göstərdiyimiz təkrarlar bizə qəhrəmanların fikirlərini, ciddi-cəhdlərini aydın şəkildə duymağa kömək edir.

Ticarət reklamlamları prinsipcə tez-tez təkrara əsaslanır.

Fransisk Sarsey üstündə "Ən əla şokolad – Perron şokoladıdır"

yazılmış reklamın timsalında inamın yaranması prosesini təhlil etmişdir:

1. Birinci gün fikirləşirsən: "Aldanmayacağam";

2. İkinci gün fikirləşirsən ki, bəlkə bu şokolad başqalarından pis deyil;

3. Üçüncü gün düzgün fikirləşirsən ki, doğru rəyə gəlmək üçün mütləq alıb dadmaq lazımdır;

4. Dördüncü gün təsdiq edirsən ki, həqiqətən bu əla şokoladdır.

Bəzən uzun müddət, hətta bütün ömrün boyu dəyişməyən inam, belə yaranır:

Yezuitlik təlimində deyilir: "Böhtan atın, axırda bir şey qalacaq" – təkrarın mənfi təsirinə misal ola bilər.

Siyasi intriqanın mahir ustası Taleyranin dəqiq ifadəsini unutmaq olmaz: böhtandan daha dəhşətli bir silah da mövcuddur. Bu – həqiqətdir.

Dərhal yada düşür:
Bəli, Bu qoca Dünyada
bir həqiqət var.
Bütün döyüşlərdən pürvüqar
çıxar.
Yalan da, böhtan da
onun önündə
Diz çöküb, alçalar.*

**S.V.Mixalkov**

"Yalnız həqiqət – nə qədər ağır olsa da "yüngüldür". Rus həyatından itmiş həqiqəti yerinə qaytarmaq bizim borcumuzdur" (Blok).

Qeyd edək ki, yalan da – meşədir, getdikcə ordan çıxmaq çətinləşir.

Rəsul Həmzətov yazır: "Avarlar danışırlar ki, Həqiqətlə Yalan əsrlər boyudur ki, yanaşı addımlayır və elə hey deyişirlər ki, insanalara, hansı daha çox gərəkdir. Yalan deyir – mən, həqiqət deyir – mən. Bu mübahisənin nə əvvəli var, nə axırı.



Bir dəfə onlar bunu insanlardan soruşurlar. Yalan dolama yollarla yüyürüb hər dəlmə-deşiyə baş soxur, hər yeri iyləyib-çüyləyir. Həqiqət isə başını dik tutub, düz, geniş yolla gedir. Yalan irişir, qırışır, həqiqət isə düşüncəli və qayğılı görünür.

Bu minvalla onlar çox ölkələr, aullar, şəhərlər dolaşırlar: krallar, xanlar, hakimlər, tacirlər, cindarlar, kasıblar arasında olurlar. Hara ki, Yalan ayaq basırdı – orda adamlar özlərini rahat, asudə hiss edirdi; bir-birinin gözünün, içinə də baxır, hətta deyib-gülürdülər də. Əslində isə bir-birlərinə kələk gəlir və bunu da hamısı gözəlcə bilirdi. Bir-birlərini aldatmaqdan nə utanırdılar, nə də ar edirdilər. Kefləri kök, damaqları çağ idi.

Elə ki, Həqiqət ora ayaq basırdı – o saat adamların qaşqabağı tutulurdu; bir-birinin gözünün içinə düz baxa bilmir, rastlaşanda başlarını yerə dikməli olurdular və tez-tez xəncərə əl atırdılar (həqiqət naminə). İncidilən incidənin, alan satanın, kasıb bəyinxanın üstünə əl qaldırırdı, arvad xəyanət edən ərini və onun məşuqəsini öldürürdü. Qan su yerinə axırdı.

Buna görə də çoxları Yalanın ayaqlarına döşənib yalvarırdı:

– Amanın günüdür, qadan bizə, bizdən uzaqlaşma. Sən bizim ən yaxşı dostumuzsan. Sənin yanında özümüzü rahat hiss edirik, asudə nəfəs alırıq. Həqiqət, sənsə, bizə ancaq narahatçılıq gətirirsən. Sən olanda gərək daima fikirləşib baş sındıraq, gərək ürəyimiz ağrısın, kədərlənək, mübarizə aparaq; ərlər-ərənlər, şairlər-ədiblər, qəhrəmanlar sənin ucbatından azmı qanına qəltan oldular? Kimə lazımdır bu?

Bunu eşidən Yalan Həqiqətə dedi: – Görürsən? İndi inandın ki, adamlara səndən çox mən lazımam? Neçə evə ayaq basdıqsa, məni gül-çiçəklə, səni isə qaş-qabaqla qarşıladılar.

Həqiqət dilləndi:

– Bəli, biz çox məskənlərdə olduq. Gəl indi də zirvələrə baş çəkək. Gedək dupduru çeşmələrdən, çəmən-çiçəklərdən, bəyaz qarlardan soruşaq, görək kim daha çox gərəkdir insanlara?

Yalan tez dedi:

– Yox, mən oralara getmirəm.

– Olmaya ucalıqdan qorxursan? Onu bil ki, ancaq qarğalar aşağılarda eşələnər, qartallar isə ən uca dağlardan yüksəklərdə cövlan eləyər.

– Yox, mən sənin zirvələrindən qorxub eləmirəm. Axı, insan olmayan yerdə mənim nə itim azıb? Mənim hökmüm adamlar arasındadır, mən onların ağasıyam, onlar mənim təbəələrimdirlər. Beş-altı nəfər qoldan güclü mənə tabe olmaq istəməyib sən tərəfə keçirlər – həqiqət yoluna. Onu da bil ki, belələrini barmaqla saymaq olar.

– Elədir, belələrini barmağla saymaq olar. Lakin burası da var ki, hamı onları qəhrəman sayır. Şairlər və bəstəkarlar ən yaxşı nəğmələrini onlara həsr edirlər.

Düşündürücü əhvalatdır.

Bəzən olur ki, müəlliflər böhranlı şəraitdə öz qeydlərinə daha çox məna vermək üçün müxtəlif epitetlərdən istifadə edirlər: aşağı səviyyə, sadəlövh, savadsız, xam oxucu və s. Özü də bu epitetlər bir neçə dəfə təkrar olunur. Əgər bu yolla tənqidçi oxucunu aldatmaq istəyirsə, onda Laroşfukonun dediyi kimi, onun özü aldadılmış olur.

Şərq müdriklərindən biri demişdir ki, əgər həmsöhbət öz münasibətinin səmimi olduğunu tez-tez təkrar edirsə, bu şübhə doğurmalıdır. Mənfi epitetlərin müxtəlif formalarda tez-tez təkrarı da tənqiddə xeyirxahlığın olmaması və bu tənqidin özünün qeyri-obyektivliyi fikrinə gətirib çıxarır.

Belə hallarda tənqidi məqalə tənqid olunana bədxah münasibəti olan və həmin sahənin mütəxəssisi olmayan adama səmtlənir.

Tənqid edərkən incidib küsdürmək lazım deyil, əksinə müəlliflə birlikdə onun müvəffəqiyyətsizliyinə mütəəssir olmalı, ciddiliklə xeyirxahlıq birgə fəaliyyət göstərməlidir.

Tənqidin qeyri-müəyyən, iki mənalı forması haqqında N.Q.Çernışevski yazır: "Yox, mən bunu demək istəmirəm, demək istəyirəm ki, romanda münaqişə yoxdur: ancaq mən bunu da şübhə ilə deyirəm, çünki romanda yaxşı münaqişə var; lakin romanın əsas qüsuru orasındadır ki, əsərin qəhrəmanı maraqlı deyil; bununla belə qəhrəmanın sifəti əla təsvir olunmuşdur; lakin – ancaq mən "lakin" də demək istəmirdim, mən demək istədim və "həm də" ... xeyir, "həm də" demək istəmədim, istədim yalnız qeyd edəm ki, romanın üslubu pisdir, hərçənd dili əladır...".

A.Anastazi İsveç ordusuna çağırılanların müəyyən əlamətlərinə əsasən boy-buxun ilə intellekt arasında asılılığın nəticələrini vermişdir.

Məlumdur ki, yeniyetmə oğlan üçün iri (uca, hündür boy) və böyük (böyük vəzifəli adam) sözləri təqribən sinonimdir. Boy və ictimai rütbə arasındakı assosiativ əlaqəyə yaşlılar da biganə deyillər. Amerika psixoloqu Uilsonun apardığı çox maraqlı təcrübə təsdiq edir ki, adamın ictimai rütbəsi artdıqca, başqalarının onu ucaboy görmə meyli də çoxalır. Belə çıxır ki, ucaboyluluq yüksək intellektə uyğun gəlir.

İki hadisə arasında korrelyasiya asılılığının olması heç də bu hadisələrdən birinin digəri üçün səbəb olduğunu göstərmir. Hollandiyada hər il hacıleyləklərin qurduqları yuvaların sayı ilə uşaq doğumlarının sayı arasında müsbət korrelyasiya asılılığının olduğu məlumdur.

Məlumdur ki, uşaqların sayının artımı təzə ailələrin yaranması ilə əlaqədardır, təzə ailələr isə adətən yeni tikilmiş evlərdə yaşayırlar. Yeni evlərin sayının çoxalması isə evlərin tüstü borularının eyni miqdarda artmasına səbəb olur. Bununla əlaqədar hacıleylək yuvalarının sayı da çoxalır. Çünki onlar öz yuvalarını evlərin tüstü borularının üstündə qururlar.

1967-ci ildə L.Çepmenin kəşf etdiyi xəyali (qeyri-adi) korrelyasiya asılılığı da mövcuddur. Təcrübədə iki qrup söz yığımından istifadə edilmişdir. Birinci söz qrupu yığımından bir söz, ikinci söz qrupu yığımındakı bir sözlə tutuşdurulur və sınanılana təqdim edilirdi. Bütün cüt sözlərin eyni tezliklə nümayiş etdirilməsinə baxmayaraq, sınanılanlar, "şir-pələnk" kimi söz cütlərinin görünmə tezliyini yüksək qiymətləndirmişlər, lakin "şir-yumurta" kimi söz cütlərinin görünmə tezliyini qiymətləndirə bilməmişlər. Lakin korrelyasiyanı, eyni zamanda statistikanı tətbiq etdikdə səliqəli qurmaq lazımdır. Məsələn, bir həkim statistikanı belə tətbiq etmişdir: əgər adam həmin həkimə məlum bir xəstəliklə müraciət edirsə,

o, dərhal, birinci növbədə belə xəstəlikdən neçə faizin tamamilə müalicə olunduğuna diqqət yetirir. Deyək ki, 90 faiz. Sonra o, bu cür xəstələrin sayına baxır və əgər 10 nəfər xəstədən 9-u sağalıbsa, deməli bu onuncu xəstə sağalmayacaq. Çox vaxt korrelyasiya təhlilinin tətbiqində mənasızlığa gətirib çıxaran ifratçılığa varırlar. Mədə xərçəngi xəstəliyinə düçar olanların hamısı tərəvəzlə qidalanmışlar. Buradan güya belə nəticə çıxır ki, tərəvəz mədə xərçəngini yaradan səbəbdir. Şübhəsiz ki, bu cür yalan nəticənin izahına ehtiyac yoxdur.

Bəzən görkəmli şəxsiyyətin həyatı haqqında kitab oxuyan gənc həmin şəxsin hər hansı bir əlamətdar keyfiyyətinin özündə də olduğunu hiss edərək lovğalanır. Bu cür əlamətlər gənclər arasında tez-tez rast gəldiyimiz hadisələrdəndir: gizli deyil ki, bəzi gənclər özlərini oxuduqları əsərlərin qəhrəmanlarına oxşatmağa çalışırlar. Bu isə demək olar ki, heç də müsbət əlamət deyil.

Çünki, qəhrəmanlar, böyük şəxsiyyətlər təkrarolunmazdırlar, fərdidirlər.

Məlumdur ki, görkəmli fizika alimi L.D.Landau şahmat oyununu sevir və oynamağı bacarırdı, buna baxmayaraq, onu şahmat oynamağa dəvət edənlərin təklifindən imtina edirdi. O, eşidəndə ki, məşhur ingilis fiziki Zommerfeld öz tələbələrinə şahmat oynamağı qadağan etmişdir, bunu xüsusi rəğbət hissi ilə alqışladı.

Yəgin ki, bu, böyük problemlərin həlli ilə məşğul olanların əsas işlərindən yayınmaları ilə əlaqədardır.

Lakin, bu da məlumdur ki, qədimlərdən üzübəri bütün görkəmli ədiblərin, şairlərin, alimlərin, musiqişunasların əksəriyyəti şahmata böyük maraq göstərmişlər.

Firdovsi, Nizami, Məhsəti Gəncəvi, Ömər Xəyyam, Dante, Höte, Volter, Russo, Puşkin, Turgenev, Brext, Heminquey, Qaliliey, Nyuton, Leybnits, Mendeleyev, R.Ştraus, E.Karuzo, Rimski-Korsakov və başqaları çılğın şahmat həvəskarı idilər.

D.İ.Mendeleyev çox ehtiraslı şahmat pərəstişkarı və oyuncusu idi. O, yazırdı: "Mənim üçün elm – şahmat oynamaq kimidir. Odur ki, vaxtı bu cür əyləncələrlə keçirmək xoşuma gəlir".



Bununla bərabər yoldaşları onu bir əl oyununa dəvət edəndə o, belə cavab verirdi: "Əzizlərim, mümkün deyil, siz ki, bilşirsiniz bütün gecəni yata bilməyəcəyəm".

Birinci dəfə görüşəndə L.N.Tolstoy P.İ.Çaykovckiyə demişdi ki, Bethoven istedadsızdır.

Lakin Eduard Errio qeyd edir ki: "...Bethovenin yaradıcılığı bəzən başqa şəkildə ən güclü bədii obrazlarda əks olunur. Tolstoy "Kreytser Sonatası"nı yzarkən Bethoven musiqisinin ona nə qədər böyük kömək etdiyini qeyd edir".

İntellektin intyuisyaya güzəştə getdiyini iddia edən Berqsonla razılaşmaq olmaz. General de Qoll isə Berqsonun fikrini əsas tutaraq, belə hesab edirdi ki, insanın zəkası, instinktlə uyğunlaşaraq intuisiya əldə edir.

N.A.Asnova qeyd edir ki, sovet və fransız tədqiqatçıları bu rəyə gəlmişlər ki, R.Rollan da bir çox fransız yazıçı – dramaturqları kimi Berqsonun "Həyat fəlsəfəsi"nin təsirindən yaxa qurtara bilməmişdir. Bu sözün onun "Jan Kristof" əsərində daha bariz göstərilir.

Mixail Talın oyun üslubu strukturunda əsas təyinedici amil nə konkret hesablama, nə də praqmatik düşüncə tərzi deyil, bu – ancaq intuisiyadır.

Əgər dediyimiz misallara istinad etsək, onda istənilən keyfiyyətə bəraət qazandırmaq olar.

Ümumiləşməyə də ehtiyatla yanaşmaq lazımdır. Belə ki, R.Ştraus demişdir ki, dirijorluq sənətinə ancaq 70 yaşlarında tamamilə yiyələnmək olar. Kişilərin orta ömrü isə 64 ildir, onda demək olar ki, sağlığında heç kəs əsl dirijorliq sənətinə sahib ola bilməz. Bu ona görə belə alınır ki, R.Ştraus güman ki, xüsusi bir halı nəzərdə tuturdu. Biz isə ümumiləşməni səlis aparmırıq.

İbrətamiz bir misal. Həkimə müəyyən sayda xəstə müraciət edir. Onların üçdə bir hissəsi yaşına, səhhətinə görə təbii ki, sağalır. Burda məzəli bir məqamı xatırlatmaq yerinə düşür: qripp müalicəsiz 7 günə keçib gedir, müalicə ilə bir həftəyə sağalır. Xəstələrin o biri üçdə bir hissəsi müalicə oluna bilməyəndir və burda həkimin əlindən heç bir kömək gəlmir. Nəhayət, yerdə qalan üçdə bir hissə

elə xəstələrdir ki, gərək həkim onlarla məşğul olsun. Bütün bu rəqəmlər – əgər söhbət xəstələrin sayının çoxluğundan gedirsə - müəyyən maraq kəsb edir və hər konkret hal üçün hansı qərarı qəbul etmək lazımdır məsələsi əsas problem kimi ortaya çıxır.

Məşhur testlər müəllifi Ayzenk göstərir ki, intellektyuallıq əmsalının ölçülməsinin əsasını ("Ay-Kü") ətraf mühitin genetik amillərinin təsirindən yaranan anadangəlmə idraki qabiliyyət təşkil edir.

Adamlar kollektivlər halında birləşəndə onların intellektləri cəbri qayda ilə toplanmır.

Antik şair Paroslu Arxilox bir təmsilində yazır ki, tülkü çox şey bilir, kirpi isə yalnız bir şey – özü də böyük şey bilir. Yaradıcı qruplar – hərtərəfli təhsilə malik narahat ağıllı adamlardan təşkil olunmalıdır.

Yaradıcı kollektivin hər bir üzvü bütün qabiliyyətini ümumi işə sərf etməlidir.

İntellekt – onlarca fərziyyə deməkdir. İntellekt – xassələrin ierarxiyasıdır və intellekt – əqli keyfiyyətin asılı olmayan müsbət silsilələrdən ibarət toplusudur.

İntellektual adamın belə bir tərifi də var: o, eyni şeylərdəki fərqi və müxtəlif şeylərdəki ümumiliyi görən adamdır.

Fizika sahəsində Nobel mükafatı laureatı İ.Priqojin qazların kinetik nəzəriyyəsində işlədiyi mikroskopik hissəciklərin kollektiv hərəkətinin öyrənilməsi metodlarını makroskopik obyektlərin – avtomobillərin magistral yollarda hərəkətinin öyrənilməsinə tətbiq etmişdir.

Magistral yolda nəqliyyatın kollektiv hərəkətinin qaz atomlarının kollektiv hərəkətindən prinsipial fərqi ondan ibarətdir ki, sürücünün magistral hərəkət tərzi çox mürəkkəbdir: birinci, bütün fiziki, əqli və psixi əlamətləri eyni olan sürücü yoxdur; ikinci, ola bilsin ki, sürücü nəzərə alına bilməyən bəzi faktorların təsirindən öz hərəkət tərzini, rəftarını dəyişməli olsun. Hətta hər bir sürücüyə tətbiq etmək üçün fərdi olaraq nə qədər riyazi modellərin mövcud olduğunu güman etmək özü də şübhəlidir.



Xüsusən, təəccüblü burasıdır ki, əgər böyük avtomobil çoxluğunun hərəkətinə baxsaq, onda hər bir sürücüyə çox sadə riyazi hərəkət modeli tətbiq edib kunetik nəzəriyyə tənliklərinə əsasən magistralda bəzi hallar üçün hərəkətin qənaətbəxş modelini almaq olar.

Sən demə, geniş miqiyasda nəzəriyyənin keyfiyyət nəticələri modelin konkret ədədi parametrlərindən asılı deyil.

Təkrar ölçülər aparmaqla, ardıcıl "yaxınlaşdırma" metodundan istifadə edərək, modelin elə parametrlərini alırlar ki, bunlara əsasən başqa parametrlərin qiymətlərini qabaqcadan xəbər vermək mümkün olur. (A.A.Arsenyev, "Kinetiçeskiye uravneniya" iz-vo "Znaniye", Moskva, 1985).

Yuxarıda qeyd etdiklərimizlə əlaqədar olaraq zəruriyyət qarşısında qalanda biliyi vaxtında tətbiq etmək məqsədi ilə H.Leybnits tərəfindən tətbiq olunmuş yeddi qayda maraqlıdır.

1. Hər hansı şəraitdə qərar qəbul etməli;

2. Müəyyən məqsədə doğru aparan yolun müsbət və mənfi aqibətini və eyni zamanda mümkün olan başqa yolları təyin etməli;

3. Lap oxşar olan şeylərin belə, fərqini tapmalı;

4. Kəskin fərqli şeylərin belə, oxşar cəhətlərini tapmalı;

5. Baxılan şeyə çox oxşayan və ondan çox fərqli olan şeyləri göstərməli;

6. Həqiqi olaraq verilən və təcrübə yolu ilə alınan məlumatları məzəli şeir, əhvalat, şəkil və s. əsasında hafizəyə həkk eləməyə çalışmalı;

7. Ən faydalı bilik və məlumatların siyahısını tərtib etməli.

Amerika alimi Şeford intellektin modelini qurmuş və bu modeldən səksənə yaxın amil seçmişdir. İntellekt başqa göstəricilərlə də sıx surətdə əlaqədardır, ancaq burda bəzən mənasızlığa yuvarlanmaq hallar da ola bilər. Bu cür cəfəng korrelyasiyaya misal: bəziləri elə bilirlər ki, möhkəm iradəli adamların çənəsi xüsusi formada olur və yaxud casusun gözləri mütləq "qaynamalıdır".

Həm intellektin qiymətləndirilməsində, həm də incəsənət əsərlərinin təhlilində kəmiyyət metodları yalnız ikinci dərəcəli əlavə funksiyaları yerinə yetirə bilərlər.

Bununla əlaqədar olaraq N.Borun "tamamlama prinsipini" xatırlamaq yerinə düşərdi. Bu prinsipə əsaslanaraq Bor, bəzi hadisələrin ikişər xarakterini sübut etmişdir. (məs: işıq həm dalğa, həm də foton (elementar hissəcik) selidir): bu cür hadisələri izah etmək üçün eyni zamanda bir-birini tamamlayan və inkar edən müxtəlif anlayışlara müraciət olunur. İncəsənət əsərinin təhlilində təsviri və dəqiq metodların uyğunlaşdırılmasının sirri də bax, bundadır. Bor prinsipi yarandığı ilk vaxtlarda universallıq iddiasında idi və nəinki, təkcə təbiət hadisələrinə, hətta insan fəaliyyətinə, incəsənətə də şamil edilirdi.

Karl Yunq hesab edirdi ki, insan təbiəti Bor prinsipinə tabedir, belə ki, onun şüurlu hərəkətinin hər bir xüsusiyyətinə bunun tam təsiri olan instinktiv xüsusiyyət uyğun gəlir. Bəzi yaradıcı şəxslərin nailiyyətlərini və ya uğursuzluqlarını bununla izah etməyə çalışmışlar.

Həyatın müxtəlif tərəflərinin bir-birini tamamlayan qarşılıqlı təsvirini vermək zərurəti meydana çıxır; məsələn, intellekt və emosionallıq, fəaliyyət və özünütəhlil, incəsənətin mövzusu və o haqda təsəvvür. Uzun əsrlər boyu böyük təzadlarla bəşəriyyətin mövcudluğunu bir məcraya yönəldən və eyni zamanda ayıran vəziyyətləri də bu qəbildən saymaq olar: məsələn: hər bir hadisənin tarixdə müəyyən iz qoyması ilə yanaşı, dünyəvi şeylərin kövrəkliyi və keçici xarakteri; dünyəvi intizamın inkişafı və sarsılmazlığı; səbəb və nəticə. Həyati hadisələri öyrənən bu metodların hər biri özlüyündə doğrudur, lakin biri digərini rədd edə bilər.

Liberiyada kəndlilər arasında aparılmış təcrübənin nəticələri olduqca maraqlıdır. Dindirilənlər nə kollektiv təsərrüfatda işləmiş, nə də məktəbə getmişlər. Cavabların nəticələri göstərmişdir ki, onlar mühakimələrə məntiqi ardıcıllıqla yanaşmağa və ondan nəticə çıxarmağa qabil deyillər. Bununla bərabər elə həmin kənddə olan bir az oxumuşlar və ya kollektiv planlaşdırmada iştirak etmiş kəndlilər gələn dəfə dindirildikdə müəyyən mühakimə yürüdüb az da olsa düzgün nəticə çıxara bilmişlər. İmtahan edənlər kəndlilərə belə bir sual vermişlər: - hörümçək bayram naharına getmişdir? – sonra bildirmişlər ki, hörümçək və qara maral həmişə birlikdə nahar edirlər, – hörümçək yeyib, qara maral da yeyibmi? Dindirilən soruşur: – onlar meşədə olublarmı? – Təsdiq cavabını alandan sonra yenə soruşur: – Onlar meşədə bir yerdəmi olublar? Yenidən mühakiməyə davam edirlər: – hörümçək və qara maral həmişə birlikdə yeyirlər. – Təkrar bir də soruşurlar: – Maral da yeyir? Cavab: – Axı, mən orda olmamışam. – Və suala cavab verməkdən imtina edirlər. Sonra cavab verirlər: – Bəli, yeyir, ona görə ki, qara maral həmişə yeyir, bir qədər istirahət edir və yeyir.



Aydındır ki, sualların cavabları təhsildən, intellekdən və başqa şəxsi keyfiyyətlərdən asılıdır.

Brunnerin tədqiqtları göstərmişdir ki, Avropa mədəniyyəti ilə ancaq indi təmasda olan xalqların məktəbə gedən və getməyən uşaqları arasında çox kəskin fərq mövcuddur. Məktəblilərdə "avropalaşmış" elmi təfəkkür inkişaf etdiyi halda, xalqların ənənəsi əsasında tərbiyələnən və məktəbə davam etməyən həmyaşıdlarda bu vəziyyət özünü bir hal kimi göstərmişdir.

Bu paraqrafın əvəzində qoyulmuş suala biz müsbət cavab verə bilmərik. Buna baxmayaraq, müəyyən şərtiliyini dərk edərək biz intellekt-idrak anlayışından istifadə edəcəyik.

Beləliklə, bir çox rəylər mövcuddur. Ancaq, ehtimal ki, bu fikirlə hamı razılaşır: intellekt – adamda olmadığı dərhal görünən insani keyfiyyətdir. Əlbəttə, bu metaforadır (məcazidir).

Amerika psixoloqu E.Torndaykın intellektə verdiyi tərif yuxarıda dediklərimizə uyğun gəlir: "İntellekt – Platonu, Aristoteli və Fukididi öz dövrlərinin afinalı səfehlərindən fərqləndirən keyfiyyətdir".

## § 12. ELMİN İNKİŞAFINDA İNCƏSƏNƏT METODLARI

"İncəsənət – insanları müəyyən düşüncə və qavrayış aləminə cəlb etməyi bacaran, ümumbəşəri obrazlar yaratmaq məharətidir".

***B.Brext***

L.N.Tolstoya istinad edərək deyə bilərik ki, elm və incəsənət ürək və ciyər kimi bir-birindən ayrılmazdırlar. Q.Flobersə yazır: "Gələcək ədəbiyyat – elmlə incəsənətin vəhdətidir".

A.Efrosun mülahizəsincə: "... Və bununla bərabər incəsənət – heç də bütövlükdə sənətkarlıq deyil.".

*Bəs bu nədir? – mən bilmirəm* (kursiv bizimdir. – A.M.). Ancaq onu bilirəm ki, bundan nəsə, bir hissə səndə qalır, bir hissə də sənin tənəffüs etdiyin ab-havaya hopur" (M.,İskusstvo,1985).

A.M.Qorki belə hesab edirdi ki, elmlə bədii ədəbiyyat arasında ümumi əlaqə çoxdur: Hər ikisində müşahidə, müqayisə, öyrənmək böyük rol oynayır; sənətkar üçün də alim təsəvvürü olduqca zəruridir.

J.Simenon demişdir: "Ehtimal nəzəriyyəsi – elmdir. Ancaq onu ayrı-ayrı fərdlərə tətbiq etdikdə o həm də dönüb incəsənət olur".

Elmlə incəsənət arasındakı bir fərqi qeyd edək. İncəsənətdə şah əsər yaratmaq, nadir sənət incisinin yaranması ilə nəticələnir və burda heç kəsi təkrar etmirsən, yeni sənətkarın epiqonçuluğu tələb olunur (yun. epigonos – sonradan yaranmış). Elmdə isə bu məsələ başqa cürdür, yəni eksperimentin nəticəsi onu təkrarlamaqla yoxlanır. Prinsipcə elm, təkrarla təsdiq edilmədən mümkün deyil, çünki artıq bu elm sayılmır.

Dərc olunmuş yaxşı qafiyə, V.Mayakovskinin təbirincə dərc olunmamışa qədərki qiymətini artıq itirir.

M.Botvinnik yazır ki, debüt tələsi ancaq bir oyun üçün işə yarayır və bundan sonra onu başqaları da öyrəndiyi üçün əvvəlki effekti vermir.

V.Q.Belinski doğru demişdir ki, alimlər anlayışlar aləmində, yazıçılar isə surətlər dünyasında fikirləşir.



"Təxəyyülün gücü bilik çoxaldıqca artır" (K.Paustovski).

N.V.Qoqol yaradıcılıqda təxəyyülün rolunu inkar edirdi: "Bu mənada mənim ağlım elə, rusların əksəriyyətinin ağlı kimidir, yəni o daha çox üzə çıxarmağa qadirdir, nəinki uydurmağa".

Doğrudur, bu sözlər bütün yaradıcılığı boyu güclü təxəyyül gücünə malik bir yazıçıya aiddir. A.A.Blok yazır: "Şair – ahəngin oğludur və ona dünya mədəniyyətində müəyyən rol verilmişdir.

Ona üç iş əlavə olunmuşdur: birinci – səsləri öz əzəli yatağından oyadıb azad etməli; ikinci – bu səsləri müəyyən qəlibə salıb, onları müəyyən bir ahəngə gətirməli; üçüncü – bu ahəngi xarici aləmə təqdim etməlidir".

Əgər bu keyfiyyətləri elmlə uyğunlaşdırmağa cəhd etsək, aşağıdakılar alınır:

1. Təkrar olunan faktlar və hadisələr arasındakı əlaqələri müəyyən etməli;
2. Fərziyyə və nəzəriyyələrin köməyi ilə qarma-qarışıq faktları müəyyən ahəngə, qanuna gətirməli;
3. Tədqiqatın nəticələrini müzakirəyə verməli.

Ehtimal ki, ən çətini üçüncü məsələdir.

Sənətkarın və ya alimin önündə açılmış idrakı heyrətə gətirən hadisələrin sehirli ahəngdarlığını duyması və ya görməsi üçün dərin psixoloji hazırlıq, başqa könüllərə girmək istəyi lazımdır, daha doğrusu bu cür hallarda S.V.Meyenin "Şərik olmaq" prinsipi işə düşməlidir. Mənəvi "yanğı" baş verəndə əks-sədasından birinin digərini anlama istəyi oyanıb təlatümə gəlir.

Bunu belə izah etmək olar ki, nəinki başqasının emosional vəziyyətini başa düşmək (empatiya), hətta bu vəziyyəti daxilən özündə yaratmağı bacarmaq lazımdır. "Bütün yer üzünü dolaşdım və ürəyim ağrıdı – çünki, insanın qəlbi elə yaranıb ki, özgənin kədəri belə, ona toxunduqda ağrıyır, göynəyir" (V.Subbotin, "Pantsır serdsa).

Buna eyni bir misal kimi aşağıdakı hadisəni göstərmək olar.

İnqilabçı İ.Mlodetski qraf Loris-Melikovun həyatına qəsd etmiş, lakin qraf sağ qalmışdı. Mlodetski isə o biri gün ölüm cəzasına məhkum edilmişdi. İyirmi beş yaşlı yazıçı V.M.Qarşin

qərara gəldi ki, qətli dayandırmaq üçün Loris-Melikovdan özü şəxsən xahiş etsin. Gecə o, diktatorun evinə gəlir və onu görməyə nail olur. Dizi üstə çökür və göz yaşlarında boğularaq yalvarır ki, dostunu bağışlasın, ona rəhmi gəlsin.

Buna baxmayaraq Mlodetski qətl edildi. Dərin sarsıntılar keçirən Qarşin isə psixi xəstəliyə tutuldu.

Təxminən yeddi yüz il bundan əvvəl Sədi yazırdı: "Əgər sən özgə kədərinə soyuqqanlısansa, onda sənin insan adını daşımağa haqqın yoxdur".

Sparta dövlətinin qanunvericilərindən biri, əfsanəvi Likurqun (yeni e. ə. IX – VIII yüzillik) qanunlarından birində deyilirdi ki, vətəndaşın ən alçaq cinayəti – millətin taleyini həll edəcək mübarizə getdikdə, bu mübarizədə iştirak edən qruplardan kənarda qalmaqdır.

İncəsənət əsərlərindəki yüksək pafosu, harmoniyanı ictimaiyyətə çatdırmaqda aktyorların rolu böyükdür.

Dram əsərlərindəki rolların ifaçıları arasında, Q.A.Qolitsının qeyd etdiyi kimi, aşağıdakı üç haldan biri baş verə bilər:

1. Tamamilə uyarlıq;
2. Tamamilə uyarsızlıq;
3. Qismən uyarlıq.

Məlum hadisələrə müraciət edək. M.İbrahimovun "Həyat" pyesindəki sinfi düşmən – Süleymanın rolunu görkəmli səhnə ustalarımız Ülvi Rəcəb, Rza Təhmasib, Sidqi Ruhulla böyük ehtiras və şövqlə oynamışlar. Bu rolda R.Təhmasibin özünəməxsus, xarakterik bir ştrixi vardır. O, gahdan bir çeşməyini çıxarır və bir azdan sonra yenə taxırdı. Çeşməyini çıxaranda onun sifəti vəhşi, yırtıcı ifadə alır, çeşməyi taxanda isə zahirən mülayim, hətta, nə isə ailə adamı kimi yumşaq, rəhmdil görünürdü.

Otuzuncu illərdə Y.A.Zavadskinin rəhbərliyi altında studiyada eksperiment aparılmışdır. Y.A.Zavadskinin eyni bir eskizi əsasında R.Y.Plyatt və N.D.Mordvinov Ostrovckinin "Qurdlar və qoyunlar" pyesində Apollon rolunu hər biri özünəməxsus üslubda oynamışlar.



M.Qorki, Moskva Bədii Akademik Teatrının tamaşaya qoyduğu "Həyatın dibində" pyesinə baxdıqdan sonra Luka rolunun ifaçısı İ.M.Moskvinə demişdir: "Siz rolu mən əsərdə yazdığım kimi oynamırsınız, ancaq ola bilsin ki, belə düzgündür".

M.Qorki əsərdə, rast gəldiyi hər kəsə tamah məqsədi ilə təsəlli verən, ovunduran şarlatan – avara surəti yaratmışdır. Moskvin isə adamlara həqiqətən, qəlbən, heç bir məqsəd güdmədən təsəlli verirdi. O, həyatda uğursuzluğa uğrayanlara, bədbəxtlərə kömək etməyi özünə borc bilirdi.

Baxın, N.Krımova "Qozbel At"-da O.Yefremovun oynadığı İvanuşka rolu haqqında nə yazır: "...Yefremov isə tamamilə başqa, xüsusi bir İvanuşka rolu oynadı... Bu, İvanuşka şəxsiyyət – İvanuçkadır, – ilk baxışda beş yaşımızdan fantaziyamızda yaşatdığımız İvanuşkaya oxşamayan xarakterdir...".

Veresayev, Stanislavskinin Q.İbsenin "Doktor Ştokman" pyesindəki Ştokman rolunu xatırlayaraq qeyd edirdi ki, görkəmli artistin oyunu, ilk inqilabi çağırışı – nə qədər böyük qüvvə ilə qarşılaşsan da heç vaxt boyun əyməməyi təlqin edirdi.

Gertsen deyirdi ki, pis pyeslərdə oynayan aktiyorlar, özləri də hiss etmədən pis aktiyorlara çevrilirlər.

J.Simenon hesab edirdi ki, aktyorun özünü üş ölçüdə göstərməsi mütləq lazımdır. O, Qabenin oyununu misal gətirir və qeyd edir ki, ekranda Qaben bir qədər susur, bir az yeriyir və nəhayət o, müəyyən bir şəraitin adamı olur.

Qabenin oyunu olduqca yığcamdır, qənaətlidir və bu qənaətçillik tamaşaçının diqqətini onun qəhrəmanının xarakterindəki ən kiçik nüanslara cəlb edir.

Aktyorlara Mamont Dalskinin F.Şalyapinə verdiyi məsləhətini xatırlamaq faydalı olar: "Elə aktyor olmaq lazımdır ki, onun adı, heç olmasa həftədə iki dəfə repertuarda ola bilsin. Əgər aktyor repertuarda yoxdursa, o, teatra lazım deyil. – Və mənə Aleksandr teatrının afişasını göstərdi:

– Hə, bax, bazar ertəsi, "Hamlet", Dalski oynayır, çərşənbə, "Beluginin evlənməsi", yenə Dalski, şənbə axşamı, "Günahsız müqəssirlər", yenə də Dalski..."

Puşkin – "xoşbəxtlik ancaq nöqteyi-nəzərlərin birgəliyindən yaranır" kəlamını tez-tez təkrar edərdi. Bu mülahizəni, rejissorla dramaturqun, rejissorla bəstəkarın nöqteyi-nəzərinin birgəliyinə də aid etmək olar.

Həmfikirlər – bir cür fikirləşənlər yox, bir şey haqqında fikirləşib, ümumi məqsədə malik olan adamlardır.

Elm və incəsənətdə qərar qəbul etdikdə bədii tamaşalar müsbət rol oynaya bilər. Sergey Tretyakovun "Bir ocağın adamları" kitabında Brextin belə bir mülahizəsi verilir: "Ən başlıcası tamaşaçını qərar qəbul etməyə öyrətməkdir. Bu, ağlı inkişaf etdirir. Dilxorçuluğu və başqasının dərdinə şərik olmağı axmaqlar da bacarır. Təkcə axmaqlar olsaydı nə vardı ki? Bir baxın, mütəəssir olmuş fırıldaqçı təmiz göz yaşları ilə ağlamağı necə də bacarır və bundan sonra izahat verir: "Və o tamaşaçının yerini hakim kreslosuna çevirərək qərar qəbul etməyi öyrədir".

Ç.Darvinin qeyd etdiyi kimi, elm adamının işinin müvəffəqiyyəti aşağıdakılarla təyin olur:

1. Elmə məhəbbətlə;
2. Müşahidə aparmaq və faktları toplamaq səyi ilə;
3. Hər hansı məsələ haqqında uzun müddət düşünmək lazım gəldikdə intəhasız səbrə malik olmaqla;
4. Kifayət qədər ixtiracılıq qabiliyyəti və sağlam düşüncənin olması ilə;

Göstərilən dörd şərt əslində A.A.Blokun birinci iki şərtinin dəqiqləşdirilməsidir.

C.Dikson gələcək mühəndis və layihələşdiricilərə faydalı uyarlıqlar və "ağlagəlməz ideyalar" axtarışında böyük incəsənət xəzinələrinə müraciət etməyi məsləhət görür.

Onu da deyək ki, xəbərlərin kodlaşdırılmasının bir çox üsullarını mühəndislərdən xeyli qabaq sənət adamları kəşf etmişlər.

Pyer Bezuxovu oxuculara ilk dəfə təqdim edəndə L.N.Tolstoy belə yazır; "...iri,, kök, cavan bir oğlan daxil oldu"... və bir neçə səhifədən sonra oxuyuruq: "Pyer yaraşıqsız, kök və hündürboylu idi".



Insanın hafizəsində məlumatın bu cür seçilməsi – bədii ədəbiyyatda prototipin təsvirinin yığma-seçmə metodudur və bu metoddan müasir texnikada kodlaşdırma əməliyyatlarında "əngəl"lərlə mübarizə üçün də istifadə olunur. Radiolokasiya və müasir televiziya verilişləri də bu metoda əsaslanır. Bu metoddan musiqi əsərləri yazarkən bəstəkarlar da istifadə edir: məs. rondo, variasiya, sonata alleqrosu və s. bu üsulla bəstələnir. Yığma-seçmə metodu orqanizmə dərmanın təsirini öyrətdikdə də istifadə olunur (kumulyasiya).

İncəsənət nə yuyub-aparır, nə də silib-süpürür, burda da yığıb-seçmə üsulu müsbət rol oynayır.

Üç rəngli nöqtə prinsipi ilk öncə təsviri sənətdə, sonralar isə rəngli televiziyada öz tətbiqini tapmışdır.

Belə ki, bu prinsipdən Jorj Sera, puantilizm (puantfran. – nöqtə deməkdir) texnikasını yaratdıqda istifadə etmişdir.

Bəzi balzakşünaslar belə hesab edirlər ki, tamamlıq prinsipi Balzakın yaradıcılığında fundamental rol oynamışdır.

R.Reznikin (Voprosı literaturı", № 2,1975) yazdığı kimi F.M.Dostoyevskinin yaradıcılığında da Balzakda olduğu tək elmi axtarışlara bənzər dərinlik böyük rol oynamışdır.

Qeyd edək ki, İ.Ten təbiət elmləri, məsələn, biologiya ilə ədəbiyyatşünaslıq və incəsənət sahələrində oxşar qanunauyğunluqları bərqərar etməyi mümkün hesab etmişdir. Amma yaddan çıxarmaq olmaz ki, analogiya yolu heç də haqqın yolu deyildir.

M.F.Dostoyevskinin Raskolnikovu öz azad iradəliliyini nümayiş etdirməklə, "Napoleon" olmaq qərarına gəlir və bunu o, bir qoca, hətta ifritə qarını öldürməklə "sübut" etməyə çalışır. Raskolnikov şöhrət axtarmırdı, o, şəxsiyyət olmaq, daxilən "Napoleon" olmaq istəyirdi, lakin özünün daxili "mən"ini "qətlə" yetirdi. Bu "qətlin" ağrısı, əzabı onu ağılsızlıq həddinə çatdırdı. Soneçka isə deyirdi: "Sən, özün-özünə nələr elədin?"

Dorian Qrey, necə deyərlər, öz "tamamını" özündən öz portreti şəklində ayırmışdır. Lakin həyatın qanunundan vaz keçmək olmaz, odur ki, o, öz "tamamını", bununla da məhv etmişdir. "Tamamlıq prinsipi" ilə oxşarlığa aid söhbətimizi davam etdirək: proqnoz,

proqnozlaşdırılan elmi-texniki tərəqiyyə təsir göstərir və ona nəzərə alına bilməyən parametrlər daxil edir. Məsələn, bu səhvə səbəb olacaq həmin parametrlərin sayını minimuma endirməkdən ibarətdir.

Bu baxımdan, elə görünə bilər ki, hər cür ciddi-cəhd mənasızdır; xeyr – çünki hər bir ciddi – cəhd müəyyən səbəblərlə əlaqədardır və buna görə də sərbəst deyil. Ona görə də onun nəticəsi qeyri-müəyyənlik prinsipinə əsasən səbəb-nəticə ardıcıllığı üzrə zəifliyib, sönür. Odur ki, bu, geniş miqyasda cüzi görünür.

Məsələn, rəisinizə nə isə tənqidi bir söz demək istəyirsiniz. Fikirləşirsiniz: yaxşı, bununla nə dəyişəcək? Bunun, nə böyük əhəmiyyətli nəticəsi ola bilər? Bəlkə, elə məni işdən çıxardı? və s. və b. k. Eyni zamanda çatışmazlıqlar, yəni onları deməmək, tənqid etməmək əlavə pis nəticələrə gətirib çıxara bilər. Necə olsun? Bir nəfər tarixin gedişini dəyişdirə bilməz. Onu ya ləngidə, ya da sürətləndirə bilər. Bu da təsadüfən, ya da şüurlu surətdə ola bilər. Bütün bunlar intuisiya ilə, vəcdlə və ya dərin təhlillə baş verə bilər.

Qərar qəbul etdikdə bəzən praqmatik prinsipə[1]də əsaslanırlar. Bu halda, məsələyə "risk"in qiymətini nəzərə almağın zəruriliyi nöqteyi-nəzərəndən baxılır, belə ki, əməliyyatın maddi nəticəsi, itkisi və xeyri ilə birlikdə bilavasitə qiymətləndirilir.

Bu cür yanaşmada aşağıdakı suallar meydana çıxır:

1. Real kömək edə bilmirəmsə, öz münasibətimi göstərmək lazımdırmı?

2. Mənim prinsipial hərəkətimdən ümumi işə bir pislik olmayacaq ki?

3. Əməkdaşların vəziyyətini və öz işini itirmək təhlükəsini nəzərə alaraq risk etməyə dəyərmi?

Praqramatik prinsip, adətən maddi itkiyə gətirib çıxarır, elmi ictimaiyyətin etik əsasını dağıdır və bunlardan əlavə fəlakətli nəticələrə aparıb çıxarır.

[1] Praqramatizm – obyektiv qanunların dərk olunmasını rədd edən fəlsəfi cəriyandır.



"Tamamlıq prinsipi" hər hansı hadisəni tamamilə adekvat olaraq yüz faiz öyrənmək imkanı ilə bir uyğunluq təçkil edir. Cihazlarla hər hansı ölçmə əməliyyatı apardıqda məlumat təhrif olunur və bu, məlumatın bəzi ölçülərinin itirilməsinə səbəb olur, daha "yumşaq" müdaxilə isə ölçməni pisləşdirir. Nə isə orta bir vəziyyətlə razılaşmaq lazımdır.

Tez-tez geoloqların belə müddəası ilə rastlaşırıq: yerin sirrlərini o vaxt tamamilə öyrənəcəyik ki, onda bu biliklər bizə lazım olmayacaq, çünki, o vaxta qədər bütün mineral sərvətlər işlənib qurtaracaq. Tamamilə o şeyi biləcəyik ki, o şey əslində yoxdur.

"Sıxışdırma və sublimasiya" (lat. sublimare – yüksəlmək) ideyasının, Z.Freyd tərəfindən işlənib dəqiqləşdirilmiş bir ifadəsi Stendala məxsusdur. O, yazır: "İncəsənətə bir qədər melanxolik və kifayət qədər bədbəxt adamlar lazımdır".

Sözlə hərəkətin bir-birinə uyğun gəlməməsi sxemini ilk dəfə L.N.Tolstoy vermişdir. Bu halda, beyin nəyi anlamaq istəyirsə, onu seçir və qalanları üçün "əlaqə"ni kəsir, yəni beynin "avtomatizm"i pozulur, o ancaq bir şeyi dərk edir. – Nəyi seçmişsə, onu. "...Kişi mənə: - Qal, şam eləyək – dedi. Mənsə fikrimdə üçüncü şəxsin məsələsi ilə məşğul olduğumdan, heç özümdə deyildim. Ədəblə üzr istədim ki, qala bilmərəm, şlyapamı yenidən götürüb rahatca kresloya oturdum. Görünürdü ki, ağlım bu mənasız vəziyyətdə iştirak etmirdi..."

İngiltərədə iş vaxtı sürücülərə radio ilə maraqlı və bir qədər də dolaşıq hekayə verilmişdir. Təcrübə göstərmişdir ki, sürücülərdən bir qismi mətni yaxşı yadda saxladığı halda, mürəkkəb yol hərəkətinin öhdəsindən gələ bilməmişdir. O biri sürücülər isə əksinə, yolun çətin hissəsini yaxşı keçiblər, ancaq mətnin müəyyən hissələrini unutmuşlar. Deməli, hər iki istiqamətdə eyni vaxtda fəaliyyət mümkün olmayıb.

"Texnika molodyoji" (№ 4,1986) jurnalında Q.Smirnovun məqaləsi verilmişdir. Məqalədə M.Y.Saltıkov-Şedrinin "Müasir idilliya" əsərində onun texniki uzaqgörənliyi qeyd olunurdu. Belə ki, məhkəmə prosesində təqdim olunan maddi sübut – dəqiq

çəkilmiş fotoşəkildə çəki balığı çayda üzüb qaçarkən onun arxasınca yaranan burulğanlı su axını olduqca aydın görünürdü.

Bu əsərin nəşrindən 15 il sonra ingilis hidrodinamika alimi Hele-Şou mürəkkəb formalı cisimlərin suda axınının fotoşəkillərini ilk dəfə elmi məqsəd üçün çəkmişdir.

Bir çox hallarda maneələrə qarşı mübarizə aparmaq lazım gəlir. Bəzi vaxt isə həmin maneələr qiymətli məlumat mənbəyinə çevrilir.

Amerika alimi Eşbi qeyd edir ki, telefonla danışanda bizə mane olan səs-küyə qarşı mübarizə apardıqda adətən mantyor çağırırıq, həmin səs-küy cihazların və telefon xətlərinin ümumi vəziyyətini öyrənmək üçün mantyora çox qiymətli məlumatlar verə bilər.

"Nitq – nəğmələrin röyalara daldığı səs-küydür" (Hretri).

V.F.Odoyevski "Adsız şəhər" adlı fantaskik hekayəsində məntiqin və realist, konkret, bədii surətlərin köməyi ilə Bentamın siyasi-iqtisadi görüşləri ilə mübahisəyə girişir. Bu mübahisənin qısa mənası belədir. "Nə faydasızıdırsa – o ziyandır, nə faydalıdırsa, o caizdir".

Hekayənin əsasını XIX əsr ingilis filosofu və moralisti Bentamın ideyası təşkil edir və əsərin finalı belə qurtarır.

"Qəbiristanliqda ... – yad adam dayandı, - bəli, bu həqiqətdir, – deyə o ucadan dilləndi:

– Bu, həqiqətdir. Bura bir çox fikirlərin, bir çox hisslərin, bir çox xatirələrin məzarıdır.

– Siz, yəqin qəlbən yaxın olan kimisə itirmisiniz? – deyə mənim yoldaşım sözünə davam etdi.

Yad adam dərhal ona baxdı; onun gözlərində təəccüb ifadə olunurdu.

– Bəli, cənab, - o cavab verdi, - mən həyatımda mənə ən əziz olanı itirmişəm – mən vətəni itirmişəm..."

Onu da qeyd edək ki, Bentam[1] (1748 – 1832) utilitar (tətbiqi) fəlsəfənin banilərindəndir.

---

[1] K.Marks Bentamı "Sağlam burjuaziya ağlının boşboğaz kahini" adlandırmışdır.



Nəhayət, qeyd etmək istərdim ki, elm həmişə incəsənətlə, ədəbiyyatla və fəlsəfə ilə yanaşı, hətta bir-biri ilə daha çox qaynayıb-qarışaraq, çulğaşaraq addımlamışdır. Onu da deyək ki, hazırkı dövrdə heç kəs elmi, bütövlükdə əhatə edə bilməz, lakin onun haqqında həddən artıq danışa bilər, bu şərtlə ki, intəhasızlığı qamarlamağa cəhd eləməsin.

Elmin məqsədi – həqiqəti axtarmaqdır. Miletli Falesdən üzü bəri həqiqəti tapmaq uğrunda mübarizə bu günə qədər davam edir və davam etməkdədir.

Elm onunla həqiqətən məşğul olanlara məmnuniyyət bəxş edir. Lakin onun idraki qiyməti bununla bitmir. Elm – azad insan zəkasının ən böyük nailiyyəti, idealı və onun narahat ağlının məhsuludur. Elm – bəşər sivilizasiyasının məhək daşıdır. Elm və incəsənət birlikdə yeganə ümumi məqsəd güdür; dünyanı və bizim özümüzü dərk etmək.

Ancaq bunların başlanğıc nöqtələri müxtəlifdir.

Elm hərtərəfli tədqiqata xüsusi haldan başlayır və lazım olsa, bu xüsusi hallardan daha ümumi hadisələrə keçir. İncəsənət isə ümumidə xüsusini aydınlaşdırıb təsvir edir.

Elmin böyük kəşflərə doğru gedən yolu, Bekonun dediyi kimi, heç də şahrah deyil, əksinə daşlı-kəsəkli, sıldırımlı və tufanlıdır.

Elmdə seçmə, bütün incəsənət növlərində olduğu kimi çox vacibdir. Alim faktlar düzgün gəlmədikdə ən sevimli nəzəriyyəni belə məmnuniyyətlə dəyişməyi, hətta rədd etməyi bacarmalıdır. O, inanmalıdır ki, təbiətdə rasionalizm mövcuddur, ancaq hesab etməlidir ki, təbiət qanunları tamamilə determinikdir. Həqiqi, kəskin dəlillər gətirməlidir ki, determinizm kainatda baş verən bütün hadisələri, materiyanın bütün dərinliklərini izah edə bilmir. Buna baxmayaraq, elm, hadisələrin sonrakı gedişini əvvəlcədən xəbər vermək üçün onların qanunauyğunluqla cərəyan etdiyini qəbul edir.

Elm də, bütün incəsənət növləri kimi böyük fantaziya, xəyalpərvərlik tələb edir. İnsan oğlu hələ çox erkən çağlarda başa düşdü ki, göy qübbəsi "tərpənməz" deyil və ona "sancılmış" ulduzlar hərəkət edir.

Lakin xeyli müddət keçdi və aydın oldu ki, Yer üzündə, onun dərinliklərində də mühüm hadisələr baş verir.

Bütün bunlar və buna bənzər biliklər bəşəriyyətin inkişaf yollarında elm sahələrinin ayrı-ayrı hissələrə bölünməsinə səbəb oldu.

İncəsənətdə olduğu kimi elmdə də zövq böyük rol oynayır. Nəzəriyyə əsasında və ya eksperiment yolu ilə aparılan elmi tədqiqatın nəticəsi əlbəttə tədqiqatçının zövqündən asılı olaraq həm də müəyyən estetik əhəmiyyətə malik olmalıdır. Həm nəzəri, həm də eksperimental tədqiqatlarda ümumilik və sadəlik yüksək qiymətləndirilir. Bütün fəaliyyət ki, yalnız müəyyən bir nəzəriyyənin təsdiqinə yönəlir, yəni konkret rəqəmə qovulur, onda nəzəriyyə eybəcərləşir, ancaq eybəcərlik bəzən zərifliyə çevrilə bilər.

## §13. LÜĞƏT MİNİMUMU HAQQINDA

"Təbiətin vəhdəti, hadisələrin
müxtəlif sahələrinə aid tərtib
olunan differensial tənkilərin
heyrətamiz
oxşarlığında təzahür edir"

*V.İ.Lenin*

Müxtəlif proseslərin öyrənilməsinə ümumi bir cəhətdən yanaşmaq lazımdır.

Keçən əsrin axırı, bizim əsrin əvvəlində yaşamış çox qüdrətli təbiətşünaslardan biri, fransız alimi Anri Puankare, riyaziyyatı, müxtəlif predmetlərə ad vermə məharəti adlandırmışdır.

Nəzəriyyə və ya eksperimentin tətbiqinin qeyri-mümkünlüyü üzündən hər hansı prosesi hərtərəfli və dəqiq öyrənə bilmədikdə, statistikaya müraciət etmək lazımdır.

Belə ki, əhalinin sayca və tərkibcə dəyişməsinin öyrənilməsində, iqtisadiyyat məsələlərində və dilçilikdə Zipf-Mandelbrot statistik qanunundan istifadə etmək daha münasibdir. Söhbət bu qanunda hadisələrin tərkibindəki əsas kəmiyyətlərin sadəcə olaraq müəyyən nisbətindən gedir (əhalinin sayı, sözlərin miqdarı və s.). Təcrübə yolu ilə müəyyən edilmişdir ki, müxtəlif ədəbi əsərlərdə belə bir qanunauyğunluq mövcuddur: Əgər sözləri onların işlədilmə tezliyinə uyğun ardıcıllıqla düzsək, rastgəlmə ehtimalı daha yüksək olan və ən çox işlənmiş sözü – 1 rəqəmi ilə, növbəti rastgəlmə ehtimalı daha çox olan sözü 2 rəqəmi ilə göstərsək, onda sözün rastgəlmə ehtimalının onun sıra nömrəsinə hasili sabit qalır, yəni 0,1-ə bərabər olur. Bu qanunauyğunluq təqribidir. Əhalinin müxtəlif şəhərlərdə paylanmasını da bu qayda ilə izah etmək olar. Bu qaydanın ABŞ-ın 1-ci 20 şəhərinə tətbiqi, orta hesabla 0,7 faiz fərq vermişdir. Ən çox fərq Çikaqo şəhəri üçün alınmışdır, bu da çox güman ki, şəhər aqlomerasiyalarının (əhali yığınlarının) həddən artıq qeyri-dəqiq təyini ilə əlaqədardır.

Nəşrlərin yazılmasını izah edən Bredford qanunu da, əslində, Zipf-Mandelbrot qanununun eynidir. Belə ki, bunu mətnə tətbiq etdikdə sözün əvəzinə nəşrin adı götürülür. Bredford qanunu informativliyə nail olunmada getdikcə artan çətinliklərin aradan qaldırılmasının qanunauyğunluğu kimi şərh edilir. Məsələn, kimya sahəsində məqalə çapının 100 faiz yerinə yetirilməsi üçün axırıncı 15 faiz məqalələrin alınması, ilk məqalələrin 15 faizinin alınmasına nisbətən 500 dəfə çox səy tələb edir.

Olduqca maraqlıdır ki, A.S.Puşkin, əsərlərində işlətdiyi 400 000 sözdən 1000-ni 180 000 dəfə təkrar etmişdir. A.S.Puşkin dilinin leksikasında 21197 söz vardır. 1000 sözdən ibarət A.S.Puşkin leksikası onun yaradıcılığını müəyyən səviyyədə oxumağa imkan verir.

Bu deyilənlər xarici dillərin öyrənilməsində də böyük əhəmiyyətə malikdir. Məsələn, hər hansı dildən 600 məlum söz bilməklə, o dildə qəzet oxumaq olar. 3000 sözdən ibarət lüğətə malik olmaq praqmatik məqsədlər üçün dilin mənimsənilməsini asanlaşdırır.

Dediklərimizlə əlaqədar J.Simenonun bir mülahizəsi maraqlıdır: "... Mən romanlarımda az söz işlədirəm – iki mindən çox olmayaraq – hərcənd daha çox bilirəm. Niyə? Statistikaya əsasən iyirmi

il bundan əvvəl fransız kəndlisi başqası ilə ünsiyyətdə altı yüz (*kursiv bizimdir* – A.M.) sözdən istifadə edirdi. Kiçik şəhərlərin qulluqçuları və sənətkarları isə - səkkiz yüz, min iki yüz sözdən istifadə edirdilər. Xırda burjuaziyanın söz ehtiyatı isə min beş yüzə yaxın idi. Yalnız müəyyən mədəni səviyyəyə malik adamların söz ehtiyatı iki min – iki min yüz (kursiv bizimdir – M.A.) sözdən ibarət idi".

İnqilaba qədərki Rusiyada əhalinin əksəriyyətinin savadsız olmasına baxmayaraq, ziyalı adamlar ən azı iki və bəzən daha çox Avropa xalqlarının dillərini mükəmməl bilirdilər.

Hazırda Hollandiyada bütün əhali demək olar ki, iki dili - ingilis və alman dillərini mükəmməl bilir. Bu dillər məktəblərin hamısında birinci sinifdən başlayaraq öyrədilir.

Xarici dilləri necə öyrənməli? Əvvəl qeyd etdiyimiz kimi, böyük işləri yerinə yetirdikdə əvvəlcə onu bir neçə kiçik hissələrə bölmək, nəticəni də həmin hissələrdən birinin yerinə yetirilməsi ilə qiymətləndirmək lazımdır. Dil öyrənməyə bir il vaxt verildikdə, əvvəlcə adamın əli işdən (dil öyrənməkdən) soyuyur, çünki hesab edir ki, yarım ilə də öyrənmək olar, tələsmək lazım deyil. İşə daha ciddi girişəndə isə gündə beç söz öyrənmək şərtilə bir ildə təxminən 1825 söz öyrənmək olar ki, bu da dilin lüğət tərkibi minimumundan xeyli çoxdur.

Axır vaxtlar Kişinyov Universitetində dil öyrənməyin yeni üsulu – ritmopediya tətbiq olunur. Bu üsul, necə deyərlər, sağ qulaq effektinə əsaslanır, belə ki, sağ qulaqlıqdan verilən yeni söz yadda saxlanılmalıdır. Sol qulaqlıqdakı müsiqi isə beynin "emosional" yarımkürəsilə qavranır və bu, musiqi yadda saxlamanın əlverişliyi üçün şərait yaratmaqla bərabər, tələbənin yanakı təəssüratlardan uzaqlaşmasına kömək edir.

Bu üsul on ayda 3000 kəlmə öyrənməyə imkan verir. Uşaq böyüdükcə onun söz ehtiyatı da sürətlə artır; iki yaşında uşaq təxminən 300 söz bilir. Üç yaşında isə onun söz ehtiyatı 1000, dörd yaşında 2000-ə qədər çoxalır. Bu yaşda uşaq təfəkküründə elementar qrammatik qaydalar formalaşır və buna uyğun olaraq o, asanlıqla kifayət qədər uzun və mürəkkəb cümlələr qura bilir. Onu da deyək ki, adi adamın passiv söz ehtiyatının asimptotik həddi 60000 sözə qədərdir. Qeyd etdiyimiz kimi ətraf mühit danışıq nitqinin mənimsənilməsinə mühüm təsir göstərir.

Onu da qeyd edək ki, dillər və ya dil öyrəndikdə adamı təhlükəyə təhrik edən "səbəblər" də var. Belə ki, lap uşaqlıqdan rus və Azərbaycan dillərini öyrənən şəxslər çox sözləri pis tələffüz edir və vurğu işarələrini düzgün "qoymurlar".

Qeyd etdiklərimiz, əsasən, bizim ətrafımızda yaşayanların "ləhcə" xətalarının təsirindən baş verir. Məsələn, Bakı ətrafında yaşayanların danışığında "pomidor" sözü "pamador", "avtobus" – "avtabus" və s. kimi tələffüz olunur.

Xatırlayaq ki, Engels, ana dilinin öyrənilməsini dilin qrammatik qaydalarının əzbərlənməsi ilə əvəz etməyi təklif edən Dürinqin əksinə çıxış etmişdir.

XIII əsrdə alman kralı II Fridrix düşünürdü ki, görəsən anadan olan gündən uşaqla heç kəs danışmasa, böyüyəndə hansı dildə danışar. Bu məqsədlə o, dayələrə əmr etdi ki, körpələri yedizdirsinlər, çimizdirsinlər, lakin onların yanında bir kəlmə də olsun tələffüz etməsinlər. Əfsus ki, kral istədiyinə nail ola bilmədi, çünki, bütün uşaqlar öldülər. Sən demə, körpələri qayğıkeş, doğma, isti və heç nə ilə əvəz olunmayan ana nəvazişindən, dayə şəfqətindən, gülər üzlərdə sayrışan mehribanlıqdan, ilıq və billur kimi təmiz ana laylasından ayırmaq olmazmış.

Belə bir əfsanə mövcuddur: Misir fironu Psammetix öyrənmək istəyirdi ki, Yer üzündə ilk öncə hansı dil olmuşdur. Bunun üçün o, iki körpə südəmərin tərbiyyəsini bir bir nəfər lal adama tapşırır... Əfsanədə deyildiyinə görə körpələr, vaxtilə Balkanlarda və Kiçik Asiyada yaşamış qədim xalq – frikiyalıların dilində dil açıb danışmışlar.

Bir ingilis lətifəsində deyilir ki, on yaşında dil açmış bir uşaq böyüklərin nə üçün belə gec dil açdın? – sualına belə cavab verir: "Bifşteks yanıb, əvvəllər çox qəşəng olurdu".

Baxmayaraq ki, bu əhvalatlar o qədər də həqiqətə uyğun deyil, körpəliklərində qayğı və diqqətlə, mehriban rəftar və nəvazişlə

əhatə olunmayan uşaqlarda bəzən fiziki defektlər, nitq qüsurları və s. əmələ gəlir. Belə ki, bəzi hallarda ətraf mühit tələffüzü "korlaya" bilər, amma mühitin olmaması fiziki qüsurlara gətirə bilər.

Ətraf mühitin və cahilliyin bəzi "əsər"lərə necə mənfi təsir göstərməsi aşağıdakı mülahizələrdən aydın görünür.

Yazıçı Lion Feyxtvanger 1935-ci ildə qeyd etmişdir ki, Hitlerin "Mine Kampf" ("Mənim mübarizəm") kitabında alman dilinin qrammatik qaydaları və üslubu 164000 dəfə pozulubdur. Burada bir atalar sözü yerinə düşər: "O, Nuh sözünü yazanda yeddi səhv buraxır".

J.Buffon haqlıdır: "Üslub şəxsiyyətin özüdür".

Üslub kəskinliyinə aid Mendes-Fransın Milli məclisin iclasındakı replikasını misal gətirmək olar:

Deputat: Mənim öz fikirlərimi bəyan etmək hüququm var.

Mendes-Frans: Bunu nəzakətlə edin.

Deputat: Mən bu sifətə qarşı etiraz edirəm.

Mendes-Frans: bu zərflikdir (burada "sifət" və "zərflik" qrammatik anlayışlardır və metafora kimi işlədilir – tərc.).

Danışıq zamanı sözlərin seçilib deyilməsinə, yumşaqlığına, ahənginə, vurğusuna fikir verməyə çalışın; bu həm də adamın öz mədəni səviyyəsindən xəbər verən əlamətlərin ən ümdələrindən biridir; məs: "olsun" – "ola bilsin ki", "nə deyirsən?" – "necə buyurdunuz?", "de görüm" – "buyurun", "institutdan qovulub" – "institdan çıxarılıb" və s. və i.a...

Zipf-Mandelbrot qanunu tərcümənin keyfiyyətcə qiymətləndirilməsində də müəyyən əhəmiyyət kəsb edir. Məlumdur ki, 2000 sözdən ibarət lüğət istər rus, ingilis, fransız, ispan, istərsə də hər hansı başqa dildə olur-olsun, ixtiyari mətnin 80 faizini əhatə edir. Aydındır ki, hər hansı xarici dili öyrəndikdə həmin dildən 2000 söz yadda saxlamaq zəruridir. Bu mətnin 80 faizini başa düşməyə imkan verir (danışıq dili üçün isə 90 faizini).

E.Şteynfeldtin məlumatına əsasən 2000 tez-tez işlədilən söz hekayənin, povestin, nağılın, pyesin, radioverilişin və s. demək olar ki, 77-81 faizini əhatə edir.



## § 14. ÖLÇMƏ VƏ PROQNOZ

"Bilmək – gələcəyi görmək üçün,
gələcəyi görmək – özünü görmək üçündür".
*O.Kont*

Vaxtilə Q.Qaliley ölçülməsi mümkün olan nə varsa, hamısını ölçməyi vəsiyyət etmişdir. Məlumdur ki, bütün ölçmələr, ölçünü apardığımız cihazların və başqa ölçü vasitələrinin dəqiqliyindən asılıdır. Tədqiqat işlərində aparılan ölçmələrdə işlədilən çihazların dəqiqliyi nə dərəcədə olmalıdır? Aydındır ki, dəqiqlik nə qədər yüksək olsa, nəticə də bir o qədər keyfiyyətli olar. Əsrimizin əvvələrində vergüldən sonra 6 rəqəmli dəqiqliklə ölçmə aparmağa imkan verən cihazlar və ölçü vasitələri düzəltməyə çalışırdılar. Hazırda isə vergüldən sonra 14 rəqəm dəqiqliyə malik ölçü vasitələri düzəltmək üçün əlləşirlər.

Qədim dövrlərdə bəşəriyyət Mendeleyevin elementlərin dövri cədvəlində olan təxminən on elementdən istifadə edirdi. XVII yüzillikdə zəruri elementlərin sayı 25-ə, XIX yüzillkdə isə 47-yə çatdı. Hazırda həmin cədvəlin bütün elementlərindən istifadə olunur.

Müasir televiziya və radio vasitəsiylə minlərlə kilometr məsafələrə vaxt siqnalları verildikdə saniyənin miliyonda biri qədər xəta ola bilər. Xəta, göründüyü kimi, olduqca cüzidir. Lakin bu cür cüzi xətaların dəqiq hesablamalarda çox böyük səhvlərə gətirdiyinə gündəlik fəaliyyətimizdə çox tez-tez rast gəlirik. Məsələn, vaxtın qeyd etdiyimiz cüzi xətası təyyarənin dəqiq yerini təyin etdikdə 300 metrə qədər hədəfdən yayınma verir!

Qeyd etdiyimiz kimi, termometrin dəqiqliyinin təkmilləşdirilməsi insan orqanizmində, toxumaların quruluşunda və hüceyrələrdə baş verən müxtəlif dəyişiklikləri daha dəqiq müəyyən etməyə imkan verir. Cihazların həssaslığının artırılması diaqnostikanın düzgünlüyünü artırma yollarından biridir. Xəstəliyin proqnozunda və dəqiq diaqnostikasında cihazların dəqiqliyi ilə yanaşı təbii şəraiti və insanların fərdi xüsusiyyətləri də nəzərə alınmalıdır.

"Meteoxidmətə" yaxından "kömək" edən bitkilərin sayı 400-dən çoxdur.

Həqiqətə uyğunluq dərəcəsi müxtəlif olarsa gələcəyin qiymətləndirilməsi 3 mərhələdə aparılır:

1. Proqnozlaşdırma – "nə ola bilər";
2. Qabaqcadan xəbər vermək – "görünür ki, olacaq";
3. Gələcəyi görmək – "hökmən olacaq".

Planlaşdırma – "olmalıdır".

V.Dudinsevin "Ağ paltarlar" romanının qəhrəmanlarından biri deyir:

1) bilik – kifayət qədər və həm də hüquqi məlumatlara əsalanır;

2) ümid – bu da həqiqi, lakin kifayət qədər olmayan məlumatlara əsaslanır;

3) inam – nə kifayət qədər, nə də həqiqi olmayan məlumatlara əsaslanır.

Proqnozları qısamüddətli – bir neçə saatdan iki sutkaya və uzunmüddətli – bir aya qədər və ondan çox müddətə edirlər.

Çin ekspedisiyası hava haqqında qabaqcadan xəbər verən bir ağac tapmışdır. Yağışların başlanacağına üç gün qalmış, həmin ağacın tünd yaşıl yarpaqları qıpqırmızı olur.

Əgər qeyri-müəyyənliyin səviyyəsi, proqnoz aparılmağa başlanana qədərkindən aşağıdırsa, onda proqnozlaşdırmanı doğru hesab etmək olar.

İdarə oluna bilən hadisələrin proqnozu əsasında qəbul edilən qərardan asılı olaraq həmin hadisələr "öz-özünə həyata keçirilə bilər" və ya "öz-özünə pozula bilər" (öz taleyindən qaçmağa cəhd göstərən Edip effekti).

Bir müəllif yazır ki, "incəsənətdə irəliyə doğru hərəkət, peysərini qabağa verib yeriməyi xatırladır: yolun gedilmiş hissəsi pis görünmür, lakin, yolun qalan hissəsini görmək mümkün deyil. Yalnız qumların üzərində qalmış ayaq izlərini müşahidə etmək olar".

Lyuis Kerrollun qəhrəmanlarından biri – Trulyalya oxuyurdu: "Tamamilə tərsinə, dal qabağa – irəli".



Dantedən bir parçaya fikir verin:

Kahinlər...
Elə ki, gözümə sataşdı onlar,
Varlığım titrəyib, olur tarü-mar.
Əgər biri ilə rastlaşsanız siz,
Görərsiz... Mal kimi durub, səmirsiz,
Dal-dalı gedəcək sənə baxmadan.
Sanki, düz baxmağı unudub, nadan.*

Qədim və ibrətamiz bir nəsihət var: - həmişə dön, geri bax. Belə ki, bir addım atdınmı – dön, geri bax, gör nə alındı; pisdirsə təkrar etmə, yox, – yaxşıdırsa nəzərdə saxla, onda sonrakı addımlar əvvəlkilərdən effektli olacaqdır. Bununla da əks əlaqə mexanizminin köməyi ilə, fəaliyyət, ardıcıl sürətdə öz-özünə təkmilləşmə yolu ilə inkişaf edəcəkdir.

Canlı orqanizmlərdə və bitkilərdə təbiətin necə deyərlər, səxavətilə "qoyulmuş" siqnal orqanları havanın dəyişməsini qabaqcadan bilməyə çox kömək edir. Dəniz və okeanların tufanlı sahələrində infrasəs tezlikli dalğalar yaranır ki, bu da tufan yaradıcı səbəbləri xeyli dərəcədə qabaqlayır. Odur ki, fırtınanı, həmin tezlikləri hiss edən cihazların köməyi ilə əvvəlcədən bilmək olur. Buna necə nail omuşlar? Həmin infrasəs dalğalarını meduzanın "qulaq" deyilən bədən üzvü dərhal qəbul edir. Bax, elə bu prinsipə əsaslanan elektron cihaz, fırtınanı 10-15 saat qabaqdan xəbər verir.

Bir çox heyvanların, zəlzələni qabaqcadan duyduqları məlumdur.

Kömür mədənləri şaxtalarında fəhlələrin çətin hiss etdikləri və onların həyatı üçün çox təhlükəli olan "qaz yığılmasını" Kanarya quşları (sarıbülbüllər) dərhal hiss edərək, civiltilərini kəsir, oxumurlar.

Ev bitkiləri də "canlı indiqator" rolunu oynaya bilirlər – tradeskansiyanın (çoxillik ot) çiçəklərinin erkəkçikləri qaz iyi duyan kimi dərhal öz mavi rənglərini dəyişib, çəhrayı rənglə əvəz edirlər.

Stenford Unuversitetinin mütəxəssisi Marta Adams belə hesab edir ki, günəş fəallığına, havanın rütubətinə, atmosfer təzyiqinin dəyişilməsinə və s. faktorlara qarşı həddən artıq həssas olan adamlar

zəlzələni qabaqcadan hiss edirlər. Bu qəbildən olan adamlarda, birdən-birə baş ağrısı, sümük sızıltıları, ürək bulanması, mədədə ağırlıq yaranması və başqa faktorların baş verməsi zəlzələ olacağını xəbər verir.

Marta Adams eksperiment üçün San-Fransiskoda yaşayan iyirmiyə yaxın həmin xarakterli adamlardan seçmiş və yüksək dəqiqliklə 6 yeraltı təkanın olacağını qabaqcadan xəbər vermişdir.

Son zamanlar təbabətdə, tibbi ekspertizalarda və s. "genetik daktiloskopiya" deyilən metod tətbiq olunmağa başlamışdır.

Məlumdur ki, hər bir şəxsdə DNK (dezoksiribonuklein turşusu) var. Onun iki nəfərdə uyğun gəlməsi, yəni eyni olması 4 miliyondan bir hadisəyə təsadüf edir.

Lester Universtitetinin tədqiqatçıları təsdiq edirlər ki, DNK-nın rentgen cihazında təsvirini almaq üçün adamın dərisindən, tükündən bir hissəcik və ya bir damcı qanı kifayətdir. Bu nəticəni, yaxalanmış bir şəxsin, laboratoriya təhlili nəticəsində alınmış oxşar əlamətlərini tutuşdurmaqla, onun cinayət yerində olub-olmamasını demək olar.

Macar tədqiqatçıları güman edirlər ki, infarkt xəstəliyinə tutulma riski ilə saçda kalsiumun miqdarı arasında qarşılıqlı əlaqə var. Saçda kalsiumun miqdarının azalması gələcəkdə infarkta tutulmanın yaxınlaşdığından xəbər verir.

"İzvestiya" (21.XI.1985) qəzetindəki "Təbabət şarlatanları" məqaləsində qeyd edilir ki, amerikalı həkim Stefan Barret iki nəfər sağlam adamın saçını müxtəlif tibbi laboratoriyalara göndərib və oradan "dəhşətli" nəticələr almışdır, hətta bunlardan birinin 27 cür xəstəliyi olduğu qeyd edilmişdir.

Qeyd etdiklərimiz göstərir ki, diaqnoz qoymanı kompleks metodlardan istifadə etmək əsasında aparmaq lazımdır. Xəstəni məsafədən (distansiya) idarəetmə sistemlərinin köməyi ilə müalicə etdikdə müxtəlif məlumatlar verən kanallardan istifadə olunur.

Kanallarla alınan məlumatlar bunlardır:

1. Bədən səthinin temperaturunu bilmək üçün onun infraqırmızı istilik şüalanması;

2. Daxili orqanın temperaturunu bilmək üçün radioşüalanma;



3. Elektrik, maqnit sahələri, akustik dalğalar;

4. Xemilyumenessensiya (optik diiapozonda bədənin dəri örtüyünün işıqlandırılması);

5. Dəri vasitəsi ilə buxar, aerozol halında ifraz olunan kimyəvi birləşmələr.

Son illərdə ürəyin, beynin və əzələlərin öyrənilməsində maqnitodiaqnostikanın mümkünlüyü tez-tez müzakirə olunur.

Bədənin temperaturu, xəstəliyin diaqnozuna kömək edən olduğu kimi, müxtəlif iylər də emosional vəziyyətə, hissiyyata və nəticədə də əhvali-ruhiyyəyə təsir edən amil kimi özünü göstərir.

Amerikalı həkim H.Stenford və psixoloq H.Reynold 7 yaşından 75 yaşına qədər 500 nəfəri müayinə edib sorğu-sual aparmışlar. Təcrübələrdə, qətran, isti çörək, qızardılmış ət, quru ot, dərman bitkiləri qoxusu verən 260 müxtəlif çövhərdən, eyni zamanda 80 növ ətriyyat və kosmetik maddələrdən və s. istifadə olunmuşdur.

Nəticədə ümumi qanunauyğunluq aşkar edilmişdir. Belə ki, iybilmə ən çox uşaqlarda və qocalarda inkişaf etmişdir. İybilməyə həssaslıq böyrəyin iltihabı, şəkərli diabet, parabaş xəstəliklərində daha da şiddətlənir.

Əhvali-ruhiyyəyə təsiri baxımından iylər 4 qrupa bölünür: 1 – təravətləndirici (sakitləşdirici); 2 – müsbət (həvəs və maraq oyadıcı); 3 – kütləşdirici, bəzən də narkotik təsir edici; 4 – əsəbləşdirici.

Dindirilənlərdən 80 faizi demişdir ki, iynəyarpaqlı ağacların, təzə almanın, dəniz suyunun, qamışın iyindən kefləri durulur, ruhən özlərini əla hiss edirlər. Bəzi şəxslər bişmiş kartofun, ocaq tüstüsünün iyini (səyyahlar, balıqçılar, ovçular) daha üstün tutmuşlar. Kifin, durğun suyun və s. iyi hamıda narahatlıq və bəzilərində baş ağrısı yaratmışdır.

Çobanyastığı, nanə, əriyən qar suyunun rayihəsi ilə dolmuş otaqlarda bir neçə saat qalan beç yaşınadək uşaqlar məsələləri daha tez həll etmiş və məntiqi fikirləşmədə daha dəqiq olmuşlar.

Nərgiz və bənövşə rahiyəsi müayinə olunanların çoxunda sentimental əhvali-ruhiyyə oyatmışdır. Jasmin və yasəmən ətri sa-

kitlik, üzgünlük və asudəliyin ləzzətli dincliyi hissləri yaratmışdır. Qızılgül, portağal və limon rayihəsi isə tənəffüs edənlərdə xoş əhvali-ruhiyyə yaratmış və bunun ardınca, onlarda işləmək həvəsi artmışdır. Müxtəlif boyaların, yağların, yuyucu maddələrin iyi müayinə olunanların əksəriyyətində pis əhvali-ruhiyyə oyatmışdır.

Bəzi dərmanların və dezinfeksiyaedici maddələrin iyinə kişilərə nisbətən qadınlar çətin dözürlər.

İyirmi ildən çoxdur ki, Azərbaycan həkimləri astma, təngnəfəslik, yuxusuzluq, əsəbilik və s. xəstəlikləri güllərin rayihəsi ilə müalicə edirlər.

Hələ Tutanxamon dövründə Misir həkimləri göz qişasının rənginin dəyişməsinə əsasən bir sıra xəstəliklərin diaqnozunu qoyarlarmış. Bu üsul sonralar Kiçik Asiyaya, Hindistana və Çinə yayılmışdır.

XIX yüzillikdə macar həkimi İqnati Peçeli[1] (1826-cı ildə doğulub) gözün rənginə əsaslanan diaqnostikanı yenidən kəşf etdi. İsveç pastoru N.Lilyekvist də belə bir kəşf etdi. Peçeliyə görə göy gözlülərə nisbətən qonur gözlülər ümumiyyətlə zəif, həssas və daha əsəbi olurlar.

Villi Firat belə nəticəyə gəlmişdir ki, göz qişasnın toxunması dolğun, şəffaf və birrəngli olan adamlar daha sağlamdırlar.

SSRİ-də P.Lumumba adına Xalqlar dostluğu Universtitetinin tibb fakultəsinin mərkəzi elmi tədqiqat laboratoriyasının nəzdində 1977-ci ildə klinik iridodiaqnostik[2] tədqiqatlar şöbəsi açılmışdır. Daxili orqanlar xəstələndikdə mərkəzi beyinə "xəbər" göndərilir və beyin də öz növbəsində həmin xəbərlərə uyğun olaraq gözün al-əlvan qişasına müəyyən rəng çalarları tonunda siqnallar göndərir. Bu rənglərin uyğun gəldiyi xəstəliklər iridodiaqnostika yolu ilə dəqiqləşdirilir. Amerika mütəxəssisləri göstərmişlər ki, eyni bir işıq mənbəyinin şüaları beyin yarımkürəçiklərinin qabığına müxtəlif

[1] M.Platen. Noviy sposob leçeniya. IV t. (əlavə), S – Peterburq, 1897.

[2] İridodiaqnostika – yun. – iridos – qövsi-quzeh, al-əlvanlıq – yun – diagnostikos – müəyyən etmə).



təsir göstərir, özü də qaragözlülərə nisbətən gözləri açıq rəngdə olanlarda bu təsir daha güclüdür.

Məlumdur ki, göz bəbəyinin böyüklüyünə görə adamın əhvali-ruhiyyəsi və psixikasının vəziyyəti haqqında müəyyən fikir yürütmək olar. Ləl-cəvahiratla alver edən Çinli tacirlər, alıcıların qiymətli daş-qaçlara baxarkən bəbəklərinin böyüməsinə görə həmin əşyalara qiymət qoyar və uyğun olaraq qiymətləri də bahalaşdırarlarmış...

Ac adam müxtəlif cür ləziz xörəklər gördüldə göz bəbəkləri böyüyür. Bu, müxtəlif adamlarda xörəklərin növünə görə müxtəlif ölçüdə böyüyür. Məsələn, əgər salat gördükdə bəbək cəmisi 0,08 mm böyüyürsə, kartofla bifşteks gördükdə daha çox – 0, 39 mm böyüyür.

Keçmişdə geniş yayılmış bir mahnının sözlərində deyilirdi:

Necə gözəl görünür, həyatda insan,
Həmişə hər yerdə nəzərdəyik biz.
Gah qəzəblidirlər, gah da mehriban,
Qəlbin güzgüsüdür gözlər, çübhəsiz.*

Tibet təbaətində diaqnoz qoymaqda qara ciyərin fəaliyyətinə və "qara ciyərin rəngi" adlanan gözlərə böyük əhəmiyyət verilir.

Göz almasının xarici qişasının sarılığı və bəbəyin sağ hissəsinin qeyri-hamarlığı qara ciyər xəstəliyinin əlamətidir. Göz almasının xarici qişasının sarılığı və bəbəyin aşağı hissəsinin qeyri-hamarlığı – qan xəstəliyinin əlamətidir.

Diaqnoz qoymada xəstənin sidiyinin və dilinin görünüşünün vizual tədqiqatı müəyyən əhəmiyyətə malikdir.

"Rlunq" ("qazlar") xəstəliyində sidiyin rəngi açıq, demək olar ki, rəngsiz, köpüklü, dil isə qırmızı, quru və kələ-kötür olmalıdır; "bad-kan" ("selik") xəstəliyində - ağ, bir az iyli və buxarlanan, dil isə – rəngsiz, yumşaq və nəm: "mkxris" ("səfra", "öd") xəstəliyində – sarı, buxarlı və iyli, dil isə – zəif sarı və üstü ərpli olur.

Məlumdur ki, yoluxucu xəstəliklər törədən bakteriyaların özünəməxsus iyi olur. Belə ki, sarı qızdırmada adamın dərisi kolbasa dükanının, qanqrenada isə cürümüş almanın iyini verir.

Statistik təhlil göstərir ki, *nəfəs vermə* ilə bir sıra xəstəlikləri təyin etmək olar (diabet, qara çiyər xəstəliyi və s.).

Onu da deyək ki, dadbilmə hissinin pozulması – bir sıra xəstəliklərin ilk əlamətidir. Polşa mütəxəssisləri elektrodlu və cərəyanının miqdarı tənzim olunan cihaz yaratmışlar. Bu cihazın köməyi ilə xəstədə səciyyəvi təm hissi yaradılmasına nail olurlar.

Son vaxtlar məlum olmuşdur ki, insanın fiziki və emosional vəziyyətini *Kirlian effektindən istifadə* etməklə öyrənmək olur. Bu effekt orqanizmin vəziyyətindən asılı olaraq, yüksək tezlikli elektrik boşalmalarında bioloji obyektlərin işıqvermə qabiliyyətinin dəyişməsinə əsaslanır. Bu metodu tətbiq etməklə müxtəlif istehsalat zədələnmələrinin qarşısını almaq olar.

Diaqnostikada digər yol – statistik metoddur. Xəstəxanalarda tibbi statistika üzrə mütəxəssis ixtisası hələ XIX yüzillikdə məlum idi. O dövrdə həkimlər, mühəndis və fiziklərin diaqnoz qoymaq üçün nə vaxt dəqiq cihazlar yaradacaqlarını gözləmədilər. Onlar, xəstəliklərin simptomları haqqında məlumatları, xəstəlik əlamətlərini toplayıb təhlil etməklə, xəstəliyi müəyyən edib müalicə etmək yolu ilə getdilər. Diaqnozun dəqiqliyi və onu mümkün qədər tez təyin etmək, tibbi məlumatın həcmi və həkimin mütəxəssis *səriştəsi* ilə əlaqədar olan bir çox faktrolardan asılıdır. Yaxşı diaqnost nəinki təkcə xəstəliyi dərhal təyin etməli, o həm də diaqnoz qoyma prosesində mümkün qədər çox imkan nəzərdən keçirməlidir. Uzun əsrlər boyu, həkimlər diaqnozu çox tez və dəqiq qoymağa imkan verən üsul və şərait axtarmışlar. Misal üçün, statistik diskriminant təhlil ideyasına əsaslanan diaqnostikanın ədədi metodundan necə istifadə olunmasına müraciət edək. İşin məqzi belədir ki, hər bir xəstəlik əlamətinə ədədi qiymət verilir (daha doğrusu xalların sayı). Əgər xalların cəmi hər hansı həddən azdırsa, onda öyrənilən obyekt bir qrupa, əgər çoxdursa digər qrupa aid edilir. N.Beylinin "Matematika v bioloqii i medisine" (M.Mir, 1970) kitabında nümunə üçün tireotoksikoz xəstəliyinin diaqnostikası verilmişdir. Burda tibbi mütəxəssislər hər bir xəstəlik əlamətinə müəyyən miqdarda xal vermişlər.



Bundan sonra iki qrupdan ibarət adamlar ayrılmış və hər biri üçün xalların ümumi sayı hesablanmışdır. Qrupun birində tireotoksikoz xəstəliyinə tutulmuş 83 nəfər xəstə, o birində isə 99 nəfər sağlam olub. Xəstələr üçün hesablanmış xalların cəmi biri digərindən fərqlənsə də, sağlamlarınkından yüksək olmuşdur. Müəyyən edilmişdir ki, əgər cəm 2+20-dən çoxdursa, onda həmin adamın:

| Xəstəliyin əlamətləri | var | yoxdur |
|---|---|---|
| 1. Təngnəfəslik | +1 | 0 |
| 2. Ürəkdöyünmə | +2 | 0 |
| 3. Yorğunluq | +2 | 0 |
| 4. Xəstə istini xoşlayır | 0 | 0 |
| 5. Xəstə soyuğu xoşlayır | +5 | - 5 |
| 6. Tərləmə | +3 | 0 |
| 7. Əsəbilik | +2 | 0 |
| 8. İştahalılıq | +3 | 0 |
| 9. Az ıştahalılıq | 0 | - 3 |

və s. cəmi: 28 əlamət.

tireotoksikozu var, xalların cəmi burda azdırsa, o adam sağlamdır. Beləliklə, +20 həmin xəstəliyin diaqnozunda kriteriya kimi qəbul edilmişdir.

Bundan sonra xəstələrin diaqnozunu təyin etməkdə həkimlərin çətinlik çəkdikləri 118 adam seçilib qeydə alınmışdır. Meyarın doğruluğunu həmin xəstələr üzərində yoxladılar. Sonra isə müalicənin nəticələrini nəzərə almaqla, onların vəziyyətlərini ən yeni cihazlarının köməyi ilə uzun müddət nəzarət altında saxladılar. Həkimlər qəti qərara gəldilər ki, xəstələrin 51 nəfəri tireotoksikozdur. Qalan 67 nəfəri isə sağlamdır. Xəstələrdən 45 nəfərin (80 faiz) xallarının cəmi isə – 11 ilə +19 arasında olmuşdur. Sağlam adamlardan yalnız bir nəfərin (1,5 faiz) xallarının cəmi +20-dən çox olmuşdur. Sonralar bu cür yoxlamalar daha dörd xəstəxanalarda da aparılmış və müəyyən edilmişdir ki, həkimlərin rəyləri uyğun gəlməyən şübhəli hallarda həmin mütodun köməyi ilə 0,85 ehtimalla düzgün diaqnoz qoymaq mümkündür.

Bax, elə bu cür hallarda statistik diskriminant təhlil (ehtimal) metodu daha böyük əhəmiyyətə malikdir. Xülasə, diaqnoz qoymada başqa metodlar lazımı nəticə vermədikdə, bu tamamilə dəqiq olmasa da, həkimlər üçün daha bir gərəkli və əhəmiyyətli metoddur (və ya pislər içərisində yaxşı həll (T.Saati).

Eksperimentin riyazi nəzəriyyəsi sənayenin qarşısında geniş imkanlar açır. Obrazları tanıma metodunun köməyi ilə, artıq bu gün tamamilə hiss olunacaq əməli nəticələr alınır. Məsələn, elə götürək layların neft verməsini artıran üsullardan birini – hidroyarılmanı. Məlumdur ki, ümumiyyətlə bu üsul kifayət qədər effektlidir. Yaxşı, bəs "ümumiyyətlə" – nə deməkdir? Statistik hesablamalar göstərir ki, hidroyarılma 10 haldan 4 və 5-ində nəzərə çarpacaq dərəcədə xeyir verir. Bu azdır, ya çox? Prinsipcə çoxdur. Çünki, bu halda xərclər "uğurlu" quyulardan çıxarılan əlavə neftin hesabına artıqlaması ilə ödənilir.

Aydındır ki, 40 -50 faiz – orta göstəricidir. Yatağın xüsusiyyətlərini yaxşı bilən, hər bir quyunun "xasiyyətinə" bələd olan təcrübəli mühəndis hər 100 hidroyarılma əməliyyatından 60 -70-də həmişə yaxşı nəticə alır. Necə, hansı əlamətə görə sualına biz hələ cavab verə bilmirik və heç onun özü də bunu dəqiq ifadə edə bilməz. Səbəbi, həkimlərdə olduğu kimidir: mühəndis təcrübəsi çoxcəhətlidir, o rəsmən formalaşmamışdır və dəqiq strategiya ilə ifadə olunmur. Sadəcə olaraq mühəndisin hafizəsində müəyyən qədər hadisələrin təkrarı yığılır: bax, bu qrup hadisələrdə hidravlikyarılma müvəffəqiyyətlə nəticələnir, bu birilərində isə yox.

Bununla bəraber, obrazların tanınması metodu cəhətdən yanaşdıqda, məsələ ciddi məntiqi həllə tabe olur.

Lap sadə hala baxaq. Tutaq ki, hidravlikyarılmanın müvəffəqiyyəti və ya müvəffəqiyyətsizliyi iki faktorla əlaqədardır: quyunun debiti – verdiyi neftin miqdarı və layın qalınlığı ilə. Bunları təyin etmək o qədər də çətin deyil: debit məlumdur, layın qalınlığı isə karotaj diaqramı ilə təyin olunur.



Beləliklə, müəyyən miqdarda quyular üçün hidravlikyarılma məlumatlarını götürüb, həmin iki parametrləri nəzərə almaqla onları işləyirlər. Əgər işləmənin nəticəsi həndəsi olaraq ifadə olunursa, iki asılılıq sistemi alınır (nöqtələr). Debitin və layın qalınlığının hər hansı qiymətlərinə uyğun gələn bir qrup nöqtələr "hə" halı üçün səciyyəvidir (hidravlikyarılma effektlidir), o biri qrup nöqtələr "yox" halına uyğun gəlir (hidravlikyarılma effektiv deyil).

Aldığımız bu nəticədən istifadə edərək, hər bir yeni quyu üçün hidravlikyarılmanın ehtimal olunan nəticəsini qabaqcadan deyə bilərik. Bunun üçün verilən məlumatlardan (debit və layın qalınlığı) istifadə edərək həmin nöqtəni (debit və layın qalınlığına uyğun gələn nöqtəni) qurmaq kifayətdir. Bu zaman üç hal ola bilər: nöqtə "hə" sahəsinə düşür (hidravlikyarılmanın mənasi var); nöqtə "yox" sahəsinə düşür (effekt şübhəlidir).

Həqiqətdə isə hidravlikyarlmanın effektliyi iki yox, daha çox faktordan aslıdır: quyuya vurulan mayenin yaratdığı təyziqdən, mayevurmanın tempindən, vurulan mayedə qumun faizindən və s. Lakin, bu kəmiyyət fərqidir və riyazı işləmə üçün xüsusi çətinlik kəsb eləmir.

Nəhayət, konkret təklif verməyə (hidravlikyarılmanı tətbiq etmək və ya etməmək) imkan yaradan diaqram əldə edirik ki, bu da işin müvəffəqiyyətlə nəticələnməsi üçün bütün faktorları nəzərə almaqla qurulur.

Bu istiqamətdə işləri davam etdirərək cavabları fərqləndirə bilərik. Sadəcə "hə" və "yox"ların yerinə diaqrama, tam bir silsilə ehtimal olunan nəticələr – "yüksəkeffektli", "ortaeffektli", "azeffektli" və s. – verir.

Ancaq, bu hələ hamısı deyil. İndiyə qədər biz passiv sistemə baxdıq. Başqa sözlə desək, biz ancaq hidravlikyarılmanın hansı hallarda uğurlu olacağını deyə bildik. Əlbəttə, bu cür nəticələr də kifayət qədər əhəmiyyətlidir, lakin metodun həqiqi imkanları daha genişdir.

Doğrurdan da əgər bəzi parametrlər (deyək ki, quyunun debiti,

layın qalınlığı) bizdən asılı deyilsə, başqa parametrlər (mayevurma təzyiqi, mayedə qumun miqdarı, vurmanın tempi və s.) tamamilə tənzim oluna bilər. Bu isə bizə, əvvəlcədən diaqramda həmin parametrlərin əlverişli asılılığını tapıb, maksimal effekt verən hidravlikyarılmanın optimal variantını seçməyə imkan verir.

Təbii olaraq belə bir sual meydana çıxa bilər ki, bu nəzəri mühakimələr təcrübədə təsdiq olunubmu? Bəli, Tatarıstanın Romaşkinski neft yatağında 92 quyuda hidravlikyarılmanın strategiyası işlənib hazırlanmışdır. Bu halda əlverişlilik faizi 40 -50-dən 80-ə qədər artmışdır. Əgər yada salsaq ki, obrazların müəyyən etmə metodu, laya təsir etmənin (neft verməni artırmaq üçün) başqa üsullarına, hətta müxtəlif geoloji-texniki tədbirlərdə tətbiq oluna bilir (ildə on mindən artıq), onda ən azı 3,6 – 4 milyon manat iqtisadi səmərə alınır. Bu o deməkdir ki, ölkə əlavə olaraq yüz minlər və milyonlarla ton neft alar. Onu da qeyd edək ki, bütün axtarışlar və eksperimentlər, necə deyərlər "natura"da yox, cüzi vaxt, əmək və vəsait sərfi tələb eədn EHM-də aparılır və yüksək iqtisadi səmərəyə kömək edən səbəblərdən biri də elə budur.

İndi tutaq ki, yeni kəşf olunmuş qazkondensat yatağının növünü təyin etmək lazımdır: yəni yataq neftlə haşiyələnmiş, yoxsa xalis qaz kondensat yatağıdır. Çünki, istismar texnologiyasının seçilməsi mədən qurğularına kapital qoyuluşu, avadanlıq xərcləri və s. yatağın növünün təyin olunmasından asılıdır. Bu isə milyonlar deməkdir. Yatağın növü düzgün təyin olunmasa bütün bu milyonlar havayı olaraq "göyə sovrula" bilər.

Belə olmasın deyə, 59 qazkondensat yatağında, o cümlədən 30-u neftlə haşıyələnmiş yataqda qazın tərkibi tədqiq edilmişdir. Məlum olmuşdur ki, qazkondensat yataqları üçün iki əlamət daha səciyyəvidir. Bunlar kondensatın tərkibindəki qazların miqdarının nisbəti

$$\frac{Cl}{C5} + \frac{Cl}{C5-}$$ və $C_5+$ qazının miqdarıdır.



Bu əlamətlərin dəyişmə intervalları və mütəxəssislər tərəfindən müəyyən olunmuş xalların sayı və ranqlar 1-ci cədvəldə verilir.

*Cədvəl 1*

| $\frac{Cl}{C5-}$ | $C_5+$ | Xalların və ya ranqların sayı |
|---|---|---|
| 100 dən yuxarı | 0 – 1,75 | 0 |
| 80 – 100 | 1,75 – 3,5 | 1 |
| 60 – 80 | 3,5 – 5,25 | 2 |
| 40 – 60 | 5,25 - 7 | 3 |
| 20 – 40 | 7 – 8,75 | 4 |
| 0 -20 | 8,75 | 5 |

Bundan sonra 2-ci cədvəldə neftlə haşiyələnmiş 5 yatağın və 5 dənə də xalis qazkondensat yatağının timsalında ranq təsnifatı aparılmışdır.

Müəyyən edilmişdir ki, neft haşiyəli yataqlar üçün ranqların cəmi 4-dən çox, neft haşıyəsiz, yəni xalis qazkondensat yataqları üçün isə 2-dən az olmamalıdır. Bu üsulu bütün 59 yataqda yoxladıqda onların 54-də tam təsdiq olunmuşdur (yataqların ümumi sayının 91,5 faizində).

Beləliklə, həmin üsul ("ranq təsnifatı" üsulu) hər bir yeni qazkondensat yatağının növünü 0, 915 ehtimalla təyin etməyə imkan verir.

Bəzi hallarda qabaqcadan xəbər verməni kifayət qədər dərk etməmək "dedi-qodulara", müxtəlif əllaməllikərə, bağışlanılmaz səhvlərə və s. gətirib çıxarır.

Misal kimi radio və televiziya vasitəsi ilə verilən hava haqqında sinoptiklərin proqnozlarını göstərmək olar.

*Cədvəl 1*

| Obyektin nömrəsi | Qazkondensat yatağı | | | | | |
|---|---|---|---|---|---|---|
| | Neft haşiyəsi ilə | | Ranqların cəmi | Haşiyəsiz (xalis qazkondensat) | | |
| | Əlamət ranqları | | | Əlamət ranqları | | Ranqların cəmi |
| | $\frac{Cl}{C5-}$ | $C_5+$ | | $\frac{Cl}{C5-}$ | $C_5+$ | |
| 1 | 4 | 5 | 9 | 0 | 2 | 2 |
| 2 | 1 | 4 | 5 | 0 | 0 | 0 |
| 3 | 1 | 3 | 4 | 0 | 0 | 0 |
| 4 | 1 | 4 | 5 | 0 | 2 | 1 |
| 5 | 1 | 4 | 5 | 0 | 2 | 2 |

Bu proqnozların əsas elementləri bunlardır: buludluluq, yağış, külək, hərarət (temperatur).

Sinoptiklərin məlumatlarının özünüdoğrultma faizi sutka ərzində təxminən 86 faizdir.

Küləyin istiqaməti və sürətinin 8 əsas rumbla proqnozu adətən dəqiq olur.

Dəqiqliyi yüksəltmək üçün göy qübbəsi on bərabər hissələrə bölünür və xalların sayı buludla örtülü hissələrin sayına uyğun gəlir. Xalların sayı ikidən az və ya ikiyə bərabərdirsə, bu, səmanın aydın olması deməkdir.

Yağıntı, onun 12 saat ərzində yığılmış miqdarı ilə (mm-lə) ölçülür (az yağıntı – 3 mm, zəif – 4 mm-dən 14 mm-dək, güclü – 15 mm-dən 49 mm-dək, çox güclü – 50 mm-dən çox).

Əgər yağışölçəndə suyun səviyyəsi 12 saat ərzində 4 mm-ə bərabərdirsə, yağış zəifdir, bu səviyyə bir saata yağmışsa, deməli, leysan və ya şiddətli yağış yağmışdır.

Bəzən bu cür yağışlı havanı görəndə sinoptikləri qınayırıq.

Böyük şəhərlərdə havanın temperaturu $20C^0$ dəqiqliklə qabaqcadan xəbər verilir. Həmişə gündüz temperaturu minimuma, gecə temperaturu isə maksimuma proqnozlaşdırılır.



Dediklərimiz sinoptiklərin proqnozlarının nəticələrini obyektiv müzakirə etmək üçün müəyyən təminat verə bilər.

A.Fransın bir kəlamı yada düşür: "Elm səhv etmir, ancaq alimlər həmişə yanılırlar".

Caffri Qorer "İngilis xarakteri" kitabında minlərlə adamdan: – "Həyat yoldaşınızda ən çox hansı keyfiyyətləri xoşlayırsınız?" sualına aldığı cavabları ümumiləşdirir. Arvadların cavablarının nəticələri belədir: 33 faizi ərlərinin onları başa düşməmələrini, 28 faizi qayğıkeşliyini, 24 faizi yumorunu, 23 faizi namusluluğunu, 21 faizi sədaqətini, 19 faizi səxavətliliyini, 17 faizi məhəbbətini, 14 faizi səbrliliyini xoşladıqlarını demişlər.

Kişilərin cavablarının nəticələri göstərmişdir ki, 29 faizi arvadının evdarlığını, 26 faizi xoş rəftarlığını, 23 faizi onu başa düşməsini, 22 faizi məhəbbətini, 21 faizi sadəqətini, 20 faizi – ləziz xörəklər hazırlamaq qabiliyyətini, 18 faizi – ağlını qiymətləndirmişlər.

Kişilərin öz arvadlarında sevmədikləri xasiyyətlər: deyingənlik – 29 faiz, sarsaqlıq – 24 faiz, qeybətçilk – 21 faiz, israfçılıq – 17 faiz, eqoizm – 17 faiz.

Arvadların öz ərlərində sevmədikləri xasiyyətlər: eqoizm – 59 faiz, ağıldan kəmlik – 20 faiz, tənbəllik, evdə kömək etməmək – 18 faiz, pintilik – 17 faiz, namussuzluq – 16 faiz.

Beləliklə, sorğular göstərir ki, etik kriteriyalar emosional kriteriyalara nisbətən daha çox üstünlük təşkil edir və bu həmin kateqoriyaları müəyyən ardıcıllıqla düzüb təhlil etməyə imkan verir. İki səviyyədə və ya daha dəqiqləşdirilmiş əsasda kəbinin möhkəmliyi haqqında məlumata malik olduqda, eyni zamanda "tanıma" metodundan istifadə edərək, həm öz-özünə nəzarət, həm də rəftarı tənzim etmədə proqnozlaşdırma əhəmiyyəti kəsb edən kəbinin "keyfiyyət kriteriya"sından istifadə etməyin mümkünlüyünü müzakirə etmək olar.

Onu da deyək ki, Stavropolda boşanma hallarını təhlil etdikdə bir daha məlum olmuşdur ki, ailə münasibətlərində etik münasibətlər emosional münasibətlərdən üstündür.

Amerika psixoloqlarının apardıqları tədqiqatların təhlili göstərmişdir ki, ailə dedi-qoduları, ər və arvad arasındakı mübahisələr adətən, arvadın evdəki səliqəsizliyi və dadlı yeməklər hazırlaya bilməməsi üstündə baş verir ("Sos. Rossiya". 8. 02.86).

Qeyd edək ki, sorğu apardıqda soruşulan adamda cavab vermək həvəsi oyatmaq özü də bir məharət tələb edir və bu lazımdır. Soruşulanın düzgün məlumat vermək istəyinə təsir edən əsas amillərdən biri, verdiyi cavabın ona ziyan gətirməyəcəyini yəqin etməsidir.

Anonim sorğu aparılması bu amilin təsirinin azadılmasına kömək edir. Təbiidir ki, anonim sorğu ən çox aşağı statuslu, yəni kiçik rütbəli şəxslərə daha çox aiddir, yüksək rütbəlilər üçün bunun bir o qədər də əhəmiyyəti yoxdur.

Sorğu vasitəsilə toplanan dərin və maraqlı rəylər və fikirlər, məlumat çoxluğunun ümumi axınında itib batmamalıdır.

Anonimin xeyli savadlı tərzdə ifadəsinə aşağıdakı müraciəti göstərmək olar: "Bizə Sizin familiyanızı bilmək lazım deyil, ona görə ki, bizə əsas etibarı ilə gənclərə kömək edəcək məsləhətləriniz lazımdır".

Bu adamı yaxşı tanıdıqda onun yersiz suallarından qəzəblənməmək lazımdır; ağılla, təmkinlə cavab vermək qulaq asanlara həm də tərbiyəvi təsir göstərir. İngilislər deyirlər: Dərk etmək lazımdır ki, qarşındakı şəxsi cükküldəməyə məcbur edən nədir?

İ.Kantın qeyd etdiyi kimi, ağıllı sual vermək bacarığı ağlın və fərasətin ən başlıca əlamətidir. Məlumdur ki, normal inkişaf edən hər bir uşaq gündə orta hesabla 300 sual verir və adətən bu suallara: "istənilən cavab" prinsipi üzrə cavab alır.

İ.Kant yazırdı ki, əgər mənasız sual mənasız da cavab tələb edirsə, bu, sual verənin xəcalətindən başqa, cavab verənin qabiliyyətsizliyini göstərməklə bərabər, onu cəfəng danışıqlara, hərzəhədyanlara öyrədir. Bunu keçmişin bir ibrətamiz kəlamı ilə ifadə etmək olar: bir nəfər keçi sağır, başqa birisi isə südü ələyə " yığır".

Ekspertlərin anketləşdirmələri, sorğuları elmi-texniki tərəqqinin idarə olunmasında və iqtisadi problemlərin həllində əhəmiyyətli rol oynayır.

XIX yüzilliyin sonlarında fransız kriminalisti A.Bertilionun işləyib hazırladığı "şifahi portret" üsulu xarici görkəminə əsasən cinayətkarı tanımağa imkan verir. Əvvəlcə xüsusi nişanələr – xallar, çapıqlar və s. qeyd olunur. Sonra isə təfsilatlar – burunun böyüklüyü, gözlərin forması, bədənin mütənasibliyi və s. dəqiqləşdirilir. Bütün bu elementlərin əsasında adamın zahiri təsviri verilir.

Bu yaxınlarda yapon həkimi K.Sudzuki 6 yaşından 57 yaşınadək yüzlərlə yapon dodaqlarının əlamətlərini hərtərəfli tədqiq etmiş və bu nəticəyə gəlmişdir ki, hətta ekizlərdə belə dodaqların cizgiləri eyni deyil, həm də adam yaşa dolduqca bu cizgilər dəyişmir.

Sonrakı tədqiqatlar göstərir ki, kriminalistika metodları bədii portretlərin eyniləşdirilməsində də işə yararlıdır. Bu yolla müəyyən edilmişdir ki, karandaşla çəkilmiş şəkil – N.Q.Çernışevskinin portreti, naməlum portret (A.İ.Gertsenin) isə Lemmelin məşhur qravürasının orijinalı imiş.

Maraqlıdır ki, ABŞ-da barmaq izlərini tanımaq üçün avtomatik təhlildən istifadə olunur. Bunun mahiyyəti belədir: kartoçkadan və ya kağız vərəqlərdən barmaq izlərinin kapilyar xətləri, onların ucları və vəziyyətləri ayrılır və alınmış nöqtələr yerləşən kartoçka EHM-ə verilir. Bu cür kartoçkalarda məlumatın həcmi nisbətən az olduğundan, onları telefon rabitə kanalları ilə də vermək olar.

Son zamanlar SSRİ-də, Yaponiyada və ABŞ-da müəyyən etmişlər ki, başqalarından fərqli olaraq, miokard infarktlı xəstələrdə qıvrımşəkilli papillyar[1] xətt cizgilərinə daha çox təsadüf edilir.

Hind alimləri qeyd edirlər ki, bəzi səciyyəvi daktiloskopik (daktiloskopiya – ovuclarda və barmaq uclarındakı xətt şəbəkələrini öyrənən sahədir) əlamətlər yazva xəstəliyinə genetik meyli izah etməyə imkan verir.

Şərh etdiyimiz metodlar – ekspert qiymətləndirmələri – texnoloji prosseslərin (nəinki, təkcə bi proseslərin) diaqnostikasında da tətbiq oluna bilər. Bununla bərabər bu metodlardan formal isrifadə etmək səhv nəticələrə gətirib çıxara bilər; ələlxüsus, əgər bu metodu tətbiq edənlərdə düzgün fikirləşmək və həll etmək qabiliyyəti zəif inkişaf etmişsə.

[1] Papillyar xətlər (lat. papilla – məməcik) – ovuclarda barmaq uclarında yerləşən şəbəkəli xətlər. Bu xətlər bütün ömür boyu dəyişmir və tamamilə fərdidir.

## §15. TƏHSİL – HƏLƏ HƏYATIN ÖZÜ DEYİL

"Nəzəriyyə qurudur, dostum,
ancaq həyat ağacı daim yaşıllaşır".
*İ.V.Höte*

Təhsil hələ həyatın özü deyil, ona yalnız hazırlıqdır. Məşhur alman *fiziki* Maks Fon Laue demişdir: "Təhsil – öyrənilənlərin hamısı unudulduqdan sonra yadda qalanlardır".

Adam nəyi daha çox yadda saxlayır? Bu suala cavab vermək üçün məşhur sovet alimi P.P.Blonskininin psixoloji təcrübəsinə müraciət edək. Müxtəlif tələbələrin yaddaşlarında ötən *ilin* buraxdığı 300 xatiratının nəticələrinin təhlilinə əsasən müəyyən olunmuşdur ki, yadda qalanların 20 faizə qədəri qeyri-emosional xatirələrdir.

Yeddi *il* bundan əvvəlki xatiratın təhlili göstərmişdir ki, yadda qalanların yalnız on faizə qədəri qeyri-emosionaldır.

Daha sonra uşaqlıq illərinin xatırlanması təcrübəsində müəllimlər, də iştirak etdilər. Qırx *il* əvvəlki xatirələrin təhlili göstərir ki, qeyri-emosionalları cəmi dörd faizdir. Deməli, ən köhnə xatirələr emosional xatirələrdir. Bu, adamın incəsənətlə və onunla bağlı hadisələri elmə nisbətən daha çox yadda saxlamağının əsas səbəblərindən biridir. Qeyd olunanlar bir daha təsdiq edir ki, şagirdlərdə emosiyanı inkişaf etdirmək probleminin mühümlüyü, təkcə məlumat çatışmazlığı şəraitində qərar qəbul edilməsi nöqteyi-nəzərindən həll olunmur.

Məktəblər və ali təhsil ocaqları həyatda lazım olan bütün biliklərin toplanmasına, ağlın inkişafına, yaradıcı və səmərəli təfəkkür metodlarının təkmilləşməsinə *kömək etməlidirlər ki*, bütün bunlar insanın ömür yolunda onu daim müşayiət edəcək şəxsi davranış kriteriyalarının qazanılmasına və fəal, dərin maraq dairəsinin yaranmasına təkan verən adətə, vərdişə çevrilsin.

Gənc nəslə verilən təlim və təhsil ona vətənin gələcəyini görmək imkanı verir.



*Latın təhsil sisteminin ziyanlı cəhətinə diqqət yetirək.* Latın təhsil sistemi belə bir prinsipə əsaslanır ki, guya dərslikləri əzbərləyib öyrənmək ağlı inkişaf etdirir. Bu prinsipə əsasən, məktəb masasından elmi dərəcə alana qədər bütün kitabları əzbərdən bilməyə məcbur edirlər. Həm də belə olduqda nə qabiliyyət, nə təşəbbüs zərrə qədər də olsun inkişaf etmir.

Bu cür təlim və tərbiyə sistemi nəinki faydasızdır, hətta bu üsulla tərbiyə olunanlarda öz ictimai vəziyyətlərinə və şəraitlərinə qarşı ikrah hissi yaranır; məsələn: kəndli, artıq kəndli olaraq qalmaq istəmir.

Bu sistem həm də həyatın tələbinə uyğun şəxsiyyətlər hazırlamır, onları yalnız müəyyən vəzifə tutmaq üçün hazırlayır ki, bunlar da kapitalizm cəmiyyətində heç bir təşəbbüs və həqiqi sərbəstlik göstərmədən əldə edilən, lakin sabitqədəm olmayan, havayı müvəffəqiyyətlərdən başları gicəllənən müftəxorlardırlar.

Qazanılmış biliyi, müəyyən bir işə tətbiq edə bilməməsi adamda narazılıq yarada bilər. Peşəkar təhsil əqli səviyyəni yüksəldir, insanda qəti inamın, əyilməz iradənin formalaşmasının əsasını təşkil edir.

«İdeyalar ancaq özlərinin təbii və normal mühitində yaranır. Bu ideyaların rüşeyminin inkişafına gəncin emalatxanada, mədəndə, gəmidə, tərsanədə, sinifdə, qospitalda alət, material və əməliyyatları gördükdə; müştəri, fəhlə, əmək; yaxşı və pis görülmüş, ziyanlı və gəlirli işlər şəklində təmasda olduğu saysız-hesabsız təəssüratlar kömək edir. Bütün bunlar gözün, qulağın, əllərin və hətta iybilmə orqanlarının vasitəsilə qeyri-ixtiyari olaraq hafizəyə həkk olur və gizli şəkildə emal olunaraq sonralar ona gec-tez bu və ya başqa kombinasiya, sadələşdirmə, yaxşılaşdırma və ya ixtiraetmə təlqin etmək üçün insan beynində təşkil olunub təkmilləşir. Gənc fransız bütün bu qiymətli anlayışlardan, onun zəruri olan və asan qavranılan elementləri ilə təmasda olmaqdan məhrumdur, özü də ömrünün məhsuldar çağlarından məhrumdur. Çünki, o, yeddi və ya səkkiz il ona əşyalar, insanlar və onlarla rəftar etmək haqqında dərin və dəqiq təsəvvür verə biləcək səmimi və şəxsi təcrübələrdən aralı məktəbdə qapanıb qalıb...

...Heç olmazsa on nəfərdən doqquzu ömürlərinin bir neçə ili, həm də daha təsirli, əhəmiyyətli və hətta həlledici ili ərzində vaxtlarını və zəhmətlərini hədər yerə itirirlər. İmtahan verənlərin ömür sürəcəkləri illərdən yarısını və ya üçdə ikisini çıxın, yəni atın; sonra isə qəbul olunanların, elmi dərəcə, diplom, şəhadətnamə alanların ömürlərindən yarısını və ya üçdə ikisini atın; – mən həddən artıq yorulmuşlardan danışıram. Onlardan həddən artıq tələb etmişlər; belə ki, onları müəyyən bir gün, hər hansı bir şəklin qabağında və ya *stulda oturdub, iki saat* ərzində, bir qrup alimin iştirakı ilə insanın qazandığı biliklərin canlı repertuarını özündə təcəssüm etdirməyə məcbur etmişlər. Həqiqətən, həmin gün iki saat ərzində onlar belə və ya buna bənzər bir repertuar olmuş, ancaq bir aydan sonra həmin imtahanı verə biləcək vəziyyətdə olmamışlar. Onların qazandıqları biliklər, olduqca çox və ağırdır, odur ki, aramsız olaraq yaddan çıxır, yenisini isə onlar əldə etmirlər. Onların əqli qabiliyyəti sarsılmış, ağlın baş verən şirələri *qurumuş və bizim* qarşımızda artıq hazır və bəzən də tamamilə işi bitmiş adam durur.

Yoluna düşmüş, evlənmiş və eyni mühitdə dolaşmağıyla barışmış bu adam dəqiqliklə yerinə yetirdiyi işin məhdud hüdudlarında bağlanıb qalmışdır, ancaq bundan artığına o qabil deyil. Orta səviyyəli əsər belədir, gəlir-çıxarı ödəmir. İngiltərədə, Amerikada və bir zamanlar 1789-çu ildəsə Fransada olduğu kimi əks metod işlədilir və alınan nəticə ya eyni, ya da *yüksək olur» (İ.Ten).*

Çox geniş miqyaslı sənayeləşdirmə, xalis istehsalat sahəsindən, insan fəaliyyətinin digər sahələrinə, elmə, incəsənətə, pedaqogikaya və s. nüfuz edir. Sənayeləşdirmənin devizi istehsalın kütləviliyi, maksimum rentabellik, standartlaşdırma va ixtisaslaşdırmadır. Təbiidir ki, fərdi sifarişlərə əsasən hazırlanmış avtomobil, soyuducu, stol bu gün demək olar ki, özünü doğrultmayan, lazımsız təmtəraq, vəsait və vaxt israfçılığıdır.

Elm, artıq aydın bir şəkildə ixtisaslaşdırılmış kollektivlərin mütəşəkkil işlərinə çevrilmişdir. Müasir *incəsənət kütləviliyə* can atır, bayağı və şablon yaradıcılıqdan uzaqlaşmağa çalışır. Arxitektura, kinomatoqrafiya və televiziyada rentabellik amili hiss olunacaq əhəmiyyət kəsb edir.

Tədris prosesinin intensivləşdirilməsində öyrənmə metodlarının standartlaşdırılması, məsələlərin həllinin optimal alqoritmlərinin işlənib həyata keçirilməsi və biliyin qiymətləndirilməsi müəyyən rol oynamağa başlayır.

N.Q.Çernışevski təhsili belə qiymətləndirir: «Puşkindən asılı deyildi ki, lap əvvəldən onun hər şeyi öyrənmək həvəsi ağıllı və tam təhsilə malik bir başçı tapa bilmədi ki, ondan *istifadə* edərək, Puşkinin alim idrakını onun böyük talantına uyğun olan yüksəkliyə qaldırıb qoysun».

Tomas Mann, Leverkyunun (T.Mannın «Doktor Faustus» romanının qəhrəmanı) qarşısında duran yaradıcı-musiqişünasın peşəkar hazırlığı məsələsində çətinlik çəkərək, kömək üçün Valter Brunoya müraciət etdi. Dirijor, T.Mannın təxmin etdiyi kimi, hesab edirdi ki, mühafizəkar təhsil bəstəkara o qədər də lazım deyil, ancaq o, hər hansı hörmətli maestronun göstərişi olmadan keçinə bilməz.

Cənubi Amerikada bir hindu qəbiləsində deyirlər: «Əgər adam öyrənmək istəyirsə, o, soruşur, əgər adam çoşğun həvəslə öyrənmək istəyirsə, o, qulaq asır».

Kəmsavadlılıq – təfəkkür tərzinin müəyyən prinsipidir. Həddən artıq «oxumuş», əslində isə birgə axtarış vərdişlərindən məhrum, lovğa, dediyindən dönməyən bir prinsipdir.

Nadanlıq ehtimal ki, əsas etibarilə adamın öz qanmazlığını qanmaması ilə təyin olunur. Necə deyərlər «piyada»lıq savadlılıqdan çox pisdir. «Piyada» nə öyrədə bilər? Heç nə. Heç nəyi təkzib edə bilmir, sübutu tamamilə şübhəlidir, heç nə oxumayıb, yarı-yarımçıq eşitdiklərinə əsaslanır, onunla söhbət olduqca cansıxıcıdır...

Yarımçıq bilik adətən heç bilməməkdən pisdir. Yarımçıq biliyi olanlara nə öyrətməli və nədən başlamalı? Onların sübutu şübhəlidir, nəyi isə eşitmişlər, nəyi isə yox, darıxırlar, onlara kara gələn bir şey öyrətmək olmur. «İşgüzar nadanlıqdan dəhşətli heç nə yoxdur» (Höte).

«Təhsilli nadanlıq» oksyumorunu, yəni nadanlığı daha çox büruzə verən kəmsavadlılıq, yarımçıq təhsil – N.S.Leskosa *məxsus*dur.

R.*Byörnsün maraqlı* bir epiqramına[1] diqqət verək («Kütbeyinin qafası» şeiri):

Allahım, haqlısan, sənə *min alqış*.
Amma bircə şeyi dərk edəmmirəm,
Nəyə yaranıbdır *andıra qalmış*,
O boş, miskin qafa, o hər şeydən kəm?*

Elmi tədqiqatların, sənayenin və iqtisadiyyatın üç ən *güclü* mənbəyi məlumdur: xammal, enerji və bilik.

Yeri gələndə onlar bir-birini əvəz edə *bilirlər. Əgər binanın* tikintisinə xammal və material artıqlaması ilə sərf olunursa, onda təbiidir ki, *həmin* binanın qızdırılmasında istilik enerjisindən az istifadə olunacaqdır. Eyni zamanda xammalın əlavə məsrəfi *texnoloji* çatışmazlığın yerini doldura bilər. Səmərəli metodların istehsalata tətbiqi isə həm xammal, *həm də enerji* sərfinin azalmasına kömək edir.

Xammal və enerji ehtiyatını çoxaltmaq mümkün deyil, çünki bu ehtiyatlar daim istifadə olunaraq, azalır.

İnsan oğlunun ağlı isə bir *xəzinədir ki, işlətdikcə* azalmır, əksinə çoxalır.

*Məişət* müdrikliyindən biliksiz istifadə olunması heç də həmişə səmərəli qərar qəbul etməyə imkan vermir.

Deməli, bilik – qiymətli xəzinədir.

Öyrənmə bitib-tükənməzdir və «beşikdən qəbrə qədər» çox böyük zəhmət tələb edir. Doğrudur, Heraklit hesab edirdi ki, çox bilmək ağıllılığa dəlalət etmir. Heraklitə görə çox bilmək – naşılar üçün müdriklikdir. Əslində çox bilmək müdriklik olmasa da, avamlıq da deyil, həm də çox bilmək başqalarının əsərləri və müdrikliyi hesabına *qazanılır.*

[1] Epiqram (yun–(epigramma) –abidələrdə, binalarda, qəbir daşlarında hədiyyələrdəki yadigar yazılar: satirik şeir tərzində kəskin "hücum".



Azərbaycan xalqının heç yerdə, heç zaman görünməmiş intəhasız şeriyyət laləzarında gülləri solmayan, nadir və qüdrətli söz bağbanlarımızdan – böyük Xaqani Şirvani (1120-1199) nə gözəl demiş:

«Mənəm», «mənəm» deyib, öymə özünü,
Həmişə müxtəsər söylə sözünü.
Cahildir özünü tərif edənlər
«Çox bilirəm» demə, bilsən də əgər.

Addison haqlı olaraq hesab edir ki, həddən çox bilik adamı ağıllı edə bilməz, əksinə, onu şöhrətpərəst, lovğa və xudbin edər.

Antuan de Sent-Ekzüperi yazmışdır ki, indi orta səviyyəli, üçü gücnən alan şagirdin, təbiət qanunları və insanın varlığı haqqında Dekart vo Paskaldan çox məlumatı var. Ancaq, məgər həmin şagirdin onlar kimi düşünmək qabiliyyəti varmı?

Deməli, məsələ biliyin çoxluğunda deyil. Əgər bu biliklər şəxsi ağlın süzgəcindən keçərək, orda qiymətləndirilməyibsə və işlənməyibsə, həmin biliklərin həcminin böyüklüyündən asılı olmayaraq, adam yaradıcı şəxsiyyət ola bilməz.

Səliqəlilik qabiliyyəti ağlın xassəsi kimi, adama anadangəlmə verilir, o şəxsiyyətin formalaşması prosesində əldə edilir.

Böyük Nizaminin söz dəryasına qulaq söykəyək:

Dünyada nə qədər kitab var belə,
Çalışıb, əlləşib gətirdim ələ.
Oxudum, oxudum, sonra da vardım
Hər gizli xəznədən bir dürr qopardım.

Nəyi öyrənmək lazımdır? Burda, yada bir latın ifadəsi düşür: Çox şeyi, ancaq bir az (Multum, non multa – multum non multa), yəni kəmiyyət yox, keyfiyyət. Elə yığcam bilik qazanmaq lazımdır ki, onu müxtəlif şəraitlərdə qərar qəbul edəndə tətbiq eləmək mümkün olsun.

*Həm nəzəri, həm də əməli cəhətcə* çox mürəkkəb «labirint»lərdə səmtlənməyə imkan verən yol bələdçisi «Ariadna kələfinin» köməyi ilə külli miqdarda məsələlərin həllinin ümumi metodu (alqoritmi) haqqında arzu çoxdan məlumdur.

Qədim yunanlarda Ariadna haqqında bir əfsanə uydurulmuşdur. Əsatirə görə Ariadna Krit çarı Minosun qızıdır. Dedal, Minos üçün məşhur labirint – cürbəçür dolaşıq, əyri-üyrü keçidləri olan çox mürəkkəb və nəhəng bir yeraltı bina tikir. Minos burda minotavr saxlayırmış (minotavr – yun. Minotauros – bədəni insan, başı öküz olan nəhəng). Həmin labirintə düşənlər (Minos, afinalılardan məcburən bac-xərac kimi aldığı oğlan və qızları ora atırmış) heç bir vəchlə oradan çıxa bilmirmiş. Labirintə salınmış Tessey minotavrı öldürür və oradan çıxır. Bu belə olur: Dedalın məsləhəti ilə Ariadna Tesseyə bir yumaq sap verir və o, bu sapın vasitəsilə labirintdən çıxır.

«Biz şəri cəsarətlə qarşılarıq, ancaq bilsək ki, qurtuluş yolumuz var və əlbət ki, ...qazancımız olacağı şübhəsiz və mütləqdir». (M.E.Saltıkov-Şedrin. Ubejişye Monrepo).

Bütün labirintlərdən onun dalanları ilə iki dəfədən az olmamaqla gedib-gəlsən, əlbəttə həmişə ordan çıxmaq olar. Labirintlərdən çıxmaq üçün ən sadə və məqsədəuyğun yolu fransız mühəndisi Tremo göstərmişdir. Bu, üç qaydadan ibarətdir:

1. Yolun başlanğıcından və ya tinbaşından seçilmiş istiqamətdə düz, yolun qurtaracağına və ya yeni tinbaşına qədər getmək lazımdır. Birinci halda geri qayıtmaq və divara, ya da yolun döşəməsinə, gedib-qayıtmanı bildirmək üçün iki xətt çəkməli. İkinci halda isə yenə də seçilmiş ixtiyari istiqamət üzrə axıradək irəliləmək lazımdır və hər dəfə tin başına çatanda və ordan dönəndə bir xətt çəkməli. Ola bilər ki, bir neçə keçiddən sonra, əvvəllər olduğun keçidlərə rast gələsən. Bu zaman aşağıdakı iki hal ola bilər:

2. Əgər keçidə yeni yolla gəlmisənsə, həmin yolla geri qayıdıb gəlib-getdiyini bildirən iki xətt çəkməlisən.

3. Əgər keçidə bir dəfə getdiyin yolla qayıtmısansa, onda şübhəsiz ki, başqa istiqamətə yönəlməlisən; əgər belə istiqamət yoxdursa, onda ancaq bir dəfə getdiyin yolla qayıtmalısan.

Beləliklə, qeyd olunan bu üç qaydaya əməl edərək hər dəhlizdən iki dəfə keçmək şərtilə ən mürəkkəb labirintdən belə həmişə çıxmaq mümkündür.

Bunu misalla aydınlaşdıraq. Fərz edək ki, beşbucaqlı AVSDE labirintinin mərkəzi – 0 nöqtəsində AO, VO, SO, DO və EO yolları



kəsişir. A nöqtəsindən hərəkətə başlayıb AO, OS, SD, DO yollarını keçib 2-ci qaydaya əsasən D nöqtəsinə qayıdırıq. 3-cü qaydaya əsasən DE, bunun ardınca EO yollarını keçirik. Sonra yenidən E nöqtəsinə qayıdır və EA yolu ilə gedərək A nöqtəsinə gəlirik. Daha sonra AE, ED, DS, SV, VO, OV, VA, AV, VS, SO, OA,

Maraqlıdır ki, yarasalar, dolaşıqlığına görə əfsanəvi labirintlərdən heç geri qalmayan mağaralarda çox asanlıqla hərəkət edə bilirlər.

Yarasaların bu qabiliyyəti, onların buraxdıqları ultrasəslərlə butün maneələri «xəbər verən» mükəmməl «əks səda» (exokologiya) sistemilə izah olunur. Bir sıra təcrübələrlə sübut olunmuşdur ki, yarasalar yaxınlaşan və ya uzaqlaşan exosiqnalların dəyişmə tezliyini (Dopler effekti) yüksək həssaslıqla tutur, hətta bunlara şəraitdən asılı olaraq, necə deyərlər, düzəlişlər də verirlər. Hədəfin uzaqlığını və bucaq koordinatlarını təyin edən ən mükəmməl exologasiya qurğularının həssaslığı, yarasaların həssaslığından demək olar ki, 100 dəfə zəifdir.

Qərar qəbul edərkən, beyin mümkün variantları soyuqqanlılıqla araşdırır və müvəffəqiyyətlə nəticələnəcək variantın üstündə dayanır. Beyinə təcrübə, qabiliyyət və təbii talant kömək edərsə, EHM-ə üstün gəlir.

Fransız filosoflarından biri demişdir: «hafizəsindən hamı şikayət edir, ağlından – heç kim», İngilislər deyir: «Kim çox ağıllıdırsa, ona daha çox ağıl lazımdır ki, ağlını idarə edə bilsin».

Ağıllı fikirlər hamının başına gəlir, ancaq bəzilərinin başından dərhal çıxır, çünki, ağıllı fikir pul deyil ki, hamıya lazım olsun.

Azərbaycanlılar deyirlər: «hamıda ağıl olmaz» və «hər oxuyan Molla Pənah olmaz».

Tanınmış türk yazıçısı Haldun Taner, Atatürkün[1] şəxsiyyətini səciyyələndirərkən, polifonik (çoxşaxəli) ağlı bədii şəkildə çox gözəl təyin etmişdir: «O, elə polifonik ağıla malik idi ki, bu və ya

[1] Atatürk Mustafa Kamal Paşa Qazi (1880–1938)–Yeni Yürkiyənin böyük qurucusu, onun ilk prezidenti.

digər problemin təfərrüatına varmadan, ançaq iki-üç faktla, bir-iki məlumatla, hətta görkəmli elm adamlarının belə qabil olmadığı bir sintezə nail ola bilirdi».

Kant yazır ki, ağıl – düşüncə qabiliyyəti ilə hazırcavablığın birləşməsindən ibarətdir. Əgər adamda bu keyfiyyətlərdən yalnız biri varsa, onu ağıllı adlandırmaq olmaz. Bu keyfiyyətlərdən yalnız birincisinə malik adam – ürək sıxan, zəhlətökən, çürükçü, yalnız ikinçisinə malik adamsa hazırçavabdır. Əgər bu iki keyfiyyət bir adamda birləşmişsə, onda bu ecazkar birlik ən qiymətli yeni bir keyfiyyət – ağıl yaradır.

Bizim məlumatlarla zəngin əsrimizdə əsas sərvət hər nə cür olmasından asılı olmayaraq məlumat deyil, ağlın, düşünən beynin gördüyü canlı işdir. Məlumat ölür, ancaq ağıl və fikir yaşayır, inkişaf edir. Bax, elə buna görə də bu inkişafa kömək edən nə varsa hərəkətə gətirmək lazımdır. Çətin və «arxaın» görünən bir məsələ, hər hansı hazır məlumatdan yüz dəfə qiymətli ola bilər. Təfəkkür, düşüncə – seyrçilik deyil, yaradıcılıqdır.

Bəzən görürsən ki, zəif oxuyanı dartıb irəli çəkirlər, yaxşı oxuyansa yaddan çıxır, o da oxumur və nəticədə zəiflərin sırasına keçir. Belə olanda qabiliyyətli bir vətəndaşın «itirilməsi» riski baş verir. ...Pis oxuyan şagirdlərin yetmiş faizinin ailələrində analar Pestalottsinin, Makarenkonun, Suxomlinskinin funksiyasını öz üzərlərindən götürmüşlər». («Komsomolskaya pravda», 17.80.86).

Bir şagird dərslərindən pis qiymət alırdı, bir başqası isə beş. Müəllimlərinin differensial yanaşma tədbirləri nətiçəsində birinci şagird «kafi» qiymətlə oxumağa başladı, ikinci şagird isə rübü öz imkanından olduqca aşağı səviyyədə başa vurdu, çünki, ona lazımi qiymət yetirilmədi, onu var qüvvəsi ilə işləməyə məcbur etmədilər. Beləliklə, «bərabərçilik» bəlası özünü göstərdi. Nə qədər ki, inzibati qaydada bərabərçilik metodu işə düşür, bir o qədər də kollektiv, necə deyərlər, «yumşalır», «boşalır». Lap bu yaxın vaxtlarda müəllimlərin yaradıcılıq qabiliyyəti ilə şagirdlərin müvəffəqiyyəti arasında empirik asılılıq alınmışdır. Qeyd etmək lazımdır ki, çox zaman şagirdin potensial imkanı ilə məktəbdə aldığı qiymət arasındakı mütənasiblik pozulur (korrelyasiya olunmur).



Ehtimal ki, təhsilin differensasiyası (dəqiqləşdirilməsi, seçilmə və təbəqələşməsi və s.) siniflərdə və qruplarda biliyin səviyyəsinin qaldırılması vəziyyətini düzəldəcək və şagirdlər oxumağa həvəslə meyl göstərəcəklər. Bu işə, əlbəttə müəllimlərin özlərinin səviyyəsinin qaldırılması kömək edəcəkdir. Belə ki, dirijorlara eyni bir musiqi əsərini və ya operanı dönə-dönə ifa etmək lazım gəldiyi kimi, müəllim də bu vərdişə əməl etsə, yəqin ki, ümumi məqsədə nail olmaq olar.

Hər bir təkrarda əsəri elə ilhamla, elə dərindən ifa etmək lazımdır ki, Malerin dediyi tək: «...Hər bir təkrar, hətta otuzuncu təkrar ....sanki birinci dəfə ifa olunurdu». Təkrar zamanı şablonu dəf etmək məharəti peşəkarlıqdan xəbər verir. Unutmaq olmaz: «Həqiqi, konkret eynilik özündə fərq, dəyişiklik ehtiva edir» (Engels F. «Dialektika prirodı», Qospolitizdat, 1955, s. 170).

İdman məşqlərini İ.A.Berşteyn belə səciyyələndirir; – «təkrarsız təkrar».

Yeri gəlmişkən, maraqlı bir faktı qeyd edək ki, məktəbdə şagirdlərin dərsləri mənimsəmələri ilə onların əzələ sistemlərinin inkişafı arasında asılılıq da müəyyən olunmuşdur («Sos. Industriya», 26.01.1986).

Əlbəttə, dediklərimiz bir-birini əvəz etmələri nöqteyi-nəzərincə yox, bir-birini tamamlamaları baxımından maraqlıdır.

Yorğunluğu götürmək üçün ən təbii üsul fiziki məşğələlərdir.

ABŞ-da bəzi firmalar hər gün müntəzəm fiziki məşğələlərlə məşğul olan işçilərin əmək haqqına müəyyən əlavələr edirlər.

İclas zalları ilə yanaşı tikilmiş və bütün idman ləvazimatları ilə təçhiz olunmuş gimnastika zallarında işarası bədən tərbiyəsi məşğələləri aparılır. Belə hesab edilir ki, az vaxt ərzində edilən fiziki məşqlər yorğunluğu və gərginliyi götürür.

Yuxarıda qeyd etdiyimiz kimi, tədris prosesi müxtəlif düsturları, empirik ifadələri, təvəllüd illərini və s. əzbərləyib yadda saxlamağa deyil, müstəqil təfəkkür tərzinin inkişafına, analitik düşünmə, məlumatları ümumiləşdirib sintetik təhlil etmə məharəti aşılamağa kömək etməlidir. Yeri gəlmişkən, Aristotelin bir kəlamını yada salaq: «Təfəkkür təəccübdən başlayır».

Şagirdlərlə, tələbələrlə, hətta bəzən yüksək ixtisaslı adamlarla tez-tez olan söhbətlərdə bir şey həmişə diqqəti cəlb edir: əksəriyyət, elmi kəşflərin bu və ya digər səbəbdən olduğunu qeyd edərkən, nədənsə əqli eksperiment metodlarına ya heç, ya da kifayət qədər diqqət vermirlər. Halbuki, fundamental təbiət qanunlarının kəşfində əqli eksperimentlərin rolu çox böyük olmuşdur. Məlumdur ki, Aristotelə görə sərbəstdüşmə sürəti cismin kütləsi ilə mütənasibdir. Bəs, Qaliley nə üçün Aristotelin bu mühakiməsinə şübhə etmiş və bunu yoxlamaq üçün təcrübə qoymuşdur. Ola bilsin ki, «hər şeyə şübhələnmək lazımdır» prinsipinə əsasən, hətta bəzən 2x2 = 4 olmasına da.

Marksın bir devizini həmişə yadda saxlamaq lazımdır: «hər şeyə şübhə et».

Bu deviz R.Dekart və onun məktəbinin (kartezianlar) də fəlsəfi kredosudur.

Lakin bu qaydadan ağılla istifadə etmək lazımdır, onu cəfəngiyata, mənasızlığa gətirib çıxarmaq lazım deyil.

Bu devizin müəyyən məqsəd güdən, hər şeyi inkar edən lüzumsuz tənqidi münasibətlərlə heç bir ümumi əlaqəsi yoxdur. «Adam qətiyyətlə hər şeyi inkar edirsə, deməli, o, heç nəyi inkar etmir və hətta o eyni qətiyyətlə savadsızlığını və anlamazlığını nümayiş etdirir» (D. İ.Pisarev).

Biz öz gözlərimizlə görürük ki, Günəş və ulduzlar «tərpənməz» Yer kürəsinin ətrafında dövr edirlər. Buna necə şübhələnmək olar? Lakin... lakin sən demə, belə deyil. N.Kopernik sübut etdi ki, əslində «hər şey adi gözlə müşahidə etdiklərimizin əksinədir». Müasir astronomiya elminin əsası belə qoyuldu.

Təbiətdə və cəmiyyətdə çox şeyi «aşkardır ki,...», «təbiidir ki,...», «şübhə yoxdur ki,...» prinsipi mövqeyindən yox, «hər şey əksinədir» prinsipinə əsasən izah etmək lazımdır.

Aydındır və tamamilə təbiidir ki, insan heyvan deyil. Ancaq «hər şey əksinədir» prinsipinə əsaslanan Darvin nəzəriyyəsi insanın mənşəyinin heyvanat aləmi ilə bağlı olduğunu göstərdi.

Aşağıdakı əqli eksperimentin nəticələri də «şübhə»nin məhsuludur.



Yüngül (1) cismi və ağır (2) cismi verilir. Aristotelə görə (1) cisminin sərbəstdüşmə sürəti, (2) cisminin sərbəstdüşmə sürətindən azdır. Hər iki cismi «birləşdirsək» (3) cismi alınır ki, bu da (1) və (2) cisimlərindən ağırdır. Yenə Aristotelə görə (3) cisminin sərbəstdüşmə sürəti (2) – cisminin sərbəstdüşmə sürətindən böyük olmalıdır. Digər tərəfdən, (3) cismi iki (1 və 2) cismindən ibarət olduğu üçün, onun sərbəstdüşmə sürəti (1) və (2) cismlərinin sərbəstdüşmə sürətlərinin arasında olmalıdır, yəni (2) çisminin sərbəstdüşmə sürətindən az olmalıdır. Elə bu ziddiyyət Qalileyi təcrübə qoymaq fikrinə vadar etdi. İtaliyanın Piza şəhərindəki məşhur qüllədən Qalileyin apardığı və indi hamıya məlum olan təcrübələr (təxminən 1599—1600 illər) öz şübhələrinə son qoydu və göstərdi ki, sərbəstdüşmə sürəti cisimlərin ağırlığından asılı deyil, yəni boşluqda kağız parçası da, çəki daşı da eyni sürətlə düşürlər.

Bu kəşf o dövr üçün ağlasığmaz cəsarət idi. Çünki hələ də aşağıdakı ifadə pozulmaz bir məcələ idi: «Alim olan, Aristoteli əzbər bilməlidir; onu dərk eləməyin o qədər əhəmiyyəti yoxdur, ancaq onun kəlməsinə belə şübhə etmək – allahsızlıqdır».

«Mütəfəkkir nə dərəcədə özü-özünün düşmənidirsə, bir o qədər də dialektikdir. Öz-özünə şübhələnmək – fövqəladə məharət və cəsarətdir» (L.Feyerbax).

Dərk oluna bilməyən forma – özü özü ilə qarşı-qarşıya durma və dialoq, yaradıcılığın tərkib hissələrindən biri və həm də təfəkkürü qiymətləndirmənin ən əla yoludur.

Fizik E.L.Andronikaşvili Tolstoyun kəşfini – Nataşanın Pyerə, knyaz Andreyi sevdiyini və onun ölümü haqqında dediklərini misal gətirir. Söhbət zamanı Nataşa hiss edir ki, artıq knyazı sevmir və onda Pyerə qarşı məhəbbət baş qaldırır. Yeni oyanmış sevgi hisslərini ifadə etmək uçün o, söz tapa bilmir, ancaq onda artıq ölən məhəbbət haqqında sözlər çoxdur, lakin, ona hələ «əlvida» deyə bilmir.

Yadda saxlamaq zəruridir: «...mümkün qədər bütün məntiqi ifadələri nəzərə almaqla fikrən öz-özünlə müsahibə et. Və bu, neçə deyərlər, elmin başlanğıcıdır»» (A. A.Uxtomski).

Həmsöhbət, yalnız adam deyil, o incəsənət, kitab, elmi dəlil, əmək aləti və s. də ola bilər.

Buna misal Platonun müdrik «Dialoqlar»ını və Qalileyin «Söhbətlər»ini göstərmək olar.

Hələ Herodot yazırdı ki, əgər zidd fikirlər deyilməmişsə, bəs ən yaxşı fikirləri hardan seçək.

Qədimdə mübahisə aparmaq məharəti eristika adlanırdı.

A.Şopenhauer eristikaya aid işlərində göstərirdi ki, mübahisə edərkən, hər şeydən əvvəl rəqibi hərtərəfli və diqqətlə öyrənmək, onun güclü və zəif cəhətlərini düzgün qiymətləndirmək lazımdır.

Höcətçinin məharəti ondan ibarətdir ki, rəqibin zəif cəhətini bilib, özünün zəif çəhətini qətiyyən büruzə verməsin.

İngiltərə milli palatasının üzvü V.Hamilton (1805 – 1865) «Parlament məntiqi» kitabında ikiüzlü və riyakar adama məsləhət verir: «Mətləbdən danışa bilməyəndə, sözlərdən bəzək-düzək vur».

Adamın sayıqlığını kütləşdirmək üçün, böhtan və töhmət ustaları öz çıxışlarının «gözünə» tərif və yaltaqlığın lazımi elementlərini də qatırlar. Belə halda əvvəlcə tərifdən başlayırlar; dəlləyin işi *kimi*, qabaqca üzü sabunla, sonra qırx.

«Müdrikliyin» bu əlçatmaz zirvəsini V. Hamilton belə təsvir edir: «Əgər bir şəxsə və ya bir neçə *nəfərə* hücuma keçirsənsə, onda əvvəlcə çalış, nə isə təriflənməli bir şey tap. Bu, nəinki aidiyyəti olmayan şahidlərin, eyni zamanda toqquşduğun adamın xoşuna gələcək və sənin düzgün adam olduğunu göstərməklə, etdiyin məzəmmətləri daha sanballı edəcəkdir».

Hər hansı mübahisədə adamlar, haqlı olub-olmamalarından asılı olmayaraq dostlarının tərəfini saxlayırlar.

Bunu duzlu yumorla S.N.Parkinson belə təsvir edir: «Milli palatada ingilislər iki komandaya bölünərək, əldən düşənəcən mübahisə edirlər. Çünki hər biri anadan olandan öz komandasında oynamağa uyğunlaşıbdır. Əgər natiq onun komandasında oynayırsa, qışqırır: «Qulaq asın, qulaq asın», yox, əgər, o biri komandadandırsa, haray qoparır: «Cəfəngiyat. ..» Bütün hallarda o, özünü kifayət qədər elə ağıllı aparır ki, topu öz qapısına vurmasın. Onun komandasının üzvləri müdrikdirlər, gözəl natiqdirlər və s. ancaq qarşıdakı komandanın üzvləri – haqsızdırlar, boş-boş şeylər danışırlar, nə danışdıqlarını bilmirlər və s».

Mübahisəni tez kəsmək üçün, Şolom Aleyxemin əsərlərindən birində Kasrilovkalılar aşağıdakı kimi hərəkət edirlər. Əgər biri nəyi isə təsdiq etdimi, o biri mütləq şübhələnəcək: – Bəlkə tərsinədir? «Nacins» – bir başqası dillənəçək. – «Belə oldu? Görünür ki, Siz lap heyvansınız.» – «Sizsiniz heyvan, özü də eşşək». Nəticədə – sillə, şapalaq, şahidlər, şikayətlər, məhkəmə...

Marksın bir məqaləsində Auqsburqlu sözgəzdirən qadın, söhbət prinsipial mərhələyə çatanda susur, hələ qulaq asır, müşahidə aparır, məqam gözləyir, elə ki, rəqibi düzgün addım atmır, hər hansı balaca səhv buraxır, o saat qəzəb yağdırır, nifrin tökür, nəticə çıxarır, fitnəyə əl atır.Bu zaman o, özünü elə aparır ki, guya mübarizə xırda bir şeyin üstündə gedir. Belə qarmaqarışıq mübahisələr dayaz, işin mahiyyətini bilməyən adamlar üçündür. «Bu cənablar həmişə hər hansı dəqiq olmayan bir sözdən yapışırlar» (F.Engels).

Akademik D.S.Lixaçov ağıllı və ədəbli mübahisəçilərə belə məsləhətlər verir:

1. Rəqibi diqqətlə dinləmək;
2. Aydın olmayan fikirlərə aid əlavə suallar vermək;
3. Aydın, lakin zəif məqamları bir daha dəqiqləşdirmək.

Belə olduqda aşaqıdakı üç məqsədə nail olmaq mümkündür:

1. Rəqib, «məni düzgün başa düşmədiniz» – deyə etiraz etmək imkanından məhrum olur;
2. Rəqibin rəyinə diqqətli münasibət, mübahisəni müşahidə edənlər arasında rəğbət qazanır;
3. Diqqətlə qulaq asıb və təkrar soruşmaqla, mübahisəçi öz mövqeyini dəqiqləşdirmək üçün vaxt əldə edir.

Daha sonra, etiraz etməklə aşağıdakı qaydalara əməl etmək lazımdır:

1. Etiraz etməli, ancaq təqsirləndirməməli;
2. Rəqibin inamına və dəlillərinə nüfuz etməyə cəhd göstərməməli;
3.Mübahisənin mövzusundan kənara çıxmamalı. Mübahisəni axıra qədər – ya təkzib, ya da təsdiq edənə qədər aparmalı.

Mübahisəyə maraq aşılamaq, tənqidi ruhu yüksəltmək, hər bir kəsin öz şəxsi və vətəndaşlıq ləyaqətini dərk etməsi üçün, Sen-Jüstün fikrinə əsaslanmaq yaxşı olardı: «Mən istərdim ki, hər hansı bir ideya bütün ağıllara hakim kəsilib, onu heyran qoyanda, təntənəli nitqlər kürsüsünə Vətəndaş adlı bir çələngk qoyulsun və bu çələng, həmin ideya ilə ləyaqətlə və nəcabətlə mübahisəyə girişənə – eybi yoxdur, qoy, lap bir az da karıxsın – verilsin».

Ancaq başa düşməməyi, anlamamağı başa düşmək lazımdır, bu, incə mətləbdir. Bunu nadanlıqla, cahilliklə qarışdırmaq olmaz. Bixvalan Mahmudun bir rübaisinə diqqət verin:

*Yüz dəfə and içib etmişəm aman –*
Yüz il yerim olsun qaranlıq zindan,
Yüz dağ ovxalayım həvəngdəstədə,
Təki olmayaydı şagirdim nadan.*

Xaqani düz demirmi? – «Bəzən çahil xoşbəxt, bilikli bədbəxt olar».

Hələ XX yüzilliyin əvvəllərində ölməz Cəlil Məmmədquluzadə yazırdı: «Havada uçan quşlar bizim üstümüzə gülürlər. O səbəbə ki, əcnəbilərnin gözunün qabağında Bakıda qarabağlı – bakılı davası düşur. Bu, çahillik, nadanlıq deyilmi?».

Sənətkarın əqli eksperimentinin əhəmiyyəti haqqında da danışmaq olar. F.M.Dostoyevskinin «İdiot» romanında altruist[1] knyaz Mışkin tipik simadırmı? Görünür, yox. Hərçənd, həyatda Mışkinə oxşar adamlara rast gəlirik. Ancaq müəllif, XIX yüzilliyin ortalarında Rusiya adətinin bütün cizgilərni özündə olduqca dəqiq əks etdirən bu personajı əsərə qəsdən daxil etmişdir. Bununla o, sanki əqli eksperiment aparır: əgər təsvir olunan cəmiyyətə Mışkin kimi bir adam düşsə, nə ola bilər? Bu halda başqaları ilə onun qarşılıqlı münasibəti neçə yaranar?

[1] Altruist frans. – altruisme – lat. Aiter – başqası. Başqasının rifahı uğrunda təmənnasız zəhmətə qatlanan, öz şəxsi mənafeyini qurban verən şəxs.



Qeyd etdiklərimiz, müəllifə əsas bədii məsələni həll etməyə imkan vermişdir: knyaz Mışkinin təmiz daxili aləmi ilə toqquşduqda xüsusilə aydın görünən içtimai adətlərin çürüklüyünü göstərmək. «Ancaq həyata qarşı hədsiz tələblər irəli sürəndə, yaşamağa dəyər» (A. Blok).

## § 16. QABİLİYYƏT VƏ MÜDRİKLİK HAQQINDA

An – əbədiyyətdir, sən hikmətə bax.
Bir nəhəng dünyadır – qum zərrəciyi.
Sonsuz kainatdır – bir parça torpaq
Mavi göy qübbəsi – bir gül ləçəyi.*

***U.Bleyk ("Bir anda...")***

Yəgin ki, qabiliyyətsiz adam yoxdur, ancaq qabiliyyətinə görə işləməyənlər var. Bununla əlaqədar olaraq, odessalı saatsazın atmacasını xatırlayan L.İ.Mandelştam zarafatla yazırdı: «Qabiliyyətliləri sevmirəm. Çünki onlar hər şeyə qabildirlər» (və ya olduqca yaxşı adam – pis adamdır).

Qabiliyyət işə yarayanda üzə çıxır. Çox adam elə fikirləşir ki, oxuya bilər, daha doğrusu, vokal qabiliyyəti var, ancaq bu qabiliyyətin olub-olmaması o adam oxuyanda aydın olur.

Heç kəs qabiliyyətsizliyini boynuna almır, ancaq hesab edir ki, zəif iradəlidir və ya tənbəldir. Mənəvi saflıq, əqidə həmişə aşağıdakı prinsipə əsaslanır: «borcluyam, ona görə də bacarıram», «baçarıram, ona görə də borcluyam» prinsipinə yox.

Biri sual verir: «Mən nə etməliyəm?», başqası soruşur: «Niyə bunu mən etməliyəm?»

Aşağıdakı ifadəni xaçpərəstlər İsa peyğəmbərə aid edirlər: «Özün üçün nə arzulayırsansa, onu başqası uçun də elə».

İsa peyğəmbərdən yüz il əvvəl yaşamış Xilel demişdir: «Özünə arzulamadığını, başqasına da etmə».

Bu iki ifadəni bir-birindən bütöv bir fəlsəfi uçurum ayırır. Qeyd edək ki, çin dilində Konfutsinin əsərlərində rast gəlinən «şu» sözü belə tərçümə əlunur: «Özünə edilməsini istəmədiyin şeyi, başqasına eləmə» (Veresaev V.V., Sobr. soç., t. 3, M., 1985).

Mə'lumdur ki, adamın şəxsiyyətini onun əməli ilə təyin edirlər. Şəxsiyyət – insan tələbatının cəmi olan niyyətlərin yığımıdır (Simonov P.V.).

«Hər kəsin qiyməti çalışıb-əlləşdiyi işin qiyməti qədərdir» (Mark Avreli) və ya «Bizim qiymətimiz hiss və həyəcanlarımızın dəyəri qədərdir» (Semaşko N.A.). Yəni elə yaşamaq və hərəkət etmək lazımdır ki, həyəcan və qayğılarımız heç-puç olmasın. N.Ostrovskinin sözlərini xatırlayırsınızmı: «Ömür insana bir dəfə verilir və onu elə yaşamaq lazımdır ki, mənasız keçən illər sənə vicdan əzabı verməsin».

Yoqdan soruşurlar ki, niyə Siz ən məşhur çempionlardan da cəld qaçırsınız? Yoq cavab verir: Onlar üçün qaçmaq – məqsəddir, bizim üçün isə – öz-özünü mənən təmizləmək deməkdir. Şərqin bir müdrik kəlamı var: axar sular öz-özünə təmizlənir, odur ki, su murdarlıq götürmür.

Hərçənd amerikan psixoloqu D.Bruner yazır ki, müdrikliyi təyin etmək çətindir, ona qovuşmaq isə daha çətindir: buna baxmayaraq, müdriklik haqqında müxtəlif mülahizələr gətiririk ki, bunların hamısı bir yerdə, necə deyərlər, diaqnostik başlanğıç olsun.

Konfutsi qeyd edir ki, müdriklik adamların yüksəlişini diqqətlə müşahidədən yaranır.

Monten yazır: «Təsəvvür edə bilmirəm, başqasından alınmış biliklə necə kifayətlənmək olar; hərçənd özgənin biliyi bizə nəyisə öyrədir, ancaq öz şəxsi müdrikliyinlə müdrik olursan».

L.N.Tolstoya görə, müdriklikdə mənfi əlamət müsbətdən daha çoxdur, çünki bilmək lazımdır ki, nə olmamalıdır, nə qanunsuzdur, nə ağılsızdır.

«Müdriklik – vicdana söykənən ağıldır. Belə şirin və ləziz şərbəti içmək çoxlarının nəninki hünəri deyil, heç döşünə də yatmır» (F.İskəndər).



Təcrübə müdrikliyə gedən etibarlı yol olsa da, ona təminat vermir. Müdrikliyin meyarı yaşanmış hadisələrin sayının çoxluğu yox, onların tamamilə yaxşı və dərindən dərk olunub, mənimsənilməsidir. Bir dəfə Napoleona, onun zabitlərindən birini, rütbəsini artırmaq üçün təqdim edirlər; əsas da bunu götürürlər ki, həmin zabit bir çox döyüşlərdə iştirak etmişdir. «Mənim atım daha çox döyüşdə iştirak edib» – deyə Napoleon cavab verir. II Fridrix bir dəfə öz generallarından soruşur: «Əgər onun üzərində fikirləşməmişsinizsə sizin döyüş təcrübəniz nəyə dəyər?».

Elə hal olur ki, fikirləşirsən, axtarırsan və nəhayət vaxt gəlir, tapirsan. Bir nəticəyə gəlirsənsə, bax bu, əsl sevincdir. Lakin hər hansı kitabı açarkən, orada öz fikirləşdiyinə rast gəldikdə, səni heyran edən o olmur ki, həmin fikri sənə qədər də duşünüblər, maraqlı burasıdır ki, o fikrə əvvəllər də baş vurmusan, ancaq yaxşı dərk etməmisən. Baxmayaraq ki, həmin fikir sənə qədər deyilib, indi o, sənindir, sənə doğmadır.

Ədaləti, ömrün mənasını, xeyirxahlığı – ana öz körpəsini heç kəsin üstünə atmadığı tək – sən də heç kimin üstünə atmayaraq, boynuna qoymayaraq özün yaratmalı və onun uğrunda ən çətin döyüşlərdən qorxmamalısan.

İnsan yaranışından xeyirxahdır, ancaq xeyirxahlığı üzə çıxarmaq, büruzə vermək lazımdır, əks halda onu sadəcə olaraq itirərsən və təəssüf edərək, görmədən yanından ötüb gedərsən. Üst-başın bulaşsa belə, qorxma, onu ayağa qaldır, bax budur, əsl xeyirxahlıq.

Müdriklik, R.Akoffun fikrincə, ediləçək hərəkətin ayrı-ayrı nəticələrini qabağcadan görmək, gələçəkdəki böyük faydaların xatirinə, hazırkı ötəri mənfəətləri qurban vermək qabiliyyəti və idarə olunanı idarə etmək məharətidir.

Belə hallarda Şamilin dediyini unutmaq olmaz.

Qərar qəbul edən adamın can atdığı məqsəd, etdiyi qərarın nətiçəsini qiymətləndirdikdə həllediçi rol oynayır.

Adamın, bu və ya digər alternativin nəticələrinə aid edəcəyi fayda, qərar qəbul edən şəxsin məqsədinin strukturundan asılıdır. Psixoloqlar tərəfindən aparılmış tədqiqatlar göstərmişdir ki, nəti-

cənin faydalılığı, bunun «işlədilmə»sinin təxirəsalınma vaxtı uzandıqda azalır.

Məsələn, həkim xəstəni xəbərdar edir ki, alkoqol qara ciyərə pis təsir göstərir, ancaq o, bu xəbərdarlığı vecinə almır, çünki onun xəstəliklə «haqq-hesabı çürütməsi» hələ gələçəkdədir. Lakin həkimin əlində müəyyən əsası olmaqla xəstəyə desə ki, əgər o, bu gün bir qutu siqaret çəksə, sabah ağ ciyər xərçənginə tutulacaq, onda bu, xəstəni həkimin dedikləri üzərində daha ciddi düşünməyə vadar edər.

Fişhof effektinə görə, adamlar belə hesab edirlər ki, guya keçmişdə onlara həqiqətə daha çox uyğun görünən o idi ki, sonralar həqiqətən baş verdi.

«Müdrikliyin, vicdanla və ya vicdanlı ağılla üzvi vəhdətdə olması – ziyalı refleksinin əlaməti və xüsusiyyətidir». (Tolstıx V.İ.).

Elm və müdriklik haqqında Antuan de Sent-Ekzüperi çox gözəl demişdir: «Mən hətta inanıram ki, elə bir gün gələcəkdir ki, xəstələndikdə və bu xəstəliyin səbəbini bilmədikdə fiziklərə etibar edəcəyik; onlar bizdən heç bir şey soruşmayıb iynə ilə qanımızdan nümunə götürəcək, təhlil edib bəzi kəmiyyətləri tapacaq, onları bir-birinə zərb edəcək, sonra loqarifma cədvəlinə baxıb bizi hər hansı bir həblə müalicə edəcəklər. Amma hər halda mən xəstələnəndə, çox güman ki, köhnə kənd həkiminin yanına gedəcəyəm, o da mənə qıyqacı baxıb qarnımı əlləyəcək, kürəyimə köhnə cib dəsmalı qoyub ciyərlərimə qulaq asacaq, nəhayət, bir qədər öskürüb qəlyan çəkəcək, saqqalını tumarlayacaq və məni düzgün müalicə etmək üçün gülümsəyəcək də. Əlbəttə, mən elmin önündə baş əyirəm. Ancaq, mən müdrikliyin də önündə baş əyirəm».

«Daxili xəstəliklər haqqında Traktat»da yazılır: «Müdriklər o xəstəliyi müalicə edir ki, həmin xəstəlik hələ adamın bədənində yoxdur, çünki xəstəlik baş verəndə dərmanları qəbul etmək, ona bənzəyir ki, adam susuzluqdan yananda quyu qazmağa, ya da düşmən hücuma keçəndə, silah hazırlamağa başlayır. Çox gec deyilmi?».

S.Sveyqin bir kəlamını yada salaq: «Siyasi müdrikliyin birinci əlaməti əldə edə bilməyəçəklərindən qabaqcadan imtina etmək qabiliyyətidir».



Konfutsi uşaq psixologiyası barəsində, «müdriklik haqqında dərslik» kimi danışırdı. Yəqin ona görə ki, faktlara nəzər saldıqda, birdən onlar bizim özümüzə doğru yönələn böyüdücü linzaya çevrilirlər. Uşaqlar elə bil əsərin bədiiliyini hiss edirlər...

Bununla əlaqədar V.Katayevin Pikasso haqqında bir mülahizəsinə diqqət yetirək («Lit. qazeta», 7.11.84): «Pikassonu çox sevirəm. Mənə elə gəlir ki, onun dahiliyi orasındadır ki, onda dünyəvi qəlb var. Dünyəvi – həm zaman, həm də məkan etibarı ilə. Bir çox müasir ziyalılar, təsviri sənət ustaları onu başa düşmürlər. **Ancaq, mən hiss etmişəm ki, uşaqlar onu əla duyurlar»** (kursiv bizimdir – M.A.).

Amerika tədqiqatçısı D.Moris israrla çıxış edir: «Yaradıcılıq, məhz uşaq keyfiyyətlərinin yaşlıların həyatına proyeksiyasıdır» və bundan ötrü, yaşlıların hərəkətində aşağıdakıların üstünlük təşkil etməsi vacibdir:

1. Təəccüb və maraq hissi;
2. Axtarışlara, sınaqlara, tapıntılara həvəs.

Q.Selyenin dediyi kimi, yaradıcılıqda, hamının görduyünü görmək, ancaq heç kəsin fikirləşmədiyi kimi fikirləşmək olduqca vacibdir.

Hər bir uşaq – bəşəriyyətin səhvlərinin, özünü yaşatmanın, əvəzsiz sərvətlərinin bənzərsiz forması və dilsiz əsrlərdən üzü bəri ərsəyə çatdırmaq istədiyi və oxumaqdan doymadığı kiçik ev ensiklopediyasıdır.

Əsrlər boyunca yaşayıb davam edən bəşərin sərgərdan düşüncələrindəki səhvləri hər gün uşaqlar öz hərəkətlərilə nümayiş etdirirlər. Uşaqlar üzərində aparılan sadə müşahidələrdən alınan faydanın hüdudlarını təyin etmək hələ çox çətindir.

Uşaqlar üçün eqosentrizm təbiidir. Əvvəlcə «mən özüm», sonra «hamıdan yaxşı». Bunda bir təcavüz yoxdur, ancaq həm başqalarını, həm də özünü dərk etmək hissi də yoxdur. Bu hisslər uşaqda başqalarının nöqteyi-nəzərini duyub qəbul etdikdən sonra yaranır. Məhz bunu uşaq edə bilmir. Eqosentrizm hər şeydən əvvəl aləmi (fəzanı) müxtəlif tərkibli göstərir.

Uşaqlar nə görürlər, onu da çəkirlər.

SSRİ Tibb EA-nın həqiqi üzvü B. Kaznaçeyevin məqaləsində («Sos. kultura», 26.01.85) gənc şimallıların rəsmlərindən maraqlı dəlillər gətirilir. Məqalədə göstərilir ki, uşaqların mövzularında nə eqoizm, nə tənhalıq tapmaq mümkün deyil, hər şeyi bir yerdə edirlər. Uşaq qayğı və sevinci hiss edir, onu da çəkir. Əvvəlcə o, öz evini çəkir – bu ev onun üçün bütün dünyadır, sonra o, öz daxili dunyasını əks etdirərək, tayqanı çəkir.

Şəkillər, naxışlar onların həyatının «kardioqram»ını əks etdirir.

Dediklərimiz, uşaq qavrayış tərzinə uyğun olaraq Lobaçevski həndəsəsilə də səsləşir.

«Yuxarı» və ya «aşağı» anlayışlarını uşaq daha erkən çağlarda hiss edir, ümumdünya cazibə qanunu ilə artıq sadə hərəkətlərdə hesablaşmaq lazım gəlir. «Sağ» və «sol" anlayışlarına isə ancaq hərbi sıra təlimlərində vərdiş edilir.

Alimlər razılaşırlar ki, uşaqların təfəkkür tərzi, böyüklərin təfəkkür tərzindən tamamilə fərqlənir. Jan Piajenin nəzəriyyəsi öz aralarında bir-birilə bağlı iki ideyaya əsaslanır: yaşa dolana qədər uşağın intellektual inkişafı keyfiyyətcə müxtəlif mərhələlərə bölünür və uşağın öz ətrafı ilə qarşılıqlı əlaqəsi, mərhələ dəyişdikdə həlledici rol oynayır.

Hələ vaxtı ilə J.J.Russo tərəfindən irəli sürülmüş təbii nəticələr metodunu artıq üç yaşlı körpə də dərk edə bilir. Əgər sən yaxşı rəftar etsən, sənin özünə də xoşdur, ətrafdakılara da.

Böyük el sənətkarı, el aşığı Göyçəli Ələsgər (1821 – 1926) nə gözəl demişdir:

> Can deməklə candan can əskik olmaz,
> Dostları bir-birinə mehriban eylər.
> Çor deməyin nəfi nədir dünyada?
> Azad gönülləri pərişan eylər.



## § 17. MƏNTİQİLİK VƏ MƏNTİQSİZLİK HAQQINDA

> «Beş yaşlı uşaqdan mənə qədər
> ançaq bir addım var.
> Yeni doğulmuş
> körpədən isə mənə qədər – çox
> böyük bir məsafə var».
>
> *L.N.Tolstoy*

Məlumdur ki, Piaje intellektin inkişafını dörd mərhələyə ayırır. «Sensomotor idrak» iki yaşa qədər davam edir və bu mərhələ onunla səciyyəvidir ki, sadə fəza təsəvvürləri, real əşyalar, vizual və kinetik təsirlərin birgəliliyi nətcəsində bərqərar olur. Məsələn, matryoşkanı neçə yığmaq lazımdır ki, bir dənəsi də qıraqda qalmasın? Gah belə yoxlayırıq, gah elə yoxlayırıq...

Uşaq, iki yaşından beş yaşınadək operasionalizmə qədər təfəkkür tərzinə uyğun hərəkət edir, yəni, o, əşyaların mövcudluğu haqqında müəyyən biliyə malikdir və onların görkəmini o saat təsəvvür etməyi bacarır, lakin zamanın və ya fiziki transformasiyanın yaratdığı dəyişiklikləri başa düşə bilmir. Belə ki, «Günəş niyə yerə düşmür?» sualına belə cavab verir: «Bulud onu saxlayır?». «Bilirsənmi ki, ağacların yarpaqları niyə yaşıldır?» sualına isə: «Ona görə ki, onlar hələ yetişməyiblər»—cavabını verir.

Balaca oğlan uşağı başını yuxarı qaldırıb, uzun müddət bulud burulğanını izləyir və nəhayət soruşur: «Ata, o nədir elə qaynayır.» Bəzən uşaq anası ilə bu sayaq söhbət aparır: «Ana, burnum hirslənib, bu saat asqıracaq». Yaxud: «Ana, bu gün yağış yağaçaq». «Bunu sənə kim dedi?». «Barometr düşüb». «Haradan bilirsən?». «O mənim əlimdən düşdü».

Bu mərhələdə uşaq mühakimə yürüdür, ancaq məntiqsiz.

Beş yaşından on yaşına qədər dövr üçün səçiyyəvi olan **konkret əməliyyatlar** mərhələsində şərtlər kifayət qədər əyanidirsə, uşaq məntiqi məsələləri düzgün həll edir. Məsələn: «Dünyada heyvanlar çoxdur, yoxsa qoyunlar?» – sualına: «Heyvanlar çoxdur, ona görə ki, qoyunların hamısı heyvan deyil» – cavabını verir. Və ən nəha-

yət, 10 yaşdan 15 yaşadək olan müddət **formal əməliyyatlar mərhələsi** adlanır. Bu mərhələdə uşaq, münasibətlər və fərziyyələr əsasında *təsəvvürlərin nəticələrini şərh edir və habelə real hadisələr haqqında* məntiqi mülahizələr yürüdür. Bu isə artıq elmi təfəkkürdür.

Qeyd edək ki, uşaqda həya hissi – başqaları qarşısında qorxu, təqsir və ya günah – öz-özü qarşısında həya üç yaşa yaxın yaranır. Dörd yaşa yaxın uşaq artıq müəyyən hərəkətlərin yolverilməzliyini başa düşür. Beş yaşında o, özünün pis hərəkətlərini məzəmmət edə və onları düzəltmək istəyini büruzə verə bilir.

N.N.Vilmont öz xatirələrində A.T.Tvardovskinin – atasının onu necə şapalaqlaması haqqında söhbətini verir... "...o vaxtlar beş yaşlı oğlan uşağını atası əməlli-başlı *döyərkən anası həddindən artıq* soyuqqanlılıq göstərərək işə qarışmamış, yalnız əlini yelləyərək... "sən artıq böyümüsən, ata şallağına dözə bilərsən" – demişdi. Bu hadisə onun körpə qəlbinə ağır yaralar vurmuş və bütün varlığını sarsıtmışdır. H.N.Vilmont yazır: «Bəli, bu onun üçün ana südündən bir daha məhrum olmaq demək idi» («Novıy mir», № 6,1987).

Həya, abır və təqsir hissləri uşaqlarda aydın şəkildə yalnız altı yaşında *özünü göstərir.*

Həya və günahkarlıq hisslərinin az inkişaf etməsi, adamda arzuolunmaz niyyət və meyllərin meydana gəlməsinin qarşısını müvəffəqiyyətlə alır. Həya və günahkarlıq hisslərinin həddən artıq inkişafı adamda özünə inamsızlıq yaradır, sonralar bu xüsusiyyət möhkəmlənir və utancaqlığa keçir.

Bəzi psixoloqlar təsdiq edirlər ki, üç yaşdan yeddi yaşa qədər *ciddi tərbiyə, sonrakı dövrlərə nisbətən, olduqca vacibdir.* Həmin yaş dövründə uşağın tərbiyəsinə müsbət təsir göstərən amillərin nəzərdən qaçırılmasını, soyuq münasibətləri və laqeydlikləri sonralar düzəltmək qeyri-mümkündür.

Bu yaş mərhələsində, Z.Kodayın dediyi kimi, əslində adamın taleyi həll olunur.

Musiqişünaslar arasında belə bir yarıkinayəli, yarıhəqiqi əhvalat mövcuddur: Afrikanı öyrənən bir alim yerli qəbilələrin birindən körpə oğlan uşağı götürüb, ona Pyer Bulezimin qeyri-harmonik dissonans və abstrakt səs tərkibli avanqardizm ruhlu musiqisini dinləməyi öyrədir. Uşaq bundan başqa heç bir musiqi dinləmir və yalnız on beş yaşına çatanda o, birinci dəfə olaraq Motsartın musiqisini dinləyir. Bu, oğlana çox gülməli görünür və musiqi ona olduqca mə'nasız gəlir; klassik musiqi ruhunda tərbiyələnmiş «adi» musiqişünasa Bulezin musiqisinin bağışladığı tə'sir kimi.

İnsan xarakterinin əsası – özülü ailədə qoyulur və psixoloqlar təsdiq elirlər ki, ümumi inkişaf üçün lazım olan əqli qabiliyyətin 80 faizini adam ailədə alır.

İngilis yazıçısı Uilyam Tekkerey yazmışdı: «Rəftar əksən – adət biçərsən, adət əksən – xasiyyət biçərsən, xasiyyət əksən – tale biçərsən».

Əfsanəyə görə pəhləvanın öz çiyinlərində öküz aparması üçün, uşaqlıqdan onu çiyinlərində buzov aparmağa məcbur etmək lazımdır. Hər gün buzovu çiyinlərinə qaldırmağa adət etmiş oğlan, buzovun necə böyüdüyünü hiss eləmir və bir gün gəlir ki, yaşlı çağında çiyinlərində öküz aparır (Böyük Nizaminin qəhrəmanı Fitnə kimi).

Bir yaş mərhələsindən digərinə birdən-birə keçilmir. Piajenin əqli inkişaf modeli – mövcud olanlardan ən geniş yayılmışıdır.

L.S.Vıqotski deyirdi ki, uşağın inkişafında əsas amil, təlim və təhsildir (müxtəlif vərdişlərin aşılanması – öyrətmə yox), yəni uşağa mədəniyyətin aşılanması, dünyanı və gerçəkliyi dərk etmək üçün yeni elmi dünyagörüşün formalaşmasıdır.

Yuvenal yazırdı ki, uşağa böyük hörmətlə yanaşmaq lazımdır. Buna görə də, məntiqi təfəkkürün formalaşmasında Piajenin modelindən və L.S.Vıqotskinin tədqiqatlarından geniş istifadə edilir.

Məlumdur ki, müəyyən yaşa qədər uşaqlarda ölçü haqqında anlayış demək olar ki, inkişaf etmir. Nəticədə, Piaje modelinə əsasən onlarda miqdarın saxlanması prinsipi anlayışı yaranmır. (Uşaqlar eyni miqdarda gürəcikləri ayırıb müxtəlif qutulara yığdıqda, bu miqdarın əvvəlkinə bərabər olduğunu unudurlar).

L.Obuxova beş yaşlı uşaqlara ölçü anlayışını (həcm, sahə, uzunluq, çəki) başa salıb, Piaje testindən istifadə etməyi təklif et-

mişdir.Uşaq: "Harada çoxdur?" – sualına, "Ölçmək lazımdir" – cavabını verir.

Beləliklə göstərilir ki,uyğun təlim sistemi vasitəsilə Piaje finomeninə qalib gəlmək olar.

Başqasının nöqteyi-nəzərini qəbul edə bilməmək məntiqsizlikdən irəli gəlir. Piaje qeyd edir ki, – təfəkkürün aksiomatikası, psixologiya isə onun məzmunlu başlanğıcıdır.

Çernışevskinin məntiqinin gücü, ona çox qızğın mübaisələrdə həmişə qələbə qazandırmışdır. Rəqibin bu və ya digər mövgeyini dəqiq müşahidə edərək, müxtəlif səhvlərini, yanlış inamlarını bir yerə yığaraq, onun zəif cəhətlərinin və diqqətsizliyinin qısa səciyyəsindən öz konsepsiyasını yaradırdı. Nəticədə mübahisəni tədriclə inkişaf etdirərək rəqibin ideya və mülahizələrini alt-üst edirdi.

«Məntiqilik» və «məntiqsizlik» haqqında aşağıdakı məlumatlar da müəyyən dərəcədə maraqlıdır. Necə deyərlər, qadın məntiqi tədqiqatçıların nəzərini çoxdan cəlb eləmişdir, lakin bu yaxınlarda aşkar olmuşdur ki, qadın əxlaqının (rəftarının) xüsusiyyətləri genetik olaraq proqramlaşdırılmışdır. Hər bir kişi hüceyrəsində 23 xromosomun yalnız bir cütündə həm X xromosomu, həm də U xromosomu yerləşir. Qadın hüceyrəsində U xromosomu əvəzinə, yenə bir X-xromosomu var. X xromosomu U – xromosomundan xeyli çox olduğundan, qadın orqanizmi özündə, kişi orqanizminə nisbətən daha çox irsiyyət məlumatı daşıyır. Qadın orqanizminin inkişafı prosesində X xromosomlarından biri sadəcə olaraq ayrılır. Bu o zaman baş verir ki, orqanizm çoxhüceyrəli olur və müxtəlif hüceyrələrdə müxtəlif xromosomlar yerləşir: bəzilərində atadan, digərində isə anadan gələn xromosomlar. Qeyd olunanlar qadın orqanizminin mozaikliyinə gətirir, bu beyin hüceyrələri üçün də səciyyəvidir. Bu xüsusiyyət, təsadüfən seçilmiş iki alternativ qərar qəbul etmək tələb olunan mürəkkəb şəraitdə qadın rəftarını təyin edir, buna baxmayaraq, qadın məntiqi kişi məntiqinə üstün gəlir.

Qeyd olunduğu kimi, istər emosionallıq, istərsə də məlumatlılıq nöqteyi-nəzərindən qərar qəbul edilməsində qadınlar üçün toxunma və ya təmas hissi həlledici rol oynayır.



Məntiqi təfəkkürün əhəmiyyətli xüsusiyyətləri – onun qabaqcadan hiss etmə, fəaliyyətə istiqamət vermə xarakteridir. Məntiqi düşünmə, keçmişin gələcəyə yönəlmiş modelidir, daha doğrusu "gələcəyin zəruri modelidir".

Yaxşı şagird həmişə qabağı görməyə can atır. Məsələn, siz ona kvadrat tənliyi tam kvadrata qədər tamamlayıb həll etməyi izah etsəniz, o, dərhal bilmək istəyəcəkdir ki, kub tənliyini də tam kuba qədər tamamlayıb həll etmək olarmı?

Dərin bilik əldə etdikdə uşaq təxəyyülünün səmimiliyini saxlamaq, elmi məlumatı ağlın cəsarəti və sonsuz imkanları, öz şəxsiyyətinin qeyri-standartlığı ilə zənginləşdirmək zəruridir.

## § 18. MÜƏLLİM VƏ ŞAGİRD HAQQINDA

«Nə üçün balalara azad incəsənət
öyrədərək, onları maarifləndiririk?
İş onda deyil ki, onlar layaqətli adamlar olsunlar,
məqsəd bir də ondan ibarətdir ki, onlar
öz varlıqlarını dərk olunmaq üçün hazırlasınlar".

***Seneka***

Qədim Hind müdrikliyi öyrədir: «Kim ki, daim oxuyub öyrənir... o, yaxşı yatır, özü-özünün həkimi olur. Səbirli olmaq, məqsəd uğrunda mübarizlik, insani kamillik oxuyub öyrənməklə bağlıdır».

Müəllim öz şagirdini sevməlidir və onun şəxsiyyətinə hörmət etməlidir. Vyetnam zərb-məsəlində deyilir: «Yalnız müəllimə hörmət etməklə müəllim ola bilərsən»,

Marksın dahiyanə fikri bu hikmətlə olduqca ahəngdar səslənir: «Tərbiyəçi olmaq üçün tərbiyə olunmaq lazımdır».

Z.Koday hesab edir ki, o kəs yaxşı öyrədə bilər ki, onu yaxşı öyrədiblər.

Hər öyrətmək istəyən müəllim deyil, kimdən ki, öyrənirlər – müəllim odur.

Təlim prosesində yalnız şagirdin müəllimlə görüşü yox, bir də onların bir-birini anlaması əsas şərtdir. Müəllimlə şagirdin açıq ürəklə danışması, sərbəst fikir mübadiləsi çox şey öyrədir. M.Prişvin yazır ki, bax, bu əsl yaradıcılıqdır.

Anton Rubinştyenin aşağıdakı sözəri nəinki şagirdlərə, yəgin ki, hamıya aiddir: «Əgər bircə gün öyrənmirəmsə – bunu özüm hiss edirəm, əgər iki gün öyrənmirəmsə – bunu mənə yaxın olanlar hiss edirlər, əgər üç gün öyrənmirəmsə – bunu hamı hiss edir».

D.Voyskunskinin[1] normal ünsiyyət üçün lazım olan postulatlarının qısa şərhi belədir:

1. Məlumatlılıq haqqında – hamıya tamamilə məlum olmayan xəbərlər həmsöhbətlər üçün də marağa səbəb olmalıdır;

2. Təsvirin tamamlığı haqqında – tamamilə dolğun təsvir zamanı əhəmiyyətli məlumatı ayırmaq mümkün deyil;

3. Determinizm haqqında – dərk etmək üçün dünya hadisələrinin səbəb-nəticə münasibətlərini əks etdirən məlumatların olması vacibdir;

4. Eynilik haqqında – partnyorların əsaslandıqları gerçəkliyin ümumiliyi (birliyi);

5. Ümumi yaddaş haqqında – danışanlar keçmiş haqqında minimum ümumi məlumat ehtiyatına malik olmalıdırlar;

6. Proqnozlaşdırma qabiliyyəti haqqında – hər bir adam heç olmasa çox da mürəkkəb olmayan qabaqcadan xəbər vermə vərdişinə malik olmalıdır;

7. Həqiqətlik haqqında – sözlə işin, sözlə xarici aləmin bir-birinə müəyyən dərəcədə uyğun gəlmələrinin zəruriliyi;

8. Semantik (mənaca) rabitəlilik haqqında – ümumi mövzunun mövcudluğu, hər kəlmənin düşünülmüşlüyü.

Deyirlər ki, biliyin "həzm" olunması üçün, onu yaxşı iştaha ilə yemək lazımdır.

«Niyə şagirdlərimizlə sərt rəftar edirsimiz?» sualına Antisfen: – «Həkimlər də xəstələri ilə qəddar rəftar edirlər» – cavabını vermişdir.

---

[1] Voyskunskiy A. "Ya qovoryu, mı qovorim.." M., 1982



Şagirdlərin taleyi üçün müəllimlər daha çox cavabdehdirlər.

Qeyd etmək lazımdır ki, müəllimlərlə şagirdlər, valideynlərlə uşaqlar arasında əksər hallarda münaqişələr də müşahidə olunur. Bunun səbəblərindən biri budur ki, bizim qarşısında dayandığımız həddi doğma övlad və ya şagirdlərimizin adlayıb keçməsini mətanətlə qarşılamaq çətin olur.

Təsəvvürə gətirmək çətindir ki, hər bir tərbiyə edilən öz tərbiyə verənin bütün dəqiqliyi ilə züy tutanı olsun. Rəhbərlik etmək istəyi bəzən xubdinlikdən, öz ləyaqətini şişirtməkdən və gərəksiz təkəbbür hisslərinin cansıxıcı əzabından meydana gəlir.

Bütün bunlarla əlaqədar olaraq, demək lazımdır ki, zaman keçdikcə xeyirxahlıq hissləri zəifləyir və onun bərpası adamdan böyük mənəvi dözüm, iradə və geniş dünyagörüşü tələb edir: ürəyiyumşaqlıq hisslərini və mənəvi kamilliyi, insan özü-özüylə daxili mübarizədə qazanır.

Təlim və təhsilin çətin məqamlarında müəllim şagirdlərini hədələməklə, əsəbi hərəkətlərlə, imtahan qiymətləri ilə qorxutmamalı, əksinə onlarda gözəl arzu və ümid qığılcımları oyatmalıdır.

Şagirdin də başqaları kimi, əməyinə verilən qiymətə və qayğıya böyük ehtiyacı var. Hətta şagirdin imtahandan aldığı qiymət onun əməyinin qiymətindən başqa, daha dərin mənalı, ictimai və mənəvi dəyərli əhəmiyyət kəsb edir.

Bir qrup adamlarla eksperiment aparılmışdır. Qrup üç dəstəyə bölünmüş və hamısına eyni bir tapşırığı yerinə yetirmək tapşırılmışdır.

1-ci dəstədə: İmtahan edən, onları tərifləmiş və ruhlandırmışdır;

2-ci dəstədə: İmtahan edən, hər birinin səhvini göstərmiş və bu səhvlərə görə onları ciddi məzəmmət etmişdir;

3-cü dəstədə: İmtahan edən, bir nəfərə belə yaxınlaşmamışdır.

Ən yaxşı nəticə birinci dəstədə, ən pis nəticə isə üçüncü dəstədə olmuşdur.

Uşaqlarda mənəvi prinsiplərə rəğbət 6 – 7 yaşlarında özünü tamamilə büruzə verir; layiq olmadığı mükafatı almamaq, düzlük,

sadiqlik və s.keyfiyyətlər. A.Lipkina və M.Yaroşevski maraqlı bir eksperiment aparmışlar.

Məktəbli yaşına çatmamış 4 uşaqdan ibarət qrupa tapşırıq verib, demişlər ki, tapşırığın öhdəsindən gələnlər mükafatlandırılacaqlar. Üç nəfər tapşırığı yerinə yetirmiş, bir nəfər – yox. Eksperiment aparan, uşaqların dördünü də mükafatlandırmışdır. Tapşırığı yerinə yetirə bilməyən uşaq, əli konfetə toxunar-toxunmaz ağlamışdır...

Təəssüflər olsun ki, bir çoxları böyüdükdə bu gözəl mənəvi prinsiplərdən uzaqlaşırlar.

Bir latın kəlamında deyilir: «Müəllim şagirdin ayağına yox, şagird müəllimin ayağına gəlməlidir».

N.İ.Lobaçevski ilə bağlı bir hadisə maraqlıdır.

Kazan tədris əyalətinin hamisi S.Y.Rumovski Kazan Universitetinin direktoru, professor Yakovkindən soruşur:

– Siz Lobaçevskini tanıyırsınızmı?

– Bəs necə, dəcəlin biridir, – deyə Yakovkin cavab verir. Deməli, qabiliyyəti olan bir gimnazistin riyaziyyata, dillərə, fəlsəfəyə böyük həvəsi direktor – professor üçün heç bir əhəmiyyətə malik olmamışdır. Həmin yaş dövrü üçün o qədər də qəribə görünməyən dəçəllik, direktorun nəzərində, qalan müsbət keyfiyyətləri üstələmişdir. Belə bir adam gəncliyin tərbiyəçisi ola bilərmi? İstedadlı gəncləri belə adamların özləri seçib, özləri də tərbiyə edib böyüdə bilərlərmi?

İbn Akninə görə, müəllim aşağıdakı yeddi keyfiyyətə malik olmalıdır:

1. Dərs dediyi fənni mükəmməl bilməlidir.
2. Hərəkətləri biliyinə uyğun gəlməlidir.
3. Təhsil üçün nəmərdən imtina etməlidir.
4. Şagirdlərlə öz övladları kimi rəftar etməlidir.
5. Biliyinə və ona uyğun olaraq hərəkətinə dərin inamı olmalı, eyni zamanda bu inamı şagirdlərinə aşılamalı və bununla da onlara xoşbəxtliyin yolunu göstərməli;
6. Şagirdlərinə qarşı xeyirxah və səbirli olmalı;



7. Tədris planını şagirdlərin əqli qabiliyyətinə uyğun olaraq ardıcıllıqla tətbiq etməlidir.

Şagirdlərin hansı keyfiyyətlərə malik olmasını isə, belə səciyyələndirir:

1. Təbiətən saf olmalıdır;
2. Bilmədiklərini dərhal soruşmalı, hər şeyə tənqidi yanaşmalı və müəllimin dediklərini kor-koranə qəbul etməməli, bununla bərabər müəllimin həyat təcrübəsindən öyrənməli;
3. Maddi və ailə çətinliklərinə soyuqqanlı olmalı;
4. Əvvəlcə fənnin əsasını öyrənməli, sonra isə təfərrüatına varmalı;
5. Bütün mövcud fikir ayrılıqları ilə tanış olmalı, çünki onlar bir-birini izah edir;
6. Xeyirxah hərəkətlərin, dolanışıq vasitələrinin və biliklərin qarşılıqlı münasibəti üzərində həmişə düşünməli;
7. Hər hansı gizli səbəb olmadan biliklərə fədakar sadiqlik, həm də məşğələlərdə müvəffəqiyyət qazanmaması şagirdi məyus etməməlidir;
8. Yaxşı müəllimi arayıb tapmaq istəyi;
9. Müəlliminə dərin ehtiram bəsləməli.

Orta əsrlərdə Şərqdə hesab edirdilər ki, müəllim həmişə hətta özündən cavan və aşağı vəzifəli şəxslərdən belə öyrənməkdən çəkinməməlidir. O, şagirdlərini mütilikdən, itaətkarlıqdan, yaltaqlıqdan çəkindirməli və onların cəsurluğunun, mərdanəliyinin və xəşbəxtliyinin qayğısına qalmalıdır.

«Müəllimin siması» («Pravda», 16.08.1988) məqaləsində T.Qonçarova və İ. Qonçarov Donetsk şəhərində 1048 nəfər orta məktəb müəllimləri arasında aparılmış – «Müəllim kimi formalaşmağınızda hansı görkəmli pedaqoqların daha çox təsiri olmuşdur?» – sorğusunun nəticəsi verilmişdir.

Cavablar olduqca təəssüfləndiricidir: 471 nəfər A.Makarenkonun, 7 nəfər Y.A.Komenskinin, 10 nəfər K.Uşinskinin, 13 nəfər N.Krupskayanın, 2 nəfər A.Lunaçarskinin adını çəkmişlər.

Öz savadının kifayət qədər olmamasından xəcalət çəkən

A.Çexovun qəhrəmanı Nikitinin əhvali-ruhiyyəsi müəllimlərə daha doğma olmalıdır: "Doğrudan da ayıbdır... Mən ədəbiyyat müəllimiyəm, ancaq indiya qədər Lessinqi oxumamışam».

J.A.Komenski, müllimlər üçün 16, direktorlar üçün isə 15 qanun tərtib etmişdir və bunların bir hissəsi indi də əhəmiyyətini itirməmişdir.

Məsələn, müəllimlər üçün qanunların birində deyilir: "Şagirdlərin hər şeyi darıxmadan yerinə yetirməsi üçün, onlara atalıq qayğısı ilə, qətiyyətlə, böyük nailiyyətlər arzusu ilə yanaşmaq lazımdır, qoy onlar elə bilsinlər ki, müəllimlər onların mənəvi inkişafının valideynlərdir. Bu zaman onlar bütün bu işləri açıq ürəklə, canı-dildən etməlidirlər və özü də Horasinin sözlərini yadda saxlamaqla: «Hamı, faydalı ilə lazımlını əlaqələndirənlərin tərəfindədir». Daha sonra «...Yaxşı müəllim xeyirli nə varsa öyrətmək fürsətini əldən verməməlidir».

Müəllim şagirdinə çox şeyi öz şəxsi nümunəsində izah etməlidir: «Ağıldankəmliyi iki şey müəyyən edir: susmaq lazım gələndə danışmaq, danışmaq lazım olanda susmaq» (Sədi).

T. Qonçarova və İ.Qonçarov hesab edirlər ki, müəllim hazırlayan ali məktəblərə daxil olmaq istəyənlərin aşağıdakı ilkin keyfiyyətlərə malik olmaları vacib şərtlərdəndir:

1. Öyrətməyə –
2. Ağıllandırmağa –
3. Tərbiyələndirməyə –
4. Böyüdüb yetişdirməyə –
5. Təkmilləşdirməyə –
6. Təcrübəni öyrənməyə ehtiyac;
7. Daxili aləminin bənzərsizliyi;
8. Başqalarından fərqlənmə;
9. Humanizm;
10. Aydın zəka;
11. Ünsiyyət;
12. İşlə sözün vəhdəti;
13. Mənən təmizlik;



14. Ruhən cavanlıq;
15. Nitq mədəniyyəti.

Bir latın zərb-məsəli var: - dixi et animam levavi – diski et animam levavi (dedi və ürəyini boşaltdı). Qədim yunanlar deyirdilər ki, Eskulapın gücü onun necə danışmağında yox, incə dinləməyində idi.

Deyirlər ki, susmaq aqıllılıq əlaməti deyil, səfeh olmamağın əlamətidir. Bəzəi «o, ağıllıdır» demək əvəzinə «O, səfeh deyil» deyirlər.

D.Eyzenhauerin saysız-hesabsız suallara verdiyi cavablarda adamın xətrinə dəyəcək və ya onu nüfuzdan salacaq heç nə eşitmək olmazmış. O, – «heç vaxt dilinizi dişinizin arasında saxlamaq imkanını əldən verməyin» – ifadəsini tez-tez təkrar etməyi sevərmiş. Əgər başa düşürsən ki, «boş-boş danışmaqdan, heç nə danışmamaq daha yaxşıdır», onda mübahisədə susmaq məsləhətdir.

Şagirdlərə geniş sərbəstlik və azadlıq verilməlidir. Bu münasibətlə ifadəli şəkildə A.Eynşteyn demişdir: «Əgər cavan və sağlam bir yırtıcı heyvana qamçı gücünə hər gün həddindən artıq ət versən, tədricən o, yeməkdən tamamilə iyrənəcəkdir». Təkcə «udmaq» yox, həm də həzm eləmək lazımdır. Odur ki, şagirdin də oxumağa, ünsiyyətə, başqa istirahət və əyləncələrə vaxtı olmalıdır.

Dediklərimiz hal-hazırkı dövr üçün də böyük əhəmiyyət kəsb edir.

Elmdə və incəsənətdə qabiliyyəti olmayanlara nə isə öyrətmək olmaz. Əgər şagird müəllimindən öyrəndiklərini sadəcə olaraq əzbərləyirsə, o, heç şeyə qabil ola bilməz.

> Kim ki, canlıları öyrənmək istər
> Cəhd eləyir ruhu ayırsın candan.
> Budur əllərində sürlər-sümüklər,
> Bədəndə ruh yoxsa bir heçdir o can.*

Yadda saxlamaq lazımdır ki, öyrənmək – kənara, oxuyub öyrənmək – daxilə yönəlmiş fəaliyyətdir. K.İkramov hesab edir ki, bizim bir çox balalarımızın səbəbi ondadır ki, xeyrxahlığı öyrənmək əvəzinə, ziyankarlıq öyrənirik ("Lit. qazeta», 14.05.86).

Yaradıcılığın bütün sahələrində öz-özünə öyrənmə və şəxsi təhsil böyük əhəmiyyətə malikdir.

Belə deyirlər ki, yaradılıq işlərində ən əsası və başlıçası öyrətmək olmaz – bunu ancaq öyrənmək olar.

Filosof H.Spenssrə görə «bəşəriyyət həmişə ancaq şəxsi təhsil yolu ilə müvəffəqiyyətlə inkişaf etmişdir".

O. Süleymenov təsdiq edir ki, «ançaq şəxsi təhsil yolu ilə mütəxəssis olmaq olur».

Bir-biri ilə təzad təşkil idən iki misala diqqət yetirək;

– Şeir yazmağı kimdən öyrəndiniz?—deyə Firdovsidən soruşurlar. O, cavab verir:

– İndiki şeir cızmaqaraçılarından.

Soruşurlar:

– Necə?

– Onların boşboğazlığından tamamilə uzaqlaşdım.

Bir oğlandan soruşdular:

– Bu pis söyüşləri kimdən öyrənmisən?

– Atamdan.

– Necə?

– Onun bütün söyüşlərini yadımda saxlayıram.[1]

Cavanlara aşılamaq lazımdır ki, «kiçiyin indi başa düşdüyünü yaşlı çoxdan bilir». Ümid etmək olmaz ki, uşaqlar böyüyəndə hiss etsələr ki, nə isə düz deyil, hər şeyi yenidən başlayacaqlar. Nahaq demirlər ki, təkrarən öyrənməkdənsə, yenidən öyrənmək daha yaxşıdır.

Klinisist N.Krakovski yazır ki, mühəndisin biliyi imtahan qiymətləri ilə əmək stajının riyazi cəmi deyildir. Bu, birinci növbədə vətəndaşlıq şüurunun,nəzəri biliklərin və həyat təcrübəsinin, özünə inamın və ağıllı riskin, təvəzökarlığın və yaradıcılıq cəsarətinin, ümumi mədəniyyətin üzvi qatışığından yoğrulmuşdur.

"New Scientist" (1984, №1404)[2] jurnalında tədris prosesində EHM-in, televizorların, maqnitafonların, imtahan edən avtomatların tətbiqinə dair marağlı məlumat verilmişdir.

[1] Ü.Hacıbəyov. Seçilmiş əsərləri. Bakı Elm nəşriyyatı, 1985.

[2] Bu məqalənin qısa məzmunu "Ximiya i jizn" (№ 9, 1984) jurnalında verilmişdir.



Yoxlamalar göstərmişdir ki, texniki vasitələrin və EHM-in tədris prosesinə tətbiqi, tədrisin yalnız birinci aylarında müsbət səmərə vermişdir. Müəllflər hesab edirlər ki, texniki vasitələrin tətbiqi dərslərə, şagirdlərin diqqətini daha çox çəlb edəcək müxtəliflik gətirir.

Yeri gəlmişkən deyək ki, EHM-dən həm elmdə, həm də incəsənətdə istifadə etdikdə loqarifik xətkeşin ixtiraçısı U.Otredin (1632-ci il) bir mülahizəsini yadda saxlamaq lazımdır: «Sənətə yiyələnməyin həqiqi yolu vasitələrdən yox, Dəlillərdən keçir. Cahil müəllimlərin bu mənasız manerası isə Elmlə yox, Vasitələrlə başlayır. Buna görə də onların şagirdləri Ustalıq əvəzinə hoqqabazlar sayağı müxtəlif kələklər öyrənirlər. Və bu təhsilə baxmayaraq, həvəskar və zəhmətkeş şagirdlərin qiymətli vaxtlarını hədər yerə itirərək onları cahilliyə və tənbəlliyə öyrədir. Əgər adam həqiqi Ustalığa malikdirsə, Vasitələrdən istifadə etmək həqiqətən əladır, ancaq bu istifadə etmə Sənətə qarşı qoyulursa, nifrətə layiqdir».

Eyni zamanda, bir çox hallarda EHM-də çox böyük həcmdə hesablamalar aparmaq lazım gəlir.

Məsələn, hava haqqında məlumatı qabaqcadan xəbər vermək üçün Yer kürəsinin bütün sahələrindən külli miqdarda məlumat yığıb onu super EHM-də işləmək lazımdır. Amerika alimlərinin hesablamalarına əsasən havanın üç gün qabaqdan dəqiq proqnozu ildə 60 milyard dollar iqtisadi səmərə verir. Hazırda superkompüterlər saniyədə 0,5 – 1,3 milyard əməliyyat aparır.Yaxın gələcəkdə saniyədə 10 milyard əməliyyat apara biləcək superkompüterlər yaradılacaqdır.

Bununla əlaqədar olaraq EHM-in intensv surətdə tətbiqi bəzi təhlükələrdən heç də xali deyildir. Bu, E.Q.Valuanın bir mülahizəsi ilə daha uyğun gəlir: «Bəzən bu və ya digər sahədə irəliyə doğru hərəkət müvəqqəti olaraq dayanır. Elm mat qalıb mürgüləyir. Alimlər xırdaçılıqla məşğul olurlar və uzuni-uzadı hesablamların arxasında kasıb fikirlər gizlənir». Y.M.Parxomovski qeyd edir ki, («Ximiya i jizn",№ 3,1986) «...EHM-in geniş surətdə tətbiqi intuisiyanı aradan götürür".

Müasir kompüterlərin əvvəlkilərə nisbətən 300 dəfə kiçildiyini, sürətinin 10 min dəfə artdığını, vahid əməliyyat hesabı ilə qiymətinin 100 min dəfə azaldığını nəzərə alaraq demək lazımdır ki, bütün bunlar həll olunacaq məsələlərin həddən artıq mürəkkəbləşdirilməsi qorxusu yaradır.

ABŞ-da kompüterlər arasında keçirilmiş şahmat çempionatının nəticələri çox maraqlıdır.

«Krey bilin» superkompüteri (qiyməti 15 min dollar) finalda xüsusi olaraq şahmat oyunu üçün modelləşdirilmiş «Xaytek» mini kompüterinə (qiyməti 15 min dollar) uduzmuşdur.

Elektron hesablama texnikasının xalq təsərrüfatında tətbiqi nəticəsində:

1. Əmək məhsuldarlığı 3 – 5 dəfə artır;

2. Az məhsuldar əmək sahəsindən işçi qüvvəsinin 15 faizini azad etmək mümkün olur;

3. Dəmiryolu vaqonlarının dövriyyəsi 40 – 50 faiz sürətlənir;

4. Daxili yanacağın və sürtgü yağlarının məsrəfi 30 faiz azalır;

5. Layihələrin işlənilməsinə sərf olunan xərclər və müddət 15 – 20 faiz azalır və s.

Yadda saxlamaq lazımdır ki, uşağa verilən ənənəvi – «atanı çox istəyirsən, yoxsa ananı?» sualı kimi «Adam və ya EHM?" alternativi də düzgün deyil. Daha doğrusu, «atanı, yoxsa ananı» yox, «ata və ananı» çox istəmək lazımdır. "Adamla EHM-in ittifaqı», qəbul ediləcək qərarların müvəffəqiyyətli həlli üçün etibarlı təminatdır.

Məlumdur ki, uşaqların əksəriyyəti "yaradıcı" və fantaziyaçıdırlar. Lakin təəssüf ki, yaşa dolduqca bu gözəl keyfiyyətlər adətən ya azalır, ya da məhv olub gedir.

V.Rotkberqin qeyd etdiyi kimi bəziləri müxtəlif cür səmtlənmiş təfəkkür tərzinə malikdirlər:

1. **Məntiqi – işarə təfəkkür tərzi;** belə adamlar əsas etibarilə birmənalı, ciddi məntiqi – işarə qaydaları və əxlaq normalarını mənimsəmək ruhunda tərbiyələnmişlər;

2. **Obrazlı təfəkkür tərzi** – dünyanı bilavasitə emosional dərk edib başa düşən adamlara aiddir;



3. **Aralıq təfəkkür tərzinə** – birinci və ikinci təfəkkür tərzləri eyni səviyyədə inkişaf etmiş şəxslər malikdirlər.

Üçüncü qrupa aid olanların əksəriyyəti, həm hesab-məntiq əməliyyatlarının tətbiqi ilə əlaqəli (beynin sol yarımkürəciyinin fəaliyyətinə uyğun), həm də fəza təsəvvürü tələb edən (beynin sağ yarımkürəciyinin fəaliyyətinə uyğun) məsələləri müvəffəqiyyətlə həll etmişlər. Bu şəxslər, fəal mədəni əlaqələr münasibəti şəraitində tərbiyə olunmuşlar.

Tədqiqatlar təsdiq etmişdir ki, sağ və sol beyin yarımkürəciklərinin fəaliyyətlərinin üstünlüyü ilkin tərbiyə və inkişaf xüsusiyyətləri ilə əlaqədardır. Özü də hər hansı təfəkkür tərzinin yenidən qurulması tədriclə həyata keçirilən və çətin işdir.

Ona görə də təhsil və təlimdə uşaqların əksəriyyətində üstünlük təşkil edən bədii təfəkkür tərzini nəzərə alan metodlar tətbiq olunmalıdır, daha doğrusu məlumatları yenidən işlədikdə bədii təfəkkür tərzindən maksimum istifadə etmək lazımdır,

Adamı istənilən sahədə minimum biliklərə yiyələndirmək üçün hipnoz böyük imkanlara malikdir. Hipnozun köməyi ilə şəkil çəkmək, musiqi bəstələmək, texniki yaradıcılıq vərdişləri öyrətmək, riyazi biliklərə meyli artırmaq mümkündür.

Moskvalı pedoqoq L.A.Kotov göstərmişdir ki, maraqlı və məzmunlu təcrübələr qoymaq, ona gətirib çıxarır ki,nəticədə fiziki qanunları uşaqlar özləri əldə edirlər.

Deməli, ancaq müəllim auditoriyanı ələ almaq üçün maraqlı üsullar tapa bilər.

Hətta ən maraqsız görünən iş, ona məsuliyyət və ləyaqətlə yanaşdıqda xoşagələn və ruhverici olur.

Məsələn, Tom Soyer uşaqlarda çoşğun həvəs oyatdı ki, kömək edib onu işdən azad etsinlər (o, taxta hasar rəngləyirdi): uşaqları inandırdı ki; «adama, hasar rəngləmək xoşbəxtliyi hər vaxt müyəssər olmur».

İnsan, öz maraq dairəsini genişləndirmək, biliyini artırmaq üçün canlı obrazlarla, qanadı arzularla yaşayır.

Ancaq bu günə və gələcəyə yox, keçmişə də hörmət və məhəbbət tərbiyə etmək müəllimin vəzifəsidir.

«Müəllimin ... sözü ona görə xoşa gələn, könülə yatan və ürək oxşayandır ki, azdırıcı yox, yolgöstərici çaşdırıcı yox, öyrədicidir» (Şəms Təbrizi, XIII yüzillik).

Məşhur coğrafiyaşünas V.L.Obruçev, 20-ci illərdə köhnə mədəniyyətə qarşı çıxanların təsiri altında A.S.Puşkin haqqında bir neçə nalayiq mülahizələr söyləmişdir. Buna görə də akademik E.V.Tarle V.L.Obruçevi heç cürə bağışlaya bilmirdi.

E.V.Tarlenin müasirləri xatırlayırlar ki, kimliyindən asılı olmayaraq A.S.Puşkinin, F.M.Dostyevskinin, A.P.Çexovun adlarına kiçicik bir eyham kifayət idi ki, bu adam onun hədsiz qəzəb və nifrətinə düçar olsun.

Yeri gəlmişkən A.S.Puşkinin bir kəlamını xatırlayaq: «Keçmişə hörmət—mədəniliyi vəhşilikdən fərqləndirən əlamətdir».

Keçmiş bizim təkcə hafizəmizdə yox, həm də ənənələrimizdə yaşayır.

Ənənələr – keçmiş haqqında yaddaş, əsrlərlə insanlar arasında rabitə, bu günə dayaq, sabaha fundamentdir. Ənənələrin gücü onun nəsildən-nəsilə ötürülməsidir. Hegelin qeyd etdiyi kimi, ənənə, keçmişdən bizə qalanları sadəcə olaraq namusla qorumur, o həm də əldə edilmiş irsi canlı şəkildə sabaha ötürür».

Xans Eysler demişdir: "...Kim ki, öz gələcəyini istəyir, gərək o, keçmişdən aralansın. O, gələcəyə dumanlı nəzərlərlə baxmamaq üçün, keçmişdən təmizlənməlidir... Şübhəsiz ki, sənətkarların başlıca vəzifəsi keçmişi aydın, həqiqi əks etdirərək, onu gələcəyə ötürməkdir. Sənət buna qadirdir».

Müəllim çalışmalıdır ki, dərs dediyi tələbələr "alma matep" (latınca süd verən ana) məfhumunu tam başa düşsünlər (bu latın sözü tələbənin olduğu ali məktəbin rəmzi kimi işlədilir).

Bu fikri əyani olaraq aydınlaşdırmaq üçün məşhur İsveç botanika alimi K.Linneyin başına gəlmiş və faciə ilə nəticələnmiş əhvalatı misal gətirmək olar.



O vaxtlar Stokholmda ayrıca tibb kollektivi yaratma fikri ortaya çıxır. Bu isə tədricən Uspal Universitetində doktorluq dissertasiyası müdafiəsini dayandırmağa və onun bir elm mərkəzi kimi nüfuzdan düşməsinə səbəb ola bilərdi. Uspal universitetinin rektoru K.Linney olduqca həyəcanlanır və kraldan onu təcili olaraq qəbul etməsini xahiş edir. Qəbulda krala yalvararaq "Alma mater"in xilas edilməsini xahiş edir.

K.Linney qəbuldan sonra evə qayıdır. Unisersitet öz hüquqlarını saxlayır. Lakin bu qələbə çox baha başa gəlir – öz evinin kandarında ikinci zərbə öz işini görür.

K.Linneyin və Y.Y.Canalidzenin emosional gərginliklərinin səbəbləri başqa, nəticələri isə eynidir.

Şübhəsiz ki, məsələnin bu çür faciəli nəticəsi təsadüfidir. Lakin Linneyin «Alma mater»ə münasibətinin özü son dərəcə səciyyəvidir.

Orta və ali məktəblər, şagird və tələbəni şəxsiyyət kimi tərbiyə etməklə bərabər, təhsil müəssisəsinə – «Alma mater»ə də xüsusi münasibət aşılamalıdırlar.

Çox ülvi hisslərdir: Bilirsiz Siz də...
Bizim gönül adlı can evimizdə,
Var, bacı sevgisi, yar məhəbbəti,
Bir də dağ vüqarlı ata hörməti.
Bilinməz nədəndır, burda nə sirr var,
Ançaq, hamı darda ana haraylar?*

**(N.Nekrasov)**

Tələbə müəllimindən yeri gələndə necə şübhələnməyi və nə kimi hallarda əzmkar olmağı öyrənməlidir.

Bu əqidə ilə yaşamaq olmaz: «Peşəkarlıq üstə gəl öz-özünə qürrələnmək – sabit kəmiyyətdir». Buradan belə çıxır ki, peşəkarlıq və öz-özünə qürrələnmək qarşılıqlı əvaz olunandırlar.

Yol verilə bilənlə, yol verilə bilməyənin sərhədində dayanmağı bacarmaq lazımdır, belə ki, gərək qəti yəqin edəsən ki, hər şeyi bacarırsan və ya qəti yəgin edəsən ki, heç nə bacarmırsan.

İnam vasitəsilə sıxışdırılmış obyektiv qiymətvermə mümkün olmayan halda qiymətvermə meyarı belə idi: «Müttəfiq və ya düşmən». Təbiidir ki, adamın özünün də nöqteyi-nəzəri olmalıdır: "Müttəfiq deyilsə o, deməkdir ki, düşməndir?"

Qədimdə bir alimin o birinə «mənim inamımdansa, sənin şübhələrin mənə xoş gəlir» deməsi kompliment sayılırdı. Və ya başqa çür: öz inamına arxayın olmaq, həyəcan və şübhə vasitəsilə əldə edilir. Bu deyilənlər Volterin bir mülahizəsi ilə çox gözəl səsləşir: «Kifayət qədər əsaslandırılmamış inam – yanlış fikirlərdən pisdir». Jirodu isə yazır: «İddia – Troyanı məhv etdi».

Söhbət əsnasında, zidd fikirlər toqquşduqda, Hegelin Platon haqqında danışarkən attika (attisizm – Qldim Yunanistanın Attika şəhəri sakinlərinə xas olan nitqin incəliyi və bədiiliyi) kübarlığı adlandırdığı ənənəni yada saxlamaq lazımdır: «Əgər sənin fikrin mənim fikrimdən fərqlənirsə, bu hələ o demək deyildir ki, sən yanılırsan; ola bilsin ki, sən həqiqətə bir tərəfdən yanaşıb, o biri tərəfi görürsən». Bu, mübahisədən boyun qaçırmaq deyil, bəzi halda öz nöqteyi-nəzərini ümumiləşdirməyə və konkretləşdirməyə imkan verən dialoqun xeyrinə monoloqdan boyun qaçırmaqdır. Bunsuz söhbət öz mənasını itirir.

İngilis adəti tələb edir ki, həmsöhbətinə hörmət əlaməti olaraq öz fikir və mülahizələrində həddən artıq qəti olmayasan.

Fransızların belə bir fikri var: təbabətdə və məhəbbətdə "həmişə" və "heç vaxt" demə, de ki, – "hər şey ola bilər".

Q.Nikolson hesab edir ki, diplomat heç vaxt doğrunu təkzib, yalan və təhlükəni təsdiq etməməlidir. Agentin əsas devizi isə bu olmalıdır: "Bir dəfə "hə" deməkdənsə, yüz dəfə "yox" demək yaxşıdır".

"Əgər bir şeyi inandırmaq istəyirsənsə, inandırmaq istədiyin adamla hesablaşmaq lazımdır" (Paskal).

Byörkün fikrincə, idarə etmək – razılaşmaq deməkdir. Hər cür idarəetmə güzəştə əsaslanır.

Sofoklun "Çar-Edip" əsərinin birinci hissəsində Edipin faciəsinin səbəbi – özünə güvənməsi olduqca aydın təsvir olunur. Hərdən deyirlər ki, şübhə ölən kimi inam doğulur.

Özünə həddən artıq qüvənən adamlara bir vaxt məşhur cərahh



Kristian Bernard ilə ABŞ prezidenti L.Conson arasında olmuş söhbəti xatırlatmaq pis olmaz. L.Consonun: "Olubmu ki, həqiqətən, kiminsə həyatını xilas etmisiniz?" – sualına Bernard "Bəli" – deyə cavab vermiş və belə bir əhvalat danışmışdır:

«Mən iyirmi il bundan əvvəl Keyptaundan yüz kilometr aralıda yerləşən kiçik bir əyalət şəhərində həkim işləyirdim. Bir dəfə bir fermer qadın məni təcili qonşu fermaya çağırıb, ərinin ölümcül halda olduğunu bildirdi. Xəstə doğrudan da ölümçül idi.

Dərhal müalicəyə başladım. Bacardığımı eləyirdim. Qadına bildirdim ki, gecə xəstənin yanında qalmalıyam. Səhər saat üçə yaxın idi, amma xəstənin vəziyyəti heç yaxşılaşmırdı. Qadın qəhvə hazırladı və biz qəhvə içə-içə o, soruşdu: "Doktor, Siz mənim ərimi xilas etmək üçün doğrudanmı əlinizdən nə gəlirdisə hamısını etdiniz?» «Bəli» – deyə cavab verdim. Qadin dedi: «Qulaq asın, doktor, madam ki, Siz bütün baçardığınızı etmisiniz, nəticə isə yoxdur, gəlsəniz ara həkimlərinin tətbiq etdikləri üsullardan istifadə edəsiniz. Bax, bizim kənddə ara həkimi var, o, hər cür sinə soyuqdəyməsini keçi dərisi ilə müalicə edir. Belə ki, keçini kəsir, dərisini soyur və isti-isti xəstəni ona bükür. Xəstə dərhal sağalır". "Gəlin bir saat da gözləyək" – dedim.

Saat dörddə xəstənin qızdırması düşdü... Artıq xəstə sağalmağa doğru gedirdi...

Səhər tezdən çantamı götürdüm və lütfkar ev sahiblərilə xudahafizləşdim.

Evdən çıxanda gördüm pəyənin böyründə bir keçi otlayır. Onun yanından keçəndə dedim: "Keçi, səni ölümdən qurtardım".

Cənab prezident, bu – həyatını həqiqətən xilas etdiyim ilk canlıdır".

Bu kiçik novellada könülaçan yumor və incə eyhamla yanaşı, həkim peşəsinin xarakteri, xüsusiyyəti və çətinlikləri ilə əlaqədar olaraq, azca təəssüf hissi də duyulur.

Yuxarıda adını çəkdiyimiz Uspal universtitetinin rektoru, görkəmli İsveç alimi K.Linney haqqında bir əhvalata diqqət yetirək. O, bitkilərin təsnifatını aparmış və bu gərgin işi başa çatdırdıqdan sonra

heyvanat aləminin təsnifatına girişmişdir. Bütün ömrü boyu K.Linney varlığın allah tərəfindən yaradıldığına heş bir şübhə etmədən inanmış və varlığın təkamül yolu ilə yarandığı fikrini qətiyyən yaxın qoymamış, həm də bu haqda heç eşitmək belə istəməmişdir. Bir dəfə o, bağda gəzərkən qəribə bir haşərat görür. Ona elə gəlir ki, bu yeni haşərat təkamül nəzəriyyəsini təsdiqi, yaradanı – Allahı isə təkzib edən bir müəmmadır. Odur ki, Linney haşəratı tapdayıb öldürür və bununla da Darvin olmaq imkanından bir an içində vaz keçir.

A.Morua qeyd edir ki, kim eyni zamanda şübhələnməyi və inanmağı, şübhələnməyi və işləməyi, şübhələnməyi və istəyi bacarırsa, o, düz yoldadır.

Vaxtı ilə Renessans dövrünün devizi olmuş, Voltera aid bir kəlamı xatırlayaq: "... Mən, Sizin fikirlərinizi təqdir etmirəm, ancaq onları müdafiə etmək hüququnuza canımı verərəm". Deməli, əsaslandırılmış fikri öz şəxsi inamını əsaslandırmağa yönəltmək böyük əhəmiyyət kəsb edir.

Höte öz xatirələrində qeyd edir ki, həyatı boyu ən çox sevdiyi qadın Qrethen olmuşdur. Hötenin külliyyatının şərhçisi isə xatirələrin həmin yerində belə bir qeyd eləmişdir: «Höte, burda yanılır, onun böyük məhəbbətlə sevdiyi qadın Lizhen idi». Bu, Volterin mülahizəsinə əyani bir misaldır. Qədim bir kəlamda deyilir: «Həddindən artıq hər şey – ziyandır», ya da «həddindən artıq – qeyri – sağlamdır».

Böyuk Nizami yazır:

Sözündə çoxluğa qoyma yer olsun,
Birin yüz olmasın, yüzün bir olsun.
Su artıb həddini aşarsa əgər,
İçəni doydurmaz, mütləq qərq edər...
Çox söyləmək sənə bəlkə asandır,
«Çox oldu» desələr böyük nöqsandır.

Bəzən kifayət qədər tərbiyyə görməmiş adamlar, özlərini "həqiqətpərəst" hesab edərək, o qədər də prinsipial olmayan, ancaq bir başqası üçün əhəmiyyəti olan mülahizələrə yerinə düşməyən əda ilə etiraz edirlər.



Bu barədə fransız aktyoru və rejissoru Jan Lui Barro deyib: ""Həqiqətə arxa çevirmək istədikdə, "bu, hamıya məlum həqiqətdir" demək asandır".

Məlumdur ki, adam yaxınlaşan ölüm xəbərini xalq müdrikliyinə uyğun olaraq qəbul edir: "Necə yaşadı, elə də öldü".

Ziqmund Freyd, həkim ona xəstəliyinin "xərçəng" olduğunu bildirəndə demişdir: "Kim Sizə ixtiyar verir ki, bu haqda mənə deyəsiniz?"

V.Veresayev yazır ki, əgər şəxsin xəstəliyi əlacsızdır, ancaq o həqiqəti bilmək istəyirsə bu o deməkdir ki, sən mənə həqiqəti deyirsən".

Professor M.M.Salman mənə danışırdı ki, onun müəllimi çox məşhur rentgenoloq, professor S.A.Reynberq bilirdi ki, xərçəng xəstəliyinə tutulub, eyni zamanda buna inanmırdı.

Genetikanın atası Georq Mendel ağır xəstə idi və həkimlərdən qətiyyətlə tələb edirdi ki, xəstəliyinin diaqnozunu ona desinlər. Xəstəliyin əlacsız olduğunu və ölüm saatlarının yaxınlaşdığını bildikdə alim astadan və qısaca demişdir: "hökmü-zər".

Ölümdən biz az əvvəl xəstəliyinin sağalmaz olduğunu bilən N.A.Nekrasov demişdir: "Ölmək dəhşətli deyil, can vermək dəhşətlidir".

Qanlı və qadalı illərin nahaq qurbanı – ölməz Hüseyn Cavid "Dəli Knyaz"da yazır:

Ölmək yaşamaqdır,
Sərsəm yaşamaq ömrə yamaqdır.

Və yenə də H.Cavid:

Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli...

Bununla bərabər, yadda saxlamaq lazımdır ki: «Qorxaqlar ömürləri boyu hey ölüb-dirilirlər, cəsurlarsa bircə dəfə ölürlər».

D.V.Suvorov yazır: «Qorxaq dost duşməndən təhlükəlidir, çünki düşməndən özünü qoruyur, dosta isə söykənirsən».

Deyirlər ki, qorxaqlıq – şübhəliliyin bacısıdır.

Atlaitik okeanı rezin qayıqda üzüb keçmiş cəsur fransız həkimi Alen Bombar belə qənaətə gəlmişdir ki, dəniz və okean fəlakətlərində adamların qərq olmasının səbəbi onların təbiət qüvvələri qarşısındakı acizliyi və qorxaqlığındadır.

Doktor Ç.D.Spilberger hesab edir ki, qorxunun əlamətdar xarakteristikası, onu yaradan təhlükənin emosional reaksiyasının intensivliyi ilə mütənasibliyidir.

Statistika göstərir ki, nisbətən uzun müddət ərzində ekstremal şəraitdə suda qalan hər 100 adamdan 90 nəfəri kifayət qədər ərzaq məhsullarının və xilasetmə alətlərinin olmasına baxmayaraq, müxtəlif stres yüklərinin təsirindən ölür.

İ.Xardi yazır: «... qorxunun həyəcanı, tənqidi və məntiqi aydın təfəkkürü sıxaraq, həm də ona ümumi ləngidici təsir göstərə bilər».

M.Qorki gənc yazıçılara məsləhət görürdü: «Sadəlövh olmaqdan qorxmayın». Müdrik məsləhətlər sadəlövh görünməkdən qorxduğumuz üçün çox vaxt ağıllı fikirləri gizlədir, xeyirxah qığılcımları söndürürük.

Son zamanlar Y.İ.Poppvanın təklif etdiyi metodu qısaca belə şərh etmək olar: qorxunu qorxu ilə çıxardırlar.

Beləliklə:

Qüvvət elmdədir, başqa cür heç kəs
Heç kəsə üstünlük eləyə bilməz.
Hər uca zirvədən, bilin ki, fəlqət
Alimin rütbəsi ucadır, əlbət.

*(Nizamn Gənçəvi, «İqbalnamə»)*



## § 19. İXTİSAS SEÇMƏ VƏ TƏHSİL HAQQINDA BİR NEÇƏ SÖZ

Necə möhtəşəmsən əsrin fövqündə,
Həmişə müzəffər, ey İnsan oğlu.
Bu bir həqiqətdir, görürük gündə
Darda dayağındır təmkinin, ağlın.
Səadət qazandı, qanunlar yazdı,
Sonsuz dəryalardan dərin kamalın.
Min əngəl dağıtdın, min hiylə pozdun
Ünsiyyət, qardaşlıq oldu amalın.
Bəs nədir ömründə qazandıqların?
O zəngin qəlbindir dövlətin, varın*

*F.Şiller «Rəssamlar»*

Şərqin müdrik kəlamı: «Hər şey yoldan başlayır...» – sözsüz ki, doğrudur. Ancaq yolun başlanğıcında mütləq aydın-aşkar məramın olmalıdır: bu yolla hara gedirsən və məqsədin nədir?

Pol Qoqenin tablolarının birində üç sual yazılıb: «Kimik?, Haradanıq?, Hara gedirik?» və şəkildə Polineziya adalarından birinin yerli əhalisi təsvir olunur. Onlar, üfüqdən yenicə parlamaqa başlayan Günəşin nəhənk odlu kürəsinə baxa-baxa tərpənməz halda və dərin sükut içində heyrətdən sanki donmuşlar. Bu anda – günəş zülməti yarıb doğularkən – onların özlərində, öz varlıqlarını dərketmə arzusu oyanır.

Adam müxtəlif şəraitlərdə qərar qəbul edəndə, həyatın astanasına qədəm qoyanda yuxarıdakı suallari özü-özünə verməlidir və çalışıb həmin suallara cavab tapmalıdır. Belə hallarda «kal ağlın» və «çılğın qəlbin» müxtəlif şıltaqlıqları və səhvləri ola bilər.

Bəlkə də onuncu sinif şagirdi yaşlılara müraciətlə: «Yalvarıram, bizi streslərdən və çoşğun ehtiraslardan qorumayın, bilirsiz onlar bizə necə lazımdır?!» – deməkdə haqlıdır? («Lit. qazeta», № 10, 1983).

Elə hallara rast gəlmək olur ki, cavanlar öz qabiliyyətlərinə olduğu kimi qiymət verə bilmirlər. Nəticədə onlarda hər hansı riskə qarşı əngəl törədən daxili psixoloji tərəddüdlər yaranır.

Mark Tvenin *qəhrəmanlarından* biri axirət dünyasında tələb edir ki, bütün dövrlərin və xalqların ən böyük sərkərdəsini ona göstərsinlər.

...Və göstərirlər... bu ki, bizim qonşuluğumuzda çoxdan ölmüş pinəcidir? Bu nə olan şeydir? Doğrudan da pinəci, anadan hərb adamı, sərkərdə kimi doğulmuşdur, ancaq ona heç bölməyə belə komandirlik etmək müyəssər olmamışdı. Çünki o, öz ömür yolunu düzgün seçə bilməmişdir.

Həyatın önündə dizləri titrəyən, risk etməkdən qorxan və *taleləri* saysız-hesabsız faciələrlə dolu adamların aqibətlərini F.Kafka çox parlaq şəkildə təsvir edir. Məsələn, bir əhvalatı o, belə təqdim edir:

Taybatay açılmış darvazanın qabağında bir adam dayanmışdır, o, içəri daxil olmağa ürək eləmir. Nədənsə, ona elə gəlir ki, səssiz-səmirsiz və tərpənməz dayanmış keşikçilərin qoruduğu qapıdan içəri girmək qadağandır. Bir müddət keçir və nəhayət qapılar örtülür. Haçandan-haçana qapı aralanır və keşikci ona deyir: "Bu darvaza yalnız sənin üçün qoyulmuşdu. Buradan biz, yalnız səni içəri buraxmalıydıq».

A.Axmatova, A.Modilyaniyə həsr etdiyi məqaləsində (A.Axmatova, Stixi i proza. Lenizdat, 1976) yazır: «XX yüzilliyi çiyinlərində saxlayan üç nəhəng – Prust, Coys və Kafka hələ əfsanələr sayaqı mövçud olub öz varlıqlarını göstərmədilər, hərçənd hamı kimi sağ idilər».

A.Axmatovanın bu mülahizələrini xatırlayarkən mən, aşaqıdakı fikirləri əsas götürmüşəm. Özlərini bibliofil (kitab həvəskarı) hesab edən adamlarla söhbət əsnasında mən onlardan həmin məşhur yazıçılar üçlüyü haqqında çox soruşmuşam. Təəssüf ki, əksəriyyət onları tanımadı. Lakin mən, konservatoriyada Y.Maleri dinləmək istəməyən bir tələbəyə A.K.Qlazunovun tövsiyəsini – «Siz xoşbəxt adamsınız. Sizin Maleri dinləyəcəyiniz gün hələ qabaqdadır, mənim uçünsə bu, artıq uzaq keçmişdir» – xatırladaraq ona təskinlik verdim.

Leninqrad universitstinin sosiologiya laboratoriyası ölkənin 10 ali məktəbinin tələbələri arasında sorğu-sual keçirmişdir. İki sual verilmişdir.

Birinci sual təxminən belə idi: ali məktəbə daxil olmamışdan qabaq nəzərdə tutduğunuz ixtisas haqqında təsəvvürünüz indiki ilə uyğun gəlirmi? 34,4 faizi – uyğun gəlir; 52,9 faizi fərqlidir; 12,7 faizi – tam fərqlidir cavabını vermişdir.

İkilci sual belə idi: əgər Sizə ixtisas seçməyi yenidən təklif etsələr, yenədəmi indiki ixtisasınızı seçərdiniz? 54 faiz – bəli; 18,2 falz – xeyir; 27,8 faiz – bilmirəm cavabını vermişlər.

Cavablara diqqət yetirək. Təsəvvür edirsinizmi, ali təhsil almış minlərcə mütəxəssis, bütün ömrünü, qüvvə və bacarığını seçdiyi sənətə həsr etmək əvəzinə öz peşəsinə xor baxır, onu sevmir və nəticədə seçdiyi peşə onda ikrah hissi yaradır.

Burada biz yenə də təhsil və təlim haqqında söhbətlərə qayıtdıq. Bir daha etibarlı müttəfiqlərə —faktlara, statistik hesablamalara müraciət edək.

Moskva ətrafındakı orta məktəblərdən birində sosioloqlar yuxarı sinif şagirdlərinin hansı sənətə daha çox maraq göstərdiklərini öyrənmək üçün müəyyən tədqiqat işi aparmışlar.

Məlum olmuşdur ki, hər bir gənc oğlan və qız ayrı-ayrılıqda əlahiddə dərəcədə maraqlıdır və hər biri müəyyən konkret qabiliyyətə malikdir. Biri mexanika sahəsində qeyri-adi istedada malik olduğunu, başqa biri maliyyə işlərinə həvəskar olduğunu göstərdi, iki nəfər qız isə stenoqrafiya sahəsində öz qabiliyyətini nümayiş etdirdi.

Lakin təəccüblü (təəssüf ki,) burasıdır ki, şagirdlərin heç biri göstərilən sahədə qabilyyətləri olduğunu heç güman da etmirlərmiş. Deməli, məktəb onların istedadını açıb göstərməyə imkan yaratmamışdır. Şagirdlər dərslərə səliqəylə gəlib, ev tapşırıqlarını yerinə yetirir və özlərini tamamilə başqa ixtisasa həsr etmək fikrindəydilər. «Voprosı psixoloqii" jurnalında bu problemin dərin və hərtərəfli təhlili nəticəsində belə bir acınacaqlı nəticəyə gəlmişlər: orta məktəbi bitirib ali məktəbə daxil olanların üçdə birinin öz gələcək sənətlərinə dair, demək olar ki, heç bir təsəvvürü yoxdur.

Deyirlər ki, bir dəfə A. Eynşteyndən İşıq sürətinin qiymətini soruşurlar. Böyük alim bunu bilmədiyini səmimi surətdə boynuna alır:

– Mən istənilən məlumat kitabından asanlıqla tapıla bilən şeyləri heç vaxt yadımda saxlamıram.

Orta məktəblərin təcrübəsi göstərir ki, tədris prosesi bəzən öyrənməyə deyil, əzbərləməyə əsaslanır. Şagirddən düsturları, sirataları, tarixləri yadda saxlamaq bacarığı və keçilmiş materialı təkrar etmək (yaxşı olardı ki, dəqiqliklə) baçarığı tələb olunur.

İngiltərədə bir qrup müəllimə sualları başqa prinsiplə tərtib etmək tapşırılır. Yəni sualların qoyuluşu elə olmalıdır ki, şagirdlər özlərinin qeyri-standart təfəkkür tərzini nümayiş etdirə bilsinlər. Məsələn, tez-tez işlətdiyimiz «harada», «nə vaxt», «nə üçün» ifadələri «necə», nədən ötrü" "siz "bu barədə nə duşünürsünüz?». Heç müəllimlərin çoxusu sualları tərtib edə bilməmişlər.

Bəzən ilk sual-cavaba əsasən deyirik: «Şagirdin riyazi qabiliyyəti yoxdur». Bax, elə bu, şərti və mübahisəli məsələdi. Axı, ola bilər ki, o, sadəcə olaraq dərsə gəlməmiş və ona görə də həmin dərsi öyrənməmişdir. Şagirdlərin biliyi adətən necə yoxlanılır? Məlumdur ki, imtahanda, imtahan biletlərindəki suallara cavab verməklə.

Həyatda təsadüflərdən və yaxud zəruriyyətdən meydana gələn "udmaq" və ya «uduzmaq» halları var. Lotereya, təsadüf, oyun... Lakin imtahan nə lotereya, nə təsadüf, nə qumar oyunu, nə də cıdır yarışı deyil. İmtahan – sınaq meydanıdır. Lakin bu, «bəxtim gətirər, ya gətirməz, mənə düşən xoşbəxt nömrədir, ya yox, tək, ya cüt» sınağı deyil. Əgər söhbət əsl imtahandan gedirsə, onda bu, şagirdlə müəllim arasında dərin, səmimi, lakin çox ciddi dialoq, bu və ya digər bilik sahəsi üzrə şagirdin hazırlıqını, fərasətini, ümumiyyətlə, onun potensial imkanını hərtərəfli öyrənmək vasitəsidir. Təhsil, hər şeydən əvvəl şəxsiyyətin əqli və mənəvi potensialının inkişafı, standart modellərdən fərqli, yeni, əsaslı təlim-tədris üsulları işləyib hazırlamaq məharətidir.

Fiziklər çox nikbin, şən, yumor hissinə malik olan adamlardır. Onların yumoru, zarafatları, yerində deyilmiş yığcam və fəlsəfi kəlamları fiziklərin geniş dünyagörüşündən xəbər verir. Nobel mükafatı laureatı Frederik Jolio Kuri yarızarafat, yarıciddi belə deyirdi: «Təcrübə nəzəriyyədən nə qədər uzaqlaşsa, bir o qədər Nobel mükafatına yaxınlaşır».

Müasir dövr, əhatəli ixtisaslaşma – geniş dünyagörüşü və istədiyin vaxt başqası ilə əvəz edilə biləcək dar ixtisas qazanmaq bacarığı tələb edir.

Paradoksol görünməsinə baxmayaraq, məlum olmuşdur ki, dar ixtisas almış və bu sahədə çalışan gənc mütəxəssislər adətən, dərhal muhafizəkarlaşırlar. Lakin əksinə, daha geniş profilli mütəxəssis (məsələn, universitetin kimya fakültəsini bitirib, kimya zavodlarından birinə işləməyə göndərilmiş gənc) mütəzəm, səbatlı yaradıcılıq fəallığı göstərir, öz peşəkarlığını durmadan zənginləşdirir, bütün texniki yeniliklərə dərindən bələd olur və onu bilavasitə istehsalata tətbiq etməyə can atır.

Bir sözlə, məsələ tamamilə aydın olur. Belə ki, dar ixtisas sahibi adlandırdığımız mütəxəssis öz peşəsini hələ ali məktəbdə modelləşdirir və istehsalatda həmin model özünün son formasını alır. Mütəxəssis tezliklə, özü də möhkəmcə konservasiya olunur və demək mümkündürsə, donur. Geniş profilli mütəxəssis üçünsə heç bir model yoxdur. Hər şey yenidir; maraq doğurur, mənimsəməyə, dərk etməyə, inkişafa çağırır. Bu yolda rast gəldiyi uğurlar, uğursuzluqlar onu sarsıtmır, əksinə onu mübarizləşdirir və ancaq sabaha səsləyir. Bütün bu keyfiyyətlər getdikcə təkmilləşir, möhkəmləşir və onun həyatının mənasına çevrilir.

Akademik L.A.Arsimoviç yazır: «Biz, elmi gənclikdə, ançaq ali məktəbdə aldığı biliklərini mühafizə edən və onun maraq dairəsini məhdudlaşdıran dar ixtisasa qarşı ikrah hissləri oyatmalıyıq» («İzvestiya», 24.01.1962).

İnsanın neçə yaşayıb işləməsindən asılı olmayaraq o, özünü həyatın ən böyük sevinclərindən – musiqidən, incəsənətlə təmasdan – ümumiyyətlə gözəllikdən məhrum etməməlidir.

Musiqişünasların yaddaşında Lavinyaka məxsus bir aforizm yaşamaqdadır: «Pianoçu, yalnız yaxşı pianoçudursa – o, pis pianoçudur».

Frans Şubert bu aforizmi bütün musiqiçilərə aid etmişdir.

Q.K.Lixtenberqin aforizmlərindən birində deyilir: «Kim ki, kimyadan başqa heç nə bilmir, o, heç kimyanı da kifayət qədər bilmir».

Şərqin hikmət xəzinəsindən: «Yaxşı həkim, ancaq yaxşı həkimdirsə, o, yaxşı həkim ola bilməz».

A.Frans söhbətlərinin birində yazır ki, zoologiya muzeyində o, çox məşhur geoloqdan mamontun dişini göstərməsini xahiş edir.: «O mənim vitrinimdə deyil», – cavabını verir. L.Frans kədərlə söhbətinə davam edir: «Mənimsə, özümu «başqasının» vitrininə baxmaq ləzzətindən məhrum etdyim yadıma gəlmir». Mütəxəssis minlərlə "özgə vitrinlərindən" xəbərdar olmalıdır.

Ömrü boyu ancaq soxulcanın quruluşunu öyrənən bir zooloq, onun hər bir buğumu haqqında məqalə dalınca məqalə çap etdirir. Bir dəfə ondan soruşurlar ki, soxulcanın quyruq buğumlarının öyrənilməsilə tezlikləmi məşqul oacaqdır? O, belə cavab vermişdir: «Soxulcan uzun, ömürsə qısadır». Dar ixtisaslaşma şəraitində, ümumi dünyagörüşünün genişliyi böyük əhəmiyyət kəsb edir. Dar ixtisas almağın acı nəticəsi, əslində bir-birinə çox yaxın olan – qazma (neft və qaz quyularını), neft və qazçıxarma, neft və qaz yataqlarının geologiyası mütəxəssislərinin istehsalat fəaliyyətində daha aydın görünür.

Ferens List qeyd edir ki, sənətkar ixtisaslaşmanın xeyrini və ziyanını başqalarından daha yaxşı hiss edir. Çünki bu halda o, bir zəhmətkeş kimi «udur», bir insan kimi isə «uduzur». Buna baxmayaraq sənətkar, «zəhmətkeşin peşəkarlığını insanın ən mükəmməl inkişafı» ilə uyğunlaşdırmalıdır.

Hər bir alimin öz elmi işlərinin nəticəsini kütləvi surətdə, hətta başqa sahələrdə çalışan alimə çox ciddi və əyani şəkildə şərh etməsi alimliyin əsas keyfiyyətlərindən biridir. Əgər hər hansı alim bu işin öhdəsindən gələ bilmirsə, demək o, öz işini heç özü də başa düşmür.

Elmin kütləviləşdirilməsi ixtisaslaşdırmanı daha yüksək səviyyədə aparmağa güclü təkan verir və elmi daha da mötəbərləşdirir. Eynşteyn hesab edirdi ki, «fiziki nəzəriyyə elə olmalıdır ki, hər cür



hesablamalarla yanaşı, uşaqların başa düşəcəyi tərzdə onun şəklini çəkib izah etmək mümkün olsun».

Bernard Şou zarafatyana deyirdi ki, elmdə diletant[1] çox şey haqqıda cüzi şeylər, mütəxəssis-alim isə cüzi şeylər haqqında çox şey bilir, ancaq inkişafın meyli elədir ki, gələcəkdə mütəxəssis heç nə haqqında hər şeyi biləcəkdir.

Brext və Eyzenşteyn, C.Coysun «Uliss» əsərində psixoloji təhlilin yenidən qurulmasını müəllifin yaradıcılıq kəşfi kimi qeyd etmişlər. Məlumdur ki, «Uliss» əsərinin Folknerin, Heminqueyin, gəncliyində Apdaykın yaradıcılığına böyük təsiri olmuşdur. O.Alyakrinski qeyd edir ki, Folkner «Cəza verənlər» romanında Coysun ardınca gedərək, «şüur axını» prosesi işləyib hazırlayır («Novıy mir», №6, 1986).

Son zamanlar mətbuat da ali texniki məktəblərdə təlim-tərbiyə prosesinin humanitarlaşdırılmasının zəruriliyini qeyd edir. Bu münasibətlə kimya elmləri doktoru A.Sıkalo yazır («Pravda», 5.01.1986): «Müasir elmə, texnikaya, təbabətə qarşı parlaq emosional həvəs və şövq ancaq o zaman (burda həmin sahələrin humanitarlaşdırılması nəzərdə tutulur – M.A.) yarana bilər».

Təhsilin əsas məqsədi – insanın istedadının və intellektual qabiliyyətinin açılmasına kömək etməkdir. Sovet pedaqoqu, bir sıra maraqlı tədqiqatların müəllifi V.V.Litvinov müəllimlik fəaliyyətinin ilk çağlarında rast gəldiyi bir şagirdini xatırlayaraq yazır: Petya N. çox pis oxuyurdu, tez-tez dərs buraxırdı. Dərsə gəlmək əvəzinə balıq tutmağa gedirdi və onu da deyim ki, çox yaxşı balıqçı idi. Balıq ovunun bütün incəliklərini bilirdi – nə cür qarmaq işlətməyi, tilova hansı yemi taxmağı, hansı balığı necə tutmalı. V.V.Litvinov təəssüflə etiraf edir ki, o zaman təcrubəsi çatmadıqından, öz müəllimlik peşəsinə yaradıcılıqla yanaşa bilmədiyindən uşağın qabiliyyətindən istifadə edərək onda biliyə, təlimə maraq oyada bilməmişdir.

[1] Diletant (ital.) – dilettante – elm və incəsənət sahəsində səthi məlumatı olan həvəskar adamlara deyilir.

Yaşlı ingilis xanımından (ledidən) soruşurlar:

– İnsanı mədəni, savadlı, daha doğrusu ziyalı etmək üçün nə lazımdır?

– Bundan asan nə var, cəmi-cümlətanı üç kollec qurtarmaq lazımdır – deyə qadın fikirləşmədən cavab verir.

– Necə, bir adam üç kolleci...?

– Xeyr, bir adam nə üçün. O, özü, valideyni və valideyninin valideyni.

İnsanın məruz qaldıqı və onun hərəkətinə, davranışına istiqamət verən təsirlər, mexanikanın təbirincə desək, aşağıdakılardır:

1) əcdadlar; 2) valideynlər; 3) mühit.

Gəlin heç bu yaşlı qadınla və yuxarıdakılarla mübahisəyə girişməyək. Ancaq razılaşmaq lazımdır ki, uşaqların normal təhsil almasında valideynlərin rolu az deyil.

V.Ovçinnikov yazır ki, ingilis ailmləri, hər şeydən əvvəl, nəslin davamçısının xarakterinə, rəftarına məktəbin edəcəyi təsir və gələçək həyat yolunda olara kömək və dayaq olaçaq, uşaqların özlərinin qazandıqları dostlar haqında fikirləşirlər. Nisbətən az əməli fayda vəd edən klassik təhsilə çox az fikir verirlər.

İngiltərənin baş naziri Marqaret Tetçerin oğlu Mark Tetçer hesab edir ki, mükəmməl təhsilin üstünlüyü bir də ondan ibarətdir ki, o öz şəxsi mənafeyini müdafiə etməyi öyrədir. İrlandiyada sosioloqlar işgüzar adamların böyük bir dəstəsinin fəaliyyətini təhlil etmiş və aşkara çıxarmışlar ki, onların əksəriyyəti yaradıcılıqla məşğul olmayanlar, qalanları isə fəal yaradıcılıqla məşğul olanlardır. Daha sonra aydın olmuşdur ki, birincilər aristokrat ailələrə mənsubdurlar. Onlar cəmiyyətdəki vəzifələrinə uyğun təhsil almış, dil, musiqi, yaxşı davranış öyrənmişlər. Beləliklə də valideynlərinin böyük canfəşanlığı nətiçəsində, demək olar ki, dünyaya göz açdıqları gündən «konservasiya» edilmiş və ümumiyyətlə, modelləşib qəlibə salınmışdır. İşdə onlar başqalarının ideyasını qəbul edib, səliqəylə və savadlı yerinə yetirsələr də özləri heç bir şəxsi ideya verməmiş, şəxsi təşəbbüs göstərməmiş və fəal yaradıçılıqla məşğul olmamışlar.



İkincilər daha sadə ailələrdən (ziyalı olmayan) çıxanlardır: belə ailələrdə uşaqların tərbiyəsi ciddi qayda-qanuna tabe olmamış, məhdudiyyətlər az, sərbəstlik çox olduğundan fəal yaradıcılıqla məşğul olmaq və onu inkişaf etirmək imkanı daha çox olmuşdur.

Gəlin etiraf edək, oxuyanda ki, Avraam Linkoln əmək fəaliyyətinə odunçuluqdan başlayıb, Cek London isə yazıçılığa başlayana qədər onlarca peşə dəyişmişdir, adam qəribə qibtə hissi keçirir. O'Henri ilk əvvəl mühasib işləmiş, yazıçılığa isə günahsız müqəssir kimi düşdüyü həbsxanada başlamışdır.

Yaradıcılıq qabiliyyətini nümayiş etdirmək, heç də hər bir uşağın, yeniyetmənin və gəncin şəxsən özünə müyəssər olmur. Çünki, bunun üçün şərait, yəni məqam və səbəb lazımdır. Ancaq çox vaxt, elə olur ki, valideynlər uşaqlarına kömək etmək əvəzinə, onlara zorla öz hökmlərini qəbul etdirməyə çalışırlar və bu da uşaqlarda yenicə oyanmış istedadın, meylin və qabiliyyətin boy atmamış dağılıb parçalanmasına səbəb olur.

– Ana, tikiş tikməyi öyrənmək istəyirəm,

– Qətiyyən elə şey olmaz. Bir o qalmışdı ki, mənim qızım dərzi olsun.

Uşaqları zorla musiqiylə məşğul olmağa, dil öyrənməyə məcbur edirlər. Bu isə görün nəyə gətirib çıxara bilər.

Amerika mütəxəssislərinin musiqi məktəblərində apardıqları tədqiqatların nəticələri göstərmişdir ki, kiçik yaşlı uşaqlar fortepianoda zorla, bir az böyüklər isə, öz xoşları ilə çalırlar. Beləliklə incəsənətin bu növü üzrə mənimsəmənin müvəffəqiyyəti kiçik yaşlı uşaqlar və bir az böyüklər üçün uyğun olaraq: 45 – 50 faiz və 85 – 90 faiz olmuşdur («Sovetskaya Rossiya», 22.01.1985).

Belə də olur.

– Zavodda proqramçı işləmək istəyirsən? Heç ola bilməz, sən hökmən ali məktəbə daxil olmalısan.

– Hansına?

– Fərqi yoxdur, təki ali təhsil olsun, daha doğrusu diplom. Vəziyyəti öyrənib, hansı olduğunu deyərəm.

Mən bir dəfə orta məktəbi yeni bitirmiş ağıllı, ismətli və çalışqan bir qızla söhbət etməli oldum. O, universitetin filologiya fakültəsinə imtahan vermiş və müsabiqədən keçməmişdi. Mənə dedi ki: – Sənədlərimi başqa institutun mexanika fakültəsinə vermişəm.

Mən bir az kinayəli zarafatla:

– Lap yaxşı, demək olar ki, eyni şeydir.

Hiss etdim ki, *müsahibim zarafatı o qədər də başa düşmədi.*

Tez-tez eşidirik ki, xalq təsərrüfatının müəyyən sahəsində, məsələn, neft sənayesində çalışan görkəmli ali təhsilli mütəxəssislərin sayı durmadan azalır.

Kütləvi ədəbiyyatlarda göstərilir ki, Hardi-Vaynberq[1] qanununun tətbiqinə əsasən, əhalinin hər milyon nəfərinə düşən istedadların sayı sabitdir. İxtisasın nüfuzu isə ən çox ictimaiyyətin rəyinə əsaslanır və istedadların bu və ya digər sahələrə axını ilə müəyyən olunur.

Bu məsələdə, hər hansı xalq təsərrüfatı sahəsinin inkişaf perspektivi də az rol oynamır. Məsələn, XXI yüzillikdə neft və qaz mühəndisi ixtisası qalaçaqdırmı? Məlumlur ki, insan həyatının təminatı problemlərinin həlli, əsasən enerji ehtiyatlarından asılıdır. Roma klubunun[2] hesablamalları göstərmişdir ki, dünyanın enerji-xammal ehtiyatları nəzərə çarpaçaq dərəcədə azalır.

Enerji ehtiyatının 70 faizə yaxın hissəsi neft və qazla ödənilir. Eyni zamanda proqnozlar göstərir ki, XXI yüzilliyin əvvəllərində istilik-nüvə elektrik stansiyalarının yaranması enerji probleminin əsaslı həll olunmasına böyük kömək edəcəkdir.

«İndi biz ...bir sıra başqa ölkələrdən fərqli olaraq milli gəlir vahidinə olduqca artıq xammal, enerji və başqa ehtiyatlar sərf edirik. Biz xammal bolluğunda üzürük, çünki külli miqdarda təbii

[1] Daha ciddi desək, ikinci nəsildən başlayaraq gen növləri arasındakı nisbət dəyişilmir, yəni sabit vəziyyət, bir nəsil müddətində əldə edilir.

[2] 1968-ci ildə doktor Peççeyi tərəfindən yaradılmış Roma klubu – müasir dövrün qlobal problemləri ilə məşğul olan, görkəmli alimlərdən, ictimai xadimlərdən, biznesmenlərdən ibarət sərbəst beynəlxalq ictimai təşkilatdır.



sərvətimiz var. Elə bu, kəskin dediyimə görə bağışlayın, bizi bir qədər pozğunlaşdırmışdır. Hazırda ehtiyat mənbələrimizin 80 faizi ölkənin şərqində, Sibirdə yerləşir. Bu yerlərin sərvətlərini əldə etmək üçün şəhərlər salmaq, yollar çəkmək və hər şeyi yenidən eləmək lazımdır. Bu isə külli miqdarda xərc tələb edir. On ildə neftin bir ton artırılmasına qoyulan xərc 1,7 dəfədən çox artmışdır. On ildə 70 faiz.Yəni ehtiyat mənbələri getdikcə daha çətin əldə edilir, bu isə bizim iqtisadiyyatımızı bahalaşdırır. Ona görə ehtiyat mənbələrindən istifadə, onlara qənaət problemləri – çox ciddi və aktual problemlərdir.

Burada da hər şey yenə enerji muhafizə və xammal mühafizə texnologiyasına əsasən həll olunmalıdır.

Baxın, sadə şey... köhnəlmiş avadanlıqla istehsal olunan 1 kilovatt-saat elektrik enerjisinə 400, 500, hətta bəzən 600 qram, yanacaq sərf olunur. Muasir avadanlıqda isə 240 qram ölkə üzrə, orta hesabla – 326 qram yanacaq sərf olunur. Əgər bütün istilik elektrik stansiyalarında sərtf orta normaya gətirsən, bir ildə 20 – 22 mln. ton, bir beşillikdə isə 100 mln. tona yaxın yanacaq qənaət etmiş oluruq. Görün, təkcə bir əməliyyat nə verə bilir».[1]

Son illərdə enerjinin qənaət olunması məsələlərilə əsaslı surətdə məşğul olmağa başlamışlar.

Xalq təsərrüfatında enerji ehtiyatına yalnız bir faiz qənaət etdikdə təxminən 18 milyon ton şərti yanacaq yığılır, bu da dünya bazarında 1,8 – 1,9 milyon manat deməkdir.

Bir hektardan götürülən biokütlə (tərəvəz və bostan bitkisi) iki ton şərti yanacağa uyğun gəlir.

ABŞ-da 4,5 meqavatt elektrik enerjisi qoz qabığının, 8,5 meqavatt badam qabığı, şaftalı və qaragavalı çəyirdəyi hesabına istehsal olunur.

Xammal mühafizə texnologiyasının səmərəliyini təsdiq etmək üçün aşağıdakılara diqqət yetirək.

[1] M.S.Qorbaçov. Nastoyçivo dviqatsa vpered. Vstupleniye na sobranii aktiva Leninqradskoy partiynoy orqanizatsii 17 maya 1985 qoda. – M. Politizdat, 1985.

İsveçrədə sənayedə yeni məhsul kimi istifadə olunan təkrar xammal toplanmasına böyük diqqət verirlər. Belə ki, istehsalatda tətbiq olunan xammalın 60 faizi şüşə-tara, 4 faizi makulatura, 25 faizi alüminium tullantılarıdır.

1984-cü ildə hər adama orta hesabla 19,7 kq şüşə-tara və 77 kq. makulatura düşmüşdü.

Ölkədə əridilən alüminium xəlitəsinnn 25 faizi təkrar emaldan alınır («ikinci» xammal).

Qənaət olunmuş enerji və material, yenidən əldə edilmişlərlə müqayisədə 2 – 3 dəfə uçuz başa gəlir. Bizim ölkəmizdə, günün vaçib məsələlərindən biri – xalq təsərrüfatının yanacağ, xammala və materiala olan ehtiyacının 75 – 80 faizini qənaət hesabına ödəməkdir.

ABŞ-da sənayenin enerji tutumunu azaltmaq üçün yeni layihə işlənib "hazırlamışlar. Belə ki, ağac materialı əvəzinə plasmas, alüminium əvəzinə dəmir istifadə etmək yolu ilə yaşayış binalarının arxitekturasını və qızdırıcı sisetemlərin konstruksiyasını yaxşılaşdırmaq və s. yollarla.

Hesablamalar göstərdi ki, bu tədbirlər 1945-ci ildən həyata keçirilmiş olsaydı 1970-ci ilə qədər enerji sərfi 2 – 3 dəfə azalardı. Özü də, dünyada istehsal olunan ümumi enerji miqdarının üçdə birini işlədən və əhalisi dünya əhalisinin 6 faizini təşkil edən, hər adambaşına istehlak olunan enerjinin, dünya üzrə orta səviyyədən beş dəfə artıq olduqu bir ölkədə!

SSRİ EA-nın Kurçatov adına atom enerjisi institutunda, yanaçaq növü kimi neft və qazdan istifadə etdikdə qoyulan xərcləri iki dəfə azaltmağa və atmosferin çirklənməsinin ekoloji problemlərini həll etməyə imkan verən, şəhərlərin istilik təçhizatı üçün kiçik qabaritli reaktorlar işlənib hazırlanmışdır. Bunlardan başqa nəzərdə tutmaq lazımdır ki, proqnoza görə yeraltı ehtiyatı hələ bundan sonra 200 il də kifayət edə biləcək kömürdən enerji mənbəyi kimi istifadə olunur. Başqa enerji mənbələrindən – günəşdən, küləkdən, geotermal sulardan da istifadə etmək olar.



Beləliklə, XXI yüzilliyin enerji ehtiyatında neftin və qazın rolu xeyli azalacaq və onlar mikrobioloji sintezdə - zülal, dərman maddələri və bitkiləri mühafizə vasitələri alınmasında əsas xammal kimi istifadə olunacaqlar.

XXI yüzillikdə işləyib yaşamalı olacaq indiki gənc neftçilərə o vaxtlar başqa sahələrə keçib işləmək lazım olmayacaq, lakin ola bilsin ki, öz ixtisaslarını təkmilləşdirmələri lazım gələcəkdir.

Onu da qeyd edək ki, neftin və qazın illik hasilatı təbii olaraq getdikcə azalaçaq, mühəndislərin fundamental və ixtisas biliklərinə verilən tələbat isə artacaqdır. Bu, xüsusən onunla əlaqədardır ki, neftin və qazın laydakı qalıq ehtiyatını daha mükəmməl elmi metodlar – məsələn, fiziki, kimyəvi və s.) tətbiq etməklə əldə etmək mümkün olaçaqdır.

Bundan başqa neft-mədən elminin və təcrübəsinin dəqiqliyinə tələbat da artacaqdır. Dənizlərdən və okean sahillərindən (şelflərdən) neft və qazın çıxarılması – xüsusən buzlaqlar şəraitində - böyük problemlərin meydana gəlməsinə səbəb olacaqdır.

Beləliklə, indinin özündə və gələcəkdə həm elmi və həm də ictimai nöqteyi-nəzərdən neftin və qazın təkcə yanacaq kimi yox, eyni zamanda qiymətli kimyəvi xammal kimi daha böyük əhəmiyyət kəsb etməsinə uyğun olaraq neftçi mühəndislərə tələbat durmadan artacaqdır.

İknici dünya müharibəsinə qədər və müharibədən sonrakı ilk illərdə Azərbaycan ölkəmizin əsas neft rayonu idi və neftçi-mühəndis ixtisası respublikamızda böyük nüfuza malik idi. Son illərdə partiya va hökümətin neft və qaz saənayesini inkişaf etdirmək haqqındakı qərarları həmin ixtisasın nüfuzunu yenidən daha yüksək mərhələyə qaldırmışdır. Bu qərarlar təxirəsalınmaz suratdə həyata keçirilməyə başladı, belə ki, M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya institutunun qaz-neft – mədən fakultəsinə 1978-1980-cı illərdə orta məktəbləri qızıl və gümüş medallarla bitirmiş xeyli gənc qəbul olunmuşdur.

1968-ci ildə bir laboratoriya məktəblilərin peşəyönümü məsələsinə dair tədqiqat aparmışdır. Nəticələr göstərdi ki, məktəblərin peşəyönümü ölkənin kadrlara ehtiyacı ilə mütənasibdir.

Tədqiqat aparanlar, nəticəni kütləvi məlumat vasitəsinin təsirilə əlaqələndirməyə (kino ilə) çalışdılar. Soruşulanların 90 faizzi mühəndis, həkim, fizik, jurnalist və s. olmaq istəmiş, halbuki o zaman ölkədə müxtəlif növlü mütəxəssisə tələbat 10-15 faiz idi. Sovet həyat tərzinə həsr olunmuş 100 kinofilmin təhlili göstərdi ki, bu filmlərin 60 faizdən çoxunun müsbət qəhrəmanı ziyalılardır.

Müqayisə üçün belə bir rəqəm gətirilmişdir ki, 1930-cu ildə ziyalılar işləyən əhalinin 12 faizini təşkil edirmiş. 1969-cu ildə Ufa şəhərinin ekranlarında göstərilən filimlərin təhlili yuxarıdakı nəticələri təsdiq etmişdir. Bütün bu deyilənlərdən aydın olmuşdur ki, ixtisasın nüfuzu kütləvi məlumat vasitələri ilə də müəyyən olunur.

İxtisas seçməyə bir çox başqa amillər də təsir edir, xüsusən peşə seçən gəncdə tərəddüd, özünətələbkarlığın zəif olması, laqeydlik, iradəsizlik, kənardan təsir və həmçinin ali məktəbin nüfuzu. Axırıncı amil, müəyyən mənada, ali məktəbin daxili şəraiti və müəllimlərin peşəkarlığı (təkcə «nəyi öyrənmək» yox, həm də «kimdən öyrənmək»») ilə müəyyən olunur.

Yadda saxlamaq lazımdır ki, qorxu – yaradıcılığın təhlükəli düşmənidir. Qorxu ilə yanaşı, həddən artıq özünütənqid və tənbəllik də yaradıcılığa düşməndirlər. K.Bouvi yazır: «Öz-özünə etibar etməmək – bir çox müvəffəqiyyətsizliklərimizin səbəbidir».

Amerikalı şair, tənqidçi və moralist Rolf Uoldo Emerson yazır: "Hər gün hər hansı bir təhlükəyə qalib gəlməyən, həyatda heç nə öyrənə bilməz".

Adamda eyni qorxu hissi təkrar olaraq baş vermir, çünki orqanizmdə qorxuya qarşı hazırlanan immunitet, şərait təkrar olunduqca, onu zəiflədir.

Qorxunun, özünütənqidin və tənbəlliyin də müəyyən sərhədi olmalıdır.

Azərbaycan hikmətli «Atalar sözü» xəzinsindən:

1. Tənbəl ceviz yemək istəyir, "Qabığını kim soysun» – deyir.
2. Bacaranda istəmir, istəyəndə bacarmır.
3. Tənbələ iş buyur, o sənə nağıl danışsın.



El arasında deyirlər: bütün qüsurların anası tənbəllikdir. Özü də tənbəllik müxtəlif cür olur, məsələn, tənbəllik – avaranın «əməksevərliyidir». Tənbəllərin pərəstiş etdikləri müdrik kəlam: «Ver yeyim, ört yatım, gözlə çanım çıxmasın». "Səfeh olan, lakin öz səfehliyini boynuna alan şəxs o qədər də səfeh deyildir, tənbəl isə öz tənbəlliyini boynuna ala bilər, amma yenə də tənbəl olaraq qalar" (Jul Renar).

Bəzən insan ömrünü iki mərhələyə bölürlər -- əvvəlcə bilik əldə etmək, norma və qaydaları öyrənmək lazımdır, bundan sonra isə yaratmaq dövrü başlayır. Bu «bölgü» kökündən səhv və yanlışdır. Elə hallar olur ki, müəllimlər öz şagirdlərindən və tələbələrindən çavabları mühazirədə deyildiyi və yaxud kitablarda yazıldığı kimi almaq istəyirlər. Bəs onların şəxsi "yaradıcılıqları» necə olsun? Bununla belə, ancaq "mənimsəməyə"vərdiş edən sonradan çətin ki, bir şey «yaratsın". O, buna öyrənməyibdir.

Görkəmli riyaziyyatçı M.N.Luzin, ona sadəçə olaraq riyazi savad əldə etməklə bərabər, eyni zamanda bu sahədə geniş yaradıcılıq qabiliyyəti aşılamış repetitorunu (əlavə dərs öyrədən müəllimini) hörmət və ehtiramla xatırlayırdı.

Çoxlu sayda müşahidələr və araşdırmalar göstərir ki, tədris illərində tələbənin özünün sərbəst öyrəndiyi biliklər çox səmərəli nəticələr verir, çünki, bu heç kəsin təhriki ilə yox (yəni müəllimin tələbi ilə yox), ürəyinin həvəsilə əldə olunan biliklərdir.

XX yüzilliyin sonuna yaxın insan ömrunün uzanması ilə əlaqədar, təbii olaraq bəzi problemlər meydana gəlmişdir. Bunlardan ən başlıcası «peşədəyişmə» problemidir. Ancaq öz peşəsinə ürəkdən bağlı olanlar eyni bir peşədə məmnuniyyətlə 30 – 40 il işləyə biləcəklər. Bu isə çox çətindir və hamıya müyəssər olan iş deyil. Adam peşəni və yaxud sənəti gənçliyində, hələ heç bir həyat təcrübəsi olmadığı və öz imkanlarını yaxşı bilmədiyi dövrdə seçir. Yolun yarısında ümidsizliyə qapılıb, hər şeyi yenidən başlamaq cəhdləri mənfi ictimai münasibətlərlə qarşılaşır. Bu gün, içtimai rəy adamın yeni starta başlamaq hüququnu qüvvədə saxlayır («Sovet. Soyuz», №6, 1988).

İqtisadçılar və sosioloqlar güman edirlər ki, adam əlli illik əmək fəaliyyəti ərzində öz peşəsini 5 – 6 dəfə dəyişir.

Hazırda elmi-texniki tərəqqinin inkişafını və istehsalat işçilərinin peşə strukturunun ancaq ən ümumi əlamətlərini proqnozlaşdırmaq olar.

Güman etmək olar ki, müasir gənclik əlli illik dövr ərzində öz peşəsini daha tez-tez dəyişəcək.[1]

Fransız ekspertləri hesab edirlər ki, 2000-ci il ərəfələrində 4000 yeni peşə yaranacaqdır. O cümlədən: *robot təmirçisi, plastmasdan istifadə üzrə mütəxəssis, məlumat sistemləri operatoru, akvabitkilər (sualtı kənd təsərrüfatı)[2] yetişdirən mütəxəssis, kompyuter oyunları tərtibçisi* və s. («Sovetskaya Rossiya», 17.09.1986).

Sosioloqlar müəyyən etmişlər ki, hər üçdə bir işçi, əmək fəaliyyəti dövründə öz ictimai vəziyyətini dəyişdirmişdir, məsələn fəhləlikdən mühəndisliyə, kolxozçuluqdan tələbəliyə və s.

Bu halda sosialist çəmiyyətində istedadın və qabiliyyətin daha hərtərəfli və dolğun fəaliyyət göstərməsinə təkan verən K.Marksın «Əməyi dəyişmə» qanunu böyük əhəmiyyətə malikdir.

Tamamilə təbiidir ki, istehsalatın təcrübəli təşkilatçısı – partiya işçisidir, mühəndis, həkim və başqa mütəxəssislər isə alimlik zəminində dayanırlar.

Yadda saxlamaq lazımdır ki, hər bir iş təkrar olunan eyni əməliyyatların yekunudur. Belə ki, aktyor eyni bir səhnəni əvvəlcə dönə-dönə məşq edir, sağıcı bir cür əməliyyatı – inək sağmağı təkrar edir. Müəllim hər gün mühazirə oxuyur. Dediyimiz bircürəliklər xalis zahiri əlamətdir, ancaq bu xam xəyal təsiri altında olanları qorxuda bilər. Beləliklə,peşəyönümündə, sənət seçimində təcrübə əsas şərtdir və hər bir işi – hətta xoşlamadığın iş olsa belə – əvvəlcə çalışıb həvəslə yerinə yetirmək lazımdır.

[1] Axırıncı 15 ildə 207 yeni peşə yaranmış, 232-si "yox olmuşdur". Məsələn, "aerovağzalda projektorçu" (avtomatlaşdırılmış enmə stansiyası ilə əvəz olunmuşdur), "saat istehsalında saat daşı tornaçısı" (maçın hazırlayır) və s. ("İzvestiya". 13.06. 1986).

[2] Amerika mütəxəssisləri müəyyən etmişlər ki, ABŞ-da 110 növ həşərat mövcuddur və bunlarla xörəklərin çeşidlərini genişləndirmək olar. Həşəratlardan hazırlanmış bir sıra xörək növlərinin texnologiyası işlənib hazırlanmışdır (qarışqa, çəyirtkə, cırcırama, ağ qarışqa və s. tərkibli xörəklər).



Sərbəst peşə seçimində və təhsil almada iqtisadi faktor da az rol oynamır.

Məlumdur ki, sosializmdə vətəndaşların təhsil haqqı dövlət tərəfindən öyrənilir. Yeri gəlmişkən qeyd edək ki, orta ixtisas təhsili məktəblərində bir tələbənin illik xərçi dövlətə 610 manata, ali məktəblərdə isə 1000 manatdan da baha başa gəlir.

Sovet tələbələri ədəbiyyatdan, idman zallarından, laboratoriya cihazlarından pulsuz, yataqxanadan isə ayda cəmi 2 manat haqq verməklə istifadə edirlər. Müvəffəqiyyətlə oxuyan tələbələrə isə həm də təqaüd verilir. Cəmi 15 minə yaxın tələbəsi olan Estoniya respublikasında ali məktəblərdə təqaüdün ödənilməsinə hər il ümumi fonddan 6 mln. manat xərçlənir.

Kapitalist ölkələrində təhsil xərcini tələbələr özləri ödəyirlər. Belə ki, bir tələbənin illik təhsil haqqı: Nyu-Yorkun Kolumbiya universitetində – 14 min dollar, Harvard universitetində – 14.700 dollar, Yel universitetində – 14.500 dollar, Braun universitetində – 14.145 dollar, Darmut universitetində – 14.093 dollar, Stenford universitetində – 14.039 dollardır.

1983-cü ildən universitet və kolleclərdə təhsil haqqı 10 faiz bahalaşmışdır. Məsələn, tələbənin bir illik təhsil haqqı Massaçuset texnologiya institutunda 16 min dollar olmuşdur.

İngiltərədə universitetlərdə təhsilin illik haqqı, bir neçə peşəkar fəhlənin birillik əmək haqqının cəminə – 12 min funt sterlinqə bərabərdir.

Bu ölkələrdə, xüsusi və fərdi fondlardan verilən təqaüdü tələbələrin çox az hissəsi alır. ABŞ-da tələbələrin yalnız 13 faizi təqaüd alır və bu, təhsil haqqının ancaq üçdə birini ödəyir. Avstriyada tələbələrin 14 faizi, Belçikada və Norveçdə – 10 faizi, İsveçrədə – 25 faizi, Fransada – 17,5 faizi təqaüd alır. Onu da demək lazımdır ki, tələbələrə verilən təqaüdü onlar ali məktəbləri bitirdikdən sonra müxtəlif müddətlərdə ödəməlidirlər. ABŞ-da ödənişin müddəti 10 ildir.

İngiltərə və İsveçdə ehtiyacı olan tələbələrin yalnız üçdə biri yataqxana ilə təmin olunur.

AFR-in ali məktəblərində fəhlə və kəndli uşaqları 15 faizdən az, ADR-də isə 60 faizdən çoxdur.

İsveçdə, İtaliyada, Yaponiyada, ABŞ-da bu göstəriçilər daha aşağıdır.

ABŞ-da İspan dilində danışan amerikalıların 56 faizi savadsızdır, zəncilərin isə 44 faizi nə oxuya, nə də yaza bilir.

ABŞ-da zənçi tələbələr, tələbələrin ümumi sayının 7 – 8 faizini təşkil edir. Bu, ABŞ əhalisinin ümumi sayında zəncilərin payına düşəcək nisbətdən 3 dəfə azdır.

Neft-kimya, atom və elektronika sənayelərində yalnız ağlar işləyir.

SSRİ-nin ali məktəblərində 100-dən artıq millətin, xalqın və tayfanın nümayəndələri təhsil alır.

Keçmiş çar Rusiyasının ucqarlarında yaşayan xalqlar hər on min nəfərə düşən tələbələrin sayına görə daha inkişaf etmiş kapitalist ölkələrini belə qabaqlayırlar. Bu göstəricilər: Tacikistanda – 137, Qırğızıstanda – 155, Özbəkistanda – 169-dur.

Bu göstəricilər: İtaliyada – 122, AFR-də – 106, İngiltərədə – 98-dir.

Sosialist ölkələri vətəndaşlarının təhsil almada tam bərabərlikləri təmin olunur. SSRİ Konstitusiyasında yazılır: (maddə 45): «SSRİ vətəndaşları təhsil hüququna malikdirlər. Bu hüquq bütün təhsil növlərinin pulsuz olması ilə; gənclərin hamılıqla icbari orta təhsilinin həyata keçirilməsi ilə: təlimin həyatla, istehsalatla əlaqəsi əsasında texniki – peşə, orta ixtisas təhsilinin və ali təhsilin geniş inkşiaf etdirilməsi ilə; qiyabi təhsilin və axşam təhsilinin inkişaf etdirilməsi ilə; şagirdlərə və tələbələrə dövlət təqaüdü və güzəştlər verilməsi ilə; məktəb dərsliklərinin pulsuz verilməsi ilə; məktəbdə ana dilində oxumaq imkanı ilə; müstəqil işləmək üçün şərait yaradılması ilə təmin olunur».

Bu paraqrafı D.İ.Pisarevin sözlərilə qurtaraq: «İnsanın nail ola biləcəyi ən ülvi səadət ondan ibarətdir ki, o, bütün qüvvə və bacarığını, bütün ömrünü tamamilə könüldən sevdiyi sənətə həsr edə bilsin».



## § 20. ELMİN İNKİŞAF QANUNLARI HAQQINDA

«İrəli ancaq yaddaş gedə bilər,
unudulma yox. Yaddaş başlanğıca
qayıdır və onu təzələyir».

*M.Baxtin*

Müasir dövrün əsas problemlərindən biri, mövcud informasiya bolluğu şəraitində alimlərin nə tez-tələsik dərk etməyə, nə də işləyib qaydaya salmağa macal tapa bilmədikləri informasiya partlayışı problemidir. İndiyə qədər bəşəriyyətin qazandığı biliklərin 80 – 90 faizi müasir insanın yaşadığı müddətdə əldə olunmuşdur. Elmi kitabxanalarda saxlanılan külli miqdarda ədəbiyyatın yarısına əl dəyməyib, yəni həmin hissə heç vaxt heç kəsi maraqlandırmayıb. O biri yarısının yarısı isə oxuçular tərəfindən yalnız bir dəfə tələb olunub. Elə aspirantlara, elmi işçilərə, müəllimlərə rast gəlmək olur ki, onlar elmi kitabxanalara heç getmirlər. Bu, ələlxüsus, Moskvaya ezam olunanlar üçün daha səciyyəvidir.

Tələbə ali məktəbdə oxuduğu müddətdə külli miqdarda məlumat alır və bu, tədris prosesində tələbənin fəaliyyətini müəyyənləşdirir.

Çox ifadəli tərzdə A.V.Suvorov demişdir: «Mən Lokka ona görə inanıram ki, onun yaddaşı - ağıl xəzinəsidir, lakin bu xəzinədə çoxlu şəbəkələr var, ona görə də bu şəbəkələri aidiyyəti olanlarla doldurmaq lazımdır».

Təcili yadasalmada insan beynində 8-ə yaxın, daha dəqiq desək 7±2, necə deyərlər, boş şəbəkə var və bunlar hər hansı surətlə doldurula bilər. Təcili yaddaşın məhdud həcmi, çox qısa zaman müddətində – məsələn, masa üzərində yerləşən 9-dan çox əşyanın hamısını xatırlamağa imkan vermir.

Təcrübə göstərir ki, riyazi yaddaş məlumat saxlamaq uçün bir növ anbar deyil. Burada, yadda qalacaq şeylər çeşidlənir və bir müddət keçəndən sonra məlum olur ki, yaddaş daha qiymətli və ümumi olanları saxlamışdır.

*Məqsəd aydınlığı, biliyin dəqiqliyi* və ondan istifadə etməyin etibarlılığı, biliklərin tətbiqinin nəticələrini yoxlamağın obyektiv meyarı və onun *səmərəliliyi hansı ardıcıllıqla müəyyən olunur?*

Müəyyən ixtisaslar üçün təcrübəyə lazım olan nə varsa, həmişə qarşında, tam hazırdır.

Yaddaşın zəifliyinin əsas səbəblərindən biri insanın iradəsizliyidir.

Belə bir sual meydana çıxır: – 1)heç vaxt yaddan çıxarmamaq üçün; 2) bir müddət unutmaq üçün; 3) nəzərdə tutmaq üçün – yaddaşa nə lazımdır?

Ümumi strategiya belədir: öyrənilənlərdən ən başlıcasını – müəllifin dəlillərilə razılaşmaqla əsas nətiçələri şüurlu surətdə yadda saxlamaq lazımdır. Müəllifin dəlillərini qəbul və ya təkzib etmək isbatın məntiqliyini və faktların təhlilini diqqətlə öyrənməyə kömək edir və biliyin həm şüurlu şəkildə yadda saxlanması, həm də möhkəmlənməsinə imkan yaradır.

Q.M.Dobrovun tərtib etdiyi qaydaya əsasən demək olar ki, bəşəriyyətin bilik ehtiyatı çoxaldıqca həmin ehtiyatın çox az hissəsindən istifadə olunur. Elmin məhsuldarlığını iki dəfə artırmaq üçün məlumat bolluğunu 8, alimlərin sayını 16, sərf olunan xərcləri isə 32 dəfə artırmaq lazımdır.

Eyni mənzərə keyfiyyətcə musiqi orkestrlərində də müşahidə olunur. Burada musiqi tonunun yüksəlməsi üçün musiqi alətlərinin sayının artırılması sadə çəbri asılılıqla əlaqədar deyil. Məsələn, çalğı alətinin bir-bir ancaq 4 - 5-nin artırılması səmərəli olur. Əgər 4 alətə birini də əlavə etsək, səs tonunun yüksəkliyi bir o qədər hiss olunmur. Bu effekt, nəzərə çarpacaq dərəcədə – 8 alətə 2-ni, 16 alətə 4-nü əlavə etdikdə özünü göstərir. Bunu Veber – Fehnerin psixofizika qanununa əsasən edirlər. Orkestrlər, xor kollektivləri təşkil etdikdə həmin qanundan istifadə olunur.

Elmin inkişaf qanunları da çox maraqlı inqilab və təkamül yolları keçmiş, çox əzablı, iztirablı illər, günlər və dəqiqələr yaşamışdır.

Aşağıdakı elmi inkişaf qanunları daha maraqlıdır.

Birinci qanunda deyilir: Elm, özündən qabaqkı nəsillərin qoyub-getdiyi biliklərlə mütənasib surətdə irəliləyir. Bilik ehtiyatı nə qədər çoxdursa, inkişaf da o nisbətdə çoxdur. Məlumatların mənimsənilməsinin kəmiyyət və keyfiyyətinə görə müasir dövrdəki 20 il fərq keçmişdəki bir neçə əsr ərzindəki fərq qədərdir. Bilik tez *«köhnəlir»* və bu *mənəvi köhnəlmə* get-gedə özünü daha tez-tez büruzə verir.

1964-cu ildə ədəbiyyatın sosiologiyası üzrə beynəlxalq kollokviumda Robert Eskarpi aşağıdakı rəqəmləri bildirmişdir: ötən ilki ədəbi əsərlərin bu il 80 faizi və iyirmi ildən sonra isə 99 faizi tamamilə yaddan çıxır. Bu müddətdən sonra hər min kitabdan 10-u həyatda yaşamaq vəsiqəsi alır, ancaq bir dənə kitab özünə əbədi ömür qazanır. Kollokvium, eyni zamanda, oxucunun: – 1000 kitab müəllifindən 990-nın səmərəsiz fəaliyyəti kimə və nəyə lazımdır? – sualına da cavab vermişdir. Cavabda deyilir ki, hər hansı ədəbiyyat müəyyən bir xalqın ədəbi ictimaiyyəti üzvlərinin fəaliyyətindən yaranır və bu yaradıcılıq məhsullarının əksəriyyəti müəyyən müddət müvəqqəti rol oynadıqdan sonra, «silinib-süpürülüb» aradan çıxır. *Ədəbi yaradıcılıqla məşğul olan hər bir şəxs* ədəbiyyatın bir çox ənənələrindən hazır şəkildə: – söz ehtiyatından, fabuladan, süjeti birdən-birə dəyişmə maneralarından, xarakter yaratma üsullarından, – istifadə edir. Bu elementlərdən müəyyən qayda ilə istifadə olunması sənət üçün yeni fakt kimi qəbul edilir. Y.Lotman təsdiq edir ki, novatorluq - heç də həmişə yeni bir şeyin ixtirası deyil. Ədəbi axın, sanki torpağı yumşaldır və onu, necə deyərlər, əkin üçün yararlı vəziyyətə gətirir, bunun üzərində isə möhtəşəm əsərlər yaranır. «Ortabab yazıçılar» da öz dövründə, öz müasirləri üçün, yaxın gələçək üçün heç də az rol oynamırlar. Deyilənlər təkcə «ortabab yazıçı»lara aid deyil, bu həm də yaradıçılıqla məşğul olanların bütün «orta zümrə»lərinə də aiddir.

İkinci qanun – böyük elementlərin ölçücə, kiçik elementlərinsə sayca artması yolu *ilə inkişaf edən sistemlərə məxsus* kristallaşma qanunudur. Kollektiv böyüdükçə işin çox hissəsini *adamların az hissəsi icra edir.*

Buradan belə bir nəticə alınır: alimlərin ümumi sayı «görkəmli» alimlərin sayına mütənasib olaraq artır.

Elmi sənədləşdirmə sahəsində Lotk qanunu olduqca maraqlıdır: n sayda məqalə yazmış işçilərin sayı 1/p2 ilə mütənasibdir. Bu qanuna əsasən məlum olmuşdur ki, bütün dünyadakı elmi ədəbiyyatın yarıdan çoxu dünya alimlərinin ancaq 10 faizinin payına düşür, yetmiş beş faiz alim isə bütün ömrü boyu bir dənədən çox məqalə yazmamışdır.

Mürəkkəb sistemlərin (cəmiyyətdə), «müvəffəqiyyəti müvəffəqiyyət gətirir» (tövratda Matfeyin «var varın üstə gələr» və ya «bədbəxtlik bədbəxtlik gətirər») prinsipinə bənzər dağ seli kimi kükrəyən özünəməxsusluğu da var.

N.Parkinson «minin səmərəsi» adlı prinsip təklif etmişdir. Bu prinsipə görə, min nəfərdən çox işçisi olan müəssisə «xarici aləmlə» normal münasibətlərini itirir. Bundan başqa, həmin prinsip - adamın başqalarını tanımaq və özünü kollektivin həqiqi üzvü hesab etmək üçün daxili inam yaradan məlumat toplaya bilmək imkanıdır. Deməli, «görkəmli» alimlərin sayını artırmaq üçün «adi» alimlərin sayını artırmaq yolu ilə yox, elmi tədqiqatların xarakterini və istiqamətini dəyişdirmək yolu ilə ketmək lazımdır.

**Üçüncü** – yeni biliyə köhnənin arası kəsilmədən və qanunauyğun olaraq genişlənməsi kimi baxan toplama qanunudur.

Alimlərin sayının zamandan asılı olaraq artması prosesini ümumiləşdirdikdə, yaxın gələcək üçün mənasız bir vəziyyət alınır: - alimlərin sayı əhalinin sayından çox olur. Bu halda ortaya belə bir təbii sual çıxır: bu problemin həlli varmı və inkişafın artım sürətinin həddi mümkündürmü? Fiziklərin belə bir qəribə zarafatı var: Pişiyin quyruğuna boş konserv qutusu bağlayıb, onu daş döşənmiş küçə ilə qovurlar. Pişik nə qədər sürətlə qaçırsa, konserv qutusu da bir o qədər bərkdən cingildəyir və cingiltidən qorxan pişik daha iti sürətlə qaçmağa başlayır. Sual olunur: pişiyin sürətinin həddi varmı, o hansı sürət həddinə qədər qaçacaqdır? Cavab lap sadədir: pişiyin sürəti səsin sürətini keçəndə pişik konserv qutusunun cingiltisini eşitməyəcək və buna görə də onun daha cəld qaçmağa ehtiyacı olmayacaq, daha doğrusu, öz sürətini artırmağa cəhd eləməyəcəkdir.



Dördüncü qanunu Prays belə ifadə edir: inkişafın bərabərdəyişən artımdan, bərabərazalan (yavaşıyan) - «Prays səviyyəsinə» keçmək lazımdır.

Yeri gəlmişkən, Amerika fiziki V.Vayskoporun maraqlı bir hesablamasını buradaca qeyd edək. O, hesablamışdır ki, Arximed dövründən zəmanəmizə qədər aparılmış fundamental tədqiqatların dəyəri təqribən 30 milyard dollardır və bu da ABŞ sənayesinin 12 gündə buraxdığı məhsulun dəyərindən azdır.

## § 21. PSİXOLOJİ DİAQNOSTİKA NƏ VERƏ BİLƏR?

«Kim ki, insanı öyrənməyi özündən başlamır, o, heç vaxt insan haqqında dərin bilik əldə edə bilməz».

*N.Q.Çernışevski*

Psixoloji diaqnostikanın əsasını yaradıcılıq psixologiyası təşkil edir. Özü də, şüuru yalnız psixofizikanın məhdud çərçivəsində təyin etmək cəhdi yaradıcılıq problemləri məsələlərinin həlli ilə qarşılaşır.

Amerikada Rorşah institutu var. ABŞ-da qoşun növlərinə təyinat və böyük firmalarda işə götürmə Rorşah testləri üzrə aparılır. Amerika kolleclərinin psixoloji şöbələrində üç il ərzində Rorşah testləri öyrədilir.

D.Pidounun qeyd etdiyi kimi, indi bizə məlum olan Rorşah testlərini ilk dəfə kəşf etmək şərəfi Leonardo da Vinçiyə nəsib olmuşdur.

Leonardo da Vinçi səmada buludların qəribə mənzərələrinə, divarların qeyri-hamarlığına və nəmişlikdən yaranan əcaib xətlərə, gecələr ayın sudakı əksinə diqqətlə baxmaqla öz təxəyyülünü məşq etdirərmiş.

İnsanın onu əhatə edən əyani dünyanı xəyalında canlandırması (T.Lippsin fikrincə «özündə hiss etməsi») qabiliyyəti bütün adamlara, ələlxüsus sənətkarlara və uşaqlara xas olan psixoloji keyfiyyətdir.

H.X.Andersen gecələr mətbəx şeylərini «danışdıraraq», küpəni məcbur edirdi ki, qonşunun günorta naharında nə yediklərini xəbər versin, şüşə butulkalarsa fəlsəfi əllaməlik etsinlər.

İ.Selvinski yazır:

Niyə seyr etdikcə coşğun dənizi
Ölumsüzlük hissi bürüyür bizi?
Niyə...
    Gah boran, gah sükut istəyir insan.
Gah da qamışlığın pıçıltısını?
Çünki, əsrarlı bir hikmətlə hər an,
Dərk etmək istərik biz kainatı.*

Testlər haqqında qısaca məlumat verək: Ağ kağız vərəqinə mürəkkəb damızdırıb, həmin vərəqi ortasından bükürlər. Aydındır ki, qatlanmış yarımvərəqlərdə şəklə bənzər mürəkkəb ləkələri alınır. Bu ləkəli vərəqələrin insan təsəvvüründə nə əlamətləri yaratdığını yoxlamaq üçün, onu xəstələrə göstərirlər. Rorşah testlərinə əsasən adamın dərhal gördüyü şəkil, mənzərə və ya vərəqdəki ləkə vasitəsilə ətraf dünya ilə təması, ona münasibəti, onun təsəvvürdə yaratdığı hiss və həyəcanları müəyyən olunur. Daha doğrusu Rorşah testlərində insanın ətraf mühitlə təmasının bir neçə mərhələsini izləmək mümkündür. Rorşah testləri adama tamamilə sərbəstlik təlqin edir. Həm də bu testlər maddi aləmin insanlarda inikasıdır. Adam öz xatirələrini, öz peşəsini, öz psixoloji vəziyyətini bu testlərə əlavə etməklə özündə ehtiva edir. «TAT» testində isə süjetli şəkil üzrə hekayə tərtib edilir. Tutaq ki, şəkildə bir qız oturub və stola söykənərək nə isə düşünür. Süjeti məhdudlaşdırıb, sizdən xahiş edirlər ki, şəklə baxıb bu qızın başına nə gəlmiş, nə gəlir və nə gələcəyi haqqında danışın. Öz hekayənizi qurarkən, özünüz də hiss etmədən öz həyatınızı nəql etməyə başlayacaqsınız. Əgər, siz nə isə bir ədəbi şablon - qayda üzrə öz təsvirinizi qurmağa cəhd etsəniz, hökmən bu hekayədə yenə də sizin öz şəxsi şablonunuz. öz həyatınızın detalları, əlvanlığı ilə bərabər, hər halda qız və onun stola söykənmiş düşüncəli görkəmi də iştirak edəcəkdir.



Kibernetika nöqteyi-nəzərincə belə qəbul etmək olar ki, Rorşah yalnız təcrübəni aparan mütəxəssisin ayırd edə biləcəyi qarmaqarışıq məlumatlar verir. Məsələn, «hərəkət-rəng» testinə əsasən zehni inkişafın səviyyəsi haqqında fikir söyləmək olur.

Doğrudan da, əvvəlcə testdə hər hansı bir şəkli təqdim edib, ona müəyyən əlamət və ya keyfiyyət aid etmək lazımdır. Bundan sonra həmin əlamət və ya keyfiyyəti «işə salıb», real olan varlığı görürsən: «Quşlar uçur, rota addımlayır, buludlar hərəkət edir».

Zehni inkişaf səviyyəsi zəif olan adamlar, Rorşahda ümumiyyətlə hərəkət görmürlər.

Rorşahda rəng həyəcanın barometridir. Sınağa dəvət olunan şəxsə ağ-qara kağızdan sonra, birdən rəgli kağız göstərirlərsə, gördüyünü qavramaq üçün ona 10 saniyə əvəzinə, 20 saniyə vaxt lazımdır. Əgər, adam Rorşah testində yalnız rəng görürsə, qalan əlamətləri seçmək üçün həddən artıq əsəbi gərginlik keçirərək diqqətini cəmləşdirməyə çalışırsa, bu həddindən artıq emosionallığın əlamətidir.

Müxtəlif rəng çalarlarını ayırd etmək üçün Liberiyada iki sözdən istifadə edirlər: qırmızı, sarı, narıncı - (isti rəng qrupları) bir adla, yaşıl, mavi və bənövşəyi isə (soyuq rəng qrupları) başqa bir adla adlanır.

Afrika xalqları arasında qırmızı, sarı və narıncı rənglər bir məfhumla ifadə olunur.

Ndembu dilində rənglər ançaq üç məfhumla - qara, ağ və qırmızı ilə ifadə olunur. Göy rəng qara rəng qrupuna aiddir.

Braziliyada Kamayura hinduları isə göy və yaşıl rəngləri ayırd edə bilmirlər. Onlar bu iki rəngi «tutuquşu» rəngi adlandırırlar.

Rəng çalarlarının parçalanmasına Avropa xalqları arasında da rast gəlmək olur. Valliya dilində qəhvəyi və tünd boz rənglər, eləçə də açıq-boz, göy, abı və yaşıl rənglər birləşdirilir. Bu artıq məfhumi anlayışların formalaşmasının pərakəndə üsuludur (diffuziya).

Bu testdə ən kəskin reaksiya qırmızı rənglə əlaqədardır; doğrudur, Rorşah kartlarında qırmızı rəng bir qədər zərifdir, çəhrayıya çalır və hebrətli deyil, lakin, qırmızı alov dilinin, yanğın alovunun,

atəş alovunun, yara qanının qızılı rəngi insanda xalis fizioloji təəssürat yaradır. Bu, bizim anadangəlmə əzalarımızda dövran edən və bir növ proqramlanmış gen həyəcanıdır. Qara, boz, yaşıl - testdə verilən əsas rənglərdir və qeyd etmək lazımdır ki, rənglərin vasitəsilə insanın psixoloji vəziyyətinin və təfəkkür tərzinin tədqiqini ilk dəfə Rorşah təklif etmişdir.

Rəng təəssüratının ilk ciddi sistemini Höte vermişdir. Narıncı rəng – çoşğunluq, qanıqaynarlıq, mavi rəng – insanı ülviyyətə yüksəldən munis bir mehribanlıq təəssüratı oyadır; sarı rəng – sevincli və işıqlı bir əhvali-ruhiyyə yaradır. Hətta, məlum uzunluqlu elektromaqnit dalğaları da insanda müəyyən hiss-həyəcan yarada bilir.

Onu da deyək ki, insanın, necə deyərlər, yaş indiqatorlarından biri də rəng çalarlarıdır. Daha açıq tonda verilən, parlaq və təzadlı ahəngə malik rənglər ən çox gənclərin xoşuna gəlir. Rənglərlə insanda emosionallığı, ya da intellekt səviyyəsini təyin etmək mümkündür. Təcrübələr göstərir ki, bu iki psixoloji vəziyyətin ahəngdar birliyinə az rast gəlmək olur, hər hansı birinin həddən artıqlığı isə özünün mənfi təsirini göstərmədən ötüşmür.

Məlumdur ki, hər hansı rəngi üç əsas rəng əsasında müəyyən nisbətdə qarışdırmaqla almaq olar. Gözün tor qişasında rənglərə olduqca həssas üç dənə xana – kiçicik kolbalar yerləşir. Hər xananın qıcıqlanma səviyyəsindən asılı olaraq, göz bu və ya başqa rəngi qəbul edir.

V.İ.Ulyanov – Lenin adına Leninqrad Elektrotexnika İnstitutunda biokibernetiklərin apardıqları tədqiqatlar xeyli maraqlıdır: onlar ensefaloqramların göstəricilərini xüsusi cihazlar vasitəsilə rənglərin dilinə çevirmiş və bu rəngləri «oxumuşlar». Belə məlum olmuşdur ki, insanın psixoloji vəziyyətini, onun əhvali-ruhiyyəsini rənglərin «dili» ilə vermək mümkündür.

Doğrudan da rənglərin əhvali-ruhiyyəyə təsiri olduqca böyükdür.

Yuxarıda qeyd etdiyimiz kimi, hər bir rəng insanın müəyyən əhvali-ruhiyyəsinə uyğun gəlir. Gözəl tacik şairəsi Jalə yazır:



Bir hiss-həyəcana uyğundur hər rəng,
İçimiz tufanlı rəng dənizimi?
Ağ - qadağan rəngi, bu nə çür ahəng?
Yaşılmı göstərən kədərimizi?
Möhnət nə rəngdədir, bir bilən varmı?
Ümidin boyası ağmı, qaramı?*

Əgər adamın əhvalı pisdirsə, o, göy rəngi xoşlamır, ondan, necə deyərlər, qaçır. Yaşıl rəng isə adamların əksəriyyətində rahatlıq, sakitlik və əmin-amanlıq hissi yaradır. Psixoloqlar hesab edirlər ki, rəng – özünənəzarətə kömək edən amillərdən biridir.

Məşhur fizioloq V.M.Bexterev hesab edirdi ki, əsəb xəstəliklərinin müalicəsində rənglərdən səmərəli surətdə istifadə etmək olar. Rus alimi S.V.Kravkov da bu fikirdə idi. O, qeyd edirdi ki, qırmızı rəng əsəb sistemini oyadıb hərəkətə gətirirsə, göy rəng əksinə, əsəb sistemini sıxır.

Bir sıra yazıçıların, bəstəkarların əsərlərində «rəng qavrayışı» – «məcazi mənada səs görmək», sintetik olaraq səs duyumu özünü büruzə verir. İnsanın bu cür qavrama qabiliyyəti sənətkarlara musiqini arxitektura ilə, heykəltəraşlıqla, ornamentlərlə müqayisə etməyə imkan verir.

Güçlü səs qavrayışına malik rəssamlardan A.Bem, D.Belmont, M.Cyurlyonis hətta musiqidə mövcud olan «müşahidə ekvivalentini» tapmağa cəhd etmişlər".

Baxın, Kuprinin «Yunkerlər» əsərinin qəhrəmanına musiqi necə görünür: «Yuxarıdan isə şən sehrbazların əllərindən ahəngli bir ritmlə valsın heyranedici sədaları süzülürdü. Adama elə gəlirdi ki, kimsə xorda çıl-çırağın göz qamaşdırıcı işığında qədərsiz brilyant çoxluğu ilə jonqlyorluq edir və mavi məxmər örtüyü yerə sərib üzərinə parıl-parıl yanan qızıl zərrəciklər yağdırır».

Ləkənin forması – mühüm göstəricidir. Məsələn, xəritəni necə qavrayırlar – hamısını birdən, yoxsa hissə-hissə? Bu proses necə baş verir: bütövü birdən qavramaq, yoxsa məntiqi ardıcıllıqla dərk etmək, görüb hafizəyə verdiklərini nizama salmaq, ya xaos – hərçmərçlik, ya da nədənsə yapışıb, nəyisə tez dərk etmək həvəsi və s...

Ləkənin mövzu cəhəti də xüsusi əhəmiyyətə malikdir. Elə görünə bilər ki, ləkədə canlı və cansız aləmi görmək olar. Lakin təcrübələr göstərir ki, bu aləm bir az çətinliklə 16 kateqoriyada cəmlənə bilir: heyvanlar, bitkilər, insanlar, coğrafiya, anatomiya, od, rentgen və s.

Ən tez verilən cavablar – heyvanlar, quşlar və balıqlardır. Heyvanları təsəvvürdə tez canlandırmaq olur. Bu halda heyvanların sayı – əqli enerjinin, ağlın fəallığının əsas göstəricisidir. Əgər test gündə iki dəfə aparılarsa – gündüz və axşam, onda axşam cavablarında heyvanların sayı səhər cavablarındakına nisbətən xeyli (20 – 30 faiz) çox olur. Şeylər müxtəlif olduqları kimi, eyni zamanda olduqca da oxşardılar. Əgər testdə iştirak edən şəxs bunları görürsə, o, kamana qoyulmuş ox kimidir, yəni atılmağa hazırdır, daha doğrusu, ona həyəcan, narahatlıq hissləri hakimdir. Lakin bu halda oxun atılacağı vaxt proqnozlaşdırılmır, yalnız bir şey bəllidir ki, adam dərhal partlayıb açılacaq». Testdə iştirak edən adam özünün tam rahat və arxayın vəziyyətində nə qara qanlar axan ürəyini, nə ağ ciyərlərinin rentgen şəkillərini görmür, nə də pəncərə, qapı, kilsə və s. memarlıq elementlərini fikrinə gətirmir. Memarlıq və memarlığın elementləri - heç olmasa Rorşah ləkələrinin parlaq və aydın dilimlərilə – qapalı fəza həndəsəsinə həvəs meyli, tərki dünyalıq və s. duyğuları aşılayır. Odur ki, eyni ləkəni biri çiçək kimi, bir başqası qala divarları kimi təsəvvüründə canlandırır.

Rorşah testləri insanın varlığına tələb olunan cavablarla – formalarla, rənglərlə, fiqurun hərəkətlərilə – müxtəlif cəhətlərdən nüfuz edir.

Yadda saxlamaq lazımdır ki, testləşdirmədə adamlar çox vaxt eşitdikləri və eşidəcəkləri suallara cavab verirlər.

Ata Braun bu münasibətlə demişdir: «Fərz edək ki, bir ledi, başqa bir ledinin malikanəsində qonaqdır və soruşur: «İndi burada bir kəs yaşayırmı?». Bu suala, malikanə sahibəsi heç vaxt cavab verməyəcək ki: «Bəli, əlbəttə, eşikağası, üç nökər və qulluqçu qadın» – qulluqçu qadının həmin vaxt otaqda işləyib-əlləşdiyinə, eşikağasının isə ledinin kreslosunun arxasında dayandığına baxmayaraq, o, belə cavab verəcək: «Yox, heç kəs yaşamır».



Di gəl ki, epidemiya vaxtı həkim ondan soruşsaydı ki, «Sizin evdə kimlər yaşayır?» – o, dərhal eşikağasını, xidmətçini, nökərləri və başqalarını da unutmadan sadalayardı. Neynəmək, adamlar belə danışırlar: Sizin sualınıza – hətta sırf həqiqəti danışsalar belə – birbaşa doğru-düzgün cavab verməyəcəklər».

Siseron demişdir: «Adamları hadisələrin özündən çox, onların səbəbi maraqlandırır».

Testlərin nəticələrinə laqeyd yanaşılarsa, onların nəticələri adamlara kömək edə bilər, xüsusilə sənət seçmək işində.

R.Rollan «Qəhrəmanlıqdan Appossionatayadək» kitabında Bethovenin əsərlərini və əlyazmalarını təhlil edərkən, fəhmin yaradıcılıq fəaliyyətinə təsirinə böyük diqqət yetirir. Bununla əlaqədar olaraq B.Uritskaya qeyd edir ki, R.Rollana Freyd nəzəriyyəsinin təsirini çox da şişirtmək lazım deyil, baxmayarağ ki, Freydə həm bir insan, həm də böyük bir alim kimi dərin hörmət bəsləyirdi. Özü də bu münasibət qarşılıqlı idi.

Fransa prezidenti F.Mitteran isə «Marksın müasir təfəkkürə misilsiz təsirini» etiraf edərək, eyni zamanda belə hesab edir ki, «Freydin əsərləri, bizim zəmanəmiz üçün ideyalar aləmində daha böyük inqilabdır». Bu fikirlə razılaşmaq olmaz.

Bu yerdə J.Simenonun Freyd haqqında bir mülahizəsini qeyd edək: «Mən Freydə və Yunqa pərəstiş edənlərdən biri olmuşam və yenə də həmin mövqedəyəm. Onu da deyim ki, mən öz yaradıcılığımda qeyri-iradi olaraq onların bəzi ideyalarından, o cümlədən yeni şüur və irsi şüur ideyalarından istifadə etmişəm.

Onların nəzəriyyəsindən alınan psixoloji analiz indiyə qədər özümüzdə olub, lakin bilmədiklərimiz – irsi şüurun ehtizazını nizama salmaq cəhdindən başqa bir şey deyil.

Mən öz əsərlərimi doğrudan da, ağlın hökmünə boyun əyməyərək, əksinə, öz duyğularıma sadiq qalaraq yazmışam. Bütün bunlara peşman deyiləm. Dediyim kimi, – hazırda Freydə və Yunqa qarşı aparılan mübarizə kompaniyasına baxmayaraq – mən yenə də onların təəssübkeşiyəm».

P.L.Kapitsa müxtəlif vaxtlarda dövri mətbuatda Freyd təliminə istinad edərək çıxış etmişdir. Məsələn, o yazırdı: «İnsanın ali əsəb

sistemi fəaliyyətini də ictimai elmlər sahəsinə aid etmək lazımdır. Bu, elmi bazisın əsasını N.P.Pavlov və Ziqmund (Freyd) qoymuşlar. Yaxud: «Bu prosesləri elmi əsaslarla psixoloqlar öyrənə bilərlər. N.P.Pavlov və Z.Freyd bu işdə böyük müvəffəqiyyətlərə nail olmuşlar. Lakin bu sahədəki tədqiqatların əməli əhəmiyyəti onların müalicəvi psixiatriyada tətbiqilə məhdudlaşır.».

A.B.Çakovskinin «Tamamlanmamış portret» əsərindən («Znamya», № 8, 1984, s. 52) bir parçaya diqqət yetirək, « – Biz Çörçilli gözləyirik? – deyə prezident soruşdu.

– Niyə? – Stalin çiyinlərini yavaşca atdı və dedi: – Uzaq Şərq məsələsinin həllində onun da, əlbəttə, marağı var, lakin, bilavasitə bu məsələ hər şeydən əvvəl Sovetlər və Amerikanın məsələsidir. Onu da deyim ki, mənə deyildiyinə görə, ingilis zabitlərindən bəziləri gəzməyə çıxmışlar. Çörçill isə yatır.

– Gəzməyə? – Ruzvelt təəccüblə soruşdu. – Doğrudanmı onlar Krımın görməli yerlərini gəzməyə getmişlər?

– Yalnız bir görməli yeri, – deyə Stalin zəif təbəssümlə cavab verdi. Balaklavanı.

– Nə ilə məşhurdur o yer? Tarixi abidələri iləmi? – deyə Ruzvelt nəzakətlə soruşdu.

– Daha doğrusu – tarixi dərslərilə, – Stalin yenə də gülümsədi. – Hər halda.... Tarixin ibrət dərslərilə. Doxsan... yox, artıq doxsan bir il əvvəl orada rus və ingilis orduları arasında döyüş baş vermişdir. Bu döyüşdə ingilis süvari ordusunun üçdə iki hissəsi həlak olmuşdur.

– Krım, Krım, keçən əsrin ikinci yarısında Krım müharibəsi. Necə olub ki, bunları unutmuşam? – Ruzvelt fikrən özünü məzəmmət etdi. – Mən, inqilabdan sonrakı hərbi müdaxilələri dönə-dönə xatırlamışam, ancaq Rusiya ilə İngiltərənin arasında köhnə hesabları olduğunu nəzərdən qaçırmışam».

– Qəribə gəzintidir, – ucadan dilləndi. – Və psixoloji cəhətdən izaholunmazdır. Rusvay olduğun yerə ziyarətə getmək. Ola bilsin ki, bu günahlarının əvəzini ödəmək cəhdidir?

– Mən, Freyd nəzəriyyəsi sahəsində mütəxəssis deyiləm, – Stalin gülümsündü və dərhal söhbətin mövzusunu dəyişib, dedi: – Beləliklə, mənim əzizim, cənab prezident, mən Sizi Uzaq Şərqdə müharibənin perspektivləri haqqında söhbətə dəvət etmişəm».

1926-cı ildə SSRİ-də psixoanalitik institutu bağlandı. Elə həmin ildə Leninqradda «Psixoterapiya və psixoanaliz» adlı populyar bir kitab çıxlı. Müəllif psixoanalizi qamçılayaraq, elmi ictimaiyyətə deyil, «fəhlə sinfinə» müraciət etmişdi. Bununda o, hec bir başqa məlumatı olmayan kütlələr arasında psixoanalizə qarşı mənfi əhvali-ruhiyyə yaratmışdı – bu üsul o illərdə elmi «polemika»da möhkəmlənməyə başlayırdı («Znaniye-sila», 1989).

Dediklərimiz Z.Freyd təlimini kütləviləşdirmək məqsədi güdmür, söhbət psixoanaliz nəzəriyyəsinin əsasları ilə tanışlığın mümkünlüyündən gedir. Hazırda bu imkan Moskva Dövlət Universitetinin «Xrestomatiya və istorii psixoloqii» kitabının nəşri nəticəsində mümkün olmuşdur. Bu kitabda psixoanalizdən beş mühazirə verilmişdir. Bir mühazirə də ayrıca «Ya i Ono» mövzusuna həsr olunmuşdur. Bundan başqa SSRİ Elmlər Akademiyası tərəfindən Z.Freydin əsərlərindən ibarət «Psixologiyaya giriş» kitabı nəşr olunmuşdur. (M, 1989).

Ədəbiyyatda Z.Freydin nə onun tələbələrinin etnoqrafiya elminə verdikləri böyük töhfələr də qeyd olunur. (Tokarev S.A., «İstoriya zarubejnoy etnoqrafii», Uçebnoe posobiye., M., «Vısşaya şkola», 1978).

Bu dərs vəsaitində qeyd olunur ki, «...insan psixikasında instinktivin olduğunu qəbul edərkən, freydistlər, şəhvətə həvəsin və emosiyanın böyük əhəmiyyətini düzgün qeyd edirlər».

Eyni iamanda, müxtəlif vəzəyyətlərlə, o cümlədən atasının qatilidən intiqam almaq istəməyən və bunu bacarmayan (çünki, qatil onun gizli arzusunu) – atasının ölümünü yerinə yetirmişdir. Edid kompleksi Hamletin faciəsinin freydistlər tərəfindən şərholunma cəhdlərilə razılaşmaq çətindir.

Biz əvvəlki paraqraflarda Hamlet səciyyəsinin İ.S.Turgenevə və İ.V.Höteyə aid şərhlərini vermişdik.

L.S.Vıqotski inandırıcı surətdə göstərmişdir ki, Hamletin ləng tərpənməsinin səbəbi təkcə onun iradəsizliyində və gücsüzlüyündə deyil, eyni zamanda mövçud obyektiv şəraitdədir.

Məsələ ondan ibarətdir ki, niyə Şekspir Hamleti geçikməyə məcbur edir. Şekspirin məqsədi Hamletin xarakterini açmaq yox, süjetin inkişafını izləyən oxucuda (və ya tamaşaçıda) müəyyən emosional təəssürat yaratmaqdır.

Kibernetika baxımından beyinə bir-birindən asılı olmayaraq işləyən, ierarxiyasayağı təşkil olunmuş altsistemlər kompleksi kimi baxmaq olar. Belə hesab etmək olar ki, yalnız bu ierarxiyanın yüksək mərhələlərində yerləşən beynin altsistemlərinin fəaliyyəti dərk olunur.

İnstinkt fenomeni təcrübə yolu ilə psixoloji tədqiqata tabe olur.

A.Lyapunov yazır: «Freydin dövründə müasir informasiya nəzəriyyəsi işlənib hazırlanmamışdı və məlumatı şərh edən dəqiq «dil» yox idi. Bununla əlaqədar olaraq Freyd öz nöqteyi-nəzərini onun dəqiq başa düşülməsini çətinləşdirən bir dildə şərh etmişdir. Bu isə həmin əsərlərə qarşı mənfi münasibətin, rəylərin və hətta dedi-qoduların yaranmasına səbəb olmuşdur. Eyni zamanda aydın olur ki, nə üçün Freyd yuxuya, həm də sayıqlamağa yaxın vəziyyətə xüsusi diqqət yetirir.

Bu elə həmin vəziyyətdir ki, insanın davranışına və xarici aləmdə baş verən hadisələri dərk etməsinə şüurun təsiri, bir növ dumanlaşır. Beləliklə, bizə elə gəlir ki, psixoanalizin əsas ideyası kibernetika baxımından izah oluna bilər».

Bütün bunlarla əlaqədar olaraq, aşağıdakılar xeyli maraq doğurur. Kibernetikanın və məlumat nəzəriyyəsinin anlayışlarından və terminlərindən istifadə edərək, İ.İ.Şmalhauzen üç səviyyədə – fərdi, populyasiya edilmiş və biogosenotik[1] – baş verən bütün təkamül proseslərini bir bütöv halında birləşdirmişdir.

İ.İ.Şmalhauzenin kibernetik təkamül modeli tam «kibernetik tsikl» halqalarının, mütəşəkkilliyin müxtəlif səviyyələrində tənzim olunmalı proseslərlə nə cür uzlaşmasını izləməyə imkan verir.

[1] Biogeosenologiya bio+geo+yun. koinos+logiya) – enerji və maddələr mübadiləsi əsasında canlı orqanizmlərin cansız orqanizmlərlə birləşməsi nəticəsində alınmış mürəkkəb təbii sistemlər – biogeosenozlar haqqında elmdir.



Məlumdur ki, uyğunlaşma baxımından, nəsli dəyişməni proqnozlaşdırmaq üçün əvvəlcədən, informasiyanın olması mütləq lazımdır. Bəşəriyyət cəmiyyət haqqında bu cür məlumatları kişilərdən alır. Qadın cinsi, informasiyanın bir hissəsini nəsillərə ötürərək sistemin-inkişafına rəhbərlik edir. Sistemin avanqard rolunu kişilər yerinə yetirir. Qadın çinsi nümayəndələri mühitin dəyişməsinə çox yaxşı uyğunlaşırlar ki, bu da növün yaşamasında həlledici şərtdir.

«Əsrlər boyu hind qadını şüurlu və ya qeyri-şüurlu surətdə hind mədəniyyətinin və ənənələrinin saxlanmasına, uyğunlaşmasına və inkişafına kömək etmişdir» (İndira Qandi).

Freydə görə nevroz xəstəliyi instinktlə intellekt arasındakı münaqişə nəticəsində yaranır. İnsan psixikası bir-birinə əks olan şüuri və qeyri-şüuri kimi qütblərə bölünür və bunlar şəxsiyyətin ən vacib xarakteristikası kimi fəaliyyət göstərir. Ancaq Freydin şəxsiyyət strukturunda bu iki qütb eyni məna daşımır: qeyri-şüuri qütb insan psixikasının əsas və mərkəzi komponentidir, şüuri qütb isə xüsusi bir məqamdır ki, bu, qeyri-şüuri komponentin məzmunundan ayrılıb köklənərək fəaliyyət göstərir.

Freyd qeyd edir ki, öz mənşəyinə görə, şüuri komponent, qeyri-şüuri komponentə borcludur və o, psixikanın inkişafı prosesində büllurlaşır.

İnsan fəaliyyətinin əsasını baş beyin qabığının dərinliklərində gedən «mübarizə» təşkil edir. Lakin bu mübarizədə ağıl həmişə qalib gəlmir. Bir latın kəlamında deyilir: «Yaxşını təqdir, pisi təqib edirəm». Volter isə deyirdi: səhər tezdən yaxşı planlar tutur, gündüzlərsə sarsaq işlər görürəm.

Yuxu və yuxugörmə psixoanaliz baxımından çox şey haqqında məlumat verir. Yuxugörmə prosesi olduqca ardıçıl bir prosesdir. Freyd, hadisələrin inkişafına və yuxugörməyə bunların öz məzmunlarının dəqiq mənası ilə əsaslandırılması kimi baxırdı. Yuxugörməni əmələ gətirən amillər, bu psixobioloji prosesin mahiyyətini izah etməkdə aciz olan xarici və daxili səbəblərdir. Yuxugörmənin mövzusu, kompozisiya xüsusiyyətləri və onun emosional məzmunu və rəngləri, şəxsiyyətin xarakteri və eyni zamanda insanın bu və ya

digər daxili və psixoloji həyəcanlarından asılı olaraq qabaqcadan müəyyən olunur. Psixoloqlar üçün ən vacib element yuxunun rəngidir. Bir qayda olaraq, aydın və mənalı yuxular təfəkkürün ifadəliliyinə, bədii düşüncə meylinə, dünyaya nikbin baxışa dəlalət edir. Ağıllı adamlar qara - ağ yuxular görürlər. Əgər yuxugörmədə qırmızı rənglərlə yaşıl rəng fonu sabitdirsə, bu xarakterin emosionallığından xəbər verir. Yumşaq, yaşıl və mavi rənglər fonunda yuxugörmə hər şeydən əvvəl ruhən dəyanətliliyə, psixoloji sakitliyə uyğun gəlir.Əgər yuxuda adamın görməyə adət etdiyi rənglər birdən-birə dəyişirsə, bu, adamda hər hansı psixoloji təbəddülatın yarandığından xəbər verir. Məsələn, yuxuda qırmızı və qara rənglərin çoxalması daxili həyəcanlarla əlaqədardır. Əvvəllər bir qayda olaraq qara-ağ yuxu görənlərin birdən-birə rəngli yuxular görməyə başlaması adamın ruhi sarsıntılar keçirməyə başlamasının başlanğıcıdır.

Yuxugörmənin kompozisiyası və məzmunu psixoloqlar üçün mühüm məlumat mənbəyidir. Məsələn, yuxuda uçmaq, yıxılmaq çox vaxt insanın arzu və istəklərinin puç olması kimi səciyyələndirilir. Yuxuda çoxlu adam görmək, əksər halda tənhalığın doğurduğu hiss və həyəcandan xəbər verir. Səmimi birlik və adamlar arasında üzvi vəhdət kiçik kollektivlərdə olduqca vacibdir. Adi hallarda buna, arabir çoxlu konfliktləri dəf etməklə, bəzən də ürəkağrıdıcı səhvləri düzəltməklə nail olunur. Kosmik uçuşda bu yolverilməz vəziyyətdir. Yuxugörmənin öyrənilməsi insanın xarakterini anlamağa, bir fərd kimi kosmik uçuşların mürəkkəb məsələlərini yerinə yetirməyə layiq olduğunu müəyyən etməyə, həm də onun bu və ya digər sahələrdə müvəffəqiyyətlə yaradıçılıq işi aparmağına kömək edir. Yaradıcılıq mexanizmi ilə yuxugörmə mexanizmi arasında görünur ki, müəyyən oxşar əlamətlər mövçuddur. Bu oxşarlığın əhəmiyyətini həddən artıq şişirtmək olmaz. Professor V.Kasatkinin yuxugörmədən, xəstəliklərin diaqnozunda istifadə edilməsi fikri olduqca maraqlıdır. Xəstəlik ilk mərhələdə özünü zəif büruzə verir, onun əlamətləri hiss olunmur və məlumatlar bolluğu içində bunu axtarıb tapmaq olmur.Yuxuda isə bu əlamətlər özünü daha dəqiq göstərir. Məsələn, boğaz xərçəngi xəstəliyinə tutulmuş şəxs hələ xəstəliyini biləndən il yarım qabaq yuxuda metal qırıntıları udurmuş. V.Kasatkin yuxugörmənin köməyi ilə diaqnoz qoyulmuş 300 xəstəliyin kataloqunu tərtib etmişdir. Müəllif qeyd edir ki, «yaşlı adamların gördükəri yuxularda onların əmək fəaliyyətləri ilə bağlı elementlərin iştirakı, ümumi yuxugörmənin – 62,5 faizini, sağlamlıqla əlaqədar elementlərin iştirakı – 44,3 faizini, ailə həyatı ilə əlaqədar hadisələr – 38,6 faizini təşkil edir».

Bu və başqa nəticələr, müəllifə Freydin yuxugörmə nəzəriyyəsinə şərikolma imkanı vermişdir.

Məlumdur ki. rəngli yuxular faydalı mülahizələr söyləməyə imkan verir. Hər dörd nəfərdən bir adamın gördüyü rəngli yuxularda şeir yazılır, hər hansı çətinlikdən çıxış yolu tapılır və s.

Maraqlıdır ki, D.İ.Mendeleyev öz məşhur dövri sistem cədvəlini yuxuda görubmüş. V.V.Mayakovski deyirdi ki, gündüz tapa bilmədiyim qafiyələri yuxuda çox asanlıqla tapıram.

Leymonun dediyinə görə ABŞ-ın on altıncı prezidenti Avraam Linkoln (1809 – 1865) hesab edirmiş ki, hər yuxugörmənin öz mənası var, bunu dərk etmək üçün kifayət qədər ağıllı olmaq lazımdır.

P.İ.Çaykovskinin Birinci fortepiano konsertinin mövzusu yuxugörmənin hədiyyəsidir. Rafael, məşhur madonnasının surətini şirin röyada görmüşdür. Yuxuda edilmiş böyük kəşflərə, yazılmış əsərlərə aid çoxlu misallar gətirmək olar. Yuxugörmənin yozma yollarından biri – məlumat fərziyyəsidir və bu fərziyyəyə görə uzunmüddətli yaddaş hüdudsuzdur, qısamüddətli yaddaşınsa həcmi kiçik olur.

Gün ərzində beyin o qədər müxtəlif məlumatlar qəbul edir ki, həddən artıq toplanan həmin məlumatların kodlaşdırılması və təsnifatlaşdırılması zərurəti yaranır. Bu proses, adam yatanda, yəni beyin xarici aləmdən bir növ əlaqəsini kəsəndə də baş verir. Bir gecədə adam 4 – 6 yuxu görür və bunların bəzilərinin növbəti gündə baş verə biləcəyini güman etmək olar.

Tədqiqatlar nəticəsində bu qərara gəlmişlər ki, hər hansı şəraitdə çıxış yolu tapmağı bacaran adamlar yuxudan tez dura bilirlər, hər cür kiçik xarici təsirə həssas olanlar isə çox yatır, «dünya

qəmini yuxuda unutmaq istəyirlər», Dünya ədəbiyyatında bənzəri olmayan hikmət, sevgi və səmimiyyət dolu Azərbaycan bayatılarından birinə fikir verin:

*Əsnədir...*
Qayğı adam əsnədir.
Gec yatıb, tez oyanmaq,
Dövlət deyil, bəs nədir?

Ayı, dərin qış yuxusuna getməklə özünü həddən artıq yorulmaqdan müdafiə edir. Özünümüdafiə instinkti həmişə qalır – insan və ya heyvan hiss edəndə ki, donub qalmaqla təhlükəni sovuşdurmaq olmur, dərhal özünə gəlir. Məsələn, zəlzələdən bir xeyli qabaq ayı yuxudan oyanıb daha təhlükəsiz yerə gedir.

Psixodioqnostikada başqa testlər də mövcuddur. Məsələn, heç bir mənəvi qüvvə tələb etməyən, əzabverici hisslərə bais olmayan – Vesklerin zehni sınağı.

**«Ümumi məlumatlılıq» testi** («Qnoseologiya nədir?), «İnsanda hansı damarlar var?», «Yuqoslaviyanın paytaxtı?», «Kapital»ın əsas ideyası?»).

**«Ümumi fərasət» testi** («Teatrda tamaşa zamanı yanqın baş verərsə nə edərsiz, özü də bundan təkçə siz xəbər tutmusunuz?», «Qəflətən yaramaz adamlar arasına duşmüş olsanız, necə hərəkət edərsiniz?», "İnsanlar arasında ünsiyyət baxımından "bir gül açmaqla bahar olmaz" məsəlini necə başa düşürsünüz?».

Lüğət testindən istifadə etdikdə, sizə hər hansı söz deyilir və Siz dərhal o sözün sinonimini tapmalısınız. Bununla əlaqədar olaraq, dzen-buddizm testini də qeyd edək. Bu testdə «şok»un köməyilə özünəməxsus oyanma vəziyyətinə nail olurlar. Müxtəlif şok metodları tətbiq olunur ki, bunların ən başlıcası əqli şokdur. Şagirdə, onun çətin həll edə biləcəyi məsələ verilir. Məsələnin cavabı var və onu yalnız müəllim bilir.

Misal kimi adamın əzmkarlıq dərəcəsini müəyyən etməyə kömək edən testi göstərmək olar («Nedelya», № 13,1983).



Alternativ səviyyədə (hə, yox) aşağıdakı suallara cavab vermək lazımdır:

1. Şəraitə asanlıqlamı uyğunlaşırsınız? (3,0).[1]

2. Axşam heç bir maraqlı veriliş olmayacaqını yəqin etdikdən sonra televizoru yandırırsınızmı? (2,0).

3. Sevdiyiniz bir məşğələ xatirinə hər şeyi təxirə sala bilirsinizmi? (1,0).

4. Əgər Sizə əmək haqqı yüksək olan bir iş təklif etsələr, tərəddüd etmədən razı olarsınızmı? (4,0).

5. Səhvinizi boynunuza tezmi alırsınız? (1,0).

6. Evinizə qəflətən qonaq gəldikdə özünüzü itirirsinizmi? (3,0).

7. Ciddi mübahisədən sonra öz rəyinizi dəyişirsinizmi? (4,0).

8. Hal-hazırda lazım olmayan, lakin vitrində görüb xoşladığınız şeyi dərhal alırsınızmı? (0,3).

9. Öz arzunuzla heç vəchlə etməyəcəyiniz bir işə, uzun müddət dilə tutulandan sonra razılıq verərsinizmi? (0,4).

10. Üzünüzə gələn istirahət günü nə ilə məşğul olacağınızı dəqiq bilirsinizmi? (2,0).

11. Vədinizi həmişə yerinə yetirirsinizmi? (1,0).

Xalların sayına görə adamın əzmkarlıq dərəcəsi belə qiymətləndirilir:

1. Xalların sayı 0-dan 12-yə qədərdir. Adam əzmkar deyil,ona görə də çox vaxt yaxşı şansları əldən buraxır, bu da bəzən təhlükə ilə nəticələnə bilər. Möhkəm olmaq, hətta arabir risk də etmək lazımdır. Elə fikirləşməyin ki, siz ehtiyatlısınız, xeyr, sadəcə olaraq çox vaxt qorxursunuz.

2. Xalların sayı 12-dən 22-yə qədərdir. Bu halda adam qərarı çox ehtiyatla qəbul edir, ançaq həlli təcili olan problemlərdən boyun qaçırmır.

3. Xalların sayı 23-dən 30-a qədər olan halda isə adamın

[1] Burda və bundan sonra birinci rəqəm "hə", ikinci rəqəm isə "yox" cavablarına aiddir.

məntiqi təfəkkürü, sistemli düşüncə tərzi, eyni zamanda həya. təcrübəsi, ona dərhal, özü də əksər halda, düzgün qərar qəbul etməyə imkan verir. Bu cür keyfiyyət çox vaxt ətrafdakıları sıxır. Odur ki, bəzən həddən artıq ciddi olmaq məqsədəuyğun deyil.

Bir povestdə, təcrübəli fırıldaqçı qadının cinayətinin təhqiqatı ilə əlaqədar, belə bir təyinedici sual gətirilir: «İtləri çox sevirsiniz, yoxsa uşaqları?».

Demək olar ki, heç kim itləri uşaqlardan çox sevdiyini boynuna almır və bununla da öz səmimiyyətini şübhə altına alır. Əgər bir adam çörək mağazasında çəngəl vasitəsilə bir-bir çörəkləri sıxaraq onların yumşaqlığını yoxlayırsa, onda hesab edirlər ki həmin adam «xırdaçıdır». Adam liftlə qalxıb-enirsə, bu onun öz fizioloji imkanından ehtiyatla istifadə etməsinə dəlalət edir. Əgər iyirmi yaşlı sağlam bir oğlan yuxarı mərtəbəyə (5-ci və 6-cı mərtəbələrə) qalxmaq üçün lift gözləyirsə, onun həyatda çox şeyə nail olacağına inanmaq çətindir.

Ayaqqabısı ayağını sıxan şəxs, günahı fabrikdə görürsə, o, özündən başqa kimi desən günahlandıracaqdır. Ayaqqabını günahlandıran adam özünə tənqidi yanaşan, öz ayağını günahkar edən isə təvazökar və sakit xasiyyətlidir.

Uşağın aşağıdakı suala cavabı onun obyektiv adam olduğuna işarədir. «Ayaqqabı ayağını sıxırmı?» sualına, qız cavab verir: «Xeyr, sadəcə olaraq mən, ayaq barmaqlarımı yığmışam».

Rozensveyqin proyektiv testinin köməyilə adamın frustrasiya[1] vəziyyətini müəyyən edirlər. Aydınlaşdırmaq üçün qeyri-mümkün, çıxış yolu görünməyən vəziyyət təsəvvür etmək lazımdır. Bu vəziyyət bölünür və müxtəlif həyat şəraitləri (frustratorlar) əlavə olunur. «Dərd gələndə tək gəlmir». Əgər tək deyilsə də, qalanlarını, güman ki, frustrasiya olunmuş, yorğun, əzgin adam qeyri-şüuri olaraq özü-özü üçün təşkil edir.

[1] Frustrasiya – hər hansı manea və ya əks təsir nəticəsində yaranan narazılıq və təmin olunması ləngiyən razılığın əmələ gətirdiyi təfəkkür fəaliyyəti və onun qeyri-mütəşəkkilliyi ilə əlaqədar psixoloji vəziyyət.



Keçmiş həkimlər haqlıdırlar: «Emosional planda adam heç də hər şeyi özünə rəva görmür».

Ayzenk hesab edir ki, əqli qabiliyyət müxtəlif formalarda təzahür edir, buna görə də ümumi «test»də rəqəmli, məkan-görmə və şifahi tapşırıqlar verilir.

Düzdür, coşanda özümüzü gülməli, axmaqcasına aparırıq. Bəlkə də özümüzü belə aparmaq bizi qoruyur? Vəziyyətin dramatizmini, gərginliyini azaldır? Ola bilsin!

Psixoloqlar müəyyən etmişlər ki, limanlarda matrosların özlərini çox hay-küylü aparmalarını mədəniyyətsizlik kimi qəbul etmək olmaz; bu, onların öz psixikalarını normal saxlamaları üçün gərginliklərini zəiflətmək üçün bir vasitədir, təbii yüngülləşmədir.

Psixodiaqnostika lazımdırmı? Bütün bunlarda gözümüzə Jan Rostanın sözlərilə desək – "qapılarını üzümüzə insafsızcasına bağlayan" qəzavü-qədər, fələk, bioloji fatalizm görünür. Özü haqqında əvvəlcədən nəyisə bilmək nəyə lazım? Məgər bu yükə hamı tab gətirə və determinist taleyin əksinə gedə bilər? Əgər özün haqqında heç nə bilməsən, bəlkə örtülməyə üz tutmuş qapı, heç örtülmədi?

Bütün bu suallar psixoloji diaqnostikanın nəticələrini tətbiq etmək məsələləri ilə əlaqədar olaraq ortaya çıxır. Öz-özünü mənən saflaşdırmaq və ya xüsusi hallarda özünü fəda vermək üçün özünütəhlil vacibdir.

Son zamanlar özü-özünə hakim olmaq bacarığını inkişaf etdirməyə – autotreninqə böyük diqqət yetirilir ("Medisinskaya qazeta", 6.04; 1. 06; 27. 07; 7. 09; 23, 11, 1984; 4. 01; 22.02. 1985).

Mənfi emosiyaların həm qarşısını alan, həm də ona üstün gələn autogen məşqinə misal göstərək, yəni arzu olunan psixoloji əhvali-ruhiyyə yaratmağa aid mülahizələrə diqqət yetirək («Medisinskaya qazeta" 22.02.85).

Məşğələ başlayana qədər gözlənilən həyacanlı şəraiti, bu şəraitdə öz vəziyyətini (səhhəti-vücudunu) və davranışını təhlil etmək lazımdır. Daha sonra, nə cür hərəkət etmək məsələsi həll olunur (özünə inam, özünü razı salma) və burada arzuolunmayanı inkar edən heç nə olmamalıdır. Bir neçə misal:

| *Pisdir* | *Daha yaxşıdır* |
| --- | --- |
| Mən bu şəraitdə həyəcanlanmayacağam. | Mən bu şəraitdə sakitəm. |
| Çalışacağam tapşırığı yerinə yetirim. | Tapşırığı yerinə yetirəcəm. |

Məlumdur ki, ədəbiyyatda inkar, çox nadir hallarda oxucuda müsbət təsəvvür yaradır. Şifahi mənfi mülahizə intuitiv səviyyədə istəyin tam əks təsəvvürünü yaradır. İş M.F.Axundovun dediyi səviyyəyə uyğun gəlir. Əgər adama deyilsə ki, meymunu yada salma, ondan meymun onun yadından qətiyyən çıxmayacaqdır.

Əvvəlki məşqlərlə, məsələn, auditoriyada tələbələr qarşısında çıxış edərkən aşağıdakıları özünə təlqin etməlisəni.

1. Mən tamamilə sakitəm;
2. Mən öz çıxışımı yaxşı hazırlayıb qurmuşam;
3. Hər dəfə çıxış etdikçə, çıxışlarım daha da yaxşılaşır;
4. Mən əminəm və s.

Bundan sonra autogen dalğınlığı (fikrə dalmaq) məşqi aparılır və onun fonunda gözlənilən şərait təsəvvür olunur. Gözlənilən şərait uyğun dəqiq vərdişlər yaranana bir neçə gün qalmış aparılır. Hər gün kökləmə məşqləri aparılır.

Sonra məşqləri ancaq bu cür şərait nəzərdə tutulan günlərdə aparmaq lazımdır.

## § 22. GƏLƏCƏYİN ADAMI HAQQINDA

«Tanımadığına can atmaqdansa,
tanıdığın pisliklə barışmaq
daha yaxşıdır».

***Hamletin monoloqu***

Gələcəyin adamı haqqında təsəvvürə malik olmaq üçün «inkarı inkar» qanuna əsaslanaraq İ.M.Zabelinin bəzi mülahizələrinə diqqət yetirək.



İnsana nəinki təkcə müxtəlif şəraitlərə uyğunlaşmaq, həm də onları lazımi istiqamətə yönəltmək imkanı verən bir çox bilik və vərdişlərin əldə edilməsinə qabil olan intellekt, həyati davranışı müəyyən edən həlledici əhəmiyyətə malikdir. Həyati təcrübədə qazanılmış vərdişlərin, irsiyyətlə verilənlər üzərində üstünlüyünü məməli heyvanlara dair misaldan aydın görmək olar: Afrika fillərini uzaqvuran tüfənklərlə qırmağa başlayanda onlar açıq yerlərdən meşələrə köçməyə başladılar: Kanadada bizonlar da bu cür hərəkət etmişdilər».

Dediklərimizdən "inkarı inkar" qanununa uyğun gələn aşağıdakı ardıcıllıq aşkar olur: sadə canlılarda (məsələn, birhüceyrəli amöbdə) qıcıqlanma «hissi» yaranır və dərhal sönür, əsəb sistemi özündə heç nə saxlamır (yadda saxlama prosesi getmir), daha mütəşəkkil inkişaf etmiş heyvanat aləmində (hörümçəklər, həşəratlar, balıqlar və s.) isə ən mürəkkəb vərdiş və fəhm elementləri tədricən əsəb sistemində möhkəmlənir və əvvəlki nəslin təcrübəsi irsən sonrakı nəslə ötürülür (ikinci birincini inkar edir); ali canlılarda – «xüsusən insanlarda – beyin elə inkişafa malikdir ki, bir çox vərdişlərin irsən nəsildən-nəslə ötürülməsinə ehtiyac yoxdur, çünki, bir çox vərdişləri insan bütün ömrü boyu əldə edə bilir və sonradan bu vərdişlər onunla birlikdə məhv olur (üçüncü birincini yüksək səviyyədə təkrar edərək ikincini inkar edir).

Əsrlər boyu, nəsildən-nəslə, itlər insanlar arasında yaşamasına baxmayaraq, elə it olaraq qalmışlar. Pişiklər və başqa ev heyvanları da eyni həyat tərzi keçirmişlər. Məlumdur ki, it səsə çox həssasdır və öz həmcinsinin səsini küləyin vıyıltısından, ildırımın gurultusundan və s. ayırd edir, yəni onun əsəb sistemi həmcinslərinin səsinə qarşı daha ayıq-sayıqdır.

A.B.Baru belə bir nəticəyə gəlmişdir: «İtin eşitmə sistemi və beyni təkamül yolu ilə insanın səsini qavramağa» köklənibdir». Demək, ümid edə bilərik ki, itlər gələcəkdə «danışa» biləcəklər. İtlərin əlahiddə eşitmə qabiliyyəti ilə yanaşı onların nəfəs alıbverməsi də olduqca maraqlıdır. Belə ki, onlar nəfəs alıb-vermənin, yəni tənəffüsün tezliyini dəyişməklə biri-birlərinə öz «vəziyyətləri» haqqında lazımi məlumatlar verə bilirlər.

Bəlkə də, elə bizim qavraya bilmədiyimiz bu duyğu qabiliyyəti itlərə, bəzi hadisələri qabaqcadan hiss etməyə imkan verir, məs: can verən adamın pəncərəsi önündə itin ulaması və s.

İsveçli alim Erik Siman canavar sürüsü ilə maraqlı təcrübə aparmışdır. Müəyyən vaxtdan sonra canavarlar Erik Simanı «özlərininki" kimi qəbul etmişlər, çünki, o ...eynən canavar kimi ulamağı öyrənmişdir. Simanın fikrincə bir sürüdə çanavarın ulaması digər sürülərə həmin yerin artıq ov üçün zəbt olunduğunu xəbər vermək deməkdir.

Bioakustika sahəsində çalışan alimlər belə hesab edirlər ki, balıqlar dörd növ səs siqnallarını ayırd edə bilirlər: 1. Hədə-qorxu; 2. Xəbərdarlıq; 3. Döyüşə çağırış; 4. Təhlükə.

Balinanın çıxardığı səslər gah qaboyun, gah klarnetin, gah da tuluq zurnasının səsini xatırladır.

Belə deyirlər ki, balinalar minlərlə kilometr məsafədən öz aralarında» «danışıq» apara bilirlər.[1]

Amerika zoopsixoloqları heyvanlara lal-kar adamların istifadə etdikləri görmə siqnallarını öyrətməyə nail olmuşlar.

Maraqlı bir misal. Talada açıq havada oynaşan meymun sürüsü, yağış yağan kimi islanmamaq üçün dərhal səs-küy salaraq yaxındakı çardağın altına toplanmışdır. Onların hay-küyünü maqnitofon lentinə yazmışlar. Günəşli günlərin birində maqnitofonu işə salan kimi meymunlar yenə də qaçışaraq çardağın altına doluşmuşlar.

Canavarın, ayının və ya meymunun körpə uşaqları «oğurlayıb» illərlə öz mühitlərində saxladıqları elə bir nadir hadisə deyil. Həmin

[1] Professor Konrad Lorens qeyd edir ki, qazlar yeddi hecalı qağıltı ilə bir-birlərinə aşağıdakıları deyə bilirlər: "Burda yaxşıdır, yemək boldur. Gəlin burda qalaq". Altı hecalı qağıltı ilə: "Çəməndə ot azdır, gəlin burda otlayaq, sonra tələsmədən yolumuza davam edək". Beş hecalı qağıltı ilə: "Addımları çoxaltmaq lazımdır", dörd hecalı ilə: "Cəld yeriyin" – deyirlər. "Təhlükəyə hazır olun" siqnalı üş hecadan ibarətdir. Arılar öz fikirlərini müəyyən rəqslərlə izah edirlər. K.Friş bu rəqsləri özünəməxsus xidməti pantomima (təqlid etmə, yamsılama) adlandırır.



mühitdə böyümüş, lakin sonradan tapılıb insanlar arasına gətirilmiş uşaqlar özlərini tamamilə vəhşi kimi aparmışlar. Onlar bütün insani keyfiyyətlərini, insan nitqini öyrənmək qabiliyyətlərini demək olar ki, tamamilə itirmiş, yalnız çox böyük çətinliklərlə bəzi sözləri tələffüz edə bilmşlər. Bu cür uşaqlar dördayaqlı heyvanlar kimi yeriyir və zorla iki ayaqları üstə dayana bilirlər. Çox maraqlıdır ki, həmin mühitdə böyümuş uşaqların ömürlərinin uzunluğu heyvanlarınkı qədər olur.

F.M.Dostoyevski yazmışdır: «Vəhşi heyvan qəddarlıqda heç vaxt insan kimi məharətli ola bilməz».

Yeri gəlmişkən, deməliyəm ki, heyvanat aləmində heç bir vəhşi heyvan öz həmcinsini məhv etmir, yemir. Məsələn, canavar iti, pələng maralı parçalayır, lakin canavar canavarı, pələng-pələngi, tülkü-tülkunü öldürmür (canavarlar öz həmçinsini yalnız o vaxt parçalayırlar ki, həmin qəddar yırtıçı yaralıdır; şikəst və ya yaralı çanavarı elə həmin gecə parçalayıb, tikə-tikə edirlər, çünki, zəif və yaralı vəhşi artıq yükdür və sürünün yaşamasına təhlükə törədir).

Eynicinsli heyvanlar öz aralarında döyüşəndə maralın kənara çəkilməsi, canavarın quyruğunu sallaması, meymunun üzünü geriyə çevirməsi kifayətdir ki, döyüş kəsilsin. Bir-birini təqib etmək, fürsət düşən kimi öldürmək canlılar alamində insana xas olan keyfiyyətdir, özü də illərlə təqib edir, müxtəlif üsullarla – fiziki olaraq öldürür, mənəvi çəhətdən alçaldır və tədricən məhv edir. Təəssüf ki, hərdən nifrət hissi başqasının səadətinə, yaşamağına rəğbət hissindən daha güçlü olur. Təbii ki, insan üçün bu cür keyfiyyətlər onun bədbəxtliyidir.

Platon belə hesab edirdi ki, insanın xeyirxah və əxlaqlı olması üçün, o, «yaramaz əməllərə həvəsini» başlanğıcdan cilovlamalıdır, yəni o, öz daxilindəki «şir»in vəhşi harayının qarşısını almalıdır, onunla öz hökmdarı kimi yox, qulu kimi rəftar etməlidir. Nətiçədə insan təbiətinin vəhşiyə oxşar tərəfi insana oxşar tərəfinə tabe olaçaqdır.

İtaliyada İntibah dövrünün mütəfəkkirlərindən Pikodella Mirandola insana bu sözlərlə müraciət etmişdir: «Sən alçaq və ağıl-

sız məxluqa da, öz qəlbinin hökmü ilə isə ən ilahi bir varlığa da çevrilə bilərsən».

Qeyd etdiyimiz kimi, bütün heyvanlar, bir-birinin halına yanmaq, dərdinə şərik olmaq hissinə malikdirlər (S.V.Meyen prinsipi). Siçanların bir-birlərinin «halına açımaları»nı yoxlamaq üçün xüsusi təçrübə aparmışlar. Belə ki, siçan qida əldə etmək üçün balaca lingin üstünə çıxmalı, bu ling isə başqa siçanların üstünə düşməlidir, deməli, bir siçan yem əldə etsin deyə o birinə fiziki əziyyət verməlidir. Təcrübənin təhlilinə əsasən siçanlar üç qrupa bölünmüşlər.

**Birincilər** (əksəriyyət) qidadan dərhal imtina etmişlər. Görünur başqalarının əziyyəti hesabına əldə edilən qida onlara lazım deyil. **İkincilər** də bu cür hərəkət edir, lakin rollarını, necə deyərlər dəyişirlər, belə ki, əziyyət çəkən, yemi əldə edəni əvəz edir. Nəhayət, **üçüncülər** (sayca ən az olanlar), hətta rolları dəyişəndən sonra belə yeməkdən əl çəkməyiblər. Bu, normadan ciddi surətdə kənara çıxma hesab olunub. Hətta siçanlarda da bu, normal hal deyil.

Heyvanlar təkcə yeyib-içmək, doğub-törəməklə kifayətlənmirlər. Onlar əhata olunduqları dünyada böyük fəallıqla yenilik axtarır və bunun üçün hər çür riskə hazırdırlar.

Hazırda insanın daxili aləminə qulaq asmaq, diqqət yetirmək və görmək üçün müxtəlif cür cihazlar vardır. Təəssüflər olsun ki, insanın kədərinə şərikliyi göstərən elə bir cihaz yoxdur.

İnsanların həyatı, ümumiyyətlə, onların maraq və mərhəmət hissləri ilə bağlıdır. Mərhəmətsiz maraq insanlıqdan kənar hesab edildiyi kimi, maraqsız mərhəmət də faydasızdır.

Adətən adamlar alternativ (ikisindən biri) qərar qəbul edirlər. Bununla bərabər hər hansı məsələyə dair qərarı mənfi qəbul etmək istədikdə belə, onun azacıq da olsa müsbət tərəfini də nəzərə almaq lazımdır. Aydın olsun deyə belə bir misal gətirək: S.Sveyq qeyd edir ki, orta əsrlərdə qəddarlığın və zorakılığın adi hal olmasına baxmayaraq, özünün insanlığa yad hisslərini etiraf etmək adəti də mövcud idi.



Edamın vəhşi xarakterinə baxmayaraq, icrada insani hisslər də təbərrüx edirdi. Belə ki, cəllad edam mərasimində qətl olunana yaxınlaşıb, canlı məxluqa qarşı edəcəyi cinayət üçün üzr istəyirdi.

Bu etiketə bizim dövrümüzdə hər yerdə, əlbəttə, qətldə yox, adi münasibətlərdə, kollektivdə, evdə əməl olunsaydı, yəqin ki, bir çox xəstəliklər baş verməzdi.

İki şəxsin öz aralarında bir-birilə müraciətlərində «Siz» və ya da «sən» deməleri çox vaxt, necə deyərlər, öz «simmetrikliyini» itirir. Belə ki, biri o birinə «Siz" – deyə müraciət edir, o biri isə «sən» – deyə.

Bizdə elə rəis, müdir və ümumiyyətlə rəhbərlərə rast gəlirik ki, onların tabeliklərindəkilərə «sən», tabeliklərindəkilərin isə onlara mütləq «Siz» deyə müraciət etmələri guya, pis deyil, əksinə, yaxşı rəftardır. Belə hesab edirlər ki, əks halda tabeçilik pozular.

Bəzən bədii əsərlərdə də müraciətdə simmetrikliyin pozulması hallarına rast gəlmək olur. Məsələn, Y.Germanın romanı əsasında çəkilmiş «Mənim əziz adamım» filminin sonunda əməkdar həkim rəhbər işçiyə «Siz», rəhbər işçi isə həkimə «sən» deyə müraciət edir.

C.Verdinin «Otello» operasında fikrin tərcüməsi mümkün olmayan bir epizodda Dezdemonanı təhqir edən Otello, Yaqonun nəzərində sadə xalq içindən çıxmış kobud bir adama çevrilir. Bu zaman Yaqo birinci dəfə ona saymazyana «sən» deyə müraciət edir.

Şair yazır:

«Hamıya məlumdur ki, o,
İki səslə danışır-təmiz, mükəmməl.
Zəng «yuxarı»dan olanda, eşit, fikir ver;
Birinci səs – mülayim, ahəstə, gözəl,
Nəzakətli, şux, oynaq, təmiz, təzə-tər.
Elə ki, «aşağı»dan vururlar zəngi,
Dəyişir danışığın tamam ahəngi.
Qarışır üz-gözünün bütün cizgisi –
İndi dinləyirik ikinci səsi:
Kobud, kəskin şəkildə qışqırır – «sən», «sən»...
Bayaqkı adam deyil, kişi, deyəsən.*

**(A.Plavnik)**

S.N.Sergeyev-Senskinin «Tufana doğru» povestindən bir parçaya fikir verin: «Sizinləyəm, Maksim Nikolayeviç» – deyə arvadı onu, necə ki, o, arvadına – «Olqa Mixaylovna» – deyə müraciət etdiyi kimi çağırdı. Kənardan eşidənə elə gələrdi ki, bu ailədə səmimiyyət yoxdur. Əksinə, bu ailədə munis bir yaxınlıq, doğmalıq, qarşılıqlı hörmət, nəcib bir məhəbbət vardı».

D.P.Makovitski «Yasnaya Polyana qeydləri»idə yazır («Novıy mir», № 6, 1978): «...Məlum oldu ki, L.N. (L.N.Tolstoy) öz yaşıdı və köhnə dostu N.S.Kaşkinlə «sən» deyə danışırmış, sən demə, sağ qalanlardan yeganə adamdır ki, L.N. onunla «sən» munasibətində imiş».

Kinorejissor Q.V.Aleksandrov və kino aktrisası L.P.Orlova 40 il birgə ömür sürmüşlər və həmişə də bir-birinə «Siz» deyə müraciət etmişlər.

Yadda saxlamaq lazımdır ki, bir çox hallarda «sən» deyə müraciət zəruridir. Deyilənləri təsdiq üçün A.S.Puşkinin «Sən və Siz» şeirinə diqqət yetirin:

Mənasız «**Siz**»lə yox, səmimi «**sən**»lə,
Danışdı qız, çaşıb sevgilisiynən.
Arzular sinəmdə kükrədi, coşdu,
Bahar qönçəsi tək gül açdı, eynən.
Durmuşam önündə bu qüdsiyyətin,
Baxa bilməməyə yoxdur qüdrətim.
Deyirəm, necə də ilahəsən **sən**, -
Mən səni sevirəm, de, hiss edirsən?..*

Bizim psixikamızın təkamül yolunu təsəvvür etmək üçün inkarı inkar qanununu tətbiq etməklə yuxarıda göstərilləndən bir pillə də yuxarı – dördüncü pilləyə qalxmaq lazımdır. O, üçüncü pilləni inkar etməlidir və daha yüksək səviyyədə ikincini təkrar etməlidir. Deməli, psixikanın təkamülü gələcək nəsillərə ötürülmək şərtilə bəşəri hissləri daha da möhkəmləndirmək yolu ilə getməlidir. Bu, o deməkdir ki, müəyyən dövr keçəndən sonra insan oğlu hansı şəraitdə tərbiyə olunmasından asılı olmayaraq bütün insani keyfiyyətləri saxlamalı, vəhşiyə çevrilməməli, heç bir kömək olmadan ilkin bəşəri məlumatları mənimsəməli, ən başlıcası isə nitq mədəniyyətini, ayaq üstə yerimək qabiliyyətini itirməməlidir. Bu mənada qarşıda insanın öz bioloji əcdadı səviyyəsinə yaxınlaşması durur. Ancaq insanda ən sadə qabiliyyətlərin möhkəmlənməsi daha əhəmiyyətli dərin və mürəkkəb proseslərin başlanğıcı olacaqdır.



«Gələcəyin adamı» problemi onunla əlaqədardır ki, stres müəyyən dərəcədə təkamül prosesini sürətləndirə bilər (P.M.Borodin).

Amerika futuroloqu Olvin Toffler «Gələcəklə toqquşma» kitabında insanın gələçəkdə hansı problemlərlə qarşılaşacağı haqqında aydın təsəvvür yaradır: «Bizi XXI yüzilliklə görüşdən ayıran bir neçə illərdə, milyonlarla adi, psixi cəhətdən normal adamlar gələcəklə kəskin toqquşmaya məruz qalacaqlar. Varlı və texniki cəhətdən inkişaf etmiş ölkələrin minlər və milyonlarla sakinləri görəcəklər ki, əsrimiz üçün səciyyəvi olan arasıkəsilməz yeniliklər və dəyişmələr onların qarşısında elə tələblər qoymuşdur ki, onlar üçün zamanla ayaqlaşmaq böyük əzab və əziyyətlərə gətirib çıxara bilər.

Onlar gələcəyi həddindən tez qarşılayacaqlar... Bunlardan əlavə, sənaye sahələri və ya ölkələr öz inkişafının elə mərhələlərinə çatacaqlar ki, bütün bunlar bizim şəxsi həyatımıza baş vuraraq, onun ən dərin qatlarına nüfuz edəcək; bizi yeni təhlükəli psixi xəstəliyin əlində oyuncağa çevirərək yeni rollar oynamağa məcbur edəcək və insanın ruhi müvazinətini ciddi surətdə pozacaqdır. Bu yeni xəstəliyi «gələcəklə toqquşma şoku» adlandırmaq olar. Gələcəklə toqquşmadan yaranan şok – vaxtından qabaq gələn gələcəyin meydana gətirdiyi çaş-başlığın, istiqamət çaşğınlığının yaratdığı sarsıntılı vəziyyətdir. Tamamilə mümkündür ki, bu şok gələcəyin ən dəhşətli xəstəliyinə çevrilə bilsin».

Bu deyilənlərlə razılaşmamaq olmaz. Onu da qeyd edək ki, burjua ideoloji fikrinin qabaqcıl nümayəndələrindən biri olan O.Toffler bəşər sivilizasiyasının efemerliyi (ötəriliyi, qeyri-sabitliyi) nəticəsində pessimist baxışa səmtlənir.

Demək lazımdır ki, müasir filosoflar gələçəyin bu dumanlı mənzərəsini aydınlaşdırmağa, onun, bir nöz işıqlı çəhətlərini tapmaqa çalışırlar

Homo Sapiens növü 500 min ildən sonra necə olacaq? Axırıncı min ildə insanın bioloji quruluşunda nəzərə çarpaçaq dəyişiklik baş verməmişdir.

Boninin məlumatına əsasən, insan beyninin həcmi nəinki böyüməmiş, hətta bir qədər kiçilmişdir. Hesab. edirlər ki, müasir insan beyninin təkamül prossi əsəb hüceyrələrinin kəmiyyət artımı istiqaməti üzrə yox, sinir sistemi elementləri arasında əlaqələrin mürəkkəbləşməsi yolu ilə gedir.

Qeyd olunanlar, insanın zehni qabiliyyətinin inkişafına və onun ən müxtəlif şəraitlərə uyğunlaşmasına təminat verir.

2-ci Moskva tibb institutunun bir qrup tədqiqatçısının aldıqı nəticələr göstərmişdir ki, orqanizmdəki xoşagəlməzliklərin səbəbi ətraf mühitin dəyişməsi deyil, canlıların həmin dəyişməyə reaksiyasıdır və bu qoruyucu reaksiya qənaətbəxş olmadıqda orqanizm məhv olur.

Təəssüf ki, çox vaxt «tanış olmayan» və «təhlükəlidir» anlayışlarını biz sinonim kimi qəbul edirik. Bu və buna bənzər sosial şərait anlayışları, əlbəttə, birinci növbədə əsrimizin bizə «bəxş» etdiyi böyük inkişafdan yaranır. Belə ki, özümüz də hiss etmədən elə mərhələyə çatdıq ki, artıq insan beyninin ümumi fəallığı və bundan «elmi-texniki inqilab deyilən "partlayış» baş verdi.

Gələcəkdə elmi – texniki inqilab insanlar arasında daha sıx əlaqə yaradacaq və əlaqələri mürəkkəbləşdirəcəkdir. Texnika, adamların həyatına və fəaliyətinə böyük dəyişikliklər əlavə edəcəkdir. Bunları sadalamaqla qurtarmaq mümkün deyil. Texnikanın intensiv inkişafı, avtomatlaşdırma, kompüterləşdirmə insan əməyini təsəvvürə gəlməz dərəcədə yüngülləşdirmişdir və yüngülləşdirəçəkdir. Lakin unutmamalı ki, insan, idarəetmə sisteminin ən fəal iştirakçısıdır: o, qərar qəbul edir və istehsalat sisteminin bütün işinə cavabdehdir. Bu isə hər hansı detalı və ya konkret məhsulu bilavasitə istehsal etməkdən daha məsuliyyətlidir. Çünki, istehsalın təşkilatçısı və iştirakçısının öhdəsinə hər hansı sexin və ya müəsisənin işinə rəhbərlik etmək kimi məsuliyyətli vəzifə düşür. Etibarlı, səlis və geniş imkanlı avtomatika qarşıya qoyulmuş işi inamla icra



etməyə çox kömək edir. Ancaq, insanın psixikası çox incə və mürəkkəbdir və necə deyərlər, optimist dalğalara heç də həmişə avtomatik olaraq köklənmir. Bilavasitə istehsalatda iştirak edən (operator, texnoloq) şəxsin diqqəti həmişə gərgindir, fikirləşir ki, istehsalatın bu və ya digər sahəsində hər hansı qarmaqarışıqlıq baş versə də o, cihazların göstəricilərini izləməyə məlumatları tutuşdurub müqayisə etməyə məcburdur. Bütün bu gərginliklər müəyyən şəraitlərdə orqanizmi stres vəziyyətinə gətirə bilər.

Hamıya məlumdur ki, həyatın tempi və ritmi işdən sonra da adama yorğunluğunu alıb dincəlməyə, gərginlik yükünü atmağa imkan verir. Odur ki, mətbuatın qeyd etdiyi kimi, təbiətən əməksevər və məqsədə çatmağa can atan yaponlar stresə çox ciddi fikir verirlər, çünki onlar stresi effektli və məhsuldar işin qəddar düşməni hesab edirlər.

Stres yükünü atmaq üçün, yaponlar qəribə bir üsuldan istifadə edirlər; fəhləyə imkan verirlər ki, o, ürəyini boşaltmaq üçün müəssisə sahibinə oxşayan müqəvvanı nə qədər istəyir döyüb əzişdirsin.

Qeyd etmək lazımdır ki, bəşəriyyətin inkişafı streslə daha çox əlaqədardır.

Tropik meşələrin yuxarı yaruslarında yaşamış indiki afrikalıların əcdadlarının demək olar ki, düşmənləri olmamışdır. Meşələr məhv olduqca öz yerlərini savannalara (ispan dilində – tropik sahələrdəki geniş düzənər) verdi və adalar müxtəlif təhlükələrə məruz qaldılar. Onu da qeyd edək ki, bu təhlükələrə ğarşı onlarda spesifik adaptasiya yox idi.

Bəşəriyyət bu işdə qeyri-spesifik uyğunlaşma – intellekt yaratma yolu ilə getdi və bu da ancaq stresin təsirini surətləndirdi.

K.E.Siolkovski deyirdi ki, biz meymuna nə qədər oxşayırıqsa, gələçək insanlar da bizə o qədər oxşayacaq.

Amerika biokimyaçıları müəyyən etmişlər ki, insan və şimpanze genotiplərindəki genlərin (nəsil daşıyıcıları) sayının 0,9-u ümumidir və yaxud xassəcə olduqca yaxındırlar. İnsanabənzər meymunların başqa növü olan "hibbon"larda genlərin 71 faizi insan

genləri ilə eynidir. Onu da qeyd edək ki, sıfır qan qrupu insanda, bir də yalnız şimpanzedə tapılmışdır.

Sarih iki növ arasındakı fərq göstəricisi – qeyri-oxşarlıq indeksi (Qİ) anlayışı təklif etmişdir.

Eyni növdən olan iki fərd üçün, məsələn, insan üçün Qİ=1. Bu, hər iki fərddə zülali maddələrin eyniliyinə uyğun gəlir. İnsan və inək üçün Qİ=20, insan və makaka rezus (itə bənzər balaca meymun) üçün Qİ = 238, insan və şinpanze üçün isə Qİ=1,17.

Son vaxtlar H.Gerşuni müəyyən etmişdir ki, meymunların çıxardığı səslərin emosionallığını – qorxu, sayıqlıq, arxayınçılıq səslərini insanlar adekvat (oxşar, uyğun) olaraq qəbul edirlər.

Bu deyilənlər – emosiyaları ifadə etmək üçün istifadə olunan səslərin insanda və ali heyvanlarda eyni olduğunu ilk dəfə söyləyən Darvinin haqlı olduğunu göstərir.

Yəqin ki, Siolkovskinin yuxarıdakı fikri insanın əcdadından irsən əxz elədiyi anatomik və fizioloji xüsusiyyətlərə aid deyildir. Bu haqda sonrakı paraqrafda danışılacaq.

## § 23. ALMA BUDAĞINDAN...

> Yüksək mövqelər böyük adamları
> daha böyük, alçaq adamları isə
> daha alçaq edir.
>
> *J.Labryuyer.*

Alman mədəniyyəti və elminin böyük nümayəndələri olan şair Şilleri, filosoflardan Şellinq və Hegeli, fizik Mark Plankı bir-birlərilə qohumluq telləri bağlayır. Bu yaxın vaxtlarda məlum olmuşdur ki, Henrix Heyne ilə Karl Marks bir ulu babanın nəvələridirlər.

Məlumdur ki, A.S.Puşkinin və L.N.Tolstoyun ulu nənələri doğmaca bacı imişlər.

Məşhur bioloq M.K Koltsov müəyyən etmişdir ki, rus musiqisinin, ədəbiyyatının və elminin bir çox nümayəndələrinin birlərilə qohumluq əlaqələri var. Aşağıdakı böyük xadimlər tarixi bir nəslin ulu babaları, dayıları sayılırlar: Turgenevlər – İvan, Nikolay, Aleksandr Venevitinov, Stankeviç; Odoyevskilər – Aleksandr və Vladimir, Çaadayev, Rimski-Korsakov, Karamzin, Qlinka, Gertsen, Oqaryov və s.

Doğrudanmı genlər bu qədər sabitdirlər? Doğrudanmı qədim el məsəli – «alma budağından gen düşməz» belə təkzibedilməz bir həqiqətdir?

İnsan xarakterinin formalaşmasında, əqli keyfiyyətlərinin oxşarlığında irsiyyətin rolunu danmaq həqiqətə göz yummaq, onu inkar etməkdir.

Dediklərimizdə, müəyyən genetik əlaqələrin irsən nəsildən-nəslə keçməsi mexanizmi, heç şübhəsiz, müəyyən rol oynayır. Ancaq bunu fetişləşdirib, ona pərəstiş etmək heç cür yaramaz. Çünki, əgər belə etsək, onda insan nəsli eybəcərləşə bilər. Axı, irsən nəinki təkcə müsbət keyfiyyətlər, eyni zamanda mənfi keyfiyyətlər də keçir.

Hazırda tibb elminin əldə etdiyi böyük nailiyyətlər nəticəsində, vaxtilə çarəsiz sayılan bir çox xəstəliklər müalicə olunur. Buna əsaslanan Kembric universitetinin professoru F.Kriq heç də nikbin nəticəyə gəlmir. O, qeyd edir ki, tibb elminin inkişafı ilə yanaşı irsi xəstəliklər daşıyan adamların sayı da artacaqdır.

Bir çox tədqiqatlar nəticəsində məlum olmuşdur ki, ayrıca milli qrupların və xalqların etnik, tayfa-qəbilə birlikləri və bu əsasda genetik özünəməxsusluğu onların əsrlər boyu davam edən nəsillərinin fiziki və əqli inkişafına əlverişli təsir göstərməmişdir. Hazırda, əvvəllər təcrid olunmuş etnik qrupların, fasiləsiz olaraq başqa qrup və millətlərlə qarışması prosesi gedir və bu, ümumiyyətlə, bəşəriyyətin sağlamlaşmasına müsbət təsir göstərir.

İnsanda insaniyyətin bərqərar olması prosesi, heç şübhəsiz ki, bəşəriyyətin əldə etdiyi biliklərin nəsildən-nəslə ötürülməsi üsullarının təkmilləşməsilə müşayiət olunacaqdır. Uşaqlara «analıq» və «davakarlıq» vərdişləri irsən keçir və kiçik yaşlarda özünü göstərir. Get-gedə təqlidçiliyə, yamsılamağa meyl edən bəzi «artistlik» vərdişləri də irsən ötürülür və bu əlamətlər heyvanat aləmində də müşahidə olunur. Ancaq, uşaqların hamısı bir nəfər kimi rola asalıqla

girə bilmirlərsə, bu qabiliyyət əksəriyyətində sönür və böyüklər həmin vərdişlərin inkişaf edib möhkəmlənməsinə əhəmiyyət vermirlər və lazımi qayğı göstərmirlər. Əlverişli şərait olduqda isə o vərdişlər get-gedə inkişaf edir. Məsələn, artist ailələrindəki uşaqlar böyüyəndə, adətən, artist olurlar. Eyni vəziyyəti musiqiçi ailələrində də müşahidə etmək olar. Müasir musiqi sənətinin bütün mürəkkəbliyinə baxmayaraq, musiqi səsləri yamsılamaqdan başlanır və bu, heyvanlar aləminda də müşahidə olunur. «Musiqi qabiliyyətli» yüksək inkişaf etmiş nəsillər, ailələr çoxdur.

Məşhur Bax ailəsinin 16-cı nəsli davam edir. Azərbaycanda görkəmli Hacıbəyovlar ailəsinin 100 ildə 3-cu nəsli musiqi sənətimizə öz böyük töhvələrini verməkdədir.

Maraqlıdır ki, vərdişlər yaşça «çavan» olduqda irsi ötürmə prosesi zəifləyir.

Dammon maraqlı nəticəyə gəlmişdir: irsi vərdişlərin ötürülməsinin surəti ikinci nəsildə daha böyükdür, üçüncü nəsildə xeyli zəifləyir və dördüncü nəsildə heç bir əsər-əlamət qalmır.

Qeyd olunan mülahizələrlə razılaşıb-razılaşmamaqdan asılı olmayaraq, bu həqiqətdir ki, əməklə təlimin gündəlik vəhdəti, eyni zamanda ailədə uşağın çoxluğu «cavan» musiqi nəslinin yaşının daha da azalmasına təkanverən amillərdir.

Ş.Auerbaxın mülahizəsi maraqlıdır: yüksək əqli qabiliyyəti olan adamların ailələrində azintellektli adamların ailələrinə nisbətən uşaqların sayı az olur. Deyilənlər onunla izah olunur ki, adətən, ziyalıların gec evlənməsinin səbəbi ailə qurmaq məsələsinə tədricən, diqqətlə və hərtərəfli yanaşmalarındadır.

SSRİ EA Sosioloji Tədqiqatlar institutunda, çoxuşaqlı ailələrdə nəslin sayının azalması haqqında «qanuna» əks olan nəticələr alınmışdır.

Kaluqa vilayətindəki Kirov rayonunun Voleye kəndində yaşayan çoxuşaqlı ailələrdə aparılan tədqiqatlar göstərmişdir ki, burda qeyri-normal psixikaya malik şəxslərin sayı rayon üzrə orta rəqəmdən iki dəfə, alkoqola düçar olanların sayı isə 6 dəfə azdır («Sos.indust.», 4.04.86).



Özbəklər (əlalxüsus şəhərdə yaşayanlar) boşanmanı qətiyyətlə rədd edirlər, onların 84 faizi hesab edir ki, əgər ailədə uşaq varsa, boşanmağa heç bir əsas yoxdur.

Tədqiqatlar göstərir ki, rus, ukrayna, belərus, moldavan, latış, litva və eston ailələrində nikahların «məhsuldarlığı» – uşaq doğumunun sayı, ərlə arvadın təhsil səviyyəsilə tərs mütənasibdir. Qırğız, qazax və başqa xalqların ailələrində doğumun qadının təhsil səviyyəsindən dəqiq asılılığı yoxdur.

Ölkəmizdə isə, məsələn, çoxuşaqlı anaların, müxtəlif təhsil səviyyələrində, uşaqların orta sayında əsaslı fərq yoxdur. Qeyd etmək lazımdır ki, Özbəkistanda diplomlu mütəxəssislərin 51 faizi qadınlar və uyğun olaraq 19 faizi isə kişilərdir.

Doğum faizinə milli ənənələrin, adətlərin və ümumiyytlə, milli həyat tərzinin də təsiri olduqca böyükdür.

SSRİ-də doğum əmsalı 1960 – 1961-ci illərdəki 2,80-dən, 1967 – 1969-çu illərdə 2,37-yə enmışdir.

Xüsusi hesablamalar göstərmişdir ki, həmin əmsalın azalmasının 75 faizi ailələrdəki uşaqsızlığın (uşaq olmaması) nəticəsidir.

Qalton tərəfindən aşkar edilmiş irsiyyətdə əcdada dönüş (oxşayış) hadisəsi diqqətəlayiqdir. Belə ki, ucaboylu valideynlərin uşaqları da bir qayda olaraq hündürboylu olurlar, ancaq onların boyu hər halda valideynlərinin boyundan qısa olur.

«Dönüş effekti»nin, əslində ümumi xarakter daşıdığını qeyd edən L.Kaneman və A.Tverskoy ilə razılaşmaq olmaz. Həmin müəlliflər hesab edirlər ki, bu və ya digər şəxsin rəftarını və ya həyat tərzini həvəsləndirici vasitələrin təsirilə yaxşılaşdırmaq çəhdləri əks nəticələr verir və bundan da ən çox əziyyət çəkən həvəsləndirici adamın özü olur. Eyni zamanda cəza verməklə adamın rəftarını dəyişmək cəhdləri çox vaxt müvəffəqiyyətlə nəticələnir. Daha sonra qeyd edək ki, məşhur valideynlərin uşaqları, adətən, orta qabiliyyətə malik olurlar. Yaxud, deyək ki, nadir hallarda, keçən ilki mövsümdə yaxşı oynamış futbolçu, bu ilki mövsümdə də yaxşı oynayır.

Bəzən adam hər hansı bir işdə müəyyən nailiyyət əldə edəndə, müvəffəqiyyətdən başı gicəllənir və bu onu göstərir ki, o, hadisələrə

ayıq gözlə baxa bilmir. Bu cür hallarda Katonun sözləri yada düşür: «Mən bilirəm ki, bir çox adamlarda ...əlverişli şəraitdə, adətən... dikbaşlıq və lovğalıq hissləri şiddətlənir. Bədbəxtlik bizi itaət etməyə məçbur edir və həyatda nə cür hərəkət etməyi öyrədir. Bax, buna görə mən israr edirəm və məsləhət görürəm ki, böyük sevincin ləzzətindən sonra özümüzə gələnə qədər bu işləri bir neçə günlük kənara qoyaq».

Deyirlər ki, uğur adama katalizator kimi təsir edir: yaxşı adam, lap yaxşı, pis adam isə daha pis olur.

Yəqin ki, adam ömrü boyu uğurla qarşılaşıb, axırda bir müvəffəqiyyətsizliyə düçar olanda, bədbəxtlik onu möhkəm sarsıdır. Kim ki, tez-tez uğursuzluqlara uğrayır, nəticədə o, bu acı həqiqətlə bir növ razılaşır.

Genetiklərin rəyincə valideynlərdən biri ağıldankəmdirsə, uşağın ağıldankəm olma ehtimalı 30 - 35 faizdir. Əqli qabiliyyətin qismən genlərlə müəyyən edildiyinə inansaq, böyük ailələrdə daha aşağı əqli inkişafa malik uşaqların nisbətən çox doğulacağı qənaətinə gəlmək olar. Bu belə davam etsə, nəticədə gələçək böyük ailələrin uşaqları kiçik ailələrin uşaqlarına nisbətən çoxluq təşkil edəcəklər. Deməli, nəsillər inkişaf etdikcə ziyalılıq göstəricisi azalacaqdır.

Bu isə çox acınacaqlı gələcək olardı. Bu fərziyyəni təcrübi olaraq yoxlamışlar və bu qənaətə gəlmişlər ki, ziyalılıq göstəricisi xeyli artır, lakin ailələrin sayının çoxalmasına uyğun olaraq ziyalılığın orta göstəricisi azalır. Bu vəziyyət onunla izah olunur ki, əqli inkişaf irsiyyətin və mühitin qarşılıqlı təsirilə baş verir və mədəniyyət vasitəsilə nəsildən-nəslə ötürülür. Fransada böyümüş çinli uşaq fransızca danışmır, gen etibarilə guya mücərrəd təfəkkür qabiliyyətinə malik olmayan, qəbilə başçısının oğlu ingilis məktəbində oxuyur, Oksfordda müəllimlik edir. Ş.Auerbax maraqlı bir müqayisə aparır: müəyyən genə malik adam, həyatın başlanğıcında, əlində kartlar tutmuş və oyuna başlayan qumarbaza bənzəyir. Bu kartlar elə ola bilər ki, heç bir uğur (uduş) gözləmək imkanı yoxdur, elə də olar ki, müvəffəq olmaq üçün əlavə ciddi-çəhd lazım deyil.



Deməli, müvəffəqiyyətin rəhni öz kartlarından, rəqib kartlarından və bizdən asılı olmayan başqa səbəblərdən asılıdır.

Yeri gəlmişkən qeyd edək ki, mübarizənin nəticəsi yalnız başlanğıc şərtlərlə təyin olunmur. Belə ki, 1815-ci ildə Vaterloo döyüşündə, Vellinqton ordusuna nisbətən xeyli üstünlüyə malik olan Napoleon uduzdu, çünki, döyüş xəttindəki geniş və dərin yarğanın nəzərə alınmaması nətiçəsində (kəşfiyyat yarıtmazlığı) süvarilərin hüçumu dəf edildi.

Formal üstünlük, təsadüf nəticəsində həyata keçmədi, nəticədə marşal Qruşi öz dəstəsilə yolundan sapdırıldı və hətta döyüşün sonuna da gecikdi.

Adam öz genləri və onların müxtəlif şəraitlərdə başvermə xarakteri haqqında çox şey bilməlidir.

SSRİ-də rus dilində çoxcildli «SSRİ-nin etnik genocoğrafiyası» nəşrə hazırlanır.

Ölkəmizin ərazisində gen qruplarının qeyri-müntəzəm paylanması məlumdur, yəni, əhalinin müxtəlif qruplarının xəstəliklərə tutulmaları və ətraf mühitə reaksiyaları da müxtəlifdir.

Genlərin ərazi üzrə paylanmasını göstərən xəritə, ekstremal həyat və əmək şəraitinə dözə biləcək adamların seçilməsinə bilavasitə kömək edər («Medisinskaya qazeta», 27.11.85).

Eyni zamanda bir Vyetnam zərb-məsəlini yadda saxlamaq lazımdır: «hətta, əgər bütün Çıonqşon sıra dağlarının zirvəsi boyunca getməyə hazırlaşırsansa, fərqi yoxdur – yol birinci addımdan başlayır».

İnsanın şəxsiyyət kimi formalaşmasını və onun əqli cəhətdən inkişafını ifadə etmək olarmı? Bu məsələ ilk baxışda göründuyü kimi çox da sadə deyildir. Bir çox xarici firma mütəxəssislərinin fikrincə, artıq yaxın illərdə şəxsiyyətin xarakterinə təsir edən dərmanların kütləvi tətbiqinə başlanacaqdır. Elə onların rəyincə, 2000-ci ilə yaxın irsi çatışmazlıq üzərində kimyəvi nəzarət mümkün olacaq və insanlar genetik kəşfiyyatın molekulyar səviyyədə yaxşılaşmasına nail olacaqlar.

Bu məsələnin müsbət tərəfilə yanaşı mənfi çəhətləri də vardır. Bununla əlaqədar təyyarəçi – kosmonavt K.Feoktistov yazır:

«Təsəvvür etmək qeyri-mümkündür ki, bəşəriyyət öz-özünü kamilləşdirmək həvəsindən düşəcəkdir, əksinə, bu, nəslin korlanması və əsl insanlığın itirilməsi deyilmi?».

Bəzi ingilis tədqiqatçıları hesab edirlər ki, «kolbada» yetişdirilmiş ilk süni uşaq 2000-ci ildə «anadan olacaqdır». Həm də xasiyyətini, marağını, eyni zamanda qızmı, yaxud oğlanmı olacağını əvvəlcədən sifariş etmək mümkün olacaqdır. İngiltərədə gələcək valideynlər arasında, oğlan və ya qız istəmələri haqda sorğu aparılmış və 80 faiz «güclü cinsi» istəmişdir. Budur dərhal neqativ sosial problem ortaya çıxdı: belə olsa planetimizdə həddən artıq kişi bolluğu təhlükəsi meydana çıxır.

Tanınmış Amerika neyrofizioloqu J.Delqado belə bir təcrübə aparmışdır. O, meymunun beyninin müxtəlif hissələrinə elektrodlar qoymuşdur və elektrik ötürücüsü vasitəsiylə həmin sahələrə təsir göstərərək onun əhval-ruhiyyəsini istədiyi kimi idarə etmişdir. Məcbur etmişdir ki, meymun aclıq hiss etsin, süst, coşğun, qəzəbli vəziyyətlərə düşsün. Sonra təcrübə, əsəbi-psixi xəstələr üzərində aparılmışdır. Aydın olmuşdur ki, beynin müəyyən sahələrinə qoyulmuş elektrodlar vasitəsilə əsəbi xəstələrin hərəkətlərinə tamamilə nəzarət etmək mümkündür.

Görkəmli sovet neyrofizioloqu, SSRİ TEA-nın akademiki P.K.Anoxin öz laboratoriyasında yaddaş modeli işləyib hazırlamışdır. O, belə nəticəyə gəlmişdir ki, əldə edilmiş informasiyanı irsən ötürmək mümkündür. Beləliklə, körpə doğulan kimi onun yaddaşına müəyyən bilik «qoyulaçaq» və bu bilik müəyyən yaşda özünü bütün dolğunluğu ilə büruzə verəcəkdir.

Cənubi Afrikalı professor O.S.Heys olduqca maraqlı təcrübələr aparmışdır. Onun metoduna əsasən gələcək analar – hamilə qadınlar bir neçə həftə ərzində hər gün 30 dəqiqə alçaqtəzyiqli xüsusi barokameralarda olmalıdırlar. Bu əməliyyat dölə (embriona) qan axımını sürətləndirir və onun beyninin daha yaxşı inkişaf etməsi üçün əlverişli şərait yaradır. Təcrübənin nəticələri göstərmişdir ki, doğulan uşaqlar öz əqli qabiliyyətlərinə görə müstəsna dərəcədə fərqə malikdirlər. Doqquz aydan sonra adi uşaqlarla «heys metodu» ilə doğulmuş uşaqlar arasında fərq 15:1 nisbətində olmuşdur. Dörd yaşadək aparılmış sonrakı müşahidələr intellektual səviyyənin sabit qaldıqını təsdiq etmişdir. Bu metod başqa ölkələrdə də geniş yayılmışdır. Hazırda dünyada, ana bətnindəki həyatlarının müəyyən dövrünü alçaqtəzyiqli barokameralarda keçirmiş 10 mindən çox uşaq yaşayır.

Hamburqda nəşr olunan «Ştern» jurnalı belə bir maraqlı təcrübə haqında xəbər verir. Bir qəfəsdən iki qutuya bir dar keçid qoyulub. Qutulardan biri şəffaf və qaranlıq, o biri isə şəffaf və işıqlıdır. Qəfəsə salınmış siçanlar qapı açılan kimi mühafizə instinktinə uyğun olaraq tələsik qaçaraq qaranlıq qutuya cummuşlar. Onlar qutuya doluşan kimi qutunun qapısı örtülmüş və qutu işkəncə kamerasına çevrilmişdir. Elektrik cərəyanı ilə siçanlar ağır işkəncəyə məruz qalmışlar.

Bu mənfi hal siçanların yaddaşına həkk olunmuş və nəticədə onlarda sabit refleks yaranmışdır: təcrübəni təkrar etdikçə onları qaranlıq qutuya salmaq mümkün olmamışdır. Sonra isə həmin siçanların haram iliyindən götürüb öyrədilməmiş siçanlara vurmuşlar (bunlar da əvvəlcə, təbii olaraq, qaranlıq qutuya qaçırdılar). İki saat keçdikdən sonra «özgə yaddaşı» (haram ilik yaddaşdaşıyıcı xassəyə malikdir) vurulmuş siçanlar qara yeşiyə gedən keçidin qabağında dəhşətli çaxnaşma salmışlar.

Bu təcrübə insanın beynində toplanmış məlumatların köçürülməsinin, şəxsiyyətin ağlına, qabiliyyətinə və ümumiyyətlə, rəftarına fəal təsirin mümkünlüyünü göstərir. Bu və ya digər insani keyfiyyətlərin genetik cəhətdən möhkəmlənməsi haqqında bəzi məlumatlarla da tanış olaq.

Kor-lal-karlar içərisində ilk dəfə danışmağa öyrədilən adam – Laura Bricmen həmsöhbətinə qarşı öz narazılığını başını yırğalamaqla bildirirdi. Ehtimal ki, o, bu cür hərəkətə öyrədilməyib və bu, genetik olaraq nəsildən-nəslə ötürmənin nəticəsidir. Doğrudan da əgər bu təsəvvür doğrudursa, onda həmin jest, milliyyətindən və mədəniyyətindən asılı olmayaraq dünyanın bütün xalqlarına aid olardı. Halbuki, ərəblər narazılıq jestini başlarını yuxarı qaldırmaqla

bildirirlər. Türklər, bela hallarda çənələrini bir qədər irəli verib gözlərini qıyaraq, ağızlarını marçıldadırlar. Beləliklə, narazılıq bildirən baş yırğalama jesti genetik çəhətdən sabit olsa da, bir sıra ölkələrdə bu jest tarixi proses və mədəniyyətlərin təsiri nəticəsində yenilərilə əvəz olunmuşdur. Bütün bu deyilənlər hipotetik-təxmini xarakter daşıyır, çünki, Laura Briçmen, Braylın barmaq əlifbasını bilirdi və bunun vasitəsilə o, narazılıq bildirəndə «başı yırğalamaq» jestinin işlədildiyini öyrənə bilərdi. Bununla yanaşı İ.Aybl-Aybesfeldtin tədqiqatları göstərmişdir ki, bir sıra jestlər və mimikalar adamlarda anadangəlmədir. Bütün kor-lal-kar uşaqlarda, heyrəti bildirmək üçün, qaşları çatıb, gözləri bərəltmək və ağızlarını bir az açıq qoymaq, adi haldır.

Bu məlumatlar deyilənləri təsdiq üçün kifayət qədər imkan verməsə də, hər halda heç bir genetikanın həlledici üstünlüyünü söyləməyə hökm vermir. Hətta adam genetik hazırlığa malik olsa belə, təhsili olmadan kitab oxuya bilməz. Burada M.F.Axundovun bir kəlamını xatırlamaq yerinə düşərdi: bilik, ata kürkü deyil ki, nəsildən-nəslə ötürəsən.

## § 24. TEST SUALLARININ MÖTƏBƏRLİYİ VƏ DOĞRULUĞU

«Təbiət həmişə haqlıdır, səhvləri ancaq mən edə bilərəm».

*İ. V. Höte*

Qeyd etmək lazımdır ki, birbaşa ölçüyə tabe olmayan hər hansı universal keyfiyyət əsasında adamların təsnifatını apardıqda biz daha mürəkkəb problemlə – seçmə problemi ilə qarşılaşırıq. Bu halda ancaq ona əmin olmaq lazım deyil ki, bizim sınaq üçün seçdiklərimiz adekvatdır (tamamilə uyğun gəlir, eyniyyət təşkil edir), həm də, əmin olmaq lazımdır ki, həmin əsasda bu və ya digər keyfiyyət haqqında mühakimə yürütdüyümüz test sualları, tədqiqat aparılan mədəniyyət sahəsinə daxil olacaq, verilmiş qabiliyyətlər nöqteyi-nəzərindən mükəmməldir və doğrudur. Test sualları, müəyyən bir dövlətin şəhər sakinlərinin həll edə biləcəkləri məsələlərə müvafiq və onların əqli kamilliyinə uyğun səviyyədə tərtib edilmişsə, bu o deməkdir ki, həmin intellektual testlər o dövlətin şəhər sakinlərinin əqli səviyyəsi haqqında düzgün məlumat verəcəkdir. Deyilənlər prinsipcə, öz ehtiyatını artırmaq məqsədi güdən sahibkarın çəlləkdən bir-iki xiyar çıxarıb dadına baxmasıyla çəlləkdəki xiyarların hamısı haqqında mülahizə yürütməsinə bənzəyir.

Özündə, insanın gündəlik həyatında həll etməli olduğu çox sayda məsələlərdən seçilmiş müxtəlif xırda məsələlər ehtiva edən intellektual testə bir nümunə kimi baxsaq, onda o bir-iki çəllək xiyarından yalnız bir mühüm əlamətinə görə fərqlənəcəkdir. Xiyarlar çəlləkdən təsadüfən götürülmüşdür, test məsələləri isə, həmin test üçün işlənmiş tələbata uyğun mükəmməllik nöqteyi-nəzərincə diqqətlə seçilmişdir. Təcrübəli təsərrüfatçı, yaxşı xiyar axtardıqda bu çəlləkdəki xiyara əsasən, o biri çəlləkdəki xiyarlar haqqında fikir söyləyə bilməz. Xüsusən, onun heç ağlına da gəlməz ki, xiyarlar haqqında müəyyən fikri, pomidorlara da aid etmək olar.

Gəlin görək ansamblın mükəmməlliyi və şəraiti hansı əsasa görə yoxlanıla bilər. Əgər ansamblın üzvlərini, müxtəlif faktorların təsirinə məruz qalmış boy sırasına görə yoxlayıb, boyun dəyişmə tezliyi əyrisini qursaq (eyni boylu adamların nisbi sayı) onda əyrinin uclarında, nisbətən az sayda olan qısa və ucaboy adamlar yerləşəcəkdir. Əyrinin iki (ziriəsi) orta boylulara uyğun gəlir və beləliklə, normal paylanmada Hauss əyrisi alınır.

Təcrübənin mötəbərcəsinə necə aparılmasını aydınlaşdıraq. ABŞda 1936-cı ildəki prezident seçkilərində iki milyondan çox seçici ilə sual-cavab aparmışlar. Bülletenlər, familiyaları və ünvanları telefon kitablarından götürülmüş adamlara – jurnal abunəçilərinə və avtomobil sahiblərinə göndərilmişdir. Sorğunun nəticəsi göstərmişdir ki, F.Ruzveltin prezident seçilmə ehtimalı çox azdır. Buna baxmayaraq seçkilər zamanı F.Ruzvelt prezident seçildi.

Bu, necə olan işdir? Sən demə, sorğu-sualda yüksək təminatlılar az iştirak etmişlər, yəni iki qrup olduğu halda təçrübə bir qrup adamla aparılmışdır. Eyni zamanda sosioloqlar D.Geman və

E.Rouner yalnız 4 min anketə əsaslanaraq F.Ruzveltin qələbəsini qabaqcadan düzgün xəbər vermişdir.

Çin imperatorunun heç kəsin görmədiyi uzun burnu haqqında məşhur bir əhvalat var. Bu əhvalatı dəqiqləşdirib təsdiq etmək üçün, ölkənin bütün sakinlərinə təklif olunur ki, imperatorun burnu haqqında bildiklərini qeyd etsinlər. Bundan sonra nəticə orta hesabla ümumiləşdirilməlidir. Odur ki, cavablar «dəqiq» olmalıdır, çünki sorğu kütləvi surətdə aparılır. Lakin bu cür yanaşma düzgün deyil. Çünki sorğuda iştirak edənlər arasında bu işə həddən çox maraqsız və diqqətsiz olanlar var.

Deməli, burun haqqında bu yolla düzgün təsəvvür əldə etmək olmaz.

Bu haqda bir latın kəlamında deyilir: «De non arrarentibus et non exitentibus eladəm est ratio. – De non apparentibus et non eksitentibus eadem est» (o şey ki görünmür, o şey ki, mövcud deyil, onun haqqında eyni mühakimə yürüdülür, yəni o şey ki, görünmür, o elə «yoxdur» deməkdir).

Başqa bir maraqlı məsələ. Fərz edək ki, söhbət sessiyanın nəticəsinə əsasən, qruplar, fakültələr arasında təhsilin keyfiyyətini qiymətləndirməkdən gedir. Bunun üçün orta qiymət alınır. Soruşurlar ki, müqayisə zamanı vergüldən sənra neçə rəqəm götürmək lazımdır? 30 – 40 nəfərdən ibarət tələbə qrupları üçün qiyməti 0,1-ə qədər dəqiqliklə hesablamaq lazımdır, tələbələrin sayı 2500 nəfər olduqda isə vergüldən sonra yüzlük rəqəmi də nəzərə almaq lazımdır. Bəzən eşidirik və oxuyuruq ki, 500 nəfər tələbənin (fakültə nəzərdə tutulur) müvəffəqiyyəti 3,62-dən 3,69-a yüksəlib və bunu tədrisin keyfiyyətinin «yüksəlməsi» kimi qələmə verirlər.

Yüksək dəqiqliklə göstərilən rəqəmlər (məsələn, müvəffəqiyyət faizini hesablamanın dəqiqliyi ilə əlaqələndirəndə), M.Qoldsteyn və İ.F.Qoldsteynin haqlı olaraq qeyd etdikləri kimi, işə nabələd olanlarda inam yaradır.

Həmin müəlliflərin bəzi mülahizələrini şərh edək.

Məsələn, təsdiq edirlər ki, müvəffəqiyyət faizi həqiqətə uyğun gələ bilər.



Əgər tələbələrin sayı 21, yaxşı oxuyanların sayı 13-dürsə, onda 61,9 faiz, dəqiqlik haqqında lazımi təsəvvür yaradır.

Əgər 21 tələbədən daha biri də yaxşı oxuyan olsaydı, yekun mənimsəmə faizi 66,7 olardı, 1 nəfər pis oxuyarsa mənimsəmə faizi 57,1-ə qədər azalardı. Müvəffəqiyyət faizini təsdiq edən rəqəmlər 57 və 66 rəqəmləri ilə ifadə olunsaydı, bu o qədər də yaxşı təsir bağışlamazdı. Beləliklə, yanlış təsəvvür almaq üçün, hökmən aşkar yalanla qarşılaşmaq lazım deyil.

Statistik məlumatlarla aldadılma hallarına da rast gəlmək olur. Belə hallarda bu və ya digər tələbat göstəricisinə kimin nə qədər maraqlı olduğunu nəzərə almaq lazımdır.

Məlumatların qabaqcadan düşünülmüş təhrif olunmasına misal, milliləşdirilmiş iqtisadiyyat sahələrini göstərmək olar. Həmin sahələri idarə edən adamların qarşısına müəyyən istehsalat məsələləri qoyulur və həmin məsələlərin həlli bəzən statistik məlumatların bilə-bilə təhrifinə şərait yaradır.

«Stavropolskaya pravda» qəzetində (1.04; 2.04.1983) 5 nəfərdən 9 nəfərədək uşaq doğub tərbiyə etmiş anaları mükafatlandırmaq haqında SSRİ Ali Sovetinin fərmanı dərc olunmuşdur. I dərəcəli «Analıq şərəfi» ordeni ilə 8 nəfər (bunlardan 5-i, yəni 62 faizi evdar qadın), II dərəcəli «Analıq şərəfi» ordeni ilə 12 nəfər (11 nəfər evdar qadın, yəni 91 faiz), III dərəcəli «Analıq şərəfi» ordeni ilə 24 nəfər (17 nəfər evdar qadın, yəni 70 faiz). I dərəcəli «Analıq şərəfi» medalı ilə 27 nəfər (17 nəfər evdar qadın, yəni 60 faiz), II dərəcəli «Analıq şərəfi» medalı ilə 65 nəfər (36 nəfər evdar qadın, yəni 55 faiz).

Müqayisəli təhlil apardıqda, 99 uşaq tərbiyə etmiş evdar qadınların analar arasında nisbi sayı 62 faiz və 5 uşaq tərbiyə etmiş evdar qadınların sayı isə 63 faizdir. Göründüyü kimi bu rəqəmlər təxminən bərabərdir. Analar arasında 8 nəfər uşaq tərbiyə etmiş evdar qadınların faizi isə 91-dir.

Ancaq yenə də bu rəqəmlər statistik təhlili qeyri-düzgün tətbiq etmək nəticəsində alınmışdır. Çünki anaların evdar qadın olmaları mükafata təqdim olunan vaxtdan nəzərə alınır, digər tərəfdən mükafatlananların sayı müxtəlifdir. Qeyd etdiyimiz bu faktlara statistik təhlil apardıqda diqqət vermək lazımdır.

Belə deyirlər ki, «müqəddəs» yalan, yamanlıq üçün yalan və statistika[1] mövcuddur.

Kimsə demişdir ki, statistika – musiqidir və onun gah minor, gah da major kimi müxtəlif məqamları var.

Amma bu təkcə statistikaya aid deyil. İstənilən təklifi, ondan pis istifadə etdikdə mənasızlığa gətirmək olar. Statistika, məharətli çalğıçının əlinə düşən musiqi aləti kimi gələcəyi qiymətləidirmək istədikdə fayda, bacarıqsız əllərdə isə ziyan verə bilər.

Sorğunun dəqiqliyinə aid başqa bir misal. Fransada ictimai rəyi öyrənən institutun direktoru professor Jan Stetsel yazır ki, general Şarl de Qoll institutun fəaliyyətinə şübhə ilə yanaşırdı.

Dönüş 1945-ci ildə, müharibədən sonra siyasi vəziyyətin qarışıq vaxtında keçirilən referendumdan sonra yarandı. İnstitutun əməkdaşları ictimai fikri qabaqcadan öyrənmək üçün 2000 nəfərlə sorğu apardılar və referenduma iki həftə qalmış sorğunun nəticəsini De Qolla çatdırdılar, o, isə bunlara lazımi əhəmiyyət vermədi. Lakin çox keçmədi ki, Şarl də Qoll Jan Stetseli çağırıb sorğunun qabaqcadan verdiyi məlumatlara heyran olduğunu billirdi və əlavə etdi: «On milyonlarla adamın fikrini qabaqcadan bu çür dəqiqliklə bilmək – fantastikadır».

Bakı teatrlarının repertuarlarının və orda çalışan artistlərin, hətta səthi təhlili bu qənaətə gətirir ki, bizim teatrlara statistik cəhətdən yanaşmaq böyük fayda verə bilər.

Sonsuz sayda asılı olmayan sadə hadisələrdən təşkil olunmuş mürəkkəb proseslər Puasson paylanmasına tabedir. Bu paylanma, prosesi təşkil edən hadisələrin asılı olmaması fərziyyəsi doğru olan hallara tətbiq edilə bilər. İnsanın əqli və fiziki qabiliyyəti, nəqliyyatın hərəkətinin intensivliyi və avtomobil qəzalarının sayı, məktəblilərin imla səhvlərinin sayı, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı, heyvanların məhsuldarlığı və s. bu paylanmaya tabedirlər.

[1] Dizraeli təsdiq edir ki, üç növ yalan mövcuddur. Adi yalan, həyasızcasına yalan və statistika (bunu Qaussa aid edirlər).



## § 25. FİKİR VƏ İDEYALARIN ÖTÜRÜLMƏ VƏ SAXLANMA ÜSULLARI

«Epik forma, heç vaxt dramatik formaya müvafiq ola bilməz. Mən hətta inanıram ki, incəsənətin müxtəlif formaları üçün poetik fikrin müvafiq sırası mövcuddur, belə ki, bir fikir, ona uyğun gəlməyən başqa formada heç vaxt ifadə oluna bilməz».

*F.M.Dostoyevski*

Çox vaxt hər hansı incəsənət əsərinə tamaşa edəndə, əsərə və əsərdəki gözəlliyə heyran oluruq, onun təsirini və əhəmiyyətini dərindən duyuruq, lakin bütün bunları lazım gəldikdə sözlərlə ifadə edə bilmirik. Bir şair, uşaqları şeiri öz sözlərilə ifadə edib danışmağa məcbur edən müəllimin kobud öyrətmə üsuluna qəti etiraz etmişdir. O demişdir ki, şeirin məzmununu izah etməyin yeganə yolu—həmin şeiri düşünüb yenidən yazmaqdır. Uşaqlardansa, əlbəttə, bunu tələb etmək olmaz.

Müxtəlif fikirlər və ideyalar müxtəlif formalarda ötürülə və saxlanıla bilər, lakin hər biri öz «qabında» – müxtəlif maddələrin yalnız xüsusi qablarda saxlanılıb daşındıqları kimi. Çaxır taxta çəlləklərdə əsrlərlə saxlanıldığı halda, başqa qablarda, xüsusən sintetik qablarda, tezliklə xarab olur. Un kisələrdə və taxta yeşiklərdə uzun müddət qalır, lakin metal sistemlərdə «boğulur», plazma isə, ancaq maqnitdən hazırlanmış qablarda saxlanılır. «Təzə çaxırı köhnə tuluğa tökmək olmaz». Fikirlər, ideyalar və hisslər də bu çürdür. Bunların bəziləri fəlsəfi əsərlərlə, digərləri bədii əsərlərlə: şeirlə, rəsmlə və musiqi vasitəsilə ötürulə və saxlanıla bilir. Həqiqi sənət əsərində, növündən asılı olmayaraq, süjet, onun forması ilə üzvi vəhdət təşkil edir və başqa forma ilə əvəz edildikdə, ən azı təəccüb doğurur və anlaşılmazlığa səbəb olur. Musiqini başqa forma ilə ifadə etmək cəhdi mümkündürmü? Musiqi nitqin, danışığın mənasını ötürə bilmir, lakin daha əzəmətli dərəcədə danışıq intonasiyasının ahəngini ötürə bilir. Məsələn, nəsr əsərinin səhnə dilinə çevrilməsini misal göstərmək olar. Bu prosesdə nəsr əsəri, təbii ki, çox korlanır.

Məlumdur ki, nəsr əsərlərinin səhnə təcəssümü tapması ilə bir qayda olaraq səhnələşdirici mütəxəssis məşğul olur, o, isə ən «əsas olanı», «səhnəyə uyğun gələni», əsas mükalimələri, danışığa müvafiq məqamları, səhnə mizanlı hərəkət və rəftarları, bir sözlə artistlərin ifa edə biləcəkləri elementləri seçib saxlayır. Güman etmək olar ki, səhnələşdiriciyə yalnız qayçı və yapışqan lazımdır, çünki bu işdə əsas məsələ, necə deyərlar, kəsib yapışdırmaqdan ibarətdir... Başqa sözlə, bu metod «Kəsyan» metodu (kəsib yapışdırma) adlanır.

Səhnə sənətilə kinematoqrafiya arasındakı fərqi M.Romm belə izah edir: «Teatrda şərtiliyi dərhal qəbul edirik, qrim bizi o qədər də qıçıqlandırmır. Kinoda isə vəziyyət tamam başqadır, belə ki, azca eyham olsa ki, qəhrəmanın bığı sünidir, o saat dilxor olarıq».

B.Bryusov yazır: «Fizika başqa əlamətləri ataraq, hadisənin ancaq fiziki xassələrini, kimya – ançaq kimyəvi, mexanika – ancaq mexaniki xassələrini öyrəndiyi kimi, heykəltəraşlıq – ancaq formanı, təsviri sənət – ancaq rəngləri və maddələri, musiqi isə ancaq səsləri öyrənir»,

Məlumdur ki, bir çox kəşflər elmlərin qovşağında olmuşdur. Məsələn, fiziki kimya, kimyəvi fizika, maqnit hidrodinamikası, hətta fiziki-kimyəvi təbabət. Çox ehtimal ki, sonralar incəsənət də bu yolla gedəcəkdir.

Ancaq istisnasız qayda yoxdur. M.İ.Çaykovskinin librettosunda zəif şeirlərə baxmayaraq, Puşkinin «Qaratxomaq qadın» povesti P.İ.Çaykovski tərəfindən opera sənətinin əsl incisinə çevrildi. O zamandan etibarən Puşkinin operaya çevrilmiş povesti musiqi aləmində özünəməxsus əlahiddə şöhrətli bir ömür yaşadı. Onu da qeyd etmək lazımdır ki, həmin opera Puşkinlə öz dərin doğmalığını, digər tərəfdən ondan müəyyən uzaqlığını da saxlamışdır.

«Qaratoxmaq qadın» operasını Leninqradın kiçik teatrında yeni quruluşda tamaşaya qoyduqda, Meyerhold onu Puşkinə daha da yaxınlaşdırmağa, yəni «puşkinləşdirməyə» çalışmışdır.

Həmin quruluşun D.D.Şostakoviç, B.V.Asafyev və başqaları tərəfindən yüksək qiymətləndirilməsinə baxmayaraq, İ.İ.Sollertinski göstərdi ki, yeni libretto ilə Çaykovskinin musiqisi arasında ziddiyyətlər mövcuddur.



Sonrakı quruluşlarda «Qaratoxmaq qadın» öz əvvəlki librettosunda tamaşaya qoyuldu.

A.S.Puşkin dahiyanə əsəri – «Boris Qodunov»dakı mürəkkəb problemlərin (xalq və çar, vicdan və hakimiyyət, şəxsiyyət və dövlət) mənaca, M.P.Musorqskinin partiturasında təcəssümü, təzadlı ziddiyyətlərin opera sənətinin dili ilə ifadə manerasının ən parlaq nümunəsidir.

Səməd Vurğunun «Komsomol poeması» səhnələşdirilmiş, ekranlaşdırılmış, hətta bu gözəl poema əsasında balet də tamaşaya qoyulmuşdur.

A.Blokun poeması əsasında hazırlanmış balet tamaşasının qoyuluşu ilə (bəstəkar B.Tişşenko, quruluşçu L.Yakobsondur) əlaqədar olaraq Y.Slonimski yazır: «Nə qədər çalışırıq ki, balet tamaşası ilk ədəbi mənbəyə lap yaxın olsun, nəticədə balet bir o qədər zəif alınır» və sonra: «Kimin ağlına gələr ki, samovarı motosikletə çevirmək cəhdini eksperiment adlandırsın».

Poemanı oxuyub filmə, tamaşaya və baletə baxandan sonra belə qənaətə gəlmək olur ki, müxtəlif formalar, təbii ki, tamaşaçılara müxtəlif mərhələlərdə təsir edir. Deyilənlər Səməd Vurğunun opera dilinə çevrilmiş «Vaqif» pyesinə və rejissorun nəsrin səhnəylə ittifaqına gətirdiyi yeniliyə də aiddir.

Qoqolun «Ölü canlar»ı 160-dan çox formada səhnələşdirilmişdir. Lakin teatr tarixində Stanislavskinin «Ölü canlar»ı ən böyük hadisə oldu.

Təəssüf ki, elə adamlara rast gəlirik ki, Saltıkov-Şedrinin təklif etdiyi, «dəqiq yaradıcılıq» metodundan istifadə edirlər: «Roman, povest, komediya və «Azar» dramı tək əsər yazmaq üçün, pəncərənin qabağında oturub, diqqətlə küçəyə baxmaq lazımdır.

Dama-dama şalvar geymiş modabaz küçə ilə gedir – yazmaq, onun dalınca saçları qısa kəsilmiş qız gedir – yazmaq, əgər o qız birdən yubkasını qaldırıb ayaqlarını göstərirsə – iki dəfə yazmaq; sonra, faytonçu keçdi və atlara qışqırdı: «Eh səni, qoca!» – yazmaq.

Beləliklə, iki gün pəncərənin qabağında oturub, o qədər müxtəlif müşahidələr edib, qeydlər aparmaq olar ki, nəticədə, ancaq

mətbəəyə qaçıb, metranpajdan[1] qeydləri qaydaya salmağı xahiş etmək qaları».

V.V.Vorovskinin «Müsabiqə» felyetonu bu gün də öz əhəmiyyətini itirməyibdir.

«Bu gün, incəsənətin çiçəkləndiyi bir dövrdə hər bir ədəbiyyatçı-metodist dahi olmasa da böyük istedad deməkdir, deməli, indi heç kəsi dahiyanə əsərlə təəccübləndirmək olmaz, odur ki, «Qurbağa» redaksiyası aşağıdakı əsərlər üçün müsabiqə elan edir:

1. Ən zövqsüz şeir,
2. Ən məzmunsuz hekayə,
3. Ən şit istehza.

Ən dəyərli əsər 3 manat 25 qəpik məbləğində pul mükafatına layiq görüləcəkdir».

Elanın müddəti noyabrın 15-ə qədərdir.

## § 26. ƏSƏRİ BƏYƏNMƏ QABİLİYYƏTİNİ – ZÖVQÜ QİYMƏTLƏNDİRMƏK OLARMI?

«Zövqə malik olmaq, babam, ələ
xasiyyətdir, onun da öz qanunları var...».
***(Famusovun monoloqu)***

Zövqə malik olmaq və onu inkişaf etdirmək, yaradıcılıq üçün də böyük əhəmiyyətə malikdir. Bu fikri təsdiq etmək üçün saysız-hesabsız misallar gətirmək olar. Məsələn, Bethovenin bəzi əsərlərini, eşitmə orqanı zəif inkişaf etmiş adamlar bir-birindən seçə bilmir, necə ki, bəziləri açıq göy rəngi mavi rəngdən çətin seçir. Digər tərəfdən, musiqi əsərləri əsasında bu hissin inkişafı, həm elmi tədqiqatları daha səmərəli aparmağa, həm də yeni tədqiqatların nəticələrini, musiqinin bütün məna çalarlarını da nəzərə almaqla dərk etməyə imkan verir. Tez-tez eşidirik ki, hidravlik müqaviməti

[1] Metranpaj -mətbəədə səhifəbağlayan – baş yığıcı, səhifəni bağlayan.



azaltmaq məqsədilə mayeyə müxtəlif qarışıqlar əlavə etməyə həsr olunmuş bu qədər tədqiqat aparmaq nəyə lazımdır? Halbuki bu cür tədqiqatların müxtəlif mayelərlə aparılması, əlavələr qarışdırmaqla müqavimətin azalması mexanizmini izah etmək üçün çoxlu faktlar toplamağa imkan yaradır.

Artıq xeyli vaxtdır ki, incəsənət əsərlərinin tədqiqində dəqiq elmlərin nəticələri müvəffəqiyyətlə tətbiq edilir. Digər tərəfdən, nisbətən bu yaxınlaradək əsaslandırılmış riyazi tədqiqatlarda dilşünaslıq anlayışlarının tətbiq olunmasını təsəvvür etmək çətin idi.

Amerikada yaşayan məşhur azərbaycanlı riyaziyyatçı Lütfizadə (L.Zadə) uyuşmazlıq prinsipi təklif etmişdi.

Həmin prinsipə görə, çox mürəkkəb sistemlər üçün yüksək dəqiqlik qeyri-mümkündür. Həddən artıq ümumi və qeyri-müəyyən xarakterə malik sistemləri dəqiq metodlarla və mühakimələrlə, nə izah etmək, nə də əsaslandırmaq olmaz.

Hal-hazırda L. Zadənin (Amerikada yaşayıb-yaradan dünya şöhrətli azərbaycanlı alim Lütfi Ağazadə) çox böyük və dərin fundamentallığa malik işləri nəticəsidə, qeyri-dəqiq çoxluq həmin sahədəki məsələlərin həllində geniş tətbiq olunur.

Əyanilik üçün «topa» anlayışına baxaq: «Topa nədir? Bu anlayış dərhal təsəvvürdə dən yığını ifadəsini canlandırır. Müəyyən miqdarda adamlar arasında sorğu aparılır. Dənin miqdarı müəyyən həddə çatana qədər, bütün soruşulanlar dən yığınına «topa» deməmişlər. Lakin müəyyən miqdar dən yığılandan sonra, həmin çoxluğa «yığın» deyənlərin hamısı ona topa demişdir. Yığının «topa»ya aid olması anlayışı belə yaranır.

«Gənclik əyrisinin» bütün nöqtələrində, ancaq müxtəlif əmsallarla adam bütün ömrü boyu gəncdir.

20 yaşında həmin əmsal vahiddir; 15 yaşında – 0,9; 30 yaşında – 0,8 və 40 yaşında – 0,6-dır.

Məmməd cavandırsa, fərz edək ki, onun 35 yaşını 0,61 ehtimalı ilə götürmək lazımdır.

Y.Trifonovun qeyd etdiyi kimi, bəzən incəsənət əsərlərinə mənfi münasibət, həmin əsərlərdə bizə düşmən ideyalar verildiyinə

görə yox, tənqidçi üçün doğma olan heç bir ideya verilmədiyinə görə yaranır. Olanı yox, olmayanı müzakirə edirlər.

Bununla əlaqədar olaraq D.İ.Pisarevin bir mülahizəsinə fikir verək: «Belinski, özü-özü üçün yaratdığı Puşkini sevirdi».

Akademik İ.V.Kurçatovun tələbəsi akademik Q.N.Flerov deyirdi ki, Kurçatovun texniki savadı çox dərin deyildi; SSRİ EA-nın müxbir üzvü İ.M.Qureviç (o, da Kurçatovun tələbəsi idi) isə onun riyazi biliyinin sadə, demək olar ki, hesabi ifadələrə məhəbbətdən ibarət olduğunu qeyd edirdi. Bununla yanaşı, qeyd olunan zəif cəhəti Kurçatovu şablon həllər axtarmamağa və qüvvətli məntiqi mühakimə yolu ilə getməyə məcbur edirdi. Zəiflik çox böyük qüvvəyə çevrilirdi.

Dediklərimiz bir daha təsdiq edir ki, əsərlərdə, ümumiyyətlə, oxuduqlarımızda "zəif cəhətlər»i göstərib əsəri «lazımsız» etmək yox, onun «gücünün nədə olduğunu axtarıb tapmaq lazımdır».

Axırıncı onilliklərdə bu çür «təhlil» üsulu təəssüflər olsun ki, təbiət elmlərində daha çox tətbiq olunur. Belə xoşagəlməz münasibətlər, əsasən ona görə baş verir ki, elmi işçi ya heç bir «məktəb»ə mənsub deyil və yaxud da müəyyən iddiaya malik olmaqla bərabər həm də «əyalətdəndir». Açığını desək, bunu ən çox kimisə öz yerində «oturtmaq» istəyəndə tətbiq edirlər.

Böyük Nizaminin hikmət dünyasından:

Bax, əbədi olmayan bu fırlanan göy ki, var,
Unutma, daim sənin əleyhinə dolanar.
Gah səni canlılara padşahdan artıq edər,
Kah da bir küzəçi əlində palçıq edər.
Bu dünya ki, əzəldən boyanmış iki rəngə,
Onda ömr eləyənlər əlindən gəlmiş təngə,
Belə düşünüb deyir yaşayanlar səhrada:
«Nə xoşbəxtdir ömr sürən su altında, dəryada».
Dəryada yaşayanlar gör nə deyir yanaraq
«Qurudakılar əcəb dolanırlar günü ağ».

Tənqidi məqalələrin istehzalı üslubu da çox vaxt təşviş doğurur. İstehza ilə oduqca ehtiyatlı olmalı, onun yerini bilmək



lazımdır. «Kinayəli gülüşə mübtəla olan adamlar üçün müqəddəs olan heç nə yoxdur, hamısı simasızdır. Hamısı-hamısı birdir... Lənətə gəlmiş istehzanın qarşısında hər şey onlar üçün birdir; xeyir və şər, aydın səma və qorxunç dərələr, Beatriçe, Dante və şair Soloquba. Meyxanada və qaranlıq küşələrdə olduqu kimi hər şey gülməlidir... Qədim xəstəlik – «istehza» xəstəliyi olan yerdə, nə həyat, nə yaradıcılıq, nə də bir iş baş verə bilməz, çünki, adam özü qaniçənə çevrilir, onun dodağı qanla dolur və şişir, sifəti ağarır, yan dişləri uzanır. «İstehza» xəstəliyi özünü belə göstərir» (A. Blok).

Flober deyib: «Sevmədiklərinə məftun olmağı da bacarmaq lazımdır». L.N.Tolstoy yazmışdır: «Pis əhvali-ruhiyyəyə və insana qarşı yönəlmiş bədxahlığa qalib gəlmək çətindir, ancaq olar. Əgər bu bircə dəfə belə baş tutsa, o zaman alacağın sevincin ləzzəti, səni bu ləzzətə bir daha qovuşmağa vadar edəcəkdir. Hətta sənə yad olanı və qətiyyən xoşlamadığın şeyi də obyektiv surətdə qiymətləndirməyi və ona layiqincə qiymət verməyi bacarmaq lazımdır.

Spinoza deyirdi ki, nə haqq qazandırmaq, nə də qınamaq lazım deyil, ancaq başa düşüb, dərk etmək lazımdır.

R.Uel yazır: adama deyəndə ki, pis zövqün var, deyəndə ki, fikirləşə bilmirsən, adamlarla ünsiyyətdə ola bilmirsən o, dərhal inciyir.

V.Ovçinnikov qeyd edir ki, ingilisə deyəndə ki, sən avamsan, o ancaq iltifatla gülümsəyir. Əgər – ona desən ki, tərssən, mərhəmətsizsən, qapalısan, savadsızsan, nadansan, – o, ancaq çiyinlərini çəkəcək. Ancaq bir balaca eyhamla desən ki, ədalətsizsən, – o, dərhal qıpqırmızı qızarıb hiddətlənəcəkdir. Bunun səbəblərindən biri odur ki, bütün bu deyilənləri sübut etmək mümkün deyil.

Adətən, adam nəyə isə tamamilə yox, qismən üstünlük verir. Məsələn, acından çan verən adam istənilən xörəyi, ən qiymətli əşyadan üstün tutur.

Adamların əsəri bəyənmək qabiliyyətinin, yəni zövqünün və qarşılıqlı münasibətlərinin kəmiyyətçə qiymətləndirilməsinin bəzi cəhətlərinə diqqət verək. Hamletin Poloniyə müraciətlə dediyi sözləri xatırlayaq: «Şeylər öz-özlüyündə nə pis, nə də yaxşı deyillər, onlar ancaq bizim nəzərimizdə pis və ya yaxşıdırlar».

İnsan, ançaq beynində müəyyən alqoritmlərin, qaydaların möhkəmləndirildiyi vaxt məqsədəuyğun hərəkət edə və öyrənə bilər.

Məlumdur ki, beyin, qarşıya müəyyən məqsəd qoyan və ona nail olmaq üçün yollar axtaran, öz-özünə «köklənən» bir mürəkkəb məntiqi sistemdir. Beynin müxtəlif vəziyyətlərinə müxtəlif tezlikli elektrik rəqsləri uyğun gəlir. Bununla əlaqədar professor H.Uolterin fikri maraqlıdır: «Beyni, elementlərinin sayı həddindən çox – Qalaktikalarda ulduzların sayı qədər olan nəhəng aqreqat kimi təsvir etmək lazımdır. Beyində okeanının dərinliklərində, yerdəki okeanlarda baş verən qabarmalardan min dəfə güclü olan qabarmalar baş verir». Fizioloqlar, elektroensefaloqramla tədqiqatlar nəticəsində müəyyən etmişlər ki, sağlam adamın müxtəlif emosional vəziyyətində onun beynində müəyyən diapazonlu tezliklər üstünlük təşkil edir.

| Beynin ritmləri (dalğaları) | Δ | θ | α | β | η |
|---|---|---|---|---|---|
| Diapazon. hers | 4 | 4 – 7 | 8 – 13 | 13 – 30 | 35 – 55 |
| Amplituda, MKV | 100 – 250 | 100 – 200 | 30 – 70 | 10 – 15 | 0 – 15 |

İnsanın vəziyyəti:

Δ – ayıqlıq (uşaqlar üçün 10 yaşınadək); yuxu (böyüklər üçün);

– yaşlılarda mürgüləyəndə, oyanmadan qabaq və ya yuxulamadan qabaq qeyd olunur;

α – gözlərini yummaqla psixi və fiziki olaraq tamamilə «taqətdən düşmək» (boşalma) hallarında müşahidə olunur;

β – aktiv hissiyyatlı fəaliyyətdə yaranır;

μ – emosional oyanmada baş verir.

Məlumdur ki, yuxu, beyin fəaliyyətinin iki müxtəlif – yavaş (ağır) və sürətli vəziyyətidir.

Ən dərin yuxu – delta yuxu – beyin üçün ən zəruri vəziyyətdir və bu, adətən gecənin birinci yarısında baş verir (xalq arasında deyilir: «Ölü kimi yatıb»). Səhərə yaxın sürətli yuxu dövrü başlanır, bu vaxtlar adam yuxular görür, həyəcanlanır.

Bir saat yarım davam etməklə, hər gecə 4 – 6 dəfə oyanıb-yatma tsikli mövçuddur. Məlumdur ki, adam «ağır yuxu» fazasından oyananda, necə deyərlər, «yuxulu» bir vəziyyət – qeyri-reallıq, qatma-qarışıqlıq hissi yaranır. Bu vəziyyəti L.N.Tolstoy belə təsvir edir: «Uzaqdan gələn qışqırıq Rostovu yuxudan oyatdı. O, səksəndi və gözlərini açdı. Mən hardayam? – Bəli, zəncirdə; şüar və parol – qoşqu alətidir... Və yenə onun başı atın boynuna düşdü. Birdən ona elə gəldi ki, onu güllələyirlər. «Nə? Nə? Nə? Doğra! Nə...» deyərək Rostov gözlərini açıb oyandı».

«Sürətli yuxu» fazasından sonra adam heç bir əzab və əziyyət çəkmədən oyanır. Mötədil və aramsız səs siqnalı, məsələn, xəfif musiqi yatan adamı möhkəm yuxudan yavaş-yavaş ayılıb, tam oyanma vəziyyətinə gətirir. Uşaqda qavrama ilə əlaqədar olaraq, başqa növ dalğalardan qabaq beş yaşında – θ(Teta) dalğaları yaranır. Görürsünüzmü, uşaqların yanında, ümumiyyətlə, söhbət sdəndə nə qədər ədəb-ərkanlı olmaq lazımdır. Bununla əlaqədar olaraq Pestalotsinin rəyi maraqlıdır: «Heç nə, uşaqda nəyin üstündə tənbeh olunduğunu bilməyərəkdən yaranan qədər əsəbilik və narazılıq yaratmır. Günahsızı cəzalandıran özünə məhəbbəti itirir. Biz elə güman etməməliyik ki, nəyin doğru olduğunu, onun özü üçün əhəmiyyətli olduğunu uşaq özü anlayacaq».

Cazibədar bir qızın cavan oğlanın başını sığalladığı zaman təcrübələr aparılmışdır. Məlum olmuşdur ki, qız əlini oğlanın başından götürəndə θ – dalğalar yaranır. Güman etmişlər ki, α – dalğalar hərəkətə hazır vəziyyətdə yaranır.

Q. Uolterin təsnifatına görə α – ritmlərə malik olmayan adamlar, surətlər şəklində təsəvvürdə canlanan məsələləri bacarıqla həll edirlər. Mücərrəd xarakterli məsələlərin həllində onlar xeyli ləng tərpənirlər. Aydın ifadəli və sabit α – ritmli adamlar isə, mücərrəd düşüncə tərzinə malik olmaqla, daha mütəhərrik templi psixikaya və daha tez reaksiyaya meyllidirlər. İngiltərədə sürücüləri müayinə etdikdən sonra bəlli olmuşdur ki, saniyədə 13 ritm tezlikli rəqslərə

malik olanlar, maşınları saniyədə 8 tezliyə malik olan adamlardan tez tormozlamışlar (tormoz məsafəsi 1,5 dəfə az olub).

«Skuba dayqaku» (Yaponiya) universitetində laboratoriya rəhbəri professor Mitiko Nukinin fikrincə, məharətlə seçilmiş musiqi, insan beynini alfa-dalğaların güclənməsilə xarakterizə olunan vəziyyətə gətirməyə kömək edir.

Yapon firması «Si-bi-es Soni» 12 melodiya yazılmış iki plastinka buraxmışdır. Bu mahnılar iki hissəyə bölünür: işdə stresi götürmək və ailə həyatında sakitlik yaratmaq üçün. Bu, dünyada elmi əsasda yaradılmış ilk biomusiqidir («Med. qazeta», 13.05. 1988).

R.Feynmanın qeyd etdiyi kimi mücərrəd təfəkkür tərzi bizi əhatə edən dünyanı daha dərindən dərk etməyə imkan verir.

Lap kiçik yaşlı uşaqların α – ritmlərini elektro ensefaloqramda çətin qeyd etmək olur. Dörd yaşından 12 yaşınadək uşaqlarda isə α – ritmlər olduqca sabitdir.

Əgər elektrenossefaloqram göstəricilari adamın funksional vəziyyətinə əksdirsə, məsələn, gümrah adamlarda ▲ – dalğalar əmələ gəlirsə, bunu patoloji əlamət hesab etmək lazımdır.

Elektroensefaloqramın tətbiqindən cərrahiyyə əməliyyatında narkoza nəzarət etmək üçün müxtəlif növ şişlərin proqnozunda da istifadə etmək olar. Əsaslı delta fəallıqda meydana gələn β-ya bənzər sürətli dalğalarla yuxugörmə arasında əlaqə də mövcuddur.

Elektroensefaloqramda qeyd olunan elektrik potensiallar beyin qatının dərinliklərindəki prosesləri zəif əks etdirir, çünki beyni əhatə edən kəllənin sümük toxuması beyin maddəsindən ən azı 20 dəfə kiçik elektrik keçiriçiliyinə malikdir.

Maqnit göstəricisi – skvid – təhrif etmədən beyin cərəyanını qeyd edir. Skvid, həkimlərə ürək patologiyasının ilk mərhələlərində diaqnoz qoymada kömək edə bilər.

Elə hallar olur ki, adamlar yuxu görməməkdən şikayətlənirlər. Lakin müayinələr göstərmişdir ki, adamların hamısı yuxu görür. amma bəziləri gördüyü yuxunu oyananda xatırlaya bilir, bəziləri isə bunu bacarmır.



Beynin biotoklarınlan biri də «ümid» və ya «gözləmə» dalğalarıdır. Məsələn, əziz bir adamımızın uzaq səfərdən qayıtdığını eşidəndə həmin dalğalar yaranır, onunla görüşəndə is o yox olurlar.

Beyində θ α dalğalarının üstünlük təşkil etməsi həyat üçün olduqca böyük əhəmiyyətə malikdir. Beyni kondesatorla, eyni zamanda «müqavimət – tutum» tipli elektron generatoruna paralel birləşdirilmiş, fəal muqavimətli elektrik dövrəsinə oxşatmaq olar. Generator rəqslərinin tezliyi iki «müqavimət-tutum» dövrəsinin məxsusi orta həndəsi qiymətinə bərabərdir. Belə iki dövrə elektrik aktivliyini öyrənmək üçün model kimi qəbul oluna bilər. Kloçkovun tədqiqatları təcrübi olaraq təsdiq etdi ki, spektroqramdakı niklər bu tezliklərdə baş verir. Məsələn, sakit vəziyyətdə dəqiq maksimum 10 hers tezlikdə müşahidə olunur, yəni α – ritm tezliyinin kənar qiymətlərindən (maksimum və minimum) həndəsi orta, daha doğrusu 8 və 13,10=$\sqrt{8x13}$ olur.

Zehni əməkdə β (beta)—dalğaları üstünlük təşkil edir.

Burda da həndəsi orta $\sqrt{13x30=19,7}$ , 13 – 30 zolağını iki hissəyə bölür: 19,7 – 13 =6,7 və 30 – 19,7=10,3.

«Qızıl kəsik» deyilən anlayışın mənasını izah edək: istənilən parçanı iki hissəyə böləndə böyük hissənin kiçik hissəyə nisbəti 1,618-ə bərabərdirsə həmin kəsik nöqtəsi və ya xətti «qızıl kəsik» adlanır. Məsələn, (34:21).

Yuxarıda baxdığımız parça 17-ə uyğun gəlir; onun böyük hissəsi 10,3, kiçik hissəsi isə 6,7-dir. Nəticədə alınq ki, 17:10,3=1,65; 10,3:6,7=1,54. Deməli, bu nisbətlər təqribən 1,618-ə uyğun gəlir və bu «qızıl kəsik» qaydasının doğruluğunu göstərir.

«Qızıl kəsik» nisbətinə təbiət, insan bədəninin mütənasibliyində də riayət etmişdir (Dürer). Fehner belə bir maraqlı təcrübə aparmışdır: O, tərəflərinin nisbəti 1-dən 2,5-ə qədər dəyişən 10 ədəd düzbucaqlını 592 nəfərə təqdim etmiş və xahiş etmişdir ki, xoşladıqları düzbucaqlını göstərsinlər. Əksəriyyət, tərəflərinin nisbəti 34 – 21 arasında olan (yəni «qızıl kəsik» nisbətinə uyğun gələn) düzbu-

caqlıları seçmişdir. Bu vəziyyəti əks etdirən «paylanma» Haussun statik əyrisinə uyğun gəlmişdir. Qadınlarla kişilərin reaksiyaları (düzbucaqlıların hansını xoşlamaq nöqteyi-nəzərincə) bir-birindən çox az fərqlənmişdir.

Skripka ustası böyük Stradivarinin əsərləri, etruss keramikası, Misir piramidaları və başqaları «qızıl kəsik» nisbətinə uyğun gəlir. Lakin Fehner tapmışdır ki, Avropanın çox böyük sənətkar-rəssamlarının məşhur şəkillərində tərəflərin nisbəti «qızıl kəsik» nisbətinə tabe deyil. Bunun səbəbi nədir?

Δ, θ, α, η, β – dalğalarının invariantları var. β dalğası üçün bu invariantın qiyməti 1,618-ə bərabərdir.

Qalan, yəni Δ, θ α, μ dalğaları üçün isə invariantlar uyğun olaraq 1,221; 1,324; 1,272; 1,272-yə bərabərdir. Professor A.Sokolov, Dirak kimi, necə deyərlər «sələmin ucunda» ρ (ro), σ (siqma) dalğalarını və müvafiq surətdə onların invariantlarını—1,465 və 1,380 tapıb. Bu dalğalar hələlik təcrübə yolu ilə müəyyən olunmamışlar. Maraqlıdır ki, β – dalğalarına daha «qısa» fəallıq alqoritmi uyğun gəlir. Burda da «qızıl kəsik» nisbəti özünü büruzə verir. Qeyd etdiklərimiz ω – dalğalarının yaradıcılıq müvəffəqiyyətlərilə, xoş əhvali-ruhiyyə və sevinclə əlaqəsi olduğunu göstərir. Beyin fəallıqı artdıqça, dalqanın tezliyi də bir o qədər çoxalır. Hələlik kəşf olunmamış ən yüksək tezlikli dalğa beynin yaradıcılıq fəallığı vəziyyətində üstünlüyə malik olmalıdır. Fehnerin tədqiqatlarına əsasən A.Sokolovun apardığı araşdırmalar göstərmişdir ki, məişət təsvirlərinə həsr olunmuş 1477 rəsm əsərində tərəflərin nisbəti Δ, δ, α, θ, invariantlarına uyğun gəlir. Əməli olaraq, δ – dalğalarının invariantını görkəmli rəssamlar dörd əsrdən çox bir müddətdə öz yaradıçılıqlarında özləri də hiss etmədən (intuitiv olaraq) tətbiq etmişlər. Yaradıcılıq prosesində rəssam müəyyən bir əhvali-ruhiyyəni – özü də daxilən bütün təfərrüatı ilə yaşayaraq – ifadə etməyə çalışmışdır. Məsələn, ilahi bir sakitlik, əmin-amanlıq, münaqişə, hiss-həyəcan və təbii ki, bu vəziyyətlərdə, beyində α və θ dalğalarının invariantları işə düşür. Əgər sənətkar öz imkanlarından var qüvvəsi ilə istifadə edirsə, bu halda δ invariantı üstünlük təşkil edir ki, bu da Fehner statistikası ilə təsdiq olunur.



Oyanma dövrünün qüdrətli rəssamları öz rəsm əsərlərində «qızıl kəsik» nisbətindən məharətlə istifadə etmişlər. Çox ehtimal ki, əvvəlcə bu nisbət bilərəkdən yox, fəhmlə istifadə olunmuşdur (Mos. 5/3,8/5). Əksər hallarda təbiətin özündə heyrətamiz şəkildə daha ciddi uyarlıqlarla qarşılaşırıq. Kaktusun budağlarını bürüyən spiral şəkilli müəyyən maddə yığımı əksəriyyətə məlumdur. Özü də həmin spirallar budaqlara iki istiqamətdə sarmaşırlar: saat əqrəbi hərəkəti istiqamətində onlar 34 və saat əqrəbi hərəkətinin əksi istiqamətində isə 21-dirlər.

«Qızıl kəsik» nisbəti 0,01 faizə yaxın dəqiqliklə özünü doğruldur.

Sağa meylli 21 diaqonala, sola meylli 34 diaqonal uyğun gəlir. Açılışın son nöqtəsi dəqiq şəkildə başlanğıcla üst-üstə düşür. Bu cür xətlər kompleksi (Rastrlı tor, rastr) – bir çox qədim təsviri sənət ustalarının kompozisiya qurmalarında əsas rol oynayırdı.

Rastrlı tor Titsianın «Vakx və Ariadna»[1] şəklinin reproduksiyasını örtdükdə perspektivin əsas xətləri torun xətlərilə üst-üstə düşür. Bu qanunauyğunluğu Mikelancelonun «Liviyalı falabaxan»ı, Pussenin «Vakxanaliya»-sı və s. əsərlər də təsdiq edir. Fransız heykəltəraşı Rodenin səciyyəvi bir qeydini xatırlayaq: «Mən təbiəti dəyişməmişəm. Hətta əgər dəyişmişəmsə, bunu yaradıcılıq momentində qeyri-şüuri olaraq etmişəm. Mənə elə gəlir ki, bu cür hallarda hissiyyatımın təsirinə məruz qalmışam və təbiəti onun prizmasından görmüşəm».

SSRİ-də tamaşaçılar arasında keçirilmiş sosioloji sorğu yaşa dolduqca zövqün necə dəyişməsini göstərdi. Nəticə belədir: 16 – 18 yaşında olanlar cəld templəri, dəqiq ritmləri və parlaq surətləri xoşlayırlar. 19 – 20 yaşı olanlar fikir və ideyalar axtarırlar. 41 – 50 yaşlılar isə rejissor işinə ciddi maraq göstərirlər. Maraqlı burasıdır ki, 50 yaşlıların zövqü get-gedə uşaq zövqünə yaxınlaşır.

Bir fakt da böyük əhəmiyyət kəsb edir və bu hələ musi-

[1] Bakx – qədim yunan və qədim Roma əsatirində bitki, şərab və sevinc allahıdır

Ariadna – qədim yunan əsatirində Krit carı Minosun qızıdır.

qişünaslıq tərəfindən nəzəri olaraq aydınlaşdırılmamışdır. Məlumdur ki, bütün 12 major tonallığı, eləcə də bütün 12 minor tonallığı səsləşmələrinə görə bir-birilə oxşar olmalıdırlar. Musiqiçilərsə, hesab edirlər ki, tonallıq fərdi keyfiyyətlərə də malikdir. Məsələn, belə qəbul edirlər ki, do-major işıqlı, günəşli əhvali-ruhiyyə üçün (Bethovenin «Avrora» sonatası); mi-major – həyəcanlı, təlatümlü, gərgin və ehtiraslı təəssürat uçün (Listin əsərləri); fa-diez-major – sevincli və ülvi hiss və həyəcanlar üçün (Qriqin «Bahar» əsəri); do-minor – mərdanə və dalğın kədər üçün (Bethovenin 3-cü simfoniyasından «Matəm marşı») səciyyəvidirlər. Adamın, müəyyən rənglər və fəza obrazları ilə səslər arasında əlaqə (assosiasiya) yaratmaq qabiliyyəti də (rəng qavrayışı) məlumdur.

Bəzi istedadlı adamların müəyyən bir musiqiyə qulaq asdığda hər hansı rəng təsəvvüretmə qabiliyyətinə sinopsiya (səsi görmə) deyilir. Bu prosesi 1892-ci ildə fransız təbibləri Flurnua və Klapared öyrənmişlər. «Prometey» simfonik əsərinin müəllifi bəstəkar A. İ.Skryabin güclü sinopsiya qabiliyyətinə malik idi.

Riyaziyyatcı Lui Bertran Kastel (XVIII yüzillikdə) rəngli musiqi aləti düzəltmişdir və burda oktavanın yeddi notuna yeddi əsas rəng uyğun gəlirdi (do – göy, re – yaşıl, lya bemol – bənövşəyi-qırmızı və s).

Hazırda səsin avtomatik olaraq rəngə çevrilməsi nəzəriyyəsi öz əhəmiyyətini itirmişdir. Ehtimal ki, rəng – musiqi birgəliyində qabaqcadan müəyyən edilmiş sinxron uyğunluq olmamalıdır.

Hər adam oktava notlarının rəng-musiqi birgəliyində özünəməxsusluğa malikdir. Belə ki, lya-bemol – akademik Asafyevə albalı rəngi, Rimski-Korsakova isə alatoran, boz-mavi rəng təsirini bağışlayırdı.

Onu da qeyd edək ki, asta səsləri hamı eyni cür qavrayır və adamlara qara rəng təsiri bağışlayır.

Məlumdur ki, müğənninin səsi təkcə onun oxuduğu notun tezliyi ilə səciyyələnmir. Oxuyanın səsi mürəkkəb tezlik spektrlərinə, başqa sözlə, yüksəktonallıq tərkibinə malikdir. Səsin ahəngdarlığını onun bütün tonallığına nəzərən faizlə ölçmək mümkündür. Məlum



olmuşdur ki, melodik səs müəyyən tezliyə (2600 – 3200 hers) malikdir və onu başqa səsləri susduraraq ümumi səsdən seçib ayırmaq olar, səslənməyinə görə bülbülün cəh-cəhini xatırladır... Ahəngli səsin yüksək «havalanma» tezliyi, F.Şalyapinin, E.Karuzonun və başqalarının ümumi tezlik spektrinin təxminən 377 faizini təşkil etmişdir. Niyə təbiət yüksək tonallı səslərə, bu cür «nüfuzetmə» qabiliyyəti vermişdir (2000 – 3200 hers tezliklə)? Ona görə ki, bizim eşitmə orqanlarımız bu tezliklərə daha həssasdır.

İtaliyanın köhnə belkanto[1] ustaları deyirdilər ki, bütün gücü səsə verməklə yox, səs «kapitalından» faizlə istifadə edərək oxumaq lazımdır. Deyildiyi kimi: şərt kəmiyyətdə deyil, bacarıqdadır.

Başqa bir misala diqqət yetirək. İtaliyada səslərin gözəlliyinə görə Demuro və Cili hamıdan üstün idi. Səsinin coşğunluquna görə – Aureliano Pertile, gücünə görə – Françesko Tomanyo[2] və Martinelli idi. Bu müğənnilər ayrı-ayrılıqda bəzi keyfiyyətlərinə görə Karuzodan üstün olsalar da, heç biri Karuzo tək ürəkləri fəth edə bilməmişdir.

Polşa müğənnisi Yanina Vayda-Koroleviç yazır: «İstedadının gücu, onun üç başlıca xüsusiyyətinin əsasını təşkil edirdi: birinci – heç kəslə müqayisə olunmayan məftunedici, hərarətli və ehtiraslı səsi. Onun tembrinin gözəlliyi yalnız səs ahənginin səlisliyində yox, həm də səsindəki ahəng çalarlarının zənginliyində və müxtəlifliyində idi. Karuzo öz səsilə insanın bütün hisslərini və daxili həyəcanlarını ifadə edirdi... Karuzo istedadının ikinci xüsusiyyəti – özünün hiss və həyəcan palitrasının intəhasız zənginliyi idi. Nəhayət,

[1] Yüksək notları əvvəllər yüksək səsli kişilər (falsetlər) oxuyardı. 1820-ci ildə tenor Domeniko Donseli yuxarı "lya"nı ucadan oxumuşdur. Lui-Jilber Dyupre, "Vilhelm Tell"də yüksək "do"nu lap ucadan oxumuşdur və bu da barədə Rossini demişdir: "Dyupre bu notu, boğazına bıçaq soxulmuş axta xoruz sayağı xırıldayaraq oxudu". Ancaq opera ictimaiyəti bununla razılaşmadı. Karuzoda və Tito Skipidə yuxarı "do" yox idi.

[2] Françesko Tomanyo (1850-1905)–fövqəladə güclü səsə, əzəmətli coşğunluğa malik, möhtəşəm boy-buxunlu, əfsanəvi müğənni idi. Lakin musiqi qabiliyyəti və səsinin ahəngdarlığı ilə o qədər də cəlbedici olmamışdır.

üçüncü xüsusiyyəti – onun olduqca nəhəng, təbii dramatik istedadı idi».

Luçano Pavarotti yazır: «Yeri gəlmişkən deyim ki, Skipi heç güclü səsə malik olmasa da böyük muğənniydi» («Muzıkalnaya jizn», № 16, 1986).

Qeyd olunanlar balet solistlərinə də aiddir. Sübut üçün SSRİ xalq artisti Vladimir Vasilyevin bir mülahizəsinə diqqət yetirək: «...Aktyorun sənə dediklərindən başqa, dünyada nə var, hamısını unudub, ancaq onun fikrinin intonasiyasını və incəliklərini duymalı – belə anlar mənim həyatımda bir neçə dəfə baş verib.

Bunlardan biri – Vladimir Pletnyovun P.İ.Çaykovski adına Konsert zalında «Muğamda» çıxışı zamanı baş vermişdır. Baxın, nədir onun oyunundakı səciyyəvi əlamətlər? İndi, onun rəqsini hafizəmdə canlandırıb, bütün təfərrüatı ilə ən incə cəhətlərini görürəm: astaça tullanır, qısa addımlar atır..., ehmalca sıçrayır, bütün bunlara o vaxtlar mən diqqət verməmişdim, o vaxtlar hər şey mənə gözəl görünürdü....

Bu rəqqasın gözəl sənətinin gücü nədə idi? Bu mahir sehrbazın əfsunu nədədi? Ən başlıcası onun olduqca nadir artistlik məharətində idi. Musiqi onun iliyinə işləmiş və varlığına hakim kəsilərək, oyunu ilə qaynayıb qarışmışdı.

Volodya rəqsin şairi doğulmuşdu, buna görə də onunla çox asan və aydın dillə danışırdı. Bunu öyrənmək qeyri-mümkündür".

Y.Qolovanovun qeyd etdiyi kimi (İzvestiya, 5.04.1986), Y.A.Qaqarinin ən böyük məziyyəti, onda başlıca üstünlüyün olmaması, «həmişə «birincilərdən biri» olub heç vaxt axırıncı olmaması idi. Skripkaçı İequdi Menuxin hesab edirdi ki, o, dünyada ikinci skripkaçıdır, birincilərsə çoxdur.

R.Vaqner və E.Meyerhold hesab edirdilər ki, muğənninin oxuduğu mahnı, eləcə də artistin dediyi sözlər məharətlə ifa olunmasından asılı olmayaraq, qəhrəmanın daxili aləminin bütün hiss və həyəcanını verə bilmir. Odur ki, elə vasitələr axtarıb tapmaq lazımdır ki, deyilməmiş – gizli nə varsa hamısını ifadə etmək mümkün olsun. Əgər müğənniyə belə bir köməyi orkestr edə bilirsə, dram artisti buna plastik hərəkətlərinin mükəmməlliyi vasitəsilə nail ola



bilər. Plastiklik haqqında Meyerhold deyirdi: «İki nəfər hava, incəsənət və mənzil barədə söhbət edir. Onları kənardan seyr edən 3-cü şəxs – əlbəttə, o, az-çox həssas və diqqətlidirsə – bu iki nəfərin qarşılıqlı münasibətlərinə dəxli olmayan əşyalar barədə söhbətinə əsasən onların dost, ya düşmən, ya da mehriban olub-olmadıqlarını dəqiq təyin edə bilər. Çunki, söhbət edən həmin iki şəxsin əllərinin hərəkəti, duruşları, baxışları, bir-birinə ədaları və s. onların qarşılıqlı münasibətlərini təyin etməyə imkan verir. Bu, ondan irəli gəlir ki, hava, incəsənət və b. haqqında həmin iki şəxs elə hərəkət edirlər ki, danışdıqları sözlərlə uyğun gəlmir. Sözlərlə uyğun gəlməyən həmin hərəkətlərə görə, iki şəxsi seyr edən adam, söhbət edənlərin kim olduqlarını – dost, rəqib, sevgili – təyin edir».

Jestlər, duruşlar və baxışlar adamların bir-birinə münasibətinin həqiqi mənzərəsini verə bilir.

Pekin operasında artistin ustalığı aşağıdakı elementlərdən ibarətdir:

1. Oxumaq. Bu, personajın hiss və həyəcanını verməkdə böyük rol oynayır;
2. Reçitativ;
3. Akrobatika;
4. Plastlka.

Jest məharəti – əsərdə iştirak edən şəxsin sürətini açmaq, onun hiss və həyəcanını büruzə vermək vasitəsidir.

Bu yaxınlarda P.V.Simonovun rəhbərliyi altında istedadın müəyyən edilməsi ilə əlaqədar tədqiqat aparmağa başlamışlar. Artist rola girən kimi onun elektrokardioqramı qeyd olunmuş, dərisinin elektrik potensialı ölçülmüş, səsi maqnit lentinə yazılmış, sonra yazılar EHM-də tezlik spektri təhlilinə verilmişdir. Cihazlar göstərmişlər ki, öz oyunu ilə tamaşaçını aludə etmiş aktyorun özü personajın emosional vəziyyətini bütün dərinliyi ilə duyur və həyəcan keçirir.

Ehtimal ki, deyilənlər beynin ritmlərinə də təsir göstərir.

Adamları müayinə edərkən (Moskva təcrübi tibb institutu və Krasnodar tibb dispanseri), onlara bir neçə elektrodun köməyilə

elektrik proseslərini izləmək təklif olunur. Təcrübəni iki elektrodla apardıqda elektrodlardan birini biləyə bağlayıb, digərini isə başın dərisinə yapışdırırlar. Potensialın normadan kənara çıxdığı xüsusi halda, idmançının bütün oyun ərzində xokkey meydançasında oyunda qala biləcəyini müəyyən etmək olar.

Fransız psixiatrları tərəfindən bir qrup ruhi xəstə rəssamların, bir qrup rəssam olmayan ruhi xəstələrin və bir qrup da sağlam peşəkar rəssamların müayinəsinin nəticəsi də maraqlıdır. Qoya, Qogen, Van-Qoq və başqa görkəmli rəssamların yaradıçılıqları da təhlil olunmuşdur. Bu təhlil nəticəsində, ancaq xəstə, sağlam və peşəkar rəssamları birləşdirən əlamətlər, eyni zamanda yalnız xəstə «incəsənətə» – həm peşəkar, həm də peşəkar olmayanlara xas olan əlamətlər aşkar olunmuşdur. Şizofreniyaya mübtəla olmuş xəstələr – istər rəssamlar, istərsə də rəssam olmayanlar şəkilləri çərçivələrlə məhdudlaşdırırlar. Ancaq çərçivə daxilinə şəkil çəkmişlər. Bu vaxt onlar «öz» çərçivə sahələrini 3 – 4 üfüqi zolaqlara bölmüş və aşağıdan yuxarıya doğru doldurmağa başlamışlar, özü də ən yuxarı zolaqda o adamı yerləşdirirlər ki, hər şey ondan asılıdır.

Xəstəliyin təsirindən psixika «laxlayır», get-gedə sönməyə üz tutur və müasir təfəkkür vərdişlərini itirir. Hər iki qrup xəstələr üçün uşaq yaradıcılığında olduğu kimi şəkillər bir-birinin üstünə «çıxır». Məsələn, qayıq hər şeyi örtür, o, göydən də yuxarıdadır. Çünki xilas olmaq, ancaq qayıqda mumkündür. Yaxud balaca qayıq və nəhəng adam. Maniyalı (ruhi xəstə) xəstələrin şəkillərində gözlər daha qabarıq verilir, belə ki, hamı bir-birinə nəzarət edir, heç kəs bir-birinə arxa çevirmir – çünki bu, təhlükəlidir.

Maniakal xəstələrdə şəkil bütün ayrılmış sahəni doldurur. Bu, psixikanın həddən artıq izafi işinin nəticəsidir. Odur ki, şəkillərin bu cür təhlil xüsusiyyətləri diaqnoz qoymağa əlavə köməklik göstərir. Beynin elektrik fəallıqının təhlilinin şəkil təhlili ilə əlaqələndirilməsi gələcəkdə şəxsiyyətin qrafik tədqiqinin əsasını təşkil edəçəkdir. Sonrakı tədqiqatlar nəyə gətirib çıxaraçaq? Hər halda aydındır ki, zövqü kəmiyyətcə qiymətləndirmək imkanı var, özü də nəinki təkcə zövqü.



İkisi də eyni səviyyədə və eyni dildə danışan adamlar bir-birini başa düşür.

Çin dilində danışılan ən yaxşı lətifə, çətin ki, bizlərdə gülüş doğursun və hətta on çin zarafatı belə, bır dəfədən artıq gülüş doğura bilməz. Ona görə də incəsənət əsərinin şöhrət tapması və ürəklərə yol açması üçün həmin əsər tamaşaçının başa düşə biləcəyi dildə yazılmalıdır, əks təqdirdə o əsər nə qədər rəngarəng olsa belə tamaşaçıya iyrənç, darıxdırıcı görünəcəkdir. Bizi hər cür qarma-qarışıqlıq yox, yalnız bələd olduğumuz və yaxşı tanıdığımız təzadlar təəccübləndirə bilər...

Dünya ədəbiyyatının və mədəniyyətinin nailiyyətləri ilə tanışlıqda tərcüməçilərin rolu olduqca böyükdür. Bu haqda V.Q.Belinski hamıdan sadə və dolğun şəkildə məsləhət görür ki, mövzunu rus dilinə «elə çevirmək lazımdır ki – müəllif rus olsaydı, bax, belə yazardı» – desinlər.

Şillerin dedikləri daha ümumidir: «Mən tərcümə olunan əsərdən tələb edirəm ki, həmin əsər yazıldığı dilin yox, tərcümə olunduğu dilin bütün əzəmətini və dühasını özündə əks etdirsin».

T. Kampanella yazırdı ki, bəzi tərcüməçilər daha çox satqın adlandırılmağa layiqdirlər.

İtalyanlar deyirdilər – traduttore, traditore (traduttore, traditore) – tərcüməçi – satqın.

Bəziləri istədiyi dildən tərcümə edir, halbuki, həmin dilin qrammatik xüsusiyyətlərindən az da olsa xəbəri yoxdur. Bundan başqa, onlar çoxlu söz ehtiyatı, zəngin məcazları və təşbehləri, min bir çalarları ilə fərqlənən müəlliflərə müraciət edirlər. Elə əsərlər var ki, onların tərcüməsi – rəssamın insan qəlbini vermək üçün bədəni çəkməsinə bənzəyir.

Mirzə İbrahimovun əsərləri rus dilinə müxtəlif müəlliflər tərəfindən tərcümə olunmuşdur. Onların arasında Əziz Şərif, Çingiz Hüseynov və Əkbər Babayevin yaradıcı tərcümələri xüsusi yer tutur. Belə ki, «Gələcək gün» romanı Əziz Şərifin tərcüməsində, qəhrəmanın bəzi tələffüz maneraları saxlanmaqla bir çox xarakterik

xüsusiyyətlərini daha dərindən başa düşməyə imkan verir, yəni oxucunu M.İbrahimov səviyyəsinə qaldırır.

Güman ki, yaxşı tərcümə üçün dili dərindən bilməkdən əlavə, xalqa məxsus «incəliklərə» də bələd olmaq lazımdır.

Belə ki, K.Prutkovun əsərləri, başqa dillərə nadir hallarda tərcümə olunmuşdur. V.Skvoznyakov hesab edir ki, çox sağlam surətdə milli özünüdərketmədən gələn bu cür, bilavasitə tərcümə oluna bilməyən yumorun xüsusiyyətini izah etmək çətindir.

Bu deyilənlər Azərbaycan şeirində inqilabi satiranın banisi, ölməz M.Ə.Sabir yaradıcılığına daha çox aiddir. Sabir sənətinin əzəmətini, qüdrətini, duzunu və məzəsini heç bir tərcümə olduğu kimi verə bilmir.

Rus dilini bilən Prosper Merime göstərir ki, A.S.Puşkinin şerlərini tərcümə edərkən çox böyük çətinliklərlə qarşılaşmışdır. 1851-ci ildə o, yazırdı: «Nə dərəcədə haqlıyam bilmirəm, ancaq deyə bilərəm ki, rus dili bütün Avropa dillərindən ən zənginidir. Elə bil ki, o ən incə mətləbləri bütün təfərrüatı ilə ifadə etmək üçün yaranmışdır. Onun ecazkar yığcamlığı və bununla bərabər səlisliyi, bir sözlə min bir məna ifadə etməyə imkan verir. Halbuki başqa dillərdə bu mənanı ifadə etmək üçün çoxlu kəlmələr işlətmək lazım gəlir. Yunan və latın sözlərilə zənginləşmiş, özünün bütün şimal və cənub xalq ləhcələrinin, Rable dilinin köməyilə yalnız fransız dili onun (rus dilinin) mütəhərrikliyi, onun gücü haqqında müəyyən anlayış verə bilər».

Tərcüməçilik çətin və gərgin əmək tələb edən bir sənət və ədəbi proses növüdür. Bu sənət, tərcüməçinin tərcümə etdiyi dilə dərin bələdliyi ilə bərabər, həmin dilli digər xalqların həm ədəbiyyatından, həm tarixindən, ümumiyyətlə, bütün milli xususiyyətlərindən xəbərdar olmalı, nəinki təkcə xəbərdar olmalı, hətta onun bütün dil çalarlarını özününkü etməlidir.

Ölməz şairimiz Səməd Vurğun böyük rus şairi A.S.Puşkinin «Yevgeni Onegin» mənzum romanını Azərbaycan dilinə, Puşkinin dilinə, o dövr rus ədəbiyyatına, rus mədəniyyətinə, rus məişət tərzinə müstəsna bir yaxınlıq, doğmalıq baxımından tərcümə etmişdir. Şair öz yazılarından birində qeyd edirdi ki, Puşkin sağ olsaydı, mən ondan xahiş edərdim ki, «Yevgeni Onegin»ə Azərbaycan dilində «mənim əsərim deməyə icazə versin». Çünki Puşkin bu əsəri nə cür heyrətamiz ilhamla yazmışsa, S.Vurğun da həmin məqamla səsləşən qüdrətli yaradıcılıq təxəyyülünün ilahi imkanları ilə tərcümə etmişdir. S.Vurğun «Yevgeni Onegin»i o qədər mənalı, o qədər Puşkin ruhuna, Puşkin təbinə doğma, hətta orijinalın formasını saxlamaqla, tamamilə və böyük bir yaradıcılıq məharətilə tərcümə etmişdir. Bəlkə də yuxarıda qeyd etdiyimiz kimi, müəllif Azərbaycan dilini bütün incəlikləri ilə bilsəydi, bu bənzərsiz mənzum romanı Azərbaycan dilində bax, elə bu cür yazardı. S.Vurğun bu haqda 1936-cı ildə özü belə yazırdı:

> Axıtdım alnımın inci tərini,
> Yanmadım ömrümün iki ilinə.
> Rusiya şeirinin şah əsərini
> Çevirdim Vaqifin şirin dilinə.

Hərarətli, səmimi, orijinalın dilinə və müəllifin yaradıcılığına böyuk məhəbbətlə tərcümə nümunələri kimi, böyük və mütərəqqi türk yazıçıları Rəşad Nuri Güntəkinin "Çalıquşu" romanının, Ömər Seyfəddinin və başqa türk ədiblərinin hekayələrinin İqor Peçenev tərəfindən rus dilinə tərcümələrini də göstərmək olar.

Bir çox tənqidçilər, Stokovskini barokko (XVI – XVIII yüzilliklərdə yayılmış bədii üslub) dövrünün musiqisini – məsələn, Baxın orqan üçün yazdığı əsərləri müasir orkestrə uyğunlaşdırması üstündə tez-tez məzəmmət edirdilər. Stokovski onlara belə cavab vermişdir: «Musiqini müasir orkestr uçün uyğunlaşdırmağı, hər hansı kitabın bir dildən başqa bir dilə tərcüməsiylə müqayisə etmək olar. Mən Çin poeziyasını və fəlsəfəsini sevirəm, ancaq çin dilini öyrənməyə vaxtım yoxdur. Mən Li Bo və Laoszın əsərlərini alman dilinə tərcümədən oxumuşam və tərcüməçilərə ürəkdən təşəkkür edirəm.

Baxın ən böyük əsərlərindən bəziləri orijinalda, güman ki, onun bir zamanlar tamamlaya bilmədiyi eskizlər şəklində idi. Mənə belə gəlir ki, bütün musiqisevərlər imkan tapıb bu əsərlərlə tanış olmalıdırlar. Bax, elə buna görə də mən onları orkestr üçün uyğunlaşdırıram.

Bəzi cənablar, ümumiyyətlə, yenidən işləməni və uyğunlaşdırmanı yaxın qoymurlar. Ancaq musiqi tarixində ən çox uyğunlaşdırma (bir musiqi aləti üçün yazılmış musiqini başqa musiqi alətinə uyğunlaşdırmaq – tərc.) edən bəstəkarlardan biri elə Baxın özüdür. Deməli, prinsip etibarilə o, uyğunlaşdırmanın əleyhinə olmamışdır».

Ç.Dikkensin romanlarının İ.Vvedenski tərəfindən tərcüməsi haqqında K.Çukovskinin mülahizəsi deyilənlərlə həmahəng səslənir: «hər halda onun tərcümələri mənə doğma və əzizdir. Eybi yox, onun səhvləri çoxdur, ancaq onsuz bizim Dikkensimiz olmazdı... Əlbəttə, özündənuydurma – yolverilməz şeydir, ancaq bəzən Vvedenskinin özündənuydurması mövzu ilə elə ahəng təşkil edir ki, onların üstündən xətt çəkməyə adamın heyfi gəlir».

A.S.Puşkin əsərlərinin yapon dilinə tərcüməçiləri Turgenev və Merimenin «prozaizm» yolu ilə, yəni vəznli şeiri sərbəst şeirə, hətta nəsrə çevirmək yolu ilə getmişlər.

Tərcüməçilərə ehtiram hissi ilə qeyd etmək lazımdır ki, Şekspiri, Dümanı, Dikkensi, Rollanı və bir çox başqalarını bizə, A.S.Puşkini, Dostoyevskini, L.Tolstoyu, A.Tolstoyu, Çexovu, Qorkini, S.Vurğunu, N.A.Tixonovu, R. Həmzətovu, Ç.Aytmatovu, Q.M.Markovu milyonlarla xarici oxuculara çatdırmaqda onların xidməti əvəzsizdir.

Bəzi sözlərin dəqiq tərcümə olunmaması bir çox anlaşılmazlıqlara gətirib çıxarır. Məsələn, L.Uspenskiyə aid olan və hətta 1984-cü ildə «Məktəblinin təqvimin»ə düşmüş «yoldaş» sözünün kökündəki məna ayrılığına diqqət verək. Nədənsə türk dillərindəki «eş» (iş) sözü rus dilinə «rabota» yox, «druq» sözü şəklində tərcümə olunur. Bu cür ilk mənbədən düzgün tərcümə olunmayan «yoldaş» sözü «şərik» kimi qəbul olunur («tovariş» – «sovladeles»). Daha düzgünü – bunlar «əmtəə ilə işləyən» (lyudi «rabotayuşiye s tovarom») adamlardır.



Hazırlıq səviyyələri eyni cür olan mütəxəssislər bir-birlərini düzgün başa düşürlər, daha doğrusu, qarşılıqlı anlaşma kifayət qədər yaxın olan inkişaf səviyyələrində mümkündür. Bir şəxs tərəfindən verilən xəbər elementlərinin əksəriyyəti, artıq bu xəbərlərin ünvanı olan ikinci şəxsin hafizəsində yerləşirsə, qarşılıqlı anlaşmaya məlumat rezonansının əmələ gəlməsi kimi baxmaq olar.

Eyni bir «mənbə» (xəbər mənbəyi), məsələn, ali riyaziyyat dərsliyi – məktəbəqədər yaşlı uşağa heç bir məlumat vermir (çünki, tezaurus[1] hazırlanmamışdır), tələbə-riyaziyyatçıya maksimum məlumat, professor riyaziyyatçıya isə heç bir məlumat vermir (çünki, tezaurus doymuşdur).

Uyğun olaraq, bədii əsəri qavramaq üçün beyin həmin incəsənət növü üzrə bəzi tezaurusa malik olmalıdır.

Qavrayış həmin andakı hisslərin və uzun illər qazanılmış təcrübələrin cəmidir.

D.Meyc belə bir misal gətirir: sınağa dəvət olunanlara şəhərətrafı kottecin hasarla dövrələnmiş təsviri verilmişdir. Ön planda balaca darvaza görünür və onun yanında dirəkdən asılmış nəsə bir lövhə var. Lövhədə hərflər o qədər kiçik və dolaşıqdır ki, yazını, hətta böyüdücü şüşənin köməyilə belə oxumaq mümkün olmadı. Ancaq sınaq aparanın – «lövhədəki yazını oxuya bilən varmı?» – sualına sınağa dəvət olunanların 80 faizi müsbət cavab vermişdir: «Kənar şəxslərin daxil olması qadağandır. Xüsusi mülkdür».

Sınananlar «lövhəçiyi» oxumağı, ancaq ona görə bacarmışlar ki, onlar indiyə qədər bu çür lövhələri dəfələrlə görmüşlər, daha doğrusu, təçrübə onlara şəkli necə qavramağı «böyürdən» gizliçə pıçıldamışdır.

Hər bir bilik böyük enerji sərfi tələb edir. Belə ki, musiqini *yenicə dinləməyə* başlayan çoxlu təcrübə əldə etməlidir ki, nəticədə eşitdiklərini ardıcıllıqla fərqləndirə və ayıra bilsin:

1. Ayrı-ayrı frazaları (melodiyaları);

[1] Tezaurus (yun. thesaures xəzinə, ehtiyat).

2. Uzunsürən parçaları,

Bunlardan sonra musiqi əsərini bütövlükdə əhatə etmək olar.

Xalqın müdrik söz xəzinəsindən bəzilərini musiqiyə də aid etmək olar: Kor dedi – görmək, kar dedi – eşitmək lazımdır, yəni həm yüz dəfə eşitmək, həm də yüz dəfə görmək yaxşıdır. Əslində belə deyilir: «Yüz dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır». Sokrat deyir: Yüz dəfə görməkdənsə bir dəfə eşitmək də yaxşıdır.

Y.Korev, D.D.Şostakoviçin yarızarafat bir mülahizəsini belə xatırlayır: «Əgər eşitdiyiniz bir musiqi əsərini o biri günün səhəri və ondan sonra xatırlayırsınızsa, deməli həmin əsər böyuk bir istedadın məhsuludur».

Y.Korev haqlı olaraq qeyd edir ki, bu cür mühakimə etməyə mənəvi haqqın olması üçün D.D.Şostakoviç olmaq lazımdır, amma prinsip etibarı ilə – parlaq, təzə və qeyri-adi olanı – yadda saxlamaq keyfiyyəti hamıya aiddir.

Başqa bir nöqteyi-nəzər Platon (Əflatun) tərəfindən təqdim edilmişdir. O, hesab edir ki, musiqi haqqında ondan alınan zövqə görə mühakimə yürütmək olar, ancaq eyni zamanda o musiqi əladır ki, ondan ən yaxşılar həzz alır.

İncəsənət əsərinin əsl ömür qazanması və yaşaması üçün müəyyən şərtlərə əməl olunması lazımdır. Bu münasibətlə böyuk Qara Qarayevin bir fikrinə diqqət yetirək: «Əsl musiqi əsəri, mənim fikrimcə, hər şeydən əvvəl, inandırıcı və mükəmməl ifadəli müsbət ideyaya malik olmalıdır.

Bundan başqa, musiqi əsəri aşağıdakı tələblərə cavab verməlidir:

1. Konsertlərə və tamaşalara qeyri-müntəzəm gələn, adi dinləyicilərdə də emosional hisslər oyatmalıdır;

2. Təçrübəli musiqisevərlərdə intellektual maraq və emosional hisslər oyatmalıdır;

3. Peşəkar – musiqiçilər, musiqişünaslar və bəstəkarlar üçün yeni məlumatlar gətirməlidir».



## § 27. TƏSNİFAT HAQQINDA BİR NEÇƏ SÖZ

«Heç nəyə və heç kimə oxşamayan
heç nə və heç kim yoxdur».

*Pol Valeri*

Tamaşaçının da, oxucunun da, dinləyicinin də bir-birinə bənzəməyən öz mülahizəsi, öz təcrübəsi var. Hər hansı sənət əsərindən müəyyən məlumat alan şəxsin həmin məlumatı ümumiləşdirmədə iştirak edə bilməsi üçün, əsər onun təcrübəsinə üstün gəlməməlidir. Bu barədə L.N.Tolstoy deyirdi: «Sənət əsərinin həqiqi bədii təəssürat bağışladığı adama elə gəlir ki, o, bunu əvvəlcədən bilirdi, ancaq ifadə etməyi bacarmırdı».

Şəri və yalanı görməyə məcbur etmək, dəhşətə gətirmək, görünməmiş ədalətsizliklərlə inləyən bir dünyada yaşamağın imkansızlığını və qeyri-mümkünlüyünü başa salıb hiss etdirmək – Qarşinə görə incəsənətin əsas məsələləri bunlardır.

Əsərin bədiiliyi, müəyyən dərəcədə, «bayağı – aydınlıqla» «orijinal – yeniliyin» arasında yerləşən «müvazinət nöqtəsinin» yerini «orijinal – yeniliyə» tərəf sürüşdürməklə təyin olunur. Bu yerdəyişmənin həddindən artıqlığı incəsənət üçün öldürücü zərbədir. Görkəmli rejissor M. Akimov yazır: «...Əgər tamaşaçı səhnədə özü üçün qətiyyən yeni heç nə, öz təcrübəsini zənginləşdirəcək heç şey görmürsə..., səhnə ona gündəlik məişətini nə qədər təsirli vasitələrlə xatırlatsa da, o, teatrda vaxtını nahaq itirəçəkdir. Əsərin başa düşülməsinin sirri iki başlanğıc arasında yerləşir».

Fikri axıradək deməmək, təxəyyülə geniş yer vermək, müşahidəçi fantaziyasından istifadə etmək, tamaşaçını əsəri qavrama prosesinə cəlb etmək – müasir incəsənətin ən çox sevdiyi üsullardır. Bu gün tamaşaçı – emosional və məntiqi məsələlərin həlli prosesinin ən başlıca iştirakçısıdır, incəsənət intellektuallaşıb, daxili həyəcanlar dərketməyə əsaslanır.

Bədii ədəbiyyatı qavramanın təsnifatı şəxsiyyətin fizioloji, psixoloji və başqa xüsusiyyətləri nəzərə alınmaqla qiymətləndirilir. Əgər temperamenti aksent (tələffüz) kimi qəbul etsək, onda

sanqvinikin (çılğın adam) beynində əsas işi bütün biliklərə böyük həvəs göstərən, daim təzələnən, lakin çox da dərin olmayan çoxlu məlumata ehtiyaç duyan (bu diletantizmdir[1]) «zövq mərkəzi» yerinə yetirir. Bu çür şəxslər incəsənətin yüngül, əyləndirici növündən ləzzət alırlar. S. Kartaşevin fikrincə xoleriklər öz xarakterlərinə uyğun olaraq, kəskin süjetli kitabların təsirinə asanlıqla düşürlər.

Profsssor K.Leonqard ədəbi-bədii əsərlərdəki şəxsiyyətlərin müxtəlif tiplərini təyin edir, o cümlədən lovğa (Molyerin Tartüfü), həyəcanlı (Dostoyevskinin D.Karamazovu), vasvası (Çexovun «Çinovnikin ölümü» hekayəsinin qəhrəmanı), ləng (Şillerin «Qaçaqlar» pyesində Karl Moor).

Tipoloji təsnifata fiziologiyanın və psixologiyanın qovşağında baxaq, incəsənətin introventlər tərəfindən onun mikro aləminin dərinliklərinə təsirini müşahidə etməyə imkan verir. Bunun üçün incəsənət şəxsin özündə «toplanmışları»da əhatə edir. Yenə də qiymətləndirmənin nəticəsi kimi çoxkriteriyalılığa gəlib çıxdıq.

Bu cür mürəkkəblik, səslərin (bas, tenor, sopnrano və b.) tipologiyasında da baş verir. Müğənninin səs növünün düzgün təyini böyük əhəmiyyətə malikdir, ancaq məsələ təkçə bunda deyil. Kompleks tipologiya elə təsnifat yaratmaqa imkan verərdi kl, bu, həm müğənni, həm də bəstəkar üçün faydalı olardı. Yussonun və Şenenin tərtib etdikləri səslərin məşhur təsnifatı adi səs təsnifatından onunla fərqlənir ki, burda səs sırası xeyli çoxdur. Belə ki, 17 kişi səsi və 10 qadın səsi sırası. Əgər müğənni iki oktavalı səs diapozonuna malikdirsə və eyni zamanda hər hansı müəyyən «xalis səs növünə» uyğun gəlmirsə (təsnifat bölgüsündə yuxarı pillədə yerləşən), o «özünəməxsus səsli», «kamera musiqisinə uyğun səsə malik» kimi titullara layiq görülür.

Özündə lazımsız təkrarları inkişaf etdirən, lazım gəldi-gəlmədi müsahibiylə hündürdən danışmaqla onun müqavimətini dəf edən xüsusi tiplər çox maraqlıdırlar.

[1] Diletant (ital. Dilettent lat. delectare) incəsənət növü və ya elm sahəsi ilə xüsusi hazırlığı olmadan çalışan həvəskar adam.



Məsələn, Balzakda tez-tez hər bir sonrakı fraza, özündən qabaqkına nisbətən parafraza kimi danışığa daxil olur (Qobsekin xarakteristikasında insanın hisslərini sıxan eyni bir motiv inkişaf etdirilir və müxtəlif detallarla, misallarla, rəsmlərlə və ümumiləşdirmələrlə böyüyür).

İncəsənət əsərinin qavranışında çoxkriteriyalı problemlə qarşılaşırıq. İncəsənət əsərinin model və tipoloji nöqteyi-nəzərdən qiymətləndirilməsi şəxsiyyətin formalaşmasına uyğun gəlir.

Belə ki, Stendal üçün – doğruluq və həqiqət yalnız təfərrüatlardadır.

L.N.Tolstoy bütöv doğruluğu xüsusiyyətlərin doğruluğu məcmusunda axtarır. L.N.Tolstoy təhlil yolu ilə gedərək onu o qədər dərinləşdirir ki, bütün pərakəndə nöqteyi-nəzərlər birləşməyə və Pyerin yuxuda gördüyü rəngarəng zərrələrin əmələ gətirdiyi canlı bir aləm kimi varlıqla qovuşmağa başlayır. M.Baxtinin qəbul etdiyi tək, Dostoyevski, polifoniyanın əsl yaradıcısı kimi, onu o dərəcəyədək dərinləşdirir ki, həddindən çox pərakəndə səslər, konkret fərdi idrakın canlı bütövlüyündə bir-birilə səs-səsə verərək birləşməyə başlayırlar.

Real tarixi şəxslərin (Aleksandr, Napoleon, Kutuzov) uydurulmuş qəhrəmanların köməyilə təsviri L.N.Tolstoy tərəfindən ardıcıl olaraq işlədilmiş bir kəşfdir. Əvvəllər ədəbi tənqid onu qəbul etmədi, lakin sonralar bu kəşf ədəbiyyatda dərin kök saldı.

Stendal və Tolstoy elə sənətkarlardandır ki, Stendalın təbirincə, onlar bütün ömürləri boyu «beş-altı» ideya irəli sürürlər. Halbuki, Dostoyevski və Balzak bütöv bir «ideyalar birjası» yaratmışlar.

Ədəbiyyatda belə bir müqayisə aparırlar: belə ki, Tolstoyun romanı mütləqiyyətlə müqayisə edilir və göstərilir ki, orda bir çox ağıllar və iradələr meydan açıb toqquşur, lakin kimin haqlı, kiminsə günahkar olduğu haqda son hökmü hökmdar verir: Dostoyevskinin romanlarını isə parlamentlə müqayisə edir və göstərirlər ki, orada müəllif özünə yalnız spiker (palatanın sədri) vəzifəsini götürüb.

L.N.Tolstoyun romanlarını olduqça mürəkkəb, lakin ağlın dərk edə biləçəyi üç ölçülü fazada vahid koordinat sistemli Nyuton

kainatı ilə də müqayisə etmək olar. Dostoyevskinin romanı isə, eynihüquqlu sonsuz sayda hesabat başlanğıcına malik nisbi kainatdır.

M.Şaqalın təsviri sənətini bir qədər yekrəng səciyyələndirərək, V.Katayev hesab edir ki, o, Qoqolun ikicə səhifəsini işləyir: «Taras Bulba Varşavaya gedir və yolüstü bir yahudi qəsəbəsində dayanır».

Deyilənlər, Kiçik Sovet ensiklopediyasında (9-cu cild, 1931) M.Şaqalın yaradıcılığına verilən xarakteristika ilə uyğun gəlir: «...M.Şaqalın rəsmlərinin mövzusu— yəhudi qəsəbə və şəhərlərinin kiçik meşşan məişəti, onların oturaq həyat tərzinin təsvirindən ibarətdir».

V.Q.Belinski qeyd edirdi ki, Şillerin qəhrəmanları, bir qayda olaraq, müəllifin ideyalarına uyğun hərəkət edirlər. Şekspirin personajları isə hərtərəfli açılmış xarakterlərdir. Deyilənlərlə əlaqədar olaraq Puşkinin həyatından qəribə bir əhvalata diqqət yetirək: o, knyaginyaya söyləyir ki, Tatyananın Onegini rədd edəcəyini heç gözləmirmiş.

Konan-Doylun Şerlok Holms haqqında yüzə qədər hekayəsinə V.Şklovski vahid nümunəvi süjet kimi baxır. Bu halda hekayələrin ümumi strukturunu doqquz məqam təşkil edir: 1. Gözləmə; 2. Müştərinin peyda olması; 3. Hadisə yerinə getmə; 4. Dəlil; 5. Doğru olmayan şərh və s.

Bu məqamların müxtəlif hekayələrdə müxtəlif cür həyata keçirilməsi ümumi strukturu dəyişdirmir.

Amerika tədqiqatçısı Robin Uinks ingilis «Klassik detektiv»inin strukturunda 4 hissə səciyyələndirir:

1.Baş vermiş hadisə – soyğunçuluq və ya ölüm;

2.Səbəbi müəyyən etmək və dəlil toplamaq;

3.Hadisələri real ardıcıllıqla sıraya düzmək;

4.Başlanğıca qayıtmaq, həqiqəti müəyyən və cinayətkarı ittiham etmək.

İkinci hissədə oxucuda yanlış təsəvvür yaratmaq üçün detallar əsas yer tutur.



«Məhkəmələr və hakimlər haqqında» (Qlavnaya redaksiya vostoçnoy literaturı, M., 1983) kitab tərtib etmiş M.S.Xaritonova belə hesab edir ki, məcmuədə verilmiş bütün hekayələrdə başlanğıc hadisələrin rəngarəngliyi şəraitində kompozisiya quruluşu, adətən, 5 əsas elementə malikdir:

1.Münaqişənin baş verməsi (mübahisə, iddia, höcətləşmə);

2.Məhkəməyə müraciət (çağırış);

3.Məhkəmənin hökmü;

4.Bir çox hallarda, həmdə – hökmə qarşı reaksiya.

Kifayət qədər əsaslandırılmamış oxşarlığa dair misal kimi aşağıdakına diqqət yetirək.

J.Sadulla söhbətə istinad edərək, yüz filmdən yalnız altısı və ya yeddisi əsl müvəffəqiyyət qazanır – deyən kinorejissor Y.Seqellə razılaşmaq çətindir. O, yazır: «Bu, idmanda olduğu kimidir – çempion adı almaq uğrunda bir çox ləyaqətlilər mübarizə aparır, ancaq çempion bir nəfər olur. Lakin, bu o demək deyildir ki, bütün yerdə qalanlar idmanla məşğul olmamalıdırlar. Buna görə – çarə nədir? – Həmişə, o qədər də uğurlu olmayan və zəif filmlər olacaqdır».

Tutaq ki, adam 100 filmin hamısına baxır, bu şərtlə ki, bütün filmlər ekrana verilir, ancaq 6 – 7-si uğurludur. Bu filmlərdən hansı ən çox onun zövqünü formalaşdıracaqdır? Çox az f. i. ə. Zaman keçdikcə bu, resipiyenti kinematoqrafdan uzaqlaşdırmazmı? Təbii ki, burada filmlərə qiymət veriləndə resipiyentin fikri əsas götürülür. Qeyd etmək lazımdır ki, zəmanəmizdə bəşəriyyətin bütün fəaliyyət sahələrində iqtisadi faktor da az əhəmiyyətli rol oynamır. Sözün geniş mənasında iqtisadi faktor istehsalatın, mədəniyyətin, ümumiyyətlə, hər bir fərdin yaşamaq, mövcud olmaq yox, ancaq insan kimi yaşamaq tərzinin funksional ifadəsidir.

Fəqət, hazırkı texniki tərəqqinin vəziyyəti bəşəriyyəti mozaik dilemmalar qarşısında qoymuşdur. Nüvə silahlarına, suüstü və sualtı hərb gəmilərinə, ulduz müharibəsinə sərf olunan ağlasığmaz xərclər, nəinki ayrı-ayrı ölkələrin iqtisadiyyatına, hətta bütövlükdə Yer kürəsinin iqtisadi vəziyyətinə kökündən zərbələr vurur.

«Dünya hakimləri nüvə müharibəsinin qarşısını almaq uğrunda» adı altında keçirilən mötəbər konfransda bir nəfər amerikalı alim nüvə müharibəsinin ağılsızlığını və mənasızlığını tribunadan əyani şəkildə nümayiş etdirmişdir. O demişdir: Dünyaya hər saniyədə bir uşaq gəlir və bir uşaq da ölür. Həmin saniyədə bütün dünya üzrə silahlanmaya 25 min dollar xərclənir. Bu qədər xərc bütün inkişaf etməkdə olan ölkələrin xalqlarını maksimum yeməklə və tibbi yardımla təmin etmək üçün kifayətdir. Silahlanmaya hər gün 2,2 milyard dollar sərf olunur, lakin ümumdünya səhiyyə təşkilatı, ürək-damar patologiyası probleminin həlli üçün ildə təxminən dörd milyon dollar yardım alır. Aydındır ki, nisbət səhiyyənin xeyrinə deyil.

Lakin bizim ümidsizliyə qapılmağa haqqımız yoxdur. Çünki ağıl qalib gəlməlidir və bundan ötrü isə mübarizə aparmaq lazımdır. Ağlın bütün imkanlarından istifadə etməklə, bədii yaradıcılığın bütün vasitələrinə üz tutmaqla bu məsələnin həllinə nail olmaq olar. Ədəbi ictimaiyyət bu sahədə böyük iş görməlidir.

Bəlkə M.Qorkinin, vaxtilə arzuladığı sağlam düşüncəli, iti qələmli yazıçılar ordusu bu cəbhəyə səfərbərlik üçün lazım imiş. Yazıçıların birinci qurultayında o, beş nəfər dahi və qırx beş nəfər çox istedadlı yazıçılar (30 faiz və 90 faiz) arzuladığını bildirmişdir.

İqtisadi və ictimai məsələlərin həllində yaradıcılıq metodlarının da rolunu unutmaq olmaz.

1904-cü ildə Ranqun şəhərində Ceyms Xl-Co Birma ədəbiyyatında yeni janrın başlanğıcı hesab edilən bir roman çap etdirdi. Bu roman Aleksandr Dümanın «Qraf Monte Kristo» əsərinin yenidən işlənmiş variantı idi. Q.P.Popov yazır ki, müəllif: «...Aleksandr Dümanın əsərini elə məharətlə işləmişdir ki, onun romanının qəhrəmanları Birma həyatının real şəraitində fəaliyyət göstərən həqiqi birmalılar olmuşlar».

Çexovun hekayələrində elə qadın yoxdur ki, onu hər hansı gənc oğlan sevə bilsin... Amma Cek Londonun bütün qadın qəhrəmanları füsunkardırlar.



Psixoloqların nikah-sevgi münasibətləri üzrə apardıqları təhlillər nəticəsində müəyyən olmuşdur ki, kişi müəlliflərin əsərlərində aşağıdakı şablon-təkrarlar demək olar ki, səciyyəvi xarakter daşıyır: Ər – parlaq yaradıcı şəxsiyyətdir, arvad isə onun zəhmətkeş və təvazökar rəfiqəsidir və o, qabiliyyəti ilə o qədər də böyük təsir yaratmır, ancaq ev təsərrüfatına yaxşı rəhbərlik edir. Qadın müəlliflər isə öz əsərlərində tamamilə əks surətlər yaratmağa cəhd edirlər.

Bədii əsərlərdən nümunə kimi, üç qadın surətinin danışıq tonu münaqişənin müzakirəyə çevrilməsinə yaxşı misaldır: İbsenin Norası deyir: «Gərək biz oturub, başımıza gələnlərin hamısını müzakirə edək», Bernard Şounun Kandidası: – «Gəlin üç mehriban dost kimi oturaq və danışaq»; Cek Londonun Marqaret Çalmersi deyir: – «Gəlin bir yerdə oturub, ağıllı adamlar kimi danışaq».

V.V.Vorovski hesab edir ki, A.İ.Kuprində möhtəşəm çarpışmaların bədii gözəlliyi – öz-özünü qurban verməyin kədərində qovrularaq ağlayan, tənha və gözəl bir qadınla simvollaşdırılır.

Deyilənlər, hətta əri olmadan, uşaq arzulayan bəzi qadınların istəyini başa düşməyə imkan verir və təbii ki, arvadı olmayan uşaq arzulayan bəzi kişilərə haqq qazandırmır.

Kolric və Höte özləri necə idilərsə Hamleti də eynən eləcə təsəvvür edirdilər, halbuki onlar arasında qətiyyən oxşarlıq yox idi. Yəqin bu onun nəticəsidir ki, Şekspir Hamletin görkəmini bütün təfərrüatı ilə fərdiləşdirməmişdir. Oxucuların əksəriyyəti Hamleti artıq təsəvvür edirlər, ancaq əsərdə o, gonbul kimi təsvir edilir.

Görkəmli rejissər Edvard Qordon Kreq yazır ki, o, Hamleti «iri əllərə və ayaqlara malik, geniş açılmış gözləri olan, şir başlı qəhrəman bir adam» kimi təsəvvür edir.

A.Y.Postnov, Hamlet – Samoylov (quruluşçu N.P.Oxlopkovdur) haqında yazır: «Onun Hamleti haqqında deyə bilməzsən – bu mənəm, sənsən, odur... Qarşımızda son dərəcə ziddiyyətli hisslərə malik, ürəyindən qara qanlar axan bir insan durur. Elə bil ki,mən ona, onun daxili hiss və həyəcanlarını özümünkü ilə müqayisə etməyərək kənardan baxmışdım, ancaq Samoylov elə maksimum daxili səfərbərliklə oynayırdı ki, onun qəhrəmanını duymamaq

olmazdı. Bundan əlavə, mən şadam ki, tamamilə bir-birinin əksi olan iki Hamlet gördüm».

Məgər bütün bunlar, Hamletin tip olduğuna zəmanət vermirmi? Tipi insan növünün ayrıca bir hissəsi (milli, sinfi və s.) hesab edən bir tərif mövcuddur. Başqa bir tərifə görə isə, tiplər bütün milli, sinfi və digər məhdudiyyətlərdən kənara çıxır və hər bir adamın hər hansı bir əlamətini bildirir.

İbsen özünün Per Hunt personajı ilə bizim hər birimizdə özünüaldatma və şişirtməyə meyl olduğunu göstərir. Və Yaqo o mənada tip hesab olunur ki, o, hər birimizin daxilində var.

Ədəbiyyatda Yaqonu ən ülvi arzuları didib parçalayan zinacövhər adlandırırlar. Bu yerli müqayisə onun vəziyyətinə deyil, hərəkətinə aid edilir.

## § 28. YENİ VASİTƏLƏR VƏ FORMALAR HAQQINDA

> «Beləcə, bir çox unudulmuşları
> yenidən kəşf edib, muasirlik
> baxımından xeyirxahlıqla
> şərh etmək lazımdır»
>
> *N.K.Rerix*

Nəzarət-ölçü məlumatlarının dəqiqliyini artırmaqla əlaqədar olaraq, hazırkı informasiya "partlayış»ları dövründə məlumatları toplayıb işləmək üçün yeni vasitələrə və formalara olduqca böyük ehtiyac duylur. Fransız ensiklopedisti Deni Didro yazırdı: «Yeni elm sahəsi yarananda, bütün ağıllı başlar ona tərəf çevrildi».

Özlüyündə informasiya [lat.] – nəyisə xəbər vermək, izah etmək, təqdim etmək) prinsipcə istənilən sadə məlumat çoxluğu deməkdir. Ciddi desək, bütün mövcud olan hər şey – atomun hissəciklərindən başlamış insan şüurunadək hər nə varsa, özündə informasiya daşıyır. Bəşər sivilizasiyasının başlanğıcına qədər informasiya, hafizənin tutum qabiliyyətinə əsaslanaraq nəsildən-nəslə, bir yerdən başqa yerə, ancaq şifahi tərzdə ötürülürdü. Lakin insan beyni, bilik akkumlyatoru kimi heç də həmişə etibarlı «informasiya xəzinəsi» rolunu oynaya bilmədi. Yazı mədəniyyətinin yaranması ilə informasiya xəzinəsinin imkanları genişləndi və inkişaf etdi. Bütün dövrlərin ağıllı adamları Siseronun məsləhətinə kor-koranə, özlərinin təbii fəhminə əsaslanaraq əməl etməyə cəhd göstərmişlər: «Hər nə var oxumaq, hər şeyi dinləmək, əsl elmlərdən hökmən xəbərdar olmaq».

İnformasiyanın ötürülməsinin əsas formalarından ən başlıcası yazılı məlumatların ümumi toplusudur. Vaxtilə Bax birinci dəfə özünün 48 prelüdünü və fuqasını alman riyaziyyatçısı Verkmeysterin sistemi üzrə yazmışdır. Məşhur fransız piano çalanı De la Brüşölleri müasir fortepianonun imkanını insanın eşidə biləcəyi 16000 və 17000 hers tezliyədək genişləndirməyi təklif etmişdir (müasir fortepiano 27,5-dən 4186 hersə qədər tezlikdədir). Müasir simli alətlərdə gərilmə 30 tona qədərdır. Təbii olaraq, zaman formanın qarşısına da yeni tələblər qoyur, məsələn, musiqi yazısında, təsviri sənətdə və s. Qədim rus təsviri sənətində tamaşaçını çaşdıran bütün forma dəyişikIərini qeyri-Evklid həndəsəsi sistemində izah etməyə təşəbbüslər də olmuşdur. A. Şönberq tərəfindən təklif olunmuş musiqi yazısının dodekofon forması həm musiqiçilər, həm də dinləyicilər üçün musiqini daha yüksək mütəşəkkillik mərhələsində dərk etmək mənasında geniş imkanlar açır. Yeni yazı formalarını, həm də bütün yenilikləri, yalnız «orta səviyyəli» dinləyici tərəfindən kifayət qədər qavranılmadığına görə rədd etmək, əlbəttə, düzgün deyil. Bu gün «görkəmli» və ya «seçmə adamların» qavradıqlarını, sabah «orta səviyyəli» adam qavraya biləcək. Bu gün, sabahı formalaşdırır. Əgər XIX yüzillikdə L.Bethoven musiqisini yalnız «xüsusi adamlar – seçilmişlər» dinlədiyi halda, indi həmin musiqini «orta səviyyəli» dinləyici də böyük məmnuniyyətlə dinləyir. Bu, əlbəttə, o demək deyildir ki, hazırda, ancaq gələcək üçün musiqi yazmaq lazımdır, amma gələcək üçün də musiqi əsərləri yazmaq lazımdır. Bir sözlə, hər hansı əsəri yazarkən onun həmişəyaşarlığını nəzərdə tutmaq lazımdır. Gələcək üçün əsər ya-

zan sənətkar, adətən, risk edir ki, onu başa düşməsinlər. Hər şey «bu günün» və «sabahın» musiqilərinin düşünülmüş nisbətindən asılıdır. Bu münasibətlə K. Starın təhlili maraqlıdır. O, tapmışdır ki, adamlar könüllü olaraq, könülsüz riskə sövq olunan hərəkətlə müqayisədə 1000 dəfə daha riskli hərəkət etməyə meyllidirlər. Bəzi avtomobil həvəskarlarının hərəkətini buna misal göstərmək olar. Onlar avtomobili elə idarə edirlər ki, sanki öz-özlərinə təhlükə axtarırlar.

Kreq tərəfindən kəşf olunmuş yeni prinsiplər üç vəhdətin: vaxt, ölçü və təsirin şəklini dəyişmişdir. Təsir səbəb-nəticə əlaqələrinə tabe olmamışdır, yəni müəllifin fantaziyasının hökm etdiyi kimi, azad əlaqələr üzrə epizodlar başqaları ilə qoşalaşırlar.

Kreq tərəfindən təklif olunmuş əlaqələr metodunu dərhal Meyerhold teatrda, Eyzenşteyn kinoda tətbiq etdilər.

Yer anlayışı – Kreq həndəsəsi konkretliyi rədd edərək, onu mucərrədliklə əvəz etdi. Yeganə bütöv formanın müxtəlif variasiyaları tamaşaçıların gözü önündə dəyişdirilə bilən tərtibatın yeni prinsiplərinin köməyilə əldə edilirdi.

Vaxt anlayışı yeni məna kəsb etdi. Belə ki, qəhrəmandan asılı olaraq, tez ötən və ya qısamüddətli, sıçrayışlı və ya tamamilə dayanmış ola bilər, həmçinin geriyə dönə bilər (inversiyanın xususiyyəti). Həyatın böyük bir hissəsi qısa müddətə keçə bilər, bir ansa əbədiyyət kimi uzanar.

İyirminci illərdə Meyerhold teatrının hər bir tamaşası öz cəsarətli novatorluğu ilə fərqlənir və Meyerhold pərəstişkarları ilə onun əleyhdarları arasında qızğın mübahisəyə və münaqişəyə səbəb olurdu. MİT-in tamaşaya qoyduğu A.N.Ostrovskinin «Meşə» pyesində Bulanov yaşıl parik geyir, qrim Ulitanın üzünü tülkü sifətinə oxşadır, Aksyuşa ağac ayaqlarda yeriyirdi. Odur ki, novator rejissorun planlarını başa düşməyən tamaşaçı get-gedə həyəcanlanır və özundən çıxmağa başlayır.

Görkəmli hərbi xadim S.S.Kamenevin Meyerholdun iştirakı ilə rejissor planını qızı Natalyaya necə izah etməsi olduqca maraqlıdır: «Bulanovun yaşıl pariki onun gəncliyinə işarədir. Yaşıl parik sanki deyir: Yamyaşılam, təzə tərəm, cavanam. Gənclərin xoşbəxtliyə, yüksək amala can atmalarını daha parlaq, daha obrazlı göstərmək üçün Aksyuşa və onun nişanlısı səhnəni o tərəf-bu tərəfə hündür ağac ayaqlarda addımlayıb keçirlər. Mülkədarın evində yaşayan Ulita və Qurmıjskaya isə - tülkü sifətindədirlər – axı onlar vəhşidirlər, yırtıcıdırlar. Belə bir gözəl izahatdan sonra V.E.Meyerhold: «Siz, elə bil mənim rejissor planımı oxumusunuz».

V.E.Meyerhold, ilk dəfə teatrda, ifadəliliyi yüksəltmək üçün, təsviri sənətdə hinduların, çinlilərin, iranlıların və b. işlətdikləri üsullardan istifadə etməyə başladı. Bu üsullara, qeyri-real rəng çalarları və ölçülərin nisbəti, perspektivin olmaması xas idi, daha doğrusu mövcud standartlardan uzaqlaşma açıq-aşkar özünü göstərirdi.

Avropa təsviri sənətində uzun müddət mövcud olan üsulları Pikasso, Şaqal və başqaları pozdular.

Y.Postnov yazır: «Ağıldan bəla» pyesi Q.Tovstonoqovun quruluşunda — hələ yaşamağa davam edən geçmiş haqqında, başqa cildə girib, müasir rəng almış və köhnə sözləri yeni məna ilə danışan famusovlar haqqında, adət və ənənələri zəmanəmizin hər bir namuslu adamı üçün əziz olan çatskilər haqqında tamaşadır». Q.Tovstonoqovun quruluşunda Famusovu səciyyələndirərkən Y.Postnov belə bir sual verir: «Səbatlı (rus dilindəki, «tolkovıy» sözü – tər.) nə deməkdir?» Bu suala onun özünün cavabı daha maraqlıdır: «Bu, həyatda hər işi öz yoluna qoymağı bacaran işgüzar bir adamdır. Axmaq deyil. Hərçənd, o qədər ağıllı da deyil. Necə deyərlər, savadlı adamdır. Hər şey haqqında özünün qəti fikri var, ancaq bu fikir özününküdür, ya özgənindir, bunun əhəmiyyəti yoxdur. Başlıcası möhkəmlikdir, özu də əfkarı – ümumiyyənin nəzərində. Onun başında heç bir cəfəng və uydurma ideyalar yoxdur. O, ancaq yol verilə bilən şeylər haqında fikirləşir və danışır, yəni o şeylər haqqında ki, onlar ona firavan yaşamaq üçün təminat verir...

Famusov özü ilə fəxr edir. Hamıya öyüd-nəsihət verir. Gənclərə, hər bir şəraitə uyğunlaşma, ikiüzlülüyü, zirəkliyi, bir sözlə özünün nail olduğu müvəffəqiyyətlərdə işlətdiyi bütün fırıldaqları öyrədir. Başqa cür fikirləşənləri və yaşamağa çalışanları görməyə gözü yoxdur. Çatskinin simasında düşməni «havadan

duyur» ...Famusov özü bir zamanlar xidmət də göstərib, alçalıb da, bacardığı qədər diz də çöküb. Çatski isə – hələ heç bir rütbə sahibi olmayan və ağzından süd iyi gələn bu «uşaq» tərslik edir. Təvazökarlığı çatışmır... Famusov üçün Çatskinin ləyaqəti – ən böyük çatışmazlığıdır, amma özünün şəxsi çatışmazlıqları – inkaredilməz ləyaqətidir.

*Çatski əla dərk edir... ancaq sadəcə olaraq bu adamlara* uyğunlaşmaq istəmir və bacarmır... – qoy bu onun nüfuzuna zərər gətirsin, lakin təkçə ləyaqətinə yox...».

Yeniliyi, adət etmədiklərimizi başa düşmək üçün gərgin əmək sərf etmək, çox bilmək, inadkarcasına oxumaq, ən başlıcası isə fikirləşmək lazımdır. Hər halda başdan eləmək və öz avamlığını üsyankaranə büruzə vermək lazım deyil.

Burada Volteri xatırlamaq yerinə düşərdi: «Kifayət qədər əsaslandırılmamış inam, yanılmadan pisdir».

Prokofyevin «Qumarbaz» operasının əzab-əziyyətli səhnə tarixini yadımıza salaq. Musiqili teatrda bəstəkarın ilk ciddi əsəri olan bu opera, eyni zamanda Dostoyevski qəhrəmanlarının, ümumiyyətlə, opera səhnəsində canlandırılması üçün birinci ciddi cəhd idi. Prokofyev operanı 1916-cı ildə yazıb başa çatdırdı, lakin operanın səhnə təcəssümü xeyli gecikdi.

Yalnız 1929-cu ildə onu Brüsselin «La Monne» teatrı tamaşaya qoydu. Bu, olduqca sadə bir tamaşa idi. Opera özünün əsl səhnə həyatını 1974-cü ildə SSRİ Böyük teatrının ona müraciətindən sonra tapdı. Bu qədər kecikmənin səbəbini (13 və 58 il) V.E.Meyerholdun mülahizəsindən başa düşmək olar: «...Operanı orkestrlə ifa etmək üçün onu çalğı alətlərinə uyğunlaşdırmanın incəlikləri barədə danışmayacağam... O iştirakçıları operanın əvvəlindən axırınadək valehedici reçitativlər[1] oxumağa məcbur edirdi ki, bu da opera ilə indiyə qədərki oxşarlığın olmadığını göstərir. Bu nə isə yeni bir dramatik əsərdir, hətta müəllifin özünün ifa etməli olduğu

[1] Reçitativ (ital. Recitativo < lat. recitare – bərkdən oxumaq, söyləmək) – operada və baş vokal musiqi növlərində mahnıarası danışıq.



mətn şeir formasına, ahəng qəlibinə salınmamışdır. Bu, nəsr şəklindədir. Bütün bunlar, Musorqskinin gördüyü işlərin davamıdır».

«Prokofyevin məqsədi artistdən dramatiklik tələb edən sərbəst reçitativ yaratmaqdır. Burda, artistin sadəcə müğənni olmasıyla iş bitmir, o, yaxşı oxumaqla bərabər, sözləri də yaxşı tələffüz etməlidir. Prokofyev opera artistinin təbiətini ləğv edir».

«Qumarbaz» operası üzərində işləmək V.Meyerholdun arzusu idi, lakin onun quruluşunu B. Pokrovski verdi. Onun da rəyinə diqqət yetirək: «Opera bütünlükdə, birnəfəsə sürəkli və şiddətli qüvvə ilə, sel burulğanıtək güclənərək davam edir. Əgər hər könül arzularındakı, insanın həyatındakı, hər bir xarakterdəki, hər bir hadisədəki təzadları tapmağa müyəssər olmasaq, bu cür dinamizm bizim ziyanımızadır... İnsan, həyatı şərtləndirən ictimai məqsədlərdən kənarda qaldıqda, öz ehtiraslarının quluna çevrilir. Onun həyatı puç və məqsədsizdir...».

Maryinski teatrı artistləri əvvəlcə Prokotyevin operasını səmimi qarşılamadılar, amma indi bu diqqətəlayiq operada oynamağı artistlər özləri üçün şərəf sayırlar.

Yeri gəlmişkən, qeyd edək ki, S.S.Prokofyevin «Od mələyi» operasının taleyi də bu cür olmuşdur. Bu operanın ilk tamaşası müəllifin vəfatından sonra 1955-ci ildə Venesiya şəhərində olmuşdur. 1984-cü ildə isə həmin opera Perm şəhəri səhnəsində tamaşaya qoyulmuşdur.

N.S.Qolovanov öz xatirələrində yazır ki, S.S.Prokofyevin «Üç portağala məhəbbət» operasının Böyük teatrın səhnəsindəki ilk tamaşasından sonra M.M.İppolitov – İvanov ona «Portağallar» natürmortunu və balaca bir məktub göndərir. Məktubda yazılmışdı: . «Sənə bir şəkil göndərirəm. Portağalları, ancaq bu görkəmdə sevirəm».

Müasir musiqili incəsənət üçün iki bir-birinə əks olan istiqamətlərin yaxınlaşma meyli səciyyəvidir. Bunlar: ciddi və yüngül musiqidir. Bu yollardan biri məişət intonasiyalarının və ifadələrinin daxil edilməsidir.

D.Şostakoviçin 11-ci və 12-ci simfoniyaları, A.Eşpayın 2-ci simfoniyası və başqalarını buna misal göstərmək olar. Şostakoviç tərəfindən simfoniyanın xalis janrına «canlı» poetik sözün nüfuz etdirilməsi (soprano, bas və kamera orkestri üçün 14-cü simfoniya) vokal-instrumental simfoniyanın keyfiyyətcə yeni janrına gətirdi və bu janr Bethovenin, Skryabinin və başqalarının oxşar simfoniyalarından əsaslı surətdə fərqlənir.

Belə bir misal gətirmək istərdik. A.Molun «Mədəniyyətin sosioloji dinamikası» kitabında yazılır ki, xaricdə müxtəlif dalğalara köklənmiş bir neçə tranzistor verilişlərindən musiqi tərtib etməyə cəhd göstərmişlər. Nəticədə heç bir ahəngdarlığa tabe olmayan, səslərin xoşa gəlməyən qarma-qarışıqlığı fonunda qulağbatırıcı səs-küy alınmışdır. Lakin tranzistorlardan müəyyən ardıcıllıqla istifadə etməklə, necə deyərlər, «maşın» musiqisi yaratmaq olar. Amma bu musiqinin əsl musiqi olaçağını güman etmək olmaz. XX yüzilliyin ikinci yarısından başlayaraq gündəlikdən silinməyən bir sual mövcuddur: «Yaradıcı» maşınlar, yaradıcı insanları əvəz edə bilərlərmi? Təbii ki, yox. Ancaq «maşın» musiqisinə bəstəkarların xeyirxah köməkçiləri kimi baxsaq, onda şübhəsiz ki, maşınlardan sözün geniş mənasında xeyir görmək olar.

«Komsomolskaya pravda» qəzetində (2.02.1985) qeyd olunduğu kimi, kompyuterləşdirmə, qabiliyyətlər haqqında təsəvvürlərə təsir edir.

Məlumdur ki, istənilən təklifi mənasızlığa, çəfəngiyata gətirib çıxarmaq olar. Fəqət, buna tələsməmək lazımdır. Belə ki, 18.01.1987-ci il tarixli nömrəsində «Sovetskaya Rossiya» qəzeti yazır: «Üç tozsoran, elektrik-döşəməsilən, orqan və orkestr üçün yazılmış böyük uvertüradan ibarət yeni konsert proqramı ilə Filadelfiya (ABŞ) şəhərinin simfonik orkestri öz çıxışlarına başlamışdır. Bu kollektiv birinci dəfə Milli musiqi akademiyasında çıxış etmişdir. Orkestrin dirijoru Uilyam Smit demişdir: Biz musiqi aləminə bələd olanlara, onu qiymətləndirməyi bacaranlara demək istəyirik ki, hətta bu cür qeyri-adi «musiqi alətləri» ilə də gözəl musiqi notları ifa etmək olar. Tozsoranların və polsilənin köməyi ilə



aranjirovkası (bəstələnməsi – tərc.) zənginləşdiriləcək musiqi əsərləri arasında – Musoprqskinin «Çılpaq dağda gecə», Gerşvinin «Amerikalı Parisdə», Rimski-Korsakovun «İspan kapriççosu», eyni zamanda Baxın və Motsartın əsərləri də vardır. Qeyri-adi dirijor Smit, bu yeni cərəyanı dirijorluq sənətilə də qovuşdurmaq istəyir: adi dirijor çubuğundan başqa o, elektrik açarından və idman tapançasından da istifadə edəcəkdir».

Əlbəttə, araşdırmadan tələm-tələsik olaraq yenini rədd etmək olmaz. Zövqü, zamanın sınaqlarından keçmiş musiqi əsərlərinə əsasən inkişaf etdirib təkmilləşdirmək lazımdır.

Rok musiqisinin yaxşı nümunələri – «Bitlz», Bob Dilanın «Fol-rok»u, Detroyt musiqiçilərindən Stiv Uonderin üslubu və s. dediklərimizə misal ola bilər.

«Art-rok», «Frank-rok», «disko», «metal», «ağır metal» və b. musiqi həvəskarlarını ünsiyyətə qovuşmaq, özünü ifadə və təqdim etmək ehtirasları birləşdirir.

Bu cür musiqi ritmləri həm də insanda ümumi əhvali-ruhiyyə oyatmağa kömək edir.

Məsələn, mikrokompyuterlərdən istifadə etmək rejissorlara, həddən çox variantlarla beyni yükləmək prosesindən azad olmaq və seçib, tərtib etmək imkanı verir.

«Moskva payızı – 83» musiqi festivalında N.Korndorfun «Qadın səsi üçün maqnitofonla nəğmə» əsəri ifa olunmuşdur. «Sovetskaya muzıka» (№4, 1984) jurnalında qeyd olunmuşdur ki, N. Korndorf «.. .elektron cihazları ilə vokal musiqinin incəliklərini canlı şəkildə uzlaşdıra bilmişdir».

Yeri gəlmişkən deyək ki, maşınların və bəstəkarların bəstələdikləri musiqi əsərlərinin müqayisəli qavrayışı sahəsində aparılmış təcrübələrin nəticələri xeyli maraqlıdır.

Bəstəkarların bəstələdikləri musiqi parçaları «Muzqiz»-in nəşr etdiyi seçilmiş mahnılar məcmuəsindən götürülmüşdür. SSRİ Böyük teatrında musiqi parçaları, müəllifləri göstərilməyən nömrələr üzrə təsadüfi ardıcıllıqla eyni ifaçı tərəfindən eyni musiqi alətində ifa olunmuşdur. İfaçılığı beş ballı sistem üzrə qiymətləndirmişlər. Nəticə belə olmuşdur: Bəstəkarların bəstələdikləri mahnılar – 3,51

bal, maşınların bəstələdikləri musiqi parçaları isə – 3,67 bal toplamışlar. Beləliklə, maşınla bəstələnmiş musiqi bəstəkarların bəstələdiklərindən yüksək qiymət almışdır.

Aparılmış təcrübələrin nəticələri heç də elektron maşınlarının bəstələdikləri melodiyaların, bəstəkarların melodiyalarından maraqlı olduğunu söyləməyə əsas vermir.

Bununla bərabər, deyə bilərik ki, elementar səviyyədə olsa da bədii yaradıcılığın modelləşdirilməsi mümkündür.

Digər vasitələrlə musiqi əsərləri «yazılmasına» Heys «üsulunu» misal gətirmək olar. Bu «üsulun» məğzi belədir: adi şotkanı mürəkkəbə batırıb, barmağı şotkanın üzəri ilə gəzdirmək lazımdır. Not kağızı üzərinə sıçrayan mürəkkəb ləkələrinin not xətlərinə görə vəziyyətləri müəyyən musiqi notuna» uyğun gəlməlidir. Təsadüfi elementlərin köməyi ilə, necə deyərlər «musiqi layihələşdirmə» metoduna «aleatorika[1]» deyilir.

Əslində aleatorikanın müsbət effekti, hər hansı prosesin optimal idarə olunmasında, həmin prosesin yalnız bir cəhətini tənzim edib, başqa əlamətləri isə özbaşına buraxaraq çoxdan məlum olan faktların əyani şərhinə xidmət edir. Aydındır ki, burda elementin təsadüfiliyi müəyyən rol oynayır. Xarici ədəbiyyatda aleatorikanın kvant mexanikasından, daha doğrusu Geyzenberqin qeyri-müəyyənlik prinsipindən yarandığı qeyd olunur.

C.Pirs yazmışdır: «Tamamilə təsadüfi, eyni zamanda olduqca çansıxıçı rəsm əsərlərinin hamısı bizə eyni çür görünür.

Rəngarənglik və gözlənilməzlik baxımından təsadüfilik bəzən arzu olunan bir məziyyətdir, lakin hər bir rəsm əsərinin cazibədar olması üçün həmin əsər müəyyən qayda və nizam-mizanlarına tabe olmalıdır. Qayda və nizam-mizanları və təsadüfilik elementlərindən istifadə etmək zəruriyyətinə incəsənətdə meyl çoxdandır. Kaleydoskopun füsunkar gözəlliyi təsadüfi düzülmüş rəngli şüşə parçalarının güzgüdə əks olması ilə əlaqədardır və bu vaxt yaranan naxış 6-cı dərəcəli simmetriyaya malikdir.

[1] Aleatorika (lat. oyun üçün işlədilən "aşıq" sümüyü, təsadüfilik) – müasir musiqi incəsənətində süni yollarla musiqi bəstələyib ifa etmək üsuludur.



Y.İ.Panovun fikrincə: "Bülbülün mahnısı tərkibcə, təsadüfi musiqi ilə çox doğma və yaxın uyarlıq təşkil edir».

Bəzi quş mahnılarının maqnitofon lentində kiçik sürətlə səsləndirilməsi P.Sekiyə, quşların zəngulə və oxu ahənglərilə xalq melodiyaları arasında aydın bir oxşarlıq olduğunu aşkar etməyə imkan vermişdir.

Bununla da ornitomusiqişünaslığın əsası qoyulmuşdur (yunan dilində ornito – ornis – quş gözündəndir).

XVIII yüzillikdə sümük «aşıqlar»la musiqi oyunu geniş yayılmışdı. Bu cür «oyunla» Bax, İ.Qaydn, F.Hendel V.Motsart və onların bir çox başqa müasirləri məşğul olmuşlar. Müasirlərinin qeyd etdikləri kimi, Motsart bu üsulla xeyli menuet, rondo, vals və başqa musiqi parçaları bəstələmişdir. Bu üsulla Motsartın musiqi bəstələmə cəhdi, yaradıcılıq enerjisini saxlamağa kömək edən bir vasitə kimi konkret məqsədə malik idi (R.H.Zarinov). Biz qüdrətli texnika əsrində yaşayırıq və bu da insan şəxsiyyətinin dərk olunmasını kəskinləşdirir. Andersenin məşhur hekayəsindəki mexaniki bülbül, əsl bülbülün əvəzsiz bir nəğməkar olduğunu dərk etməyə kömək edir.

## § 29. KİTABI SEVİN, GƏRƏK OLMAYANI OXUMAYIN

*«Kitab – bir nəslin o biri nəslə mənəvi vəsiyyətidir».*

***A.İ.Gertsen.***

R.Stil yazmışdır: «İdman bədən üçün, oxumaq isə ağıl üçün lazımdır».

Sokratın tələbəsi, qədim yunan filosofu Antisfendən soruşanda ki, «Alim olmaq üçün nə etmək lazımdır?» – «Lazım olmayanı oxumayın», – cavabını vermişdir.

Nəyi oxumağı öyrənmək olarmı? Höte vəfatından bir az əvvəl demişdir: «Xeyirxah insanların çoxu bilmir ki, oxumağı öyrənmək

adamdan nə qədər vaxt və rəy tələb edir. Mən buna səksən il vaxt sərf etmişəm, lakin indi də məqsədimə nail olduğumu deməkdən çəkinirəm».

Əzəldən məlumdur ki, «yeriyən kitabxanaya» bənzər adamlardan, adətən, yaradıcı şəxsiyyət çıxmır. Bəlkə də buna görə A.Eynşteynin aşağıdakı fikri ilə razılaşmaq olar: «Hamı bilir ki, bu şey ola bilməz, lakin «bu şeyin ola bilməzliyini» bilməyən bir nəfər tapılır və o da həmin şeyi kəşf edir».

Bolqarların bir müdrik kəlamı var: «Pis adam, heç bir kitab oxumayan adama yox, tək bircə kitab oxuyana deyirlər».

Publiy Sir demişdir; "Pis bilməkdənsə, heç bilməmək daha yaxşıdır».

V.Q.Belinski qeyd edirdi ki, heç nə oxumamaq, təsadüfən ələ keçmiş kitabları oxumaqdan yaxşıdır.

Ancaq unutmaq lazım deyildir ki; „ Nullus est liber tam malus, ut non aligua parte prosit" (Nulus est liber tam malus, ut pop alikua parte prosit) – tamamilə faydasız olan heç bir kitab yoxdur..

Əqli mülahizə qabiliyyətini təkmilləşdirmək üçün, çox güman ki, dərin əqli mülahizə gücünə, təsəvvürə, fantaziyaya malik görkəmli şəxsiyyətlərin yaratdığı bədii əsərləri oxumaq lazımdır. Bu nöqteyi-nəzərdən A.Eynşteynin—«Dostoyevskinin yaradıcılığı mənim elmi axtarışlarıma, hər hansı böyük dühanın əsərlərindən daha çox kömək etmişdir.» - mülahizəsi böyük əhəmiyyət kəsb edir. Yeri gəlmişkən F.M.Dostoyevskinin bir fikrini xatırladaq: «Yaxşı adamı müsbət təsvir etmək, onu ançaq gülünc təqdim etməklə mümkündür. Don Kixot yalnız ona görə yaxşı adamdır ki, o, eyni zamanda gülməlidir. Gülünc vəziyyətə düşmək və özündəki müsbət keyfiyyətlərin qədrini bilməyən adamın halına acımaq, əslində oxuçunun hüsn-rəğbətini qazanmaqdır».

ABŞ-da mütaliənin ümumi təhsilə təsirinə dair bir sıra tədqiqatlar aparılmışdır. Bu cür araşdırmalarda ayrıca götürülmüş hər hansı kitab və ya oxucu yox, kitabın oxucuya təsiri və oxucunun mütaliəyə tələbatı tədqiq olunmuşdur. Hər hansı bədii əsərin başa düşülməsi və şərhi üsulları, onun dərk olunmasını sadələşdirən və



çətinləşdirən amillər təhlil edilmişdir. Bu halda kitaba, ümumiyyətlə, nəşr olunmuş materiala, mütaliə olunma dərəcəsinə əsasən bədii bir sərvət kimi baxılır. Tədqiqat zamanı keyfiyyət-kəmiyyət metodu—kontent-təhlil tətbiq edilmişdir. Bunu aşağıdakı bir misalla izah edək. Kontent-təhlil üsulu məhkəmə sistemində bir sübut üsulu kimi, ümumdünya təcrübəsində 1943-cü ildə ABŞ-da hitlerçi təbliğat aparan «Əsl amerikalı» qəzetinin işini araşdırarkən tətbiq edilmişdir. Bu qəzetdə almanlara tərif söylənilən fikir və rəylərin çoxluğu taktiki mülahizələrə əsasən, gözdən pərdə asmaq üçün yenə də elə həmin qəzetdə verilmiş əks fikirlər çoxluğundan 11 dəfə artıq olmuşdur.

Kontent-təhlilin tətbiqi göstərmişdir ki, hər hansı bir kitab oxucunun ictimai mövqeyindən, hərtərəfli biliyindən, maraq və mədəniyyətindən asılı olaraq müxtəlif keyfiyyətlərə malik ola bilər.

Kitabı qiymətləndirmək üçün T.Qotyenin istehzalı bir rəyinə diqqət yetirin: «Deyək ki, böyük foliodan[1] bir press və ya skamya kimi istifadə etmək olar, lakin oktava boyda olan gərəksiz kitabları, lənət şeytana, nə üçün nəşr edirlər, başa düşə bilmirəm».

Təkcə bir adamda, müxtəlif amillərdən asılı olaraq ədəbi əsərləri müxtəlif cür qavrama baxımından çürbəçür oxucu tələbatı «mövcuddur». Bütün bunlar oxucuların təsnifatını müəyyən edən amillərdir. Oxuçu təsnifatının nüxtəlif modellərinə diqqət yetirək.

R. Başbergerin modelinə görə uşaq və gənc oxucuları dörd tipə bölmək olar:

**1. Romantik tip.** Nağılları, macəra ədəbiyyatını daha çox sevən, realist və intellektual-əxlaqi ədəbiyyatı bəyənməyən uşaqlar arasında tez-tez rast gəlmək olur. Bu tip oxucular yeniyetmə yaşlarında fantastik ədəbiyyatı böyük həvəslə oxuyurlar.

**2. Realist tip.** İnsanlar arasında qarşılıqlı münasibət və onları əhatə edən xarici aləm haqqında yazılan kitabları oxuyur, nağıllara maraq göstərmir. Bu xüsusiyyətlər yeniyetmə yaşlarında özünü büruzə verir.

[1] Foliant – böyük ölçülü qalın kitab.

**3. İntellektual tip.** Bədii ədəbiyyatda əməli nəticə çıxarmağa çalışır, biliyini artırmağa cəhd göstərməsilə əlaqədar olaraq **maraqlı** məlumatlarla zəngin kitablar oxumağı daha çox sevir. Bu cür tipə yeniyetmələr və gənclər arasında daha çox rast gəlmək olur.

**4. Estetik tip.** Nadir hallarda rast gəlmək olur. «Cingiltili sözlərdən», qafiyələnmiş ahəngli və vəznli misralardan sözün əsl mənasında zövq alır. Oxucuların bu tipi şeirə dərin maraq göstərir, xoşladıqları kitabları təkrar-təkrar oxuyurlar.

Yaşlı oxucular üçün isə Volhast modeli təklif olunmuşdur.

**1. Çox oxuyan,** ancaq oxuduqlarına tənqidi yanaşmayan tip.

**2. Az oxuyan tip**: a) kitabları həyati məqsədlər üçün oxuyan – dinamik-praqmatik adamlar; b) introvertiv-macərapərəst tip. Bunlar, bir qayda olaraq çox əhəmiyyətli ədəbi-bədii əsərləri sevən və çox inkişaf etmiş təsəvvürə malik oxuculardır.

3.Öz həyati tələbatını dərindən dərk edən və onu təmin etmək üçün yollar axtaran **fəal, məqsədyönlü** və müntəzəm olaraq mütaliə edən oxuçu.

**4. «Asılı», «Hər sözə qulaq asan»** və hansı kitabı oxumaq üçün məsləhətə ehtiyacı olan, üçüncü tipdən fərqli olaraq ədəbi-pedaqoji təsirə məruz qalan fəal oxucu.

**5. «Sabit» tip;** müəyyən növ məzmuna malik kitablar oxumağa həvəs göstərən oxucu.

**6. «Birbaşa hər şeyi oxuyan» tip**: ağına-bozuna baxmadan, ucdantutma, qayda-qanunsuz, əlinə nə keçdi bir-birinin ardınca oxuyan və oxuduğuna qayıtmayan oxucu.

Bundan qabaqkı təsnifatda olduğu kimi burda da yalnız bəzi parametrlər, məsələn, oxu qaydası, kəmiyyət əlamətləri nəzərə alınır.

Q.Hird oxu motivlərinə və buna uyğun olaraq oxu növünə əsaslanaraq oxucuların təsnifatını vermişdir. Oxu motivləri bunlardır:

1. Başqalarının daxili dünyasına nüfuz etmək, xarici aləmi dərk eləmək məqsədi ilə özündə bu istiqamətdə qabiliyyət aşılamağa cəhd göstərmək istəyi.



2. Adamlar arasındakı fikir və əqidə ayrılıqlarını aradan götürməyə təşəbbüs həvəsi.

3. Həyatın və insan varlığının mənasını axtarmaq cəhdləri.

Oxu növünə görə təsnifat belədir:

1. Məlumat toplamaq məqsədi ilə oxumaq.

2. Evidist oxumaq (həyati hadisələrdən yayınmaq məqsədi ilə oxumaq).

Q. Hird oxucu növünün aşağıdakı təsnifatını təklif edir:

1. Aşağıdakı alttiplərə malik və ən çox məlumat toplamaq üçün oxuyan **funksional-praqmatik oxucu;** a)oxumağı bacarıb, lakin nadir hallarda əlinə kitab götürənlər; b)«bisavad» oxucular - yalnız elanları və qəzetləri nəzərdən keçirənlər; v)öz peşəsinə aid ədəbiyyatı işgüzar məqsədlərlə oxuyan – «məqsədyönlü» oxucular.

**2. Emosional-macərapərəst tip.** Oxuduğuna tənqidi yanaşmayıb, ancaq emosional münasibətdə olan oxucu. Bu cür tiplər üçün məlumatlara ehtiyac duymamaq və öz savadını xüsusi biliklərlə zənginləşdirməyə həvəs göstərməmək səciyyəvi əlamətdir. Bu tip oxucular daxilən iki hissəyə bölünür: a) sensasiyaya daxili tələbatını təmin etmək və oxuduğundan xoşbəxtlik hissi duyan passiv oxucu; b) oxuduğundan gerçək fəaliyyətə təkan alan fəal oxucu.

**3. Rasional-intellektual** oxucular adlanan tiplər üçün mütaliə zamanı fəal təfəkkür tərzi, oxuduğuna tənqidi münasibət, oxuduqlarını təhlil edib öz dünyagörüşü ilə müqayisə etmək səciyyəvidir. Bu tip oxuçular elmi-kütləni və fəlsəfi əsərlərə, esselərə, ictimai romanlara, ciddi poeziyaya daha çox müraciət edirlər və əyləncəli ədəbiyyat sahəsində ən çox detektiv əsərləri üstün tuturlar.

**4. Ədəbi tip.** Bunların mənəvi aləmində bədii ədəbiyyat hər şeydən qiymətli və əhəmiyyətlidir. Bu tip adamlar, heç bir məqsəd güdmədən və «qazanc» gözləmədən oxumağa daha çox meyl göstərirlər.

Üçüncü tip oxuçuya birinci iki tip oxucudan daha az rast gəlmək olur.

Oxumağın motivindən və məqsədindən asılı olan təsnifat da var:

**1. Ötəri oxumaq.** Bu təhər oxumaq, ötəri nəzər salmaqla əsəri oxuyan adam üçün maraqlı olub-olmadığını duymaq bacarığı ilə əlaqədardır. Kitab fonduna buraxılan oxucu kitabları bu qayda ilə seçir.

**2. Məlumat üçün oxumaq** – qəzet oxucuları, idarə poçtunu nəzərdən keçirən rəhbər işçilər, öz elmi sahəsindən ətraflı xəbərdar olan alimlər üçün səciyyəvidir.

**3. Əyləncə məqsədi ilə oxumaq** – əksər hallarda dərin ideyaya malik olmayan bədii ədəbiyyat oxumaqla əlaqədardır. Oxucu özünü oxuduğu əsərin qəhrəmanlarına bənzədir və təsiir olunan hadisələri həyəcanla izləyir.

**4. Yadda saxlamaqla oxumaq** – Bu sayaq oxumaqda məqsəd – kitabın məzmununu imkan daxilində dəqiq yadda saxlamaqdan və ordakı fəlsəfi mahiyyəti duymaqdan ibarətdir.

**5. Kitabın müəyyən hissələrini seçməklə oxu tərzi.** Bu cür oxu zamanı, oxucu kitabın, faydalı olan və ona hər hansı məqsəd üçün yararlı olacaq hissələrini seçir. Belə tip oxucu ötəri, tənqidi və yadda qalan oxu tərzlərini özündə cəmləşdirir.

**6. Analitik oxu tərzi.** Oxuduqlarını sonradan xatırlamaq üçün əldə qələm və kağız olmaqla oxu tərzidir.

**7. Tənqidi oxu tərzi.** Oxuduğunu yada salmağı, qiymətləndirməyi və müqayisə etməyi nəzərdə tutan oxuma tərzidir. Bu cür oxu tərzi oxucu şəxsiyyətinin və dünyagörüşünün formalaşmasında böyük əhəmiyyət kəsb edir.

**8. Əlahiddə oxu tərzi** – bədii və poetik cəhətdən yüksək əsərlərin forma və məzmununu təhlil etməklə oxu mədəniyyətidir.

**9. Yaradıcılıqla oxu tərzi** – oxuduğunu fəal qavrama və yaradıcı şəkildə düşünmə tərzi ilə əlaqədar oxu mədəniyyətidir.

**10. Korrektor sayağı oxu tərzi** – hecalaya-hecalaya, hərfbə-hərf, daha doğrusu, korrektor oxuyan kimi oxu tərzi.

Daha maraqlı və daha mübahisəli təsnifat növlərini də qeyd etmək mümkündür.

D.İ.Pisarev yazırdı ki, «adi» və «ağıllı» oxucuları bir-birindən ayırmaq lazımdır.



«Adi oxucu kitabı əlinə alır ki, ya vaxtını xoş keçirsin, ya da nə isə bir şey öyrənsin».

«Ağıllı oxucu – özünə məxsus olmayan və onun fikrincə hər bir həqiqətin yeganə mənbəyi olan, onun düşünçələr dövrəsinə yerləşməyən yeni ideyaları naşılıq hesab edən və hər şeydən xəbərdar olan, hər şeyi qabaqcadan duyan, hər şey haqqında hazır aforizmlərlə mühakimə yürüdən və qalan adalmları avam hesab edən adamlar qrupundan ibarətdir».

Y.Trifonovun qeyd etdiyi kimi, kitablarda özünütərbiyə vasitələr axtaran oxucular, özlərini, məsələn Dostoyevskini, Tyutçevi oxuyub başa çatdırmaqda sınasınlar (Y.Trifonov – Kak slovo naşe otzovetsya ...M. , Sovetskaya Rossiya, 1985).

Təbiidir ki, psixoloji ideal estetik və ədəbi idealla vəhdət təşkil etməlidir. Deməli, yenə də anlayışların qeyri-dəqiqliyi ilə mürəkkəbləşmiş çox kriteriyaçılıq problemi meydana çıxır. Bu halda da diaqnostika ideologiyasının tətbiqi daha ağlabatandır. Başqa sözlə desək, qarşıya qoyulmuş məqsədlə birgə səslənən təsnifat kompleksinə baxmaq lazımdır.

Canlı varlığa (insanlara və heyvanlara) məqsəd refleksi – yeni bilik axtarışlarına, yeni məlumatlara instinktiv (qeyri-iradi) çəhd xasdır.

Məqsəd refleksini həyata keçirərkən baş verən problemlərdən ən başlıcası belədir:

Əgər hər hansı alim-mütəxəssis üçün «orta» vəziyyəti götürsək, belə çıxır ki, hər il ixtisası üzrə dərc olunan ədəbiyyatı oxumaq üçün ona gündə səkkiz saat mütaliə etməklə təqribən 1000 il lazımdır. Qeyd etmək lazımdır burda həmin ədəbiyyatları axtarmağa və əldə etməyə sərf olunan vaxt nəzərə alınmır.

Məlumdur ki, insan beyni hər hansı məlumatı 50 bit/ san., EhM isə 105 – 106 bit/san sürətlə araşdırıb təhlil edir.

Orta çətinlikli elmi problemi işlədikdə $10^9$ bitə[1] yaxın araşdırma və qavrama lazım gəlir. İnsanın şüurlu həyatı təxminən $10^9$ saniyəyə yaxındır, buna görə də o, ömrü boyu ideal halda $50x10^9$ bit

[1] Bit – məlumar miqdarı vahididir.

araşdıra bilər. Deməli, o, orta çətinlikli 50 problem həll edə bilər. Əlbəttə, bütün bunların orta rəqəm olduqunu nəzərə alsaq, deyə bilərik ki, bu yaxşı haldır.

Lakin Q.M.Dobrov qeyd edir ki, məlumatın həqiqi həcmi minimumdan iki tərtib azdır. Bu isə o deməkdir ki, insan texnikanın və başqa adamların (alimlər kollektivinin) köməyi olmadan, hətta orta çətinlikli problemi belə həll etmək iqtidarında deyil.

Bernard Şounun maraqlı mülahizələrindən biri belədir: «Əgər iki adamın hərəsinin bir alması varsa və onlar bu almaları bir-birlərinə bağışlasalar, yenə də hərəsində bir alma qalar; əgər iki adam bir-birilə ideya mübadiləsi keçirsə, axırda hərəsinin iki ideyası olacaq». Demək olar ki, riyazi paradoks alınır.

Doğrudan da belədir: xoşbəxtliyi bölüşdürəndə iki xoşbəxtliyin olur, dərdi bölüşdürəndə isə yarısı qalır.

Dərdi böluşdürəndə adam bir qədər yüngülləşir: dərd bir adamın idi, bölüşdürdü—iki nəfərin oldu. Odur ki, yalqız adamın dərdi böyukdür.

Azərbaycanın folklor xəzinəsindən bir nümunədə nahaq deyilmir ki, «...düşmən də yalqız olmasın»,

«Biz bu dünyada ona görə yaşayırıq ki, daima təkmilləşək, yaxşılaşaq. İnsanların qarşılıqlı köməyə və öz aralarında səmimi ünsiyyətə ehtiyacları vardır. Ancaq bunların vasitəsilə elm və incəsənət inkişaf edə bilər» (Motsart V.A.)

Məlumatın həddən artıqlığı təhlükəsinə məruz qalan mütəxəssis lazımsız məlumatlardan imtina etməyə çalışır, məlumat qıtlığı hiss edən şəxs isə süni surətdə yaradılmış məlumat şəraitinə qoşulmağa məçbur olur.

Məlumat çətinliyini aradan qaldırmağa şərhetmə üsulunun qısa və yığcam olması kömək edə bilər. Şiller demişdir: «Uzun-uzadı nitqin qısa mənası». Nitqi, dinləyiciləri yoruncayadək uzatmaqdan çəkinmək, onu yığcam və mənalı şərh etməyi bacarmaq lazımdır. Yeri gəlmişkən, qeyd edək ki, «yığçamlığa» nail olmaq üçün yuxarıda şərh etdiyimiz Zipf-Mandelbrot qanunundan istifadə etmək olar.



Fransızlarda belə bir kəlam var: «Məni bağışla, mətləbi çox uzatdım, çünki qısa yazmağa vaxtım yox idi».

«Nyu-York Tayms» qəzeti, Braziliyanın keçmiş prezidenti Tankred Nevisi xarakterizə edərək yazırdı: «Onun mətbuat konfranslarında cavabları həmişə verilən suallardan qısa olur və o, sözləri çox diqqətlə seçir» («Nedelya», № 12, 1985).

Müasir gənc narahat və çox böyük sürətlə dəyişən bir aləmə qədəm basır. Mütəxəssislər təsdiq elirlər ki, hətta Baxın və Motsartın əsərləri indi sağlıqlarında olduğundan on faiz sürətlə ifa olunur.

Professor B.Nikityuk belə bir tarixçə söyləyir: 60-cı illərdə marksizm-leninizm universiteti dinləyicilərinə «İvan Susanin» operasının uvertürası yazılmıç lenti dinləməyi təklif etmişlər. Uvertüra Qlinkanın dövründəki kimi, yəni indi ifa olunduğundan zəif surətlə səsləndirilmişdi. Akkordlar dinləyicilərə tanış idi, lakin olduqca təhrif olunmuşdu. Deməli, templərə uyğunlaşmaq, təfəkkürdə və hisslərdə dinamiklik əldə etmək lazımdır. Bu deyilənlərlə səsləşən bir latın kəlamı mövçuddur: "Tempora mutantu et nos mutamur in illis" – (tempora mutantur et nos mutamur in illis) – dövran dəyişir, biz də onunla bərabər.

Publi Serviliyə aid bir aforizmdə deyilir – «İki nəfər eyni bir şey edirsə, bu heç də eyni bir şey deyil".

Yuxarıda qeyd etdiyimiz kimi, elmi faktlar, ancaq onları asılı olmayaraq təkrarən yenidən əldə etdikdən sonra öz varlığını büruzə verməyə başlayır. Elmi axtlrışlarda irəliləmək üçün, əvvəlcə, artıq əldə edilmiş nəticələri yenidən işləmək lazımdır. Bu çür yenidən işləmə prosesində əldə edilmiş faktlar zənginləşdirilir və dəqiqləşdirilir. E.A.Abeleva və Q.İ.Abelev haqlı olaraq yazırlar ki, axtarış xarakterli tədqiqatlarda təkraretmələr nəinki ziyandır, hətta mütləq bir zəruriyyətdir. («Ximiya i jizn», №2, 1985).

Maraqlıdır ki, eyni bir problemə həsr olunmuş elmi məqalələr – nəşriyyatların aidiyyətinə, dil əlamətlərərinə, çoğrafiyasına və s. görə müxtəlif nəşriyyalar üzrə səpələnir.

Məşriyyatlara və elmi jurnallara bu və ya digər tematika sahəsində yazılmış məqalələrin səpələnməsi dolaşıq bir hadisə olmayıb,

Bredford qanununa tabedir. Bu qanuna görə dərc edilən məqalələrin miqdarına hər birində eyni miqdarda məqalələr yerləşir, özü də daha məhsuldar birinci sinif, sonra ikinci və lap axırda üçüncü sinif jurnallarıdır.

Jurnalların hər sinifi üzrə miqdarı- 1:a:a2 qədərdir (a – sabit ədəddir). Məsələn, əgər bütün nəşrlərin sayının 1/3-i ən məhsuldar beş jurnalda yerləşirsə, onda ikinci sinif jurnalların sayı a = 4 olduqa 5x4=20 olacaqdır, üçünçü sinifdə jurnalların sayı 5x16 = 80-dır. Beləliklə, 104 dənə jurnal üç sinif üzrə paylanır və bu siniflərin hər birində eyni miqdarda məqalələr yerləşir. Bredford qanunu fondların mənbələrlə komplektləşdirillməsində növbəliliyin seçilməsi üçün böyük əhəmiyyət kəsb edir.

Müasir dövr üçün səciyəvi olan daha ümumi "insan-məlumat" problemi indiki yüksək texniki tərəqqinin nəticəsidir. V.Konov 11 mart 1983-cü il tarixli "Pravda" qəzetində yazır: "Dövürmüz üçün xarakterik olan məlumat bolluğu barədə olduqca çox danışırıq, həm də unuduruq ki, 14-17 yaşlı adamlar üçün bunlar biliklərin mənimsənilməsi sisteminin yenicə yaranması ilə əlaqədardır. Məlumat seli kükrəyib coşmaqdadır. Getdikcə gurlaşan bu selin qarşısı şüurlu surətdə alınmasa yeniyetmənin hələ püxtələşməmiş hafizəsi kütləvi informasiya vasitələrinin – radionun, televizorun, qəzet və kitabların verdiyi məlumatları tam dolğunluğu ilə qavramayıb, onların ayrı-ayrı ünsürlərini mənimsəməyə öyrəşəçəkdir". Məlumat mərkəzlərinin vəzifəsi verilən xəbərlərin keyfiyyəti baxımından mürəkkəbləşir. Belə ki, bir neçə il bundan əvvəl bizim iki qəzetimiz Bermud üçbucağı haqqında eyni vaxtda bir-birini təkzib edən iki məlumat vermişdir.

Uçan «nimçələr» haqqında biri digərinin əksi olan məlumatlara qəzet və jurnalların səhifələrində tez-tez rast gəlirik.

Bu yaxınlarda «Sovetskaya Rossiya» qəzetində və «İzobretateli rasionalizator» jurnalında Perm psixiatrı Kroxalevin və Moskva professoru Banşikovun işləri haqqında məlumat dərc olunmuşdur: onlar gözün fotoşəkilinin təhlilnnə əsasən xəstə beynin içinə baxa bilmişlər (mütəxəssis olmadığımdan «baxa bilmişlər» sözünü dırnaq içinidə yazıb-yazmamaq barədə mühakimə yürüdə bilmirəm).

«İzobretatel i rasionalizator» jurnalında bu xəbər "Pravo na voobrajeniye» rubrikası altında fizika-riyaziyyat elməri doktoru N.Y.Gertsenşteynin müsbət şərhi ilə birlikdə verilmişdir. «Soveskaya Rossiya» qəzetindəki məqalə isə «Dutaya sensatsiya» adlanır və qeyd olunur ki, yalançı elmi təhrifin kimə xeyri var? Jurnalda adları çəkilən müəlliflərin məqalələrinin böyük maraq doğurduğundan danışılır, qəzetdə isə yazılır ki, bu işdən «vətənimizin psixiatriya elmini açıq surətdə nüfuzdan salmaq üçün» istifadə edilmişdir.

SSRİ Nazirlər Soveti nəzdində Ali Attestasiya Komitəsinin Bülletenində (№6, 1982) akademik A.P.Aleksandrovun çıxışında deyilir: «Əgər, tutaq ki, elmlər doktoru kolxoza və ya sovxoza gəlir və maqnitdən istifadə etməyi təklif edir. Bu zaman ona qulaq asırlar, çünki o, məhsuldarlığı artırmağı vəd edir. Mənə elə gəlir ki, bütün bunlar geniş miqyas almışdır və bununla da dövlətə böyuk ziyan verməyə başlayır».

Akademik V.A.Maqnitski isə yazır: «Onun mənası haqqında belə demək olar ki, maqnit sahəsinin torpaqa təsiri məhsuldarlığın artmasına kömək edir («Moskovskiy universitet» qəzeti, 9.04.1984).

D.Sokolov «Moskovskiye novosti» (5.12.1982) qəzetində çap olunmuş «volşebnik na vse ruki» müxbir məqaləsində yazır ki, maqnitin kənd təsərüfatında tətbiqi çox böyük nailiyyətlərlə nəticələnir.

«Sovetskiy Soyuz» (№6, 1984) jurnalında verilmiş «Maqnit vıxodit v pole» məqaləsində qeyd edilir: «Artıq 1983-cü ilin yazıdır. İndi təcrübə – Rusiya federasiyasının, Belorusiyanın, Litvanın, Özbəkistanın 2000 hektar sahəsini əhatə edir. Yenə də kartofun məhsuldarlığının orta artımı əvvəlki kimi 13 faizdir».

«Leninskoye znamya» qəzetinin (27.01.83) müxbirinin sualına cavab verərkən SSRİ EA Biofizika institutunun direktor müavini İ.Q.Akoyev qeyd edir ki, bir çox hallarda, ələlxusus intensivliyi yüksək olduqda, klinikalarda maqnitin tətbiqinin əhəmiyyətindən danışmaq olar. Misal kimi, bir çox sümük zədələrinin, dəri

xəstəliklərinin, – qanın laxtalanması ilə əlaqədar xəstəliklərin müalicəsini göstərmək olar.

BİNTİ – SİTA-nın verdiyi xəbərə görə Amerika alimləri müəyyən etmişlər ki, güclü maqnit seli sahəsi (Yerin təbii geomaqnit sahəsindən 10000 dəfə güclü) rəngli forel balıqlarının artıb törəməsinə çox müsbət təsir göstərir.

«İzvestiya» qəzetinin elmi şərhçisi B.Konovalov «işıqla müalicənin" nəticələrini müzakirə edərək çox düzgün qeyd edir ki, mübahisənin qızğın çağında inandırıcı dəlil-sübutlar tapılmadıqda hadisəyə dərhal yolverilməz şəkildə «yalançı elm» yarlığı yapışdırılır («İzviestiya», 27.03.1983). Təcrübələrsə öyrətməlidir ki, «yalançı elm» termini ilə çox ehtiyatlı davranmaq lazımdır.

Bu problemin müzakirəsi «yalançı elm» mövqeyindən davam etməkdədir (İ.Qamayunovun «Za mirajem» məqaləsi («Lit. qazeta», 26.05.86), İ.Limanovun «Maqiya çernaya i belaya» («Sos. Industriya», 30.05.86), B.Konovalovun «Ekstrasens qlazami fiziki» məqaləsi («İzvestiya», 03.07.86).

Son illərdə mənim həmkarlarım və mən maqnit sahəsinin neftçıxarmanın texnoloji proseslərinə tətbiqi ilə məşğuluq. Geniş sahədə sənaye əhəmiyyətli sınaqlar kifayət qədər yüksək səmərə vermişdir. Lakin maqnit sahəsinin neftin məhsuldarlığının artımına təsirinin fiziki səbəbi, yeni mexanizmi axıra qədər aydın deyil. Bununla əlaqədar, tətbiqi elmlər sahəsində müəyyən mövqeyə malik bir sıra mütəxəssislər meydana çıxdı ki, onlar da maqnit sahəsinin kənd təsərrüfatındakı bəzi mənfi effektlərinə əsaslanaraq, əldə edilmiş real səmərəni inkar etməyə çalışdılar. Əlbəttə, xoşbəxtlikdən, bu «ciddi-cəhdlər» göstərilən səmərəli metodun neft sənayesində geniş tətbiqinə mane ola bilməmişdir, lakin bu «şübhəli problemin» işlənilməsi sahəsinə aspirantların cəlb olunmasına maneçilik törədə bilmişlər.

Mənalı latın kəlamları lüğətindən bir aforizm: "Primum non oncere" (birinci növbədə, ziyan vurmamalı) verilir və bunun V.V.Veresayevin «Zapiski vraça», Soç., t. 1, 560) əsərindən götürüldüyü qeyd olunur. –



B.V.Petrovskinin «Xirurqiçeskie bolezni» (M., Medisina nəşriyyatı, 1980) dərsliyində yazılmışdır: Primum ne noseas (Birinci növbədə şikəst eləmə). L.V.Avdey və P.D.Karnauxun «Oşibki v diaqnostike i leçenii ostrıx zabolevaniy orqanov bryuşnoy polosti v selskix rayonax» (Belorus» nəşriyyatı Minsk„ 1974) kitabında isə yazılır: Primum non nocere – deinde medicare (birinci növbədə zədələməməli, sonra müalicə etməli).

Çox güman ki, aforizm ikinci müəllifdə daha düzgün ifadə olunmuşdur. Bu kəlamlarda eyni məna müxtəlif cür ifadə olunmuşdur. Yenicə öyrənməyə başlayan tələbəyə aydın deyil ki, həkim fəaliyyətə nədən başlamalıdır.

Bəs, milyonlarla oxucu kütləsi neyləsin? Çunki eyni zamanda və müxtəlif dövrlərdə dərc olunmuş bu cür ziddiyyətli məlumatlar həddindən çoxdur. Məlumatın xeyli artması və təbii olaraq bu məlumatların bir-birini təkzib etməsi nətiçəsində təlim-tərbiyədə gənclərin seçib-mənimsəmə qabiliyyətləri ilə əlaqədar olaraq tamamilə başqa vəziyyət yaranmışdır. Bu çür qabiliyyətlər kifayət qədər inkişaf etmədikdə, bizim dövrümüzün adamı özündə mənəvi sərvətlər kateqoriyaları ierarxiyası formalaşdırmaq qabiliyyətindən məhrum olur. Bu xarakter adamın ictiman kamilliyinə təminat verir, onun olmaması isə heç bir biliklə əvəz edilə bilməz

Həddindən artıq oxumaq və ya musiqiyə qulaq asmaq xeyirdən çox ziyan verə bilər.

Oyanma dövrünün görkəmli şairi F.Petrarka xəbərdar edir: «həddindən artıq qida qəbul etmək, insanı aclığın saldığı vəziyyətdən daha ağır dəhşətə düçar etdiyi kimi, həddən artıq oxumaq da beyin üçün olduqca ziyandır».

Düşünmədən kitabları «su kimi içmək» heç bir ləzzət və heç bir xeyir vermədiyi kimi, nə hafizədə, nə də ürəkdə heç bir iz qoymur. Əslində bu düşüncəni yayındırır», hissləri kütləşdirir.

Parkinson yazır ki, «Bizim ümumi yarımsavadlılar əsrimizdə nəşr olunmuş əsərlər seli sahilləri aşmışdır və onun ram edilməsindən başqa heç nə elmin həqiqi tərəqqisinə bu cür kömək edə bilməz».

Filosof Bekonun sözləri bütün dövrlərlə səsləşir: «Elə kitablar var ki, onların ancaq dadına baxmaq, elələri də var ki, onları, ən azı, su kimi içmək lazımdır, nəhayət, bir parasını çeynəyib həzm etməyə dəyər; başqa sözlə, bəzi kitabları ancaq qismən, digərlərini etinasız və nəhayət, bir parçasını başdan-ayağa, həm də diqqətlə oxumaq lazımdır».

Kitab da növ-növdür insanlar kimi,
Bədsifət, acıdil olur bir çoxu.
Qaralır sözləri tikanlar kimi,
Ürəyə sancılır hər sətrin oxu.

...Kitab da vardır ki, hər sətri mismar,
Zorla pərcimlənir beynə, ağıla.
Elə bil donmuşdur onda arzular,
Nə elmə bənzəyir, nə də nağıla.

**(Səməd Vurğun)**



## SON SÖZ

Bütün deyilənləri yekunlaşdıraraq, qeyd etmək istərdim ki, insan – ətraf mühitin partiturasında öz həyatının dirijorudur. Buna görə də o, orkestrlə rəftar etməyi bacarmalı və Malerin yazdığı kimi partituranı yaxşı və hər bir şəraitə uyğun olaraq yenidən oxumalıdır. İnsan öz arzusunu başqalarının arzusu ilə, özünün hərəkətlərinin təsir edə biləcəyi, yaxud təsirinə məruz qaldığı adamların hərəkətləri ilə, öz mənafeyini başqalarının və cəmiyyətin mənafeyi ilə uyğunlaşdırmalı və əlaqələndirməlidir. Estetik inkişafın zirvəsi yalnız bədii yaradıcılıq kamilliyi deyil (şeir yazmaq, rəsm çəkmək olar, eyvah, belələrinin estetik baxımdan nadan olanları da var), eyni zamanda başqalarının daxili aləminə nüfuz etmək qabiliyyətidir.

Həyatda təsdiq olunmuş bir həqiqəti həmişə yadda saxlamaq lazımdır: «İnsan – yer üzünün əşrəfi və bütün sərvətlərin meyarıdır» və «Yer üzündəki bütün gözəlliklər – Günəşin, bütün yaxşılıqlar – İnsanın xidmətidir» (M.M.Prişvin).

«Nəhəng təbiət və cəmiyyət hadisələrinin önündə özünü itirib dayanmamaq üçün yox, həyat kitabını oxumaqdan ötrü məqsədyönlülük və metod lazımdır» (L.N.Tolstoy).

Streslər nəzəriyyəsinin müəllifi H. Selye «həddindən artıq əllaməlik», yəni özünü hər şeyi bilən» kimi göstərməyin təhlükəsindən, hər şeyi görməyə, hər yerə can atmağa çəhd eləmək adətindən çəkinməyi tövsiyə edir.

Çox güman ki, qədim qala bürclərində yazılmış «Özünü dərk etsən – dünyanı da dərk edərsən» kəlamının da əsası var.

Bu kəlam, ancaq bir istiqamətdə hərəkətə yol verən küçəyə bənzəyir.

Biz özümüzü dərk etməklə dünyanı və onda baş verən hadisələri daha dərindən qavrayırıq, lakin bu sahədə biliklərimizi hüdudsuz surətdə genişləndirməklə özümüzü də dərk edə biləcəyimizi deyə bilmərik.

Ola bilsin ki, xarici aləm və daxili dünyamız haqqında biliklərimiz arasındakı qarşılıqlı ahəngdarlığın pozulması distress yaradan səbəblərdən biridir.

Öz-özünü tərbiyə mədəniyyətinin ilk mərhələsi özünüidarəetmə mədəniyyətidir və bu da özünü dərketmədir. Bax, elə insanın və insanlığın tərəqqisi burdan başlayır.

Çox vaxt müxtəlif növ qadağalar münaqişələr üçün səbəb rolu oynayır. Unutmaq olmaz ki, təcrübə (hətta acı təçrübə) daha çox öyrədir, nəinki qadağalar.

[„Exreperientia est optima rerum magistra" (təcrübə—ən yaxşı müəllimdir)[1] Təbiidir ki, bütün hallarda yox.

Tabu (qadağan) hadisənin özündən doğursa, o vaxt onun effekti olur. Əgər qadağan kənardan müdaxilə yolu ilə həyata keçirilirsə, onda, bir qayda olaraq, nəzərdə tutulan məqsədə nail olmaq mümkün olmur.

M.Qandi «Mənim həyatım» kitabında Nişkunandın şeirindən bir misra misal gətirir: İyrənmirsənsə, hər hansı bir şeydən imtina etməyin çox çəkmir.

Məlumdur ki, uşağa nəyisə mütləq qadaqan etmək faydasız şeydir, bunun əvəzində ona nəsə ağlabatan bir iş gördürmək daha yaxşıdır.

Təəssüflər olsun ki, adamlar bəzən bu cür prinsipdən istifadə edirlər: «Bilirəm olmaz, ancaq çox istəyirəm, deməli olar» (Şolom Aleyxem) və yaxud XVI Lüdovikin həyasız tələbini tətbiq edirlər: «Bu qanunidir, çünki mən belə istəyirəm».

L.N.Tolstoy qeyd edir ki, ən adi, lakin böyük müsibətlərə aparıb çıxaran şirnikdirici şeylərdən biri – «hamı necə mən də elə» anlayışına riayət etməkdir.

Qadağan üsullarını tətbiq etdikdə milli xarakterləri nəzərə almaq lazımdır.

Belə ki, İsveçrənin Alp çəmənlərində üzərlərinə «Floranı qoruyun və gülləri qırmayın» sözləri yazılmış taxta lövhəciklər bərkidilmiş dirəklər basdırılmışdır.

Fransız dilində yazılmışdır: «Bu gözəl gül-çiçəklərə baxıb zövq alın, onları üzmək nə üçün?».

[1] Mark Tvenin sərrast müşahidəsinə görə, bir dəfə qızğın soba üstündə oturan pişik heç vaxt nə isti, nə də soyuq sobanın üstündə oturmayacaqdır.



İngilis dilində isə yazılmışdır: «Lütfən, gülləri üzməyin». Almanlar üçün bu artıq xahiş yox, qadağan kimi yazılmışdır: «Gülləri üzməyə icazə verilmir». Bəzi adamlar üçün lövhələrdə gərək belə yazılaydı: «Gülləri üzmək qadağandır. Cərimə...» Budur, yenə bir qadağan elanı: «Yoldaş tələbələr, müəllimlər, əməkdaşlar, M.Əzizbəyəv adına Neft və Kimya institutunun işçiləri və institutun qonaqları.

Yadda saxlayın ki, AzNKİ-nin bütün korpuslarında papiros çəkmək qəti qadağandır.

Bu qaydanı pozanlara qarşı ciddi və təsirli tədbirlər görüləcəkdir».

Öyüd-nəsihətlərdə və rəftar haqqında mülahizələrdə milli xarakterin ifadəsinə aid zərb-məsəllərə diqqət yetirək: Latınca deyilir: festina lente (festina lente) – yavaşça tələs; Azərbaycanda deyirlər: tələsən təndirə düşər; almanlar deyir: tələsmədən, ancaq istirahətsiz və fasiləsiz (Ohne Hast, ohpe rast).

Bu yaxınlarda siçovulları saxarin məhlulunun dadından şərti refleks yolu ilə bilmərrə iyrəndirmək üçün aparılmış maraqlı təçrübənin nəticəsi dərc olunmuşdu. Əvvəlcə siçovullar su əvəzinə saxarin məhlulu içmişlər. Sonra siçovullara xlorlu litium iynəsi vurulmuş və bu onlarda bir aydan artıq davam edən pis əhvali-ruhiyyə oyatmışdır. Bundan sonra adətkarda olmuş siçovulların haram iliyindən götürüb bir qrup başqa siçovullara vurmuşlar. Nəticədə həmin qrup siçovullarda da saxarindən iyrənmə refleksi yaranmışdır.

Ümid edirik ki, «Kimyəvi terapiya» gələcəkdə zəif iradəlilərdə iyrənmə refleksinin yaranmasına kömək edəcəkdir.

Dediklərimiz dənizdə, daha doğrusu toxunduğumuz problemlərə dair məlumat okeanında bir damlaya bənzəyir. Azərbaycanda deyildiyi kimi: «dama-dama göl olar».

Bir latın kəlamında deyilir: « „Gutta cavat lapidem non vi, sed saepe cadendo (qutta kavat lyapidem non vi, sed sene kadendə) – damcı daşı qüvvə ilə yox, tez-tez damcılaması ilə deşir».

«Kiçik su damcıları, xırdaca qum zərrəçikləri – nəhəng Okeanı və gözəl Qurunu yaratmışlar. (Little drops of water, litte

grains of sand make the mightu Ocean and the beantoons Land). Bu kitabı yazmaqda da məqsəd «damcı-damcı» maraq oyatmaq, gəncləri geniş miqyasda dərindən düşünməyə sövq etməkdir.

Müəllif özünü bu sahədə mütəxəssis hesab etməsə də, ancaq yazdığı, daha doğrusu tərtib etdiyi bu kitabı ciddi, lakin xeyirxah oxucunun mühakiməsinə vermək qərarına gəlmişdir. Bu qərara gəlmənin bir səbəbi də kitabda şərh olunanların müəllifi həmişə həyəcana gətirməsi və uzun illər həm ali məktəblərdə, həm də ittifaqın müxtəlif regionlarında, ayrı-ayrı elmi və elmi istehsalat təşkilatlarında oxuduğu mühazirələrdə həmin materiallardan yeri gəldikcə söz salıb, dediklərinin hər şeydən əvvəl heç bir ziyan vermədiyini yəqin etməsidir. Şübhəsiz ki, bu, bir qədər bədbii nəticədir. Mən isə ümidvaram ki, oxucular bu vəsaiti nikbin qiymətləndirəcəklər və «ziyan vermə!» prinsipi, «fəal köməkçi ol!» qaydasına çevriləçəkdir.

Bu prinsipin humanist mənası və qayəsi həm passiv xülyaçılıqdan, həm də həddən artıq fəallıqdan saqındırmalıdır, çünki, hər ikisi özündə təhlükə ehtiva edir.

Onu da qeyd edim ki, bəzi məsələlər çox ötəri şərh olunub, bəzilərindən isə heç bir əsas olmadan yan keçilib. Bununla əlaqədar mənim yadıma Demokritin bir mülahizəsi düşür: «İşin mahiyyəti biliyin kafiliyində yox, dərrakənin kafiliyindədir».

Kitabda «yenilik» tapa bilməyəcək oxuculara Şekspir qəhrəmanlarından birinin zərb-məsələ çevrilmiş bədbin bir qeydini xatırlatmaq istəyirəm: «Yeniliyin olmaması, özü də yaxşı bir yenilikdir» (no news is a good news) Bu onu göstərir ki, indiki vəziyyətdə o, yaxşılaşmağa doğru dəyişiklik gözləmir və odur ki, sabitliyin saxlanmasını faydalı hesab edir.

Bir sənətşünasla söhbət zamanı V.A.Motsartın «Don Juan», P.İ.Çaykovskinin «Qaratoxmaq qadın» və Q.Qarayevin «İldırımlı yollarla» əsərini ciddi və son dərəcə faciəvi nöqteyi-nəzərdən, müqayisə etdim. Sənətşünas dedi ki, V.A. Motsart ilə P.İ.Çaykovski arasında müqayisəni İ.İ.Sollertinski çoxdan aparıbdır. Mən isə ona dedim: «Bəli, mən Amerikanı ikinci dəfə kəşf etmirəm və heç



şübhəsiz ki, Sollertinskini də oxumuşam və bu fikri də özümünkü kimi hesab edirəm, əlbəttə, müəllifliyə iddia etmədən».

L.N.Tolstoy ixtiyar çağlarında, 1901-ci ildə J.J.Russonu oxuyarkən demişdir: «Onun bir çox səhifələri mənə elə doğma gəlir ki, sanki onları elə mən özüm yazmışam».

Paskal həmişə deyərmiş: «Heç vaxt elə düşünməyin ki, hər hansı bir fikir birinci Sizin ağlınıza gəlibdir».

Bu deyilənlər eyni ilə kitabda şərh olunan məsələlərə də aiddir. Müəllif çalışıb ki, mümkün qədər sitatlar gətirsin.

Həm də bu sitatlar bəzi hallarda çox, digər hallarda az olmaqla müəllifin izahatı ilə müşayiət olunur. Müəyyən hallarda bir paraqraf o birisini tamamlayır.

Sitatların bolluğu bir də onunla izah olunur ki, hər hansı müzakirədə öz mülahizəsini təsdiq etmək üçün başqasından yerinə düşən misal gətirmək maraqlıdır, həm də fikrini misal gətirdiyin müəllif məşhur və mötəbər şəxsiyyət olduqda müzakirə daha mənalı olur.

Müəllif ümid edir ki, o, qismən nail olmuşdur: «Çıxış üşün ağıllı sitatlar seçərkən, elə et ki, sənin öz şəxsi fikirlərin onlarla həddindən artıq təzadlı səsləşməsin (N.P.Akimov).

«Böyük şəxsiyyətin fikirlərini izləmək özü maraqlı bir elmdir» (A. S. Puşkin).

Vəsaitdə sitatların çoxluğunu hiss edən oxuculara demək istəyirəm ki, əgər onları götürsək, yerdə təkcə ağ vərəq qalmayacaqdır.

Əcnəbi sözlərin demək olar ki, hamısının tərcüməsi və izahı verilmişdir. Çünki mütalizə zamanı rast gəlinən və mənası tanış olmayan sözlərin izahına baxmaq üçün oxucuların əksəriyyətinin "Xarici sözlər lüğəti" olmaya bilər.

Qədim bir kəlamda deyildiyi kimi, müəllif belə hesab edir ki, oxucu qab deyil ki, doldurasan, o ,daim alovlanması vacib olan bir məşəldir. Əgər, bu qeyri-adi , zahirən sistemli görünməyən vəsait "məşəli alovlandıra" bilmişsə, deməli, müəllif öz məqsədinə tamamilə nail olmuşdur.

Müəllifin taleyi onu elə bir xoşbəxtliyə qovuşdurmuşdur ki, o böyük və görkəmli incəsənət və elm xadimləri – Q.Ə.Qarayev,

M.D.Millionşikov, S.A.Xristianoviç, M.A.Useynov, M.F.Nağıyev, P.A.Rebinder, F.C.Əmirov, Z.İ.Xəlilov və başqaları ilə uzun müddət dostluq və əməkdaşlıq ünsiyyətində olmuşdur.

Bu ünsiyyət kitabda şərh olunan bir çox məziyyətlərin formalaşmasına öz müsbət təsirini göstərmişdir. Bununla müəllif o böyük şəxsiyyətlərin xatirələrinə ehtiramla baş əyir və bu onu kitabda verilən əhatəli məsələlərin məsuliyyətindən heç də azad etmir.

Müəllif üçün gün kimi aydındır: "...məğlubiyyəti qələbədən sən özün fərqləndirməməlisən" (B.Paseternak).

Müasir dövrümüzdə cəmiyyətin aparıcı qüvvəsi – gəncliyin humanist ideyalar ruhunda, hərtərəfli təlim və tərbiyəsinə elm və əxlaq konsepsiyalarının qırılmaz vəhdəti ilə nail olmaq olar.

Lakin biz hələ bu vəhdətin qırılmazlığı səviyyəsinə yüksələ bilməmişik. Bu baxımdan bizim idealımız humanizmin ali formasına yaxınlaşmaq, təkamülün bu uca zirvəsinə yüksəlməkdir. Həmin zirvəyə yüksəliş yalnız elmin imkanı ilə mümkündür. Ümumiyyətlə, elm və əxlaq bəşəriyyətin öz ali məqsədinə doğru marafon yürüşündə bir vasitə, mövcudolma və dərketmə prosesində bir silah, maddi aləmi və özünü dərk etmək üçün özü yaratdığı bir alətdir.

Onu da qeyd edək ki, elm və əxlaqın bəşər çəmiyyəti tarixində bir-birilə ixtilafa düçar olduqları dövrlər az olmamışdır (inqilablar, müharibələr, üsyanlar, günahsız insan qırğınları və s.).

Müəllif, Gəncliyi Böyük həyata səfərbər olmağa çağırarkən, elmin bu yolda bir vasitə yox, bir dünyagörüş, bir aparıcı qüvvə və mənəvi bütövlük timsalı olduğu qənaətindədir. Əxlaqi kateqoriya, mənəvi kamillik olmayan bir cəmiyyətdə elmin inkişafı mümkün deyil, olsa belə onun nəticəsi vəhşilikdir.

Yadınızdadırmı? Hötenin Faustu mənəviyyatsız bir həyata can atırdı. O, şeytana satılaraq Mefistofelin «fəlsəfəsinə» söykənirdi. Bu fəlsəfənin əsası nə idi? Yalan, fırıldaq, hiylə,.. əxlaqsızlıq, bir sözlə mənəvi puçluq. Hər şeyi məhv etmək, hər şeyi kənara atmaq, tapdalamaq, əzmək, uçurmaq, devirmək, öz «məqsədi» yolunda bütün rəzillik və alçaqlıqdan istifadə etmək – budur şeytanın və... Faustun əxlaqi və fəlsəfi kredosu.



Yüksək əxlaqi nurdan işıqlanmayan elm bəşəriyyətə nə verə bilər?

Uzun illər gənclərlə apardığım geniş əhatəli elmi işlər, hərtərəfli söhbətlər, mübahisələr, müsahibələr, onlara auditoriyalarda, istehsalat sahələrində, sənaye obyektlərində oxuduğum mühazirələr mənə haqq verir deyəm ki, bizim gənclik indiyə qədər insanlığın arzuladığı ən ülvi ümidləri yerinə yetirə, doğrulda biləcək böyük potensial imkanlara malikdir. Onu bu yoldakı bütün çətinlikləri dəf etməyə hazırlamaq hamının ən əzəli işi və vəzifəsidir.

Bu kitabı həmin məqsədlə tərtib edən müəllif, müdriklərin ağıl dünyasından seçdiyi sitatları oxucularına əzbərlətmək iddiasında olmayıb, onları öz ağıllarının süzgəçindən süzüb, hər kəlama dərindən və tənqidi yanaşıb, özündə nəcib əxlaqi keyfiyyətlər formalaşdırmaq arzusundadır.

Dalamber yazırdı ki, tənqid ədalətli və xeyirxahdırsa, onu məmnuniyyətlə və hörmətlə qəbul etmək lazımdır. Əgər tənqid, ançaq haqlıdırsa, onu ancaq minnətdarlıqla qəbul etmək lazımdır. Əgər nə haqlı, nə də xeyirxah deyilsə, onda onun yanından ötüb keçmək lazımdır. Belə tənqidə cavab verməyin mənası yoxdur, çünki o buna layiq deyil. Arzu edərdim ki, müəllifin işinə bacarmadıqlarına deyil, bacardıqlarına görə qiymət verilsin.

Dərs vəsaitinin redaktəsinə və rəy verilməsinə böyük əmək sərf etdiklərinə görə müəllif, elmi redaktor Azərbaycan SSR EA-nın akademiki F.K.Köçərliyə, Azərbaycan SSR EA-nın akademiki A.A.Aslanova, Azərbaycan Dövlət Universitetinin professoru A.S.Bayramova və Azərbaycan SSR EA-nın müxbir üzvü F.F.Qasımzadəyə, həmçinin tərcuməçi prof. N.İ. Yaqubova öz sonsuz təşəkkürünü və dərin minnətdarlığını bildirir.

Beləliklə, XX əsrin müqtədir şeir ustası, böyük Nazim Hikmətin saralıb-solmayan möhtəşəm poeziya bağından aşağıdakı qanadlı misralardakı çağırışı bizim hər birimiz nəinki təkcə duyub yadda saxlamalı, həm də ona əməl etməliyik.

Hava qurğuşun kimi ağır.
Bağır,
bağır,
bağır...
bağırıram...
Gəlin, qurğuşun əritməyə çağırıram.
O, deyir ki, mana:
– Sən öz səsinlə kül olarsan, ey!
Kərəm kimi
yana-yana......

***

Mən deyirəm ki, ona:
– Kül olaq,
Kərəm kimi
yana-yana.
Yaxşı, Mən yanmasam,
Sən yanmasan,
Biz yanmasaq,
Necə çıxar
qaran-
lıqlar
aydın-
lığa...

Fikrimi, Puşkin sətirlərini bir azca başqa çür ifadə etməklə qurtarıram:

«Çox şey vəd etmişdim, yerinə yetirə bildimmi, allah bilir?».



## ADLARIN QISA ŞƏRHİ

**Avreli Mark** (121-180) – Antoninlər sülaləsindəndir və 16-ci ildə Roma imperatoru olmuşdur.

**Akimoz N.O.** (1901-1968) – Sovet rejissoru və rəssamı, SSRİ xalq artisti.

**Aleksandrov Pavel Sergeyeviç** (1896) – Sovet riyaziyyatçısı, Sovet Topologiya məktəbinin banisi, SSRİ EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı.

**Anaksaqor Klazomenli** (Kiçik Asiya) (y. e. ə. 500-428) – qədim yunan filosofu. Elementlərin bölünməsi nəzəriyyəsini irəli sürmuşdür sonralar «homeameriya» adlanan bu nəzəriyyəyə görə dünyanın qayda-qanunla hərəkət prinsipi – elementlərin mütəşəkkilliyini təşkil edən ağıldır).

**Anoxin Pyotr Kuzmiç** (1898-1974) – Sovet fizioloqu, SSRİ EA-nın akademiki (1966) və SSRİ TEA-nın akademiki (1945). Neyrofiziologiya sahəsində fundamental əsərləri var. Lenin mükafatı laureatı (1972).

**Antokolski Mark Matveyeviç** (1843-1912) – realist rus heykəltəraşı. Dərin tarixi-psixoloji dəqiqliklə Rusiyanın görkəmli tarixi şəxsiyyətlərinin surətlərini yaratmışdır (I Pyotr, İvan Qroznı, Yermak və s.).

**Apuley** (təx. 124-?) – Qədim Romanın sofist yazıçısı («Metamorfozalar», «Qızıl eşşək» və s. əsərləri var).

**Artsimoviç Viktor Antonoviç** (1840-1893) – rus dövlət xadimi.

**Arxilox** (y. e. o. VII əsrin 2-ci yarısı) – qədim Yunanıstanın lirik şairi, Homer ənənələrinə söykənir. Şeirləri yüksək şövq və kəskin satira ilə süstlənmişdir.

**Asafyev B.V.** (1884-1949) – görkəmli sovet musiqişünası, bəstəkar, SSRİ EA-nın akademiki (1943).

**Axundov Mirzə Fətəli** (1812-1878) – böyük yazıcı-demokrat, maarifpərvər. Yaxın və Orta şərq xalqlarının, ümumən müsəlman

dünyasının ictimai fikrinin inkişafına böyük təsiri olmuşdur. Ölməz komediyaları ilə müsəlman aləmində dramaturgiyanın və teatrın əsasını qoymuşdur.

**Barnard Kristian** (1922) – Cənubi Afrikalı cərrah. İlk dəfə ürəkköçürmə əməliyyatının müəllifi (1967).

**Barro Jan Lui** (1910) – ransız aktyoru və rejissoru.

**Bekoln R.** (1214-1292) – ingilis filosofu və təbiətşünası.

**Berqman İnqmar** (1918) – İsveç kinorejissoru. «Məzhəkə axşamı», «Yeddinci möhür», «Sifət». "üz-üzə" və s.

**Berqson Anri** (1859-1941) – fransız idealist filosofu, intuitivizm və həyat fəlsəfəsi maktəbinin nümayəndəsi. Nobel mükafatı laureatı (1927).

**Bertalanfi Lüdviq Fon** (1901) – Avstriya nəzəriyyəçi-bioloqu, 1919-cu ildən Kanadada yaşayır. Müasir elmdə ilk dəfə ümumiləşdirilmiş sistem anlayışını (sistemlərin umumi nəzəriyyəsi), muxtəlif növ sistemlərin riyazi üsulla ifadəsini işləmiş, müxtəl'f elm sahələrində izomorfizm qanunlarını müəyyənləşdirmişdir (sistemlərin ümumi nəzəriyyəsi, 1968).

**Bertilyon Alfons** (1853-1914) – fransız hüquqşünası, məhkəmə sistemində yeniliklər qaydasının müəllifi.

**Bilrot Teodor** (1829-1895) – alman cərrahı, ümumi cərrahiyyənin əsasını qoyanlardan biri.

**Blonskiy Pavel Petroviç** (1884-1943) – Sovet pedaqoqu, psixoloqu və fəlsəfə tarixçisi. Yaddaşın genetikası nəzəriyyəsinin banisi.

**Byork Edmund** (1729-1797) – ingilis publisisti və filosofu, viqlərin liderlərindən biri. Böyük fransız inqilabına qarşı pamfletlərin müəllifidir.

**Byorne Lüdviq** (1786-1837) – mütərəqqi alman siyasətçisi, publisisti və ədəbiyyat tənqidçisi. Feodal mürtəce milliyyətçilərinə qarşı mübarizə aparmışdır. «Parisdən məktublar» əsərinin və «Mentsel – fransızşünas» pamfletinin müəllifi.



**Byorns Robert** (1759 – 1796) – Şotland şairi. Əməkçi xalqın azadlığını, ülvi məhəbbətini və dostluğunu tərənnüm edən orijinal şeirlərin müəllifi. Şotlandiya xalq şeirlərini və musiqi folklorunu toplayıb nəşr etdirmişdir.

**Bomarşe Pyer Ogüsten** (1732-1799) – fransız dramaturqu. «Sevilya bərbəri», «Fiqaronun evlənməsi» komediyaları ona dünya şöhrəti qazandırmışdır.

**Brext Bertold** (1898-1956) – alman (ADR) yazıçısı rejissoru.

**Bualo Nikola** (1636-1711) – Fransa şairi, klassisizin nəzəriyyəçisi. Bu nəzəriyyənin qayda və qanunlarını «Bədii sənətkarlıq» poemasında (1674) şərh etmişdir.

**Büffon Corc Lui Leklerk** (1707-1788) – fransız təbiətşünası, canlıların həyatını və onların təbii şəraitdə biologiyasını öyrənməklə məşğul olmuşdur.

**Qureviç İsay İzrailoviç** (1912) – Sovet fiziki, SSRİ EA-nın müxbir üzvü (1968). Tədqiqatları nüvə fizikası, nüvə reaktorları nəzəriyyəsi və elementar hissəciklər fizikası sahəsindədir.

**Dalski** (əsl familiyası Neyolov) Mamont Viktoroviç (1865-1918) – rus aktyorudur.

**Dizraeli Bencamin, Lord Bikonsfild** (1804-1881) – mürtəce ingilis siyasi xadimi, yazıçı. Xristianlığı qəbul etmiş, yəhudi ədəbiyyatçı İsaak Dizraelinin oğludur. «Sibilla və ya İki millət» (1845) romanında ağıllı və humanist aristokratiya adı altında sosial ziddiyyətlərin saxta barışığını göstərmişdir. Bu kitab çapdan çıxandan sonra «İki millət» sözü, iki sinfə bölünmüş cəmiyyətə aid edilərək işlədilirdi.

**Doroşeviç Vlas Mixayloviç** (1864-1922) – inqilabdan əvvəlki dövrün jurnalisti. Amfiteatrovla birlikdə Peterburqda təşkil etdikləri «Rossiya» qəzetində, sonralar isə Moskvada «Russkoye slovo» qəzetində işləmişdir. Meşşan dairələrdə onun felyetonları müstəsna müvəffəqiyyət qazanmışdır.

**Emerson Ralf Uoldo** (1803-1882) – idealist Amerika filosofu, publisist və şair.

**Engel Ernst** (1821-1896) – alman iqtisadçısı.

**Enqr Jan Ogüst Dominin** (1789-1867) – fransız rəssamı.

**Erenfest Paul** (1880-1933) – nəzəriyyəçi-fizik.

**Jirodu Jak** (1882-1944) – fransız yazıçısı. Əsərlərində mücərrəd – humanizm mövqeyindən burjua psevdomədəniyyətini mədh etmiş, millətçiliyi və şovinizmi qamçılamışdır.

**İbrahimov M.Ə.** (1911) – Sovet yazıçısı, Azərbaycan xalq yazıçısı, Azərb.SSR EA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı.

**İbsen Henrik** (1828-1906) – məşhur Norveç dramaturqu.

**Valeri Pol** (1871-1945) – Fransa şairi.

**Valter Bruno** (1876-1962) – alman dirijoru.

**Veresayev Viktor Viktoroviç** (1867-1945) – rus sovet yazıçısı.

**Viyon Fransua** (1431 və ya 1432-?) – Fransa şairi. Poemalarında dünyəvi sevinclə ölümün amansızlığını üzvi vəhdətdə vəsf etmişdir.

**Vıqotski Lev Semyonoviç** (1896-1934) – sovet psixoloqu. Ali psixikanın fəaliyyəti, təfəkkür və nitq, incəsənətin psixologiyası sahəsində elmi tədqiqatları ilə məşhurdur.

**Volter** (Əsl adı Mari Fransua Arue) (1694-1778) – fransız yazıçısı və maarifpərvər filosofu.

**Vorovski Vatslav Vatislavoviç** (1871-1923) – Sovet dövlət və partiya xadimi.

**Qandi İndira** (1917-1981). 1966-1977 və 1979-1984-cü – illərdə Hindistanın baş naziri.

**Qandi Mohandas Karamçand** (1869-1948) – Hindistanda milli azadlıq hərəkatının liderlərindən biri və həmin hərəkatın ideoloqu.

**Qarayev Qara Əbülfəz oğlu** (1918-1982) – böyük sovet bəstəkarı, SSRİ xalq artisti. Sosialist Əməyi Qəhrəmanı.

**Qarşin Vsevolod Mixayloviç** (1855-1888) – rus yazıçısı.

Qitri Saşa (1885-1957) – fransız artisti və dramaturqu.

**Qretri Andre Ernest Modest** (1741-1813) – fransız bəstəkarı. Komik operaları geniş yayılmışdır: "lyusil", "Şir ürəkli Riçard" və b.



**Quliyev Qaysın** (1917-1985) – balkar sovet şairi.

**Yunq Karl Qusta** (1875-1961) – İsveçrə psixoloqu, idealist filosof. Analitik psixologiyanın banisi.

**Kamenev S.S.** (1881-1936) – Sovet hərbi xadimi, I ranqlı komandarm.

**Kampanella Tommazo** (1568-1636) – italyan filosofu, şairi, siyasi xadimi, kommunizm utopiyasının yaradıcısı, dominikan. 1598-1599-cu illərdə Kalbridə İspaniya hökmdarına qarşı sui-qəsdə başçılıq etmiş və bunun üstündə tutulub27 il həbsxanada qalmışdır.

**Kassirski İosif Abramoviç** (1898-1971) – sovet terapevti, elmi hemotologiya məktəbinin banisi, TEA-nın akademiki (1963). Əsas əsərləri hemotologiyaya, kardiologiyaya, tropik xəstəliklərinin müalicəsi və s. aiddir.

**Katull Qay Valeri** (y. e. əvvəl 84-cü illərə yaxın – 54-cü illərə yaxın) – Roma şairi. Sevgi lirikası hisslərin səmimiliyi ilə seçilir.

**Kafka F.** (1883-1924) – Avstriya yazıçısı.

**Kiplinq Cozef Redyard** (1865-1936) – ingilis yazıçısı. Mauqli adlı oğlanın vəhşilər arasında həyatından hekayələr, xalq balladaları tərzində şeirlər müəllifidir. Nobel mükafatı laureatıdır (1907).

**Klemanso Jorj** (1841-1929) – 1906-1909 və 1917-1920-ci illərdə Fransanın baş naziri olmuşdur. I dünya müharibəsində qatı millətçilik və şovinizm siyasəti yeridir. Sovet İttifaqı əleyhinə müdaxilənin təşkilatçılarından biri.

**Koday Zalton** (1882-1967) – maçar bəstəkarı, musiqiçisi və folklorçusu.

**Kozma Prutkov** – rus yazıçısı. A.K.Tolstoyun və A.M. və V.M.Jemçujnikov qardaşlarının təxəllüsüdür. Minlərlə aforizmləri mütəfəkkir el sözləri kimi ağızlarda dolaşır.

**Kollontay Aleksandra Mixaylovna** (1872-1952) – Sovet dövlət və partiya xadimi. 1923-cü ildən Norveçdə, 1926-cı ildən Meksikada, 1927-ci ildən yenə də Norveçdə SSRİ-nin siyasi və ticarət nümayəndəsi, 1930-1945-ci illərdə İsveçdə elçi və səfir işləmişdir.

**Komenski Jan Amos** (1592-1670) – böyük çex humanisti, mütəfəkkiri və pedoqoqu, didaktikanın banisidir.

**Kont Ogüst** (1798-1857) – fransız burjua filosofu və sosioloqu, pozitivizmin banisi. Kontun əsas kredosu, fəlsəfənin və nəticə etibarilə nəzəri biliklərin rolunu inkar etmək cəhdidir.

**Konfutsi** (Kun Tszı) (y. e. ə. təxminən 551-479) – qədim Çin mütəfəkkiri.

**Kreq henri edvard Hordon** (1872-1966) – ingilis rejissoru, teatr nəzəriyyəçisi.

**Krjijanovski Qleb Maksimilianoviç** (1872-1959) – Sovet partiya və dövlət xadimi, akademik.

**Küvye Jorj** (1769-1832) – məşhur fransız təbiətşünası, müqayisəli anatomiya, paleontologiya və heyvanat aləminin təsnifatı sahəsində əsərlərin müəllifidir, Paris milli akademiyasının üzvü olmuşdur.

**Geyzenberq Verner Karl** (1901-1976) – alman fiziki, nəzəriyyəçisi, kvant mexanikasının yaradıcılarından biri. 1927-ci ildə qeyri-müəyyənlik prinsipini yaratmaqla, klassik anlayış və təsəvvürlərin mikrohissəciklərə tətbiqinə məhdudiyyət qoydu.

**Ginzburq V.L.** (1916) – sovet fiziki, nəzəriyyəçisi, SSRİ EA-nın akademiki (1966).

**Göydel K.** (1906) alman riyaziyyatçısı.

**Labryuyer Jan de** (1645-1696) – fransız yazıçısı-moralisti. "Bizim əsrin xarakteri və dəbi" (1688) əsərində yuxarı təbəqəni tənqid atəşinə tutmuşdur.

**Laplas P.S.** (1749-1827) – fransız astronomu, riyaziyyatçısı, fiziki, klassik mexaniki determinizmin nümayəndəsi.

**Laroşfuko Fransua de** (1613-1680) – fransız yazıçı moralisti (əsərləri "Xatirat", "Maksimlər" və s.).

**Laue Maks Fon** (1879-1960) – alman fiziki (AFR), SSRİ EA-nın fəxri üzvü idi (1929).

**Linkoln Avraam** (1809-1865) – ABŞ-ın 16-cı prezidenti (1861-1965) quldarlığa qarşı çıxış edən respublikaçılar partiyasının banilərindən biri (1854).

**Linney Karl** (1707-1778) – görkəmli İsveç təbiətşünası, ilk dəfə bitki və heyvanat aləmini sistemləşdirmişdir (növlərin mənşəyi), İsveç EA-nın ilk prezidenti (1739).

**Lixaçov Dmitri Sergeyeviç** (1906) – sovet ədəbiyyatşünası, tekstoloq, SSRİ EA-nın akademiki (1970).

**Lixtenberq Georq Kristof** (1742-1799) – alman satirik yazıçısı, Oyanma dövrünün ədəbi və bədii tənqidçisi, fizika alimi.

**Lyapunov Aleksey Andreyeviç** (1911-1973) – sovet riyaziyyatçısı, SSRİ EA-nın müxbir üzvü, kibernetikanın riyazi məsələləri, riyazi linqvistika sahəsində əsərləri var.

**Lokk Con** (1632-1704) – böyük ingilis filosofu, materialist empirizmin nümayəndəsi. Biliklərimizin yeganə mənbəyinin yalnız bizim hisslərimiz olduğunu qəbul edən sensualist idrak nəzəriyyəsini işləyib hazırlamışdır. Bilik və ideyaların hissi təcrübədən yarandığını qəbul edən F.Bekon və T.Hobbsun əsas prinsipini hərtərəfli əsaslandırmışdır. Pedaqogikada mühitin tərbiyəyə həlledici təsirinə əsaslanmışdır.

**Lonqfello Henri Uodsuort** (1807-1882) – Amerika şairi. Hindu əfsanəsi – "Hayavat haqqında nəğmə" əsasında hindu xalq eposunun qəhrəmanını yaratmışdır.

**Lotman Yuri Mixayloviç** (1922) – sovet ədəbiyyatşünası.

**Luzin Nikolay Nikolayeviç** (1883-1950) – sovet riyaziyyatçısı, funksiyalar nəzəriyyəsi elmi məktəbinin banisi, akademik (1929).

**Maazel Lorin** (1930) – Amerika dirijoru və skripkaçısı.

**Maqnitski V.A.** (1469-1527) – mürtəce italyan siyasi mütəfəkkiri, yazıçısı.

**Makiavelli Nikkolo** (1469-1527) – mürtəce italyan siyasi mütəfəkkiri, yazıçısı.

**Malbranş Hikola** (1638-1715) – fransız idealist filosofu, okkazionalizm (təsadüfilik cərəyanı) nümayəndələrindən biri B.Spinozanın

panteyizm nəzəriyyəsinin əksinə olaraq dünyanın Allahda mövcud olduğunu təsdiq edirdi.

**Mandelştam Leonid İsaakoviç** (1879-1944) – sovet fiziki, SSRİ-də radiofizika sahəsində elmi məktəbin banilərindən biri, akademik (1929).

**Markeviç İqor** (1912) – fransiz dirijoru (Rusiyada anadan olub).

**Meyerhold Vsevolod Emilyeviç** (1874-1940) – sovet rejissoru. SSRİ xalq artisti, 1898-ci ildən Kiçik teatrın artisti. 1920-1938-ci illərdə Moskvada teatra rəhbərlik etmişdir (Meyerhold teatrı).

**Mersye Lui Sebastyan** (1740-1814) – fransiz yazıçısı. Utopik romanı – "2440-cı il", "Paris lövhələri" pyesi və "Teatr haqqında" etik traktatı indi də öz əhəmiyyətini itirməmişdir.

**Meşşerski Vladimir Petroviç** (1839-1914) – kiyaz, 1872-ci ildən nəşr olunmuş mürtəce "Qrajdanin" qəzetinin redaktoru və naçiri. 1903-cü ildə "Dobro" və "Drujeskiye vstreçi" qəzetlərini nəşr etməyə başlamışdır.

**Məmmədova Çövkət** (1897-1982) – məşhur sovet müğənnisi, SSRİ xalq artisti.

**Mirdal Arkadi Beynusoviç** (1911) – sovet fiziki, nəzəriyyəçisi, akademik (1966). Kvant nəzəriyyəsi, atom fizikası, elementar hissəciklər sahəsində çalışır.

**Montyen Mişel de** (1533-1755) – fransız humanist filosofu.

**Menteskyö Şarl Lui** (1689-1755) – fransız maarifçisi, hüquqşünası, filosofu.

**Niyazi Tağızadə-Hacıbəyov** (1912-1984) – bəstəkar, dirijor, SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı.

**Novikov Nikolay İvanoviç** (1744-1818) – rus maarifçisi, yazıçısı, jurnalisti, naşiri.

**Obruçev V.A.** (1863-1956) – sovet geoloqu, coğrafiyaçı, akademik.

**Okkam Uilyam** (1285-1348) – ingilis sxolastik filosofu, məntiqçi və siyasi kilsə xadimi.



**Palmerston Henri Con Templ** (1784-1865) – lord, mürtəcə ingilis dövlət xadimi, 1855-1858-ci illərdə Böyük Britaniyanın baş naziri olmuşdur.

**Pareto Vilfredo** (1848-1923) – italyan iqtisadçısı və sosioloqu, funksionalizmin banilərindən biri. Bütün iqtisadi faktorların, hətta qiymətin də qarşılıqlı asılılığını riyazi yolla əsaslandırmağa cəhd göstərmişdir. Marksizmə və inqilabi hərəkata düşmən idi.

**Petrov Nikolay Nikolayeviç** (1876-1964) – sovet cərrahı, SSRİ-də ankologiyanın əsasını qoyanlardan biri.

**Piaje Jan** (1896) – İsveçrə psixoloqu, genetik epistomologiyanın və intellektin operasional konsepsiyasının banisi.

**Pisarev D.İ.** (1840-1868) – rus publisisti, ədəbiyyat tənqidçisi, inqilabçı demokrat.

**Po Edqar Allan** (1809-1849) – Amerika yazıçısı, romantik tənqidçi. Simvolizmin sələfi.

**Prişvin Mixail Mixailoviç** (1873-1954) – rus sovet yazıçısı.

**Puankare Anri** (1854-1912) – fransız riyaziyyatcısı, fiziki, astronomu, filosofu.

**Pyasson Simeon Deni** (1781-1840) – fransız riyaziyyatcısı, mexaniki, fiziki. Riyazi fizikanın əsasını qoyanlardan biri.

**Ramo Jan Filipp** (1683-1764) – fransız bəstəkarı, orqan çalanı, skripkaçısı.

**Renar Jul** (1864-1910) – fransız yazıçısı, "Gündəlik" müəllifi.

**Rerix Nikolay Konstantinoviç** (1874-1947) – rus rəssamı, arxeoloq, yazıçı.

**Rorşax** (1884-1922) – İsveçrə psixoloqu və psixiatrı. Mürəkkəb ləkələri metodunun müəllifi (1912).

**Selye Hans** (1907) – Kanada patoloqu. Stres konsepsiyasının müəllifi.

**Semaşko N.A.** (1874-1949) – Görkəmli sovet, dövlət və partiya xadimi. Sovet səhiyyəsinin əsasını qoyanlardan biri.

**Sent-Ekzüperi Antuan de** (1900-1944) – fransız yazıçısı, sınaqçı-təyyarəçi. Əsərlərinə fəlsəfilik, lirizm, humanist pafos hakimdir.

**Sergeyev-Senski Sergey Nikolayeviç** (1375-1953) – rus sovet yazıçısı, akademik. Əsərləri: tarixi inqilabi roman-epopeya - "Preobrajeniye Rossii" (12roman). Krım müharibəsi haqqında roman (1853-1856) – "Sevastopolskaya strada" və s.

**Sera Jorj** (1859-1891) – fransız rəssamı. Neoimpressionizmin banisi.

**Sidqi Ruhulla** (1886-1959) – sovet aktyoru, SSRİ xalq artisti.

**Skovoroda Qriqori Savviç** (1722-1794) – Ukrayna filosofu, şairi, pedaqoqu.

**Slutski Yevgeni Yevgenyeviç** (1880-1940) – sovet riyaziyyatçısı. Ehtimal nəzəriyyəsi və riyazi statistikası sahəsində görkəmli işləri var.

**Sollertinski İ.İ.** (1902-1944) – sovet musiqişünası, ədəbiyyatçünası, teatrşünası.

**Stakovski Leopold** (1882-1977) – Amerika dirijoru.

**Stasov V.V.** (1824-1906) – Görkəmli rus ədəbiyyat və musiqi tənqidçisi.

**Tarle Yevgeni Viktoroviç** (1875-1955) – sovet tarixçisi, akademik.

**Teyyar de Şarden** (1881-1955) – fransız paleontoloqu, filosofu və teoloqu.

**Ten İppolit** (1828-1893) – fransız ədəbiyyatşünası, filosof.

**Tyer Adolf** (1797-1877) – fransız dövlət xadimi, tarixçi, Fransanın prezidenti (1871-1873).

**Tolstoy Aleksey Nikolayeviç** (1882-83-1945) – rus sovet yazıçısı, ictimai xadim, akademik.

**Uaythed Alfred Nort** (1861-1947) – ingilis məntiqi-riyaziyyatçısı, filosofu.

**Uiler Con** (1911) – Amerika nəzəriyyəçi-fiziki.

**Uxtomski A.A.** (1875-1942) – sovet fizioloqu, akademik, (1935).



**Uşinski Konstantin Dmitriyeviç** (1821-1871) – böyük rus demokrat-pedoqoqu.

**Feynman Riçard Fillips** (1981-1988) – amerika nəzəriyyəçi-fiziki. Məşhur "Feynmanovskiye leksii po fizike"nin müəllifi.

**Fersman A.Y.** (1883-1945) – sovet geokimyaçısı və mineroloqu, akademik.

**Filipps Uendell Uendell** (1811-1884) – ABŞ-da mütləqiyyət liderlərindən biri, publisist.

**Flerov Georgi Nikolaeviç** (1913) – sovet eksperimentator-fiziki, akademik (1968).

**Fontenel Bernar Le Bovye de** (1657-1757) – fransız yazıçısı, alimi.

**Freyd Ziqmund** (1856-1939) – avstriyalı həkim – psixiatr və psixoloq, psixoanaliz nəzəriyyəsinin banisi.

**Frengel Yakov İliç** (1894-1952) – sovet fiziki.

**Hacıbəyov Üzeyir bəy** (1885-1948) – Azərbaycan peşəkar musiqi sənətinin böyük və müqtədir banisi. SSRİ xalq artisti.

**Hilbert David** (1862-1943) – alman riyaziyyatçısı, Berlin EA-nın müxbir üzvü (1913). Hilbertin elmi tədqiqatlarının müasir riyaziyyatın inkişafına təsiri olduqca böyükdür. 1900-cü ildə Parisdə riyaziyyatçıların II Beynəlxalq konqresində məruzə edərək, 23 həll olunmamış riyazi problem şərh etmişdir. Hilbertə görə riyaziyyat və təbiətşünaslıq üzvi vəhdət təşkil edir və riyaziyyatda həll oluna bilməyəcək problem yoxdur. SSRİ EA-nın fəxri üzvüdür.

**Hobbs Tomas** (1588-1679) – ingilis filosofu, mexaniki-materializm sisteminin banisi. Əsərləri "Leviafan", "Fəlsəfənin əsasları" və s.

**Horasiy Hüqo** (1583-1645) – Hollandiya filosofu.

**Hossen German Henrix** (1810-1958) – alman iqtisadçısı, burjua siyasi iqtisadında riyaziyyat və astronomiya məktəblərinin ilk təşəbbüskarlarından biri. Nəzəriyyənin əlahiddə əhəmiyyətli əsas prinsiplərinə riyazi şərh vermişdir (Hossen qanunları).

**Çesterton Hilbert Kit** (1871-1936) – ingilis yazıçısı.

**Çijevski A.L.** (1897-1964) – sovet bioloqu, heliobiologiyanın banilərindən biri.

**Çyornıy Saşa** (1880-1932) – rus şairi.

**Canalidze Yustin Yulianoviç** (1883-1950) – sovet cərrahı, SSRİ TEA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı.

**Cerom K. Cerom** (1859-1927) – ingilis yumorist-yazıçısı. Şən və iddiasız hekayələr müəllifi kimi məşhurdur.

**Şaqal Mark** (1887-1986) – fransız rəsamı və qrafiki.

**Şamil** (1799-1871) – Dağıstanın və Çeçenistanın 3-cü imamı, Qafqaz dağlılarının rus çarizminə qarşı azadlıq hərəkatının başçısı.

**Şerbina N.F.** (1821-1869) – rus sovet yazıçısı və ədəbiyyatşünası.

**Şmalhauzen İ.İ.** (1884-1963) – sovet bioloqu, akademik.

**Şolom Aleyxem** (1859-1916) – yəhudi yazıçısı.

**Şredinqer Ervin** (1887-1961) – Avstriya fiziki, kvant mexanikasının banilərindəndir.

**Ştraus Rixard** (1864-1949) – alman bəstəkarı və drijoru.



## ƏDƏBİYYAT

1. *Маркс К.*Нищета философии. – М. – Л.: Госиздат, 1920.
2. *Ленин В.И.* ПСС, 5-е изд., т. 18. Материализм и эмпириокритицизм. – М.: Гос. изд-во полит, литературы, 1961.
3. *Аасамаа И.Т.* Как вести себя. – Таллин; «Валгус», 1981.
4. *Авдей Л.В., Карнаух П.Д.* Ошибки в диагностике и лечении острых заболеваний органов брюшной полости в сельских районах. – Минск: «Беларусь», 1974.
5. *Адам Д.* Восприятие, сознание, память (Размышления биолога). – М.: 1983.
6. *Адимар Ж.* Исследование психологии процесса изобретения в области математики. – М.: 1970.
7. *Айзенк Г.* Проверьте свои способности – М.: «Мир», 1979.
8. *Акимов Н.П.* Не только о театре. – М. – Л.: «Искусство», 1966.
9. *Алякринский Б.С.* О таланте и способностях. – М.: 1971.
10. *Альтман М.С.* Греческая мифология. ОГИЗ, Соц. ЭК.ГИЗ, 1980.
11. *Ананьев А.* Напоминание старых истин. – М.: «Современник», 1982.
12. *Анастази А.* Психологическое тестирование, кн., 1 и 2. – М.: «Педагогика», 1982.
13. *Андреев Л.Л.* Место искусства в познании мира. – М.: Политиздат, 1980.
14. *Антология кинизма.* – М.: «Наука», 1984.
15. *Ардов В.* Этюды к портретам. – М.: «Советский писатель», 1983.
16. *Асанова А.А.* «Жан Кристоф» Р. Роллана. – М.: «Высшая школа», 1985.
17. *Ауэрбах Ш.* Генетика, – М.: «Атомиздат», 1967.
18. *Бабанский Ю.К.* Лотошник М.М. Оптимизация педагоги-

ческого процесса (вопросах и ответах). – Киев: «Радянська школа», 1984.

19. *Бабичев П.Т., Боровский Я.М.* Словарь крылатых слов. - М.: «Русский язык», 1982.

20. *Баскаков П.А.* Русские фамилии тюркского происхождения. – М.: «Наука», 1979.

21. *Бачелис Т.* Шекспир и Крэг, – М.: «Наука», 1983.

22. *Бенсахель Д.Б.* Стресс работает на нас. ЭКО 1979, № 9.

23. *Бентли Эрик*. Жизнь драмы. – М.: «Искусство», 1978.

24. *Берлиоз Гектор*. Мемуары. – М.: «Музыка», 1967.

25. *Бешелев С.Д. Гурвич Ф.Г.* Экспертные оценки. – М.; «Наука», 1973.

26. *Бёрне Л.* «Парижские письма». – М: Гослитиздат, 1938.

27. Библиотека великих писателей под ред. С.А. Венгерова. Шекспир, т. III, изд. Брокгауза-Ефрона. – СПб.: 1903.

28. *Бирюков Б.В., Гутчин И.Б.* Машины и творчество. – М. Радиосвязь, 1982.

29. *Бисмарк О.* Мысли и воспоминания. – М : Огиз, 1940, т. I, с. 165.

30. *Блинков С.М. Глезер И.И.* Мозг человека в цифрах и таблицах. – «Медицина», Ленинградское отделение, 1964.

31. *Богат Е.* Диалог с судьбой. – М.: «Соетская Россия», 1974.

32. *Бондарская Г.А.* Рождаемость в СССР. – М.: «Статистика», 1977.

33. *Де Бано Эдвард* Рождение новой идеи.– М.: «Прогресс», 1976.

34. *Бородин П.М.* Этюды о музыкантах. – М: «Знание», 1983.

35. *Брусаловский А.И.* Жизнь до рождения, – М,; «Знание», 1984,

36. *Брюсов В.* Сила русского глагола. – М.: 1973.

37. Будущее науки, вып. 17. – М: «Знание», 1984.

38. *Бялый Г.А. В.М. Гаршин.* – М.: Гос. изд-во худ. лит-ры, 1955.

39. *Васильев К.* Любовь. – М.: «Прогресс» 1982.

40. *Вахтомин И.Х.* Практика – мышление – знание. – М.: «Наука», 1982.



41. Введение в специальность (учебное пособие). Под ред. И. А.Сыченникова. – «Медицина», 1980.

42. *Вейн А.* «Сон – это тоже работа». – «Соц. индустрия», № 191, 30 VI. 1984.

43. *Венецкий И.Г.* Вероятностные методы в демографии. – М.: «Финансы и статистика», 1982.

44. *Волгин Л.Н.* Принцип согласования оптимума. – М.: «Сов. Радио», 1977.

45. *Волчанский А.* Кипение жизни, – «Театральная жизнь», № 14, 1984.

46. *Воробьев Г.* Человек – человек, – М.: «Молодая гвардия», 1979.

47. *ВоровскийВ.В.*Литературно-критическиестатьи. – М,: «Художественная литература», 1956.

48. Вопросы философии, 1983, № 1.

49. Время, жизнь, искусство. – «Молодая гвардия». 1971.

50. *Выготский Л.С.* Собр. соч., тт. 1 – 5. – М.: «Советская педагогика», 1982 – 1984.

51. *Выготский Л.С.* Собр. соч., тт. 1 и 2, 1982; т. 3, 1983; т. 4, 1984. – М.; «Педагогика».

52. Выстрел в сердце революции. – М.: Политиздат, 1983.

53. Газета «Известия», 24 марта 1983 (№ 83).

54. *Гафуров Алим.* Лев и Кипарис—М.: «Наука», 1971.

55. *Гейне Г.* Собр. соч., в 10 тт. – М.: 1957.

56. *Георгиевский А.Б.*Дарвинизм. – М.: «Просвещение», 1935.

57. *Герасименко В.А.* Активность формы физического знания. – Минск: «Наука и техника», 1985.

58. *Гинзбург В.Л.* Как и кто создал теорию относительности. «Вопросы философии», 1974, № 8.

59. *Голдстейн М. Голдстейн И. М.*, «Знание», 1984.

60. *Головин Б.И.* Язык и статистика. – М,: «Просвещение», 1971.

61. *Горбовский А.* Год 2000 и далее – М.: «Знание», 1978.
62. *Горев А. В.* Махатма Ганди. – М.: «Международные отношения», 1984.
63. *Готтсдинкер. Р.* Основы психологичуского эксперимента. – Изд. МГУ, 1982.
64. *Гражданская З.Е.* Бернард Шоу. Очерк жизни и творчества. – М.: «Просвешение», 1979.
65. *Грекова И.* «Вопросы философии», 1979, №6.
66. *Григорьв В.И.* Р.В Холхов. – Изд-во МГУ, 1981.
67. *Гулыга А.В.* Искусство в век науки. – М.: «Наука», 1968.
68. *Гумницкий Г.Н.* Нравственное воспитание: Уель, условия, закономерности этики. – М.: «Знание», 1983.
69. *Гюйо М.* История и критика современных английских учений о нравственности. – СПб.: 1898.
70. *Данте Алигьери.* Божественная комедия. – М.: 1981.
71. *Дельсон В.* Святослав Рихтер. – М.: Гос. муз. изд., 1961.
72. *Добров Г. М.* Наука о науке. – Киев 1970.
73. *Добров Г.М. Коренной А.А.* Наука, информация и управление. – М.: «Советское радио», 1977.
74. *Добрович А.Б.* Общение: наука и искуство, 1980.
75. *Додонов Б.И.* Эмоция как ценность. – М.: 1973.
76. *Дорозинский. Блюзн К.Б.* Одна сердце – две жизни. Пер. с франц. – М.: «Мир», 1969.
77. *Ефимов А.Н.* Информационный взрыв: проблемы реальные и мнимые, – М.; «Наука», 1985.
78. *Жуков Д.* Мы – переводчики. – М.: «Знание», 1975.
79. Журн. «Знание – сила», 1982, № 7.
80. *Забелин И.М.* Физическая география и наука будущего. – М.: Гос. изд-во «Географическая литература», 1963.
81. *Зарипов Л.Х.* Кибернетика и музыка. – М.: «Наука», 1971.
82. «Здоровье мира» (ж-л Всемирной организации здравоохранения), 1984, № 5.

83. «За рубежом» (1177), 21 – 27 января 1983.
84. *Зеленина М.Е.* Зарубежная музыка XX века. – М.: «Книга», 1979.
85. *Зыков С. Кассис С.* Смерть при жизни. – М,: Политиздат, 1978.
86. *Ибраев Л.* Сквозь лики мира. – М.: «Молодая гвардия», 1979.
87. *Иванов К.* Волшебство музыки. – М.: «Молодая гвардия», 1983.
88. *Иванова В.* Эпистолярные диалоги. – М.: «Советский писатель», 1983.
89. *Иванченко В.* «Лечение без лекарств». – «Советская Россия» от 06.04.83, № 79.
90. *Ивнев Р.* У подножья Мтацминды. – М.: «Советский писатель», 1981.
91. Из литературного наследия академика Е.В.Тарле. – М.: «Наука», 1981.
92. *Ирвин Уильям.* Дарвин н Гексли. – М.; «Молодая гвардия, 1973.
93. «Искусство кино», 1973, № 5.
94. История медицины. – М.: «Медицина», 1981.
95. Календарь школьника – 1984. – М.: Политиздат.
96. *Камбон Ж.* Дипломат. ОГИЗ, Гос. издат. полит, лит-ры, 1946.
97. *Кант И.* Сочинения в 6 томах, т. 6. – М,: 1966.
98. *Капица П.Л.* Эксперимент. Теория, Практика. – М.: «Наука», 1981.
99. Нравы и мудрости. – М.: «Детская литература», 1966.
100. *Карнеги Д.* Как приобретать друзей и оказывать влияние на людей. ЭКО, 1978, №№ 4, 5, 6; 1980, №№ 1, 2, 3.
101. *Кюнтер Кароу*, Двойная игра, – М.: Воениздат, 1986.
102. *Касаткин В.Н.* Теория сновидений. – М.: 1967.
103. *Кассиди Ф.Х.* Гераклит. – М.: 1982.
104. *Касти Дж.* Большие системы. Связанность, сложность и катастрофы – М.; «Мир», 1982.

105.*Католин Л.* «Мы были тогда дерзкими парнями», изд. 2-е. – М.:«Знание», 1979.

106. *Кашкин Н.Д.* Избранные статьи о П. И.Чайковском. - М.: Музгиз, 1954.

107.*Кембл Г.* Как правильно пользоваться статистикой, – М.: «Финансы и статистика», 1982.

108. *Киселев В.П.* Нравственное самовоспитание. – М.: «Знание», 1977.

109.*Кнебель М.* Поэзия педагогики. – М.: 1976.

110.*Ковалев А. Г.* Психология личности. – М.: 1965.

111.*Ковалев А.И.* Азбука дипломатии. – М.: «Международные отношения», 1984.

112.*Кодай З.* Избранные статьи. – М.: «Советский композитор», 1982.

113.*Коменский Я.А.* Избранные педагогические сочинения, тт. I, II.

114.*Комиссаров В.* Старые долги. – М.: «Советский писатель», 1983. «Комсомольская правда», 28.08.1983, № 198.

115.*Кон И.С.* Открытие «Я». – М.: 1978.

116. *Кон И.С.* Психология старшеклассников. – М.:«Просвещение», 1980.

117.*Кон И.С.* Дружба. Этико-психологический очерк. – М.: 1980.

118. *Кондаков И.И.* Логический словарь-справочник, – М.: «Наука». 1975.

119.*Кондратов А.И.* Звуки и знаки. – М.: «Знание», 1978.

120. *КоробовВ.* Ближние странствия. – М.: «Молодая гвардия», 1982.

121.*Корсунская В.* Карл Линней. – Л.: Детгиз, 1963.

122. *Коул М,* Скрибнер С. Культура и мышление. – М.: «Прогресс», 1977.

123. *Кремлев Ю.* О месте музыки среди искусств. – М.: «Музыка», 1966.



124.Крылатые слова по толкованию С.Максимова. – М.; Гос. изд-во художественной литературы, 1955.

125.*Крымова И.* Имена. Рассказы о людях театру. – М.: «Искусства», 1971.

126. *Кузнецов Б.Г.* Современная наука и философия. – М.: Политиздат, 1981.

127.*Кузнецова Т.И. Стрельникова И.П.* Ораторское искусство в древнем Риме. – М.: «Наука», 1976.

128. *Кулик И.* Записки консула. – М,: «Советский писатель», 1964.

129.*Куприн А.И.* Собр. соч., т. 5. – М.: «Правда», 1982.

130. *Курбанов Б.* Искусство Азербайджана за рубежом. – Б.:«Ишыг», 1984.

131.*Ламонт К.* Иллюзия бессмертия, изд. 2-е. – М.: Политиздат, 1984.

132.*Левиков А.* Люди дела. – М.: «Советская Россия», 1977.

133.*Лейбниц Г.В.* Сочинения в 4-х томах, т. 3, АН СССР – М.: «Мысль», 1984.

134.«Ленинское знамя», 27 января 1983, № 22 (19142).

135.*Лесс А.* Тито Руффо. Жизнь и творчество. – М.; «Советский композитор», 1983.

136. *Леонгард К.* Акцентирование личности. – Киев: «Выша школа», 1981.

137.*Леонтьев К.* Музыка и цвет. – М.: «Знание», 1961).

138.*Ливанова А.* Ландау. – М.: «Знание», 1983,

139.*Лисицин Ю.П.* Жиляева В.II. Искусство и здоровье. – М.: 1974.

140.*Лисицын Ю.П.* Жиляева Е.II. Союз медицины и искусства. – М.; «Медицина», 1985.

141.*Лист Ф.* Избранные статьи. – М.: Госмузгиз, 1959.

142.Литература и социология (Сб. статей). – М.: «Художественная литература», 1977.

143.«Литературная Россия» 29 января 1983, № 5 (1045).

144.*Лихачев Д.С.* Письма о добром и прекрасном. – М.: «Детская литература», 1985.

145. *Лихтенштейн Е.И.* Помнить о больном. – Киев: «Выща школа», 1978.

146. *Лотман Ю.* Статьи по типологии культуры. – Тарту: 1970.

147. *Лук. А.И.* Мышление и творчество. – М.: Политиздат, 1976.

148. *Лук А.И.* Юмор, остроумние, творчество. – М.: «Искусство», 1977.

149.*Лурия А.Р.* Современная психология. – Изд. МГУ, 1982.

150.Малая Советская Энциклопедия. Акц. общество «Советская энциклопедия», 1930, тт. 2 и 5.

151.*Мамонов А.И.* Пушкин в Японии. – М.: «Наука», 1984.

152.Марксизм и естествознание. – М.: Партиздат, 1933.

153. *Массэ А.* Ислам Оири. Истории. Изд. 3-е. – М.: «Наука», 1982.

154.*Маттисен Ф.О.* Ответственность критики, – М.; «Прогресс», 1972.

155. Медицинская этика и деонтология. – М,; «Медицина», 1983.

156.*Мейлах Б.С.* На рубеже науки и искусства. – Л.: «Наука», 1971.

157.*Мельников Д. Черная Л.* Преступник №I. Нацистский режим и его фюрер. Изд. АПН, 1982,

158.*Мендер А.Э.* От шести вечера до полуночи. – М.: Гос. изд. иностр. лит, 1947.

159.*Мечников И.И.* Этюды о природе человека. – М.: Изд-во АН СССР, 1961,

160.*Мигдал А.Б.О* психологии научного творчества. «Наука и жизнь», 1976, № 2, 3.

161.*Мигдал А.Б.* Поиски истицы. – М.: «Молодая гвардия», 1983.

162.*Мигдал А.Б.* Как рождается физическая теория, – М.: «Педагогика» 1984.

163. *Мильштейн Я.* Константин Николаевич Игумнов. – .М: 1975.

164.Мифологический словарь, 2-е изд. – Л.; Учпедгиз, 1961.



165.Мифы народов мира. Энциклопедия, тт. I, II. Советская энциклопедия, 1980 и 1982.

166. *Михайлов Ф.Т.* Загадка человеческого «Я», – М.: Политиздат, 1976.

167. *Михалков С.В.* Басни. – М,: «Художественная литература», 1984.

168.*Моисеев Н.Н.* Математические задачи системного. анализа, – М.: «Наука», 1981.

169.Молчанов Н. Генерал де Голль. – М.: «Международные отношения», 1980.

170.*Молчанов Н.Н.* Дипломатия Петра Первого. – М.: «Международные отношения», 1984.

171.*Мольер Ж.* Комедии. – М.: «Правда», 1983.

172. *Морозов В.П.* Тайны, вокальной речи. – Л.: «Наука», 1967.

173.*Морозов М.* Шекспир. 1564 – 1616. 2-е изд. – М: «Молодая гвардия», 1956.

174. *Моруа А.* Литературные портреты. – М.: «Прогресс», 1971.

175. *Моруа А.* Надежды и воспоминания. – М.:«Прогресс», 1983.

176.«Музыкальная жизнь», 1984, № 6.

177.«Музыкальная жизнь», 1984, № 19.

178.Мгюнш Ш.Я. – дирижер. – М.: «Музыка», 1982.

179.«Наука и жизнь», 1978, № 4.

180.«Наука и жизнь», 1982, № 2.

181.«Наука и жизнь», 1983, № 3.

182.«Наука в СССР», 1983, № 5.

183.«Неделя», 1983, № 13.

184.«Неделя», 1984, № 25 (18 – 24 июня).

185.Нелинейные волны. Распространение и взаимодействие.

186. Институт прикладной физики АН СССР. – «Наука», 1981.

187. *Нестеренко В.* Что снится малышу? Газ. «Правда», 4.08.1983 (№ 215).

188.*Никифоров А.С.* Эмоции в нашей жизни. Изд. 2-е, – М.: «Советская Россия», 1978.

189. *Николаева Л.А.* Учись быть читателем. – М.: «Просвещение», 1982.

190.*Никольсон Г.* Дипломатия. – М.: изд. ИМО, 1970.

191. *Неверр Ж.Ж.* Письма о танце. – Л. – М.: «Искусство», 1965.

192.Общая психодиагностика. Под ред. А.А.Бодалева, В.В.Столина. – Изд. МГУ, 1987.

193.*Овчинников В.* Корни дуба. – М.: «Мысль», 1980.

194.*Одоевский В.Ф.* Последний квартет Бетховена. «Московский рабочий», 1982.

195.Они играли в шахматы. – М,: «Советская Россия», 1982.

196.Открытия рядом с нами. «Известия», 1961.

197.*Панов Е.И.* Знаки, символы, языки. – М.: «Знание», 1980.

198.*Патури Ф.* Зодчие XXI века, – М.: «Прогресс», 1979.

199.*Патури Ф.* Растения – гениальные инженеры природы. – М.: «Прогресс», 1982.

200.*Пенкин М.* Искусство и наука: проблемы, парадоксы, поиски. – М.: «Современник», 1978.

201.*Пермяков Н.К.* Б.А.Петров. – М.: «Медицина», 1982.

202.*Петренко В.П.* Основные методические проблемы теории медицины. – М.; «Медицина», 1982,

203.*Петрушин В.* Мы и музыка. – «Музыкальная жизнь», 1984, № 10.

204.*Пидоу Д.* Геометрия и искусство. – М: «Мир», 1979.

205.*Пикилис В.* Твои возможности, человек! М.: «Знание», 1974.

206. *Пинчук Л.* Моим детям – вместо завещания. – М.: Политиздат, 1980.

207.*Пирс Дж.* Символы, сигналы, шумы. – М.: «Мир», 1967.

208.*Писаренко В.И. Писаренко И.Я.* Педагогическая этика. – Минск: «Народная асвета», 1977.

209.*Писаржевский О.* Александр Евгеньевич Ферсман. – М.: «Молодая гвардия», 1955.

210.*По Эдгар.* Рассказы. Пер. с англ. – М.: «Художественная литература» 1980.



211.*Подольская И.В.* Словарь русской ономастической терминологии. – «Наука», 1978.

212.*Попов Г.П.* Бирманская литература, – М.: 1967.

213.Пословицы русского народа. (Сборник В.Даля). – М.; Гос. изд-во худ. лит., 1957.

214.*Постников А.Г.* Культура занятий математикой (Из записок ученого). – М.: «Знание», 1975.

215.*Постнов Ю.* Когда театр волнует. – Новосибирск: «Наука», 1968.

216.*Потылико Г.П.* Этико-психологические основы общения. Этика, 1983/1. – М.: «Знание», 1983.

217.Поэзия трубадуров. Поэзия миннезингеров. Поэзия вагантов, – М.: «Художественная литература», 1974.

218.Применение акустических методов исследования в музыковедении. – М.: «Музыка», 1964.

219.*Прицкер Д.П.* Жорж Клемансо. – М.: «Мысль», 1983.

220.*Протопопов Вл., Тумчанина Н.* Оперное творчество Чайковского. – М.: Изд-во АН СССР, 1957.

221.Психологический словарь. – М.: «Педагогика». 1883.

222.Психология личности. Тексты, – Изд. МГУ, 1982.

223.Пути незнакомое. Писатели рассказывают о науке. – М.: «Советский писатель», 1972, 1980.

224. Пути в незнамое. – М.: «Советский писатель», 1969, 1982.

225.*Пятницын Б.И.* Философские проблемы вероятностных статистических методов. – М.: «Наука», 1976.

226.Рабочая книга социолога – М.: «Наука», 1983.

227.*Рагхаеа Р.* Менан. Звуки индийской музыки. Путь к раге. – М.: «Музыка», 1982.

228.*Разумов С А.* Эмоциональный стресс, работоспособность и здоровье. – Л.; Общество «Знание», РСФСР, 1975.

229.*Рахманин О.* Из китайских блокнотов. Изд. 2-е, дополненное. – М,: «Наука», 1984.

230.Ритмы, пространство и время в литературе и искусстве. – Л.; «Наука», 1974.

231.Рождаемость: известное и неизвестное. Вып. 9 — М.: «Финансы и статистика», 1983.

232.*Ротенберг В.С. Аршавский В.В.* Стресс и поисковая активность, «Вопросы философии», 1979, № 4.

233.*Ротенберг В.С. Аршавский В.В.* Поисковая активность и адаптация. – М.: «Наука», 1984.

234.*Роузенталь Ф.* Торжество знания, – М.: «Наука», 1978.

235.*Рувинский Л.И. Соловьев А.Е.* Психология самовоспитания. – М.: «Просвещение», 1982.

236.*Рудницкий К.Л.* Проза и сцена. – М.: «Знание», 1981.

237.*Рузе-Роберт М.* Оппенгеймер и атомная бомба. – М.. Госатомиздат, 1963.

238.*Рупин Б.М.* Тоска по искусствометрии. «Вопросы литературы». 1969, №8

239.*Руссо Ж.Ж.* Трактаты. – М.: 1969.

240.*Саати Т.Л.* Математические модели конфликтных ситуаций. – М.: «Советское радио», 1977.

241.*Саидбаев Т.С.* Ислам и общество. Изд. 2-е, дополненное. – М: «Наука», 1984.

242.Сборник «Стресс и тревоги». – М.: «Физкультура и спорт», 1983.

243.*Семенов Ю.* Мысль, чувствующая, живая, – М.: «Современник», 1972.

244.*Семенов Ю.* ТАСС уполномочен заявить. – М.: «Советская Россия» 1979.

245.*Сергеев-Ценский С.* Избранное. – М.: «Советский писатель», 1966.

246.*Серебряков К.* Уроки жизни. – М.: «Правда», 1977.

247.*Серебрякова Г.* Предшествие. – М.: «Советский писатель», 1966.

248.*Сидоров А.А.* О мастерах зарубежного, русского и советского искусства. – М.: «Советский художник», 1985.

249.*Сименон Ж.И.* И все-таки орешник зеленеет. – М.: «Прогресс», 1975. 1975.

250.*Сименон Ж.Я* думаю, – «Звезда», 1983, №№ 1 и 2. Словарь русского языка, т. II К – О. – М.: «Русский язык», 1982.

251.*Слонимский Ю.* В честь танца. – М.: «Искусство», 1968.

252.*Смирнов И.Н.* Творческое развитие дарвинизма – залог успехов современной биологин. «Вопросы философии», 1984, № 3.

253.*Смолка К.* Правила хорошего тона. – М.: 1980. «Современная драматургия», 1983, № 2.

254.*Сойер У.У.* Прелюдия к математике. – М.: «Просвещение», 1972, с. 17.

255.*Соколов А.А.* Тайны золотого сеченил. «Техника молодежи», 1978, № 5, с. 40 – 43.

256.*Сокольский М.* Слушая время... – М.: «Музыка», 1984.

257.Сокровища душевной красоты. – М.: Политиздат, 1984.

258.*Софинов П.Г.* Очерки истории ВЧК. – М.: Госполитиздат, 1960.

259.*Софокл.* Трагедия. – М.: Изд. худ. лит., 1958.

260.Социология и психология чтения. Труды, т. 15. Гос. ордена Ленина библиотека СССР им. В.И. Ленина. – М.: «Книга», 1970.

261.Справочник личных имен народов РСФСР. – М.: «Сов. ЭнЦИКлопедия», 1965.

262.*Субботин В.* Школа характера. – М.: «Советская Россия», 1979.

263. *Субботин В.* Жизнь поэта. – М.: «Советский писатель», 1984.

264.*Суворов А.В.* Наука побеждать. – М.: 1950.

265.*Суханов А.П.* Информация в жизни человека. – М.: Политиздат, 1983.

266.*Сухомлинский В.А.* Об умственном воспитании, – Киев: «Радянська школа», 1983.

267. *Сухотин А.* Парадоксы науки, – М.: «Молодая гвардия», 1978.

268.*Сухотина-Толстая Т.Л.* Воспоминания. – М.: «Художественная литература», 1980.

269.*Сэндберг К.* Линкольн, – М.: «Молодая гвардия», 1961.

270.*Тарле Е.В.* Талейран. – М. Изд. АН СССР, 1957. «Театральная жизнь», 1984, № 15.

271.Теория литературных стилей. – М.: «Наука», 1977.

272.Тепловидение и его применение в медицине. – М.: «Медицина», 1981.

273.*Тилес Б.* Дирижер в оперном театре. «Музыка», Лен. отд., 1974.

274.Типология и периодизация культуры Возрождения. – М.: «Наука», 1978.

275.*Толстой Л.Н.* В мире мудрых мыслей. – СПб.: 1904 – 1911.

276.*Толстых В.И.* Об интеллигенции и интеллигентности. «Вопросы философии», 1982, № 10.

277.*Трифонов Ю.* Избранные произведения, т. 2. Повести, очерки и статьи, – М.: «Худ. лит-ра», 1978.

278.*Тургенев И.С.* Письма, т. 13, кн. 2. – Л.: 1968.

279.*Уваренко А.Р.* Научная медицинская информация в вопросах и ответах. – Киев: «Здоровье», 1984.

280.*Уемов А.И.* Системный подход и общая теория систем, – М.: «Мысль» 1976.

281.*Урицкая Б.* Ромен Роллан – музыкант. – Л. – М.: «Советский композитор», 1978.

282.*Урсул А.Д.* Проблема информации в современной науке. – М.: «Наука», 1975.

283.*Успенский Л.* Слово о словах . Ты и твое имя. – Лениздат, 1962.

284.*Ушинский К.Д.* Избранные педагогические произведения, т. I. – М: 1953.

285.*ФесуенкоИ.* Бразилия и бразильцы. – М,: «Мысль», 1976.

286.*Фрейд З.* Некоторые типы характера из психоаналитической практики. – М. – Л.: Госиздат, 1923.

287.*Френкель В.Я.* Яков Ильич Френкель. – М. – Л.: «Наука», 1966.

288. *Фролов И.Т.* Перспективы человека. – М.: Политиздат, 1983.

289.*Хайруллаев М.М.* Абу Наср ал Фараби, – М.: «Наука», 1982.

290. *Хорват Ф., Орлик Ю.* Вежливость на каждый день. – М.: 1981.

291.Хрестоматия по возрастной и педагогической психологии. Изд. МГУ, 1982.

292.Хрестоматия по истории психологии. Изд. МГУ. 1980.

293.Хрестоматия по патопсихологии. Изд. МГУ, 1981.

294.*Хундаков Л.* Раздумья врача. – М.: «Советская Россия», 1983.

295.*Чан Зан Тиен.* Рассказы о жизни и деятельности президента Хо Ши Мина. – М.: Изд. иностр. лит., 1958.

296. *Черепанов М.С. И.Г. Чернышевский.* – М; «Мысль», 1977.

297.*Чернышевский Н.Г.* Александр Сергеевич Пушкин. – М.: Изд. худ. лит-ры, 1956.

298.Число и мысль. Вып. 7. – М.: «Знание», 1984.

299. *Чобанов М.И.* Azərbaycan şəxs adları. – Б.: «Маариф», 1981.

300. *Чулаки М.* Вечный хлеб. – Л.: «Советский писатель», 1984.

301.*Швидковский О.А.* Гармония взаимодействия. – М,: Стройиздат, 1984.

302.*Шекспир В.* Избранные произведения. – М.: «Художественная литература», 1953.

303.*Шеннон Р.* Имитационное моделирование систем – искусство и наука. – М.: «Мир», 1978.

304.*Шилейко А. Шилейко Т.* Информация или интуиция. – М.: «Молодая гвардия», 1983.

305.*Шмальгаузен И.И.* Основы дарвинизма. – М.: 1970.
306.Эврика-72. – М.: «Молодая гвардия», 1972.
307.*Эдельман Дж. Маунткасл В.* Разумный мозг. – М.: «Мир», 1981.
308.*Эльштейн Н.В.* Диалог о медицине. – Таллин: «Валгус», 1983.
309.*Эдуард Эррио.* Жизнь Бетховена. – М.: Госмузиздат, 1960.
310.*Эшби У.Р.* Введение в кибернетику, – М.: Изд. иностр. лит., 1980.
311.*Юдин С.С.* Размышления хирурга. – М.: «Медицина», 1968.
312.*Ягодзинский В.Н.* Ритм, ритм, ритм! – М.: «Знание», 1985.
313.*Якубик А.* Истерия. Методология. Теория. Психопатология, – М.; – «Медицина». 1982.



## KİTABDAKILAR:

Ön söz ....................................................................................3
Giriş.........................................................................................7
§ 1. İnsana zəruri olan keyfiyyətlərin minimumu haqqında .......17
§ 2 Daha çox yaradıcı sərbəstlik və təşəbbüskarlıq ..................44
§ 3. İnsana qiymət verməyin mümkünlüyu və çoxmeyarlılıq məsələləri ....................................................................................64
§ 4. Tərbiyə və xarakter haqqında ..............................................75
§ 5. Təsnifat haqqında ..................................................................99
§ 6. "Kiçik"də möcuzə ................................................................110
§ 7. Prosesin karikaturası ............................................................115
§ 8. İnsanın həyat və fəaliyyətində qərar qəbul etmə problemi haqqında ..................................................................................135
§ 9. İradə haqqında......................................................................171
§ 10. Definisiya (sözə, anlayışa və s. tərif verilməsi) ..............175
§ 11. İntellekti qiymətləndirmək olarmı?...................................189
§ 12. Elmin inkişafında incəsənət metodları ............................202
§ 13. Lüğət minimumu haqqında..............................................212
§ 14. Ölçmə və proqnoz...............................................................217
§ 15. Təhsil – hələ həyatın özü deyil .........................................234
§ 16. Qabiliyyət və müdriklik haqqında ....................................249
§ 17. Məntiqilik və məntiqsizlik haqqında.................................255

§ 18. Müəllim və şagird haqqında ........................................ 259
§ 19. İxtisas seçmə və təhsil haqqında bir neçə söz ................ 277
§ 20. Elmin inkişaf qanunları haqqında .................................. 295
§ 21. Psixoloji diaqnostika nə verə bilər? .............................. 299
§ 22.Gələcəyin adamı haqqında .............................................. 316
§ 23. Alma budağından ............................................................ 326
§ 24. Test suallarının mötəbərliyi və doğruluğu ..................... 334
§ 25. Fikir və ideyaların ötürülmə və saxlanma üsulları ........... 339
§ 26.Əsəri bəyənmə qabiliyyətini – zövqü qiymətləndirmək olarmı? ............................................................................. 342
§ 27. Təsnifat haqqında bir neçə söz ........................................ 363
§ 28. Yeni vasitələr və formalar haqqında ................................ 370
§ 29. Kitabı sevin, gərək olmayanı oxumayın .......................... 379
Son söz .................................................................................. 393
Adların qısa şərhi .................................................................. 401
Ədəbiyyat ............................................................................... 413



**Azad Mirzəcanzadə**
*(Azad Xəlil oğlu Mirzəcanzadə)*

**İXTİSASA GİRİŞ**
*Dərs vəsaiti*

Naşir:
**Şahbaz Xuduoğlu**

Nəşriyyat redaktoru:
**Aygün Hüseynova**

Üz qabığının dizaynı və
kompyuter tərtibatı:
**Rahilə Məmmədova**

Korrektor:
**Akif Axundov**

Operator:
**Səbinə Yusubova**

Çapa imzalanmışdır: 06.10.2010
Formatı 60x84 1/16.
Fiziki ç/v 27
Tirajı 500.

**Qiyməti: 9,80 AZN**

**«Qanun» nəşrlər evi**
Bakı, AZ 1102, Tbilisi pros., II Alatava 9.
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az